AZƏRBAYCAN RESPUBLİKASI

DAXİLİ İŞLƏR NAZİRLİYİ

POLİS AKADEMİYASI

Azərbaycan Respublikasının Konstitusiyasında xalq hakimiyyəti konsepsiyası

(monoqrafiya)

Bakı 2021

Elmi redaktorlar:

Polis Akademiyası rəisinin
birinci müavini, polis polkovniki,
hüquq elmləri doktoru, professor,
əməkdar müəllim **Mahir Əhmədov**

Rəyçilər:

Azərbaycan Hüquqşünaslar Konfederasiyasının sədri,
Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini,
hüquq üzrə fəlsəfə doktoru **Əli Hüseynli**

AMEA-nın Hüquq və İnsan Haqları
İnstitutunun Direktor müavini,
hüquq elmləri doktoru, professor **Nazim Cəfərli**

Polis Akademiyasının Elmi tədqiqat və
Nəşriyyat şöbəsinin rəisi, polis polkovniki
Hüquq üzrə fəlsəfə doktoru, dosent **Hikmət Eyvazov**

Müəllif:

"Dövlət və hüquq nəzəriyyəsi" kafedrasının rəisi, polis polkovniki,
Azərbaycan Hüquqşünaslar Konfederasiyasının İdarə Heyyətinin üzvü,
Rusiya Hüquq Elmləri Akademiyasının üzvü, hüquq üzrə fəlsəfə doktoru
,dosent, Əməkdar müəllim **Ceyhun Süleymanov**

Mündəricat

Ön söz_ _

Bölmə I-Xalq hakimiyyəti

Fəsil 1. Xalq hakimiyyəti və xalq suverenliyi

1. Konstitusiya hüququ elmində "Millət","Xalq", "Əhali" və "Hakimiyyət" kateqoriyaları.

2. Xalq hakimiyyəti: anlayışı, əlamətləri və prinsipləri.

3. Suverenlik konsepsiyasının nəzəri və tarixi aspektləri.

4. Azərbaycan Respublikasının Konstitusiya tarixində xalq hakimiyyətinin hüquqi tənzimi.

5. Azərbaycan Respublikasında xalq hakimiyyətinin konstitusiya formaları.

Bölmə II-Dövlət hakimiyyəti

Fəsil 2. Azərbaycan Respublikasında dövlət hakimiyyəti xalq hakimiyyətinin əsas formasıdır

1. Xalq hakimiyyətinin əsas forması kimi dövlət hakimiyyətinin anlayışı, əlamətləri və prinsipləri.

2. Dövlət hakimiyyətinin funksiyaları və hakimiyyətlər bölgüsünün konstitusiya tənzimi.

3. Dövlət hakimiyyəti mexanizminin anlayışı , strukturu və prinsipləri.

4. Demokratiya modellərinin Azərbaycan Respublikasının Konstitusiyasında konvergensiyası.

Bölmə III-Xalq hakimiyyətinin bilavasitə demokratiya formaları.

Fəsil 3. Azərbaycan Respublikasında Referendum.

1. Referendumun anlayışı, növləri və tarixi.
2. Referendum haqqında qanunvericilik.
3. Referenduma təşəbbüs və onun təyin edilməsi hüququ.
4. Referendumun predmeti və düsturu.

Fəsil 4. Azərbaycan Respublikasında seçkilər

1. Seçkilərin anlayışı, növləri, sosial funksiyaları
2. Seçki sisteminin anlayışı, subyektləri və növləri.
3. Seçki hüququ anlayışı, mənbələri və prinsipləri.
4. Seçki prosesinin anlayışı və mərhələləri.
5. Vətəndaşların seçki hüququnun pozulmasından şikayət və seçki hüquqlarının mühafizəsi.

Bölmə IV-Xalq hakimiyyətinin nümayəndəli demokratiya formaları.

Fəsil 5. Azərbaycan Respublikasının dövlət başçısı

1. Dövlət hakimiyyəti sistemində dövlət başçısının yeri və rolu.
2. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri.
3. Azərbaycan Respublikası Prezidenti seçkilərinin hüquqi əsasları.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti.

Fəsil 6. Azərbaycan Respublikasının Milli Məclisi (Parlamenti)

1. Azərbaycan Respublikasının Milli Məclisi ümumxalq nümayəndəli, qanunverici, kollegial orqan kimi.
2. Azərbaycan Respublikası Milli Məclisinin (Parlamentinin) funksiyaları və konstitusiya səlahiyyətləri.

3. Azərbaycan Respublikası Milli Məclisinin strukturu və iş qaydası.

4. Azərbaycan Respublikası Milli Məclisi deputatının hüquqi statusu.

Fəsil 7. Xalq hakimiyyəti sistemində Məhkəmə hakimiyyəti.

1. Demokratik dövlətdə məhkəmə hakimiyyətinin anlayışı, mahiyyəti və funksiyaları.
2. Demokratik dövlətdə məhkəmə hakimiyyətinin təşkili və fəaliyyət prinsipləri.
3. Xalq hakimiyyətinin təmin olunmasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin polu.
4. Azərbaycan Respublikasında müasir məhkəmə hakimiyyətinin formalaşması və inkişaf mərhələləri.

Bölmə V- Yerli özünüidarəetmə .

Fəsil 8. Xalq hakimiyyəti sistemində yerli özünüidarəetmə

1. Xalq hakimiyyətinin yerli demokratiya forması kimi yerli özünüidarəetmənin anlayışı və nəzəri əsasları.
2. Yerli özünüidarəetmənin prinsipləri və funksiyaları.

Fəsil 9. Yerli özünüidarəetmənin bilavasitə demokratiya formaları.

1.Bələdiyyə seçkiləri, yerli rəy sorğusu.

2.Yerli özünüidarənin digər bilavasitə demokratiya formaları.

Fəsil 10. Yerli özünüidarəetmənin nümayəndəli demokratiya forması

1. Yerli özünüidarəetmənin nümayəndəli orqanları.

2. Yerli özünüidarəetmə orqanlarının və vəzifəli şəxslərinin məsuliyyəti, onların fəaliyyətinə nəzarət.

Ön söz

Müasir dilimizdə ən geniş istifadə olunan terminlərdən biri demokratiyadır (xalq hakimiyyəti). Antik dünyada yaranan və 2500 ildən çox tarixi olan demokratiya termini bu gün ictimai həyatın müxtəlif sahələrində istifadə olunan sosial varlıqdır. Hətta cəmiyyətin ictimai, bədii fikrinin və zövqünün formalaşmasında mühüm rol oynayan incəsənət əsərlərinin demokratikliyi barədə yanaşmalara da rast gəlinir. Bu məfhumun semantikasında fikir plüralizminin mövcudluğuna baxmayaraq müasir siyasi leksikonda demokratiya daha çox ümumbəşəri dəyərlər sisteminə əsaslanan ideal ictimai quruluş və ona uyğun dünyagörüşüdür.

Siyasi və hüquqi təlimlər tarixi elminin mülahizələrinə görə qədim və zəngin tarixə malik olan demokratiya termini mütərəqqi inkişaf yolu keçmişdir. Lakin dialektikanın qanunlarına əsasən inkişaf həmişə bir keyfiyyət vəziyyətinin başqası ilə əvəz edilməsi, eyni zamanda inkişafın sonrakı mərhələsində əvvəlki mərhələlərdə meydana gələn müəyyən xüsusiyyətlərin və mexanizmlərin irsən qəbul edilməsini nəzərdə tutur ki, bu da öz növbəsində inkişafın ardıcıllığını və mütərəqqiliyini müəyyən edir. Əks halda, tərəqqi ümumiyyətlə mümkün olmazdı.

Bu kontekstdə demokratiya nəzəriyyəsinin də tarixində keçmişin dialektik inkişafına əsaslanan varislik əlaqəsini müşahidə etmək olar. Belə ki, hər bir tarixi dövrdə yaranan demokratiya nəzəriyyələri özlərindən əvvəl gələn təlimlərə əsaslanır, onlardan istifadə edir, bəzən də tənqid edir. Lakin bütün hallarda bu əlaqə mövcuddur. Bu

müstəvidə bəşər tarixinin müxtəlif dövrlərində yaranan demokratiya modelləri konseptual demokratiya nəzəriyyəsinin məzmununu yeni-yeni mütərəqqi ideyalarla zənginləşdirərək demokratik dövlət quruculuğu yoluna qədəm qoyan və onu inkişaf etdirən ölkələrə əvəzsiz töhfələr vermişdir. Ona görə də demokratiyanın genezisi və tarixi inkişafı, ayrı-ayrı demokratik institutların formalaşması haqqında nəzəri biliklərin öyrənilməsi konstitusiyalı dövlət quruculuğu yolunda inkişaf edən ölkələr üçün mühüm əhəmiyyət kəsb edir.

Dünya təcrübəsi onu göstərir ki, müasir dövrdə demokratik dövlətlərin konstitusiyaları üçün müxtəlif tarixi vaxtlarda yaranan demokratiya modellərinin konvergensiyası xarakterikdir. Lakin Konvergensiya nəzəriyyəsi yalnız hadisələrin mütərəqqi xarakterli keyfiyyətlərinin inteqrasiyasını nəzərdə tutur. Bu mənada vurğulamaq olar ki, demokratiya modellərinin konvergensiyası Azərbaycan Respublikası Konstitusiyasının da prioritet prinsiplərindəndir. Bu prosesin mahiyyətini müəyyən etmək üçün həmin demokratiya modellərini dialektikanın qanunları metodologiyası əsasında öyrənilməsini zəruri hesab edirik.

Bu gün biz böyük fərəh hissi ilə deyə bilərik ki, ölkəmiz demokratik rejimin bərqərar edilməsinin üç fazasını uğurla keçib: milli konsensusa nail olundu, hazırlıq fazası keçildi, demokratik rejim bərqərar edildi. Lakin daha uzağa baxan Azərbaycanın məqsədi konsolidasiyalı demokratiyadır. Bu gün bütün sivil cəmiyyətlərdə olduğu kimi xalq suverenliyinin, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını qarşısına ali məqsəd kimi qoyan Azərbaycan Respublikası ictimai, sosial inkişafa zəmin yaradan konsolidasiyalı demokratik cəmiyyət quruculuğu uğrunda yorulmadan mübarizə aparır. Dövlətimizin həyata keçirdiyi sosial-iqtisadi siyasəti,

dünyanın ən dinamik inkişaf edən ölkəsinə çevrilməsi ölkəmizdə gedən demokratikləşmə strateji xəttinin davamlı və dönməz olduğuna inamı bir daha artırır.

Bölmə İ. Xalq hakimiyyəti

Fəsil 1. Xalq hakimiyyəti və xalq suverenliyi.

§1. Konstitusiya hüququ elmində "xalq", "millət", "əhali" və "hakimiyyət" kateqoriyaları

XX əsrin sonunda Azərbaycan xalqı öz suverenliyini bərpa etdikdən sonra demokratik, hüquqi, konstitusion dövlət quruculuğuna qədəm qoydu və 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi (referendum) yolu ilə dövlətimizin yeni konstitusiyasını qəbul etdi. Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində xalq hakimiyyətinin müasir konsepsiyası müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında öz hüquqi ifadəsini tapdı. Bu konsepsiyaya görə xalq nədir və o millət, əhali kateqoriyalarından nə ilə fərqlənir?

Hesab edirəm ki, bu sualların tədqiqi həm konstitusionalizm nəzəriyyəsi, həm də hüquqi təcrübə üçün böyük əhəmiyyət kəsb edir.

"Xalq hakimiyyəti", "Xalq suverenliyi", "Milli suverenlik", xalqın (millətin) öz müqəddəratını həll etmək hüququ və s. bu kimi anlayışlar həm ümumi, həm də siyasi-hüquqi, eləcə də beynəlxalq hüquq ədəbiyyatlarında geniş istifadə olunan anlayışlardır.

Lakin, bu günədək Azərbaycanın və xarici ölkələrin nəzəri, normativ və empirik hüquq ədəbiyyatlarında "millət", "xalq" və "əhali" kateqoriyalarının birmənalı izahı yoxdur.

Qeyd edilən problemin mürəkkəbləşməsi həm də onunla bağlıdır ki, müasir dövrədək beynəlxalq birlik tərəfindən bu kateqoriyaların vahid definisiyası qəbul edilməmişdir.

Bir çox hallarda inkişaf etmiş xarici demokratik ölkələrin konstitusiyalarında, o cümlədən beynəlxalq hüquqi aktlarda "millət" və "xalq" kateqoriyaları faktiki olaraq eyniləşdirilir.

Azərbaycan Respublikasının Konstitusiyasında isə hər üç anlayışdan fərqli mənalarda istifadə olunur. Əks halda, bu kateqoriyaların eyniləşdirilməsi hüquqi texnikanın tələb və prinsiplərinin pozulması kimi qiymətləndirilə bilərdi. Belə ki, qanunvericilikdə müxtəlif terminlər bir anlayışı ifadə edə bilməz və yaxud bir termin müxtəlif mənalarda ifadə oluna bilməz.

Nəzərə alsaq ki, konstitusiya qanunvericilik sisteminin normativ, terminoloji bazasıdır, əsas qanunda öz ifadəsini tapan "xalq", "millət" və "əhali" kateqoriyalarının müqayisəli təhlili nəinki hüquq elmi, o cümlədən hüquqyaradıcılığı və hüquq tətbiq etmə praktikası üçün də çox önəmlidir.

Bəzən elmi-nəzəri ədəbiyyatlarda müxtəlif sözlər eyni məna verir və əksinə bir söz bir neçə fərqli anlayışları bildirir. Müxtəlif dillərdə eyni mənşəli olan oxşar sözlərə nəzər yetirsək anlayışlar arasında olan qarışıqlığın daha da mürəkkəbləşməsini aşkar edirik. O cümlədən, latın köklü "natio" sözü (tərcümədə-millət), bir çox dillərdə fərqli mənalar verir, bəzən də xalq anlayışı ilə eyniləşdirilir.

Etnoqrafik ədəbiyyatlarda bu mövzu ilə bağlı mübahisəli diskussiyalar XIX ərdən başlayaraq bu günədək davam edir.

Uzun illər ərzində millət anlayışı yunanca "etnos" sözünün sinonimi kimi qəbul edilirdi. Lakin, yeni dövrdə Qərbi Avropa mədəniyyətinin inkişafının bəzi

xüsusiyyətlərinə görə bu anlayış bir hökmdarın təbəələri, bir respublikanın vətəndaşlarının məcmusu kimi səslənməyə başlamışdır.

Sonralar bu terminin mənası Qərbdə öz təkamülünü davam etdirərək öz elmi izahı üçün iki ənənəni-şərq ənənəsi və qərb ənənəsini yaratmış oldu.

Qərb ənənəsində tarixi fenomen kimi millətlərin meydana gəlməsi milli dövlətlərin, həmçinin kapitalist münasibətlərinin və burjuaziyanın formalaşması ilə əlaqəlidir. Bu ənənəyə uyğun olaraq insanların xüsusi bir kollektivi kimi "millət"-təbəələrin, dövlət vətəndaşlarının tarixən bərqərar olmuş siyasi etnik birliyi və ya məcmusudur. Göründüyü kimi burada insanın milliyyəti onun etnik deyil, dövlət-hüquqi mənsubiyyəti ilə müəyyən edilir.

Beləliklə, "qərb" ənənəsinin müddəalarına görə "millət" "siyasi-hüquqi", demək olar ki, "vətəndaşlıq" anlayışı ilə eyniləşdirilən təzahürdür. Buna görə də məhz bu mənada "millət" kateqoriyasının ingilis-sakson hüquq sistemindən beynəlxalq hüquq sisteminə keçməsi faktı təəccüb doğurmur. Biz BMT haqqında danışarkən millət-dövlətlər nəzərdə tuturuq. Bir sıra, əsasən də Qərbi Avropa dövlətlərinin konstitusiya qanunvericiliyi məhz bu mövqedən çıxış edir (Fransa, İngiltərə və s.).

"Şərq" ənənəsinə uyğun olaraq millət anlayışı etnos anlayışı ilə sinonim təşkil edir. Millət (və yaxud etnomillət)-əsas milli maraqları qəbul edən və yad etnik qrupları özünə daxil edə bilən etnosdur (bu ənənə Almaniya, Şərqi Avropa, Asiyada daha geniş yayılmışdır). Fikrimizcə, bu mövqe Azərbaycanda ictimai həyatın təhlili üçün daha yararlıdır. Bu ənənəyə uyğun olaraq insanın milli mənsubiyyəti bu və ya digər dövlətin vətəndaşlığı ilə deyil, onun etnik və ümummilli elementlərindən ibarət olan şüuru ilə müəyyən edilir.

Zənnimcə, “millət” kateqoriyasının ölkə vətəndaşlarının toplumu kimi xarakterizə edilməsi və şərq ənənəsinin mülahizələrinin tamamilə inkarı qərb ənənəsinin natamamlığı və çatışmayan cəhəti kimi qəbul edilməlidir. Digər bir tərəfdən “millət” və “etnos” anlayışlarının eyniləşdirilməsinə dair “şərq” ənənəsinin mülahizələrini də qəbul etmək tam düzgün hesab oluna bilməz. Belə ki, etnosdan fərqli olaraq millət daha geniş anlayışdır, daha sonralar yaranmış və daha mürəkkəb təzahürdür.

Bir çox tədqiqatçıların fikrincə “millət” və “etnos” anlayışlarının fərqli mənşəyi var. Etnosun əlamətlərinə dil, adətlər, ənənələr, incəsənət, ayinlər, davranış normaları, vərdişlər, yəni nəsildən nəslə ötürülən və etnik mədəniyyəti yaradan komponentlər aiddir. Əgər etnos üçün mədəni nümunələrin sabitliyi və təkrarlanması səciyyəvidirsə, millət üçün yeni və ənənəvi elementlərin birləşməsi vasitəsilə özünüdərketmə prosesi vacibdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda hazırlanan Azərbaycan dilinin izahlı lüğətində göstərilir ki, millət-insanların tarixən dil, ərazi, iqtisadi həyat və psixika ümumiliyi əsasında təşəkkül tapan və milli xarakterin, mədəniyyətin özünəməxsusluğunda təzahür edən sabit birliyidir(44,s.368).

Bir neçə fərqli mənada “millət” anlayışı AMEA Fəlsəfə və siyasi-hüquqi tədqiqatlar İnstitutunda hazırlanan “Politologiya: Ensiklopedik lüğət”də izah olunur. Burada qeyd olunur ki, ABŞ-da millət ümumi milli şüur ilə birləşən insanların toplumu deyil, bu ölkənin bütün vətəndaşlarını əhatə edir. Alman xalqı ifadəsi Almaniyanın vətəndaşları olan almanları, danimarkalıları, polşalıları əhatə edir, digər ölkədə yaşayan almanlara aid edilmir (52,s.394). Burada həm də qeyd olunur ki, Azərbaycanda millətin formalaşması qismən Şərqi Avropa modelinə və yaxud alman yanaşma tərzinə uyğundur. Burada Şərqi Avropa modelində olduğu

kimi millətin özünəməxsusluğu əsas götürülür. Bu özünəməxsusluq millətin vərdişlərində, tarixi ənənələrində, məişətində əks olunurdu.

Yuxarıda adı çəkilən mənbədə deyilir ki, əgər millət öz mövcudluğu, varlığı, müstəqilliyi üçün siyasi təsisatlar yaradırsa, bu onun "siyasi millət" səviyyəsinə çatmasına dəlalət edir, milli dövləti-etnik millətdən siyasi millətə doğru keçid kimi saymaq olar.

Qərbi Avropa ölkələrinin konstitusiyalarından və universal beynəlxalq hüquqi aktlardan fərqli olaraq Azərbaycan Respublikasının Konstitusiyası "Xalq" və "Millət" kateqoriyalarını fərqləndirir. Belə ki, Əsas Qanunun 1-ci maddəsinin 2-ci hissəsində qeyd olunur ki, Azərbaycan xalqı Azərbaycan Respublikasının ərazisində və ondan kənarda yaşayan Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir. Bu definitiv normanın interpretasiyası əsasında belə nəticəyə gəlmək olar ki, Azərbaycan xalqı termini-irqindən, cinsindən, milliyyətindən və harada yaşamasından asılı olmayaraq bütün Azərbaycan Respublikası vətəndaşlarını ehtiva edir. Konstitusiya hüququ doktrinasında xalq kateqoriyası həm də dar mənada istifadə olunur. Bu zaman "xalq" "Azərbaycan elektoratı" anlayışı ilə sinonim təşkil edir.

"Millət" termini dövlətimizin ana qanununda ümumi deyil, konkret mənada ifadə olunur. Azərbaycan Respublikası Konstitusiyasının "Milli mənsubiyyət hüququ" adlı 44-cü maddəsində göstərilir ki, hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır, heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz. Bu cür normanın Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunması müasir demokratiyanın bir təzahürü kimi qiymətləndirilə bilər. Digər tərəfdən qarşılıqlı əlaqədə olan, lakin eyni hesab edilməyən "millət" və milli mənsubiyyət

(milliyyət) anlayışlarını da fərqləndirmək lazımdır. Etnik birliyi ifadə edən milliyyət (milli mənsubiyyət) millət faktorlarından yalnız birini təşkil edir. Buna görə bu anlayış "millət" anlayışından daha dar mənaya malikdir.

Azərbaycan müxtəlif etnosları birləşdirən bir məkan, onların tarixi vətənidir. Belə bir normanın dövlətin əsas qanunu səviyyəsində qəbulu Azərbaycan xalqının yüksək demokratik düşüncəsini, tolerantlığını göstərir. Bu cür normaya demokratiya yolunda inkişaf edən bəzi Avropa dövlətlərinin, ABŞ və digər ölkələrin konstitusiyalarında, hətta beynəlxalq hüquqi aktlarda bu günədək rast gəlinmir.

Xalq hakimiyyəti və xalq suverenliyi kontekstində digər aktual problemlərdən biri də "xalq" və "əhali" terminlərinin nisbətidir.

"Əhali" kateqoriyasına Azərbaycan Respublikasının Konstitusiyasında, Azərbaycan Respublikası Seçki Məcəlləsində, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının qanununda və digər hüquqi aktlarda rast gəlmək olar.

Demoqrafiya elminə görə "əhali" yer kürəsində və ya dünyanın konkret hansısa hissəsində (qitə, ölkə, region və s.) yaşayan insanların məcmusudur. Təqribən oxşar mənada demostatistika elmi də "əhali" anlayışını izah edir .

Hüquqşünaslıqda isə "əhali" hər şeydən əvvəl beynəlxalq hüquqi kateqoriya kimi qəbul edilir. Lakin, beynəlxalq hüquqda bu terminin definisiyası hələ də formalaşmayıb. Bu sualın cavabı beynəlxalq hüquqi doktrinada açıqlanır. Məsələn, professor L.H.Hüseynov qeyd edir ki, əhali dedikdə bu və ya digər dövlətin yursidiksiyasına tabe olan fərdlərin məcmusu başa düşülür. Dövlətin əhalisi həmin dövlətin vətəndaşlarından, əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən ibarətdir (51,s.88).

Təxminən buna oxşar mənada professor H.T.Blatova tərəfindən əhaliyə aşağıdakı kimi tərif verilir: "... əhali müəyyən dövlətin ərazisində yaşayan və həmin dövlətin yurisdiksiyası altında olan insanların toplusudur. Əhaliyə aiddir: Həmin dövlətin vətəndaşları; Əcnəbilər; İkili vətəndaşlığı olan şəxslər (bipatridlər); Vətəndaşlığı olmayan şəxslər (apatridlər)" (99).

Yuxarıda deyilənləri nəzərə alaraq fərdlərin ölkə ərazisində yaşaması və həmin dövlətin yurisdiksiyasına tabe olması beynəlxalq hüquqi doktrinaya görə əhalinin əsas əlamətləri kimi xarakterizə oluna bilər. Bu kontekstdə dövlətin əhalisi anlayışına ölkə ərazisində yaşayan həmin dövlətin vətəndaşları, müvəqqəti və yaxud daimi yaşayan əcnəbilər, apatridlər, bipatridlər, qaçqınlar, məcburi köçkünlər daxildir. Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, ölkədə müvəqqəti olan əcnəbilər, apatridlər, xaricdə daimi yaşayan ölkə vətəndaşları, o cümlədən diplomatik imtiyazlardan istifadə edən şəxslər ölkə əhalisinin tərkibinə daxil deyildir. Belə ki, bu kateqoriyaya aid olan şəxslər həmin dövlətin ərazisində yaşamır, yaxud onun yurisdiksiyasına tabe deyildir.

Hesab edirəm ki, "əhali" anlayışına dair beynəlxalq hüquqi doktrinanın yuxarıda qeyd olunan mülahizələri Azərbaycan Respublikasının Konstitusiyası üçün məqbul sayıla bilməz. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin üçüncü hissəsində qeyd olunur ki, Azərbaycanın dövlət sərhədləri yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə dəyişdirilə bilər.

Lakin Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikası Seçki Məcəlləsinin müvafiq normalarına görə respublikamızın ərazisində daimi və yaxud müvəqqəti yaşayan əcnəbilər referendumda iştirak edə

bilməzlər. Digər tərəfdən ölkə ərazisindən kənarda daimi və yaxud müvəqqəti yaşayan azərbaycan vətəndaşları həmin xarici dövlətlərin ərazisində yerləşən azərbaycanın diplomatik nümayəndəliklərində təşkil olunmuş seçki məntəqələrində səs verirlər.

Yuxarıda deyilənləri nəzərə alaraq Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin üçüncü hissəsinin aşağıdakı redaksiyada verilməsini məqsədəuyğun hesab edirəm: "Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə referendum (ümumxalq səsverməsi) keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər".

Xalq hakimiyyəti sistemində əsas struktur elementlərdən biri də hakimiyyət kateqoriyasıdır. Hüquqi və digər ictimai-siyasi ədəbiyyatlarda hakimiyyət termini əksər hallarda müxtəlif söz birləşmələrində işlənir: siyasi hakimiyyət, iqtisadi hakimiyyət, informasiya hakimiyyəti, dövlət hakimiyyəti və s.

Hüquq ədəbiyyatlarında əsasən hakimiyyətin üç formasından bəhs olunur:

1) İctimai hakimiyyət-cəmiyyətlə üst-üstə düşən, bütün cəmiyyətə məxsus olan, cəmiyyətin özü tərəfindən heç bir xüsusi aparat yaratmadan həyata keçirilən hakimiyyətdir. Belə hakimiyyət dövlət yaranmazdan əvvəl cəmiyyətin inkişafının ibtidai pilləsi üçün səciyyəvi olmuşdur;

2) Xüsusi kütləvi hakimiyyət-siyasi hakimiyyətdir, həyata keçirilməsi üçün xüsusi olaraq yaradılmış peşəkar hakimiyyət aparatını tələb edən hakimiyyətdir;

3) Ümumxalq hakimiyyəti. Belə hakimiyyət adətən referendum zamanı xalqın suveren iradəsi ilə

konstitusiyalaşır və siyasi-hüquqi xarakter əldə edir. Burada hakimiyyətin həyata keçirilməsinin təşkilati-hüquqi formalarını və orqanlarını xalq özü müəyyən edir.

Yuxarıda göstərilən hakimiyyət formalarının mahiyyətinin və məzmununun düzgün dərk olunması hakimiyyət kateqoriyasının daha geniş təhlilini tələb edir. İctimai-siyasi və hüquq ədəbiyyatlarında hakimiyyət kateqoriyasının anlayışına dair fikir müxtəlifliyinə rast gəlmək olar.

Müasir ingilis-amerikan politoloji məktəbin nümayəndəsi H.Morgentau yazır ki, "hakimiyyət dedikdə, insanın başqa insanların şüuru və hərəkətləri üzərində nəzarət etməsi başa düşülür". Həmin məktəbin digər nümayəndəsi P.Blaunun fikrincə, hakimiyyət bir fərdin, yaxud qrupun başqaları üzərində öz iradəsini həyata keçirməsidir. M.Veber isə yazır ki, "hakimiyyət başqa əqidələrlə mübarizədə, belə bir imkanın nəyə əsaslanmasından asılı olmayaraq, şəxsin iradəsini yeritmək üçün hər hansı bir imkan deməkdir" (69, s. 86,87).

Böyük Sovet Ensiklopediyasında hakimiyyət-öz iradəsinə tabe etmək, başqalarının hərəkətlərini idarə etmək, yaxud onlara sərəncam vermək imkanları kimi izah olunur (104, s.640).

Hüquq ədəbiyyatlarında hakimiyyət kateqoriyasının izahı əksər hallarda iradə və məcburetmə terminləri ilə əlaqələndirilir. Məsələn, dövlət və hüquq nəzəriyyəsi dərsliyində qeyd olunur ki, sosial hakimiyyət bu və yaxud digər sosial birliyin (qəbilə, qrup, sinif, xalq) məcburetmə də daxil olmaqla müxtəlif metodlardan istifadə etməklə digər insanların iradəsini öz iradəsinə tabe etmək qabiliyyətidir (96, s.29).

Professor B.A.Straşunun redaktorluğu ilə hazırlanan "Xarici ölkələrin Konstitusiya hüququ" dərsliyində qeyd olunur ki, hakimiyyət bir (hakim) insan və ya onların

qruplarının öz iradələrinin digər, tabe vəziyyətdə olan insan və ya qrupları tərəfindən həyata keçirilməsinə nail olmaq qabiliyyətidir (90, s.206).

Rusiya Federasiyasının Konstitusiya hüququ dərsliyində isə göstərilir ki, hakimiyyət insan cəmiyyətinin yaranması ilə yaranır və bütün bəşər cəmiyyətlərində mövcuddur. Belə ki, hər bir bəşər cəmiyyəti məcbuertmə də daxil olmaqla müxtəlif vasitələrlə idarəetmə ilə təmin olunur (89, s.85).

Hüquq və digər ictimai-siyasi ədəbiyyatlarda müəyyən olunan hakimiyyət anlayışının təhlili əsasında bu təzahürün aşağıdakı əsas əlamətlərini fərqləndirmək olar:

1. Hakimiyyət sosial hadisədir. Hakimiyyət insan cəmiyyətinin yaranması ilə meydana gəlir və bütün bəşər cəmiyyətlərində mövcuddur. Hakimiyyət cəmiyyətin tarixi inkişafının bütün mərhələlərində onun əsas tərkib elementi kimi çıxış etmişdir. Bu onunla izah olunur ki, cəmiyyət mürəkkəb sosial orqanizm kimi idarəetmə ilə təmin olunur. Cəmiyyətin idarəetməyə olan tələbatı burada hakimiyyətin mövcudluğunu şərtləndirir.

Hakimiyyət cəmiyyətin birliyini, sosial idarəetməni, ictimai qaydanı, bir sözlə cəmiyyətin mövcudluğunu təmin edir. Hakimiyyətin təsiri ilə ictimai münasibətlər məqsədyönlü, nizamlı, mütəşəkkil xarakter alır.

Hesab edirik ki, bəzi nəzəri ədəbiyyatlarda qeyd olunan "sosial hakimiyyət ifadəsi düzgün sayıla bilməz. Belə ki, hakimiyyət yalnız fərdlər və onların yaratdığı kollektivlər arasında münasibətləri ehtiva edir. İnsanın cism və təbiət hadisələrinə olan münasibətləri hakimiyyət xarakterli ola bilməz.

2. Hakimiyyətin həyata keçirilməsi bütün hallarda intellektual-iradəvi prosesdir. Hakimiyyət insanlar arasında iradəvi münasibətlərdir və insanların şüur və iradəsindən kənarda mövcud ola bilməz. İradə hakimiyyətin əsas

elementidir və onu nəzərə almadan hakimiyyət münasibətlərinin mahiyyətini anlamaq qeyri mümkündür. Bu münasibətlərdə hakim və ona tabe olan iradələr fərqləndirilir. Hakimiyyət münasibətlərində hakim iradənin subyekti aşağıdakı cəhətlərə malik olmalıdır:

- Hakimiyyət subyekti olmaq və öz üzərinə məsuliyyət götürmək istəyi;

- Müəyyən biliyə, peşəkarlığa, nüfuza malik olmaq və hakimiyyət resurslarından istifadə etmək bacarığı.

Hakim iradəyə tabe olan şəxs, onun əmr və göstərişlərini qəbul edib icra etməzdən öncə, onları şüurundan keçirərək hakim iradənin istəyini dərk etməlidir. Bu səbəbdən şüur və iradəsi deformasiya olunmuş şəxslər hakimiyyət münasibətlərinin subyekti ola bilməzlər.

3. Hakimiyyət yalnız ictimai münasibətlər çərçivəsində mövcud ola bilər və bu münasibətlərin iki tərəfi fərqləndirilir. Bu münasibətlərdə bir tərəfdən hakim iradəyə malik olan subyekt, ikinci tərəfdə isə həmin iradəyə tabe subyekt çıxış edir. Ümumsosial nöqteyi nəzərdən onların hər ikisi şüur və iradəyə malik olan subyektlərdir, yəni hakimiyyət münasibətlərinin iştirakçılardır. Lakin, konkret münasibətlərdə tabe vəziyyətdə olan subyekt həmin münasibətin obyekti qismində çıxış edir.

İngilis politoloqu C.Tompson yazır ki, hakimiyyətdən o zaman danışmaq olar ki, orada ağalıq və tabelik ünsürləri dəqiq təzahür etsin, cəmiyyətin qəbul etdiyi normalar və qanunlarla hər iki tərəfin davranışı şərtləndirilmiş olsun. Həmin normalar və qanunlar müəyyən edirlər ki, əmri verən şəxsin əmrin aid olduğu şəxsdən tabe olmağı tələb etmək hüququ vardır (69,s.86,87).

Yuxarıda qeyd olunan hakimiyyət anlayışının üstün cəhəti ondadır ki, C.Tompson hakimiyyəti hüquq və digər sosial normalarla əlaqəli şəkildə izah edir və hakimiyyət münasibətlərində hakim və tabe tərəfləri fərqləndirir.

C.Tompsonun verdiyi anlayışdan belə bir nəticə çıxarmaq olar ki, hakimiyyət-hakim subyekt tərəfindən tabe subyekt (obyekt) üçün əhəmiyyətli və məcburi olan qərarlar, əmrlər vermək, bu qərarların icrasını tələb etmək və obyektin fəaliyyətinə nəzarət etmək qabiliyyəti kimi başa düşülür. Bu kontekstdə hakimiyyətin obyekti fərdlər və onların yaratdığı birliklər, siniflər, cəmiyyət, dövlət və s. ola bilər.

4. Hakimiyyətin digər əlaməti onun gücə əsaslanmasıdır. Hakimiyyətin gücü müxtəlif təbiətli ola bilər: fiziki güc, silahın gücü, intellektin gücü, nüfuzun gücü və s.

Bəzi nəzəri mənbələrdə hakimiyyət və məcburetmə anlayışlarının eyniləşdirilməsinə rast gəlmək olar. Məsələn, M.İ.Baytin yazır ki, hakimiyyət həyata keçirilmə formasından asılı olmayaraq bütün hallarda məcburetmədir (124, s.7).

Politologiya dərsliyində isə qeyd olunur ki, hakimiyyət termini sosial kontekstdə "kiminsə" (şəxsi, yaxud sosial qrupun) başqalarını müəyyən şəkildə öz istədiyini etməyə məcbur etməsi mənasında işlədilir (69, səh.87).

Nikkolo Makiavelli "Hökmdar" əsərində dövlət hakimiyyətini güc ilə eyniləşdirir, onu insanların üzərində hökmranlıq edən vahid güc kimi xarakterizə edir. Daha sonra o, qeyd edir ki, bu gücün əsasında qorxu dayanır (81, s.159)

Hesab edirik ki, hakimiyyət kateqoriyası tabeçilik və məcburetmə proseslərini ehtiva etməsinə baxmayaraq məcburetmə ilə eyniləşdirilə bilməz. Ümumi məqsədlərə nail olmaq üçün hakimiyyət insanların davranışına yalnız məcburetmə ilə deyil, digər metodlarla da təsir göstərə bilər.

Məcbuertmə hakimiyyətin həyata keçirilməsinin yalnız bir metodudur. Onun digər metodu inandırmadır.

İnandırma və məcburetmə ilə yanaşı hakimiyyət iqtisadi, siyasi, sosial və ideoloji metodlardan da istifadə edə bilər.

Fəlsəfə ensiklopedik lüğətində düzgün qeyd olunur ki, hakimiyyət-cəmiyyətin təşkilinin əsas funksiyalarından biri, bir-birinə zidd fərdi və ya qrup mənafelərini əlaqələndirməklə insanların hərəkətini idarə etmək üçün inandırma və ya məcburiyyət vasitəsilə onları vahid iradəyə tabe etməkdə real imkana malik nüfuzlu qüvvədir (43, s.468).

Məcburetmə intellektin, nüfuzun gücündən həm də onunla fərqlənir ki, burada hakimiyyətə tabe olan subyekt anlayır ki o, bunu öz iradəsinə zidd həyata keçirir. Məcburetməni həmçinin, fiziki güc (zorakılıq) anlayışından fərqləndirmək lazımdır. Belə ki, məcburetmə fiziki güc (zorakılıq) anlayışından daha genişdir çünki məcazi xarakter daşıya bilər.

Bəzi ədəbiyyatlarda hakimiyyət idarəetmə anlayışı ilə bərabərləşdirilir. Məsələn, Rusiya Federasiyasının konstitusiya hüququ dərsliyində qeyd olunur ki, hakimiyyət kimisə və nəyisə idarəetmək, sərəncam vermək kimi başa düşülür (89, səh.85)

Hüquq ensiklopediyasında hakimiyyət başqalarının hərəkətlərini idarə etmək imkanı kimi göstərilir.

AMEA-nin Nəsimi adına Dilçilik İnstitutunda hazırlanan Azərbaycan dilinin izahlı lüğətində hakimiyyət, idarə etmək hüququ, dövlət idarə orqanları, hökumət kimi xarakterizə olunur (44, s.320).

Hesab edirik ki, hakimiyyət və idarəetmə hadisələrinin sıx bağlılığına baxmayaraq onları eyniləşdirmək düzgün deyildir. Hər şeydən əvvəl qeyd olunmalıdır ki, hakimiyyət sosial hadisədir və onu "nəyisə" idarəetmək kimi başa düşmək olmaz. İdarəetmə isə müxtəlif təbiətli (bioloji, sosial, texniki) mütəşəkkil sistemlərin elementi, funksiyası, onların müəyyən strukturunun saxlanılmasını, fəaliyyət

rejiminin mühafizəsini, proqram və məqsədin reallaşmasını təmin edir.

Əksər mənbələrdə idarəetmə müəyyən sistem və proseslərə, onların vəziyyətini dəyişmək və yeni keyfiyyət vermək məqsədilə təsir göstərilməsi kimi xarakterizə olunur. Bu mənada hakimiyyətdən fərqli olaraq idarəetmə həm sosial, həm də texniki sistemlərə aiddir.

Azərbaycan dilinin izahlı lüğətində qeyd olunur ki, idarə etmək hər hansı vasitələrdən, mexanizmlərdən, cihazlardan və s. istifadə edərək, bir şeyin işini, hərəkətini nizama salmaq, müəyyən tərəfə yönəltmək, istiqamətləndirmək kimi də başa düşülə bilər (məsələn, hava, su gəmisini idarə etmək) (44, səh.501)

Yuxarıda qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, hakimiyyət anlayışı yalnız sosial idarəetməni ehtiva edir. Lakin, bu da öz növbəsində hakimiyyət və sosial idarəetmə anlayışlarını bərabərləşdirməyə əsas vermir.

İctimai münasibətləri tənzimləmək, cəmiyyəti inkişaf etdirmək məqsədilə ona təsir vasitəsi kimi sosial idarəetmə hər bir cəmiyyətin mühüm daxili xassəsidir.

Sosial İdarəetmə müəyyən məqsədə çatmaq üçün planlaşdırma, təşkil etmə, rəhbərlik və nəzarət prosesidir. Bu kontekstə sosial idarəetmənin 4 funksiyası fərqləndirilir:

1. Planlaşdırma-məqsədlərin seçilməsi və onlara çatmaq üçün müvafiq planların işlənib hazırlanmasıdır;

2. Təşkil etmə ayrı-ayrı işçilər və onların birlikləri arasında vəzifələrin bölüşdürülməsi və qarşılıqlı əməkdaşlığın müəyyən edilməsidir;

3. Rəhbərlik konkret vəzifələrin yerinə yetirilməsi üçün tabelikdə olan insanların, kollektivlərin fəaliyyətinə təsir göstərmək prosesidir.

Bəzi ədəbiyyatlarda idarəetmə və rəhbərlik anlayışları da bərabər tutulur. Bu düzgün yanaşma deyildir. İdarəetmə

həm sosial, həm də texniki xarakterli ola bilər. Rəhbərlik isə yalnız insanları və onların birliklərini ehtiva edir.

Ümumilikdə rəhbərlik anlayışı üç aspektdə izah oluna bilər:

- Tabelikdə olan şəxslər nə etməlidirlər barədə göstərişlərin verilməsi;
- Kollektivlərin üzvləri arasında əməkdaşlığın təmin edilməsi;
- Müəyyən məqsədlərə çatmaq üçün insanların həvəsləndirilməsi.

Yuxarıda qeyd olunanlara əsasən göstərmək olar ki, rəhbərlik edən şəxs həm də idarəetməni həyata keçirir. Lakin hər cür idarəetmə hələ rəhbərlik demək deyildir.

4. Nəzarət-planlaşdırılan işlərin əldə olunan nəticələrə uyğun olmasının yoxlanılmasıdır.

Beləliklə, "hakimiyyət" və "idarəetmə" anlayışlarının üzvü bağlılığına baxmayaraq həmin anlayışları eyniləşdirmək olmaz. Hakimiyyət idarəetmə anlayışına nisbətdə ilkindir. Belə ki, hakimiyyət subyekti həm də idarəetməni həyata keçirir. Lakin müəyyən hallarda idarəetmə subyekti hakimiyyətə malik olmaya bilər (məsələn, dərsdə öz sinfini idarə edən müəllim).

Bütün deyinlənlərə rəğmən belə bir nəticəyə gəlmək olar ki, "xalq hakimiyyəti" həm də "xalq idarəçiliyi" kimi xarakterizə oluna bilər.

§2. Xalq hakimiyyəti: anlayışı, əlamətləri və prinsipləri.

Hər bir ölkənin konstitusion inkişafını, dövlətin və cəmiyyətin inkişafından təcrid olunmuş şəkildə nəzərdən keçirmək olmaz. Belə inkişafda növbəti mərhələ mühüm siyasi və sosial-iqtisadi münasibətlərə yeni elementlər və xüsusiyyətlər gətirir, dövlətin, onun funksiyalarının

keyfiyyət xarakteristikasını dəyişir. Yeni konstitusiyanın meydana çıxması bütün bu dəyişikliklərin təsbit edilməsi, onun öz məzmununda ictimai quruluşun spesifik xüsusiyyətlərini əks etdirməsi zərurəti ilə bağlıdır.

XX əsrin sonunda xalqımız öz dövlət suverenliyini bərpa etdikdən sonra demokratik, hüquqi və konstitusion dövlət quruculuğuna qədəm qoydu və çox əsrlik dövlətçilik tarixində referendumla özünün ilk müstəqil milli konstitusiyasını qəbul etdi.

Tariximizə suveren Azərbaycanın ilk milli Konstitusiyası kimi daxil olan, ölkəmizin siyasi-iqtisadi və sosial-mədəni həyatında baş verən dəyişikliklərin qanuni nəticəsi olaraq qəbul edilən Konstitusiyada respublikamızın müstəqilliyinin qorunub möhkəmləndirilməsinə, dövlətçiliyin inkişafına, insan və vətəndaş hüquqlarının təmin edilməsinə xüsusi diqqət ayrılmışdır. Konstitusiyamızın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, o dövlətçiliyimizin inkişafını istiqamətləndirməklə yanaşı, həm də xalqımızın uzun illər boyu həsrətində olduğu, ən nəhayət ağır itkilər bahasına olsa da əldə etdiyi və bu gün qətiyyətlə qorumağa çalışdığı suverenliyini qanunvericilik yolu ilə təsbit etdi.

Yeni Konstitusiyanı hazırlayan komissiyanın sədri Heydər Əliyev komissiyanın iyunun 5-də keçirilən ilk iclasında qeyd etmişdir: "Konstitusiyanı yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik... Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali, icra, qanunvericilik, məhkəmə hakimiyyətləri-bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır..." (70,s.63).

Heydər Əliyevin səsləndirdiyi bu demokratik ideyalar suveren Azərbaycanın 12 noyabr 1995-ci il Konstitusiyasında öz hüquqi ifadəsini tapdı və onun səmərəli təmin olunma mexanizmi müəyyənləşdi. Bu gün isə həmin ideyaların real həyatımızda uğurla təmin olunmasının şahidiyik.

Xalq hakimiyyəti dövlətinin qurulması tendensiyası tam olaraq XX əsrdə formalaşmış və bu da öncə ayrı-ayrı dövlətlər səviyyəsində, sonra isə beynəlxalq səviyyədə müvafiq normativ aktların qəbul edilməsində ifadə edilmişdir.

Ümumdünya İnsan hüquqları Bəyannaməsinin 21-ci maddəsində qeyd olunur ki, hər bir insan bilavasitə və yaxud azad seçilmiş nümayəndələri vasitəsilə ölkəsinin idarə olunmasında iştirak edə bilər və xalqın iradəsi hökumətin mənbəyi olmalıdır.

Əsas hüquq və azadlıqlar haqqında Avropa Parlamentinin Qətnaməsində də (1989) "Bütün hakimiyyətin xalqdan irəli gəlməsi haqqında" demokratik prinsip təsbit olunmuşdur.

Bu gün əksər demokratik dövlətlərin Konstitusiyaları xalq hakimiyyətini və xalq suverenliyini təsbit edir və xalqı dövlət hakimiyyətinin yeganə mənbəyi kimi bəyan edir. Həmin ideyalar müxtəlif ölkələrin konstitusiyalarının müvafiq müddəalarında aşağıdakı formada konkret təcəssümünü tapmışdır. Məsələn, Almaniya Federativ Respublikası Konstitusiyasının 20-ci maddəsində qeyd olunmuşdur ki, xalq-hakimiyyətin mənbəyidir; Fransa Konstitusiyasının 3-cü maddəsində deyilir: milli suverenlik xalqa məxsusdur; İspaniya Konstitusiyasının 2-ci maddəsində də xalq hakimiyyəti prinsipi təsbit olunmuşdur (94). Azərbaycan Respublikası Konstitusiyasının 1-ci fəsli "Xalq hakimiyyəti" adlanır və burada xalq hakimiyyətinin əsaslarını tənzimləyən ümumi qaydalar, dövlət

hakimiyyətinin mənbəyi, xalq hakimiyyətinin həyata keçirilməsi formaları, xalqı təmsil etmək hüququ, xalqın vahidliyi, hakimiyyətin mənimsənilməsinə yol verilməməsi kimi fundamental normalar öz hüquqi ifadəsini tapır. Demokratik ölkələrin konstitusiyalarında xalq hakimiyyətinin tənziminə xüsusi önəm verilməsinə baxmayaraq "Konstitusiya hüququ elmində bu günədək xalq hakimiyyəti" termininin anlayışı ilə bağlı diskussiyalar hələ də davam etməkdədir. Bu cür vəziyyəti mürəkkəbləşdirən hallardan biri də odur ki, nə Azərbaycanın, nə də digər demokratik xarici ölkələrin konstitusiyalarında "Xalq hakimiyyəti"nin definisiyasına rast gəlinmir.

Konstitusiya hüququ elmində "xalq hakimiyyəti" termini birmənalı izah olunmur. Müəyyən hallarda "xalq hakimiyyəti", "xalq suverenliyi" və "demokratiya" terminləri ilə eyniləşdirilir. Bəzən də "xalq hakimiyyəti" dövlətin forması, dövlət aparatının təşkilinin konseptual xarakterli prinsipi kimi izah olunur.

Xalq hakimiyyəti nədir? Xalq hakimiyyəti sosial hakimiyyətin digər növlərindən nə ilə fərqlənir və bu ümumbəşəri dəyər hansı prinsiplərə söykənir? Hesab edirəm ki, bu sualların tədqiqi həm Konstitusiya hüququ elmi, həm də hüquqi praktika üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın 70 ildən artıq SSRİ dövlətinin tərkibində yaşadığı dövr ərzində bu mövzu sovet alimləri tərəfindən sosialist ideologiyası əsasında izah olunurdu. Sovet dövlət hüququ dərsliyinin həmmüəllifi professor Barabaşev qeyd edir ki, SSRİ Konstitusiyasına uyğun olaraq SSRİ-də bütün hakimiyyət xalqa məxsusdur (m.2). Xalqın tam hakimiyyəti Sovet sosialist ümumxalq dövlətinin mahiyyətidir. Xalqın tam hakimiyyəti o deməkdir ki, SSRİ-də bütün hakimiyyət sovet xalqına məxsusdur. Başqa heç kimə, heç bir sosial qrupa hakimiyyət məxsus ola bilməz. SSRİ-də xalqın tam hakimiyyətinin təzahüründə əsas forma

nümayəndəli demokratiyadır. Yəni xalq dövlət hakimiyyətini öz nümayəndəli orqanları olan-xalq deputatları sovetləri vasitəsilə həyata keçirir. Daha sonra sovet alimi qeyd edir ki, xalq deputatları sovetləri xalq tərəfindən seçilir və dövlət hakimiyyətinin yeganə mənbəyidir. Bilavasitə xalq tərəfindən seçilməyən bütün dövlət orqanları sovetlər tərəfindən təşkil edilir və onlar qarşısında hesabat verir (113).

Fikrimizcə, hakimiyyətin yalnız xalqa aid olması barədə məsələnin belə qoyuluşu həm forma, həm də mahiyyət baxımından düzgün deyil. Belə ki, sovet alimi hakimiyyət kateqoriyasının yalnız xalqa aid olduğunu və bununla da sosial hakimiyyətin digər növlərinin inkar etdiyini bildirir. Digər tərəfindən sovetlər dövlətinin təcrübəsində referendumun ümumxalq səsverməsi kimi inkar edilməsi, seçkilərdə alternativ namizədlər prinsipindən imtina edilməsi, hakimiyyətlər bölgüsü ideyasının qəbul edilməməsi "xalq hakimiyyətinin" yalnız formal bəyanat olduğunu sübut edir.

Bəzən elmdə belə bir fikir səslənir ki, xalq olan hər bir yerdə xalq hakimiyyəti mövcuddur. Zənnimcə, bu ifadə ilə yalnız qismən razılaşmaq olar, belə ki, xalq hakimiyyətinin təmin olunması bilavasitə dövlətin rejim forması ilə üzvi surətdə bağlıdır. Bir məsələni unutmayaq ki, hakimiyyət heç də mücərrəd hadisə deyil, hakimiyyət idarəetmə və tabeçilik üzrə faktiki münasibətlərdir, əgər bu yoxdursa, deməli ümumiyyətlə hakimiyyət də yoxdur. Qeyri demokratik rejimdə xalq hakimiyyəti barədə yalnız abstrakt fikir söyləmək olar.

Yuxarıda qeyd olunduğu kimi, müasir konstitusiya hüququ elmində "xalq hakimiyyəti" anlayışına dair fikir ayrılığı mövcuddur.

Bir çox müasir hüquqşünaslar xalq hakimiyyətini xalqın iradəsi adlandırırlar. Düşünürəm ki, bu cür yanaşma

ilə tam razılaşmaq düzgün olmazdır baxmayaraq ki, hakimiyyət iradəvi münasibətləri ehtiva edir. "İradə" ərəb mənşəli sözdür və etimoloji mənasına görə istək, arzu deməkdir. Əgər hakimiyyət dedikdə iradə başa düşülürsə, onda digər insanlardan təcrid olunmuş halda yaşayan subyekt də hakimiyyət sahibi ola bilər. Əslində isə belə deyil. Yalnız digər insanlarla müəyyən münasibətlərdə olan və digər insanların iradəsini öz iradəsinə tabe etmək qabiliyyətinə malik olan insan və ya kollektiv hakimiyyət sahibi ola bilər. Buna görə də hakimiyyətin iradə kimi müəyyən edilməsi əsassızıdır.

Sosiologiya və siyasi elmlərin mülahizələrinə görə hakimiyyət sosial hadisədir, bəşər cəmiyyətinin yaranması ilə meydana gəlir və bütün bəşər cəmiyyətlərində mövcuddur. Çünki hər bir bəşər cəmiyyəti məcburiyyət də daxil olmaqla müxtəlif vasitələrdən istifadə edərək idarəetmə ilə təmin olunur. Hakimiyyət nəyi və kimisə idarə etmək, digərlərini öz idarəsinə tabe etmək qabiliyyəti kimi başa düşülür.

Beləliklə, hakimiyyət sadəcə iradə deyil, bir iradının digər iradə üzərində hökmranlığı-sözün əsl mənasında hakimiyyətdir.

Haqlı olaraq belə bir fikir yarana bilər ki, xalq suverendir və onun iradəsi hüququn digər subyektlərindən fərqli olaraq bütün hallarda hakimiyyət xarakterlidir.

Hesab edirəm ki, bu fikirlə də tam razılaşmaq olmaz. Çünki xalqın iradəsi yalnız obyektiv hüquq çərçivəsində hakimiyyət xarakterli ola bilər.

Adətən demokratik ölkələrin konstitusiyalarında xalqın həll edə bilmədiyi məsələlərə dair müddəalar da təsbit olunur. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsinin II hissəsi. Bu cür normanı xalq suverenliyinin məhdudlaşdırılması kimi qiymətləndirmək olmaz. Belə ki, bu cür müddəalar xalqın

özü tərəfindən referendumla qəbul edilmişdir və bütün xalqın maraqlarına xidmət edir.

Demokratik cəmiyyətdə xalqın hakimiyyəti həm də beynəlxalq birlik tərəfindən qəbul olunan və ümumbəşəri dəyərlərə əsaslanan prinsiplərlə məhdudlaşdırılır. Məsələn, İngiltərədə ölüm hökmü cəzasının ləğv olunması ilə bağlı keçirilən referendumda bu cəza növünün qalması haqqında xalq öz iradəsini bildirsə də, parlament bu qərarı ləğv etdi.

İsveçrədə qadınlar arasında referendum keçirildi və referenduma belə bir sual çıxarıldı: "Qadınlara seçki hüququ verilsin, yoxsa yox". Qadınlar yox cavabı versə də parlament fərqli qərar qəbul edərək qadınlara seçki hüququnun verilməsi barədə qanun qəbul etdi.

Beləliklə, hakimiyyət bir iradənin digəri üzərində hökmranlığıdır. Əgər subyektiv hüququn bir iradənin digəri üzərində hökmranlığı kimi tərifini xatırlasaq əmin olarıq ki, hakimiyyət anlayışı subyektiv hüququn ümumi anlayışına yararlıdır. Həqiqətən subyektiv hüquq olan hər yerdə bir iradənin digərinə tabe olması baş verir. Əgər mən borcludan borcun qaytarılmasını tələb edirəmsə, onun iradəsi mənim iradəmə tabe olur. Bir iradənin digərinə tabe edilməsi hakimiyyət münasibətlərində də müşahidə olunur. Bu halda subyektiv hüquq təzahürlərində olduğu kimi bu tabe etmənin məqsədi məlum marağın təmin edilməsi olur. Buradan belə çıxır ki, hakimiyyət subyektiv hüquqdur.

Lakin demək olmaz ki, istənilən subyektiv hüquq hakimiyyət deməkdir. Heç də həmişə qarşımızda subyektiv hüquq olarkən biz hakimiyyət barədə danışmırıq: hakimiyyət subyektiv hüququn müəyyən növüdür.

Hakimiyyət subyektiv hüququn digər növlərindən nə ilə fərqlənir? Fərq aşağıdakılardan ibarətdir: subyektiv hüquq bir şəxsin üzərinə vəzifə (borc) qoymaqla, eyni zamanda bu vəzifəni icra etməyi tələb etmək ixtiyarını digər

şəxsə vermək kimi hüquq normasına əsaslanır. Vəzifə adətən hüquq normalarında iki formada müəyyən edilə bilər:

a) bəzi hallarda vəzifənin məzmununu təşkil edən hərəkətlər hüquq norması ilə qabaqcadan müəyyən edilir. Belə ki, əgər kimsə məlum şəxsdən borcun qaytarılmasını tələb edirsə, borclunun vəzifəsi dəqiq müəyyən edilmişdir-kreditor məlum pul məbləğindən başqa heç nə tələb edə bilməz;

b) bəzən isə hüquq norması öhdəliyin predmetini təşkil edən hərəkətləri dəqiqliklə göstərmir və yalnız bu hərəkətlərin ümumi xarakterini müəyyən edir, onların məqsədi-vəzifənin hüdudlarını aydınlaşdırmaqdır; hüquq münasibətlərinin passiv subyektinin həmin hüdudlarda hərəkətlərinin dəqiq müəyyən edilməsi ixtiyarı isə fəal subyektə, yəni hüquq subyektinə verilmişdir.

Beləliklə, hakimiyyət subyektiv hüququn xüsusi növüdür və digər növlərdən onunla fərqlənir ki, vəzifənin predmetini təşkil edən hərəkətlər hüquq normaları ilə qabaqcadan müəyyən edilməmişdir və məlum hüdudda hüquq subyektinin iradəsi ilə müəyyən edilir.

Yuxarıda göstərilənləri nəzərə alaraq belə bir mülahizə irəli sürmək olar ki, xalq hakimiyyəti subyektiv hüququn xüsusi növüdür. Bu subyektiv hüquq azərbaycan xalqına, yəni bütün Azərbaycan Respublikasının vətəndaşlarına məxsusdur. Bu subyektiv hüquq aşağıdakılarda ifadə olunur:

1) Dövlətin və cəmiyyətin ümumi işlərini idarə etmək;

2) Digərlərinin iradəsini öz iradəsinə tabe etmək;

3) Öz müqəddəratını müəyyən etmək və öz idarəetmə formasını seçmək;

4) Ümumi xarakterli göstərişlər, davranış qaydalarını müəyyən etmək;

5) Dövlət hakimiyyəti və yeri özünüidarəetmə orqanlarını yaratmaq və onların fəaliyyətinə rəhbərlik etmək.

Xalq hakimiyyəti şəraitində hakimiyyətin həyata keçirilməsi xalq tərəfindən legitimləşdirilir, nəzarətdə saxlanılır və konstitusiyalaşır.

Konstitusiya hüququ elmində belə bir fikir var ki, "xalq hakimiyyəti" və "demokratiya" anlayışları sinonimdir. V.Y.Quliyev və F.M.Rudinskiy qeyd edirlər: "demokratiya xalq hakimiyyəti deməkdir. Xalq ayrı-ayrı insanlardan ibarət olduğuna görə xalqın hakimiyyəti onlardan hər birinin onun həyata keçirilməsində iştirakını güman edir"(110).

Hüquq ensiklopediyasında qeyd olunur: Xalq hakimiyyəti-müasir anlamına görə konstitusiyanın və qanunların aliliyi, xalq hakimiyyəti və siyasi plüralizm, vətəndaşlığın azadlığı və bərabərliyi, insan hüquqlarının özgəninkiləşdirilməməsi kimi prinsiplərin tanınmasına əsaslanan dövlət quruluşu formasıdır (60).

"Demokratiya" və "xalq hakimiyyəti" terminlərinin nisbətinə dair məsələdə bəzi tədqiqatçılar hesab edirlər ki, xalq hakimiyyəti demokratiyanın strukturunda zəruri element kimi başa düşülür və bu element olmadan onu təsəvvür etmək mümkün deyil.

Digər qrup tədqiqatçılar demokratiyanın xalq hakimiyyəti ilə etimoloji bərabərləşdirilməsi ilə razı deyil, çünki "demos" və "xalq" anlayışları bərabər deyil. Məsələn , antik dövrdə xalq hesab edilən məfhumun müasir mənada olan xalq anlayışı ilə heç bir oxşarlığı yoxdur.

Hesab edirəm ki, Azərbaycan Respublikası Konstitusiyasının bu məsələyə aid mövqeyini düzgün qiymətləndirmək üçün, müasir elmi-nəzəri, normativ ədəbiyyatlarda demokratiya ilə bağlı mövcud fikirlərə daha geniş baxmalıyıq.

Bu məfhumun semantikasında fikir plüralizminin mövcudluğuna baxmayaraq müasir siyasi leksikonda demokratiya daha çox ümumbəşəri dəyərlər sisteminə əsaslanan ideal ictimai quruluş və ona uyğun dünyagörüşüdür.

Müasir siyasi-hüquqi ədəbiyyatlarda "demokratiya" termini bir neçə məna daşıyır. Onun birinci mənası, bu terminin etimologiyası ilə bağlıdır: "demos" xalq, "kratos" hakimiyyət deməkdir.

"Demokratiya" qədim yunan dilindən "xalq hakimiyyəti" kimi tərcümə olunur və yaxud Amerika prezidenti Linkolnun açıqladığı kimi, "Xalq tərəfindən seçilmiş və xalq üçün olan xalqın idarəçiliyi" mənasını daşıyır.

Demokratiya məhfumunun etimoloji anlayışından irəli gələn, onun daha geniş ikinci izahı da var ki, o da hər bir təşkilatın quruluş forması ilə bağlıdır. Belə ki, təşkilatın üzvlərinin idarəetmədə bərabərhüquqlu iştirakı və orada qərar qəbul edilməsi səs çoxluğu əsasında təşkil edilir. Geniş mənada anlanılan demokratiya isə təşkilat, hakimiyyət və idarəetmə olan hər bir yerdə mövcud ola bilər.

Üçüncü mənada, demokratiya müəyyən varlıq sisteminə əsaslanan ictimai quruluşun idealı və ona uyğun dünyagörüşüdür.

Dördüncü mənada, demokratiyaya demokratik məqsəd və idealların həyata keçirilməsi, "xalq hakimiyyəti" uğrunda sosial və siyasi hərəkat kimi baxılır. Bu hərəkat Avropada mütləqiyyətlə mübarizə bayrağı altında, azadlıq və bərabərlik üçün yaranmış və tarix boyu tədricən öz məqsəd diapozonunu və iştirakçılarını genişləndirmişdir.

Xüsusi ədəbiyyatda xalaq hakimiyyəti mənasında demokratiya anlayışı normativ kimi başa düşülür. Çünki, bu fenomenə normativ baxımdan yanaşılır ki, bu da insani

ideallardan, dəyər və istəklərdən irəli gələn kateqoriyaların zəruriliyini və quruluşunu nəzərdə tutur. Bu halda demokratiya azadlıq, bərabərlik, insan həyatına hörmət, xalq suverenliyi, həmrəylik kimi əsas dəyərlər üzərində qurulmuş ideallıqla səciyyələnir.

Bir çox müasir Konstitusiyalarda demokratiya anlayışı dövlətin rejim formasını xarakterizə etmək üçün istifadə olunur. Freysburq Universitetinin professoru AFR Konstitusiya Məhkəməsinin üzvü K.Xesse qeyd edir ki, demokratik quruluşun əsas əlamətlərinə aiddir: insan hüquqlarına hörmət, xalq suverenliyi, hakimiyyətlər bölgüsü, hökumətin məsuliyyəti, hakimlərin müstəqilliyi, çoxpartiyalılıq və s.(88,s.229).

Göründüyü kimi, yuxarıda səslənən fikrin müəllifi, demokratiya anlayışına geniş yanaşır və məhz bu mənada AFR-in əsas Qanununda demokratiya öz konstitusion-hüquqi tənzimini tapır .

Azərbaycan Respublikasının Konstitusiyasında demokratiya termini 7-ci maddənin 1-ci hissəsində təsbit olunur. Burada qeyd olunur ki, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır.

Demokratiya hərfi mənada yunancadan "xalq hakimiyyəti" kimi tərcümə edilsə də Azərbaycan Respublikasının Konstitusiyasında demokratiya məfhumu dövlətin siyasi rejim forması kimi qəbul edilir. Əsas qanunda Azərbaycan dövlətinin demokratik xarakteri hər şeydən əvvəl xalq hakimiyyətinin, hakimiyyətlər bölgüsünün, insan və vətəndaş hüquq və azadlıqlarının, yerli özünüidarəetmənin təmin olunmasında ifadə olunur.

Konstitusiya hüququ elmində həmçinin, xalq hakimiyyətinin xalq suverenliyi anlayışı ilə bərabər tutulması fikri də mövcuddur. Burada qeyd olunur ki, xalq hakimiyyəti-cəmiyyətdə və dövlətdə ali hakimiyyətin xalqa məxsus olması, həmçinin hakimiyyətin yeganə mənbəyi

kimi xalqın tanınması deməkdir. Göründüyü kimi, bu tərifin müəllifi faktiki olaraq hər iki anlayışı eyniləşdirir .

Yuxarıda qeyd olunan fikir müasir Konstitusiya hüququ elmində geniş yayılmışdır.

Professor O.E. Kutafin isə yazır ki, xalq suverenliyi o deməkdir ki, xalq hakimiyyəti bölünməzdir, xalq ona məxsus olan hakimiyyəti heç bir sosial qüvvələrdən asılı olmayaraq, sərbəst, öz maraqlarına uyğun həyata keçirir (89,s.86).

Hüquq ensiklopedik lüğətində isə qeyd olunur ki, xalq suverenliyi-xalqın tam hakimiyyəti, yəni xalqın bütün zəhmətkeşlərin cəmiyyət və dövlət işlərinin idarə olunmasında fəal iştirakını hərtərəfli və müntəzəm olaraq təmin edən sosial-iqtisadi və siyasi vasitələrə yiyələnməsidir (60,s.544).

Hesab edirəm ki, bu məsələyə aydınlıq gətirmək üçün "suverenlik" anlayışının yaranma tarixinə kiçik ekskursiya etmək lazımdır.

Suverenlik doktrinasını ilk dəfə siyasi elmə "Respublika haqqında altı kitab" (1576) əsərində gətirən fransız alimi Jan Boden olmuşdur. "Suverenlik" və yaxud hakimiyyətin "aliliyi" anlayışı ilk dəfə XVI əsrdə onun tərəfindən ifadə edilmişdir.

Lakin dövlətin hüquqi şəxsi kim qəbul olunması haqqında ideya J.Boden üçün yad idi, buna görə də onun fikrincə suverenlik dövlətə deyil, monarxa məxsusdur.

Növbəti əsrdə İngiltərədə T.H.Qobbs suverenlik haqqında J.Bodenin təlimini inkişaf etdirir və müəyyən dərəcədə irəli gedir.

J.Bodendən fərqli olaraq T.Hobbs artıq dövləti hüquqi şəxsiyyət kimi tanıyır, lakin bu şəxs onun təsəvvüründə bütövlüklə bir fiziki şəxs olan monarxın simasında təcəssüm olunur.

Tarixi faktlar(növbəti paraqrafda bu barədə ətraflı məlumat veriləcək) göstərir ki, suverenlik haqqında təlim əzəldən yalnız nəzəri deyil, həm də praktiki əhəmiyyətə malik olmuş, o, rəqabətdə olan ictimai qüvvələrlə mübarizədə dövlət hakimiyyətinin siyasi silahı olmuşdur. Lakin dövlətin qələbəsindən sonra da bu təlim öz siyasi əhəmiyyətini itirmir.

J.Bodenin dövründən başlayaraq suverenlik anlayışı dövlətin yalnız xarici qüvvələrə qarşı deyil, dövlət daxilindəki müxtəlif elementlər arasında gedən mübarizədə də siyasi silaha çevrilir. J.Boden və T.Hobbsun nəzəriyyələri dövlətin aliliyi ideyasını dəstəkləməklə yanaşı müəyyən idarəetmə formasına, daha dəqiq, mütləq monarxiyaya meyl etməklə dövlətin digər elementlərinə qarşı mübarizədə məhz ona dəstək verirdilər. Lakin, dövlət hakimiyyətinin müxtəlif elementlərinin daxili mübarizəsində monarxın suverenliyi haqqında təlimə əks olaraq bərabər tərzdə xalqın suverenliyi nəzəriyyəsi də əmələ gəlməyə başlamışdır. Öncədən məhz təbii hüquq məktəbinin daha erkən nümayəndələrində bu təlim monarxiya nəzəriyyəsinə zidd olan təlim kimi nəzərdə tutulmurdu, əksinə onunla sıx əlaqəli olmaqla, hətta onun əsasını təşkil edirdi. Güman edilirdi ki, suverenlik əzəldən xalqa məxsusdur və tabeçilik razılaşması yolu ilə monarxa verilmişdir. Lakin sonralar xalqın ilkin suverenliyi haqqında monarx hakimiyyətinin əsaslandırılmasına xidmət etmiş bu təlim xalqa qarşı yönəlmişdir. Fransız alimi Russo xalqın suverenliyinin ayrılmaz olduğunu bəyan etməklə suverenliyin demokratik nəzəriyyəsinin əsasını qoymuşdur. XVIII əsrin sonunda isə bu nəzəriyyə amerikan və fransız inqilablarında öz praktiki tətbiqini tapmışdır. Xalq suverenliyinin ayrılmaz olması barədə təlim 1776-cı il Amerikanın istiqlaliyyət bəyannaməsində təkrarlanmışdır. Bu təlim hal-hazırkı dövrə qədər Amerika Birləşmiş Ştatlarında rəsmi konstitusion doktrina olaraq qalmaqdadır.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq belə bir mülahizə irəli sürmək olar ki, "xalq hakimiyyəti" və "xalq suverenliyi" terminləri bir-birilə qırılmaz surətdə bağlı olsalar da, eyniləşdirilə bilməz. Xalq suverenliyi anlayışı xalq hakimiyyətinin aliliyi, sosial hakimiyyətin digər növlərinə nisbətdə üstünlüyünü xarakterizə edir. Bu kontekstdə Ziyafət Əsgərovun fikrini məqbul saymaq olar: "suverenlik xalqın üstün mövqeyi ilə-onun hakimiyyət mənbəsi olması ilə şərtlənir" (38,s.68).

Digər alim professor V.N.Suvorov da təxmini eyni fikir söyləyir: "Xalq suverenliyi o deməkdir ki, dövlətdə, hakimiyyət sistemində xalqın hakimiyyəti alidir, onun suveren dövlət iradəsi dövlətin ərazisində yaşayan, fəaliyyət göstərən bütün şəxslər, dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları üçün məcburidir" (115,s.92).

Yuxarıda deyilənləri nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, xalq hakimiyyəti, xalq suverenliyi və demokratiya terminlərinin üzvü bağlılığına baxmayaraq, onları eyniləşdirmək olmaz. Azərbaycan Respublikasının Konstitusiyası da məhz bu mövqedən çıxış edir.

Hüquq ədəbiyyatlarında xalq hakimiyyəti və dövlət hakimiyyəti terminlərinin eyniləşdirilməsi fikirlərinə də rast gəlmək olur.

Bəzi alimlər arasında fikir var ki, dövlət hakimiyyəti xalq hakimiyyəti anlayışına daxildir. Məsələn, V.T.Kabışev israr edir ki, "xalq hakimiyyəti" anlayışı "dövlət hakimiyyəti" anlayışından daha genişdir, çünki buna adı göstərilən hakimiyyətdən başqa ictimai birliklərin səlahiyyətlərinin reallaşdırılması nəticəsi olan sosial hakimiyyət də daxildir (112).

Hesab edirəm ki, "xalq hakimiyyəti" və "Dövlət hakimiyyəti" anlayışları bir vəhdət təşkil edir və biri digərsiz mövcud ola bilməz. Lakin, bu bağlılıq onları eyniləşdirməyə bizə əsas vermir.

Sözsüz ki, xalq hakimiyyəti və dövlət hakimiyyəti məfhumlarının bir çox ümumi, oxşar əlamətləri vardır. Məsələn:

1. Hər ikisi ümumsosial xarakterə malikdir, bütün cəmiyyətə və hər bir fərdə ünvanlanmışdır. Onların məqsədi-ümumi mənafe və ümumi marağa nail olmaqdır;

2. Hər iki hakimiyyət növü suverenliyə malikdir. Suverenlik ölkə daxilində hakimiyyətin aliliyi kimi, həmçinin beynəlxalq münasibətlərdə də ölkə müstəqilliyi kimi başa düşülür. Eyni zamanda qeyd etməliyik ki, xalqın suverenliyi, dövlət suverenliyinə nisbətən birincidir. Bu əlaməti təhlil edərkən unutmaq olmaz ki, xalq və dövlət suverenliyi bir-birinə nisbətdə forma və məzmun kimi çıxış edir. Müəyyən ümumi cəhətlərinə baxmayaraq xalq və dövlət suverenliyinin bəzi özünəməxsus xüsusiyyətləri də var.

3. Xalq hakimiyyətinin və dövlət hakimiyyətinin növbəti ümumi cəhəti- onların legitim xarakterindədir. Bu o deməkdir ki, təhlil olunan hakimiyyəti növləri hüquqi (konstitusion) baxımdan əsaslıdır, ölkənin xalqı və dünya birliyi tərəfindən tanınmışdır.

Demokratik rejimlərdə hakimiyyət xalq tərəfindən konstitusiyalaşdırılır, legitimləşdirilir və nəzarətdə saxlanılır.

4. Təhlil olunan hakimiyyət formalarının daha vacib ümumi əlamətlərindən biri də onların leqallığıdır. Leqallıq-legitimliyin hüquqi ifadəsidir, yəni hüquq normalarında təcəssüm olunmaq, qanun hüdudlarında fəaliyyət göstərmək qabiliyyətidir. Kostitusionalizm nəzəriyyəsinin mahiyyəti ilk növbədə ondan ibarətdir ki, dövlətin əsas qanunu hakimiyyətin və idarəetmənin həyata keçirilməsinin hüdudlarını müəyyən edir.

Azərbaycan Respublikasının Konstitusiyasının 7-ci maddəsinin II hissəsində qeyd olunur ki, dövlət hakimiyyəti

daxili məsələlərdə hüquqla xarici münasibətlərdə isə Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə məhdudlaşır.

Tədqiq olunan hakimiyyət növlərinin ümumi əlamətlərindən biri də zəruri hallarda onların məcbur etmə tədbirləri ilə təmin edilməsidir.

Bir çox ümumi əlamətlərin mövcudluğuna baxmayaraq xalq hakimiyyəti və dövlət hakimiyyəti sosial hakimiyyətin müxtəlif, müstəqil növləridir.

Birincisi, onlar hər şeydən əvvəl öz subyektiv tərkibinə görə fərqlənir.

İkincisi, xalqın suverenliyi dövlətin suverenliyinə nisbətdə birincidir və hüquqi kateqoriya kimi bir sıra vacib xüsusiyyətlərə malikdir:

- alilik;
- ayrılmazlıq;
- vəhdət;
- tamlıq və məhdudiyyətsizlik.

Xalq hakimiyyətinin aliliyi onda ifadə olunur ki, əsas qanunu təyin etməklə xalq konstitusion münasibətlərin əsaslarını müəyyən edir. Hüquqi baxımdan xalq hakimiyyətinin aliliyi digər hüquqi aktlar üzərində Konstitusiyanın aliliyində obyektivləşir.

Referendumla qəbul edilmiş qərarlar yalnız referendumla ləğv edilə bilər. Yalnız xalq dövlət başçısını və ali qanunverici orqanı seçmək hüququna malikdir. Bütün dövlət hakimiyyəti orqanları xalq qarşısında hesabat verir və xalqın nəzarəti altındadır.

Xalq suverenliyinin ayrılmazlığı onun məzmununun ən vacib elementlərindən biridir. Hakimiyyətin ayrılmaz olması o deməkdir ki, xalq ictimai və dövlət işlərinin idarə olunmasında suveren iradəsi və hüququnu heç kimə vermir. Xalq suveren iradəsini və hüququnu müxtəlif formalarda özü həyata keçirir. Azərbaycan Respublikası

Konstitusiyasının 6-cı maddəsində qeyd olunur ki, Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı yönəlmiş ən ağır cinayətdir.

Hesab edirəm ki, hakimiyyətin mənimsənilməsinə yol verilməsi adlı Azərbaycan Respublikası Konstitusiyasının 6-cı maddəsi bir qədər qeyri müəyyəndir və hakimiyyət kateqoriyasını konkretliyi tələb edir. Məntiqi təfsirə görə burada hakimiyyətin mənimsənilməsinə yol verilməməsi barədə söhbət gedir. Suverenliyin ayrılmazlığı müvafiq siyasi institutlara verilə bilən səlahiyyətlərlə qarışıq salınmamalıdır. Bu baxımdan xalqın adından müəyyən müddət ərzində dövlət hakimiyyətini Konstitusiya və qanunlar çərçivəsində həyata keçirən orqanların fəaliyyəti tamamilə xalqın nəzarəti altında olan fəaliyyətdir.

Hakimiyyətin vahidliyi o deməkdir ki, cəmiyyətdə hakimiyyətin yeganə mənbəyi dövlətin bütün vətəndaşlarının məcmusu olan suveren xalqdır. Azərbaycan Respublikası Konstitusiyasının 5-ci maddəsində göstərilir:

"Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və ayrılmaz vətənidir".

Xalq hakimiyyətinin tamlığı o deməkdir ki, xalq birbaşa və yaxud nümayəndəli orqanlar vasitəsilə ona məxsus olan hakimiyyəti tam həcmdə həyata keçirir.

Xalq hakimiyyətinin məhdudiyyətsiliyi barəsində məsələ müasir mərhələdə bir qədər mübahisəlidir və suverenlik konsepsiyasının yarandığı tarixi dövrdən xeyli fərqlənir. Bu gün biz hakimiyyətin mütləq xarakteri barədə danışa bilmərik. Çünki istənilən hakimiyyətin, o cümlədən xalq hakimiyyətinin öz hüquqi məhdudiyyətləri var. Suverenliyin köhnə nəzəriyyəsindən fərqli olaraq müasir

xalq hakimiyyəti insan və vətəndaş hüquq və azadlıqlarını, dünya birliyi tərəfindən qəbul edilmiş ümumbəşəri dəyərləri inkar etməməlidir.

Müasir mərhələdə xalqın hakimiyyətinin məhdudiyyətsizliyi ondan ibarətdir ki, xalqın iradəsi ictimai həyatın bütün sahələrini əhatə edir. "Xalq hakimiyyəti" termini mahiyyətcə geniş, əhatəli mənaya malikdir və yalnız dövlət hakimiyyəti ilə məhdudlaşmır, bura həm sosial-iqtisadi, həm siyasi, həm psixoloji və bir çox digər komponentlər daxildir. Mahiyyətcə, burada xalqın heç kimdən asılı olamayaraq öz taleyinə sərbəst və tamamilə azad sahib olmaq, öz iradəsinə uyğun gələn ictimai və dövlət quruluşunu yaratmaq və istədiyi sivilizasiya və mədəniyyət formasına malik olmaq hüququ barədə söhbət gedir .

Üçüncüsü, xalq hakimiyyəti və dövlət hakimiyyəti həmçinin, öz obyektinə görə fərqlənir. Dövlət hakimiyyətinin obyektinə fiziki, hüquqi şəxslər, sosial qruplar, digər kollektiv törəmələr aiddir. Xalq hakimiyyətinin obyektinə dövlət və bələdiyyə hakimiyyəti aiddir.

Dördüncüsü,Xalq hakimiyyəti eyni zaman öz həyata keçirilməsi mexanizminə görə də fərqlənir. Xalq hakimiyyəti mexanizmi müəyyən tərzdə təşkil olunmuş müxtəlif siyasi-hüquqi və ictimai institut, təşkilat və müəssisələr sistemdir, məhz onların vasitəsilə də xalq öz iradəsini həyata keçirir və qoruyur.

Beşincisi, dövlət hakimiyyəti xalq hakimiyyətinin əsas formasıdır, onun digər forması isə yerli ozünüidarəetmədir(bələdiyyə hakimiyyəti).

Xalq hakimiyyətinin prosessual məzmunu xalqın özünə məxsus hakimiyyətinin bir başa demokratiya institutları vasitəsilə və yaxud dövlət hakimiyyəti və yerli

özünüidarəetmə orqanlarında öz nümayəndələri vasitəsilə həyata keçirmək hüququnda təzahür olunur.

Xalq hakimiyyətinin yuxarıda nəzərdə keçirilmiş fərqli əlamətləri dövlət hakimiyyətinin əlamətlərilə sıx əlaqədə olsa da onları bərabər tutmaq olmaz. Eyni zamanda qeyd etmək lazımdır ki, onlar o qədər sıx əlaqədədir ki, dövlət olmadan xalqın suverenliyini tam şəkildə həyata keçirmək də mümkün deyil.

Müasir həyatın mürəkkəb ictimai-siyasi və hüquqi təzahürü olan xalq hakimiyyəti iki əsas qrupda təsnifatlaşdırıla bilən bir sıra prinsiplərə əsaslanır: 1) ümumiyyətlə hakimiyyətə xas olan ümumi prinsiplər; 2) yalnız xalq hakimiyyətinə xas olan xüsusi prinsiplər.

Ümumi prinsiplərə qanunçuluq, aşkarlıq, insan hüquqlarının prioriteti, şəxsiyyətin azadlığı, məsuliyyəti və təminat sistemi aiddir.

Xüsusi prinsiplərə xalq suverenliyi, vətəndaşlar tərəfindən siyasi hüquq və azadlıqlarının real həyata keçirilməsi, dövlət və cəmiyyətin işlərinin idarə olunmasında azad və bərabər imkanlar, demokratiyanın iki əsas formasının (bilavasitə və nümayəndəli) dialektik ahəngi, imperativ mandat prinsipini aid etmək olar.

2. Konstitusiya hüququ elmində Suverenlik konsepsiyasının nəzəri və tarixi aspektləri

Müasir demokratik, hüquqi, konstitusion dövlətin əsasını xalq suverenliyi prinsipi təşkil edir. Ümumbəşəri dəyər xarakteri almış "xalq suverenliyi" ideyası XVIII əsrdə yaransa da bu günədək həmin kateqoriyanın anlayışı,

məzmunu və mahiyyəti barədə alimlər arasında yekdil fikir yoxdur.

Bəzi dövlətşünas alimlərin mülahizələrinə görə xalq suverenliyi praktiki əhəmiyyətə malik olmayan, sadəcə mənəvi əhəmiyyət kəsb edən bir prinsipdir. Məsələn, hələ XIX əsrin görkəmli fransız alimi, konstitusionalist L.Dyuqi yazırdı ki, xalq suverenliyi hüquqi qüvvəsi olmayan, deklorativ bir prinsipdir (116,s.42).

Bu cür fikirlərə müasir dövrdə də rast gəlmək olar. Məsələn, Rusiya Federasiyası Konstitusiyasının kommentariyasında qeyd olunur ki, xalq suverenliyi hüquqi fiksiyadır və müasir konstitusionalizm nəzəriyyəsi və kütləvi siyasi hakimiyyətin insan hüquqları ilə məhdudlaşdırılması ideyaları ilə bir araya gəlmir (114,s.77,78).

Digər qrup tədqiqatçıların yanaşmasına görə isə xalq suverenliyi mühüm siyasi-ideoloji və praktiki əhəmiyyətli, ümumbəşəri dəyər xarakterli fenomenal hadisədir. Onlar qeyd edirlər ki, suverenlik təzahürünün tarixi təcrübəsi onu göstərir ki, bu fenomenal hadisənin kifayət qədər qiymətləndirməməsi, bir çox neqativ hadisələrin baş verməsi ilə nəticələnə bilər. Bəzi tədqiqatçılar isə suverenlik termininin etimoloji mənasını (suverenlik- lat. “ali”) rəhbər tutub xalq suverenliyini xalq hakimiyyətinin aliliyi kimi izah edirlər.

Yuxarıda göstərilən mübahisəli fikirlərlə yanaşı dövlətimizin və bəzi xarici ölkələrin konstitusiya qanunvericiliyində, beynəlxalq aktlarda xalq suverenliyi ilə yanaşı dövlət suverenliyi, milli suverenlik terminlərindən də istifadə olunur. Məsələn, Fransa Konstitusiyasında qeyd olunur ki, milli suverenlik xalqa məxsusdur (maddə 3), oxşar normaya İspaniya Konstitusiyasında da rast gəlinir. Burada göstərilir ki, milli suverenlik ispan xalqına məxsusdur (maddə 1, hissə 2) Yunanıstanın

konstitusiyasında isə qeyd olunur ki, xalq suverenliyi siyasi rejimin əsasını təşkil edir (maddə1.).

Rusiya Konstitusiyasında həm xalq suverenliyi, həm də dövlət suverenliyi terminlərindən istifadə olunur.

Azərbaycan Respublikasının Konstitusiyası yalnız "xalq suverenliyi" anlayışından istifadə edir. Bir çox müasir tədqiqatçılar bu terminləri fərqləndirir, digərləri isə bunun əksinə olaraq onları eyniləşdirirlər. Zənnimizcə bu və yuxarıda göstərilən digər mübahisələrin həqiqi cavabını aşkar etmək üçün biz suverenlik kateqoriyasını tarixi inkişaf kontekstində nəzərdən keçirməliyik.

Hüquq terminologiyasında adətən hər bir anlayış konkret tarixi ictimai-siyasi şəraitdə yaranır və həmin tarixi mərhələdə mövcud olan müvafiq sosial hadisələri əks etdirir, ictimai münasibətlərin inkişafı ilə həmin terminlərin məzmunu dəyişir və yeni cəhətlərlə zənginləşir. Bu cür vəziyyət suverenlik anlayışına da aid edilə bilər.

Ötən paraqrafda qeyd olunduğu kimi hakimiyyətin "suverenliyi" və yaxud "aliliyi" anlayışı ilk dəfə XVI əsrdə fransız hüquqşünası Jan Boden tərəfindən ifadə edilmişdir.

Antik dövlət şübhəsiz ki, suveren olmuşdur, yəni, o, ali ittifaq idi. Bundan başqa, o zamankı dövlət cəmiyyətdə yeganə sərbəst ittifaq olmaqla bütün ictimai həyatı əhatə edərək digər birlik formalarını özünə tabe edirdi. Bununla belə antik zamanlarda suverenlik anlayışı meydana gəlməmişdir. Bunu nə ilə izah etmək olar?

İnsan şüurunda bütün anlayışlar müqayisə yolu ilə əmələ gəlir. Bir təzahürü digəri ilə müqayisə etməklə biz onun fərqli əlamətlərini aşkar edirik. Qədim həyatda dövlət yeganə sərbəst ittifaq olmuşdur. O, hamıdan qüdrətli idi, heç bir ittifaq onunla rəqabət apara bilmirdi. Qədim yunan və romalılar dövlətin ali ərazi ittifaqı olmamasını təsəvvür edə bilməzdi və "suverenlik" anlayışı praktiki olaraq lazım deyildi, çünki dövlətlə rəqabət apara biləcək siyasi qüvvə

yox idi. Ayrı-ayrı dövlətlərin öz aralarında rəqabəti olsa da Romanın ümumdünya hökmranlığının yaranması ilə bu rəqabət də yox olmuşdur.

Orta əsrlərdə bu vəziyyət xeyli dəyişir. Dövlətlə rəqabət aparan və ali hakimiyyəti onun əlindən almaq istəyən digər ictimai-siyasi qüvvələr tarix səhnəsinə çıxır.

İlk vaxtlar xristian kilsəsinin dünyəvi hakimiyyətə heç bir aidiyyəti yox idi və o, dövlət həyatında heç bir siyasi rola iddia etmirdi. Lakin hakimiyyət nümayəndələri və əhali tərəfindən xristianlığın qəbul edilməsilə kilsə təcrid olunmuş vəziyyətdən çıxır və dövlətlə rəqabət apararaq hakimiyyətə, dövlətdən üstün olan siyasi hakimiyyətə iddia etməyə başlayır, papanın simasında kilsə bütün bəşəriyyəti özünə tabe etmək istəyən hakimiyyətə çevrilmək istəyir.

Eyni zamanla həmin dövrdə Roma imperiyasından orta əsrlər dövrünə ümumdünya dövlət ideyası miras qalmışdı. Belə ki, alman kralları Roma imperatorları tərəfindən tac alırdı və "Müqəddəs Roma imperiyasını" yaratmışdılar. Beləliklə, mövcud olan dövlətlə yanaşı bütün xalqları əhatə edən ümumdünya dövlət ideyası da yaşamaqda idi. Düzdür, əslində belə dövlət olmayıb, çünki alman imperatoru faktiki olaraq müasir Almaniya və Avstriyaya, bəzən isə İtaliyanın şimal və orta hissələrinə sahiblik edirdi. Avropanın qalan hissəsi faktiki olaraq ona tabe deyildi, lakin ümumdünya imperiya ideyası Avropanın digər monarxiyaları üçün təhdid yaradırdı. Hətta tamamilə müstəqil və coğrafi mövqeyinə görə təcrid olan İngiltərə kimi ada dövləti üçün də bu təhdidlər mövcud olub.

Dövlətin ümumdünya dövlət ideyası və kilsə kimi iki rəqibi ilə yanaşı orta əsr dövləti qarşısında üçüncü rəqib olan-feodal hakimiyyəti də mövcud idi. Orta əsrlərdə dövlət hakimiyyəti torpaq sahibinin hakimiyyəti kimi başa düşülürdü. Bəzi torpaq sahibləri demək olar ki, dövlət hakimiyyətinə tabe olmayan siyasi hakimiyyətə malik idilər.

Düzdür, kral qarşısında onların müəyyən vassal öhdəlikləri var idi, lakin dövlət hakimiyyətinə tabe olmağa dair təbəə vəzifələri onlara aid deyildi.

Dövlət hakimiyyətinin əsas rəqibləri olan kilsə, ümumdünya dövlət ideyası və feodalizmlə mübarizəsindən yeni dövrün milli dövlət, müasir dövlət hakimiyyəti əmələ gəlmişdir. Bütün orta əsrlər dövrünün siyasi tarixi məhz bu mübarizənin tarixidir. Yaranan milli dövlətin rəqibləri üzərində təntənəsi yeni dövrün başlanmasını bildirir. Dövlət hakimiyyəti öz rəqiblərinə qalib gələndə elmdə "suverenlik", "dövlət hakimiyyətinin aliliyi" anlayışı, orta əsr dövlətinin acizliyi ilə müqayisədə yeni dövlət hakimiyyətinin qüdrəti faktı meydana gəlmişdir.

Sözün müasir mənasında dövlət ilk dəfə İngiltərədə meydana gəlmişdir, lakin suverenlik ideyası İngiltərəyə məxsus deyil. İngiltərədə dövlətlə rəqibləri arasında ciddi mübarizə getmirdi, burada dövlət hakimiyyəti qələbəni asanlıqla əldə etmişdir, çünki rəqib qüvvələr olduqca zəif idi. Burada katolik kilsəsi Avropada olduğu kimi real siyasi qüvvəyə malik deyildi. Öz coğrafi mövqeyinə görə İngiltərə əlahiddə dövlət ideyası da digər dövlətlərdə olduğundan daha az təhdid yaradırdı. Nəhayət, dövlət daxilindəki feodal hakimiyyətinə gəldikdə isə, qeyd etmək lazımdır ki, İngiltərədə feodalizm qitədə formalaşan şəkildə olmayıb. İngiltərə feodalizmi normanların işğalından başlayaraq sərbəst qüvvə olmayıb və bu baxımdan kral hakimiyyəti üçün təhdid yaratmırdı. Buna görə də İngiltərədə suverenlik anlayışının ifadə edilməsi üçün praktiki tələbat yaranmamışdır.

Əksinə, Avropanın qitə dövlətlərində suverenlik dövlətlərin kilsə, imperatorlar və feodallarla qəddar savaş bahasına əldə edilmişdir. Bu mübarizə ilk olaraq Fransada başlanmış və sona çatmışdır, buna görə də məhz orada ilk dəfə olaraq suverenliyin elmi nəzəriyyəsi meydana

gəlmişdir. Hələ XIV- XV əsrlərdə Fransada fransız kralının papa, imperator və feodallar ilə mübarizəsi zamanı sadiq köməkçiləri olan legist-kralların dəstəyi ilə tədricən suverenlik anlayışının ayrı-ayrı elementləri əmələ gəlməyə başlayır.

Birinci, yaranan təlimə görə kral papaya tabe olmur və əksinə öz dövlətində katolik kilsəsi üzərində hakimiyyətə malikdir. Sonralar təsəvvür formalaşır ki, fransız kralı Roma imperatorundan da asılı deyil, bu da "Rex Franciae est imperator in regno suo"-yəni "fransız kralı öz krallığında imperatordur" ifadəsində təcəssüm olunur. Üçüncü, feodal mülkədarlar kral qarşısında müəyyən vəzifələr daşıyır və onun hakimiyyətinə tabe olmalıdırlar.

XVI əsrdə Fransada dövlət hakimiyyətinin möhkəmələnməsi prosesində dövlətin kilsə, imperator və feodallar üzərində qələbə əldə etməsi ilə əlaqədar dövlət hüququ elmində Jan Bodenin suverenlik anlayışına dair təlimi meydana gəldi. Onun verdiyi tərifə görə hakimiyyət "vahid, daimi və qanunlarla məhdudlaşdırılmayan" qüvvədir və krala məxsusdur (118,s.187,383). Dövlətin hüquqi şəxs ideyası Boden üçün yad idi. Buna görə də onun tərifinə görə suverenlik dövlətə deyil, monarxa məxsusdur. XVII əsrdə İngiltərədə T.Hobbs suverenlik haqqında Bodenin təlimini inkişaf etdirir və bəzi məsələlərdə ondan da irəli gedir. Boden dövlət hakimiyyətini qeyri-məhdud hakimiyyət kimi qəbul edirdi. Hobbs isə güman edir ki, dövlət hakimiyyəti nə hüquq, nə də həyatın digər sahələrində, xüsusilə əxlaq və din kimi sahələrdə məhdudiyyətsiz səlahiyyətə malik deyil. Bodendən fərqli olaraq Hobbs dövləti hüquqi şəxs kimi tanıyır, lakin bu şəxs onun təsəvvüründə bir fiziki şəxs olan monarxın simasında təcəssüm olunur, məhz bu şəxs də dövlətin yeganə təmsilçisidir.

Tarixi yanaşma göstərir ki, suverenlik haqqında təlim əzəldən yalnız nəzəri deyil, həm də praktiki əhəmiyyətə

malikdir. O, rəqib olan ictimai qüvvələrə qarşı mübarizədə dövlət hakimiyyətinin siyasi silahı olmuşdur. Lakin dövlətin qələbəsindən sonra da bu fenomenal hadisə əhəmiyyətli dəyişikliyə məruz qalır. J.Bodenin dövründən fərqli olaraq suverenlik anlayışı dövlətin xarici, yad elementlərlə mübarizəsində deyil, dövlət hakimiyyətinin daxilindəki müxtəlif elementlər arasındakı mübarizəsində siyasi silaha çevrilmiş olur. J.Bodenin və T.Hobbsun nəzəriyyələri dövlətin aliliyi ideyasını müdafiə etməklə, eyni zamanda müəyyən idarəetmə formasına yəni mütləq monarxiyaya bəraət qazandırmağa və dövlətin digər elementlərinə qarşı mübarizədə monarx hakimiyyətinə dəstək verməyə meyl edirdi.

Lakin dövlət hakimiyyətinin müxtəlif elementlərinin daxili mübarizəsində monarxın suverenliyi nəzəriyyəsinə müxalif olan xalq suverenliyi nəzəriyyəsi formalaşdı.

Xalq suverenliyi təliminin əsas yaradıcılarından biri sayılan fransız maarifçilik fəlsəfəsinin nümayəndəsi J.J.Russo qeyd edir ki, suverenlik xalqa məxsusdur və xalq suverenliyi vahiddir, bölünməzdir və ayrılmazdır. O, yazırdı ki, suverenlik xalqın ümumi iradəsidir və bu iradə özgəninkiləşdirilə bilməz. Nümayəndəli idarəçilik formasını inkar edən J.J.Russo yazırdı ki, qanunvericilik səlahiyyətləri yalnız xalqın özü tərəfindən həyata keçirilə bilər. Suverenliyin bölünməzliyini müdafiə edən J.J.Russo hakimiyyətlər bölgüsü doktrinasını da qəbul etmirdi. O, hakimiyyətlər bölgüsü ideyasına qarşı dövlət orqanlarının funksiyalarının bölgüsü ideyasını irəli sürürdü. J.J.Russoya görə xalq suverenliyi qeyri məhduddur, konstitusiya və digər qanunlarla məhdudlaşa bilməz (118,s.187,383).

Beləliklə, XVIII əsrin sonundan başlayaraq suverenlik kateqoriyası yalnız dövlət hakimiyyətinin aliliyi deyil, həm də dövlət hakimiyyətinin mənbəyini xarakterizə etmək üçün istifadə olunmağa başladı.

Xalq suverenliyi haqqında təlim ilk dəfə 1776-cı ildə ABŞ-ın İstiqlaliyyət Bəyannaməsində və Fransanın 1789-cu il insan və vətəndaş hüquqları haqqında Bəyannaməsində öz hüquqi ifadəsini tapdı.

XIX əsrin sonu XX əsrin əvvəli dünya hüquq elminin nümayəndələrindən biri G.Ellinek Avropa ölkələrinin təcrübəsinə istinad edərək yazırdı: öz tarixi mənşəyinə görə suverenlik siyasi hadisədir, sonradan o nəticə etibarilə hüquqi hadisəyə çevrilmişdir. Onu mütəfəkkirlər öz kabinetlərində yaratmayıb. O, böyük qüvvələrin mübarizəsi nəticəsində yaranmışdır və tarixi təcrübə təsdiqləyir ki, suverenlik mütləq deyildir (117,s.363).

Qərbi Avropa ənənəsinə uyğun olaraq bəzi demokratik ölkələrin konstitusiya qanunvericiliyində və siyasi-hüquqi doktrinada "xalq suverenliyi" və "milli suverenlik" terminləri sinonim kimi qəbul edilir və burda əsasən "milli suverenlik" terminindən istifadə olunur. Lakin XX əsrdən başlayaraq "milli suverenlik" anlayışına dair yeni yanaşma yarandı. Belə ki, bu anlayış "milli dövlət" yaratmaq da daxil olmaqla, millətlərin öz müqəddəratını təyin etmə hüququ ilə eyniləşdirilirdi. Öz təbiətinə görə bu kateqoriya hüquqi anlayış deyildir. Belə ki, heç bir çoxmillətli dövlət öz birliyini dağıtmaq istəməz və əlbəttə ki, bunu qanuniləşdirməz. Bu kontekstdə separatizmin qarşısını almaq üçün Avropa birliyi ATƏT-in Helsinki yekun Aktında Avropa qitəsində ərazi bütövlüyünün təmin olunması və dövlət sərhədlərinin toxunulmazlığı prinsipini bəyan etdi.

Elmdə mövcud olan mülahizələrə görə XX əsrdən başlayaraq "milli suverenlik" anlayışının fərqli formada izah olunmasında marksizm-leninizm ideologiyanın təsiri olmuşdur. Bolşeviklər böyük məharətlə Rusiya imperiyasında çarizmə qarşı mübarizədə "millətlərin özünü müəyyənetmə hüququ" şüarını istifadə etmişdirlər. Onlar

Rusiya İmperiyasında müstəmləkə altında olan dövlətlərdə milli-azadlıq uğrunda mübarizə hərəkatını qızışdırmağa başladılar. Məhz SSRİ-nin təsiri ilə "Millətlərin öz müqəddəratını həll etmək hüququ" BMT-nin Nizamnaməsinə beynəlxalq hüququn əsas prinsipi kimi daxil edildi və azadlığı uğrunda mübarizə aparan millətlər dövlət və beynəlxalq təşkilatlarla yanaşı beynəlxalq hüququn subyekti kimi qəbul edildi. Lakin SSRİ və onun keçmiş müttəfiqləri (məs. Yuqoslaviya, Çexoslovakiya və s.) öz daxili siyasi həyatında faktiki olaraq "milli suverenlik" doktrinasından imtina etdilər.

Demokratik, hüquqi dövlət milli mənsubiyyətinə görə hər cür ayrı seçkiliyi (diskriminasiyanı) rədd edir və öz ərazisində yaşayan bütün vətəndaşların milli-mədəni maraqlarının həyata keçirilməsi hüququnu təmin edir. Yalnız milli şovinistlər, separatçılar, milli bərabərliyi, tolerantlığı inkar edən şəxslər "millətlərin öz müqəddəratını müəyyən etmək" şüarı altında, beynəlxalq birlik tərəfindən "de-yure" və "de-fakto" tanınan, hər kəsin milli-mədəni hüququnu təmin edən, milli əlamətinə görə heç bir ayrı-seçkiliyə yol verməyən dövləti parçalamaq və yeni milli dövləti yaratmaq iddiaları ilə çıxış edə bilər.

Təsadüfi deyildir ki, beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsində qeyd olunur ki, dövlətlər özünümüəyyənetmə hüququn dəstəkləməlidirlər. Eyni zamanda burada qeyd olunur ki, heç bir hal suveren və müstəqil dövlətlərin siyasi vahidliyinin və ərazi bütövlüyünün, milli birliyin pozulmasına yönələn hal kimi şərh edilə, dəstəklənə bilməz.

Beynəlxalq birlik həm millətlərin özünümüəyyənetmə, həm də dövlətlərin tanınma institutlarını müəyyən edir. Lakin bu institutlar müəyyən hallarda beynəlxalq hüququn subyekti sayılan "mübarizə aparan millət" anlayışı ilə kəsişir. Bəs biz kimiləri "mübarizə aparan millət" anlayışına

aid etməliyik? Bu sualın beynəlxalq hüquqda dəqiq definisiyası varmı? Dünya təcrübəsi göstərir ki, bu məsələ hüquqla deyil, beynəlxalq birliklərin, ayrı-ayrı hegemon dövlətlərin mülahizələri əsasında baş verir ki, bu da müəyyən hallarda ədalətsizliklərə, ikili standartlara, beynəlxalq hüququn təməl prinsiplərinin pozulmasına gətirib çıxarır.

Hesab edirik ki, demokratik hüquqi dövlətdə "mübarizə aparan millət" anlayışı aktual sayıla bilməz. Belə ki, burda vahid xalq anlayışı mövcuddur ki, millətindən asılı olmayaraq bütün vətəndaşları ehtiva edir və onların hər biri ayrı-seçkiliyə verilmədən suverenliyin daşıyıcısı kimi çıxış edirlər. Burada milli suverenlik, yəni millətlərin öz müqəddəratını müəyyən etmə hüququ birlikdə yaşadığı digər millətlərin hüquq və mənafeləri, bütövlükdə xalqın suverenliyi əsasında gerçəkləşə bilər.

Zənnimizcə, sovet elmindən miras qalmış "milli suverenlik" anlayışının millətlərin öz müqəddəratını müəyyənetmə hüququ kimi təfsiri müəyyən qarışıqlıq və ziddiyyətlər yaradır. Çünki, belə olan halda suverenlik xalq və onun tərkibinə daxil olan millət və yaxud millətlər arasında bölünmüş olur ki, bu da suverenliyin ən mühüm keyfiyyət göstəricisi olan onun vahidliyi əlamətinə ziddir.

Etiraf etmək lazımdır ki, bu cür tendensiyalar müasir dövrdə olduqca təhlükəlidir, xüsusilə çoxmillətli ölkələrdə milli separatizmə, millətlərarası münaqişələrə, vətəndaş müharibələrinə gətirib çıxara bilər.

Beləliklə, yuxarıda deyilənləri nəzərə alaraq vurğulamaq olar ki, milli özünümüəyyənetmə hüququ birlikdə yaşadığı digər millətlərin hüquq və mənafeyini, bütövlükdə xalqın suverenliyini, beynəlxalq hüququn təməl prinsiplərini nəzərə almaqla, öz varlığını, həyat tərzini, dilini, mədəniyyətini qoruyub saxlamaq, azad inkişafını

təmin etmək üçün millətlərin siyasi, iqtisadi və mədəni özünümüəyyənetmə hüququdur.

Bu kontekstdə, xalq suverenliyi və beynəlxalq hüququn təməl prinsipləri əsasında, millətlərin öz müqəddəratını müəyyən etmə hüququ (milli suverenlik) aşağıdakı formalarda reallaşa bilər:

1) Etnomədəni özünümüəyyənetmə: ölkə qanunvericiliyi səviyyəsində millətlərin öz mədəni irsinin qorunub saxlanması, inkişaf etdirilməsi, dilinin və adət-ənənlərinin müdafiəsinə təminat verilməsi, milli-mədəni muxtariyyətin yaradılması;

2) Siyasi özünümüəyyənetmə: unitar və yaxud federativ dövlətin tərkibində inzibati və yaxud siyasi muxtariyyətin yaradılması.

Beləliklə, qısa tarixi təhlil onu göstərir ki, suverenlik təzahürü yalnız nəzəri və ideoloji deyil, həm də mühüm praktiki əhəmiyyətə malik olan fenomenal hadisədir. Suverenlik hadisəsinin meydana gəlməsi və inkişafı müəyyən qüvvələrin kəskin siyasi mübarizəsinin nəticəsidir. Müasir dövrdə həmçinin bu fenomenal hadisənin düzgün qiymətləndirilməməsi və yaxud heç bir praktiki önəmi olmayan, deklrativ bir prinsip kimi qəbul edilməsi həm konkret dövlət, həm də beynəlxalq ictimaiyyət üçün mənfi nəticələrə səbəb ola bilər. Suverenlik təzahürünün inkar olunması və yaxud düzgün dərk olunmaması, ölkədə qeyri demokratik rejimin yaranması, dövlətin tənəzzülü, cəmiyyətdə münaqişələr, separatizm və digər neqativ halların yaranmasına səbəb ola bilər.

Bəzi siyasi-hüquqi ədəbiyyatlarda xalq suverenliyini sadəcə ali hakimiyyət kimi izah olunması tendensiyasını da bu fenomenal hadisəyə dar yanaşma kimi hesab edirik. Burada qeyd olunan anlayış "suverenlik" terminin etimologiyasına əsaslanır. Məsələn, dünyada ən geniş

tanınmış Vebsterin lüğətində "suverenlik" aşağıdakı kimi izah olunur:

1) Ali hakimiyyətə malik olan şəxs;

2) Suveren hakimiyyətə malik olan şəxs, qrup və yaxud dövlət (142,s.17).

Etimoloji məna əsasında xalq suverenliyini ali hakimiyyət kimi xarakterizə edilməsi tendensiyasını inkar etmədən hesab edirik ki, xalq suverenliyi daha dərin məzmunlu, mühüm elmi, ideoloji, siyasi və praktiki əhəmiyyət kəsb edən fenomenal siyasi-hüquqi hadisədir.

Müasir dövrün bəzi tədqiqatçıları dövlət suverenliyi və xalq suverenliyi hadisələrini ya eyniləşdirir, ya da ki, bir -birinə qarşı qoyur. Lakin, suverenlik təzahürünün genezisi və tarixi inkişafı bizə göstərdi ki, dövlət suverenliyi və xalq suverenliyi anlayışları müxtəlif tarixi dövrlərdə və şəraitdə yaranmasına baxmayaraq, onlar qırılmaz sürətdə bağlı olan və bir-birini tamamlayan hadisələrdir. Demokratik siyasi rejimdə dövlət suverenliyi və xalq suverenliyi anlayışları üst-üstə düşür. Belə ki, demokratik rejimdə dövlət hakimiyyətinin yeganə mənbəyi xalqdır.

Bəzi xarici dövlətlərin konstitusiyalarında "xalq suverenliyi" və "dövlət suverenliyi" terminlərinin hər ikisinə rast gəlmək olar. Azərbaycan Respublikasının Konstitusiyasında yalnız "xalq suverenliyi" terminindən istifadə olunur. Zənnimizcə, bu məsələdə Azərbaycan Respublikası Konstitusiyasının mövqeyi daha düzgündür. Birincisi, suverenlik vahiddir, bölünməzdir və demokratik siyasi rejimdə o, xalqa məxsusdur; İkincisi, xalq suverenliyi eyni zamanda dövlət suverenliyini də ehtiva edir. Hesab edirik ki, hər iki termindən istifadə təkrarçılığa, ictimai şüurda hər iki hadisə barədə tam fərqli, üzvi bağlılığı olmayan fikirlərə yol açır.

Bütün bunlarla yanaşı suverenlik təzahürünün tarixi təcrübəsi həm də onu göstərir ki, xalq suverenliyinin

cəmiyyət üçün mühüm siyasi-təcrübi, ideoloji əhəmiyyətinə baxmayaraq onu ideallaşdırmaq düzgün sayıla bilməz. Xalq suverenliyinin özünün də realizə hədləri mövcuddur və bu hədlərdən kənara çıxmaq xalq suverenliyinə böyük zərər vura bilər. Xalq suverenliyi heç də o demək deyildir ki, xalq ictimai və dövlət həyatının bütün məsələlərini bilavasitə həll etməlidir, dövlətdə bütün işləri xalq daimi və fasiləsiz idarə etməlidir. Bilavasitə demokratiya institutları nə qədər mühüm olsalar da konstitusiya hüquqi düşüncə və təcrübə belə bir qənaətə gəlmişdir ki, xalq suverenliyinin yalnız bilavasitə demokratiya formasında həyata keçirilməsi qeyri-mümkündür. İctimai və dövlət proseslərinin idarə edilməsi daimi, fasiləsiz və peşəkar rəhbərliyi, idarəçiliyi tələb edir ki, bu da yalnız nümayəndəli demokratiya institutları vasitəsilə mümkün ola bilər.

Demokratik, hüquqi dövlətdə xalq suverenliyinin hüquqi hədləri adətən dövlətin əsas qanunu sayılan Konstitusiya ilə müəyyən olunur. Burada Konstitusiya dövlətin əsas qanunu kimi bilavasitə xalq tərəfindən qəbul edilir və xalq özü suverenliyin hüquqi hədlərini müəyyən edir və bu tendensiya xalq suverenliyinin məhdudlaşdırılması kimi qiymətləndirilə bilməz.

Bəzi tədqiqatçılar məsələn, rus alimi V.A.Çetvernin xalq suverenliyini hüquqi fiksiya adlandırır. Onun mülahizələrinə görə xalq suverenliyi müasir konstitusionalizm nəzəriyyəsi və siyasi hakimiyyətin insan hüquqları ilə məhdudlaşdırılması ideyaları ilə bir araya gəlmir (114,s.77,78). Yuxarıda göstərilən alimin fikirləri ilə çətin razılaşmaq olar. Belə ki, o konstitusionalizmi və insan hüquqlarını xalq suverenliyindən kənar hadisə kimi qiymətləndirir. Əslində isə bu heç də belə deyildir. Xalq suverenliyi konstitusionalizm və insan hüquqları təzahürlərini də ehtiva edir. Azərbaycan konstitusionalizminə görə, konstitusiya təsisedici

hakimiyyətin, yəni xalqın qəbul etdiyi qanundur və o normativ aktlar sistemində ən yüksək hüquqi qüvvəyə malikdir. Dövlətin əsas qanunu kimi xalq suverenliyinin realizə formalarını və hədlərini də məhz konstitusiya müəyyən edir. Xalq suverenliyinə görə, normativ aktlar sistemində ən yüksək hüquqi qüvvəyə malik olan, xalq hakimiyyətinin formalarını və hədlərini, dövlətin əsaslarını, şəxsiyyətin hüquqi statusunun əsaslarının tənzimləyən Konstitusiya xalq tərəfindən referendumla qəbul edilir. Digər tərəfdən insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması xalq suverenliyinin əsas keyfiyyət göstəricilərindən biridir. Ölkədə insan və vətəndaş hüquq və azadlıqlarının pozulduğu halda çətin ki, xalq suverenliyindən də danışmaq olar. Xalq məhz elə bu insan və vətəndaşlardan ibarət olan varlıqdır. Bu kontekstdə hesab edirik ki, professor Çetverninin fikirləri ilə razılaşmaq düzgün olmazdı. Belə ki, konstitusionalizm və insan hüquqları xalq suverenliyinin ən mühüm keyfiyyət və kəmiyyət göstəriciləridir.

4.Azərbaycanın Konstitusiya tarixində xalq hakimiyyətinin hüquqi tənzimi

Bəşəriyyətin tarixi hər bir xalq üçün böyük sərvətdir. Bu tarixi unudan cəmiyyət xoşbəxt gələcəyini təmin edə bilməz. Bu gün ictimai həyatın müxtəlif sahələrində geniş istifadə olunan demokratiya (xalq hakimiyyəti) məfhumu da qədim və zəngin tarixə malikdir. Antik dünyada yaranan və 2500 ildən çox tarixi olan demokratiyanı öyrənmədən ona iddia etmək düzgün olmazdı. Bəşər sivilizasiyasının ayrılmaz tərkib hissəsi olan qədim dövlətçilik təcrübəsinə malik Azərbaycan xalqının da tarixində demokratik ənənələrin formalaşması və bəşər cəmiyyətinin inkişafına böyük töhfə verməsi tarixi həqiqətdir. Ölkəmizdə demokratiyanın gələcək inkişafında, qloballaşan dünyada Azərbaycanın layiqli yer tutmasında bu ibrətamiz tarixin öyrənilməsinin böyük əhəmiyyəti danılmazdır.

Çoxəsrlik dövlətçilik tarixinə malik olan Azərbaycan cəmiyyəti qədim dövrlərdən başlayaraq bu günə qədər zəngin bəşəri dəyərləri, demokratik, humanist, xeyirxah, ədalətlilik ənənələri ilə daimi seçilmişdir. Məsələn, qədimdə Manna dövlətinin ilkin dövrlərində dövlət hakimiyyəti sistemində mövcud olan Ağsaqqallar Şurası o dövr üçün xarakterik olan qeyri-məhdud hökmdar hakimiyyətinin məhdudlaşdırılması baxımından önəm daşıyırdı və

respublika dövlət idarəçilik formasının elementlərini özündə ehtiva edirdi. Eləcə də şəhər əhalisinin hüquqlarının müdafiəçisi kimi çıxış edən əxilər qardaşlıq təşkilatının mövcudluğunu, o cümlədən orta əsrlərdə Azərbaycan ərazilərini əhatə edən Hülakilər dövlətinin ilkin dövrlərində dövlət başçılarının ali Monqol qurultayında seçilməsini, Səfəvilərin hakimiyyəti dövrlərində dövlət idarəçilik sistemində məşvərətçi statusa malik olan "Məclisi-Əla"nın (Ali Məclisin) dövlət həyatının mühüm məsələləri ilə bağlı qərarların qəbul edilməsində hökmdar iradəsinə təsirini müasir demokratik idarəçilik sisteminin elementləri kimi qiymətləndirmək olar. Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində yuxarıda qeyd olunan və digər demokratik ənənələrin mövcudluğuna baxmayaraq xalq hakimiyyəti termini ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il İstiqlal Bəyannaməsində öz hüquqi ifadəsini tapır.

Bu mühüm tarixi sənəd Konstitusiya aktı statusuna malik olan Azərbaycan Cümhuriyyətinin ilk hüquqi sənədi idi.

İstiqlal Bəyannaməsində müstəqil Azərbaycan dövlətinin yarandığı (xalq cümhuriyyəti formasında) bəyan olunmuş, onun hakimiyyətinin şamil edildiyi ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdı. Burada demokratik dövlətə məxsus atributların-hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi, silki və cinsi mənsubiyyətindən asılı olmayaraq azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyət bölgüsü kimi prinsiplərin dövlət fəaliyyətinin əsasını təşkil etməsinin bəyan edilməsi suveren, demokratik, hüquqi dövlət yaradılması istəyini nümayiş etdirirdi.

Azərbaycan Cümhuriyyətinin İstiqlal Bəyannaməsində göstərilir ki, "Bu gündən etibarən Azərbaycan xalqı

hakimiyyətə malik olduğu kimi, Cənubi-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tamhüquqlu müstəqil bir dövlətdir. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir".

Xüsusilə vurğulamaq yerinə düşər ki, bu tarixi sənəd yalnız xalqın hakimiyyətini bəyan etməklə məhdudlaşmır. Burada xalq hakimiyyətinin həyata keçirilmə mexanizmləri də müəyyənləşdirilir. AXC Konstitusiya Aktı ölkədə xalq hakimiyyətinin həyata keçirilməsinin bilavasitə və nümayəndəli formalarını təsis edirdi. Belə ki, Bəyannamənin 6-cı bəndində deyilir ki, "Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti Hökumət durur".

Konstitusiya Aktında bəyan olunan müddəaları reallaşdırmaq üçün Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası parlamentin yaradılması haqqında qanun və 1919-cu il iyulun 21-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti-Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə qəbul etmişdir. Bu əsasnaməyə görə Məclis cinsindən asılı olmayaraq 20 yaşına çatmış bütün respublika vətəndaşlarının bərabər, birbaşa və gizli səsvermə yolu ilə iştirak etdiyi seçkilər vasitəsi ilə seçməli idi (57, s. 285).

AXC Konstitusiyasının qəbul edilməsində, dövlət quruculuğunda, qanunçuluğun möhkəmləndirilməsində, hüquq institutlarının təşəkkülündə böyük əhəmiyyət kəsb edə biləcək Müəssislər Məclisinə seçkilər 1920-ci il aprelin 20-nə təyin edilmişdi. Lakin 1920-ci ilin yazından başlayaraq yaranmış böhran seçkilərin keçirilməsinə imkan vermədi (57, s. 292).

AXC dövründə qəbul olunan Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti, hökuməti və bayrağı haqqında konstitusiya xarakterli qanunlar və digər siyasi-hüquqi

sənədləri müəyyən qədər Azərbaycanın Konstitusiya quruculuğunun başlanğıcı kimi qiymətləndirmək olar. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı, Azərbaycanda sovetlər hakimiyyəti quruldu və Azərbaycan Sovet Sosialist Respublikası yarandı. 1921-ci il mayın 19-da I Ümumazərbaycan sovetlər qurultayında Azərbaycan SSR-in ilk Konstitusiyası qəbul edildi. Bu konstitusiya sovetlər ideyası əsasında fəaliyyət göstərir, Azərbaycanda sosializm cəmiyyətinin qurulmasını bir vəzifə olaraq qarşıya qoyur, respublikada sovet hakimiyyətinin qələbəsini, sovet hakimiyyətinin simasında proletariatın diktaturasını, torpaq, sənaye, bank və sairlərin milliləşdirilməsini qanuniləşdirirdi. Konstitusiya 5 bölmə, 15 fəsil və 104 maddədən ibarət idi. Azərbaycan SSR-in 1921-ci il Konstitusiyasının "Ümumi müddəalar" adlanan birinci bölməsində göstərilir ki, Azərbaycan SSR ərazisində bütün hakimiyyət şəhər və kənd sovetlərində birləşən ölkənin bütün zəhmətkeş əhalisinə məxsusdur.

Azərbaycan SSR-in 1921-ci il Konstitusiyası ölkə zəhmətkeşlərinin hakimiyyətini bəyan edir və bu hakimiyyətin həyata keçirilməsində əsas rolu onlar tərəfindən seçilmiş sovetlərə aid edirdi. Burada xalq hakimiyyətinin bilavasitə forması olan referendum nəzərdə tutulmurdu. Bu Konstitusiyaya görə zəhmətkeşlər hakimiyyəti 18 yaşına çatmış Azərbaycan SSR vətəndaşları tərəfindən seçilmiş sovetlər vasitəsilə həyata keçirilməli idi (35).

Lakin həmin dövrün seçki qanunvericiliyinə görə, əhali bilavasitə yalnız kənd və şəhər sovetlərini seçirdi. Seçkilər isə daha çox dekorativ səciyyə daşıyırdı.

Belə ki, sovetlərə nümayəndələrin göndərilməsi bolşevik kommunistlərinin iradəsi əsasında müəyyən edilirdi.

Azərbaycan SSR-nin 1921-ci il Konstitusiyasında xalq anlayışı, zəhmətkeş anlamı ilə əvəz olunurdu. Zəhmətkeşlər deyəndə fəhlələr, əməkçi kəndlilər, öz əməyi ilə yaşayan, ev təsərrüfatları ilə məşğul olan və birincilərin məhsuldar əməyini təmin edən vətəndaşlar və sovet ordusunun əsgər və matrosları nəzərdə tutulurdu.

Yalnız bu kateqoriya şəxslərə seçkilər vasitəsilə öz hakimiyyətini həyata keçirmək ixtiyarı verilirdi. Əhalinin digər təbəqələri siyasi hüquqlardan məhrum idi. Maddi gəlir əldə etmək məqsədi ilə muzdlu əməklə məşğul olanlar, zəhmətsiz gəlir hesabına yaşayanlar, alverçilər, kommersiya vasitəçiləri, kapitalın faizləri, müəssisələrin gəlirləri hesabına yaşayanların seçki hüquqları məhdudlaşdırılırdı.

O cümlədən dini fəaliyyətlə məşğul olanlar, keçmiş polis və jandarm qüvvələrinin işçiləri də siyasi hüquqlardan məhrum edilirdilər. Bu dövrdə AXC dövründə məsul vəzifələr tutmuş şəxslərə, eləcə də müxtəlif partiyaların, siyasi cərəyanların və qrupların üzvlərinə qarşı repressiv tədbirlər görülürdü. Azərbaycanda yerləşən Qırmızı ordu hissələrinin bəzi komandirləri Azərbaycan hökumətinin yerli orqanları ilə hesablaşmır, özlərini əslində müstəmləkəçilər kimi aparırdılar. Hədsiz rekvizisiyalar, müsadirələr, mürtəce əhval-ruhiyyəli hərbiçilərin təhqiramiz hərəkətləri, milli adət və ənənələrin təhqir olunması əhalinin müəyyən hissəsinin bolşeviklərə olan rəğbətini nifrətə çevirmişdi.

Azərbaycanda fəaliyyət göstərən müxtəlif siyasi partiyalar və ictimai birliklər sıxışdırılır, onların üzvləri təqib olunurdu (57, səh.450)

1936-cı ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olundu. Bu Konstitusiya SSRİ-də istismarçı siniflərin və istehsal vasitələri üzərində xüsusi mülkiyyətin ləğv edildiyini, sosializmin əsaslarının qurulduğunu elan edirdi.

Sonralar qeyd olunurdu ki, guya sosializmin bu konstitusiyada təsbit edilmiş əsasları sovet xalqının sonrakı yaradıcı fəaliyyəti nəticəsində inkişaf etmiş sosializm cəmiyyətinin qurulması üçün təməl oldu. SSRİ-nin 1936-cı il Konstitusiya əsasında 1937-ci il martın 14-də 9-cu fövqəladə Ümumazərbaycan sovetlər qurultayı Azərbaycan SSR-in yeni Konstitusiyasını qəbul etdi.

Yeni Konstitusiya 14 fəsil və 155 maddədən ibarət idi. Əvvəlki Konstitusiyadan fərqli olaraq Azərbaycanın 1937-ci il Konstitusiyası bir sıra yeni fəsilləri-"ictimai quruluş", "Vətəndaşların əsas hüquq və vəzifələri", "Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti oraqnları", "DQMV-nin dövlət hakimiyyəti orqanları", "Məhkəmə və prokurorluq" adlanan fəsilləri ehtiva edirdi.

Əvvəlki Konstitusiyada olduğu kimi Azərbaycanın 1937-ci il Konstitusiyasında demokratiya və xalq hakimiyyəti teminlərindən istifadə olunmur və Azərbaycan SSR-də bütün hakimiyyətin Əməkçi Deputatlarının Sovetləri şəxsində şəhər və kənd əməkçilərinə məxsus olması bəyan olunurdu (36). Buna baxmayaraq bu Konstitusiya Azərbaycan SSR-in əvvəlki əsas qanunundan fərqli olaraq zəhmətkeşlərin hakimiyyətinin tənzimi sahəsində bəzi pozitiv müddəaları ilə fərqlənirdi. Belə ki, ilk dəfə olaraq, Azərbaycanın Konstitusiya tarixində bilavasitə demokratiyanın əsas institutu sayılan referendum, məhz bu konstitusiyaya daxil edilmişdir. Azərbaycan SSR-in 1937-ci il Konstitusiyasının 33-cü maddəsində deyilirdi ki, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti bütün xalqın rəyini soruşur, referendum keçirir (36). Lakin 1937-ci il Konstitusiyası burada referendumu ictimai rəy sorğusu ilə eyniləşdirirdi. Bu isə düzgün sayıla bilməz. Belə ki, referendum və ictimai rəy sorğusu fərqli müstəqil demokratiya institutlarıdır.

Xalq hakimiyyətinin digər bilavasitə institutu sayılan seçkilərə gəldikdə isə 1937-ci il Konstitusiyasının "Seçki sistemi" adlı XII fəslin 141-ci maddəsində qeyd olunurdu ki, bütün əməkçi deputatları Sovetlərinə: Azərbaycan SSR Ali Sovetinə, Naxçıvan MSSR Ali Sovetinə, DQMV Sovetinə, rayon, şəhər kənd sovetlərinə deputatlar-seçicilər tərəfindən gizli səs verməklə ümumi, bərabər və müstəqil seçki hüququ əsasında seçilir.

Bu qanunda bütün hakimiyyət orqanlarının gizli səsvermə yolu ilə ümumi, müstəqil və bərabər seçki hüququ əsasında təşkili nəzərdə tutulurdu.

Yeni seçki sistemini müəyyən edən Konstitusiyanın müddəalarına müvafiq olaraq 18 yaşına çatmış hər bir Azərbaycan vətəndaşı milli, irqi, dini, cinsi mənsubiyyətindən asılı olmayaraq, sosial və əmək vəziyyətindən, təhsilindən və keçmiş fəaliyyətindən asılı olmayaraq seçkilərdə iştirak etmək hüququna malik idilər. 21 yaşına çatmış şəxslərin Respublikanın Ali Sovetinə deputat seçilmək hüququ təsbit olunurdu.

Bundan əlavə yeni qanunla qolçomaq adlandırılan varlı kəndli təbəqəsinin övladları, əvvəllər imtiyazlı olmuş zadəgan təbəqələrinin nümayəndələri ictimai-faydalı əməklə məşğul olduğu və vicdanla çalışdığı hallarda yaşayış yeri üzrə rayon icraiyyə komitələri tərəfindən onların seçki hüquqları bərpa olunurdu.

Xalq hakimiyyəti kontekstində bu konstitusiyada olan yeniliklərdən biri də əsas qanunda nəzərdə tutulan deputatın geriyə çağırılması institutudur. Konstitusiyanın 150-ci maddəsində qeyd olunurdu ki, hər bir deputat öz işi haqqında və zəhmətkeş deputatlar Sovetinin işi haqqında seçicilər qarşısında hesabat verməyə məcburdur və seçicilərin çoxluğunun qərarı ilə qanunla müəyyənləşdirilmiş qayda üzrə hər bir zaman geri çağırıla bilər (36).

Həmin dövrdə yuxarıda göstərilən demokratiya institutlarının konstitusion təsbiti nə qədər cəlbedici görünsə də lakin, istər seçkilər, sorğu, istərsə də deputatın geriyə çağırılması institutları konyuktur xarakter daşıyırdı.

Azərbaycan dövləti və onun xalqı SSRİ imperiyasında mövcud olan kommunist rejimindən, zorakı marksizm və leninizm ideologiyasından tam asılı vəziyyətdə idi. Seçkilər, rəy sorğusu, deputatın geriyə çağırılması isə SSRİ-nin qeyri demokratik rejimini gizlətmək üçün bir pərdə rolunu oynayırdı.

Bu Konstitusiyanın son fəsillərinin birində (XI fəsil) vətəndaşların əsas hüquqları nəzərdə tutulsa da real həyatda isə xalqımız Stalin diktaturasının terroruna məruz qalmışdır.

XX əsrin 60-cı illərinin sonunda kommunizm cəmiyyətinə sürətli keçid ideyası tədricən iflasa uğramış, 70-ci illərin əvvəllərində "inkişaf etmiş sosializm" cəmiyyəti üçün yeni Əsas Qanunun işlənib hazırlanması zərurəti ortaya çıxmışdı. Layihəsi üzərində uzun işləmələrdən sonra 1977-ci il oktyabrın 7-də Sovetlər birliyində yeni, sayca üçüncü Konstitusiya qəbul edildi. 1978-ci il aprelin 21-də isə Azərbaycan SSR Ali Sovetinin növbədənkənar yeddinci sessiyasında Azərbaycanın yeni Konstitusiyası qəbul olundu. Bu Konstitusiya 11 bölmə, 22 fəsil və 185 maddədən ibarət idi. Əvvəlki konstitusiyalardan fərqli olaraq Azərbaycan SSR-in 1978-ci il Konstitusiyası öz müsbət və həmin dövr üçün cəsarətli, mütərəqqi müddəaları ilə seçilirdi. Bu Konstitusiyanın "Dövlət və şəxsiyyət" adlanan ikinci bölməsi vətəndaşların hüquq və azadlıqlarının genişləndirilməsi, onların yeni məzmunla və əlavə maddi, hüquqi təminatlarla zənginləşdirilməsi ilə səciyyələnirdi. Ən əsası isə ulu öndər Heydər Əliyevin hakimiyyəti illərinə təsadüf edən bu Qanunun gerçəkləşdirilməsi üçün ölkədə yaxşı zəmin yaradılmışdır.

İlk dəfə olaraq ölkəmizin Konstitusiya tarixində "xalq hakimiyyəti" və "demokratiya" terminləri məhz Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında qəbul olunmuşdur. Burada deyilirdi ki, Azərbaycan SSR-də bütün hakimiyyət xalqa məxsusdur. Xalq dövlət hakimiyyətini Azərbaycan SSR-in siyasi əsası olan xalq deputatları sovetləri vasitəsilə həyata keçirir (4). Həmin Konstitusiyanın digər maddəsində isə deyilir ki, sovet dövlətinin təşkili və fəaliyyəti demokratik mərkəziyyət prinsipinə: aşağıdan yuxarıyadək bütün dövlət hakimiyyəti orqanlarının seçkili olması, onların xalqa hesabat verməsi, yuxarı orqanların qərarlarının aşağı orqanlar üçün məcburi olması prinsipinə uyğun surətdə qurulur.

İlk dəfə olaraq məhz bu konstitusiyada xalq hakimiyyətinin bilavasitə demokratiya institutu olan referendum düzgün olaraq ümumxalq səsverməsi kimi təsbit edilmişdir (37).

Bu Konstitusiyanın müsbət tərəflərindən biri də odur ki, o referendumu ictimai rəy sorğusundan və qanun, qərar layihələrinin müzakirəsindən fərqləndirirdi, həmçinin referendumla yanaşı xalq hakimiyyətinin bilavasitə demokratiya forması sayılan qanun və qərar layihələrinin ümumxalq müzakirəsini də ehtiva edirdi.

İlk dəfə məhz bu Konstitusiyada xalq hakimiyyətinin təmin olunmasında mühüm rol oynanan vətəndaşların petisiya hüququ, vətəndaşların siyasi partiyalarda birləşmək hüququ kimi yeni siyasi hüquqlar bəyan olunurdu (37).

Lakin bütün bunlara baxmayaraq bu konstitusiyanı hələ sovet məfkurəsindən, marksizm-leninizm ideologiyasından azad, müstəqil Azərbaycan dövlətinin konstitusiyası adlandırmaq qeyri-mümkün idi.

Bu dövrdə Azərbaycan xalqının suverenliyi, dövlətimizin müstəqilliyi SSRİ imperiyasının kommunist rejimli xarakteri ilə xeyli məhdulaşdırılırdı.

Xalq hakimiyyəti bəyan olunsa da onun institutları olan referendum, seçkilər, deputatların geriyə çağırılması formal xarakter daşıyırdı, vətəndaşlara yalnız bir partiyada-kommunist partiyasında birləşmək imkanı verilirdi, sərbəst toplaşmaq azadlıqları ciddi təqib olunurdu.

SSRİ imperiyasının məcburi ideologiyası, zorakılıq siyasəti Azərbaycan dövlətinin tam müstəqil olması, xalqın suveren hüquqlarını təmin etmək imkanlarını xeyli məhdudlaşdırırdı. Bütün bunlara baxmayaraq ulu öndər Heydər Əliyevin Azərbaycanda birinci hakimiyyəti illərinə təsadüf edən bu Konstitusiya və onun əsasında ölkədə aparılan siyasət-azərbaycan xalqının sosial-iqtisadi, mədəni və elmi-texniki inkişafı, vətəndaşların maarifləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının təmin olunması ilə səciyyələnirdi.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında bəyan olunan demokratik institutlar, ölkəmizdə dövlət quruculuğu, sosial-iqtisadi və mədəni, elmi-texniki sahələrdə görülən böyük işlər XX əsrin sonunda Azərbaycanda dövlət müstəqilliyinin və xalq suverenliyinin bərpa olunması, eləcə də demokratik institutların yaranması və möhkəmləndirilməsi üçün əsaslı zəmin yaratmış oldu.

XX əsrin sonunda beynəlxalq aləmdə baş verən mühüm hadisələr keçmiş sovetlər məkanına da öz təsirini göstərdi və 70 ildən artıq SSRI dövlətinin tərkibində yaşayan xalqlar öz müstəqilliyi uğrunda mübarizəyə başladı. Bu proses 80-cı illərin sonunda xüsusilə kəskinləşdi və sovetlər dövlətinin dağılması beynəlxalq aləmdə yeni müstəqil dövlətlərin yaranmasına səbəb oldu. Belə dövlətlərdən biri də Azərbaycan Respublikasıdır.

XX əsrin sonunda SSRİ-nin dağılmasının labüdləşdiyi bir məqamda-1991-ci il avqustun 31-də Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi

haqqında Bəyannamə" qəbul edildi. Lakin bu dövrdə Azərbaycan xalqı "de-yure" öz müstəqilliyini qəbul etsə də "de-fakto" ölkədə "marionet" rejim yarandı. 18 oktyabr 1991-ci il tarixində Azərbaycan Respublikasının Milli Şurası (Ali Soveti) dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Lakin həmin dövrdə siyasi hakimiyyətdə təmsil olunan rəhbər şəxslər hələ də SSRİ-nin yenidən bərpa olunması ümidləri ilə yaşayırdı və bu Aktın referenduma çıxarılmasını bütün səyləri ilə ləngidirdilər. Yalnız SSRİ-nin denonsasiyası haqqında müqavilə imzalandıqdan sonra onlar xalqın tələbi ilə Konstitusiya Aktının təsdiqinin referenduma çıxarılmasına məcbur oldular.

Xalqımız tərəfindən 29 dekabr 1991-ci ildə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın təsdiq edilməsi respublikanın müstəqil dövlətçiliyinin hüquqi əsasını möhkəmləndirdi. Yeni Konstitusiyanın hazırlanması üçün başlanğıc sayılan bu Akt respublikanın dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarının təsbitini nəzərdə tuturdu.

Bu Konstitusiya Aktının preambulasında deyilir ki, Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq bu Aktı qəbul edir.

Bu gün bəzi insanlar bu müddəaya əsaslanaraq belə bir fikir söyləyirlər ki, Azərbaycanda parlamentli respublika idarəçilik forması olmalıdır.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Konstitusiya Aktı heç də hüquqi varisliyi nəzərdə tutmur, burada prinsip və ənənələrin varisliyindən söhbət gedir və bu prinsiplər hazırkı Konstitusiyamızda ehtiva olunur. Azərbaycanın yeni konstitusiya layihəsi hazırlanan zaman

Dövlət Komissiyasının sədri Heydər Əliyev belə bir fikir söyləmişdir: "Biz Konstitusiyamızda elə bir idarəetmə forması qəbul etməliyik ki, həm ümumbəşəri dəyərlərə, xarici ölkələrin müsbət təcrübəsini, o cümlədən Azərbaycan xalqının dəyərli dövlətçilik təcrübəsini özündə ehtiva etməlidir" (70).

Digər tərəfindən ADR-in tarixi bizim üçün yalnız burada qəbul olunan müsbət, demokratik ənənələri ilə deyil, həm də o dövrün çatışmazlıqlarının da öyrənilməsi üçün çox ibrətamizdir. ADR-in idarəçilik sistemində olan boşluq, qeyri sabitlik, ziddiyyətlər ölkənin müstəqilliyinin zəifləməsinə və süqutuna xeyli dərəcədə öz təsirini göstərmişdir. Elə müasir dövrdə də bəzi xarici ölkələrin təcrübəsi göstərir ki, parlamentli respublika idarəçilik forması tez-tez hökumət böhranına səbəb olur.

Hesab edirəm ki, yeni müstəqilliyini əldə etmiş dövlətlər üçün bu forma daha çox dərəcədə qeyri sabit və siyasi böhranlarla müşahidə olunan siyasi hakimiyyətin yaradılmasına səbəb ola bilər.

Azərbaycanda 1991-1993-cü illərdə mövcud olan siyasi böhran ölkəmizi ağır, qeri-sabit vəziyyətə saldı, vətəndaş müharibəsi ilə üzləşdirdi və nəinki, konstitusiyanın qəbul edilməsi mümkün oldu, hətta müstəqilliyimizin itirilməsi təhlükəsi yarandı. Belə bir ağır vəziyyətdə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyevin böyük və yorulmaz siyasəti nəticəsində ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, dövlət müstəqilliyi qorundu, erməni təcavüzünün qarşısı alınaraq atəşkəs əldə edildi. 1993-94- cü illərdə ölkə daxilində baş verən terror aktlarının, dövlət çevrilişlərinə cəhdələrin qarşısı alındı və müstəqil Azərbaycan Konstitusiyasının qəbulu üçün zəmin yaradıldı.

2 may 1995-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi yeni Konstitusiya layihəsini hazırlayan

komissiyanın tərkibini təsdiq etdi. Dövlət komissiyası ümummilli lider Heydər Əliyevin sədrliyi ilə yeni konstitusiyanın layihəsini hazırladı və bu layihə ümumxalq müzakirəsinə vermək üçün 1995-ci il oktyabrın 15-də mətbuatda dərc edildi. Azərbaycan ictimaiyyəti yeni konstitusiya layihəsinin müzakirəsində böyük fəallıq göstərərək konstitusiya layihəsinə 2450 təklif verdi. 1995-ci il noyabrın 12-də keçirilən referendumda müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyası qəbul olundu. Bu Konstitusiyanın memarı Heydər Əliyevin təbirincə desək: "... Baxmayaraq ki, Azərbaycan xalqının 80 illik Konstitusiya tarixi vardır, bu gün biz müstəqil Azərbaycanın ilk Konstitusiyasını qəbul etdik..." (70). Ümumxalq səsverməsi bütün seçki dairələri üzrə səs verənlərin yüksək fəallığı şəraitində keçmişdir. Səsvermədə iştirak etmiş 3.566.277 seçicidən 3.267.538 nəfəri, yəni, 91,9 faizi təklifə "Hə" cavabı verərək müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiya layihəsinin qəbul olunmasına tərəfdar çıxmışdır. Beləliklə, Azərbaycan xalqının çoxəsrlik dövlətçilik taixində müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul olundu və 27 noyabr 1995-ci ildə qüvvəyə mindi.

Tariximizə müstəqil dövlətimizin ilk ana qanunu kimi daxil olan, ölkəmizin siyasi-iqtisadi və sosial-mədəni həyatında baş verən dəyişikliklərin qanuni nəticəsi olaraq qəbul edilən Konstitusiyada respublikamızın müstəqilliyinin qorunub möhkəmləndirilməsinə, dövlətçiliyin inkişafına, insan və vətəndaş hüquqlarının təmin edilməsinə xüsusi diqqət ayrılmışdır. Konstitusiyamızın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, o dövlətçiliyimizin inkişafını istiqamətləndirməklə yanaşı, həm də xalqımızın uzun illər boyu həsrətində olduğu, ən nəhayət, ağır itkilər bahasına olsa da, əldə etdiyi və bu gün qətiyyətlə qorumağa və inkişaf etdirməyə çalışdığı suverenliyi qanunvericilik yolu ilə təsbit etdi. Dövlətimizin Əsas Qanunu Azərbaycanın beynəlxalq

aləmdə bərabərhüquqlu subyekt olduğunu sübuta yetirdi və çoxəsrlik dövlətçilik ənənlərimizə əsaslanaraq, yeni demokratik, hüquqi və dünyəvi dövlətin qurulmasına geniş təminat verdi.

Müstəqil Azərbaycanın 1995-ci il Konstitusiyası həm daxili, həm də xarici strukturuna görə əvvəlki konstitusiyalardan əsaslı şəkildə fərqlənirdi. Birincisi, bu müstəqil dövlətin konstitusiyasıdır və bu əsas Qanun Azərbaycan xalqının suverenliyini bəyan edirdi.

İkincisi, yeni konstitusiyamız marksizm-leninizm məfkurəsindən, kommunizmin-totalitar rejiminin təsirindən uzaq bir konstitusiyadır;

Üçüncüsü, bu konstitusiya özündə həm insan hüquqları, xalq suverenliyi, hakimiyyətlər bölgüsü, parlamentarizm, konstitusiya məhkəmə nəzarəti mexanizmi, Prezidentlik institutu, yerli demokratiya və s. kimi ümumbəşəri dəyərləri, həm də xalqımızın dövlət quruculuğu sahəsində əldə etdiyi müsbət təcrübəni inteqrasiya edir.

Dördüncüsü, bu konstitusiya birbaşa hüquqi qüvvəyə malikdir və özündə ehtiva etdiyi ümumbəşəri dəyərlərin real təmin olunma mexanizmlərini müəyyən edir. Azərbaycanda yaşayan hər kəs konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlarının təmin olunmasını dövlətdən tələb edə bilər;

Beşincisi, bu konstitusiya ümumxalq səsverməsi (referendumla) yolu ilə qəbul edilmişdir.

İlk dəfə olaraq Azərbaycanın Konstitusiya tarixində ölkəmizin 1995-ci il Konstitusiyasında xalq suverenliyini, xalq hakimiyyətinin həyata keçirilməsi formalarını tənzimləyən "Xalq hakimiyyəti" adlı xüsusi bir fəsil yarandı.

Xalq hakimiyyətinin əsaslarını tənzimləyən normaların əsas qanunun birinci fəslində yerləşdirilməsi bir daha təsdiq edir ki, Azərbaycanda xalqın iradəsi, maraqları hər şeydən üstündür, alidir.

Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın iyunun 5-də keçirilən ilk iclasında, yeni konstitusiya layihəsini hazırlayan komissiyanın sədri Heydər Əliyev öz nitqində qeyd edir ki, "Konstitusiya birinci növbədə dövlətin, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri-bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir" (70).

Bu gün biz deyə bilərik ki, bu ideyalar həm Konstitusiyamızın, həm də dövlət aparatının təşkilinin və fəaliyyətinin əsasını təşkil edir.

Xalq hakimiyyətinin tənzimi sahəsində müstəqil Azərbaycan Respublikası Konstitusiyasının aşağıdakı fərqli xüsusiyyətlərini göstərmək olar:

1. Xalq hakimiyyətinin hüquqi əsaslarını tənzimləyən "Xalq hakimiyyəti" adlı xüsusi (1-ci) fəslin yaranması ;

1) Konstitusiya sosial hakimiyyətin bir növü kimi "xalq hakimiyyəti"nin mövcudluğu faktını bəyan etməklə məhdudlaşmır. Əsas Qanunda xalq hakimiyyətinin suveren xarakteri ifadə olunur;

2) Yeni Konstitusiyada "xalq" anlayışının hüquqi definisiyası verilir. Əsas Qanunun 1-ci maddəsinin 2 hissəsində deyilir ki, Azərbaycan xalqı Azərbaycan Respublikasının ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikasının vətəndaşlarından ibarətdir;

3) İlk milli Konstitusiyamız xalqın iradəsinin ifadəsi formasına görə xalq hakimiyyətinin həyata keçirilməsinin iki əsas bilavasitə və nümayəndəli demokratiya formalarını fərqləndirir;

4) Yeni Konstitusiya xalq hakimiyyətinin həyata keçirilməsinin aşağıdakı bilavasitə demokratiya institutlarını təsis edir: referendum, seçkilər, xalqın qanunvericilik təşəbbüsü hüququ;

5) Xalq hakimiyyətinin nümayəndəli demokratiya formasına gəldikdə isə Azərbaycanın yeni Konstitusiyasında Prezidentlik və Parlamentarizm institutuna mühüm yer verilmişdir;

7) İlk dəfə olaraq Azərbaycanın Konstitusiya tarixində yeni Əsas Qanunda ölkəmizdə yerli demokratiyanın yaradılması bəyan edilir və yeni özünüidarəetmə sistemin əsasları müəyyən olunur;

8) Xalq hakimiyyətinin toxunulmazlığı və onun mənimsənilməsinin yolverilməzliyi məsuliyyəti dövlətimizin yeni Konstitusiyası səviyyəsində möhkəmləndirilmişdir.

Yuxarıda qeyd olunan səciyyəvi cəhətlər müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının demokratik xarakterini bir daha təsdiqləyir.

5.Azərbaycan Respublikasında xalq hakimiyyətinin konstitusiya formaları

Təbiətdə və cəmiyyətdə hər bir predmet və hadisənin özünəməxsus məzmunu və forması vardır. Məzmun və forma bir-birilə qırılmaz sürətdə bağlı olan fəlsəfi kateqoriyalardır. Qədim yunan filosofu Platonun sistemində forma ümumi anlayış, ideyadır (yun. "eydos"-görünüş, obraz). Aristotelə görə forma hər şeyin varlığının əsasıdır, yəni materiyasız mahiyyətdir. Hegel isə forma və məzmunu eyniləşdirir. Platon, Aristotel, Hegel formanı maddi olmayan başlanğıc kimi başa düşür, onun müəyyənedici fəal rolunu qeyd edir, mahiyyət və qanun kateqoriyaları ilə eyniləşdirir (55).

Azərbaycan dilinin izahlı lüğətində məzmun-hadisə, yaxud prosesin mahiyyətini müəyyənləşdirən əsas xüsusiyyət, forma isə şeyin xarici görünüşü və şəkli, tip, quruluş təşkilat sistemi, struktur, ifadə üsulu və qaydası kimi izah olunur (44).

Fəlsəfə ensiklopedik lüğətində qeyd olunur ki, forma anlayışı həmçinin məzmunun daxili təşkili mənasında işlədilir və bu mənada forma problematikası struktur kateqoriyasında daha da inkişaf etdirilir (43,s.277).

Məzmun və forma kateqoriyaları barədə elmdə fərqli fikirlərin mövcudluğuna baxmayaraq. Zənnimizcə, Maqsud Fərhadoğlunun "Fəlsəfənin əsasları" dərsliyində bu kateqoriyalara verilən təriflər daha aydın və dolğundur. Həmin ədəbiyyatda qeyd olunur ki, bu və ya digər cismi, hadisəni və prosesi təşkil edən bütün elementlərin, cəhətlərin, tərəflərin, qabiliyyət, əlaqə və münasibətlərin məcmusuna məzmun deyilir. Forma isə məzmunun qurulması qaydaları, məzmunun təşkili sistemi və strukturunun ifadəsidir, onun tərkib hissələri arasında əlaqə vasitəsidir; həmin cism, hadisə və prosesi təşkil edən

hissələrin məcmusudur; məzmunun ifadəsi və təzahürü vasitəsidir, onun mövcudluq üsuludur. Müəllif haqlı olaraq qeyd edir ki, formanı "zahirlik", "görünüş" anlayışlarından fərqləndirmək lazımdır. Görünüş də məzmunla bağlıdır, lakin görünüş məzmuna daxilən xas deyil, forma isə məzmunun daxili strukturu, yerləşməsi qaydasıdır (56). Bu kontekstdə bəzi mənbələrdə qeyd olunduğu kimi xalq hakimiyyətinin formalarını-xalq hakimiyyətinin zahiri görünüşü kimi izah edən fikirlərlə tam razılaşmaq düzgün olmazdı. Xalq hakimiyyətinin forması daha geniş anlayışdır və onun məzmunu ilə qırılmaz surətdə bağlıdır. Belə ki, xalq hakimiyyətinin forması onun məzmununun qurulaması qaydaları, təşkili sistemi və strukturunun ifadəsi və təzahürü vasitəsidir, onun tərkib hissələri arasında əlaqə vasitəsidir.

Müasir dünyada demokratik ölkələrin konstitusiyalarında xalq hakimiyyəti formalarının hüquqi ifadəsi müxtəlifliyi ilə seçilir. Litva Respublikasının Konstitusiyasında qeyd olunur ki, xalq ali suveren iradəsini bilavasitə və demokratik yolla seçilmiş nümayəndələri vasitəsi ilə həyata keçirir (maddə 4). Tacikistan Respublikasının Konstitusiyasına görə xalq dövlət hakimiyyətini bilavasitə və öz nümayəndələri vasitəsilə həyata keçirir (maddə 6). Rusiya Federasiyasının Konstitusiyasında göstərilir ki, xalq hakimiyyəti bilavasitə və dövlət orqanları və yerli özünüidarə orqanları vasitəsilə həyata keçirilir. Qazaxıstan və Qırğızıstan Respublikalarının Konstitusiyalarında xalq hakimiyyətinin formaları təxminən eyni qaydada ifadə edilmişdir. Burada qeyd olunur ki, xalq hakimiyyəti bilavasitə referendum, seçkilər və dövlət orqanları vasitəsilə həyata keçirilir (maddə 3; 4). İtaliya Respublikasının Konstitusiyasında bu sualın hüquqi ifadəsi daha ümumi xarakter daşıyır, burada deyilir ki, suverenlik xalqa məxsusdur, xalq suverenliyi Konstitusiyada göstərilən forma və hədlərdə həyata keçirilir. Fransa Respublikası

Konstitusiyasının 3-cü maddəsinə görə, milli suverenlik xalqa məxsusdur: xalq suverenliyi öz nümayəndələri vasitəsilə və referendum yolu ilə həyata keçirilir.

Türkiyə Respublikasının Konstitusiyasında isə qeyd olunur ki, suverenlik qeyd şərtsiz millətə məxsusdur. Türk milləti öz suverenliyini Anayasanın qoyduğu əsaslar üzrə, səlahiyyətli orqanlarının vasitəsi ilə həyata keçirir (maddə 6).

ABŞ, Latviya, Özbəkistan Respublikalarının Konstitusiyasında xalq hakimiyyətinin formalarını ifadə edən ümumi norma olmasa da, həmin ölkələrin təcrübəsində xalq hakimiyyətinin bilavasitə və nümayəndəli demokratiya formalarından istifadə olunur.

Yuxarıda qeyd edilənləri təfsir edərək belə qənaətə gəlmək olar ki, xarici ölkələrin konstitusiyalarında xalq hakimiyyəti formalarının hüquqi ifadəsi heç də qüsursuz deyildir. Məsələn, Tacikistan Respublikasının Konstitusiyası postsovet məkanında mövcud olan ənənəyə sadiq qalaraq xalq hakimiyyətini dövlət hakimiyyəti ilə məhdudlaşdırır. Gürcüstan və Ukrayna Respublikasının Konstitusiyaları xalq hakimiyyətinin bilavasitə demokratiya formasının genişləndirici təfsirinə şərait yaradır. Qazaxıstan və Qırğızıstan Respublikalarının əsas qanunu nümayəndəli demokratiya institutlarına yalnız seçkili dövlət orqanlarını aid edir.

Rusiya Federasiyasının Konstitusiyasında ifadə olunan norma, zənnimcə bir qədər qeyri konkretdir. Düzdür, Belorusiya, Qazaxıstan və Qırğızıstan Respublikalarının Konstitusiyalarından fərqli olaraq Rusiya Federasiyasının Konstitusiyası, yerli özünüidarə orqanlarını da nümayəndəli demokratiya institutlarına aid edir, lakin, burada təsbit olunan norma nümayəndəli demokratiya formasının genişləndirici təfsirinə şərait yaradır. Həmin konstitusiya normasının interpretasiyası əsasında bütün seçkili və

təyinatlı dövlət orqanları və yerli özünüidarə orqanları nümayəndəli demokratiya institutları hesab oluna bilər.

Hesab edirəm ki, Litva dövlətinin Konstitusiyasında təsbit olunan aşağıdakı müddəa: "xalq ali suveren iradəsini ... demokratik yolla seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir" formulası daha düzgündür. Lakin, burada mövcud olan qüsur ondan ibarətdir ki, Litva Respublikasının Konstitusiyası iradə və hakimiyyət anlayışlarını eyniləşdirir, digər tərəfdən "suverenlik" termini alilik keyfiyyətini də özündə ehtiva edir.

Türkiyə Respublikasının Konstitusiyasında isə yalnız xalq hakimiyyətinin nümayəndəli formasından bəhs olunur.

Hesab edirəm ki, yuxarıda göstərilən xarici ölkələrin konstitusiyalarından fərqli olaraq Azərbaycan Respublikasının Konstitusiyasında xalq hakimiyyətinin formalarını müəyyən edən hüquqi ifadə daha düzgündür. Azərbaycan Respublikası Konstitusiyasının 2-ci maddəsində deyilir ki, Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi-referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Hər şeydən əvvəl, yuxarıda göstərilən Konstitusiya müddəası xalq hakimiyyətini hüquqi nöqteyi nəzərdən daha dəqiq ifadə edir. Belə ki, həmin konstitutision norma:

- Xalq hakimiyyətini obyektiv hüquqla müəyyən olunan subyektiv hüquq kimi xarakterizə edir və xalq hakimiyyətinin aliliyini müəyyənləşdirir;
- Hüquqi doktrinada geniş yayılmış meyara uyğun olaraq, xalqın iradəsinin ifadəsi formasına görə, xalq hakimiyyətinin bilavasitə və nümayəndəli demokratiya formalarını fərqləndirir;
- Doğru olaraq bilavasitə demokratiya formalarına referendum və seçkiləri aid edir;

- Nümayəndəli orqanlara yalnız seçkili dövlət və yerli özünüidarə orqanlarını aid edir.

Yuxarıda göstərilən müsbət keyfiyyətlərlə yanaşı hüquqi dövlətdə "Qanun-şahdır, şah isə qanun deyil" prinsipini rəhbər tutaraq və Türkiyə, İtaliya, Belorusiya konstitusiyalarının müsbət təcrübəsindən yararlanaraq, Azərbaycan Respublikası Konstitusiyasının 2 maddəsinin 1-ci hissəsinə aşağıdakı müddəanın əlavə edilməsini məqsədəuyğun hesab edirəm:

"..... Azərbaycan xalqı öz suveren hüququnu konstitusiyada göstərilən hədlərdə ..... həyata keçirir".

Konstitusiya hüququ elmində, xalq hakimiyyətinin formalarının təsnifatına dair müxtəlif fikirlərə rast gəlmək olar. Məsələn, kütləvi hakimiyyətin növünə görə:

1) dövlət hakimiyyətinin;

2) bələdiyyə hakimiyyətinin;

3) həm dövlət hakimiyyəti, həm də bələdiyyə hakimiyyətinin həyata keçirilməsi ilə bağlı olan xalq hakimiyyəti formaları fərqləndirilir.

Sovetlər hakimiyyəti dövründə hüquq elmində və təcrübədə xalq hakimiyyətinin formaları yalnız dövlət hakimiyyəti kontekstində izah olunurdu. Aparılan təhlil onu göstərir ki, bu cür yanaşma hal-hazırda da ayrı-ayrı ölkələrin (əsasən postsovet) konstitusiya qanunvericiliyi təcrübəsində qalmaqda davam edir. Lakin, bu cür yanaşma müasir Azərbaycan qanunvericiliyi üçün qəbul edilməzdir. Belə ki, ölkəmizdə, dövlət hakimiyyəti xalq hakimiyyətinin yeganə forması deyil, onun digər forması yerli özünüidarədir. Yerli özünüidarə dövlət hakimiyyəti sisteminə daxil deyildir.

Ərazi üzrə istifadə meyarına görə:

1) Ümumdövlət səviyyəsində;

2) Muxtariyyət ərazisində;

3) Bələdiyyə ərazisində həyata keçirilən xalq hakimiyyəti formaları.

Konstitusiya hüququ elmində və demokratik ölkələrin konstitusiya qanunvericiliyində daha geniş yayılmış təsnifat meyarı xalqın iradəsinin ifadəsi forması üzrə aparılır. Bu meyara görə biz xalq hakimiyyətinin bilavasitə və nümayəndəli demokratiya formalarını fərqləndiririk. Məsələn, E. U. Kozlova, O. E. Kutafin qeyd edirlər ki, xalqın iradəsinin ifadəsi formasına görə nümayəndəli və bilavasitə demokratiya fərqləndirilir (89,s.85).

Almaniya Federativ Respublikasının Konstitusiya Məhkəməsinin üzvü Freyburq Universitetinin professoru K.Xesse xalqın siyasi iradəsinin ifadəsinin aşağıdakı formalarını fərqləndirir:

1) Parlament seçkiləri;
2) Plebissit və referendum;
3) Xüsusi orqanlar vasitəsilə (88,s.227).

Professor O.E.Kutafinin redaktorluğu ilə hazırlanan dövlət və hüququn əsasları kitabında qeyd olunur ki, xalq hakimiyyəti sistemində xüsusi yer bilavasitə demokratiya formalarına (institutlarına) məxsusdur. Bilavasitə demokratiya dedikdə ümumdövlət, regional və yerli əhəmiyyətli məsələlərin həllində vətəndaşların birbaşa iradəsinin ifadəsi başa düşülür. Bu vəsaitdə həmçinin qeyd olunur ki, birbaşa demokratiya formalarından başqa xalq hakimiyyətinin həyata keçirilməsində seçkili nümayəndəli orqanların da böyük rolu vardır (119,s.186).

Professor M. B. Baqlay bu sualı Rusiya Konstitusiyasının müddəalarına uyğun izah edir. Onun mülahizələrinə görə, xalq hakimiyyəti iki formada: bilavasitə və dövlət hakimiyyəti orqanları və yerli özünüidarə orqanları vasitəsilə həyata keçirilir. Müəllif həmçinin qeyd edir ki, bu orqanlar birbaşa və yaxud dolayı yolla xalq tərəfindən seçilir.

Bu cür yanaşma Azərbaycan Respublikasının Konstitusiyası üçün də xarakterikdir. Belə ki, dövlətimizin əsas qanunu xalq hakimiyyətinin bilavasitə və nümayəndəli demokratiya formalarını təsis edir və onun səmərəli icra mexanizmini müəyyən edir. Bu cür yanaşma Azərbaycanın konstitusiya qanunvericiliyi üçün yenidir.

Sovetlər hakimiyyəti dövründə Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında qeyd olunurdu ki, xalq dövlət hakimiyyətini Xalq deputatları Soveti vasitəsilə həyata keçirir. Hazırda bu cür yanaşma Çin Xalq Respublikasının Konstitusiyasında qəbul olunmuşdur. Burada göstərilir ki, Çin Xalq Respublikasında bütün hakimiyyət xalqa məxsusdur. Xalq dövlət hakimiyyətini ümumi Çin xalq təmsilçilərinin məclisi və müxtəlif dərəcəli xalq təmsilçilərinin yerli məclisləri vasitəsilə həyata keçirir.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında bilavasitə demokratiya institutları bəyan edilsə də (məsələn, seçkilər, referendum, deputatın geriyə çağırılması) bu institutların tətbiqi daha çox deklorativ xarakter daşıyırdı.

Müasir Konstitusiya hüququ elmində xalq hakimiyyətinin bilavasitə və nümayəndəli demokratiya formaları ətrafında yeni bir fikir ayrılığı yaranmışdır.

Bəzi hallarda bilavasitə demokratiya formalarının əsassız olaraq genişləndirici təfsiri verilir. Zəmnimcə, bunun səbəbi odur ki, bu günədək elmdə bu və yaxud digər demokratiya institutlarının xalq hakimiyyətinin bilavasitə və ya nümayəndəli demokratiya formasına aid edilməsinin vahid meyarı yoxdur. Məsələn, bir qrup alimlər bilavasitə demokratiya institutlarına seçkiləri vətəndaşların yığıncaqlarını, mitinqlər, küçə yürüşlərini, piketləri, vətəndaşların qanunvericilik təşəbbüsünü, siyasi partiyaların fəaliyyətini, deputatın geriyə çağırılmasını aid edirlər. Başqa qrup alimlərin mülahizələrinə görə bilavasitə demokratiya institutlarına seçkilər, referendum, qanun layihələrinin

ümumxalq müzakirəsi, fərdi və kollektiv müraciətlər, ümumxalq rəy sorğusu aiddir.

Xalq hakimiyyətinin bilavasitə demokratiya formasının genişləndirici təfsirinə əsaslanan müəlliflər vətəndaşlar tərəfindən birbaşa qəbul olunan qərarların hüquqi əhəmiyyətini əsas tutaraq imperativ və konsultativ demokratiya institutlarını fərqləndirir.

İmperativ demokratiya institutlarının qəbul etdiyi qərarlar-dövlət orqanları, vəzifəli şəxslər, vətəndaşlar üçün məcburi xarakter daşıyır və bu qərarların əlavə heç bir təsdiqə ehtiyacı yoxdur. İmperativ xarakterli bilavasitə demokratiya institutları vasitəsilə vətəndaşlar tərəfindən birbaşa ictimai və dövlət həyatının ən mühüm məsələlərinə dair qərarlar qəbul olunur. Bura aid edilir : seçkilər, referendum və s.

Konsultativ demokratiya institutları vasitəsilə vətəndaşlar ictimai, dövlət və yerli əhəmiyyətli məsələlər barədə rəyini bildirir, həmin məsələlərə dair xalqın iradəsi aşkar olunur, lakin son qərarı müvafiq səlahiyyətli dövlət və yaxud bələdiyyə orqanları qəbul edir. Konsultativ demokratiya formaları dövlət orqanları, vəzifəli şəxslər, vətəndaşlar üçün məşvərətçi, məsləhət xarakteri daşıyır.

Konsultativ xarakterli bilavasitə demokratiya institutlarını fərqləndirən alimlər bura qanun layihələrinin ümumxalq müzakirəsini, ictimai rəy sorğusunu, fərdi və kollektiv müraciətləri, mitinqləri və s. aid edirlər.

Konstitusiya hüququ elmində bilavasitə demokratiya institutlarının məhdudlaşdırıcı təfsirinə üstünlük verən müəlliflərə də rast gəlinir.

Bu mövqedən çıxış edən alimlər bilavasitə demokratiya formasının tərifində vətəndaşlar tərəfindən qəbul olunan qərarların hüquqi xarakterinə xüsusi önəm verirlər. Bu kontekstə, B.B,Komarova və V.N.Rudenko qeyd edirlər ki, hakimiyyət subyektləri tərəfindən qəbul

olunan qərarlar bütün hallarda ümumməcburidir və heç bir təsdiqə ehtiyacı yoxdur(120,s.51). L.A.Nudenko həmçinin qeyd edir ki, ümumi hüququn əsas metodu sayılan imperativlik-bilavasitə demokratiyanın metodudur (121,s.22). Lakin, buna baxmayaraq yuxarıda adı çəkilən alimlər konsultativ xarakterli bilavasitə demokratiya institutlarını da inkar etmirlər.

Q.N.Noskova öz dissertasiya işində göstərir ki, bilavasitə demokratiya forması kimi konsultativ xarakterli institutları inkar etmək düzgün olmazdı. Dispozitivlik metodu heç də onların əhəmiyyətsizliyindən xəbər vermir. Bu institutlar kütləvi hakimiyyət orqanları tərəfindən qəbul olunan qərarlara real təsir göstərmək imkanına malikdirlər. Mitinqlər, küçə yürüşləri, piketlərin, petisiyaların səmərəliliyinə şübhə, nümayəndəli demokratiyanın da səmərəliliyini şübhə altına alır. O qeyd edir ki, Parlament deputatlarını səlahiyyətləndirmiş xalq məhz onların vasitəsilə məcazi formada qanunvericilik hakimiyyətini həyata keçirir. Ölkəmizin qanunvericiliyi isə seçicilərin məcburi tapşırıqlarını və deputatın geriyə çağırılması institutlarını nəzərdə tutmur. Konsultativ bilavasitə demokratiya institutlarında olduğu kimi, nümayəndəli demokratiyada da mahiyyətcə parlament və vətəndaşlar arasında münasibətlər əsasən dispozitivlik metodu əsasında qurulur. İmperativlik metodu isə burada əsasən qanunverici orqanın funksiyalarında təzahür edir (123).

Zənnimizcə yuxarıda səslənən fikirlə tam razılaşmaq düzgün olmazdı.

Birincisi, parlamentin deputatlarını xalq seçir və hər bir deputat xalqı təmsil edir.

İkincisi, xalq konstitusiyanı qəbul edir və konstitusiya vasitəsilə parlament üzvlərinə dövlətin qanunlarını qəbul etmək səlahiyyətini verir.

Üçüncüsü, parlamentin konstitusion səlahiyyətləri və vəzifələri xalqın maraqlarını ehtiva edir.

Yuxarıda qeyd olunanları isə mitinq və piket iştirakçılarına, fərdi və kollektiv petisiya subyektlərinə, siyasi partiya üzvlərinə şamil edə bilmərik. Belə ki, onları xalq seçmir və bu subyektlərə xalqı təmsil etmək səlahiyyəti verilmir. Düzdür, mitinq, petisiya subyektləri, siyasi partiya tərəfindən xalqın maraqlarına, mənafeyinə xidmət edən hər hansı bir təklif irəli sürülə bilər. Lakin, hesab edirəm ki, bunu xalqın iradəsi adlandırmaq düzgün olmazdı. Belə ki, müəyyən sayda vətəndaşlar, qrup, kollektiv tərəfindən qəbul olunan qərar xalqın qərarı sayıla bilməz. Xalq vahiddir və bütün Azərbaycan Respublikasının vətəndaşlarından ibarətdir.

Azərbaycan Respublikası Konstitusiyasının 5-ci maddəsinin 1-ci hissəsində qeyd olunur ki, Azərbaycan xalqı vahiddir, 6-cı maddəsinin 1-ci hissəsində isə deyilir ki, azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz.

Bu konstitusion normalar bir daha onu göstərir ki, 1000 nəfər və daha çox vətəndaşın yaratdığı siyasi partiya, bir qrup şəxsin keçirdiyi mitinq, yaxud kollektiv petisiya xalq hakimiyyəti (xalqın iradəsi) deyil.

Hesab edirik ki, qanun və qərar layihələrinin ümumxalq müzakirəsi, ictimai rəy sorğusu, vətəndaşların qanunvericilik təşəbbüsü institutları xalq hakimiyyətinin bilavasitə və nümayəndəli demokratiya formalarının səmərəliliyini təmin edən və xalq hakimiyyətinin həyata keçirilməsi prosesində köməkçi bir vasitə kimi qəbul oluna bilən demokratik institutlardır.

Sözsüz ki, yuxarıda sadalanan və bəzi alimlərin konsultativ demokratiya formaları kimi qəbul etdiyi bu institutların xalq hakimiyyətinin həyata keçirilməsində

rolunu kiçiltmək düzgün olmazdı. Həmin institutların öyrənilməsi, təkmilləşdirlməsi və imperativ demokratiya formalarının realizəsində köməkçi mexanizm kimi istifadə edilməsi, xalq hakimiyyətinin səmərəliliyini təmin edir.

Seçki subyektləri arasında vacib yeri onların kollektiv iştirakçıları-siyasi partiyalar tutur. Bu təsadüfi deyildir, çünki partiyanın fəaliyyətinin əsas məqsədi-siyasi hakimiyyətin əldə edilməsi və ya onun həyata keçirilməsində iştirakdır.

Siyasi partiyaların seçki sistemi strukturunda xüsusi statusu həm də onunla şərtlənir ki, çoxsaylı maraqlar qrupundan (hansılar ki, oxşar funksiyalar həyata keçirirlər) fərqli olaraq, onlar sadəcə seçkilərdə iştirak edən siyasi subyektlər deyil. Onların seçki sistemindəki yeri həm də hüquqi baxımdan təsbit olunmuşdur. Beləliklə, demokratik ölkələrdə siyasi partiyalara siyasi sistemin fəaliyyətində əsas rollardan biri verilir. Siyasi partiyaların seçki sistemində statusu onlarda geniş hüquqlar spektrinin olmasını nəzərdə tutur:

- namizədlərin irəli sürülməsi hüququ;
- seçki kampaniyasını maliyyələşdirmək hüququ;
- dövlət tərəfindən maliyyə dəstəyi almaq hüququ;
- seçkiqabağı təbliğat aparmaq hüququ;
- seçkilərin gedişatına nəzarət hüququ və s.

Qanun layihələrinin ümumxalq müzakirəsi institutunun konstitusion və yaxud qanunverici referendumların keçirilməsində bir mərhələ kimi istifadə olunması referendumun səmərəliliyini daha da artırmış olardı.

Qanun layihələrinin ümumxalq müzakirəsi, o cümlədən ali nümayəndəli orqanlar tərəfindən xalqın iradəsinə əsaslanan qanunların qəbul edilməsində uğurla istifadə oluna bilər. Zəmnimcə, vətəndaşların qanunvericilik təşəbbüsü hüququ da xalq hakimiyyətinin demokratiya

forması kimi deyil, parlamentdə həyata keçirilən qanunvericilik prosesinin bir mərhələsi kimi qəbul olunmalıdır.

Hüquq ədəbiyyatlarında bəzi müəlliflər hətta vətəndaşların referendum keçirmək təşəbbüsünü də bilavasitə demokratiya forması hesab edirlər. Düşünürük ki, bu fikri dəstəkləmək düzgün olmazdı. Belə ki, birincisi referendumun keçirilməsi təşəbbüsü ilə çıxış edən 300 min vətəndaş hələ xalq deyil; ikincisi, referendum təyin etmək səlahiyyətinə malik olan subyektlər bu təşəbbüsü qəbul etməyə də bilər; üçüncüsü, bu hüquq əslində referendum prosesinin bir mərhələsi kimi qəbul edilməlidir. Suveren xalqın birbaşa qəbul etdiyi qərar alidir, ümumidir, imperativdir və zəruri hallarda dövlətin məcburetmə gücü ilə təmin olunur.

Demokratik siyasi rejimdə dövlət aparatının fəaliyyətinin ən mühüm, konseptual prinsipi xalq hakimiyyətidir. Bu prinsipə əsasən xalqın iradəsinə əsaslanan hüquqyaratma fəaliyyətinin təmin edilməsi hüquqi dövlətin vəzifələrindən biridir. Bu kontekstdə, dövlət orqanlarının hüquqyaratma fəaliyyətində ictimai rəy sorğusunun (məsələn, elektron sistem vasitəsilə) keçirilməsi qəbul olunan normativ aktların demokratikliyini daha da artırmış olardı.

Azərbaycan Respublikasının Konstitusiyasına görə, xalq hakimiyyətinin digər forması nümayəndəli demokratiyadır.

Professor A.Demişel və F.Demişel və M.Pikemal qeyd edirlər ki, əgər vətəndaşlar öz suverenliyini seçkili nümayəndələri vasitəsilə həyata keçirirsə və bu nümyəndələr sonradan onların adından idarə edirlərsə bu nümayəndəli demokratiyadır (88,s.227).

Konstitusiya hüququ elmində nümayəndəli demokratiya institutları müxtəlif cür izah olunur. Birinci

qrup alimlər nümayəndəli demokratiya institutlarının genişləndirici təfsirini verir. Onlar qeyd edirlər ki, bütün kütləvi hakimiyyət orqanları nümayəndəli demokratiya institutlarına aiddir. Çünki onların hamısı xalqın maraqlarına uyğun hərəkət etməlidirlər.

İkinci qrup alimlər isə nümayəndəli demokratiyaya yalnız seçkili dövlət orqanları və yerli özünüidarə orqanlarını aid edirlər. Zənnimizcə bu cür mübahisənin yaranmasının səbəblərindən biri də konstitusiyalarda nümayəndəli demokratiyanın hüquqi ifadəsində yol verilən qeyri dəqiqlikdir. Məsələn, Rusiya Fedreasiyası, Qazaxıstan, Qırğızıstan və Ukrayna dövlətlərinin konstitusiyalarında qeyd olunur ki, xalq hakimiyyəti, dövlət orqanları sistemi, yerli özünüidarə orqanları vasitəsilə həyata keçirilir. Bu cür ifadə nümayəndəli demokratiyanın genişləndirici təfsirinə şərait yaradır. Belə ki, dövlət orqanları, dövlət orqanları sistemi geniş anlayışdır və yalnız seçkili orqanları deyil, həm də təyinatlı orqanları ehtiva edə bilər.

Hesab edirəm ki, Azərbaycan Respublikası və Litva Respublikasının Konstitusiyalarında nümayəndəli demokratiya formasının hüquqi ifadəsi daha aydın və dəqiqdir və yuxarıda qeyd olunan mübahisəni aradan qaldırır.

Azərbaycan Respublikası Konstitusiyasının 2-ci maddəsinin 2-ci hissəsində qeyd olunur: "------- Azərbaycan xalqı öz suveren hüququnu ----- səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir". Bu konstitusiya normasından aydın olur ki, nümayəndəli orqanlara yalnız seçkili orqanlar daxildir.

Hesab edirəm ki, Azərbaycan Respublikası Konstitusiyasının bu məsələyə münasibəti daha düzgündür. Belə ki, xalq nümayəndəliyi konsepsiyasına görə, bu orqanların seçkili olması nümayəndəli demokratiya institutlarının əsas əlamətlərindən biridir.

Sözsüz ki, kütləvi hakimiyyət orqanlarının fəaliyyəti hər şeydən əvvəl xalq hakimiyyəti və xalq suverenliyi prinsipinə əsaslanmalıdır. Bu o deməkdir ki, onlar xalqa, onun maraqlarına xidmət etməlidirlər. Bu cür vəziyyət birincisi, demokratik siyasi-dövlət rejimində mövcud ola bilər. İkincisi, hər bir halda peşəkar təyinatlı dövlət orqanları nümayəndəli demokratiya institutları sayıla bilməz. Bu kontekstdə hesab edirik ki, konstitusiya hüququ nəzəriyyəsində mövcud olan aşağıdakı fikir: "Nazirlər Kabineti də nümayəndəli orqanlara aiddir, çünki bu orqanı xalqın seçdiyi prezident və parlament formalarşdırır" yanaşması düzgün deyildir.

Nümayəndəli demokratiya problematikasında mövcud olan mübahisəli məqamlardan biri də nümayəndəli sistemə seçkili kollegial orqanlarla birgə seçkili vəzifəli şəxslərin də daxil olması məsələsidir. Konstitusiya hüququ elmində belə bir yanaşma var ki, yalnız seçkili kollegial orqan (məsələn: parlament) nümayəndəli orqan hesab olunmalıdır. Digər yanaşmaya görə isə nümayəndəli orqanlara həm də xalq tərəfindən seçilən və təkbaşçılıq prinsipi əsasında fəaliyyət göstərən vəzifəli şəxslər də daxildir (məsələn, prezident bəzi ölkələrdə qubernator, mer və s.)

İkinci yanaşmanı dəstəkləyərək belə hesab edirik ki, prezident xalq tərəfindən demokratik əsaslarla seçilir və ümumxalq səsverməsi yolu ilə qəbul olunan konstitusiya ilə prezident dövlət başçısı və icra hakimiyyəti sisteminə rəhbərlik edən ali konstitusion orqandır.

Konstitusiya hüququ elmində hətta siyasi partiyaları, qeyri hökumət təşkilatlarını da xalqın nümayəndəli orqanları kimi izah edən fikirlərə rast gəlmək olur. Məsələn, qeyd olunur ki, dövlətin və vətəndaş cəmiyyətinin təşkili prinsipi kimi xalq nümayəndəliyi sistemi aşağıdakılardan ibarətdir: 1) xalq nümayəndəliyinin dövlət formaları (parlament,

prezident); 2) Xalq nümayəndəliyinin bələdiyyə formaları (bələdiyyələr); 3) Vətəndaş cəmiyyətinin nümayəndəli institutları (siyasi partiyalar və s.)

Vətəndaş cəmiyyətində, demokratik siyasi-dövlət rejimində siyasi partiyaların, qeyri hökumət təşkilatlarının və s. institutların böyük rolunu kiçiltmədən hesab edirik ki, bu institutları xalqın nümayəndəli orqanları adlandırmaq düzgün olmazdı. Bu orqanları xalq seçmir və Azərbaycan Respublikasının Konstitusiyası onlara xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ vermir.

Yuxarıda adı çəkilən digər vətəndaş cəmiyyəti institutları nümayəndəli demokratiya orqanlarının tərkibinin formalaşdırılması və onların səmərəli fəaliyyət göstərməsində, dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutları arasında dialoqun təşkilində, xalq hakimiyyətinin təmin olunmasında mühüm rol oynayır.

Nümayəndəli demokratiya institutlarını müxtəlif meyarlar əsasında təsnifləşdirmək olar:

1. Kütləvi hakimiyyətin tipinə (növünə) görə, a) nümayəndəli dövlət hakimiyyəti orqanları (Azərbaycan Respublikası Parlamenti, Azərbaycan Respublikası Prezidenti, NMR Ali Məclisi); b) nümayəndəli yerli özünüidarə orqanları (bələdiyyələr)

2. Ərazi üzrə təşkili və səlahiyyət sferası meyarına görə: a) Azərbaycan Respublikasının bütün ərazisində fəaliyyət göstərən və səlahiyyətləri ümumdövlət xarakteri daşıyan (Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Prezidenti); b) Naxçıvan Muxtar Respublikasının ərazisində təşkil olunan və fəaliyyət göstərən nümayəndəli orqan (Naxçıvan Muxtar Respublikasının Ali Məclisi); c) yerlərdə təşkil olunan nümayəndəli orqanlar (bələdiyyələr);

3. Dövlət hakimiyyətinin funksiyalarına görə: a) qanunvericilik hakimiyyəti funksiyasını həyata keçirən nümayəndəli orqanlar (Azərbaycan Respublikasının Milli Məclisi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi); b) icra hakimiyyəti funksiyasını həyata keçirən nümayəndəli orqan (Azərbaycan Respublikasının Prezidenti); c) yerli əhəmiyyətli məsələlərin həlli üçün yaradılan orqanlar (bələdiyyələr);

4. Nümayəndəli orqanlar tərəfindən qərarların qəbul edilməsi qaydalarına görə: a) kollegial orqanlar (Azərbaycan Respublikasının Milli Məclisi, bələdiyyələr); b) Təkbaşçılıq prinsipi əsasında fəaliyyət göstərən orqanlar (Azərbaycan Respublikasının Prezidenti).

Yuxarıda göstərilənləri nəzərə alaraq qeyd etmək olar ki, Azərbaycan Respublikasının Konstitusiyasında nümayəndəli demokratiya konsepsiyası aşağıdakı müddəalara əsaslanır:

1. Dövlət hakimiyyətinin əsas mənbəyi xalqdır;
2. Xalq suverenliyə malikdir;
3. Xalq nümayəndəliyi konstitusiya ilə təsis olunur;
4. Suveren xalq, ona məxsus olan suverenliyi deyil, dövlət hakimiyyət səlahiyyətlərini nümayəndəli orqanlara həyata keçirmək hüququ verir;
5. Dövlət hakimiyyəti funksiyalarını daha səmərəli həyata keçirmək üçün nümayəndəli orqanları xalq ümumi, bərabər, birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə seçir;
6. Xalqın seçdiyi səlahiyyətli nümayəndələrdən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur.
7. Nümayəndəli orqanlar konstitusiya və qanunlarla müəyyən edilmiş xüsusi formalarda fəaliyyət göstərir və onların qəbul etdiyi hüquqi aktlar əsas və məcburi xarakterə malikdir.

Konstitusiya hüququ elmində "Xalq hakimiyyətinin formaları" mövzusunda uzun illər davam edən mübahisələrdən biri də bilavasitə və yaxud nümayəndəli demokratiya formasından hansının üstünlük təşkil etməsi ilə bağlıdır. Məsələn, elitar demokratiya konsepsiyasının mülahizələrinə görə, cəmiyyət hakim azlığa-elitaya və idarə olunan çoxluğa-kütləyə bölünür. Vətəndaşların əksəriyyəti siyasi idarəetmə sahəsində lazımi biliklərə malik olmadığına görə onların siyasi fəallığı yalnız seçkilərdə iştirak etməklə məhdudlaşır. Elitar demokratiya modelinə görə siyasi qərarları siyasi savadı, təcrübəsi olan peşəkar insanlar qəbul etməlidir, bununla da xalq minimal itkilərlə (seçkilərdə iştirakla) maksimal fayda götürə bilər.

Elitar demokratiya modelinə alternativ kimi yaranan "partisipator" (iştirak etmək) demokratiya konsepsiyası ictimai və dövlət həyatının mühüm məsələlərinin müzakirəsində və siyasi qərarların qəbul edilməsində vətəndaşların fəal iştirakını nəzərdə tutur. Demokratiyanın bu modelinin əsas institutlarına referendum və seçkilər aid edilir.

Bu modelin tənqidçiləri kütlələrin siyasi savadının aşağı olmasını və əksər vətəndaşların idarəetmədə sistematik iştirakını təmin etmək üçün məcburi tədbirlərin görülməsi nəticəsində qəbul edilən qərarların səmərəsinin az olduğunu vurğulayırlar.

Referendum və seçkilərin vətəndaş cəmiyyətində böyük rolunu azaltmadan etiraf edək ki, ümumbəşəri dəyərlərə əsaslanan mütərəqqi Konstitusiya qəbul etmək, cəmiyyətin ən layiqli insanlarını siyasi hakimiyyətə gətirmək üçün sadəcə seçki məntəqəsinə gəlib səs vermək kifayət etmir. Bunun üçün elektoratın həm də yüksək siyasi və hüquqi mədəniyyəti olmalıdır.

Son təcrübələrimizi götürsək böyük fərəh hissi ilə demək olar ki, azərbaycan cəmiyyəti bu mədəniyyətə

malikdir. 12 noyabr 1995-ci ildə referendumla demokratik konstitusiyanın qəbul edilməsi və ölkəmizdə konsolidasiyalı demokratiyanın qurulması məqsədilə referendumla 2002 və 2009-cu,2016-cı illərdə böyük konstitusion islahatların aparılması və 1993-cü ildən etibarən keçirilən prezident və parlament seçkiləri Azərbaycan xalqının yüksək siyasi və hüquqi mədəniyyətə malik olmasını sübut edir.

Azərbaycan Respublikasının Konstitusiyasında bilavasitə və yaxud nümayəndəli demokratiya formasından hansının üstünlük təşkil etməsi barədə birbaşa müddəa yoxdur. Lakin aşağıdakı konstitusion normaların interpretasiyası əsasında belə bir nəticəyə gəlmək olar ki, burada bilavasitə demokratiya formasına üstünlük verilir. Məsələn, xalq seçki yolu ilə Dövlət başçısını, Parlament üzvlərini seçir, referendumla qəbul olunmuş normativ hüquqi aktlar qanunvericilik sistemində ən yüksək hüquqi qüvvəyə malikdir. Ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş hüquqi aktlar hüququn bütün subyektləri üçün məcburidir və bu aktları suverenin özündən başqa heç kəs ləğv edə və yaxud dəyişdirə bilməz. Lakin, bütün bunlar ictimai və dövlət həyatında heç də nümayəndəli demokratiya insultlarının böyük rolunu inkar etmir.

Azərbaycan Respublikasının Konstitusiyası həm elitar, həm də partisipator demokratiya konsepsiyalarının mütərəqqi ideyalarını özündə birləşdirir. Bir tərəfdən seçkilər və referendum, digər tərəfdən nümayəndəli demokratiya institutlarının (prezidentlik, parlamentarizim və s.) dövlətimizin konstitusiyasına inteqrasiya etməsi onu göstərir ki, ölkəmizdə hər iki demokratiya forması zəruri hesab edilir.

Bilavasitə demokratiya institutları vasitəsilə (referendum, seçkilər) xalq ictimai və dövlət həyatının ən mühüm məsələlərinə dair birbaşa öz iradəsini bildirir, qanun və qərar qəbul edir. Seçkilər və referendumun keçirilməsi

prosesində vətəndaşların əksəriyyəti cəmiyyətin siyasi həyatında, dövlətin idarə olunmasında fəal iştirak edir. Mühüm əhəmiyyət kəsb edən qərarların qəbulunda xalqın birbaşa iştirakı vətəndaşı vətəninin taleyi üçün məsuliyyətli edir, onda həmrəylik hissini yarada bilir. Lakin bilavasitə demokratiyanın bu cür müsbət keyfiyyətlərinə baxmayaraq konstitusiya hüququ elmi və təcrübəsi birmənalı olaraq belə bir qənaətə gəlmişdir ki, xalqın suverenliyi yalnız bilavasitə demokratiya formasında həyata keçirilə bilməz. İctimai və dövlət işlərinin yerinə yetirilməsi (həll olunması) daimi, fasiləsiz və peşəkar idarəçiliyi zəruri edir ki, bu vəzifələrin də yerinə yetirilməsi nümayəndəli demokratiya institutlarının köməyi ilə təmin oluna bilər.

Azərbaycan Respublikasında xalq hakimiyyəti konsepsiyasına görə yalnız bilavasitə və nümayəndəli demokratiya institutlarının vəhdəti ölkədə xalq hakimiyyətinin səmərəliliyini təmin edə bilər. Belə ki, hər iki formadan birgə istifadə şəraitində onların çatışmayan cəhətləri aradan qaldırılır və bu institutlar bir-birini tamamlayır.

Dövlət hakimiyyəti, yerli özünüidarə və xüsusilə onların seçkili nümayəndəli orqanları olmadan xalq hakimiyyəti və xalq suverenliyi təmin oluna bilməz.

Bölmə II. Dövlət hakimiyyəti

Fəsil 2. Azərbaycan Respublikasında dövlət hakimiyyəti xalq hakimiyyətinin əsas formasıdır

1. Xalq hakimiyyətinin əsas forması kimi dövlət hakimiyyətinin anlayışı, əlamətləri və prinsipləri.

İstənilən insan cəmiyyətinin sistemli şəkildə idarə olunmağa ehtiyacı var. Mürəkkəb sosial orqanizm kimi cəmiyyətin idarəetməyə olan tələbatı burada hakimiyyətin mövcudluğunu şərtləndirir. Hakimiyyət insan cəmiyyətinin yaranması ilə meydana gəlmiş və cəmiyyətin tarixi inkişafının bütün mərhələlərində onun əsas tərkib elementi kimi çıxış etmişdir. Hakimiyyət cəmiyyətin birliyini, sosial-idarəetməni, ictimai qaydanı, bir sözlə cəmiyyətin mövcudluğunu təmin edir. Hakimiyyətin təsiri ilə ictimai münasibətlər məqsədyönlü, nizamlı, mütəşəkkil xarakter alır.

Qədim zamanlardan dövlət hakimiyyətinin anlayışı və mahiyyəti haqqında elmi mübahisələrin mövcudluğuna baxmayaraq bu gün də müasir elmdə həmin problemin həllinə birmənalı münasibət yoxdur. Əksər hallarda siyasi, hüquqi ədəbiyyatlarda dövlət hakimiyyətinə verilən anlayış müasir demokratik dövlətin anlayışı və mahiyyətinə, tələblərinə cavab vermir. Bir çox hallarda dövlət hakimiyyətinin bir və yaxud bir neçə mühüm əlaməti əsasında bu fenomenal hadisəyə dar münasibət göstərilir, onun anlayışına dair məhdud xarakterli fikirlər formalaşır. Bu sahədə mövcud vəziyyəti mürəkkəbləşdirən hallardan biri də, konstitusiya qanunvericiliyində dövlət hakimiyyəti təzahürünün definisiyasının olmamasıdır.

Azərbaycan Respublikasının o cümlədən, MDB-yə daxil olan digər dövlətlərin, Baltikyanı respublikaların, ABŞ, Türkiyə, Fransa və s. ölkələrin konstitusiya qanunvericiliyində dövlət hakimiyyəti termini əsasən hakimiyyətlər bölgüsü prinsipi kontekstində istifadə olunur. Bütün bunlarla yanaşı etiraf olunmalıdır ki, dövlət hakimiyyətinin keyfiyyət göstəriciləri, dövlət hakimiyyəti mexanizminin səmərəliliyi, inkişafı xeyli dərəcədə elmi

konsepsiyada formalaşan dövlət hakimiyyəti anlayışından asılıdır.

Müasir elm sahələrində dövlət hakimiyyətinin anlayışı və mahiyyəti problemi əsasən politologiya və hüquq elmlərinin tədqiqat predmetinə daxildir. Hüquqşünaslığın bu hadisəyə olan böyük marağı qanunauyğundur. Dövlət hakimiyyəti müstəsna səlahiyyəti kimi hüquqyaradıcılığını həyata keçirir. Digər tərəfdən dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsi ictimai həyatın elə bir mühüm sahəsidir ki, burada yaranan ictimai münasibətlər hüquqla tənzimlənir. Bu kontekstdə hesab edirik ki, hüquqi demokratiyanın bu problemin həllinə dair özünəməxsus yanaşması olmalıdır. Dövlət hakimiyyəti və hüquq hadisələrinin üzvü bağlılığı isə həmin yanaşmanın əsasını təşkil etməlidir. Eyni zamanda bu anlayışın formalaşmasına sahələrarası yanaşma prinsipi olmalıdır, xüsusilə politologiya və sosiologiya elmlərinin mülahizələrindən istifadə edilməlidir.

Müasir nəzəri ədəbiyyatlarda dövlət hakimiyyəti anlayışına beş mövqedən baxılır:

1) Ümumi hakimiyyət kateqoriyası əsasında;
2) İradi münasibət kimi;
3) Məcburetmə kimi;
4) Dövlət aparatı kimi;
5) Siyasi hakimiyyət kimi.

Məsələn, hakimiyyət kateqoriyasının ümumi anlayışı əsasında Rusiyanın Konstitusiya hüququ dərsliyində qeyd olunur ki, hakimiyyət insan cəmiyyətinin yaranması ilə meydana gəlir və bütün bəşər cəmiyyətlərində mövcuddur. Belə ki, hər bir bəşər cəmiyyəti məcburetmə də daxil olmaqla müxtəlif vasitələrlə idarəetmə ilə təmin olunur. Hakimiyyət kimisə və nəyisə idarəetmək, digərlərini öz iradəsinə tabe etmə qabiliyyətdir (89,s.85). Bu kontekstdə dövlət hakimiyyəti kimisə və nəyisə idarə etmək, digərlərini

öz iradəsinə tabe etmək qabiliyyəti kimi xarakterizə olunur. Bu anlayışın həqiqi tərəfini inkar etmədən, hesab edirik ki, onun çatışmayan cəhəti də var. Belə ki, sosial hakimiyyətin xüsusi növü olan dövlət hakimiyyətinin mahiyyətini, özünəməxsus əlamətlərini, bu fenomenal hadisənin digər aspektlərini nəzərə almır.

Müasir dövrün digər tədqiqatçıları dövlət hakimiyyətinin anlayışını onun ayrı-ayrı tərəfləri, xüsusiyyətləri əsasında formalaşdırmağa çalışırlar. Belə olan halda dövlət hakimiyyətinin hansısa tərəfi xüsusi qabardılır və məhdud, birtərəfli anlayış irəli sürülür. Bu cür yanaşma dövlət hakimiyyətinin digər mühüm xüsusiyyətlərini diqqətdən kənarda qoyur və dövlət hakimiyyətinin bütöv sosial hadisə kimi dərk olunmasına yol vermir. Məsələn, siyasi və hüquqi ədəbiyyatlarda dövlət hakimiyyəti daha çox dövlətin iradəsi kimi xarakterizə olunur. Bu kontekstdə, dövlət hakimiyyətinin əsas elementi bütün fərdlərin dövlət hakimiyyətinə tabe olmasını təmin edən ümumi iradə çıxış edir. Qeyd olunan bu fikri inkar etmədən düşünürük ki, dövlət hakimiyyəti anlayışının yalnız bu element əsasında izah olunması problemə məhdud yanaşmanı xarakterizə edir. Bu cür yanaşma hakimiyyət və iradə anlayışlarının eyniləşdirilməsinə əsas yaradır və düzgün sayıla bilməz.

Ötən paraqrafda biz qeyd etdik ki, əgər hakimiyyət dedikdə iradəni nəzərdə tutsaq, onda digər insanlardan təcrid olunmuş halda yaşayan şəxs də hakimiyyətə malik ola bilərdi. Əslində isə bu belə deyil. Yalnız digər insanlarla məlum münasibətlərdə olan və iradəsi digər insanların iradəsinə nisbətən hakim olan şəxs hakimiyyətə malik ola bilər. Əgər dövlətin iradəsi hakimiyyət olsaydı, onda bu anlayışların hər ikisi eyni mənalı olardı və dövlət xüsusi mülki hüquq əqdlərini bağlayanda da iradə hakimiyyət kimi qalardı. Əslində isə xüsusi hüquq əqdlərində dövlət iradəsi hakimiyyət deyil, və fiziki şəxslərin iradəsi ilə bərabərdir.

Buna görə də hakimiyyətə iradə kimi tərifin verilməsi düzgün deyildir.

Hakimiyyət iradə deyil, bir iradənin digərinə məlum münasibəti, bir iradənin digəri üzərində hökmranlığıdır. Düzdür "hakimiyyət" sözü məcazi mənada da işlənir, bu halda yalnız məlum şəxsin digər şəxsə münasibəti deyil, həm də digərinin iradəsi üzərində hökmranlıq edən iradənin də subyekti hakimiyyət adlanır.

Müasir elmdə dövlət hakimiyyətinin anlayışına dair digər mövqelərdən biri də həmin təzahürün məcburetmə kimi xarakterizə olunmasıdır. Elmdə bu yanaşmanın tarixi yeni sayılmır.

Hələ orta əsrin görkəmli siyasi xadimi və elm nümayəndəsi Nikkolo Makiavelli "Hökmdar" əsərində dövlət hakimiyyətini güc ilə eyniləşdirirdi, onu insanların üzərində hökmranlıq edən vahid güc kimi xarakterizə edirdi. Daha sonra o, yazırdı ki, bu gücün əsasında qorxu dayanır (81,s.159).

Müasir nəzəri ədəbiyyatlarda həmçinin bu cür mövqeyə tez-tez rast gəlmək mümkündür. Məsələn, M.İ.Baytin yazır ki, hakimiyyət həyata keçirilmə formasından asılı olmayaraq bütün hallarda məcburetmədir (144,s.112).

Politologiya dərsliyində isə qeyd olunur ki, hakimiyyət termini sosial kontekstdə "kiminsə" (şəxsin, yaxud sosial qrupun) başqalarını müəyyən şəkildə öz istədiyini etməyə məcbur etməsi mənasında işlədilir(69,s.86,87).

Birincisi, hesab edirik ki, hakimiyyət kateqoriyası tabeçilik və məcburetmə proseslərini ehtiva etməsinə baxmayaraq məcburetmə ilə eyniləşdirilə bilməz. Ümumi məqsədlərə nail olmaq üçün hakimiyyət insanların davranışına yalnız məcburetmə ilə deyil, digər metodlarla da təsir göstərə bilər.

Məcburetmə hakimiyyətin həyata keçirilməsinin yalnız bir metodudur. Onun digər metodu inandırmadır. Inandırma və məcburetmə ilə yanaşı hakimiyyət iqtisadi, siyasi, sosial və ideoloji metodlardan da istifadə edə bilər.

Fəlsəfə ensiklopedik lüğətində düzgün qeyd olunur ki, hakimiyyət-cəmiyyətin təşkilinin əsas funksiyalarından biri, bir-birinə zidd fərdi və ya qrup mənafelərini əlaqələndirməklə insanların hərəkətini idarə etmək üçün inandırma və ya məcburiyyət vasitəsilə onları vahid iradəyə tabe etməklə real imkana malik nüfuzlu qüvvədir (43, s.468).

Məcburetmə intellektin, nüfuzun gücündən həm də onunla fərqlənir ki, burada hakimiyyətə tabe olan subyekt anlayır ki, bunu öz iradəsinə zidd həyata keçirir. Bu kontekstdə məcburetməni həmçinin, zorakılıq anlayışından fərqləndirmək lazımdır. Belə ki, məcburetmə fiziki güc, zorakılıq anlayışından daha genişdir, çünki məcazi xarakter daşıya bilər.

İkincisi, dövlət hakimiyyəti mexanizminin tərkib hissəsi olan məcburetmə aparatı əsasında dövlət hakimiyyətinin anlayışını müəyyən etmək bu fenomenal hadisənin əsl mahiyyətini ifadə etmir.

Digər qrup müasir tədqiqatçıların mövqeyinə görə isə dövlət hakimiyyəti dövlət və ya dövlət mexanizmi anlayışları ilə eyinləşdirilir. Zənnimizcə, dövlət və dövlət hakimiyyətinin nisbəti sualı dövlətin anlayışına uyğun aparılmalıdır.

Siyasi-hüquqi ədəbiyyatlarda dövlət dar və geniş mənada izah olunur. Dar mənada dövlət cəmiyyətdə fəaliyyət göstərən siyasi təşkilatdır. Bu kontekstdə hesab edirik ki, dövlət və dövlət hakimiyyəti anlayışları bərabər tutula bilər. Geniş mənada dövlət müəyyən formada təşkil olunmuş cəmiyyətdir, onun siyasi ərazi ittifaqıdır. Bu halda

dövlət hakimiyyəti dövlətin əsas əlaməti kimi götürülməlidir.

Müasir siyasi-hüquqi ədəbiyyatlarda dövlət hakimiyyətini, dövlət mexanizmi və ya dövlət orqanlarının sistemi kimi izah edən anlayışlara da rast gəlmək mümkünüdür.

H.İ.Şirəliyev, Ə.C.Əhmədov "Politologiya" dərsliyində yazırlar ki, dövlət hakimiyyəti dedikdə, dövlət orqanları sisteminin öz yurisdiksiyasına aid olan vətəndaşları, təşkilatları və müəssisələri özünə tabe etmək, onlara sərəncam vermək və onları idarə etmək qabiliyyəti, hamı üçün məcburi olan qanunvericilik və digər normativ aktları dərc etmək və onların icrasını təmin etmək qabiliyyəti nəzərdə tutulur(69,s.86,87).

Yuxarıda qeyd olunan anlayışın bir neçə üstün cəhətlərini göstərmək istərdik. Təqdirə layiq haldır ki, burada dövlət hakimiyyəti qanunvericilik sistemi ilə əlaqələndirilir və normativ hüquqi aktların qəbulu və onların icrasını dövlət hakimiyyətinin vəzifəsi kimi müəyyənləşdirir. Digər müsbət tərəfi odur ki, burada dövlət hakimiyyətinin obyektləri: vətəndaşlar, təşkilatlar, müəssisələr konkretləşdirilir.

Lakin, yuxarıda göstərilən müsbət cəhətlərlə yanaşı hesab edirik ki, bu anlayışın müəyyən qüsurlu tərəfləri də mövcuddur. Hər şeydən əvvəl qeyd olunmalıdır ki, dövlət hakimiyyəti və dövlət orqanları sistemi anlayışlarını sıx bağlılığı heç də bu hadisələri eyniləşdirməyə əsas vermir.

Dövlət orqanları dövlət hakimiyyətinin təşkili formasıdır. Digər tərəfdən burada dövlət hakimiyyətinin subyektlərinin dairəsinin yalnız dövlət orqanları ilə məhdudlaşdırılması mövqeyini də düzgün hesab etmək olmaz.

Ümumilikdə dövlət hakimiyyəti subyektlərini 3 qrupa bölmək olar:

Birinci qrup subyektlərə xalq və vətəndaşlar aiddir. Bu qrupa daxil olan subyektlər təsisedici dövlət hakimiyyətini həyata keçirir. Məhz buna görə də xalq hakimiyyəti həm də təsisedici hakimiyyət adlandırılır;

İkinci qrupa dövlət orqanları daxildir. Bu subyektlər qanunvericilik, icra və məhkəmə hakimiyyətlərini həyata keçirir;

Üçüncü qrupa isə dövlət hakimiyyətini həyata keçirməyə səlahiyyətləndirilmiş subyektləri aid etmək olar. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsində qeyd olunur ki, bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər.

Digər bir misal kimi Həmkarlar İttifaqları haqqında Azərbaycan Respublikasının qanunvericilik aktını göstərmək olar. Həmin qanunun 10-cu maddəsində qeyd olunur ki, həmkarlar ittifaqları əmlak, sosial, iqtisadi məsələlər barəsində qanunvericilik aktlarının hazırlanmasında iştirak edə bilər. İşçilərin əmək, sosial və iqtisadi hüquqlarına dair qanun layihələrinə həmkarlar ittifaqları respublika birliyinin rəyi müzakirə edilməklə baxılır. Həmkarlar ittifaqlarının respublika birlikləri işçilərin mənafelərini və həmkarlar ittifaqlarının hüquqlarını pozan qanunvericilik aktları, dövlət orqanlarının qərarları, sərəncamları barədə müvafiq qanunvericilik, icra və məhkəmə orqanlarına müraciət edə və şikayət verə bilərlər. Dövlət və təsərrüfat orqanları işçilərin əmək, sosial, iqtisadi hüquqlarına və mənafelərinə aid olan normativ aktları müvafiq həmkarlar ittifaqlarına azı 15 gün qabaq məlumat verməklə qəbul edirlər. Qanunvericiliklə nəzərdə tutulan hallarda həmkarlar ittifaqları respublika birliyi əmək və sosial-iqtisadi məsələlər üzrə qanunvericiliyin tətbiq edilməsi qaydalarını nizama salan normativ aktların hazırlanmasında iştirak edə bilər.

Müasir siyasi, hüquqi ədəbiyyatlarda mövcud olan elmi mübahisələrdən biri də dövlət hakimiyyəti və siyasi hakimiyyət anlayışlarının nisbəti problemidir.

Bu sual ilə bağlı elmdə iki əsas mövqe formalaşmışdır. Birinci yanaşmaya görə siyasi və dövlət hakimiyyəti sinonimdir. İkinci mövqeyin tərəfdarları isə siyasi və dövlət hakimiyyəti kateqoriyalarını fərqli hadisələr kimi xarakterizə edirlər.

Məsələn, rus alimi akademik Baytinin mülahizələrinə görə "siyasi hakimiyyət" və "dövlət hakimiyyəti" terminləri sinonimdir. O, qeyd edir ki, bəzi alimlər tərəfindən siyasi hakimiyyətin dövlət hakimiyyətinə nisbətdə daha geniş anlayış kimi izah olunması düzgün deyil. Onlar unudur ki, siyasi hakimiyyət və bu hakimiyyətin həyata keçirilməsində iştirak etmək fərqli məna daşıyır.

Akademik Baytinə görə siyasi və yaxud dövlət hakimiyyəti kütləvi hakimiyyətin elə bir növüdür ki, burda hakimiyyət dövlət tərəfindən bilavasitə və səlahiyyətləndirilmiş subyektlər vasitəsilə və yaxud dövlətin köməyi ilə həyata keçirilir (144,s.112).

Professor Straşun bu iki hadisəni eyniləşdirir. O, qeyd edir ki, siyasi hakimiyyət müəyyən qrup insanların (elitanın) zəruri hallarda məcburetmədən istifadə etməklə bütün cəmiyyət üzərində hakimiyyətidir (90,s.206).

İkinci qrup alimlərin mövqeyinə görə siyasi hakimiyyət dövlət hakimiyyətinə nisbətən daha geniş anlayışdır. Belə ki, siyasi hakimiyyət yalnız dövlət vasitəsilə deyil, həmçinin sosial-siyasi sistemin digər institutları: siyasi partiyalar, həmkarlar ittifaqları, beynəlxalq təşkilatlar və s vasitəsilə həyata keçirilir .

Professor V.Çirkin də təxminən bu mövqedən çıxış edir. O, yazır ki, dövlət hakimiyyətini siyasi hakimiyyətdən fərqləndirmək lazımdır, müxtəlif hakimiyyət budaqlarında təzahür etməsindən asılı olmayaraq, dövlət hakimiyyəti

vahid tam kimi həmişə siyasi xarakterə malikdir, lakin siyasi hakimiyyət heç də həmişə dövlət hakimiyyəti demək deyildir. Çin Xalq respublikası yaranana qədər, otuz il müddətində Çinin bəzi rayonlarında Kommunist partiyasının rəhbərliyi altında hələ dövlət hakimiyyəti olmayan siyasi hakimiyyət mövcud olmuşdur (41,s.157).

Dövlətin əsasları adlı dərslikdə qeyd olunur ki, siyasi hakimiyyət dövlət hakimiyyətindən fərqlənir. Birincisi, hər bir siyasi hakimiyyət dövlət hakimiyyəti sayılmır. Lakin sosial qrupların münasibətlərini tənzimləyən hər bir dövlət hakimiyyəti siyasi hakimiyyət hesab olunur; ikincisi, dövlət hakimiyyəti cəmiyyətdə arbitraj rolunu yerinə yetirdiyi halda, siyasi hakimiyyətdə lazım olan vəsait və vasitə olmadığından bu rolu oynaya bilmir; üçüncüsü, siyasi hakimiyyətin və dövlət hakimiyyətinin həyata keçirilməsi üçün mexanizmlər müxtəlifdir; dövlət hakimiyyəti rəsmiləşdirilir, o xüsusi dövlət aparatı ilə həyata keçirilir, siyasi hakimiyyətdə belə mexanizm yoxdur; dördüncü, yalnız dövlət hakimiyyətinə bütün cəmiyyət adından rəsmi olaraq məcburetmə, zor tətbiq etmək səlahiyyəti verilir; beşinci, dövlət hakimiyyəti suveren olmaqla cəmiyyətdə həmişə faktiki, hüquqi hakimlik mövqeyində olur (140,s.84-85)

Konstitusiya hüquq dərsliyində isə qeyd olunur ki, dövlət hakimiyyəti ilə sıx bağlı olmasına baxmayaraq, siyasi hakimiyyət bütün hallarda dövlət hakimiyyəti deyildir, demokratik cəmiyyətdə siyasi hakimiyyət yalnız dövlət hakimiyyəti vasitəsilə deyil, həm də siyasi sistemə daxil olan digər birliklər tərəfindən həyata keçirilir (88,s.49).

Hesab edirik ki, siyasi hakimiyyət və dövlət hakimiyyəti anlayışlarını fərqləndirən alimlərin mövqeyi daha düzgündür. Siyasi hakimiyyət dövlət hakimiyyətinə nisbətən geniş anlayışdır. Belə ki, siyasi hakimiyyət yalnız

dövlət mexanizmi vasitəsilə deyil, həm də qeyri dövlət institutları tərəfindən həyata keçirilir.

Lakin, xüsusilə postsovet məkanlarında mövcud olan nəzəri ədəbiyyatlarda siyasi hakimiyyət və dövlət hakimiyyəti anlayışlarının eyniləşdirilməsi təsadüfi deyildir. Belə ki, tarixən siyasi hakimiyyət dövlət hakimiyyəti formasında yaranmış və uzun illər dövlət hakimiyyəti kimi çıxış etmişdir, dövlət cəmiyyətin yeganə siyasi sistemi olmuşdur. Zaman keçdikcə ictimai münasibətlərin təkamülü nəticəsində cəmiyyətində digər siyasi təşkilatlar yaranmağa başladı.

Sovetlər hakimiyyəti dövründə isə postsovet məkanında siyasət bütövlükdə dövlətin əlində inhisarlaşmışdır və beləliklə həm nəzəri, həm də təcrübi realizəsi baxımından siyasi hakimiyyət və dövlət hakimiyyəti hadisələri eyniləşdirilir. Lakin demokratik, hüquqi dövlətdə siyasi hakimiyyət yalnız dövlət tərəfindən deyil, həm də vətəndaş cəmiyyətinin digər institutları tərəfindən həyata keçirilir. Əlbəttə ki, dövlət hakimiyyəti siyasi hakimiyyətdir, onun əsas mərkəzi elementidir. Bununla yanaşı elektoratın, beynəlxalq birliklərin, bələdiyyələrin və müəyyən hallarda siyasi partiyaların və qeyri hökumət təşkilatlarının da hakimiyyəti siyasi xarakterli ola bilər.

Ümumiyyətlə Azərbaycan Respublikasının Konstitusiyanda siyasi hakimiyyət termini istifadə olunmur. Lakin, burada cəmiyyətin siyasi həyatı və dövlətin siyasi həyatı anlayışları fərqləndirilir. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 54-cü maddəsində qeyd olunur ki, Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ vardır.

Dövlətin siyasi həyatı dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsi ilə bağlıdırsa, cəmiyyətin siyasi həyatı

daha geniş anlayışdır. Belə ki, cəmiyyətin siyasi həyatı dövlətin siyasi həyatını da ehtiva etməklə yanaşı, həm də qeyri dövlət siyasi təşkilatlarının məsələn, siyasi partiyaların yaradılması və fəaliyyəti, yerli özünüidarəetmə sisteminin təşkili, fəaliyyəti və digər sahələri də əhatə edir. Azərbaycan Respublikasının Konstitusiyası vətəndaşlarının sərbəst toplaşmaq azadalıqlarının, dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin işini tənqid etmək hüququnu təsbit edir. Eyni zamanda Konstitusiyamızda hər kəsin başqaları ilə birləşib siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna təminat verir. Yuxarıda deyilənlər onu göstərir ki, demokratik, hüquqi dövlət kimi Azərbaycan Respublikasında siyasi həyatda dövlət hakimiyyəti təşkilatları ilə birgə qeyri dövlət institutları da iştirak edir. Zənnimcə, dövlətimizin əsas qanununda birbaşa siyasi hakimiyyət anlayışından istifadə olunmasa da, lakin yuxarıda göstərilən Konstitusiya müddəalarının interpretasiyası əsasında belə bir məntiqi nəticəyə gəlmək olar ki, Konstitusiyamız siyasi hakimiyyət və dövlət hakimiyyəti anlayışlarını fərqləndirir.

Bəzi nəzəri mənbələrdə siyasi hakimiyyət və xalq hakimiyyəti anlayışlarının eyniləşdirilməsi hallarına da rast gəlmək olar. Hesab edirik bu cür mövqe düzgün sayıla bilməz. Xalq hakimiyyəti siyasi hakimiyyətdir; siyasi hakimiyyətin əsas mərkəzi elementləri sayılan dövlət hakimiyyəti, yerli özünüidarə hakimiyyəti xalq hakimiyyətinin formalarıdır. Lakin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər qeyri dövlət təşkilatlarının hakimiyyəti siyasi xarakterli olsa da belə, onları hələ xalq hakimiyyəti adlandırmaq düzgün deyildir. Belə bir nəticəyə gəlmək olar ki, siyasi hakimiyyət anlayışı xalq hakimiyyəti anlayışına nisbətən genişdir.

Müasir elmi mənbələrdə mübahisə yaradan problemlərdən biri də dövlət hakimiyyəti və dövlət idarəçiliyi anlayışlarının nisbəti sualıdır. Bu sualın tədqiqatı ilə məşğul olan birinci qrup alimlərin mövqeyinə görə dövlət idarəçiliyi dövlət hakimiyyətindən fərqli olaraq dövlət fəaliyyətinin xüsusi növüdür. İkinci qrup tədqiqatçıların mülahizələrinə görə dövlət idarəçiliyi dövlət hakimiyyətinin icra və sərəncam orqanlarının fəaliyyəti ilə əlaqələndirilir, "dövlət idarəçiliyi" və "icra hakimiyyəti" terminləri sinonim kimi qəbul edilir .

Professor Tixomirov isə dövlət idarəçiliyini geniş və dar mənada xarakterizə edir. Onun mülahizələrinə görə, geniş mənada dövlət idarəçiliyi bütün dövlət hakimiyyəti orqanlarının (qanunverici, icra, məhkəmə) təşkilati və sərəncamverici fəaliyyətini ehtiva edir. Dar mənada isə dövlət idarəçiliyi icra hakimiyyəti orqanlarının fəaliyyəti ilə əlaqələndirilir.

Ötən paraqraflarımızn birində qeyd olundu ki, hakimiyyət və idarəetmə terminlərinin sıx bağlılığına baxmayaraq onları eyniləşdirmək düzgün deyildir. Belə ki, hakimiyyət münasibətləri bütün hallarda sosial xarakterli olduğu halda, idarəetmə müxtəlif təbiətli (bioloji, sosial, texniki) mütəşəkkil sistemlərin elementi, funksiyası, onların müəyyən strukturunun saxlanılmasını, fəaliyyət rejiminin mühafizəsini, proqram və məqsədin reallaşmasını təmin edir.

Əksər mənbələrdə idarəetmə müəyyən sistem və proseslərə, onların vəziyyətini dəyişmək və yeni keyfiyyət vermək məqsədilə təsir göstərilməsi kimi xarakterizə olunur. Bu mənada hakimiyyətdən fərqli olaraq idarəetmə həm sosial, həm də texniki sistemlərə aiddir.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, idarəetmə hakimiyyət kateqoriyasına nisbətən daha geniş anlayışdır. Bütün bunlarla yanaşı idarəetmə hakimiyyət

üçün də xarakterik olan fəaliyyətdir. Lakin, texniki sistemlərdən fərqli olaraq hakimiyyət sosial idarəetməni ehtiva edir.

Hakimiyyət idarəetmə vasitəsilə müəyyən sistem və proseslərə (hakimiyyət obyektlərinə), onların vəziyyətini dəyişmək və yeni keyfiyyət vermək məqsədilə təsir göstərir. Lakin bu bizə hakimiyyət və sosial idarəetmə anlayışlarını eyniləşdirməyə də əsas vermir. Hakimiyyət idarəetmə anlayışına nisbətdə ilkindir. Belə ki, hakimiyyət subyekti həm də idarəetməni həyata keçirir. Lakin müəyyən hallarda idarəetmə subyekti hakimiyyətə malik olmaya bilər (məsələn, orkestri idarə edən drijor).

Bütün deyilənlərə rəğmən belə bir nəticəyə gəlmək olar ki, "dövlət hakimiyyəti" həm də "dövlət idarəçiliyi" kimi xarakterizə oluna bilər. Hesab edirik ki, dövlət idarəçiliyi həm icra hakimiyyəti, həm də qanunvericilik və məhkəmə hakimiyyətləri üçün xarakterikdir. Onlar vahid məqsəd və vəzifələrə malikdirlər, bu da dövlət hakimiyyətinin vahidliyini müəyyən edir. Digər tərəfdən vahid dövlət hakimiyyətinin hər bir budağı öz məqsəd və vəzifələrinə malikdirlər. Bu məqsəd və vəzifələri gerçəkləşdirmək üçün onların hər biri öz hakimiyyəti daxilində dövlət idarəçiliyini həyata keçirir.

Bu gün siyasi-hüquqi ədəbiyyatlarda dövlət hakimiyyətini cəmiyyətdən təcrid olunmuş və cəmiyyət üzərində yüksələn hadisə kimi xarakterizə edən fikirlərə də rast gəlmək olar.Məsələn, professor V.K.Babayev qeyd edir ki, dövlət hakimiyyəti cəmiyyətin əsas hissəsindən ayrılıb və onun üzərində dayanan hakimiyyətdir (139,s.56). Digər rus alimi V.N.Xropanyuk isə qeyd edir ki, sosiologiya elminin nümayəndələri dövlətin 3 əsas əlamətini fərqləndirir: 1) xalq; 2) onun üzərində hakim olan hakimiyyət; 3) ərazi(145,s.46).

Təxmini eyni fikir akademik Baytin tərəfindən də səslənir. O, dövlət hakimiyyətinin aşağıdakı əlamətlərini fərqləndirir:

1) Dövlət hakimiyyəti sinfi xarakter daşıyır;

2) Dövlət hakimiyyəti xüsusi aparat vasitəsilə həyata keçirilir.

Bu aparat cəmiyyətdən ayrılmış və yalnız idarəetmə ilə məşğul olan insanlardan ibarətdir. Postsovet məkanında yaşayan bəzi alimlər arasında bu cür mövqeyin formalaşmasına yəqin ki, keçmiş sovetlər məkanında hakim olan marksizm-leninizm ideologiyasının təsiri olmuşdur.

Marksizm-leninizm tərəfdarları dövlət hakimiyyətini bir sinfin digər sinfi əzmək məqsədi daşıyan aparat kimi xarakterizə edirdilər. Əlbəttə ki, bu cür yanaşma demokratik dövlət hakimiyyəti üçün qəbul edilməzdir. Belə bir tərif dövlət hakimiyyətini cəmiyyətdən uzaqlaşdırır, insanlarda dövlət hakimiyyətinə qarşı yad münasibət formalaşdırır, əhali dövlət hakimiyyətini ona xidmət göstərən varlıq kimi deyil, onun üzərində dayanan bir zor aparatı kimi qəbul edir.

Xalq hakimiyyətinə əsaslanan dövlət hakimiyyəti böyük yaradıcı, cəmiyyətin ümumi işlərini idarə etmək qabiliyyətinə malik olan, daimi və fasiləsiz yüksək peşəkarlıq əsasında fəaliyyət göstərən qüvvədir. Bu qüvvə cəmiyyəti inteqrasiya edir, sosial ziddiyyətləri aradan qaldırır, fərdi və qrup maraqları aradan qaldırır, inandırma, həvəsləndirmə, zəruri hallarda məcburetmə metodları ilə onları vahid xalqın iradəsinə tabe edir.

Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın 1995-ci il iyunun 5-də keçirilən ilk iclasında komissiyanın sədri Heydər Əliyev öz nitqində qeyd etmişdir: "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri-bunlar hamısı

xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təşkil olunmalıdır, dövlət xalq üçün olmalıdır" (70,s.63).

Heydər Əliyevin səsləndirdiyi bu mütərəqqi ideya Azərbaycan Respublikası Konstitusiyasının əsasını təşkil edir.

Xalq hakimiyyətinin əsaslarını tənzimləyən normaların konstitusiyamızın 1-ci fəslində ifadə olunması, digər fəsillərdə xalq suverenliyi prinsipinin rəhbər tutulması Azərbaycan Respublikası Konstitusiyasının demokratik mahiyyətinin təcəssümüdür.

Müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının memarı Heydər Əliyevin: "Dövlət xalqın işi olmalıdır" şüarı konseptual şəkildə Azərbaycan Respublikası Konstitusiyanın 7-ci maddəsinin 1-ci hissəsində öz hüquqi ifadəsini tapmışdır. Bu konstitusion normaya əsasən Azərbaycanda respublikalı dövlət idarəçiliyi forması bəyan olunur. Etimologiyasına görə latıncadan "xalqın işi" mənasını verən Respublikalı dövlət idarəçiliyi formasında Ulu Öndərin qeyd etdiyi kimi dövləti idarə etmək hər şeydən əvvəl xalqın işidir.

Respublika ali dövlət hakimiyyətinin əhali tərəfindən müəyyən müddətə seçilən seçkili orqanların həyata keçirdiyi idarəçilik formasıdır. Burada dövlət hakimiyyəti xalqın mandatı üzrə həyata keçirilir və dövlət başçısı qanunla nəzərdə tutulan hallarda hüquqi məsuliyyət daşıyır. Bundan başqa ali dövlət hakimiyyəti qərarlarının dövlət orqanları üçün məcburiliyi, dövlət və şəxsiyyətin qarşılıqlı məsuliyyəti respublika idarəçilik formasının vacib əlamətləridir.

Ölkəmizdə Respublika idarəçilik formasının dəyişməzliyi Azərbaycan Respublikası Konstitusiyasının 155-ci maddəsində təsbit olunur. Belə ki, əsas qanunda qeyd olunur ki, bu Konstitusiyanın 7-ci maddəsində dəyişikliklər

və ya onların ləğv edilməsi haqqında təkliflər referenduma çıxarıla bilməz.

Azərbaycan Respublikası Konstitusiyasının 55-ci maddəsində isə Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ müəyyən olunur. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsi ilə həyata keçirə bilərlər. Bu maddənin 2-ci hissəsində göstərilir ki, Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər.

Ölkəmizdə əksər vətəndaşların dövlətin idarə olunmasında iştirak etməsi, hakimiyyət orqanlarına seçilməsi və yaxud təyin olunması onu göstərir ki, Azərbaycanda dövlət idarəçiliyi hər şeydən əvvəl xalq idarəçiliyidir, dövlət hakimiyyəti xalq hakimiyyətinin ilkin və əsas formasıdır.

Mütərəqqi haldır ki, xalq idarəçiliyini tənzimləyən konstitutiv normalar yalnız deklarativ xarakter daşımır. Biz bu normaların həm də dövlətimizin real həyatında təmin olunmasını müşahidə edə bilərik.

Lakin, Azərbaycanda xalq idarəçiliyinin formalaşması və inkişafı heç də asanlıqla başa gəlməmişdir.

XX əsrin sonunda beynəlxalq aləmdə baş verən mühüm hadisələr keçmiş sovetlər məkanına da öz təsirini göstərdi və 70 ildən artıq SSRİ dövlətinin tərkibində yaşayan xalqlar öz müstəqilliyi uğrunda mübarizəyə başladılar. XX əsrin 80-ci illərində bu proses xüsusilə kəskinləşdi və sovetlər dövlətinin dağılması beynəlxalq aləmdə yeni müstəqil respublikaların yaranmasına səbəb oldu. Belə dövlətlərdən biri də Azərbaycan Respublikasıdır.

Azərbaycan xalqının dövlət müstəqilliyi uğrunda mübarizəsi 1991-ci il oktyabrın 18-də Ali Sovetin dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsilə nəticələndi .

Azərbaycan xalqı 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra "de yure" Konstitusiya Aktı səviyyəsində demokratik, hüquqi dövlət quruculuğunu bəyan etsə də "de fakto" ölkədə **"marionet"** siyasi dövlət rejimi bərqərar oldu. Türk alimi, pofessor Kamal Gözlərin təbirincə desək bu cür siyasi rejimdə dövlətə rəhbərlik edən şəxslər xarici ölkələrin ərazisindən idarə olunur.

1992-ci ildə demokratik xarakterli populist çıxışları ilə xalq arasında özünə nüfuz qazanan, əslində isə demokratiyanın mahiyyətini bilməyən, demokratik dövlət quruculuğu qabiliyyətindən uzaq olan, öz ambisiyalarını xalqın mənafeyindən üstün tutan, dövlət idarəçiliyində səriştəsiz şəxslərin siyasi hakimiyyətə gəlməsi Azərbaycanda demokratiya ilə deyil, sosial-iqtisadi böhran və xaosla nəticələndi. Bu dövrdə mövcud olan rejim ölkəmizi vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Beləliklə, dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda demokratik inkişaf istiqamətində müəyyən addımlar atılsa da, xalqın milli-mənəvi dəyərlər sistemindən qaynaqlanan bu ali dəyərlər yalnız görkəmli siyasi xadim Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra həqiqi mahiyyət kəsb etməyə başlamışdır . Böyük strateq daxilindən irəli gələn yüksək demokratizmlə yalnız demokratik siyasi sistemdə xalqın firavan və azad yaşayışının təmin olunması mümkünlüyünü əsas götürərək bu istiqamətdə bütün zəruri tədbirləri həyata keçirmişdir.

Heydər Əliyev Azərbaycanın yeni dövr üçün demokratik inkişaf modelini irəli sürmüş, eyni zamanda, bu mütərəqqi dəyişikliklərin ictimai şüurda tədricən qəbul olunması zərurətini önə çəkmişdir. Onun demokratikya fəlsəfəsi Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni inkişaf modeli olmuşdur. İctimai-siyasi sabitlik faktoru isə bu modelin əsas dayaqlarından, istinad nöqtələrindən biri kimi çıxış etmişdir.

Azərbaycanda həqiqi demokratiya məhz Heydər Əliyevin milli dövlətçilik irsinin təcəssümü kimi formalaşmışdır. Bu irs demokratiyanın kütləvi özbaşınalıq kimi başa düşülməsinə, yaxud da ifrat Qərb demokratiyasının neqativ cəhətlərini özündə ehtiva etməsinə yol vermir.

Heydər Əliyevin demokratik dövlət quruculuğu konsepsiyasının reallaşması çox mürəkkəb bir şəraitə təsadüf edir: ölkədə özbaşınalıq hökm sürürdü, məmləkət idarəolunmaz vəziyyətə düşmüşdü, işğal olunan torpaqların dairəsi genişlənirdi. Bəzi demokratik ölkələrin təcrübəsi göstərir ki, belə vəziyyətdə siyasi sistem avtoritar metodlardan istifadə edərək və yaxud demokratik institutlardan manipulyasiya edərək ölkədə sabitlik yaratmağa əl atmışdır. Məsələn, 1992-1993-cü illərdə Rusiyada Prezident-Parlament münaqişəsi nəticəsində Rusiyanın keçmiş prezidenti Boris Yeltsin parlamenti buraxdı, Konstitusiya Məhkəməsini istefaya göndərdi və ölkədə qeyri-tipik idarəçilik forması yarandı; 1962-ci ildə Fransada tarixi şəxsiyyətlərdən hesab olunan Şarl De Qoll demokratik institutlardan istifadə edərək silahlı qüvvələrin Əlcəzairdən çıxarılmasını tələb edən xalqı sakitləşdirmək və vəziyyətdən çıxmaq üçün referendum keçirdi və referendumla qoşunların Əlcəzairdən çıxarılmasının həll edilməsi ilə yanaşı prezidentin səlahiyyətləri də artırıldı ki, Şarl De Qoll hər iki mühüm məsələni həll edə bildi .

Heydər Əliyev siyasətinin unikallığı ondadır ki, o məhz xalqın tələbi ilə hakimiyyətə gəldi, xalqın dəstəyi ilə dövlət çevrilişlərinə cəhdlərin qarşısını aldı, ölkədə sabitlik yaratdı, xalqın iradəsi ilə ölkənin Konstitusiyası və parlamenti formalaşdı, siyasi-hüquqi və iqtisadi islahatlar həyata keçirildi.

Heydər Əliyev demokratiyası Prezident də başda olmaqla hər kəsin qanunun aliliyinə əməl etməsi prinsipinə əsaslanır. Bu kontekstdə xalqın təkidli tələbi ilə yenidən

hakimiyyətə gələn Heydər Əliyev demokratiyanın əsas elementi sayılan seçkiləri plebissitlə qarışıq salmağa yol vermədi. Tarixdə isə keçmiş sovet məkanına daxil olan bəzi Orta Asiya ölkələrinin təcrübəsində bu cür faktlara rast gəlmək mümkündür. Bu dövlətlərdə liderlər seçkilərsiz referendumla dövlət başçısı vəzifəsini tutdular. Referendumda səsvermə bülleteninə yalnız bir nəfərin adı daxil olunur ki, bunu da seçkilər adlandırmaq düzgün sayılmır.

Demokratiyanın III dalğası Sovet İttifaqının dağılması nəticəsində yeni yaranan 15 ölkənin hər birinə fərqli dövlətçilik modeli, xalqlara isə müxtəlif yaşam, həyat tərzi bəxş etdi. Bəzi dövlətlər məsələn, Baltikyanı Respublikalar ilk gündən Mərkəzi və Şərqi Avropa xüsusiyyətlərinə əsaslanmış, bu tipli demokratiya modelini əxz edərək, oxşar dövlət quruculuğu prosesinə başladılar. Belə demokratik inkişaf yönümünün növbəti mərhələsi isə hətta xarici ölkə vətəndaşının ölkə Prezidenti seçilməsi oldu.

Mərkəzi Asiya Respublikaları isə sovet dövrünün idarəçilik ənənələrinin müəyyən rəmzlərini dəyişdirməklə, əslində köhnə stereotiplərə bağlılıqlarını qorudular. Yaxud Ukrayna və Gürcüstanda demokratik inkişafın yolları uzun müddət aransa da, bu, nəticə verməmiş, sonda isə Qərbin təşviqçisi olduğu "rəngli inqilablar" vasitəsilə bu ölkələr kəskin ictimai-siyasi burulğanlar məngənəsinə düşmüşlər. Bunun səbəbi isə şübhəsiz ki, bu respublikaların öz demokratik inkişaf modelinə malik olmamaları və digər modelləri uğursuz təkrarlamağa cəhd göstərmələridir.

Azərbaycanın qarşısında duran əsas məqsədin-xalq idarəçiliyi dövlət formasının qurulmasından ibarət olduğunu deyən Heydər Əliyev ölkəmizin dünya, ilk növbədə Avropanın iqtisadi, mədəni və digər strukturlarına inteqrasiya olunmasının tərəfdarı idi. Lakin, Heydər Əliyev həmişə qeyd edirdi ki, Qərb demokratiyasına istiqamət

götürdüyümüzə baxmayaraq, onu mexaniki şəkildə yerli zəminə keçirməməli, ən müsbət və bizə yararlı olan xüsusiyyətlərini qəbul etməliyik.

Cəmiyyətin demokratik yolla irəliləməsi üçün ictimai və sosial sifarişin olması vacibdir. Bunlar olmadan demokratikləşmə istiqamətində radikal addımların atılması heç vaxt bəhrəsini verə bilməz. Həqiqətən, bəzi keçmiş sovet respublikalarının təcrübəsindən məlum oldu ki, belə addımın atılması, daha konkret desək «rəngli inqilablar» sadəcə mənəvi və ictimai böhrana gətirib çıxarır. Odur ki, demokratiya təkamül yolu ilə getməlidir və birdən-birə hansısa radikal dəyişiklik ümidləri heç vaxt doğrultmayacaqdır.

Demokratiya cəmiyyətə kor-koranə qəbul etdirilməməli, zorla tətbiq olunmamalıdır. Çünki, heç də bütün cəmiyyətlər Qərb və Amerika tipli demokratiyaya hazır deyildir.

Heydər Əliyevin baxışlarına əsasən istənilən canlı orqanizm kimi demokratiya da kökündən inkişaf etməlidir. Bunun üçün ilk növbədə iqtisadiyyat inkişaf etməli, yerli özünüidarəetmə sistemi yaranmalıdır. Tarix boyu kasıb ölkələr demokratiyaya can atsalar da, buna istədikləri kimi nail ola bilməmişlər. Çünki, demokratik təsisatların təmin edilməsi üçün ölkənin özü inkişaf etməlidir. Ölkə iqtisadi cəhətdən qüdrətləndikcə, demokratik təsisatların yaranması, ən başlıcası isə cəmiyyətdə konsensusun əldə olunması üçün münbit şərait formalaşır.

Heydər Əliyevin demokratiya fəlsəfəsinə uyğun olaraq, insanların şüurunda dəyişikliyə nail olmaq üçün ilk növbədə onların sosial-iqtisadi rifahı təmin edilməli, təhsil səviyyəsi artırılmalı, mədəni həyatı zənginləşdirilməlidir. Nəticədə insanın özünə, ətrafdakılara və bütövlükdə cəmiyyətə, orada baş verən hadisələrə münasibət sistemi dəyişir, insan cəmiyyətdə gedən proseslərin fəal subyektinə

çevrilir. Deməli, vətəndaşların dövlətin idarə edilməsində iştirakçılıq səviyyəsi yüksələn xətt üzrə dəyişir. Bununla da vətəndaş cəmiyyətinin, demokratik dəyərlərin hüquqi dövlət müstəvisində inkişafı və həmin dəyərlərin dönməzliyi təmin edilir.

Demokratik dövlət quruculuğunun ən mühüm elementlərindən biri də siyasi elitanın formalaşmasıdır.

Demokratik dövlət quruculuğunun uğurla həyata keçirilməsi üçün yüksək siyasi və hüquqi mədəniyyətə malik olan, bacarıqlı, peşəkar kadrların, siyasi elitanın formalaşması xüsusi önəm kəsb edir.

Təcrübə göstərir ki, **"meritokratiya"**-rəhbər vəzifələrə sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq savadlı, bacarıqlı insanların təyin edilməsi prinsipi demokratik dövlətin əsasını təşkil edir. Demokratik dövlət suveren siyasi elitaya malik olmalıdır. Milli dövlətçiliyə xidmət edən və intellektual qabiliyyətləri ilə fərqlənən bu elita milli lider ətrafında birləşə, xalqın potensial enerjisini bir araya gətirə, quruculuq işlərinə səfərbər edə bilər.

Heydər Əliyevin demokratiya məktəbi cəmiyyətin idarə olunmasında intellekt amilinin, ümumiyyətlə elitaların, o cümlədən də intellektual elmi və siyasi elitanın dövlətçilik maraqları ətrafında konsolidasiyasını nəzərdə tutur.

Konsolidasiya olunmuş demokratik cəmiyyətin qurulması üçün ən mühüm şərtlərdən biri demokratik siyasi kursun varisliyidir. Bir çox ölkələrin təcrübəsində bu mühüm amilin nəzərə alınmaması demokratik rejimin reqressinə səbəb olmuşdur (Latın Amerikası ölkələrini buna misal gətirmək olar). Təcrübə göstərir ki, dövlətin taleyində həlledici rol oynamış lider şəxsiyyətlərin layiqli davamçılarının olmadığı təqdirdə hər hansı xalqın, millətin həyatında sonu görünməyən faciələrin də baş verməsi mümkündür.

Beləliklə, müstəqil Azərbaycan Respublikası Konstitusiyasının ümumi prinsipləri əsasında dövlət hakimiyyətinin aşağıdakı anlayışını formalaşdırmaq olar:

Dövlət hakimiyyəti hüquq əsasında, xalq suverenliyini, insan və vətəndaş hüquq və azadlıqlarını, hər kəsin layiqli həyat səviyyəsini təmin edən, xüsusi mexanizm vasitəsilə həyata keçirilən xalq hakimiyyətinin əsas və ilkin formasıdır.

Bu anlayışı ideallaşdırmaq düzgün olmazdı. Belə ki, cəmiyyətdə müxtəlif çoxsaylı vəzifə və funksiyaları yerinə yetirən sosial orqanizm kimi dövlət hakimiyyətinin bütün cəhətləri bir anlayışla əhatə oluna bilməz. Bununla yanaşı təklif olunan anlayışın aşağıdakı müsbət tərəflərini göstərmək olar. Hər şeydən əvvəl bu anlayış xalqımızın Ümummilli lideri Heydər Əliyevin demokratik dövlət fəlsəfəsinə və Azərbaycan Respublikası Konstitusiyasının ümumi prinsiplərinə uyğun gəlir. İkincisi, burda dövlət hakimiyyətinin mahiyyəti xalq suverenliyi, insan və vətəndaş hüquq və azadlıqlarının təminatı kimi xarakterizə olunur (Maddə 7, I hissə).

Əsas qanunun 12-ci maddəsində isə insan və vətəndaş hüquqlarının, azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olunur.

Üçüncüsü, verilən anlayış dövlət hakimiyyətini hüquqla bağlı təqdim edir. Bu mühüm prinsip konstitusiyasının 7-ci maddəsinin II hissəsində öz hüquqi ifadəsini tapır. Burada qeyd olunur ki, Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

Dördüncüsü, təqdim olunan tərif dövlət hakimiyyətini xalq hakimiyyətinin forması kimi xarakterizə edir və bu

müddəa konkret olaraq konstitusiyamızın 1-ci və 2-ci maddələrində öz hüquqi ifadəsini tapır. Burada qeyd olunur ki, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır (maddə 1, I hissə). Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi-referendum və ümumi bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsi ilə həyata keçirir (mad 2, his II)

Beləliklə, dövlət hakimiyyəti sosial hakimiyyətin bir növü kimi sonuncu üçün xarakterik olan bütün əlamətlərə malikdir. Bu kontekstdə və siyası hüquqi ədəbiyyatlarda geniş qəbul olunan ümumi hakimiyyət kateqoriyasına uyğun olaraq dövlət hakimiyyəti kimisə və nəyisə idarə etmək, digərlərini öz iradəsinə tabe etmək, sərəncam vermək, fərdlərin davranışına təsir göstərmək qabiliyyəti kimi başa düşülür. Bütün bunlarla yanaşı xalq hakimiyyətinin əsas forması kimi dövlət hakimiyyəti aşağıdakı özünəməxsus cəhətləri ilə sosial hakimiyyətin digər növlərindən fərqlənir.

1. Dövlət hakimiyyəti xalq hakimiyyətinin ilkin və əsas formasıdır. Azərbaycan xalqı dövlət hakimiyyətini bilavasitə (referendum, seçki və s.) və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Dövlət hakimiyyəti həm də daimi fəaliyyət göstərən xüsusi peşəkar aparat vasitəsilə həyata keçirilir. Bura xüsusi məcburetmə aparatı da daxildir. Peşəkar və daimi fəaliyyət göstərən aparat xalqın seçdiyi səlahiyyətli nümayəndələri Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təşkil olunur. Bu aparatın tərkibi Azərbaycan xalqına mənsub olan Azərbaycan vətəndaşlarının sıralarından formalaşdırılır. Azərbaycan Respublikasının Konstitusiyasının 55-ci maddəsində isə Azərbaycan Respublikası vətəndaşlarının

dövlətin idarə olunmasında iştirak etmək hüququ müəyyən olunur. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsi ilə həyata keçirə bilər. Bu maddənin 2-ci hissəsində göstərilir ki, Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Beləliklə, ölkəmizdə əksər vətəndaşların dövlətin idarə olunmasında iştirak etməsi, hakimiyyət orqanlarına seçilməsi və yaxud təyin olunması bir daha onu göstərir ki, Azərbaycanda dövlət idarəçiliyi xalq idarəçiliyidir, dövlət hakimiyyəti xalq hakimiyyətinin ilkin və əsas formasıdır.

2. Dövlət hakimiyyətinin əsas xüsusiyyətlərindən biri də onun hüquqyaratma fəaliyyətidir.

Hüquqyaratma fəaliyyəti qanunvericilik sisteminin təkmilləşdirilməsinə yönələn dövlət hakimiyyəti üçün xarakterik olan hakimiyyətin mühüm fəaliyyət növüdür. Hüquqyaradıcılığı fəaliyyətinin əsasında xalqın qəbul etdiyi Konstitusiya dayanır. Konstitusiya hüquqyaradıcılığının normativ bazasıdır, qanunvericilik sistemində ən yüksək və bir başa hüquqi qüvvəyə malikdir, xüsusi qaydada mühafizə olunur. Bütün bunlar onu göstərir ki, dövlət hakimiyyətinin hüquqyaratma fəaliyyəti öz mənbəyini konstitusiyadan götürür, qəbul olunan normativ hüquqi aktlar konstitusiyaya uyğun olmalıdır, hüquqi kolliziyaları aradan qaldırmaq və konstitusiyanın aliliyini təmin etmək məqsədilə dövlət hakimiyyəti sistemində xüsusi institut-Konstitusiya Məhkəməsi təşkil edilir, Azərbaycan Respublikasının hər bir vətəndaşı konstitusiyada bəyan olunan hüquq və azadlıqlarını müdafiə etmək üçün səlahiyyətli dövlət hakimiyyəti orqanlarına müraciət edə bilər. Xalq iradəsinin ifadəsi kimi hüquqyaratma fəaliyyəti müəyyən prinsiplərə əsaslanmalıdır. Bu prinsipləri şərti olaraq 2 qrupa bölmək olar:

1. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunan prinsipləri;

2. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununda qeyd olunan prinsiplər.

Azərbaycan Respublikasının Konstitusiyasında hüquqyaradıcılığının prinsiplərini ifadə edən konkret bir maddə yoxdur. Bu prinsipləri konstitusiyamızın ayrı-ayrı maddələrinin interpretasiyası əsasında göstərmək olar:

- Xalq hakimiyyəti və xalq suverenliyi (Maddə 1, I hissə; Maddə 2);
- Demokratizm, unitarizm, dünyəvilik, respublikaçılıq (Maddə 7, I hissə);
- İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması(Maddə 12; 71 və s.);
- Hakimiyyətlər bölgüsü prinsipi (Maddə 7, III hissə);
- Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malikdir. Azərbaycan Respublikasının Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır (Maddə 147___)
- Normativ hüququ aktlar hüquqa və haqq-ədalət (bərabər mənafelər və bərabər münasibətlər) əsaslanmalıdır (Maddə 149, I hissə);
- Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir (Maddə 151__);
- Normativ hüquqi aktlar dərc edilməlidir. Heç kəs dərc edilməyən normativ hüquqi aktın icrasına (ona riayət olunmasına) məcbur edilə bilməz və belə aktın icra

olunmasına (ona riayət olunmasına) görə məsuliyyətə cəlb edilə bilməz (maddə 149, VIII hissə).

Yuxarıda qeyd olunan konstitusiya prinsipləri ilə yanaşı normayaradıcılığının ikinci qrup prinsipləri Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya qanununun 8-ci maddəsində təsbit olunur.

3. Dövlət hakimiyyətinin digər əlaməti özünəməxsus struktura malik olmasıdır. Dövlət hakimiyyətinin strukturunu həm statikada, həm də dinamikada nəzərdən keçirmək olar.

Statikada dövlət hakimiyyətinin iki struktur elementi fərqləndirilir: iradə və güc .

Hər bir hakimiyyət hər şeydən əvvəl kiminsə iradəsinin təzahürüdür. Azərbaycan Respublikasında dövlət hakimiyyəti xalqın iradəsinin təzahürüdür. Dövlətimizin konstitusiyasında qeyd olunur ki, dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Dövlətin "Əsas qanunu" və "Ana qanunu" sayılan konstitusiyamızın ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilməsi, dövlət başçısının, parlamentin üzvlərinin xalq tərəfindən seçilməsi, əksər vətəndaşlarımızın bilavasitə və ya nümayəndələri vasitəsi ilə dövlətin idarə olunmasında iştirakı və dövlət orqanlarında qulluq etməsi onu göstərir ki, Azərbaycanda dövlət hakimiyyəti xalqın iradəsidir.

Dövlət hakimiyyəti strukturunun digər elementi gücdür. Hakimiyyətin gücü müxtəlif təbiətli ola bilər: fiziki güc, silahın gücü, intellektin gücü, nüfuzun gücü və s. Politologiya elmində hakimiyyətin gücü adətən hakimiyyətin resursları anlayışı ilə əvəz olunur.

Hakimiyyətin resursları kontekstində dövlət hakimiyyətinin özünəməxsus cəhətlərindən biri kimi məcburetmə aparatına malik olması və zəruri hallarda məcburetmənin tətbiq edilməsi imkanıdır. Yuxarıda qeyd olunurdu ki, bəzi tədqiqatçılar dövlət hakimiyyətinin bu

xüsusiyyətini həddindən artıq qabardır və hətta dövlət hakimiyyəti anlayışını məcburetmə anlayışı ilə eyniləşdirir. Biz çalışdıq göstərək ki, bu düzgün yanaşma sayıla bilməz. Bəs nəyə görə ümumi məqsədlərə nail olmaq üçün hakimiyyət insanlara zor, məcburetmə tətbiq etməlidir? Dövlət hakimiyyətinin insanlara təsirinin başqa formaları da mövcuddur. Məsələn, inandırma, həvəsləndirmə və s. Xalq hakimiyyətinə əsaslanan dövlət idarəçiliyi inandırma metoduna üstünlük verir və bunun üçün müxtəlif resurslardan istifadə edir.

Dinamikada dövlət hakimiyyətinin 4 struktur elementi fərqləndirilir:

1. Dövlət hakimiyyətinin subyektləri;
2. Dövlət hakimiyyətinin obyektləri;
3. Hakimiyyət münasibətləri;
4. Dövlət hakimiyyətinin metodları.

Dövlət hakimiyyətinin subyektlərini 2 əsas qrupa bölmək olar:

1. Dövlət hakimiyyətinin ilkin subyektlərinə aiddir: xalq, əhali, vətəndaşlar;

2. Dövlət hakimiyyətinin ikinci qrup subyektlərinə dövlət orqanları, dövlət müəssisələri daxildir.

Dövlət hakimiyyətinin ilkin subyektləri adətən təsisedici hakimiyyəti həyata keçirir. Konstitusiyanın qəbulu, nümayəndəli hakimiyyət orqanlarının seçilməsi, ölkədə ali nəzarətin həyata keçirilməsi təsisedici hakimiyyətin əsas funksiyalarına aiddir.

Konstitusiya hüququ elmində belə bir mövqe var ki, dövlət hakimiyyəti üç deyil, dörd budağa ayrılır və onlardan biri də xalqa məxsus olan təsisedici hakimiyyətdir. Hesab edirik ki, təsisedici hakimiyyəti digər hakimiyyət budaqlarından ayırmaq düzgün mövqe sayıla bilməz.

Birincisi, xalq bütöv dövlət hakimiyyətinin yeganə mənbəyidir və o, dövlət hakimiyyətinin bütün sahələrində ilkin prinsip normalar təsis edir.

Bu ideyanı rəhbər tutaraq hətta demokratik ölkələrdə, məsələn ABŞ-da bəzi məhkəmələrin seçkili olması halına rast gəlmək olar. Məhkəmələrin seçkili olması praktikasını biz dəstəkləmirik, müasir Amerika alimlərinin özləri də bu təcrübəni son vaxtlar alqışlamır. Bu barədə dissertasiya işinin növbəti paraqraflarında biz öz mövqeyimizi daha ətraflı şərh edəcəyik. Bütün bunlara baxmayaraq xalq məhkəmə hakimiyyəti sisteminin də təşkili qaydalarını və fəaliyyət prinsiplərini təsis edir.

İkincisi, təsisedici hakimiyyət xalq hakimiyyətidir. Dövlət hakimiyyəti isə xalq hakimiyyətinin əsas formasıdır. Bu baxımdan xalq hakimiyyətinin dövlət hakimiyyətinin bir sahəsi kimi qiymətləndirmək düzgün olmazdı.

Yuxarıda qeyd olunanlarla yanaşı hesab edirik ki, xalqın müstəsna səlahiyyətləri ölkə konstitusiyası səviyyəsində təsbit olunmalıdır.

Azərbaycan Respublikasının Konstitusiyasında xalqın səlahiyyətləri birbaşa və məcazi formada müəyyən qədər göstərilmişdir. Məsələn, dövlət hakimiyyətinin yeganə mənbəyi olmaq (maddə 1, I hissə), sərbəst və müstəqil öz müqəddəratını həll etmək, idarəetmə formasını müəyyən etmək (Maddə 2, I hissə), konstitusiyanı qəbul etmək və ona dəyişikliklər etmək, dövlət sərhədlərini dəyişdirmək (Maddə 3, II hissə).

Hesab edirik ki, bu siyahı genişlənməli və konstitusiyada öz hüquqi ifadəsini tapmalıdır. Məsələn, hakimiyyətin mənimsənilməsi və qeyri demokratik siyasi rejimin yaradılmasına qarşı müqavimət göstərmək, dövlətin konstitusiya quruluşunu devirməyə yönələn hərəkətlərin qarşısını almaq hüququ. 1994-cü ildə Azərbaycanda konstitusion dövlət hakimiyyətini zorla devirməyə cəhd

göstərən qüvvələrin bu çirkli hərəkətinin qarşısını almaq üçün Ulu öndər xalqa müraciət etdi və müdrik xalqımız qısa müddət ərzində Prezident administrasiyasının qarşısında toplanaraq dövlət çevrilişinə cəhd göstərən qüvvələrin əməlinə kəskin etirazını bildirdi. Bununla yanaşı hesab edirik ki, parlamentin səlahiyyətləri, parlament üzvlərinin hüquqi statusu məsələsi də xalq tərəfindən həll olunmalıdır.

Dövlət hakimiyyətinin ikinci qrup subyektləri qanunvericilik, icra və məhkəmə hakimiyyətini həyata keçirir.

Dövlət hakimiyyətinin digər struktur elementi hakimiyyətin obyektdir. Hakimiyyət bütün hallarda ikitərəfli asimmetrik əlaqəni ehtiva edir. Bu münasibətdə hakim iradəyə malik olan dövlət hakimiyyəti subyekti və ona tabe olan obyekt tərəfi iştirak edir. Ümumilikdə onların hər ikisi hakimiyyət münasibətlərinin subyektləridir. Lakin konkret münasibətlərdə hakim iradəyə tabe olan tərəf həmin hakimiyyətin obyekti hesab olunur. Bu kontekstdə dövlət hakimiyyətinin obyektinə fərdlər, kollektiv birliklər, dövlət və qeyri dövlət təşkilatları, vəzifəli şəxslər, bələdiyyələr daxildir. Demokratik cəmiyyətdə dövlət hakimiyyətinin subyekt və obyekt elementlərinin yaxınlaşması baş verir ki, bu da onların qismən üst-üstə düşməsi ilə xarakterizə olunur. Bu birləşmənin dialektikası ondan ibarətdir ki, dövlət hakimiyyətinə tabe olan hər bir vətəndaş eyni zamanda dövlət hakimiyyətinin fərdi mənbəyidir (məsələn, nümayəndəli orqanların seçilməsində iştirak edir). Göründüyü kimi demokratik siyasi rejimdə dövlət hakimiyyətinin obyekti eyni zaman onun subyekti kimi də çıxış edə bilər. Məsələn, dövlət hakimiyyətinin ali orqanları üzərində də xalqın hakimiyyəti dayanır. Lakin bu heç də o demək deyildir ki, burada hakimiyyətin subyekti və obyekti tam üst-üstə düşür. Belə olduğu halda dövlət hakimiyyəti öz

siyasi xarakterini itirə və cəmiyyətdə dövlətsiz özünüidarə yarana bilərdi.

Dövlət hakimiyyətinin üçüncü struktur elementi hakimiyyətin həyata keçirilmə metodlarıdır. Bura inandırma və məcburetmə metodları aiddir.

Ərazi üzrə təşkili meyarına görə dövlət hakimiyyətinin strukturunda mərkəzi və yerli hakimiyyət orqanları fərqləndirilir.

Dövlət hakimiyyətinin strukturunu həm də zahiri təşkili formasına görə xarakterizə etmək olar. Bu halda dövlət hakimiyyəti mexanizmi anlayışına müraciət etmək zərurəti yaranır. Dövlət hakimiyyəti öz təşkilati ifadəsini müəyyən mexanizmdə tapır ki, yuxarıda göstərdiyimiz kimi, bu mexanizmi nə dövlət orqanları sistemi, nə də dövlət mexanizmi anlayışları ilə məhdudlaşıdırmaq olmaz. Dövlətşünaslıqda dövlət mexanizmi anlayışı birmənalı izah olunmur. Alimlərin bir qrupu dövlət mexanizmi və dövlət aparatı, yəni dövlət orqanlarının sistemi anlayışlarını eyniləşdirir. Digər qrup alimlərin mövqeyinə görə isə dövlət mexanizmi daha geniş anlayışdır və özündə yalnız dövlət orqanlarını deyil, dövlət müəssisələrini də ehtiva edir. İkinci qrup tədqiqatçıların fikirləri ilə razılaşsaq da, hesab edirik ki, dövlət hakimiyyəti mexanizmi dövlət mexanizminə nisbətən daha geniş anlayışdır. Belə ki, dövlət hakimiyyəti mexanizmi özündə həm dövlət mexanizmini, həm də elektoratı, beynəlxalq təşkilatları və müəyyən hallarda bələdiyyələri, qeyri dövlət təşkilatlarını (Məsələn, Həmkarlar İttifaqlarını) da birləşdirir.

Müasir dövrdə geniş müzakirə olunan mövzulardan biri islam və demokratiya mövzusudur. Bu mövzunun müxtəlif istiqamətlərdə araşdırılması müşahidə edilir və bu baxımdan islam və demokratiya müqayisəsinin daha əhatəli şəkildə aparıldığını ifadə etmək olduqca çətindir.

Mövzunun təhlili zamanı ilk növbədə islamın insanların dünya və axirət xoşbəxtliyini məqsəd kimi müəyyən edən ilahi və səmavi bir din, demokratiyanın isə insanların öz ağıl, iradə və biliyinə əsaslanaraq ortaya çıxardıqları və inkişaf etdirdikləri bir idarəçilik forması olduğu nəzərə alınmalıdır. Belə yanaşmanın əsas məqsədi bu iki məfhumun bir-birinin ziddi və ya alternativi, ya da bir-biri ilə tam şəkildə uyğun gələn elementlər kimi təqdim etmə səylərinin doğru olmadığını göstərməkdir. Bu baxımdan islamı bir din olaraq, demokratiyanı da bir idarəçilik forması olaraq öz çərçivəsində (mənasında) dəyərləndirmək lazımdır.

Dinin əsas məqsədləri iman, ibadət, mərifət və gözəl əxlaq kimi bəşəri dəyərlərdir. Qurani-Kərim öz ayələrində insanları imana, haqqa qulluğa və gözəl əxlaqa çağırır. Bir çox insanlar islam dinindən danışarkən onu siyasətlə eyniləşdirir, bəziləri də islam dininin bu və ya digər şəkildə siyasətlə heç bir əlaqəsi olmadığını qeyd edirlər. Əslində isə Quranda idarəçilik və siyasətlə bağlı çoxlu sayda ayələr mövcuddur və Quranda ifadə olunan bir sıra məfhumlar dinin siyasət və hüquqla bağlı tərəflərinə nümunədir. Qeyd olunan yanaşmalar islam və demokratiyanın bir-birinə uyğun gəlməsi və ya gəlməməsi mövzusunda fərqli düşüncələrə, mülahizələrə və diskussiyalara səbəb olmuşdur. Belə mülahizələri aşağıdakı kimi qruplaşdırmaq olar:

I. İslam din olmaqla yanaşı, eyni zamanda bir dövlət sistemidir. O, fərdi, ailəvi, ictimai, iqtisadi və siyasi sahələrdə də özünü ifadə edir. Bu baxımdan onu sadəcə iman və ibadətdən ibarət saymaq düzgün deyil. Belə bir diskussiya ətrafında yeni-yeni fikirlər formalaşmış və islamın siyasi ideologiya şəklində dərk edilməsinə səbəb olmuşdur. İslamın totalitar bir ideologiya şəklində dərk edilməsi isə hüquqa əsaslanan, təməl prinsipləri baxımından

heç bir zümrəni təzyiq altına almayan, hətta açıq şəkildə buna qarşı çıxan islamın ruhuna tamamilə ziddir.

II. İslamı bir ideologiya kimi təqdim etməkdənsə demokratiyanı tamamlayan bir ünsür olaraq təqdim etmək daha yaxşı olardı. İslamın bu şəkildə təqdim edilməsi islam dünyasında demokratiyanın zənginləşməsinə, insanların mənəvi və maddi dünyaları arasındakı münasibətləri daha yaxşı anlamasına yardımçı ola bilərdi.

III. Nə dünyəviliyin, nə də demokratiyanın islam ilə heç bir əlaqəsi yoxdur. Hətta söyləmək mümkündür ki, istər dünyəvilik, istərsə demokratiya islama zidd olduğu kimi islam da bunların ziddidir. Başqa sözlə, bəziləri əslində Quranda olmayan hökmlərə əsaslanaraq «İslamda demokratiya yoxdur» deyirlər.

IV. İslam və demokratiya qəti və tam şəkildə uyğun gəlir və yaxud uyğun gəlməyir demək düzgün olmazdı. Belə ki, islamın demokratiya ilə uyğun gəldiyi məqamlar olduğu kimi heç uyğun gəlmədiyi təzadlı məqamlar da vardır.

V. İslam və demokratiya bir-birinin tam ziddi olmasa da, aralarında önəmli fərqlər mövcuddur.

Bu mövzu ilə bağlı islam hüquqşunaslarının (alimlərinin) böyük bir hissəsi tərəfindən qəbul edilən ən önəmli xüsusiyyət budur: Quranda adı açıq şəkildə müəyyən edilən və insanlara əmr edilən hər hansı bir idarəçilik forması mövcud deyildir. Ancaq həm Quranda, həm də Hz. Peyğəmbərin uyğulamalarında (təbliğatında) idarə edən və idarə edilənlərin məsuliyyətini müəyyən edən bəşəri prinsiplər vardır. Dünyanın hər hansı bir bölgəsində dövrün ehtiyaclarına, insanların mədəni səviyyəsinə, mövcud siyasi şərtlərə, zamanın və məkanın (coğrafiyanın) imkanlarına görə idarəçilik modeli formalaşdırıla bilər.

Demokratiyanın ən müəyyənedici ünsürlərindən biri xalqın idarəetmədə iştirakı və öz azad iradəsi ilə idarə edənləri seçməsidir. Diqqətlə araşdırıldıqda Hz. Peyğəmbər

tərəfindən «qəbul etmək», «razı olmaq» anlamına gələn beyət təsisatından istifadə etdiyini görmək olar. Beyət müasir anlamda seçki prosesində səsvermənin qarşılığı olaraq «xalqın idarə edənə bağlılığını müəyyən etmək üçün rəyini bildirmə» formasında ifadə oluna bilər. Beyət kişi və qadının idarə edənə münasibətdə vəzifə və məsuliyyətini qəbul etmək üzrə bağladığı bir «sözləşmə» olaraq da tərif edilir. Bu baxımdan yanaşsaq idarə edənlərin müəyyən edilməsi mövzusunda islam və müasir demokratik seçki prosesləri arasında paralellik aparmaq olar. Bu oxşarlıq hər bir fərdin öz rəyini azad ifadə etməsi mövzusunda da mövcuddur. İdarə edənlərlə əlaqədar olaraq islamın nəzərə aldığı ən önəmli dəyərlər insanlar arasında bərabərliyin, ədalətin və şəxsi hüquq toxunulmazlığının saxlanmasıdır. Digər tərəfdən demokratiya insanların təməl haqq və hürriyyətlərini təmin edən və xalqın tələblərini yerinə yetirməyi öz öhdəsinə götürən idarəçilik forması kimi qəbul edilirsə, bu halda da islam və demokratiya arasında hər hansı bir problemdən bəhs etmək mənasızdır. Çünki bu haqların qorunması baxımından islam və demokratiya arasında heç bir fərqlilik yoxdur. İslam bir tərəfdən şəxsi hüququn qorunmasını əmr edərkən, digər tərəfdən ictimai maraqları da ön plana çəkir. Bu baxımdan fərdin daşıdığı cavabdehliyin ictimai həyatla bağlı tərəfləri də mövcuddur və fərdin sadəcə özünü düşünərək etdiyi ibadətlər belə məqbul sayılmamışdır.

Demokratik idarəçilik forması ilə idarə edilən ölkələrdə xalq tərəfindən seçilən və xalqın adından çıxış edən «məclis» ən mühüm təsisatlardan biridir. Bunun islam ədəbiyyatındakı qarşılığı məsləhət heyəti olaraq tərcümə edilən şuradır. Görüləcək işlərin məşvərət yolu ilə həll edilməsi mövzusu Quranın iki ayəsində aşağıdakı şəkildə öz əksini tapmışdır:

«Artıq sən onları əfv et, onlar üçün (Allahdan) bağışlanmaq dilə; iş haqqında onlarla məsləhətləş» (Ali-İmran surəsi, 159-cu ayə).

«Onların işləri öz aralarında məsləhət ilədir» (Şura surəsi, 38-ci ayə).

Məhz demokratiyanın əsas əlamətlərindən olan «çoxluq» prinsipi Quranda bu ayələrdə ifadə edilmişdir. Şura hər hansı bir mövzuda, o cümlədən dövlət idarəçiliyi ilə bağlı fikir mübadiləsində olub, o işin necə həll olacağı ilə bağlı qərar qəbul etmədir. İlk ayədə qeyd edilən «iş haqqında onlarla məsləhətləş» ifadəsi islam alimlərinə görə bir tövsiyə deyil, yerinə yetirilməsi məcburi olan bir əmr kimi müəyyən edilmişdir.

İslamdakı məşvərət sistemi çoxluq və ya azlıq fərqi nəzərə alınmadan imkan daxilində hər kəsin fikirlərinə hörmətlə yanaşılmasını tələb edir. İslam hüquq tarixinə diqqət yetirsək görərik ki, Hz. Peyğəmbər və ondan sonrakı ilk xəlifələr məşvərətə ciddi mənada əhəmiyyət vermiş və Qurandakı «iş haqqında onlarla məsləhətləş» əmrini ilk tətbiq edənlərdən olmuşlar. Məşvərət edərkən nəzərə alınmalı ən önəmli məsələlərdən biri də kimlərlə məsləhətləşiləcəyi mövzusudur. İslam alimləri hər hansı bir insanın Şura üzvü ola bilməsi üçün ədalətli, elm sahibi, ağıl və hikmət sahibi olma kimi bəzi şərtlər irəli sürmüşlər.

İslam dünyasının Qərb mənbəli hesab edilən bir sıra təsisatlar o cümlədən də, demokratiya ilə əlaqədar vahid bir fikirdə olmadığı hamıya məlumdur. Heç bir elmi və əqli əsaslara söykənmədən bəziləri demokratiyanın islama tamamilə uyğun gəlmədiyini söylədikləri halda bəziləri də bu iki məfhum arasında tam bir uyğunluğun olduğunu anlatmağa çalışırlar. Fərdlərin və bütövlükdə toplumun xoşbəxtliyi arzusunda olan hər kəs üçün ən əhəmiyyətli məsələ din olaraq islamın bəşəri dəyərlərindən, idarəçilik forması olaraq demokratiyanın nəzərdə tutduğu əsas hüquq

və azadlıqlardan yararlanmanın yollarını müəyyən etməkdir. Necə adlanmasına baxmayaraq insanların rahatlığı və xoşbəxtliyi üçün atılan hər bir addım islamın bəşəri dəyərlərinə uyğundur və islam buna qarşı çıxmır.

Çox təəssüf ki, islam dünyasında din-demokratiya münasibətlərində bəziləri islamın demokratiya ilə əsla uyğun gəlməməsi haqqında yanlış fikir irəli sürürlər. Onların arqumentinə görə islam Allahın hakimiyyətinə, demokratiya isə millətin rəyinə əsaslanır. Əslində isə «hakimiyyət qeyd-şərtsiz millətindir» ifadəsi hakimiyyətin (hökmranlığın) Allahdan alınaraq insanlara verilməsi demək deyildir. Əksinə, hökmranlığı insanlara həvalə edən Allahdır. Başqa şəkildə desək, Allah hökmranlığı zalım və despotik fərdlərin əlindən alıb toplumun üzvlərinə vermişdir.

Allahın hər şeyə hakim olduğuna şübhə yoxdur. Lakin, bu insanların iradə və seçiminin olmaması mənasına gəlməməlidir. İslam dövləti yox, insanı əsas götürür və insana dəyər verir. İnsanın mənafeyini, haqqını və hüququnu nəzərə almağı müəyyən edir. İnsanlar şəxsi həyatlarında sərbəst buraxıldıqdarı kimi bir sıra ictimai və siyasi məsələlərdə də öz iradələrini azad ifadə edə bilərlər.

Quranda dövlət idarəçiliyi ilə bağlı bir çox ayələr mövcuddur, həmçinin hədislərdə də bu mövzu geniş yer tutur. Məsələ bundadır ki, islamda dövlət idarəçiliyini iman, dinin əsasları anlayışı əsasında sabit və hamının qəbul etdiyi bir formada müəyyən etmək mümkün deyil. Belə ki, Quran idarəçilik sistemi olaraq ayrıca bir forma müəyyən etməmiş, idarəçiliyin əsas prinsiplərini göstərmişdir. Bunlar seçki, beyət və şura prinsipləridir. İslam insanlar arasında soy, nəsil, irq, qəbilə, tayfa kimi fərqləri və ya hər hansı bir üstünlüyü kənara atıb elmi, zəkanı, ləyaqəti və ədalət hissini əsas götürür. İslamda idarə edən və idarə olunan arasında qarşılıqlı anlaşma mövcuddur və idarəçiliyin əsasını hüquq

və hüququn üstünlüyü təşkil edir. İslam qeyri-hüquqi bir idarəçiliyi məqbul saymır. Qurani-Kərim və Sünnədə əks olunmuş prinsip və əsasları mənimsəyib həyata keçirən idarəçilik forması islama uyğundur.

Müasir dünyanın önəm verdiyi əsas dəyərlər ondan ibarətdir ki, insanların təbii hüquq və azadlıqları təmin edilsin, insanlar öz siyasi iradələrini azad ifadə etsinlər, hər kəs başqalarının hüquqlarını pozmamaq şərtilə öz iradəsini ifadə edə bilsin və inancına görə yaşasın. İslam göstərilən dəyərlərdən heç birinə qarşı çıxmır və məhz buna görə də heç kim islamın demokratiyaya zidd olduğunu iddia və sübut edə bilməz.

Qərbdə çox çətin və mürəkkəb şəraitdə əldə edilən insan hüquq və azadlıqları islam aləmində islamın yaranmasından bəri mövcud olmuşdur. İnsan hüquqları ideyasının humanistliyində İslam dininin olduqca böyük rolunu qeyd etmək lazımdır. İslam dini hər bir insana hörmətlə yanaşılmasını tələb edir, insan bərabərliyini və azadlığını müdafiə edərək, hakimiyyətlə münasibətdə insanların aliliyini qeyd edir. İslam hüququnun mənbələrini təhlil edərkən bərabərlik, seçmək azadlığı, insan ləyaqəti, dini azadlıq, xalq hakimiyyəti, qanunun aliliyi və insanın fəal həyat mövqeyi haqqında çoxlu sayda göstərişlərin (normaların) olduğunu görürük. İslam aləmində Hz. Peyğəmbər (s.ə.s.) dövründə, yəni miladi VII əsrdə hazırlanan Mədinə Anayasası, ilk insan hüquq və azadlıqları Bəyannaməsi deyə biləcəyimiz «Vida Xütbəsi», o cümlədən də Quran və Sünnənin göstərişləri bu günkü mənasıyla insan hüquq və azadlıqlarını təsbit və təyin etmişdir.

İslam tarixində Vida Həcci deyilən həcc ziyarəti zamanı Peyğəmbərimiz (s.ə.s.) burada olanların şəxsində bütün bəşəriyyətə xitabən «Vida Xütbəsi» kimi məşhur nitqini söylədi. Bu, insanlıq tarixinin ən mükəmməl, ən təsirli bir xütbəsi olmaqla yanaşı, İslamın əsas prinsip və

məqsədlərini əks etdirdi. «Vida Xütbəsi» İslam hüququ, İslam əxlaqı, insan və cəmiyyət əlaqələri, qadın haqları kimi çox böyük məsələlərin həllinin qısa xülasəsi idi. İnsanlıq həmin günə qədər belə yığcam, bu qədər sadə və dərin məzmunlu, məzmunca bu qədər geniş mənalı ikinci bir nitq tanımır.

Vida Xütbəsi ilə insanların bərabər haqq və hüquqları təsbit edildi.

Vida Xütbəsinin məzmununa diqqət yetirdikdə aşağıdakı əsas prinsipləri görmək olar:

1. İnsanların bərabərliyi;
2. Kölələrə yaxşı davranılması və mərhəmət göstərilməsi (Peyğəmbərimiz (s.ə.s.) buyururdu: «Kölələrinizə yediyinizdən yedirdin, geydiyinizdən geydirin»);
3. Qan davalarının aradan qaldırılması;
4. Sələmçiliyin aradan qaldırılması;
5. Qadın hüquqları: (Bu mühüm nitqində Həzrəti Peyğəmbər bərabər qadın-kişi münasibətlərini bəyan etmişdir).
6. Şəxsi və mülkiyyət təhlükəsizliyi.

Qərbdəki azadlıq məfhumu ilə İslamdakı azadlıq anlayışı çox fərqlidir və bu fərq hələ də öz mövcudluğunu saxlamaqdadır. Qərbdə ciddi mənada azadlıqdan ilk dəfə 1789-cu ildə qəbul edilmiş Fransa İnsan hüquqları Bəyannaməsində bəhs edilmiş və azadlığa aşağıdakı şəkildə tərif verilmişdir: «Başqasına zərər vurmamaq şərti ilə hər şey etmək olar».

İslam hüququnda isə bütün insanlar üçün qəbul edilən azadlıq anlayışı bu şəkildə təsbit olunub: «Nə özünə, nə də başqasına zərər vurmamaq şərti ilə hər şey etmək olar». Narkotik maddələrdən istifadə etmək İslamdakı azadlıq anlayışına sığa bilməz. Azadlıq odur ki, ədalətli qanunlardan kənar heç kim heç kimə hökm etməsin. Hər kəsin haqları

qorunsun və şəriətin icazə verdiyi dairələrdə hər şey sərbəst olsun. İslama görə insanlar azaddırlar və yalnız Allahın quludurlar.

İslam hüququ azadlığı insanın hər ağlına gələni və arzu etdiyini həyata keçirmək mənasına gələn «mütləq azadlıq» olaraq qəbul etmir, bunu heyvanilik (vəhşilik) və nəfsin əsarəti olaraq səciyyələndirir.

İnsanın maddi, mənəvi və iqtisadi varlığı üzərində sahib olduğu hüquq və azadlıqlara şəxsi hüquq və azadlıqlar deyilir. Qərbdə şəxsi hüquq və azadlıqlar XVII əsrə aid aktlarda öz əksini tapmışdır.

İnsan həyatının, onun namus və şərəfinin qorunması, şəxsi həyatın və sirlərinin qorunması kimi şəxsi hüquqlar Qərb hüquq sistemində ancaq XIX əsrdə müşahidə olunur. İslamda isə Quran, bir məsumun (körpənin) həyatını və qanını bütün maddi varlıqlardan üstün tutaraq VII əsrdən etibarən qoruyur. Digər tərəfdən Hz. Peyğəmbər (s.ə.s.) islamın hüquq Bəyannaməsi olan Vida Xütbəsində «Ey insanlar! Bu günləriniz necə müqəddəs bir gün, bu aylarınız necə müqəddəs bir ay və bu şəhəriniz (Məkkə) necə mübarək bir şəhərdirsə, canlarınız, mallarınız və namuslarınız da bir o qədər müqəddəsdir, toxunulmazdır və hər cür təcavüzdən qorunmuşdur» buyuraraq, şəxsi hüquq və azadlıqları gerçəkləşdirmiş və elan etmişdir.

İslamda günah işləyən bir insan, günahı sübut edilməyibsə günahsız qəbul edilir. İnsanlar işlədikləri günaha görə şəxsən cavabdehdirlər. «Heç bir günahkar başqasının günahını daşımaz» (Fatir surəsi, 18-ci ayə).

Bax budur İslamın insana baxışı. İnsan hüquq və azadlıqlarının sağlam bir şəkildə cəmiyyət həyatında əks olunması ancaq və ancaq sevgi atəşinin insanların qəlblərinə yerləşməsiylə mümkündür.

Yuxarıda qeyd olunanlar bir daha onu göstərir ki, dini nəzəriyyənin dövlət hakimiyyətinin humanistləşməsində

böyük mənəvi əhəmiyyəti mövcuddur. Lakin, əgər dövlət tarixinin müəyyən mərhələlərində (məsələn, qədim, orta əsrlərdə) insanların dinə etiqadı dini dövlət səviyyəsinə gətirmiş dövlət hakimiyyəti üçün dayaq rolunu oynayırdısa, müasir demokratik dövlətlər üçün bunu demək olmaz. Müasir dövlət demokratik, hüquqi, dünyəvi dövlətdir dünyəvidir və burada din dövlətdən ayrıdır.

Lakin müqəddəs İslamın mütərəqqi normalarının dövlət hakimiyyətinin inkişafı, humanistləşməsi və digər ümumbəşəri dəyərlərlə zənginləşməsində rolu əvəzedilməzdir.

Şərqin görkəmli mütəfəkkirləri al-Fərabi, Nizamülmülk, N.Tusi, İbn Xaldun və s. öz əsərlərində hakimiyyət mövzusunu əsasən islam dini ilə əlaqələndirirdilər.

Şərqdə hakimiyyət probleminin öyrənilməsində və elmi düşüncələrin inkişaf eitdirilməsində xüsusi rol islam reformasiyasının banisi sayılan Camal ad-Din al Afqaniyə məxsusdur. Al- Afqani birmənalı mütləqiyyatı qəbul etmirdi. O, qeyd edirdi ki, mütləq hakimiyyət despotiyadır və yalnız məhdudlaşdırılmış hakimiyyət ədalətli ola bilər.

Al-Afqaninin mülahizələrinə görə güclü, ədalətli monarx hakimiyyəti konstitusiya və parlament kimi institutlarla tarazlaşdırılmalıdır.

Al-Afqaninin ideyaları onun tələbəsi Məhəmməd Abdo tərəfindən inkişaf etdirilmişdir. Onun ədalətli dövlət quruluşu ideyalarına qərbin siyasi konsepsiyaları güclü təsir göstərmişdir.

Məhəmməd Abdonun mülahizələrinə görə ədalətli hakimiyyətdə hökmdara məsləhət verən və onun hakimiyyətini məhdudlaşıran xüsusi nümayəndəli orqan yaradılmaldır.

Şərq alimlərinin təlimləri şərq dövlətlərində xüsusilə ərəb ölkələrində, dərin iz buraxmışdır. Məsələn, Səudiyyə

Ərəbistanının Konstitusiyasında dövlət hakimiyyəti-tənzimedici, icra və məhkəmə hakimiyyətinə bölünür. Burada qeyd olunur ki, onlar öz səlahiyyətlərini həyata keçirərkən bir-biri ilə əməkdaşlıq etməlidirlər. Hakimiyyətin ən yüksək instansiyası Kraldır.

Qatar, Oman və s. dövlətlərdə konstitusiyalarında həmçinin hakimiyyətlər bölgüsü təsbit olunur. Bu ölkələrdə əksər hakimiyyət səlahiyyətləri monarx tərəfindən sərbəst həyata keçirilir.

Mütləq monarxiyalı şərq ölkələrin siyasi həyatında, hakim alimlərin üzvlərindən və müqəddəs Quranı mükəmməl bilən alimlərdən ibarətdir "Ailə Şurası" yaradılır. Bu şura müəyyən hallarda taxt-taca varislik məsələlərinin də həll edir.

Şərqin ikinci qrup ölkələrinə dualist monarxiyalar daxildir (Mərakeş, Küveyt, İordaniya). Bu dövlətlərdə hakimiyyət özünüməxsus formada Monarxa və parlament arasında bölünür. Burada monarx hakimiyyəti üstünlüyə malikdir, hökumət monarx qarşısında məsuldur.

Müasir dövrdə praktik, olaraq əksər demokratik dövlətlərin siyasi sistemində hakimiyyətlər bölgüsü mexanizmi konstitusiya quruluşunun əsas prinsipi kimi qəbul edilmişdir. Lakin, müasir elmi mənbələrdə hakimiyyətlər bölgüsü nəzəriyyəsi birmənalı izah olunmur. Bu günədək elmdə hakimiyyətlər bölgüsü mexanizminin ideoloji, siyasi, hüquqi və praktiki əhəmiyyəti barədə vahid mövqe yoxdur. Bir qrup müasir tədqiqatçılar hakimiyyətlər bölgüsü konsepsiyasının banisi sayılan C.Lokun baxışlarını əsas götürərək hakimiyyətlər bölgüsü sistemində qanunvericilik hakimiyyətinin üstünlüyünə, digərləri isə Monteskyenin təliminə uyğun hakimiyyət budaqlarının bərabərliyi və müstəqilliyini isbat edir. Bu gün hətta belə bir fikirlər də səslənir ki, hakimiyyətlər bölgüsü konsepsiyası

müasir dövrün gerçəkliklərinə uyğun gəlmədiyinə görə reformasiya olunmaldır.

Ümumilikdə, müasir elmdə hakimiyyətlər bölgüsü ətrafında mövcud olan problem xarakterik mübahisələri aşağıdakı qruplara təsnifləşdirmək olar:

Birincisi problem hakimiyyətlər bölgüsü mexanizminin siyasi-hüquqi nəzəriyyədə, konstitusiya quruculuğu təcrübəsində yeri və rolu ilə bağlıdır.

Siyahi hüquqi təlimlər tarixində, o cümlədən müasir dövründə hakimiyyətlər bölgüsü təzahürünün dövlət hakimiyyəti sistemində yeri və rolu barədə müxtəlif elmi düşüncələr formalaşdırmışdır.

Qədim dövrlərdən başlayaraq bu günədək bəşər övladı hakimiyyətin mənimsənilməsi və özbaşınalığın qarşısının alınması, insanı, onun hüquq və azadlıqlarını hakimiyyətin sui-istifadəsindən qorunması sualları ətrafında düşünür və bu sualların daha optimal cavabını axtarır. Bəşər övladı belə bir qənaətə gəlmişdir ki, bu cür çoxəsrlik problemlərin həlli yollarından biri də insanı hakimiyyətin özbaşınalığı və sui-istifadəsindən qorumağa qadir olan xüsusi dövlət hakimiyyəti mexanizminin yaradılmasıdır. Hakimiyyətlər bölgüsü nəzəriyyəsi də məhz bu cür mexanizmin təşkilini ehtiva edir. Növbəti paraqraflarımızın birində bu məsələni biz daha geniş təhlil edəcəyik.

2. Dövlət hakimiyyətinin funksiyaları və hakimiyyətlər bölgüsünün konstitusiya tənzimi

Ötən paraqrafda qeyd olundu ki, dövlət hakimiyyəti dövlətin subyektiv hüququ kimi xarakterizə oluna bilər. Bu kontekstə biz dövlət hakimiyyətinin həyata keçirilməsinin formalarını göstərdik. Məsələn, qanunların qəbulu, qanun və məhkəmə qərarlarının icrası və s. Dövlət hakimiyyətinin

həyata keçirilməsinin bu formaları hüquq elmində hakimiyyətin funksiyaları adlanır.

Dövlət hakimiyyətinin funksiyaları probleminin öyrənilməsi böyük nəzəri və təcrübi əhəmiyyət kəsb edir. Belə ki, dövlət hakimiyyətinin mahiyyəti, inkişaf perspektivləri suallarının müəyyən olunması, müasir demokratiyanın əsas əlaməti sayılan hakimiyyətlər bölgüsü mexanizminin səmərəli təşkili və təkimilləşdirilməsi dövlət hakimiyyətinin funksiyaları probleminin daha geniş tədqiqini tələb edir.

Təəssüf ki, elmdə dövlət hakimiyyətinin funksiyaları probleminin tədqiqinə çox az diqqət yetirilir. Burada daha çox dövlətin funksiyaları və dövlət hakimiyyəti orqanlarının funksiyaları sualları öyrənilir. Bu hadisələrin dövlət hakimiyyətinin funksiyaları anlayışı ilə sıx bağlılığına baxmayaraq, hesab edirik ki, onları eyniləşdirmək olmaz.

Müasir nəzəri ədəbiyyatlarda bəzi tədqiqatçılar dövlətin funksiyaları ilə dövlət hakimiyyətinin funksiyaları anlayışlarını eyinləşdirir. Hesab edirik ki, bu cür mövqe ilə tam razılaşmaq düzgün olmazdır. Hər şeydən əvvəl ona görə ki, dövlət və dövlət hakimiyyəti fərqli, müstəqil terminlərdir. Dövlət cəmiyyətin vahid siyasi-ərazi ittifaqdır. Bu kontekstdə dövlətin funksiyaları həmçinin cəmiyyətin funksiyaları kimi də xarakterizə oluna bilər. Digər tərəfdən kütləvi hakimiyyətin mövcudluğu dövlətin əsas əlamətlərindən biridir və dövlət öz funksiyalarını dövlət hakimiyyəti vasitəsilə gerçəkləşdirir. Bu mənada dövlətin funksiyaları dövlət hakimiyyətinin funksiyalarına nisbətdə ilkindir, dövlət hakimiyyətinin funksiyaları dövlətin funksiyalarının gerçəkləşdirilməsinə istiqamətlənən fəaliyyətdir. Bu baxımdan dövlət hakimiyyətinin funksiyaları dövlətin funksiyaları ilə birgə tədqiq olunmaldıır.

Dövlət hakimiyyətinin funksiyalarına nisbətdə ilkin xarakter daşıdığı üçün öncə dövlətin funksiyalarını nəzərdən keçirək. Hər şeydən əvvəl qeyd olunmalıdır ki, dövlətin mahiyyəti onun funksiyalarında, yəni ictimai inkişafda rolunu xarakterizə edən əsas istiqamətlərində ifadə olunur. Dövlət yaranarkən onun funksiyaları da formalaşır. Elmi ədəbiyyatlarda dövlətin funksiyaları müxtəlif cür izah olunsalar da, demək olar ki, mahiyyətcə bir-birindən bir o qədər fərqlənmirlər. Həmin tərifl ərdə dövlətin funksiyaları-dövlətin fəaliyyətinin əsas istiqamətləri kimi xarakterizə olunur(97,s.60).

Ümumxalq dövlətinin funksiyaları cəmiyyətin maraq və mənafeləri ilə müəyyən olunur. Demokratik dövlət istər ölkə daxilində, istərsə də ölkə xaricində, yəni dövlətlərarası münasibətlərdə öz xalqının mənafelərini müdafiə etməlidir. Bununla əlaqədar olaraq dövlətin iki funksiyası-daxili və xarici funksiyaları fərqləndirilir.

Dövlətin funksiyalarının aşağıdakı cəhətlərini göstərmək olar:

1. Dövlətin funksiyaları dövlətin vəzifələrinin həyata keçirilməsinə istiqamətlənmiş fəaliyyətdir, vəzifələrin icra olunma prosesidir. Bəzən, nəzəri mənbələrdə dövlətin funksiyaları və vəzifələri anlayışlarının eyniləşdirilməsi hallarına rast gəlmək olur. Zənnimizcə, bir-birilə yaxın olmalarına baxmayaraq bu hadisələri fəqləndirən alimlərin mövqeyi daha düzgündür.

Onlar haqlı olaraq qeyd edirlər ki, vəzifələr dövlətin qarşısında duran əsas tələbləri, dövlətin nələri etməli olduğunu ifadə edir. Həmin vəzifələr dövlətin funksiyalarına münasibətdə başlanğıc kimi çıxış edir, onların bilavasitə şərtləndirilməsi kimi təzahür olunur. Dövlətin funksiyaları isə onun vəzifələrinin reallaşması, həyata keçirilməsi vasitəsidir.

Dövlətin məqsəd və vəzifələrindən danışarkən belə təsəvvür yaranmamalıdır ki, onlar mütləq dövlət tərəfindən rəsmi qaydada elan edilir, qanunvericiliklə təsbit olunmaqla yazılı şəkildə cəmiyyətə təqdim olunur. Biz daha geniş yanaşmadan çıxış edərək onları dövlətə immanent olan hadisə hesab edirik. Dövlətin məqsəd və vəzifələri dövlət hakimiyyətinin xarakterində, dövlət iradəsinin ifadə tərzində, dövlətin təmsil etdiyi sivilizasiyanın, mədəniyyətin doğurduğu dəyərlərdə, prinsiplərdə və institutlarda konkretləşir, bu təşkilatın fəaliyyətini onlarla əlaqəli şəkildə istiqamətləndirir. Onların bəyan edilməsi cəmiyyətin inkişafının son dövrlərində baş vermişdir, yəni konstitusiyalı dövlətlərin formalaşması həm də dövlətin məqsəd və vəzifələrinin konstitusiyada təsbit olunmasına səbəb olmuşdur.

Dövlətin funksiyalarında onun mahiyyəti, ictimai inkişafın əsas məsələlərinin həllində və hər şeydən əvvəl, ölkə əhalisinin müxtəlif mənafelərinin təmin edilməsində dövlətin oynadığı real rol ifadə olunur. Dövlətin funksiyaları dövlətin inkişafının bu və ya digər dövrlərində onun qarşısında duran əsas vəzifələrdən asılı olaraq müəyyən edilir və bu vəzifələrin həyata keçirilmə vasitəsini özündə təcəssüm etdirir. Dövlət vəzifələrinin məzmunu müxtəlif daxili və xarici amillərlə müəyyən olunur. Belə ki, ölkənin iqtisadi həyatında baş verən böhranlı hallar dövlətin, onun bütün orqanlarının qüvvələrini iqtisadi vəzifələrin həllində cəmləşdirməyi tələb edir. Cinayətkarlığın artması dövləti onunla mübarizəni gücləndirmək üzrə vaxtında ciddi əməli tədbirlər görməyə, onu doğuran səbəbləri və şəraiti aşkar etməyə və aradan qaldırmağa sövq edir. Məsələn, xarici təcavüz təhlükəsi dövlət mexanizmini ölkə əhalisini onun qarşısının alınmasına hazırlanmağa səfərbər edir.

2. Xüsusi olaraq müəyyən fəaliyyət üçün təsis edilən çoxsaylı dövlət orqanlarının (maliyyə, xalq təhsili,

prokurorluq) funksiyalarından fərqli olaraq, dövlətin funksiyaları onun fəaliyyətini bütünlüklə əhatə edir. Deyilənlər dövlətin müəyyən funksiyalarının həyata keçirilməsində ayrı-ayrı orqanların əhəmiyyətini azaltmır, belə ki, bəzən bu orqanlar dövlətin əsas vəzifələrinin həllində aparıcı rol oynayır (məsələn, ölkənin xarici hücumlardan müdafiəsi funksiyasının yerinə yetirilməsində silahlı qüvvələrin aparıcı rolu). Beləliklə, dövlətin funksiyalarını onun ayrı-ayrı orqanlarının funksiyalarından fərqləndirmək zəruridir. Dövlətin funksiyaları bütün dövlət aparatının, onun hər bir orqanının fəaliyyətinin əsas ictimai əhəmiyyətli istiqamətlərində ifadə olunur.

3. Dövlətin funksiyaları kompleks, ümumləşdirilmiş xarakter daşıyır. Onlarda dövlətin səylərinin onun daxili və xarici fəaliyyətinin həlledici, həyati əhəmiyyətli istiqamətlərində cəmlənməsi öz əksini tapır.

4. Dövlətin funksiyalarını dövlət fəaliyyətinin növlərindən fərqləndirmək lazımdır. Dövlət fəaliyyəti növləri ya bunun üçün xüsusi səlahiyyət verilmiş orqanlar tərəfindən, ya da müxtəlif dövlət orqanlarının struktur bölmələri tərəfindən həyata keçirilir. Dövlət fəaliyyəti növləri, məsələn, cinayət işlərinin istintaqı, gömrük nəzarəti və sairədir.

5. Dövlətin funksiyaları müəyyən forma və metodları əsasında həyata keçirilir.

Dövlətin funksiyalarının həyata keçirilməsinin formaları ilə əlaqədar elmi ədəbiyyatlarda sosioloji, hüquqi, idarəetmə və s. kriteriyalar əsasında fərqli təsnifatlar yaradılmışdır. Hüquq elmində daha çox hüquqi kriteriya əsasında aparılan təsnifatın öyrənilməsinə üstünlük verilir.

Sosioloji kriteriyadan çıxış edən müəlliflər dövlətin funksiyalarının həyata keçirilməsinin iqtisadi, siyasi, inzibati və ideoloji forma və metodlarından danışmağa üstünlük verirlər. Politoloji yanaşmaya görə, dövlətin

funksiyalarının həyata keçirilməsinin forma və metodları iki əsas qismə: liberal (islahatçı) və zorakı forma və metodlara bölünür. Metaforik şəkildə onlara «qoğal və qamçı» metodları da deyilir. Konkret idarəetmə kriteriyasından yanaşdıqda isə, bilavasitə dövlət idarəetməsi ilə bağlı olan fəaliyyət forması və metodları əsas götürülür.

Dövlətin funksiyalarının həyata keçirilməsinin forma və metodları hüquqi kriteriya əsasında təsnifləşdirilərkən dövlət mexanizminin əsas tərkib hissələrinin fəaliyyətinə, yəni dövlət fəaliyyətinin spesifik növlərinə xüsusi əhəmiyyət verilir.

Bu mövqedən yanaşdıqda dövlətin funksiyalarının həyata keçirilmə formalarına aşağıdakılar aid edilir:

-dövlətin qanunvericilik fəaliyyəti;

-dövlətin idarəetmə fəaliyyəti;

-ədalət mühakiməsi sahəsində dövlət fəaliyyəti;

-qanunların həyata keçirilməsi üzərində nəzarətin həyata keçirilməsi ilə bağlı olan fəaliyyət.

Göründüyü kimi, bu halda dövlət fəaliyyətinin müxtəlif xüsusiyyətlər və onların fəaliyyətinin spesifik növləri nəzərə alınır. Beləliklə də, qanunvericilik fəaliyyəti, dövlət idarəçiliyi (dövlət intizamçılığı), ədalət mühakiməsinin həyata keçirilməsi üzrə fəaliyyət, həmçinin də nəzarətedici fəaliyyət dövlətin funksiyalarının həyata keçirilməsinin əsas formaları kimi qəbul edilir.

Qanunvericilik fəaliyyəti fiziki və hüquqi şəxslərin, dövlət qurumlarının, vətəndaşların azad iradəsi əsasında yaranan təşkilatların, müəssisələrin fəaliyyətini tənzimləyən ümumməcburi xarakterli davranış qaydalarının, hüquq normalarının müəyyənləşməsi üzrə dövlət fəaliyyətidir. Hüquq normaları vasitəsilə təsbit olunan ümumməcburi davranış qaydaları, ilk növbədə, konstitusiyada və qanunlarda öz əksini tapır. Ümumi qaydaya əsasən, qanunlar nümayəndəli orqan kimi təşkil olunan parlament tərəfindən

qəbul edilir. Parlament qanunvericilik səlahiyyətini xalqdan alır və buna görə də ona xalqın adından qanunvericilik işini həyata keçirmək həvalə olunur.

Qanun qüvvəli normativ hüquqi aktlar isə parlament tərəfindən deyil, digər dövlət orqanları tərəfindən qəbul edilir. Həmin normativ hüquqi aktlar Konstitusiyaya və qanunlara uyğun olmalıdır. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasında deyilir ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan qanunqüvvəli aktlar Azərbaycan Respublikası Prezidentinin fərmanlarından, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarından və mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarından ibarətdir. Konstitusiyada həmçinin, o da təsbit olunur ki, qanunlar Konstitusiyaya, Azərbaycan Respublikası Prezidentinin fərmanları Konstitusiyaya və qanunlara, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Konstitusiyaya, qanunlara və Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, mərkəzi icra hakimiyyətinin orqanlarının aktları isə Konstitusiyaya, qanunlara, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.

Qanunlara və digər normativ hüquqi aktlara dövlətin ərazisində olan bütün fiziki və hüquqi şəxslər, o cümlədən, əcnəbilər tərəfindən riayət olunmalıdır. Onların pozulması hüquqi məsuliyyətin yaranmasına səbəb olur.

Dövlətin qanunvericilik fəaliyyəti onun funksiyalarının həyata keçirilməsi forması kimi çıxış etməklə həmin funksiyaların reallaşması üçün hüquqi əsas yaradır. Məhz bu fəaliyyətin hesabına dövlət fəaliyyətinin normativ bazası yaranır və dövlət öz funksiyalarını həyata keçirərkən həmin bazaya əsaslanır.

Dövlət idarəetməsi icraedici, inzibati fəaliyyəti də əhatələməklə, əsasən geniş tərkibə və mürəkkəb struktura

malik olan icra aparatı vasitəsilə həyata keçirilir. Dövlət idarəetmə fəaliyyəti, ilk növbədə, konstitusiyaya və qanunlara əsaslanır. Bununla bərabər, həmin fəaliyyətin həyata keçirilməsi icra orqanları tərəfindən normativ aktların qəbul edilməsini və onların vasitəsilə həyata keçirilməsini ehtiva edir.

Dövlət idarəçiliyi ictimai həyatın bütün sahələri ilə bağlı olduğundan dövlətin funksiyalarının həyata keçirilməsinin bu forması həmin funksiyaların reallaşması baxımından çox mühüm əhəmiyyətə malikdir. Həmin forma dövlətin funksiyalarının həyatda maddiləşməsini, real münasibətlər müstəvisinə keçməsini, dövlət orqanlarının, vəzifəli şəxslərin fəaliyyətində reallaşmasını təmin edir. Dövlət idarəetməsi çoxaspektli fəaliyyətdir və bu fəaliyyət məhz dövlət mexanizminin müxtəlif elementləri vasitəsilə reallaşır. Dövlət idarəetməsinin dövlət mexanizmi tərəfindən reallaşması sistemli xarakter daşıyır. Belə bir xüsusiyyətə malik olmadan dövlət idarəetməsinin həyata keçirilməsi mümkün deyil. Belə ki, dövlət idarəetməsində müxtəlif dövlət orqanları və dövlətin digər strukturları, vəzifəli şəxslər və digər dövlət qulluqçuları iştirak edir, böyük həcmdə idarəetmə qərarları qəbul olunur. Yalnız dövlət idarəetməsinin sistemliliyi onların fəaliyyətinə məqsədyönlü xarakter qazandırır, koordinasiya edir, subordinasiya olunmasına imkan yaradır və səmərəli nəticə verməsinə yol açır.

İqtisadiyyatın, mədəniyyətin, elmin, sosial təminat sahəsinin, səhiyyənin, nəqliyyat və rabitə sisteminin inkişaf etdirilməsi, ictimai asayişin, hüquq qaydasının təmin edilməsi, ölkənin müdafiə olunması və s. sahələrdə dövlət idarəetməsinin səmərəliliyi həm prioritetlərin dəqiq şəkildə müəyyənləşməsi və strateji fəaliyyət proqramlarının işlənib hazırlanması, həm də cari məsələlərin dərhal, operativ və qanunçuluğun tələblərinə uyğun şəkildə həyata keçiril-

məsindən asılıdır. Bu isə, dövlət idarəetməsi sahəsində düzgün kadr siyasətinin aparılması, kadr hazırlığı işinin yüksək səviyyədə həyata keçirilməsi, inzibati aparatın keyfiyyətli şəkildə təşkil olunması və bürokratik əngəllərin minimum səviyyəyə endirilməsi ilə əlaqəlidir. Dövlət idarəetməsində ən vacib məqamı isə bu fəaliyyətin hüquq və azadlıqların nəzərə alınması, onların təmin edilməsi yolu ilə reallaşması, qanunun tələblərinə riayət olunmasının və hüquqiliyin vacib prinsip kimi qəbul edilməsi, hüquq pozuntuları baş verdiyi hallarda məsuliyyətin labüdlüyünün təmin edilməsidir.

Ədalət mühakiməsi sahəsində dövlət fəaliyyəti məhkəmə sisteminə daxil olan məhkəmələr tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə reallaşır. Ədalət mühakiməsinin həyata keçirilməsi, yalnız dövlət hakimiyyətinin müstəqil bir qolu olan məhkəmə hakimiyyətinin səlahiyyətindədir. Bu halda məhkəmə deyərkən, məhkəmə hakimləri nəzərdə tutulur. «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun 92-ci maddəsində deyilir ki, hakimlər ədalət mühakiməsini həyata keçirmək üçün qanunla müəyyən edilmiş səlahiyyətlərə malik olan şəxslərdir.

Hüquqi dövlətdə ədalət mühakiməsinin həyata keçirilməsi insan və vətəndaş hüquq və azadlıqlarının, bütün fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edilməsi, hüquq qaydasının təmin edilməsi məqsədlərinə xidmət edir.

Məhkəmələr ədalət mühakiməsini həyata keçirməklə dövlət funksiyalarının qanunçuluq əsasında reallaşmasına xidmət edir və onlara verilmiş səlahiyyətlərə uyğun olaraq həmin funksiyaların reallaşmasının əleyhinə yönələn hüquqazidd xarakterli əməllərin qarşısını alır. Beləliklə, ədalət mühakiməsi sahəsində dövlət fəaliyyəti dövlətin

funksiyalarının həyata keçirilməsinin bir forması kimi çıxış edir.

Qanunların həyata keçirilməsi üzərində dövlət nəzarəti müxtəlif təşkilati-hüquqi formada reallaşmaqla qanunçuluğun təmin edilməsinə xidmət edir. Dövlət nəzarəti həm subordinasiya qaydasında bir-birindən asılı olan dövlət orqanlarının fəaliyyətində (hakimiyyət səlahiyyətləri baxımdan daha yüksəkdə duran orqanların onlara tabe olan orqanlar üzərində nəzarəti həyata keçirməklə), həm də xüsusi səlahiyyətli orqanların onların tabeçiliyində olmayan və ya onlardan asılı olmayan orqanlar üzərində nəzarətin həyata keçirilməsində ifadə olunur.

Ümumiyyətlə, qanunçuluğun təmin edilməsi məqsədi ilə həyata keçirilən dövlət nəzarətinin iki əsas növünü fərqləndirmək olar. Onlardan biri məhkəmə nəzarəti, digəri isə inzibati nəzarətdir.

Məhkəmə nəzarəti məhkəmə orqanları tərəfindən həyata keçirilən hüquq mühafizəetmə fəaliyyəti ilə reallaşır. Məhkəmə nəzarəti sahəsində konstitusiyaya nəzarətinin xüsusi yeri var.

İnzibati nəzarətin həyata keçirilməsində isə müxtəlif dövlət strukturları, o cümlədən, gömrük, maliyyə, vergi, ekoloji, sanitar-epidemiya və s. nəzarətlə bağlı ixtisaslaşmış qurumlar iştirak edir. Bu növ nəzarət həyata keçirilərkən müxtəlif inzibati məcburiyyət və inzibati məsuliyyət tədbirlərindən istifadə olunur. İnzibati məsuliyyət tədbirləri inzibati hüquqpozmalarına yol verildiyi halda tətbiq olunur.

Bəzən xüsusi dövlət nəzarəti orqanları da yaradılır. Məsələn, Konstitusiya nəzarəti orqanı, Hesablama Palatası və s.

Qanunların həyata keçirilməsi üzərində dövlət nəzarətinin spesifikliyi ondan ibarətdir ki, nəzarəti həyata keçirən orqan müvafiq obyektin operativ-təsərrüfat və ya digər peşə fəaliyyətinə bilavasitə müdaxilə etmir, onun

fəaliyyətində qanunçuluğun səviyyəsini yoxlayır, faktları müəyyənləşdirir və öz qərarlarında həmin faktlara qiymət verir. Buna əsas olduqda isə müvafiq qaydada məsuliyyət məsələsinin həll edilməsi təşəbbüsünü həyata keçirir.

Zənnimizcə, yuxarıda göstərilən dövlət funksiyalarının həyata keçirilməsi formaları daha çox dövlət hakimiyyətinin deyil onun ayrı ayrı qollarının funksiyaları desək daha düzgün olar.

Hüquq nəzəriyyəsində dövlətin funksiyalarının həyata keçirilməsi formalarının təsnifləşdirilməsi üçün geniş istifadə olunan başqa bir kriteriya dövlət orqanlarının təşkilati fəaliyyəti ilə bağlıdır.

Həmin təsnifləşdirmədə dövlətin funksiyalarının həyata keçirilməsinin təşkilati (faktiki) formaları fərqləndirilir. Bir çox hallarda təşkilati formalara qeyri-hüquqi formalar da deyilir. Lakin bu, onları bir-birinə qarşı qoymaq, bir-birindən ayırmaq kimi başa düşülməməlidir. Belə ki, dövlətin funksiyalarının həyata keçirilməsinin hüquqi formaları həm də təşkilati formada olur. Lakin təşkilati formalardan elələri var ki, onlar bilavasitə hüquqi əhəmiyyət kəsb etmir. V.E.Çirkin qeyri-hüquqi formalardan danışarkən yazır ki, onlara dövlət orqanlarında və vəzifəli şəxslər tərəfindən həyata keçirilən gündəlik təşkilati, cari operativ işlər, iqtisadiyyatın və mədəniyyətin inkişaf etdirilməsi ilə bağlı proqramların işlənib hazırlanması və həyata keçirilməsi, təbii fəlakətin doğurduğu nəticələrin aradan qaldırılması üçün ekstremal tədbirlərin görülməsi və s. bu kimi fəaliyyət növləri aiddir.

Professor V.V.Lazarevin redaktorluğu ilə hazırlanan "Ümumi hüquq və dövlət nəzəriyyəsi" adlı dərslikdə qeyd olunur ki, hüquqi formalar dövlət hakimiyyətinin həyata keçirilməsinin bütün formalarını ehtiva etmir. Onlarla yanaşı tez-tez dövlətin təşkilati fəaliyyəti adlanan müxtəlif növ qeyri-hüquqi formalardan da geniş istifadə olunur.

Qeyri hüquqi formalara təşkilati fəaliyyətdən başqa həm də maddi-texniki əməliyyatların həyata keçirilməsi, məsələn, hüquqi aktların qəbulu üçün materialların hazırlanması, arayışların, hesabatların tərtibi, kargüzarlığın aparılması və s. aid edilir. (100,s.381)

Hüquq nəzəriyyəsində dövlətin funksiyalarının həyata keçirilməsinin aşağıdakı təşkilati formalarından bəhs olunur:

1) təşkilati-reqlamentləşdirici fəaliyyət forması;

2) təşkilati-təsərrüfat fəaliyyət forması;

3) təşkilati-ideoloji fəaliyyət forması.

Təşkilati-reqlamentləşdirici fəaliyyət dövlət mexanizminin tərkib hissələrinin fəaliyyət göstərə bilməsi üçün texniki-təşkilati təminatın yaradılması, o cümlədən, bu və ya digər konkret-siyasi məsələlərin həlli ilə bağlı operativ-təşkilati işlərin həyata keçirilməsində ifadə olunur.

Təşkilati-təsərrüfat fəaliyyəti dövlətin müxtəlif funksiyalarının həyata keçirilməsinin maddi təminatını yaratmaq məqsədinə xidmət edən operativ-texniki, cari təsərrüfat işlərinin görülməsi ilə bağlı olan fəaliyyətdir.

Təşkilati-ideoloji fəaliyyət isə dövlətin funksiyalarının reallaşması üçün mütəmadi olaraq operativ-izahedici, tərbiyəedici, maarifləndirici və informasiya təminatı ilə bağlı fəaliyyətin həyata keçirilməsi yolu ilə reallaşan fəaliyyətdir.

Zənnimizcə, dövlət funksiyalarının həyata keçirilməsinin hüquqi formalarına görə dövlət hakimiyyətinin hüquqyaradıcılığı və hüquq tətbiqetmə (hüquqicra və hüquq-mühafizə) funksiyalarının fərqləndirilməsi ideyası da natamamdır. Bu barədə professor Lazarevin fikirlərinə əlavə kimi göstərmək olar ki, dövlət hakimiyyəti hüquqla bağlıdır və o, hüquqla məhdudlaşır. Lakin dövlət hakimiyyəti birincisi yalnız hüququ deyil, həm də ictimai maraqları təmin edən digər sosial normaları da mühafizə edir; ikincisi dövlət hakimiyyəti xalqın

maraqlarına uyğun dövlətin daxili və xarici siyasətini həyata keçirir və bu siyasət hüquqla tənzimlənməyə də bilər.

Beləliklə, dövlət funksiyalarının həyata keçirilməsi forması kimi dövlət hakimiyyətinin funksiyaları ümumi və obyektivdir. Belə ki, onlar istənilən hakimiyyət, o cümlədən dövlət hakimiyyəti üçün xarakterikdir. Bu kontekstdə dövlət hakimiyyətinin 3 funksiyasını göstərmək olar:

1. Tənzimləyici;
2. Təşkilati-icra;
3. Mühafizə.

Dövlət hakimiyyətinin ümumi funksiyaları öz növbəsində konkret funksiyalara bölünür. Məsələn: tənzimləyici-ümumi və fərdi tənzimləmə, qanunyaradıcılığı və qanuntabeli normativ tənzimləmə; təşkilati- icra funksiyası əsasən dövlət hakimiyyətinin icra və sərəncam fəaliyyətində ifadə olunan dövlət siyasətinin, qərarlarının həyata keçirilməsinin praktiki təşkilində ifadə olunur. Lakin, təşkilati-icra funksiyası yalnız dövlət hakimiyyətinin icra və sərəncam fəaliyyətində deyil, eyni zamanda tənzimetmə və mühafizə fəaliyyətində də təzahür edir. Mühafizə funksiyasına bütün təşkilat və müəssisələrdə qanunçuluğun mühafizəsi, ictimai asayişin təmin olunması, dövlət sərhədlərinin, təhlükəsizliyinin və s. mühafizəsi daxildir.

Qeyd etmək lazımdır ki, dövlət funksiyalarına müvafiq olaraq dövlət hakimiyyətinin yuxarıda göstərilən 3 funksiyası da ölkə daxilində (iqtisadi, siyasi, sosial, ekoloji və s.) və xarici beynəlxalq fəaliyyət sahəsində (ölkənin müdafiəsi, sülhün, beynəlxalq təhlükəsizliyin dəstəklənməsi və təmin edilməsi digər dövlətlərlə əməkdaşlıq və s.) təzahür edir.

Yuxarıda qeyd olunanlardan göründüyü kimi dövlət hakimiyyəti funksiyalarının maddi (obyektiv) və formal (subyektiv) bölgüsü üst-üstə düşməsə də, üzvü sürətdı bir-biri ilə bağlıdır. Hesab edirik ki, dövlət hakimiyyəti

funksiyalarının obyektiv bölgüsünə əsaslanan subyektiv bölgünün geniş tədqiqi xalq suverenliyini təmin edən dövlət hakimiyyəti mexanizminin daha səmərəli təşkili və təkmilləşdirilməsi kontekstində mühüm əhəmiyyətə malikdir. Bu sahədə aparılan tədqiqat işləri ölkəmizdə xalq suverenliyinin səmərəli təminatı, optimal hakimiyyətlər bölgüsü modelinin yaradılması üçün böyük önəm kəsb edir .

Hüququn qnoseoloji mənbələrinə görə qədim və orta əsrlərdə dövlət hakimiyyəti əsasən bir və yaxud bir qrup şəxslərin əlində birləşir və həmin subyektlər qeyri məhdud hakimiyyətini öz mülahizələrinə görə həyata keçirir, onların hakimiyyəti üzərində hansısa nəzarətə yol verilmirdi. Lakin, hələ qədim dövrlərdə siyasi-hüquqi təlimlər tarixində dövlət hakimiyyətinin məhdudlaşdırılması, əhaliyə qarşı özbaşınalığın qarşısının alınması, bütün hakimiyyətin bir əldə birləşməsi və sui-istifadənin yolverilməzliyi haqqında ayrı-ayrı mütəfəkkirlərin fikirlərinə rast gəlmək olar.

Bu sualın izahında qədim yunan mütəfəkkirləri Aristotel və Polibiyin maraqlı fikirlərini göstərmək olar. Qədim yunan mütəfəkkirləri insanı, onun hüquq və azadlıqlarını hakimiyyətin sui-istifadəsindən qorumaq, hakimiyyətin bir əldə birləşməsinə yol verməmək, monarx hakimiyyətini məhdudlaşdırmaq, onun özbaşınalığına son qoymaq yollarını axtarırdılar. Qədim yunan mütəfəkkirləri hesab edirdilər ki, bu cür çoxəsrlik problemlərin həlli yollarından biri də, elə bir dövlət hakimiyyəti mexanizminin yaradılmasıdır ki, bu mexanizm hakimiyyətin mənimsənilməsi, özbaşınalıq və sui-istifadə hallarının qarşısını almağa qadir olsun. Hakimiyyətlər bölgüsü mexanizmi də məhz belə bir hakimiyyət mexanizminin yaradılmasını nəzərdə tutur. Dövlət hakimiyyətinin bölünməsi haqqında ayrı-ayrı ideyalara qədim yunan filosoflarının da əməyində rast gəlmək olar. Lakin, antik filosoflar hakimiyyətlər bölgüsü ideyasına müasir anlamdan

fərqli mənada baxırdılar. Onların baxışlarında hakimiyyətlər bölgüsü hər şeydən əvvəl dövlətin idarə olunmasında bütün maraqlı tərəflərin bərabər iştirakını nəzərdə tuturdu. Eyni zamanda antik filosoflar dövlətin fəaliyyətində əmək bölgüsünə xüsusi önəm verirdilər. Qədim yunan filosofu Aristotel "Siyasət" əsərində dövlət hakimiyyətinin üç elementini fərqləndirir:

1. Mühüm dövlət işlərini müzakirə edən hakimiyyət;
2. İcra hakimiyyəti;
3. Məhkəmə hakimiyyəti.

Bu bölgü hakimiyyət funksiyalarının müasir üç üzvlü təsnifatını çox xatırladır və qeyd etdiyimiz kimi onun rüşeymidir. Lakin Aristotelin təsnifatının xüsusiyyəti ilk növbədə ondan ibarətdir ki, burada müasir qanunvericilik hakimiyyətinin yerini mühüm dövlət işlərini müzakirə edən hakimiyyət tutur. Bu hakimiyyətin səlahiyyətlərinə isə qanunvericilikdən başqa hökumət və məhkəmə aktları da aiddir. "Müzakirə edən" hakimiyyətə müharibənin elan edilməsi, sülhün və sazişlərin bağlanması, qanunların dərc edilməsi, edamla cəzalandırma, xaric etmə və əmlakın müsadirəsi, idarəetmə orqanlarına seçkilər, onlardan hesabatların qəbul edilməsi və onların məsuliyyətə cəlb edilməsi kimi məsələlər aiddir. Digər tərəfdən Aristotel hökuməti öz funksiyalarının hüquqi təbiətinə görə deyil, onu həyata keçirən orqanların hüquqi vəziyyətinə görə müəyyən edir. Bu orqanların mühüm əlaməti kimi o səlahiyyətlərin müddətli olması və onların məsuliyyətini hesab edir. Burada asanlıqla aşkar etmək olar ki, Aristotelin təliminin əsasında dövlət hakimiyyəti funksiyalarının formal bölgüsü durur.

Onun nəzəriyyəsinə nümunə kimi qədim yunan, yəni Afina demokratiyasının quruluşu xidmət etmişdir. Onun "müzakirə" edən hakimiyyəti faktiki olaraq qədim yunan xalq yığıncağının nəzəri təsviridir. Onu da görmək mümkündür ki, eyni zamanda, bu nəzəriyyə sözün formal

mənasında müasir konstitusiyalı dövlətlərdə, xüsusən də respublikalarda qanunverici hakimiyyətə çox yaxındır. Qanunverici yığıncağın səlahiyyəti haqqında müasir baxışların və qədim yunan təsəvvürlərinin belə oxşarlığı bütün tarix boyunca demokratik dövlətin quruluşu əsasında duran təməllərin sabitliyini göstərir.

Bir çox müasir alimlər qədim yunan filosofu Aristotelin bu bölgüsünü müasir hakimiyyətlər bölgüsünün sələfi adlandırır.

Ədalətli hakimiyyət mexanizminin təşkili qədim və orta əsr şərq elminin də diqqət mərkəzində olmuşdur.

Hakimiyyət problemi Əl-Fərabi, Nizamülmülk, N.Tusi, İbn Xaldun və digər orta əsr şərq alimlərinin tədqiqat obyekti olmuşdur. Lakin, orta əsr şərq alimlərinin yaradıcılığında bir xüsusiyyət ondan ibarətdir ki, onların dövlət idarəçiliyi ilə bağlı baxışlarında təkbaşçılıq və hakimiyyətin teokratik xarakteri üstünlük təşkil edirdi, burada monarxa qarşı qoyulan hər hansı bir dövlət orqanının yaradılması mümkünsüz sayılırdı. Bununla yanaşı şərqin siyasi-hüquqi təlimlər tarixində dövlət başçısının şəxsi keyfiyyətlərinə-ədalətli, qayğıkeş, müdrik və s. cəhətlərinə xüsusi önəm verilirdi.

Nizamülmülk özünün "siyasətnamə" əsərində iki dövlət vəzifəsinin bir şəxsə verilməsinin əleyhinə çıxış edirdi. Nizamülmülk dövlət idarəçiliyində hökmdardan sonra ikinci şəxs sayılan vəzir vəzifəsinə xüsusi önəm verirdi. O, vəzir vəzifəsinin monarx hakimiyyətinə nisbətdə çəkindirmə xarakteri daşıdığını qeyd edirdi. Nizamülmülkün siyasi-hüquqi baxışlarında elitar demokratiyanın bəzi elementlərini görmək mümkündür. Mütəfəkkirin ideyalarına görə dövlət vəzifələrini bilikli, təcrübəli, peşəkar insanlar yerinə yetirməlidirlər.

Siyasi-hüquqi nəzəriyyədə orta əsr və yeni dövrün başlanğıc tarixi dünyəvi və dini hakimiyyətin mübarizəsi tarixi kimi qiymətləndirilir.

Məcid Əfəndiyev "Siyasi elmin əsasları" kitabında qeyd edir ki, ilk böyük hakimiyyət bölgüsü siyasi və dini hakimiyyətin, dövlət və kilsə hakimiyyətinin təşəkkülü ilə başlanır. Hakimiyyətin belə bölünməsi uzun müddət onun vahid şəklə salınması uğrunda mübarizə ilə müşahidə olunmuşdur. Başqa sözlə, dünyəvi hakimiyyət dini hakimiyyətin dini hakimiyyət isə dünyəvi hakimiyyətin üzərində hakim mövqe tutmağa cəhd etmişdir. Belə rəqabət uzun müddət orta əsrlərdə və yeni dövrün başlanğıcında Qərb ölkələrində davam etmişdir.

Avropanın orta əsr tarixində dövlət hakimiyyətinin bölünməsi ideyası dövlət ilə mübarizədə katolik kilsəsinin əlində ideoloji silah kimi istifadə olunurdu. Həmin dövrün hakim ideologiyası kimi "iki qılınc" nəzəriyyəsi geniş yayılmışdır.

XII-XIII əsrlərdə Avropada geniş yayılmış "iki qılınc" təlimində deyilir ki, kilsənin əsasını qoyanların iki qılıncı olmuş və onlar həmin qılınclardan birini qınına qoyaraq özlərində saxlamış, ikincisini isə dünyəvi hakimiyyəti həyata keçirmək üçün hökmdarlara vermişdir. Ona görə ki, sıyrılmış qılıncdan istifadə etmək, qanlı qılıncı tutmaq kilsəyə yaraşmaz. Odur ki, insanlar üzərində hökm etmək hüququ hökmdarlara, məhz kilsə tərəfindən verilmiş və hökmdarların özləri də kilsənin qulluqçularıdırlar (83,s. 132).

Dünya dövlətlərinin tarixi təcrübəsi onu göstərir ki, iki müxtəlif fenomenal hadisə sayılan dövlət və din arasında siyasi hakimiyyət uğrunda gedən gərgin mübarizə bir çox dövlətlərdə dünyəvi hakimiyyətin qələbəsi ilə nəticələnsə də (bu vəziyyət əsasən Avropa üçün xarakterik olmuşdur) bir qrup şərq ölkələrində isə dini hakimiyyətin qələbəsi ilə

nəticələnmişdir. Bəzi dövlətlərdə isə həmin proses bu günədək davam edir.

Yeni dövrdə hakimiyyətin bölünməsi ideyası ilk dəfə levellerlərin (bərabərlik tərəfdarları) siyasi-hüquqi təlimində öz əksini tapıb. Levellerlərin proqramına görə hakimiyyətin bölünməsi sistemində onun mənbəyini xalq təşkil edir və xalqın hüququ ölkə konstitusiyası ilə mühafizə olunur. Levellerlərin baş ideoloqu Con Lilbernə görə ingilis xalqını təmsil edən parlament yaradılmalıdır, bürokratik hakimiyyət aparatının özbaşınalığına son qoymaq məqsədilə qanunvericilik və icra hakimiyyətləri bölünməlidir.

Yeni dövrdə hakimiyyətin bölünməsinə dair demokratik ideya burjua ideoloqu Con Lok tərəfindən daha da inkişaf etdirilmişdir. Məcid Əfəndiyev göstərir ki, C.Lokkun hakimiyyətin bölünməsinə dair siyasi-hüquqi görüşlərinin sosial-siyasi mahiyyəti bundan ibarətdir ki, o qalib gələn ingilis burjuaziyası ilə hakimiyyəti öz inhisarında saxlamaq imkanından məhrum olan feodal aristokratiyası arasında kompromisə ideoloji cəhətdən haqq qazandırmaq istəyirdi.

C.Lokk konstitusiyalı dövlətin ilk nəzəriyyəçisidir. Hakimiyyət bölgüsü haqqında öz təlimində o ilk dəfə olaraq dövlət hakimiyyəti funksiyalarının bölgüsünü təşkilati-texniki təsəvvürlərlə deyil, bu yol ilə vətəndaşların hüquq və azadlıqlarının qorunması zərurətilə əlaqələndirmişdir. Az sonra bu təlim Ş.Monteskye tərəfindən inkişaf etdirilmişdir. C.Lokkun dövlət hakimiyyəti funksiyaları haqqında təsnifatı olduqca özünəməxsusdur. O, ilk növbədə qanunverici və icra hakimiyyətini fərqləndirir. Hökumət aktlarından fərqli olaraq qanunların mühüm əlaməti onların uzun müddətli qüvvədə olmasıdır. Məhz bunun nəticəsidir ki, qanunverici hakimiyyət aramsız fəaliyyət göstərmir, qanunlar dövri olaraq, zamanla dərc edilir. Əksinə, aktların müvəqqəti xarakterinə görə icra hakimiyyəti daimi və aramsız fəaliyyət

göstərir. Hakimiyyətlərin hər ikisi ayrı-ayrı orqanlar tərəfindən həyata keçirilməlidir əks halda idarə edən şəxslər özlərini qanuna tabe olmaq zərurətindən azad edər və yaxud qanunları öz şəxsi maraqlarına tabe edərlər. Qanunlar dövri olaraq təyin olunan yığıncaq üzvləri tərəfindən qəbul edilməli və fəaliyyətini bitirdikdən sonra onlar adi vətəndaşların sıralarına qayıdaraq, həmin qanunlara özləri də tabe olmalıdırlar. İcra hakimiyyəti isə daimi fəaliyyət göstərən orqana həvalə edilməlidir. Lakin sonradan C.Lokk iki hakimiyyətdən başqa federativ adlandırdığı üçüncü hakimiyyəti də göstərir. Bu hakimiyyət müharibə elan etmək, xarici dövlətlərlə danışıqlar aparmaq, sülh bağlamaq, ümumiyyətlə beynəlxalq siyasəti qurmaq ixtiyarına malik olduğuna görə icra hakimiyyətindən fərqlidir və bununla yanaşı bir orqanın əlində cəmləşməlidir, çünki bu hakimiyyət dövlətin fiziki qüvvəsinin tətbiq edilməsini tələb edir. Nəhayət, C.Lokkun fikrincə, daimi qüvvədə olan icra hakimiyyəti orqanı qanunları icra etməklə yanaşı cəmiyyətin və onun ayrı-ayrı üzvlərinin qorunması üçün qanunla nəzərdə tutulmayan hallarda, lazımi tədbirlər görməlidir.

Məhkəmə hakimiyyəti haqqında C.Lokk heç nə vurğulamır, onun təsnifatında məhkəmənin yeri ümumiyyətlə aydın deyil. Bəzi şərhçilərin fikrincə Lokk iki üzvlü təsnifatın tərəfdarları kimi məhkəmə fəaliyyətini qanunların icrası anlayışına aid edir, digərləri isə hakimlər barədə C.Lokkun qeydlərinə arxalanaraq belə qənaətə gəlirlər ki, o məhkəməni qanunverici hakimiyyətin bir qolu kimi nəzərdən keçirir. C.Lokkun nəzəriyyəsinə xarakteristika vermək üçün onu da qeyd etmək lazımdır ki, o qanunverici və icra hakimiyyətlərinin mütləq bölüşdürlməsinə israrlı deyil və ali icraedici orqanın qanunvericilikdə iştirakı mümkünlüyünü qəbul edir.

Hakimiyyətlərin bölgüsü haqqında Lokkun təlimində XVIII sərin sonunda Styuartlar sülaləsi ilə parlament

arasında gedən inadlı mübarizənin nəticəsi olan ingilis dövlət quruluşunun əsas cizgilərini görmək olur.

Hakimiyyət funksiyalarının ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülməsi ideyalarının inkişafı XVIII əsrdə Monteskye və Russonun nəzəriyyələri ilə bitmiş olur.

Bəzi mütəfəkkirlər iddia edir ki, hakimiyyət bölgüsü haqqında Monteskye və Russonun təlimi öz təməllərində oxşardır: Lakin bu baxış haqlı tənqidlər ilə üzləşdi. Belə ki, Monteksye və Russonun təlimləri bəzi məqamlarda kəsişsə də tamamilə bir -birindən fərqli olan dünyagörüşlərdir.

Şübhəsiz ki, Russonun nəzəriyyəsi özünəməxsus xüsusiyyətləri var. Bu nəzəriyyə insanların qəlbi və şüuruna daha tez yol tapmaqla köhnə dövlət quruluşu formalarının tənqidi, onların radikal islahatlara məruz qalması üçün təkanverici qüvvədir. Lakin, digər tərəfdən, praktiki yaradıcı fəaliyyət baxımından Monteskyenin təlimi daha məhsuldar olmuş, müasir konstitusiyalı dövlətlərdə daha çox həyata keçirilmiş və yer tutmuşdur.

Maraqlıdır ki, Russonun nəzəriyyəsini etalon kimi qəbul edən siyasi xadimlər də dövlət quruluşuna dair vacib siyasi məsələləri həll edərkən onun deyil, Monteskyenin yolunu seçirdilər.

Hakimiyyət bölgüsü haqqında Russo və Monteskyenin nəzəriyyələrini daha geniş nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik.

J.J.Russonun siyasi təliminin başlanğıc nöqtəsi kimi insan şəxsiyyətinin təbii azadlığı çıxış edir. O, insanın cəmiyyətə daxil olması və dövlət hakimiyyətinə tabe olması ilə öz azadlığını necə qoruyub saxlaması kimi məsələnin həllini qarşısına məqsəd qoymuşdur. Bu problemi o, ictimai müqavilənin bağlanması ilə həll edir. İnsanlar əzəldən azad və müstəqildilər, ümumi razılaşma ilə bir kollektiv olan xalqda birləşirlər və öz ibtidai təbii hüquqlarından imtina edərək məhdudiyyətsiz olan hakimiyyətə tabe olurlar.

Russoya görə mütləq suverenlik xalqa məxsusdur. Bu zaman şəxsiyyətin azadlığı onunla təmin edilir ki, suveren cəmiyyətin üzvü kimi ümumi iradənin əmələ gəlməsində onlar hamısı iştirak edirlər. Beləliklə, hər kəs ümumi iradəyə tabe olmaqla, mahiyyətcə özünə də tabe olur. Lakin cəmiyyətin bütün üzvlərinin tam razılığı mümkün olmadığına görə ümumi iradə kimi Russo əksəriyyətin qərarını qəbul edir. Russo etirazların olacağını əvvəlcədən güman edir, çünki bu halda azlıq öz iradəsinə deyil, özgələrinin iradəsinə tabe edilməlidir. Lakin bu ziddiyyəti o, digər bir mülahizə ilə aradan qaldırır. Russo deyir ki, bir məsələnin həlli üçün xalqa müraciət olunduqca hər bir vətəndaşdan bu məsələyə dair onun şəxsi fikri deyil, ümumi iradənin nədən ibarət olunduğu (yəni bütün fərdi iradələrdə olan ümumi element) soruşulur. Əgər vətəndaş azlığa düşübsə, deməli o səhv edib, ümumi iradənin məzmununu tapa bilməmişdi. Beləliklə o, səhvini etiraf edərək, ümumi iradənin həqiqi məzmununu açıqlaya bilmiş əksəriyyətin qərarına tabe olmalıdır. Mühüm əlamət cəmiyyətin bütün üzvlərinin yekdilliyi yox, səsvermədə hamısının iştirakıdır. Bu zaman Russo israrla qeyd edir ki, ümumi iradə yalnız xalqdan irəli gəlir və nümayəndələr vasitəsilə ifadə oluna bilməz.

Russonun təliminə görə qanunlarda konkret göstərişlər deyil, yalnız ümumi qaydalar təsbit olunur. Ümumi iradə hamıdan irəli gəlir və hamı üçün göstərişlər müəyyən edir. Məhz buna görə də o, həmişə ədalətli və qüsursuzdur. Ümumi qaydaları müəyyən edərkən suveren xalq fərdi maraqlara toxunmur, buna görə də onları poza bilməz, ümumi maraqlar isə onun öz marağı olduğuna görə onları poza bilməz. Ümumi qaydalar təbiətin qaydalarına oxşar olaraq şəxsiyyətin azadlığını pozmurlar. Russonun mülahizələrinin məntiqi xülasəsi birbaşa demokratiyadır. Onun nəzəriyyəsinə görə qanunverici hakimiyyət bütün

vətəndaşların iştirakını ehtiva edən birbaşa xalq yığıncağına məxsus olmalıdır.

Lakin birgəyaşayışın mövcudluğu üçün tək qanunvericilik, yəni ümumi qaydaların təsis edilməsi kifayət etmir. Qanunların icra edilməsi, yəni konkret hallara görə ümumi qaydaların tətbiq edilməsi də zəruridir. Russonun fikrincə bu funksiya qanunvericiyə, yəni suveren xalqa məxsus ola bilməz. Ona görə də xüsusi orqan olan hökumətə həvalə edilməlidir. Russonun təlimində icra hakimiyyətinin qanunverici hakimiyyətlə ayrılması zərurəti bir neçə arqumentlə əsaslandırılır. Birincisi, icra hakimiyyəti daimi fəaliyyət göstərməlidir, buna görə də onun xalq yığıncağı tərəfindən həyata keçirilməsi hətta ən kiçik dövlətlərdə belə praktiki olaraq mümkün deyil; ikincisi (daha vacibi) şəxsi maraqlara aid olan konkret aktların suveren tərəfindən qəbul edilməsi onun öz təbiətini də təhrif edərdi-suveren şəxsi maraqlara tamamilə toxunmadan yalnız ümumi maraqları nəzərdə tutmalıdır; üçüncüsü, qanunvericilik və icra funksiyalarının bir orqanın əlində birləşməsi onlar arasındakı fərqi heçə endirərdi və konkret qərar üzərində (azadlığın zəruri şərti kimi) ümumi qaydanın üstünlüyünü sarsıdardı.

Russonun baxışlarında icra hakimiyyətinin necə təşkil olunmasından asılı olmayaraq o, qeyd-şərtsiz qanunvericilik hakimiyyətinə tabe olmalıdır. Bu tabeçilik həm də icra hakimiyyətinin subyektlərinin suveren xalq tərəfindən seçilməsi, onun qarşısında cavabdeh olması və istənilən məqamda onun tərəfindən dəyişdirilə bilməsi mənasında ifadə olunur. Hökumət müəyyən müstəqilliyə malikdir, çünki xalq daim toplu halında ola bilməz. Lakin əgər o toplaşıbsa qalan bütün hakimiyyətlərin qüvvəsi dayandırılır. Russonun obrazlı ifadəsinə görə bu zaman "Yer üzərində Allahın səsi ucalır" qalan səslər isə onun qarşısında susur.

Beləliklə, hökumət suveren-xalqa tabedir, lakin onun tərəfindən qəbul olunmuş qanunları icra etdiyinə görə eynilə bu xalqı təmsil edən ayrı-ayrı şəxslər üzərində qeyd-şərtsiz hakimlik edir.

Göründüyü kimi, Russonun nəzəriyyəsində dövlət hakimiyyəti funksiyalarının maddi bölgüsü olduqca nizamlı və ardıcıl şəkildə formal bölgü ilə birləşir.

Qanunvericilik ümumi qaydaların müəyyən edilməsi deməkdir, məhz buna görə də bütün vətəndaşlardan ibarət olan xalqa məxsus olmalıdır, icra isə yəni konkret hallar üzrə ümumi qaydaların tətbiqi xalqa tabe olan xüsusi bir orqana həvalə edilməlidir. Lakin qeyd etmək lazımdır ki, Russonun da nəzəriyyəsində maddi və formal təsnifat bəzi məqamlarda üst-üstə düşmür. Suveren xalq ümumi qaydaları təyin etməkdən başqa, hökmdarları seçir, onların məsuliyyətini müəyyən edir, zəruri hallarda onları dəyişir. Russonun fikrincə, məhkum edilmiş cinayətkarların əfv edilməsi hüququ da ona məxsus olmalıdır. Bütün bunlar şübhəsiz ki, şəxsi maraqlara toxunan konkret aktlardır. Russo bunu yaxşı bilir və buna görə də qeyd edir ki, müstəsna hallarda bəzi konkret aktların həyata keçirilməsi hüququ da suverenə məxsusdur. Lakin bunlar qanun deyil, suverenin dekretləridir.

Russonun nəzəriyyəsi, şübhəsiz ki, insan təfəkküründün ən böyük əsərlərindən biridir, lakin eyni zamanda bu nəzəriyyə siyasi həyatın reallıqları ilə hesablaşmayan mücərrəd təlimdir.

1. Bu nəzəriyyə ilk növbədə kiçik dövlət üçün yararlıdır. Çox güman ki, Russonun dünyagörüşünə onun vətəninin həyat şəraiti təsir göstərmişdir. O Cenevrə vətəndaşı idi və bu şəhər-dövlətin siyasi həyatında iştirak edirdi. Təbii ki, Cenevrənin dövlət quruluşu onun nəzəriyyəsinə təsir etmişdir. Öz əsərlərinin bir yerində o

hətta qeyd etmişdir ki, ideal dövlətin 10000 vətəndaşı olmalıdır.

Belə "kiçik" dövlətlərdə Russonun təsvir etdiyi birbaşa xalq hakimiyyəti mövcud ola bilər. Lakin müasir böyük dövlətlərdə ali hakimiyyət orqanı kimi, birbaşa xalq yığıncağını tamamilə təsəvvür etmək mümkün deyil.

2. Russo bütün dövlət fəaliyyətini iki funksiya ilə məhdudlaşdırmaq istəyir:

a)Ümumi qaydaların müəyyən edilməsi;

b) Konkret hallarda bu qaydaların dəqiq icrası. Buna görə də icra hakimiyyəti qanunvericinin əlində passiv, demək olar ki, mexaniki alət kimi çıxış edirdi. Lakin əslində qanunvericilik və idarəetmə arasında belə nisbət mümkün deyil. Bütün həyati halları ümumi qaydalarla nəzərə almaq olmaz. Buna görə də həyatın bir çox sahələrində icra yalnız qanunların icrası deyil, həm də qanunun hüdudları və qanunlar əsasında azad fəaliyyət deməkdir. Misal kimi beynəlxalq münasibətləri, daxili idarəetmə aktlarını (qanunvericinin çağırılması və buraxılması, vəzifəli şəxslərin təyin edilməsi və s.) göstərmək olar.

3. Russonun bütün təliminin vəzifəsi azadlığa zəmanət verməkdir. Bu, həm Russonun, həm də Monteskyenin ümumi məqsədidir. Russo güman edirdi ki, şəxsiyyətin azadlığı onunla təmin olunur ki, insan yaradılmasında iştirak etdiyi ümumi iradəyə tabe olur və beləliklə də özü özünə tabe olur. Deməli azadlığın təmin edilməsi-dövlət hakimiyyətində iştirakdır. Lakin ümumi iradə əksəriyyətin qərarı olduğuna görə azlıq üçün bu zəmanət-funksiyasıdır. Russo israr edirdi ki, əksəriyyətin qərarı əksəriyyətin iradəsindən daha çox bütün xalqın həqiqi ümumi iradəsinin üzə çıxarılması üsuludur. Xalqın istənilən məqamda həqiqətən real ümumi iradəyə malik olmasına inanan və bu iradənin üzə çıxarılması üçün əksəriyyətin səsverməsinin

düzgün vasitə olmasına inanan şəxslər Russonun tərəfini tutur.

4. Russonun nəzəriyyəsinin mahiyyəti ondan ibarətdir ki, o, dövlət hakimiyyətinin arxalandığı xalq dəstəyini bütün əhalinin məhdudiyyətsiz hüquqi hakimiyyətinə çevirməyə çalışır, bütün dövlət orqanları isə bu hakimiyyəti mexaniki icra edən passiv vasitələr vəziyyətinə qoyulmuşdur.

Hal-hazırda dövlətin demokratikləşməsi prosesi xeyli inkişaf edib. İsveçrə kimi bir çox dövlətlərdə xalq həqiqətən dövlətin ali qabaqcıl orqanıdır, dövlətin digər orqanlarının tərkibi və ümumi fəaliyyət inkişafı da məhz ondan asılıdır. Lakin Russonun təklif etdiyi kimi xalqın məhdudiyyətsiz hökmdar olması, digər orqanların isə passiv icraçı alət kimi fəaliyyət göstərməsi faktiki mümkün deyil, çünki müasir dövlətlərdə xalq nəhəng, çoxmilyonlu kütləni təşkil edir və digər orqanların iştirakı olmadan hüquqi hərəkətlər həyata keçirə bilməz. Xalqa sahib ola bilmədiyi hüquqlar verilərsə, onun özü üçün təhlükə yaranar. Çünki bu hüquqlar formal da olsa tanınarsa və dövlət quruluşuna daxil edilərsə, mütləq xalqın deyil, hansısa kənar qüvvələrin əlinə keçəcəkdir.

Hakimiyyətlərin bölgüsü nəzəriyyəsi Ş.Monteskye tərəfindən onun "Qanunların ruhu haqqında" əsərinin (1748-ci il) VI fəslində açıqlanmışdır. Bu fəsil "İngiltərənin konstitusiyası haqqında" adlanır.

Monteskye üçün başlanğıc nöqtə Russoda olduğu kimi şəxsiyyətin azadlığı çıxış edir, lakin "İctimai müqavilə"nin müəllifindən fərqli olaraq o, azadlığı dövlət hakimiyyətində iştirakı kimi deyil, dövlət hakimiyyətinin özbaşınalığından müdafiənin təminatı kimi başa düşürdü. Başqa sözlə, öz nəzəriyyəsinin əsasında o vətəndaş azadlığını görürdü. O, azadlığı qanunla qadağan olunmayanı etmək hüququ kimi və qanunun tələb etmədiyin icra etməyə məcburiliyin olmadığı kimi müəyyən edir. Monteskyenin mülahizələrinə görə hakimiyyətin monarxa və yaxud xalqa həvalə

edilməsindən asılı olmayaraq, hakimiyyət təkdirsə azadlıq təmin edilməyəcəkdir. Hakimiyyətin özbaşınalığı və ondan sui-istifadəni aradan qaldırmaq üçün yeganə vasitə bir neçə hakimiyyətin olması və onların bir-birini nəzarətdə saxlamasıdır. Monteskyenin fikrincə ayrı-ayrı dövlətlər müxtəlif məqsədlər güdür: bəziləri-işğal, digərləri din, üçüncülər-ticarət və sənayenin inkişafı. Lakin elə dövlətlər də var ki, özünə məqsəd kimi azadlığın qorunmasını seçib. Belə dövlət İngiltərədir burada azadlıq probleminin həlli yolu isə-hakimiyyətlərin bölgüsü və tarazlığıdır.

Monteskye dövlətdə üç hakimiyyəti fərqləndirir: 1) qanunverici; 2) beynəlxalq hüquqla tənzimlənən münasibətlərdə icra hakimiyyəti 3) mülki hüquqla tənzimlənən münasibətlərdə icra hakimiyyəti. Bu yanaşmada müəyyən qədər Lokkun təsirini görmək olar, belə ki, o da qanunverici hakimiyyətdən başqa, federativ və icra hakimiyyətini fərqləndirirdi. Lakin Monteskyenin təsnifatı Lokkun təsnifatı ilə eyni deyil. Mülki hüquq məsələlərində icra hakimiyyətini Monteskye məhkəmə hakimiyyətinə bərabər tutur. Beləliklə, hakimiyyətin üç qola bölgüsü-qanunverici, icra və məhkəmə hakimiyyəti meydana gəlir. Məhz bu hakimiyyətlər də müxtəlif orqanlar arasında bölüşdürülməli və bir-birindən asılı olmayan, hüquqi vəziyyəti və tərkibinə görə bir-birindən fərqlənən, lakin funksiyalarının daxili asılılığı ilə bir-biri ilə əlaqəli olan bu orqanların hər biri digərinin özbaşınalığının qarşısını alacaqdır. Hakimiyyətlərin üçü də və yaxud onlardan ikisi bir şəxsin və ya təşkilatın əlində cəmləşərsə azadlıq ola bilməz. Belə ki, eyni zamanda həm qanunverici, həm də icraçı olan şəxs tiraniya qanunlarını qəbul edəcək və lazım bildiyi tərzdə onları icra edəcək.

Cəzalandırma ixtiyarına malik olduğuna görə ***məhkəmə hakimiyyəti*** vətəndaşların azadlığı üçün daha çox təhdidlər yaradır. Buna görə də o, daimi təşkilata deyil, xalq

içərisindən çağırılan və qısa müddətə ədalət mühakiməsini həyata keçirmək məqsədilə təyin edilən şəxslərə həvalə edilməlidir. Çox güman ki, Monteskye burada vətəndaş azadlığının ən vacib zəmanətlərindən olan və İngiltərədə fəaliyyət göstərən andlı iclasçılar məhkəməsini nəzərdə tutur.

Qanunverici hakimiyyət, prinsipcə bütün xalqa məxsus olmalıdır, çünki "azad dövlətdə" insan özü özünü idarə etməlidir. Monteskye burada Russonun ideyalarına yaxın fikir səsləndirir, lakin dərhal Cenevrə mütəfəkkirlərindən kəskin fərqləndirdiyini bildirir. Çünki böyük dövlətlərdə qanunvericilik hakimiyyətinin bilavasitə xalq tərəfindən həyata keçirilməsinin qeyri-mümkünlüyü, kiçik dövlətlərdə isə çətin olduğuna görə xalq nümayəndəliyi zəruridir. Bu nümayəndəlik dairələr arasında bölüşdürülməlidir, çünki hər kəs öz ərazisinin tələbatlarını və qonşularının imkanlarını daha yaxşı bilir. Xalq nümayəndələrinin seçilməsinin əsasına Monteskye ümumi səsvermə prinsipini qoyur, seçkilərdə iştirakdan isə yalnız öz iradəsinə malik olmayan şəxslər azad edilməlidir.

Xalqın birbaşa qanunvericiliyi ilə müqayisədə, Monteskyenin fikrincə, xalq nümayəndələri tərəfindən qanunların qəbul edilməsinin bir üstünlüyü də ondan ibarətdir ki, nümayəndələr məsələləri birgə müzakirə etmək imkanına malikdir. Bu müzakirənin azadlığı üçün seçicilərdən deputatlara göstərişlər arzuedilməzdir.

İcra hakimiyyəti çevik fəaliyyət göstərmək imkanına malik olmalıdır və buna görə də təkbaşçılıq quruluşunu tələb edir. Bu hakimiyyət monarxa həvalə edilir.

Monteskye sadaladığı müddəalarla ingilis dövlət quruluşunun üç elementini izah edir: andlı iclasçılar məhkəməsi, icmalar palatası və kral hakimiyyətini. Lakin İngiltərədə qanunvericilik hakimiyyəti orqanı kimi icmalar palatası ilə yanaşı lordlar palatası da mövcuddur. Bunun

izah edilməsi üçün Monteskye öz sisteminə sosial xarakterli fikirlər daxil edir və dövlət hakimiyyətində müxtəlif sosial siniflərin iştirakının siyasi zərurətinə işarə edir.

Monteskye qeyd edir ki, dövlətdə həmişə yuxarı təbəqədə sosial statusu, nüfuzu və sərvəti ilə fərqlənən insanlar olur və digərləri üçün bərabər olan azadlıq onlar üçün köləlik kimidir, çünki qanunvericiliyin qərarları həmişə insanların ziddinə yönəlmiş olacaq, buna görə də azadlığın müdafiə edilməsi üçün onların heç bir marağı qalmayacaqdır. Azadlığın qorunmasında zadəganların marağını artırmaq üçün onların öz arasından xüsusi yığıncaq təşkil etmək lazımdır ki, xalq yığıncağının bir tərəfli qərarlarının qarşısını alsın və digər tərəfdən xalq yığıncağının razılığı olmadan hər hansı tədbir görə bilməsin.

Yuxarı palatanın xeyrinə Monteskyenin arqumentasiyasından göründüyü kimi, o ali təbəqənin maraqlarını müdafiə etsə də özü aristokrat deyildir. Əksinə onun fikrinə görə aristokratiyanın imtiyazları tənqidə layiqdir. Lakin əsl siyasətçi kimi düşünən Monteskye güman edir ki, əgər aristokratlar bir sosial qüvvəni təmsil edirsə, onda xalqın özünə də sərf edər ki, bərqərar olmuş dövlət quruluşunun qorunub saxlanılmasında onların marağını artırmaq üçün dövlətin idarə edilməsində iştiraka cəlb edilsinlər.

Bundan başqa, Monteskyenin fikrincə yuxarı palata digər baxımdan da faydalıdır. Onun öz ifadəsinə görə üç hakimiyyətin arasında məhkəmə hakimiyyəti sıfıra enir. Məhkəmə iki səbəbdən əsl hakimiyyət deyil. Birincisi, məhkəmə funksiyasının obyektiv xarakterinə görə: "hakim qanunvericinin hökmünü bəyan edən canlı nitqdir". İkincisi, məhkəmə hakimiyyəti daimi fəaliyyət göstərən vəzifəli şəxslər tərəfindən deyil, əhali arasından qısa müddətə cəlb olunmuş ayrı-ayrı vətəndaşlar tərəfindən həyata keçirilir, buna görə də xalqın içərisində "gözə görünməz olur".

Azadlığın təmin edilməsi üçün hakimiyyətlərin bir neçə orqan arasında yalnız bölüşdürülməsi kifayət etmir. Bundan başqa həmin orqanların qarşılıqlı müvazinətdə olması lazımdır, yəni bir orqan digəri üzərində üstünlüyə malik olmamalıdır, hər bir orqan digər orqanın qəsdindən sığortalanmalıdır. Gördüyümüz kimi yuxarı palatanın yaradılması tarazlığın qismən təmin edilməsinə xidmət edir. Lakin bu azdır və bir-birindən müstəqil qalmaq üçün hakimiyyətlər bir-birinə təsir etmək imkanına malik olmalıdır.

Qanunvericilik Məclisi daim iclaslar etməməlidir, çünki qanunverici hakimiyyətin mahiyyəti bunu tələb etmir. Qanunvericilik Məclisini çağırmaq və buraxmaq, həmçinin onun sessiyalarının vaxtını müəyyən etmək hüququ icra hakimiyyətinə məxsus olmalıdır.

Qanunvericilik hakimiyyətinin icra hakimiyyətinə qarşı veto hüququndan istifadəsinə ehtiyac yoxdur, çünki sonuncu öz təbiətinə görə məhdudlaşdırılmışdır. Buna görə də qanunvericilik hakimiyyəti icra hakimiyyətinin fəaliyyətinin qanuniliyinə nəzarət və bundan irəli gələrək bu fəaliyyəti həyata keçirən şəxsləri məsuliyyətə cəlb etmək hüququna malik olmalıdır.

Qanunvericilik sahəsində veto hüququna malik olan icra hakimiyyəti həm də parlament sessiyalarının müddətini müəyyən edir, həmçinin ordu da onun sərəncamındadır. Bu səbəbdən sonuncunun həddən artıq nəhəng və qüdrətli qüvvəyə çevrilməməsi üçün qanunvericilik hakimiyyətinin səlahiyyətlərinə illik büdcənin təsdiq edilməsi, silahlı qüvvələrin tərkibinin müəyyən edilməsi kimi məsələlər də həvalə edilməlidir. Nəhayət, dövlət hakimiyyətinin təşkilində məhkəmə hakimiyyətinin xüsusi orqanlara məxsus olması barədə ümumi qaydadan bəzi istisnalar olmalıdır. Bu kontekstə İngilis hüququna istinad edən

Monteskye aşağıdakı tədbirlərin görülməsini mümkün hesab edirdi:

1) Dövlətin təhlükəsizliyinə təhdid yaranan müstəsna hallarda qanunvericilik hakimiyyəti icra hakimiyyətinə (məhkəmə yerinə) qısa müddətə həbs hüququ verə bilər (İngiltərədə habeas corpus haqqında aktın dayandırılması);

2) Xalqın hüquqlarına qarşı yönələn cinayətlər aşağı palata tərəfindən təqib edilməli, yuxarı palata tərəfindən isə mühakimə edilməlidir (nazirlərin ittihamı institutu, impiçment). Bundan başqa, Monteskye yuxarı palataya öz üzvləri üzərində mühakimə aparmaq hüququnu və əfv hüququnu verir (sonuncu qayda ingilis hüququna ziddir, orada bu səlahiyyət yalnız monarxa məxsusdur).

Yuxarıda təsvir olunduğu kimi təşkil olunan üç hakimiyyət budağı bir-birinə tabe deyil, lakin bir-biri ilə sıx əlaqədə və iş birliyindədir. Onlardan heç biri digəri olmadan heç nə edə bilməz və aralarında razılığa gəlməsələr bütün dövlətin fəaliyyəti dayanmalıdır. Lakin onun dayandırılmasına yol verilmədiyinə görə, məcburiyyət qarşısında fəaliyyət göstərməli olacaqlar, çünki zərurət özü onları bir-biri ilə razılaşaraq fəaliyyət göstərməyə məcbur edəcəkdir. Bunun nəticəsi kimi də onların qarşılıqlı olaraq bir-birinə nəzarəti azadlığı təmin edəcək.

Monteskye öz sistemini qurarkən sırf empirik yolu tutsa da, qarşısına mücərrəd idealı təsvir etmək məqsədini qoymasa da öz nəzəriyyəsi ilə dərin və orijinal ideyanı ortaya çıxara bilmişdir. Monteskyenin nəzəriyyəsi mədəni xalqların siyasi sisteminə olduqca böyük təsir göstərmişdir. Dünya təcrübəsində Monteskyenin ideyaları fərqli tərzdə qavranmış və tətbiq edilmişdir. Hakimiyyətlərin bölgüsü nəzəriyyəsi ilk növbədə İngiltərədən ayrılmış Şimali Amerika Birləşmiş Ştatlarının dövlət quruluşunun əsası kimi qəbul edilmişdir. Bir az fərqli şəkildə bu nəzəriyyə Fransada

həyata keçirilmiş, sonralar kontinental Avropanın digər xalqlarının pozitiv hüququnda da yer almışdır.

Hakimiyyətlərin bölgüsü haqqında təlim qısa müddət ərzində hüquq elmində böyük nüfuz əldə edərək XIX əsrin ortalarına qədər demək olar ki siyasi aksioma rolunu qazanmışdır. Bu siyasi empirik təlimə Kant mücərrəd fəlsəfi əsaslandırma vermişdir. Onun təsəvvüründə hakimiyyətlərin bölgüsü artıq siyasi təcrübə və müşahidələrdən hasil edilmiş praktiki qayda deyil, dövlət hakimiyyəti ideyasından irəli gələn şüur tələbidir. Kantın fikrincə qanunverici, icra və məhkəmə hakimiyyəti birlikdə vahid şəxs kimi dövləti təşkil edən üç sərbəst subyektdir.

Monteskyenin davamçıları Monteskyenin üç hakimiyyətinə dördüncü hakimiyyəti əlavə etməklə hakimiyyətlərin bölgüsü nəzəriyyəsinə əlavələr etməyə cəhd etmişlər. Onlar icra hakimiyyətinin daşıyıcısı kimi monarxı deyil, nazirləri qəbul edirdilər, monarxa isə xüsusi "barışdırıcı" və yaxud "tarazlaşdıran" hakimiyyəti aid edirlər. Onların fikrincə, bu hakimiyyətin təyinatı digər hakimiyyətlərin fəaliyyətini tənzimləmək, onların tarazlığını təmin etmək və aralarında yarana bilən qarşılıqlı münaqişələri həll etməkdən ibarətdir. Barışdırıcı hakimiyyət haqqında təlimin görkəmli nümayəndəsi olan Benjamen Konstan onun mövcudluğunu təsdiq etmək üçün monarxın digər dövlət orqanlarına təsir etməsi ilə öz fəaliyyət sahələrindən kənara çıxmasına mane olan səlahiyyətlərini misal gətirir. Bura monarxın nazirləri təyin etmək və istefaya göndərmək, aşağı palatanı buraxmaq, yuxarı palataya yeni üzvləri daxil etmək hüququnu aid edirdi. Nazirliklər, palatalar və məhkəmələr öz hərəkəti ilə dövlət həyatının ahəngini pozduqda monarx həmin hakimiyyətə təsir etməklə pozulmuş vəhdəti bərpa edir.

XIX əsrin ortalarına qədər Monteskyenin nəzəriyyəsi siyasi elmdə üstünlük təşkil edirdi, lakin müəyyən vaxtdan

sonra o xüsusilə alman alimləri tərəfindən tənqidə məruz qalmağa başlamışdır. Hakimiyyətlərin bölgüsü haqqında təlimə qarşı üç arqument irəli sürülmüşdür ki, bunları hüquqi, siyasi və tarixi arqument kimi adlandırmaq olar.

Hakimiyyətlərin bölgüsü haqqında təlimə qarşı alman hüquqşünasları sırf hüquqi və mücərrəd arqumentlər irəli sürür. Onların fikrincə üç sərbəst hakimiyyət barədə Monteskyenin təsəvvürü dövlətin vahid hüquqi şəxs anlayışına ziddir. Bu baxımdan Kantın düsturunda daha kəskin etirazlar ifadə olunmuşdur və onun fikrincə üç hakimiyyət-birlikdə vahid şəxs olan dövləti təşkili edən üç ayrı-ayrı subyektlərdir. Tənqidçilər əsaslı olaraq qeyd edirdilər ki, "Kantın üçlüyü" insan şüuru tərəfindən dərk olunmayan doqmadır. Lakin bu haqlı etiraz Kanta aid olunduğundan Monteskyeyə qarşı yönəldilə bilməz. Ümumiyyətlə Monteskye hakimiyyətlərin bölgüsü haqqında məsələyə siyasi tərəfdən nəzər yetirir və dövlət hakimiyyətinə hüquqi konstruksiya vermək məqsədini güdmür. Lakin biz onun hüquqi təsəvvürlərini izləyə bildiyimizə görə tənqidçilərin təsvir etdiyindən fərqli olduğunu görə bilərik.

Monteskye üç hakimiyyəti üç sərbəst subyekt və ya dövlətin əlahiddə üç iradəsi kimi təsəvvür etmir. "Hakimiyyət" sözünü o alman hüquqşünaslarından fərqli başa düşür və hüquqi baxımdan daha düzgün başa düşür. Hakimiyyət dedikdə (pouvoir, puissance) o xüsusi bir hüquqi şəxsi və iradəni deyil: a) birbaşa mənada-dövlətin məlum subyektiv hüququ; b) dolayı mənada-bu hüququ həyata keçirən orqanı nəzərdə tutur. Bu baxımdan, hakimiyyətlərin bölgüsü ideyasında heç bir ziddiyyət yoxdur. Söhbət dövlətin bölgüsündən deyil, dövlətin hakimiyyət adlanan ümumi subyektiv hüququnda ayrı-ayrı subyektiv hüquqların olması barədə (qanunverici, icra, məhkəmə) və bu hüquqların ayrı-ayrı dövlət orqanları

tərəfindən həyata keçirilməsi barədə gedir. Bir neçə hakimiyyətin mövcudluğu dövlət hakimiyyətinin prinsipial vahidliyinə də zidd deyil.

Hakimiyyətlərin bölgüsü haqqında təlimə qarşı irəli sürülən digər arqument-siyasidir. Deyirlər ki, Monteskyenin nəzəriyyəsinin həyata keçirilməsi siyasi baxımdan məqsədəuyğun deyil, hakimiyyətlərin bölgüsü dövlətin fəaliyyəti üçün tələb olunan faktiki vəhdətə ziddir.

Hakimiyyətlərin bölgüsündən irəli gələn mürəkkəb quruluş dövlət fəaliyyətinin vəhdətinə ziddiyyət yaratmır. Bu vəhdəti bütün dövlət hakimiyyətinin bir orqanın əlində cəmləşməsi ilə yaratmaq olmaz, çünki belə halda siyasi ideal mütləqiyyətdən ibarət olardı. Dövlət vəhdətinin əsl zəmanəti kimi bir orqanın subyektiv hökmranlığı deyil, bir neçə orqanın iş birliyinin nəticəsində hakimiyyətlərin bölgüsü ilə təmin olunan qanunun hökmranlığıdır. Dövlət fəaliyyətinin ahənginə fəaliyyətdə olan qüvvələrin kompromisi ilə nail olunur, belə kompromislər olmasa vəhdət və asayişin yalnız görüntüsünə nail olmaq mümkündür.

Monteskyenin nəzəriyyəsinə üçüncü etirazı tarixi etiraz adlandırmaq olar. Həmin iddialara görə Monteskyenin tədqiq etdiyi hakimiyyət bölgüsü heç zaman və heç bir yerdə, hətta Monteskyenin qeyd etdiyi İngiltərədə də mövcud olmayıb. Bunun təsdiqi kimi tənqidçilər ümumiyyətlə konstitusiyalı monarxiya quruluşunda və İngiltərənin dövlət quruluşunda xüsusi ilə hakimiyyətlərin bölgüsü prinsipinə zidd olan bir sıra halları göstərirlər. Məsələn, bir tərəfdən monarxın qanunvericilikdə iştirakı və digər tərəfdən hökumətin qərarlarına qanunvericilik hakimiyyətinin təsiri, mütləq inzibati göstərişlər formasında hüquq normalarının hökumət tərəfindən müəyyən edilməsi hüququ, məhkəmə və inzibati funksiyaların ingilis barışıq məhkəmələrinin əlində cəmləşməsi və nəhayət, parlamentli

idarəetmə şəraitində qanunverici və icra hakimiyyətlərinin faktiki birləşməsi, yəni qanunvericilik məclisində hakim partiya sıralarından nazirlərin təyin edilməsi. Lakin, bütün bunlar Monteskyenin təliminin mahiyyətinə toxunmur. Monarxın qanunvericilikdə, xalq nümayəndələrinin isə hökumət aktlarının qəbulunda iştirakı Monteskyenin özü tərəfindən də nəzərdə tutulmuşdur və hətta onun sözlərinə görə bu mexanizm hakimiyyətlərin "balansı"nı təmin etmək üçün zəruridir. Düzdür, hökumət tərəfindən qanunverici xarakterli ümumi qaydaların qəbul edilməsi Monteskyenin nəzəriyyəsi ilə nəzərdə tutulmasa da, onun əsas prinsipi ilə də ziddiyyət təşkil etmir.

Tarixi həqiqət baxımından Monteskyenin nəzəriyyəsinə qarşı daha kəsərli etiraz qanunvericilik hakimiyyətini icra hakimiyyəti ilə birləşdirən parlamentli idarəetmə sistemini göstərmək olar. Lakin ingilis parlamentarizminin Monteskyenin "diqqətindən yayınması" barədə irad haqlı hesab edilə bilməz. Birincisi, onun vaxtında belə idarəetmə sistemi hələ yaranma mərhələsində idi və xeyli sonralar formalaşmışdır. İkincisi, Monteskye özü də qeyd edir ki, məqsədi ingilis konstitusiyasının faktiki tətbiqi şərtlərini deyil, yalnız onun hüquqi əsaslarını tədqiq etməkdir.

Monteskye nəzəriyyəsinin təhlilinə yekun vuraraq biz təbii ki, onu bütün detalları ilə mütləq həqiqət kimi qəbul edə bilmərik. İngilis dövlət quruluşunun əsaslarını bütün mədəni bəşəriyyət üçün nümunə kimi təqdim edərkən Monteskye bura həmin məkan və zəmanənin xeyli spesifik özəlliklərini də əlavə etmişdir. Onun təlimi bir çox detalları ilə yanlışdır və ya siyasi həyatın sonrakı inkişafı ilə zənginləşdirilmişdir. Lakin hakimiyyət bölgüsü ideyasının özü dərin və dürüst fikir olmaqla sivil xalqların müasir siyasi quruluşunun əsasında durur və bu mənada biz

Monteskyeni müasir konstitusion dövlətin banisi adlandıra bilərik.

Sonda bir əlavəni də qeyd etmək lazımdır. Monteskyenin nəzəriyyəsi sonrakı siyasi təkamül ilə zənginləşdirilmişdir. Burada biz ən yeni dövlətçilik həyatı üçün parlamentarizimdən başqa digər daha ümumi və daha əlamətdar təzahürü nəzərdə tuturuq. Belə ki, dövlət hakimiyyəti funksiyalarının bölüşdürüldüyü orqanlarla yanaşı son zamanlar yeni bir orqan olan xalq irəli çəkilir və burada artıq xalq Russonun təsvir etdiyi qüdrətli hökmdar deyil, dövlət həyatının daha nüfuzlu faktoru qismində çıxış edir.

XX əsrdən etibarən hakimiyyətlər bölgüsü ideyası konstitusiyalı, hüquqi dövlətin, liberal demokratiyanın zəruri atributu kimi izah olunmağa başladı. Bu gün praktiki olaraq əksər demokratik, hüquqi dövlətlərin konstitusiyalarında hakimiyyətlər bölgüsü prinsipi müxtəlif hüquqi formada öz əksini tapır. Lakin, bütün bunlara baxmayaraq bu günədək elmdə həmin nəzəriyyənin mahiyyəti ilə bağlı yekdil fikir yoxdur. Məsələn, Rusiya Federasiyasının Konstitusiya hüququ dərsliyində qeyd olunur ki, vətəndaşların azadlığını təmin etmək məqsədilə dövlət hakimiyyətinin müxtəlif funksiyalarının müstəqil, bir-birini çəkindirən dövlət orqanlarını vasitəsilə həyata keçirilməsi, hakimiyyət budaqları arasında tarazlıq və nəzarət mexanizminin yaradılması hakimiyyətlər bölgüsü mexanizminin mahiyyətini təşkil edir (89,s. 88,89).

Professor Babayev isə qeyd edir ki, hakimiyyətlər bölgüsü prinsipi dövlət hakimiyyətinin müxtəlif hakimiyyət strukturları arasında bölünməsi, hakimiyyətin bir əldə birləşməsi və avtoritar, totalitar hakimiyyətin yaranmasının qarşısını alır (139,s.56)

Bu sualın izahı ilə Fəxrəddin Nağıyevin (burada hakimiyyətlər bölgüsü ideyası xalq hakimiyyəti ilə

əlaqələndirilir) mövqeyi xüsusi maraq kəsb edir. O, qeyd edir ki, bu prinsipin mahiyyəti ondadır ki, hakimiyyət xalqdan yaranır, vahid və bölünməzdir, müstəqildir və heç bir digər hakimiyyətdən asılı deyildir. Hakimiyyət tamamilə xalqa məxsusdur, xalq isə onu dövlət hakimiyyəti orqanlarına verir. Lakin bu orqanlardan biri, yaxud bir neçəsi bütün hakimiyyət ələ keçirib ondan nəzarətsiz istifadə etməsinlər deyə vahid dövlət hakimiyyəti funksional olaraq 3 qanunverici, icra və məhkəmə qanadlarına bölünür. Hakimiyyətin bölünməsi obyektiv olaraq dövlət orqanlarının fəaliyyət növləri üzrə ixtisaslaşması ilə ifadə olunur (48,s.148).

Professor M.B.Baqlayın mülahizələrinə görə hakimiyyətlər bölgüsü dövlət hakimiyyətinin vahidliyi prinsipi əsasında dövlət orqanlarının səlahiyyət bölgüsüdür(92,s.136,137). Zəminimizcə, müəllif hakimiyyətlər bölgüsü mexanizmini sadə əmək vəzifə bölgüsü kimi xarakterizə edir. Bu isə qəbuledilməzdir.

Professor Straşun B.A. qeyd edir ki, demokratik rejim şəraitində hakimiyyətlərdən hər biri müəyyən müstəqilliyə malikdir və digər hakimiyyətlərlə tarazlaşır . Dövlət orqanlarından hər birinin səlahiyyətləri onun digər orqanlar üzərində hökmranlığını istisna edir. Bu isə özbaşınalıq əleyhinə ən mühüm təminatlardan biridir (90,s.269)

Bu sualın izahı ilə bağlı professor V.M.Korelskinin fikirləri böyük maraq doğurur.

O, qeyd edirdi ki, hakimiyyətlər bölgüsünün mahiyyəti ondan ibarətdir ki, vahid dövlət hakimiyyəti təşkilati və institusioanal qaydada üç nisbətən müstəqil budaqlara: qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölünür. Bu bölgüyə uyğun olaraq dövlətin ali orqanları yaradılır və bu orqanlar tarazlıq və çəkindirmə sistem əsasında əməkdaşlıq edir və bir-birini kontrol edir. (96,s.143)

Professor A.R.Qerasimov isə yazır ki, hakimiyyətlər bölgüsü səlahiyyətlərin ayrılması ilə, qarşılıqlı nəzarət, çəkindirmə və tarazlıq sistemi ilə ifadə olunur və o, mümkün sui-istifadələrə mane olmağa istiqamətlənmişdir. Bir tərəfdən, hüquqi dövlət hakimiyyətlər bölgüsü olmadan mümkün deyil....., digər tərəfdən, hüquqi dövlətin özü effektiv hakimiyyət bölgüsünün şərti və əsasıdır (s. 369)

Beləliklə, hakimiyyətlər bölgüsü mexanizminin mahiyyəti ilə bağlı fərqli fikirlər səsləndirən müasir təhqiqatçıları dörd qrupa ayırmaq olar.

1-ci qrup təhqiqatçılar bu nəzəriyyənin mahiyyətini hakimiyyətin bir əldə birləşməsi və avtoritarizmin qarşısının alınması, insan azadlıqlarının mühafizəsində görür. Bu cür mövqe hakimiyyətlər bölgüsü doktrinasının yarandığı yeni dövrdə geniş yayılmışdır və bu gün də öz aktuallığını saxlayır. Yeni dövrdə yaranan liberal demokratiyanın siyasi əsası kimi hakimiyyətlər bölgüsü mütləqiyyətə, təhkimçiliyə qarşı çıxış edərək dövlət hakimiyyətinin həyata keçirilməsində əhalinin müxtəlif sosial təbəqələri arasında kompromis rolunu oynayırdı;

2-ci qrup təhqiqatçılar bu nəzəriyyənin mahiyyətini dövlət hakimiyyətinin məhdudlaşdırılması, tarazlıq və çəkindirmə sistemə əsasında hakimiyyət budaqlarının bir-birini kontrol etməsi və hakimiyyətdən sui-istifadənin, özbaşınalığın qarşısının alınmasında görürlər.

3-cü qrup təhqiqatçılar hakimiyyətlər bölgüsünü sadə əmək bölgüsü kimi xarakterizə edərək göstərirlər ki, bu prinsipin realizəsi dövlət orqanları arasında əmək bölgüsünə gətirib çıxarır ki, onun nəticəsində dövlət orqanlarının səmərəli fəaliyyəti təmin olunur (belə ki, hər bir orqan müəyyən bir hakimiyyət sahəsində ixtisaslaşır), son nəticədə orqanlarda yüksək peşəkarlığa müvafiq şərait yaranır.

Bir çox tədqiqatçılar kimi bizdə hesab edirik ki, hakimiyyət bölgüsü sadə əmək bölgüsü deyildir.

Hakimiyyətlər bölgüsündə: 1) ayrı-ayrı hakimiyyət budaqları bir-birindən asılı olmadan formalaşır; 2) hakimiyyət budaqları müstəqildir və bir-birinə tabe olmur; 3) hakimiyyət budaqları arasında tarazlıq və çəkindirmə sistemi olur.

Yuxarıda göstərilən əlamətlər hakimiyyətlər bölgüsünü sadə əmək bölgüsündən fərqləndirir.

Bu sualın izahı ilə bağlı 4-cü qrup təhqiqatçıların yanaşması mübahisə doğurur. Onların mülahizələrinə görə hakimiyyətlər bölgüsü əslində vahid dövlət hakimiyyəti funksiyalarının müxtəlif orqanlar arasında bölünməsidir. Zəminimizcə bu fikirlə qismən razılaşmaq olar.

Belə ki, yuxarıda qeyd olunduğu kimi dövlət hakimiyyətinin ümumi və xüsusi funksiyaları fərqləndirməlidir. Ümumi funksiyalar istənilər hakimiyyət, o cümlədən dövlət hakimiyyəti və onun hər bir qolu üçün xarakterikdir. Bura hakimiyyət xarakterli iradənin müəyyən edilməsi, onun icrası və mühafizəsi daxildir. Bu funksiyaların olmadığı halda hakimiyyətdən söhbət gedə bilməz. Dövlət hakimiyyətinin xüsusi funksiyaları qanunvericilik, icra-sərəncam və məhkəmə funksiyaları müxtəlif hakimiyyət subyektləri tərəfindən həyata keçirilir. Bu da öz növbəsində səmərəli dövlət hakimiyyəti mexanizminin təşkilini təmin edir.

Hakimiyyətlər bölgüsü mexanizminin pozitiv tərəfləri haqqında yuxarıda göstərdiyimiz tədqiqatçıların fikirlərini inkar etmədən hesab edirik ki, bu nəzəriyyənin əsas mahiyyəti xalq suverenliyinin təmin olunmasında təzahür edir. Belə ki, xalq suverenliyinin gerçəkləşməsi hər şeydən əvvəl dövlət hakimiyyətinin təşkili və realizəsindən asılıdır.

Hakimiyyətlər bölgüsü mexanizmini suverenliyin mənimsənilməsinə, hakimiyyətin xalqdan uzaqlaşmasına yol vermir, hakimiyyətdən xalqa qarşı istifadə edilməsi və ona zərər vurulması və xalqın iradəsinə zidd fəaliyyət

göstərməsini istisna edir. Hakimiyyətlər bölgüsü prinsipinin realizəsi nəticəsində dövlət hakimiyyətinin ali orqanları arasında daimi, fasiləsiz konstitusiya nəzarəti yaranır ki, bu da öz növbəsində hakimiyyətin mənimsənilməsinin qarşısını alır.

Yuxarıda qeyd olunanlardan başqa hakimiyyətlər bölgüsünün həyata keçirilməsi dövlət orqanları arasında əmək bölgüsünə gətirib çıxarır ki, onun nəticəsində dövlət orqanları səmərəli fəaliyyət göstərir (hər bir orqan müəyyən idarəçilik sahəsi üzrə ixtisaslaşır) bununla da xalq suverenliyi daha səmərəli təmin olunur.

Hakimiyyətlər bölgüsü nəzəriyyəsinin tədqiqi sahəsində mövcud olan problemlərdən biri də dövlət hakimiyyətinin vahidliyi və hakimiyyətlər bölgüsünün nisbəti sualıdır. Bu sualın prinsipial əhəmiyyətini nəzərə alaraq bəzi ölkələrin konstitusiyalarında "hakimiyyətlərin bölgüsü" termini ilə yanaşı "dövlət hakimiyyətinin vahidliyi" ifadəsi də birbaşa göstərilir. Bəzi tədqiqatçılar hesab edirlər ki, hakimiyyətlər bölgüsü dövlət hakimiyyətinin vahidliyi prinsipinə ziddir. Müasir nəzəri ədəbiyyatlarda hətta belə bir fikir də səslənir ki, əgər suveren hakimiyyət xalqa məxsusdursa o necə bölünə bilər? Bu cür düşünən tədqiqatçılar qeyd edirlər ki, hakimiyyətlər bölgüsü onların vahid dövlət hakimiyyətinin vəzifə və səlahiyyətlərinin müxtəlif dövlət orqanları arasında bölünməsi ifadəsi ilə əvəz olunmalıdır.

Yuxarıda səslənən mövqe ilə heç cür razılaşa bilmərik. Belə ki, birincisi, hakimiyyətlər bölgüsü xalqın suverenliyini əlindən almır, əksinə bu suverenliyin daha səmərəli təminat mexanizmi kimi çıxış edir. İkincisi, hakimiyyətlər bölgüsü heç də dövlət hakimiyyətinin üç dövlət hakimiyyətinə deyil, vahid dövlət hakimiyyətinin 3 budağa-qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinə bölünməsini ehtiva edir. Həmin hakimiyyət budaqları bir tərəfdən təcrid olunmuş

formada mövcud ola və fəaliyyət göstərə bilməz, digər tərəfdən isə onlar müstəqil olaraq hakimiyyət funksiyalarını həyata keçirir. Dövlət hakimiyyəti budaqlarına hakimiyyət xarakteri verilməsi onları gücləndirir və cəmiyyətdə nüfuzunu artırır, son nəticədə isə onlar öz vəzifə və funksiyalarını daha səmərəli həyata keçirir.

Siyasi və hüquqi təlimlər tarixində dövlət hakimiyyətinin bütövlüyünün zəruriliyinin ideoloji əsaslandırılması hakimiyyət bölgüsü nəzəriyyəsinin təşəkkül tapmasından xeyli əvvəl meydana gəlmişdir. Orta əsrlərdə İtaliyanı birləşmiş, güclü mərkəzləşdirilmiş bir dövlət kimi arzulayan Makiavelli "Hökmdar" əsərində vahid dövlət hakimiyyəti və Hökmdarın ali hakimiyyəti ideyasını nəzəri cəhətdən işləyib hazırlamışdır. Hər şeydən əvvəl italyan alimi dövlət hakimiyyətinin sekulyarlaşmasını və bütöv hakimiyyətin bir şəxsin Hökmdarın əlində birləşməsini təklif edir. N.Makiavellinin bu ideyaları XVI əsrdə fransız hüquqşünas alimi J.Bodenin dövlət suverenliyi doktrinasının yaranmasında müəyyən rol oynamışdır. Bodenə görə suverenlik vahiddir, bölünməzdir və heç bir sosial təbəqə, dövlət aparatının hissələri arasında bölünə bilməz. Buna görə də suverenlik ya krala, ya da ki, artistokratlara, xalqa mənsub ola bilər.

Suverenliyin bölünməzliyi haqqında Bodenin fikri ilə bizdə razıyıq. Lakin hakimiyyətlər bölgüsü heç də suverenliyin bölünməsi mənasını vermir. Demokratik rejimdə suverenlik xalqa məxsusdur. Hakimiyyətlər bölgüsü isə əksinə xalq suverenliyini təmin edir və xalqa məxsus olan suverenliyin mənimsənilməsinə yol vermir.

Yeni dövr tarixində dövlət hakimiyyətinin vahidliyi konsepsiyası görkəmli fransız alimi J.J.Russo tərəfindən inkişaf etdirilmişdir. Lakin Russoya görə mütləq hakimiyyət monarxa deyil, xalqa məxsusdur. Xalqın suverenliyi vahiddir, bölünməzdir və özgəninkiləşidirilə bilməz.

Hakimiyyətlər bölgüsü nəzəriyyəsini qəbul etməyən Russo "İctimai müqavilə əsərində dövlət orqanlarının funksiyalarının bölgüsünü qəbul edirdi.

Professor Çirkin yazır ki, dəyişilmiş formada olsa da, belə yanaşma həm liberal, həm də marksist ənənə tərəfindən əsas götürülmüşdür. Liberalların ənənəsində bu yanaşma konstitusiyalarda xalq hakimiyyətinin, suverenliyinin bəyan edilməsi ilə kifayətlənirdi. Marksizmə isə sinfi məna verilən xalq suverenliyinin təsdiqlənməsi ilə yanaşı, bütün dövlət hakimiyyətini öz əlində cəmləşdirə bilən orqanın axtarışı da həyata keçirilmişdi. Marksist-leninçi nəzəriyyə belə orqan kimi sonralar totalitar sosializm ölkələrinin konstitusiyalarında təsbit olunan sovetləri təklif etmişdir. (41,s.171). Zənnimizcə, professor Çirkin göstərmək istəyir ki, dövlət hakimiyyətinin vahidliyi prinsipi demokratik və qeyri demokratik rejimlərdə fərqləndirilməlidir.

Bu problemin təhlilinə keçməzdən öncə qeyd etməliyik ki, hər bir halda dövlət hakimiyyətinin vahidliyi sualı yalnız nəzəri deyil həm də böyük praktiki əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl dövlət hakimiyyətinin vahidliyi xalqın vahidliyini, suverenliyini təmin edir, qarşılıqlı əməkdaşlığı təmin edir, ziddiyyətlərin, münaqişələrin yaranmasına yol vermir, dövlət qərarlarının operativ həllini təmin edir; məsuliyyəti digər orqanların üzərinə atmaq imkanlarını istisna edir. Bütün bunlarla yanaşı bütöv hakimiyyətin bir şəxsin və yaxud orqanın əlində birləşməsinin çatışmayan tərəfləri də mövcuddur. Belə ki, bütün hakimiyyəti əlində birləşdirən orqan kontrolsuz qalır hakimiyyətin mənbəyi sayılan xalqın nəzarətindən uzaqlaşır. İstənilən halda dövlət hakimiyyətinin vahidliyi obyektiv zərurətdir və bu ideya heç bir zaman inkar oluna bilməz. Siyasi-hüquqi təcrübədə dövlət hakimiyyətinin vahidliyi ideyası müxtəlif cür başa düşülərək realizə olunmuşdur. Məsələn, dövlət hakimiyyətinin iyerarxiya üsulu ilə təmin

olunması aşağıdan yuxarıyadək dövlət orqanlarının bir-birinə tabeçilik sisteminin yaradılmasını nəzərdə tutur. Müasir dövrdə bu sistem dövlət hakimiyyətinin təşkilinin qeyri təkmil forması kimi qiymətləndirilir. Belə ki, icra hakimiyyəti sistemində bu cür iyerarxiya strukturunun yaradılması mümkündür və demək olar ki, zəruridir. Lakin, bütöv dövlət hakimiyyəti mexanizmində belə bir sistemin təşkili müasir demokratiyaya uyğun gəlmir.

Hakimiyyət budaqlarından hər hansı birinə üstünlük verilməsi yolu ilə hakimiyyətin vahidliyinin təmin olunması ingilis burjua ideoloqu C.Lokun görüşlərinə əsaslanır. Dövlət hakimiyyəti sistemində qanunvericilik, icra və federativ hakimiyyət budaqlarını fərqləndirən C.Lok hakimiyyətin vahidliyini qoruyub saxlamaq üçün icra və federativ hakimiyyətlərin qanunvericilik hakimiyyətinə tabe olması ideyasını əsaslandırmağa çalışırdı. Bu sistem hazırda parlamentli idarəetmə formalarında öz praktiki tətbiqini tapır.

Dövlət hakimiyyətinin vahidliyini təmin edən və müasir dövrdə kifayət qədər geniş yayılan üsullardan biri də dövlət hakimiyyəti budaqları arasında elə bir tarazlıq, nəzarət və çəkindirmə sisteminin yaradılmasını ehtiva edir ki, burada bir tərəfdən hakimiyyət budaqlarının bərabərliyi və müstəqilliyi, digər tərəfdən isə onların sıx əlaqəsi və birgə əməkdaşlığı təmin olunur. Bu formada dövlət hakimiyyətinin vahidliyinin təmin olunması ideyası fransız alimi Ş.L.Monteskye tərəfindən "Qanunların ruhu" əsərində əsaslandırılmışdır.

Biz hesab edirik ki, xalq suverenliyi, dövlət hakimiyyətinin vahidliyi və hakimiyyətlər bölgüsü prinsipləri prezidentli respublika dövlət idarəçiliyi formasında daha dəqiq və səmərəli təmin olunur.

Müasir parlamentli və prezidentli dövlət idarəçiliyi formalarının müqayisəli təhlili onu göstərir ki, parlament

idarəçilik formasında hökumətin tərkibinin formalaşdırılması prosesində müəyyən qədər dövlət başçısının səlahiyyətləri formal xarakter daşıyır. Belə ki, konstitusion adətlərə görə dövlət başçısı kabinet üzvlərini təyin edərkən öz seçimini parlamentdə çoxluq təşkil edən partiya nümayəndələrinə yönəltməlidir. Bununla yanaşı qeyd olunmalıdır ki, partiya üzvlərindən təyin olunan hökumət nümayəndəsi hüquqi cəhətdən partiya qərarları ilə bağlı deyildir. Burada faktiki olaraq Nazirlər Kabineti parlamentdə çoxluq təşkil edən partiya fraksiyasının rəhbər orqanı funksiyasını yerinə yetirir. Baş Nair isə adətən çoxluq təşkil edən partiyanın lideri olur. Parlament üzvlərindən təşkil olunduğundan hökumət tutduğu siyasi kursa görə parlament qarşısında kollektiv məsuliyyət daşıyır.

Beləliklə, parlamentli idarəçilik formasında Nazirlər Kabineti qanunvericilik və icra hakimiyyətini birləşdirir., dövlətin daxili və xarici siyasətində mühüm siyasi qərarlar qəbul edir.

Yuxarıda göstərilən misaldan göründüyü kimi parlamentli idarəçilik formasında tətbiq olunan hakimiyyətlər bölgüsü modeli qeyri-dəqiqliyi ilə səciyyələnir və xalq suverenliyi prinsipi ilə uzlaşmır. Çünki, dövlət hakimiyyəti budaqlarından hər hansı birinə üstünlük verilməsi xalq suverenliyi prinsipinə uyğun gəlmir. Xalq suverenliyinə görə hakimiyyət budaqları bərabər, eyni dərəcədə xalqı təmsil edir.

Prezidentli Respublika üçün isə hakimiyyət budaqlarının müstəqilliyi və formal bərabərliyi xarakterikdir. Hakimiyyət budaqlarının hüquqi bərabərliyi öz ifadəsini hakimiyyət budaqları arasında funksiyaların və səlahiyyətlərin dəqiq bölgüsündə tapır. Burada parlament idarəçiliyi formasından fərqli olaraq icra hakimiyyətinin hüquqi müstəqilliyi də müəyyən olunur.

Məsələn, icra hakimiyyəti orqanları parlamentdən kənar formalaşır, hökumətin parlament qarşısında məsuliyyəti müəyyən olunmur. Parlament hökumətə etimadsızlıq göstərsə də belə, onu istefa göndərə bilməz. Prezidentli idarəçilik formasında bir şəxs iki və artıq hakimiyyət budağında təmsil oluna bilməz. Bütün bunlarla yanaşı prezidentli respublikada hakimiyyət budaqları arasında qarşılıqlı əlaqənin, koordinasiyanın təmin edilməsi, konfliktlərin aradan qaldırılması problemləri yarana bilər ki, bu da dövlət hakimiyyətinin vahidliyinə mənfi təsir göstərə bilər. Bu cür problemlərin aradan qaldırılmasında Dövlət başçısı institutu mühüm rol oynayır. Tarixi təcrübə göstərir ki, siyasi plüralizm əsasında fəaliyyət göstərən parlamentə nisbətən təkbaşçılıq prinsipi əsasında fəaliyyət göstərən Dövlət başçısı institutu bu və ya digər problemləri operativ həll edərək dövlət hakimiyyətinin bütövlüyünü daha keyfiyyətli təmin edir.

Müasir konstitusiya hüququ elmində hakimiyyətlər bölgüsü nəzəriyyəsinə aid mübahisə olunan suallardan biri də hakimiyyət budaqlarının sayı ilə bağlıdır.

Hakimiyyətlər bölgüsü sistemində hakimiyyət qollarının sayı ilə bağlı fikir müxtəlifliyi siyasi və hüquqi təlimlər tarixində yenilik deyildir.

Yeni dövr tarixinin elm nümayəndələri dövlət hakimiyyəti funksiyalarının obyektiv bölgüsü haqqında olan baxışlarına uyğun dövlət hakimiyyətinin subyektiv bölgüsünü izah edirdilər.

Dövlət hakimiyyətinin obyektiv bölgüsü haqqında məsələ isə həmin dövrün hüquq elmində müxtəlif olduğundan burada dövlət hakimiyyətinin iki və yaxud üç qola bölünməsi fikirləri səsləndirilirdi. Bu sahədə nəzəriyyəçi-hüquqşünaslar arasında olan əsas fikir ayrılığı aşağıdakılardan ibarətdir. Hamısı bərabər olaraq etiraf edir ki, dövlət hakimiyyətinin təzahür formaları arasında

qanunvericilik birinci yerdədir, lakin sonra fikirlər ayrılır: bəzi alimlər qanunvericilikdən başqa icra və məhkəmə hakimiyyətlərinin mövcudluğunu bildirir (üç üzvlü təsnifat), digərləri icra və məhkəmə fəaliyyətini ümumi anlayış olan-qanunların icrasına aid edir və beləliklə hakimiyyətin üç deyil, iki funksiyasını fərqləndirirlər: qanunvericilik və icra (iki üzvlü təsnifat). Sonuncu fikrin tərəfdarları icra və məhkəmə arasında mühüm hüquqi fərqin olmasını inkar etmir, lakin burada onlar dövlətin fəaliyyət formalarının əsas təsnifatı üçün deyil, icra funksiyalarının bölgüsü üçün əsas götürürlər. İki üzvlü təsnifatın ən məşhur tərəfdarı Russo olmuşdur. J.J.Russonun təlimində dövlət hakimiyyəti funksiyalarının obyektiv bölgüsü nizamlı və ardıcıl şəkildə subyektiv bölgü ilə birləşirdi. Bu təsnifat baxımında dövlət hakimiyyətinin iki əsas funksiyası var: qanunvericilik, yəni obyektiv hüquq normlarının təyin edilməsi və sözün geniş mənasında icrası, yəni konkret həyatı vəziyyətlərdə bu normaların tətbiqi. Lakin sonradan İngilis alimi Con Lokk göstərilən iki hakimiyyətdən başqa federativ adlandırıldığı üçüncü hakimiyyəti də göstərir. Bu hakimiyyət müharibə elan etmək, xarici dövlətlərlə danışıqlar aparmaq, sülh bağlamaq, ümumiyyətlə beynəlxalq siyasəti qurmaq ixtiyarına malik olduğuna görə icra hakimiyyətindən fərqlidir və bununla yanaşı bir orqanın əlində cəmləşməlidir, çünki bu hakimiyyətlər dövlətin fiziki qüvvəsinin tətbiq edilməsini tələb edir. Nəhaəyət, Lokun fikrincə, daimi qüvvədə olan icra hakimiyyəti orqanı qanunları icra etməklə yanaşı cəmiyyətin və onun ayrı-ayrı üzvlərinin qorunması üçün qanunla nəzərdə tutulmayan hallarda, son zərurət hallarında isə qanunlara zidd olaraq, lazımi tədbirlər görməlidir. Həmin orqan qanunverici yığıncağı çağırır və buraxır. Lokk bu səlahiyyətləri icra hakimiyyətindən xüsusi bir maddi funksiya kimi fərqləndirərək İngilis pozitiv hüququndan götürülmüş "preroqativa" termini ilə

adlandırmışdır. Beləliklə, Lokkun təlimində dörd hakimiyyət meydana gəlir: qanunverici, icra, federativ və preroqativ hakimiyyəti. Lakin digərlərindən formal olaraq qanunverici hakimiyyət fərqləndirilmişdir; qalan üç hakimiyyət isə bir orqanın əlində cəmləşir.

Məhkəmə hakimiyyəti haqqında Lokk heç nə vurğulamır, onun təsnifatında məhkəmənin yeri ümumiyyətlə aydın deyil. Bəzi şərqçilərin fikrincə Lokk iki üzvlü təsnifatın tərəfindən kimi məhkəmə fəaliyyətini qanunların icrası anlayışına aid edir, digərləri isə (məs., Esmen kimi) hakimlər barədə Lokkun qeydlərinə arxalanaraq belə qənaətə gəlirlər ki, o məhkəməni qanunverici hakimiyyətin bir qolu kimi nəzərdən keçirir.

Üç üzvlü təsnifatın rüşeymlərin biz hələ Aristotelin əsərlərində görə bilərik, lakin hüquq elmində bu təsnifat Monteskye tərəfindən yayılmış və hakim mövqe tutmuşdur. Əksəriyyət hüquqşünasların tərəfdarı olduğu bu təlimə görə dövlət hakimiyyətinin iki deyil, üç əsas funksiyalarını fərqləndirmək lazımdır:

1) Obyektiv hüquq normalarının təsis edilməsi (qanunvericiliklə);

2) Bu normalardan irəli gələn subyektiv hüquq və vəzifələrin həyata keçirilməsi (idarəetmə);

3) Hüquq normalarının pozulmasından müdafiəsi (məhkəmə).

Həmin üç funksiyaya dövlətin üç cür aktı da uyğun gəlir: qanun, hökumət aktı və məhkəmə hökmü.

Beləliklə, hər iki təsnifat arasındakı fərq onların məhkəmə hakimiyyətinə fərqli baxışından ibarətdir. Bəzi hüquqşünasların fikrincə hökumət və məhkəmə arasındakı fərq, bu funksiyaların qanunvericiliklə olan fərqi kimi nuhum və dərindir. Digərləri isə güman edir ki, bu fərq qanunvericiliyin digər funksiyalarından fərqi ilə müqayisədə ikinci dərəcəli xarakter daşıyır.

Zənnimizcə üç üzvlü təsnifatı daha düzgün hesab etmək lazımdır. Öz təbiətinə görə məhkəmə hakimiyyəti əsaslı şəkildə icra hakimiyyətindən fərqlənir. Idarəetmə aktlarının köməyi ilə dövlət obyektiv hüquq normaları əsasında özü ilə fiziki və hüquqi şəxslər arasında konkret hüquqi münasibətlər qurur: eyni ilə özəl şəxslər xüsusi hüquq sahəsində etdiyi kimi. Düzdür, bu barədə dövlətlə özəl şəxs arasında bir fərq var ki, o, hakimiyyət sahibi kimi şəxsdən fərqli olaraq obyektiv hüquqla qabaqcadan müəyyən edilməyən və razılaşma olmadan bir tərəfli iradəsi ilə digərlərinin üzərinə vəzifələr qoya bilər. Lakin bu fərqlə yanaşı, dövlətin hökumət aktları mülki hüquqda fiziki şəxslərin hüquqi aktları ilə ("şəxsi-hüquqi əqdlər") o, baxımdan analojidir ki, hər ikisi obyektiv hüquq hüdudları və əsasında konkret subyektiv hüquq və vəzifələri müəyyən edirlər. Məhkəmə hakimiyyətinin aktı olan hökmlər tamamilə fərqli xarakter daşıyırlar. Məhkəmə hökmü heç bir yeni hüquqi münasibət yaratmır və yalnız məhkəmə prosesi vasitəsilə artıq mövcud olan hüquqi münasibətləri konstatasiya edir və tanıyır, zəruri halda məsələ ilə əlaqədar konkret vəzifələrin (məsələlərin) icrası üçün məcburetmə tədbirlərinin görülməsinə dair dövlətin icra orqanlarına göstərişlər verir.

Bizə məlum oldu ki, Lokk icra hakimiyyətinin tərkibində sözün dar mənasında icra hakimiyyətini, yəni konkret hallarda dair qanunların tətbiqini və "preroqativi"-və yaxud qanun hüdudlarında hökumətin azad fəaliyyətini fərqləndirirdi. Monteskye bu iki funksiyanı vahid icra hakimiyyəti anlayışında birləşdirir. Lakin onun bəzi davamçıları Lokkun ideyasını yeni formada bərpa etməklə Monteskyenin üç hakimiyyətinə dördüncü hakimiyyəti əlavə etməklə hakimiyyətlərin bölgüsü nəzəriyyəsinə əlavələr etməyə cəhd etmişlər. Onlar icra hakimiyyətinin daşıyıcısı kimi monarxı deyil, nazirləri qəbul edirdilər, monarxa isə

xüsusi “barışdırıcı” və yaxud “bərabələşdirən” hakimiyyəti aid edirlər. Onların fikrincə, bu hakimiyyətin təyinatı digər hakimiyyətlərin fəaliyyətini tənzimləmək onların tarazlığını təmin etmək və aralarında yarana bilən qarşılılı münaqişələri həll etməkdən ibarətdir. Barışdırıcı hakimiyyət haqqında təlimin görkəmli nümayəndəsi olan Benjamen Konstant onun mövcudluğunu təsdiq etmək üçün monarxın digər dövlət orqanlarına təsir etməsi ilə öz fəaliyyət sahələrindən kənara çıxmasına mane olan səlahiyyətlərini misal gətirir. Bura monarxın nazirləri təyin etmək və istefaya göndərmək, aşağı palatanı buraxmaq, yuxarı palataya yeni üzvləri daxil etmək və yaxud yüngülləşdirmək hüququnu aid etmək olar. Nazirliklər, palatalar və məhkəmələr öz hərəkəti ilə dövlət həyatının ahəngini pozduqda monarx həmin hakimiyyətə təsir etməklə pozulmuş vəhdəti bərpa edir.

“Barışdırcı” hakimiyyət barədə təlim iki motivdən irəli gəlir. Birincisi, bu təlimin tərəfdarları Monteskyenin nəzəriyyəsində boşluq görürdülər, yəni bir-birindən müstəqil olan bir neçə hakimiyyət müəyyən edərkən onlar arasındakı toqquşmaların hüquqi həlli üçün heç bir yol və üsul göstərilməmişdir. İkincisi, parlamentarizmin yarandığı ilk dövrlərdə dövlət həyatına müşahidə edərkən, onlar aşkar etdi ki, monarxın hərəkətlərinə görə nazirlərin məsuliyyət daşıması səbəbindən icra hakimiyyəti səlahiyyətlərinin çox hissəsi faktiki olaraq nazirliklərin əlinə keçmiş olur. Lakin bu zaman onlar düşünürdü ki, dövlət fəaliyyətinin birliyinə xidmət edən məlum səlahiyyətlər yenə də monarxın şəxsi fəaliyyəti sahəsində qalmış olur.

Dövlət hakimiyyəti qollarının sayı ilə bağlı mübahisələr bu gün də davam edir.

Müasir elmdə belə bir fikirlər mövcuddur ki, ənənəvi hakimiyyətlər bölgüsü sistemi müasir dövrün inkişaf səviyyəsinə uyğun gəlmir. Bu onunla bağlıdır ki, dövlətin qarşısında yaranan vəzifələr daim çoxalır, dövlət

orqanlarının sayı və səlahiyyətləri artır, bu orqanlar arasında qarşılıqlı əlaqələr daha mürəkkəb xarakter alır. Eyni zamanda göstərilir ki, müasir dövrdə yeni dövlət orqanları: konstitusiya nəzarəti, prokurorluq, seçki orqanları, Mərkəzi Bank və s. yaranır ki, onlar da ənənəvi hakimiyyət budaqlarına uyğun gəlmir. Bunun nəticəsi kimi hüquq ədəbiyyatlarda yeni hakimiyyət qollarının təsisedici hakimiyyət, prezident hakimiyyəti, seçki hakimiyyəti, nəzarət hakimiyyəti və s. yaradılması təklifləri irəli sürülür.

Professor Çirkin qeyd edir ki, bəzi müasir konstitusiyalarda hakimiyyət bölgüsü üçlüyü müəyyən dəyişiklik və əlavələrə məruz qalmışdır. Bir sıra latın Amerikası ölkələrinin konstitusiya doktrinasında (məs. Nikaraqua 1987-ci il, Kolumbiyanın 1991-ci il, Braziliyanın 1988 konstitusiyaları və s.) dördüncü hakimiyyəti-seçki hakimiyyətini də fərqləndirir. Hakimiyyətin bu qolu öz təşkilati ifadəsini xüsusi seçki tribunallarının yaradılmasında tapmışdır. Onlar dövlət orqanlarına seçkilər barədə mübahisələrə də baxır. Professor Çirkin həmçinin göstərir ki, nəzəri ədəbiyyatda dördüncü hakimiyyətin başqa bir növünün-təsisedici hakimiyyətin olması haqqında da qeyd olunur. Bu hakimiyyət xalqın bilavasitə və ya xüsusi müəssisələr məclisi yaratmaq yolu ilə konstitusiyanı qəbul etmək və bununla da dövlətin təşkilinin əsaslarını müəyyən etmək hüququ kimi başa düşülür (41,s. 166).

Müasir elmdə yeni təkliflərdən biri də dördüncü hakimiyyət budağı kimi-"nəzarət hakimiyyəti"nin yaradılması fikridir. Bu hakimiyyət budağına Konstitusiya Məhkəməsi, prokurorluq, parlamentin hesablama palatası, seçki komissiyaları, İnsan hüquqları üzrə müvəkkil, Mərkəzi Bank aid edilir. Bu cür təklif irəli sürən alimlər qeyd edirlər ki, yuxarıda göstərilən orqanların bir hakimiyyət qolunda birləşdirilməsi meyarı kimi onların nəzarət funksiyasına

malik olmasıdır. Özü də bu funksiya həmin orqanlar üçün əlavə deyil, əsasdır.

Fransa alimləri arasında geniş yayılan konsepsiya 4-cü hakimiyyət qolu kimi prezident hakimiyyətinin yaradılmasını ehtiva edir. Bu konsepsiya Prezidenti icra hakimiyyətindən ayırır və ona hakimiyyətlər bölgüsü mexanizimində arbitr rolunu həvalə edir. Fransanın 1958-ci il konstitusiyasında belə bir müddəaya rast gəlmək olar: ".... Prezident arbitraj yolu ilə hakimiyyət qanadlarının normal fəaliyyətini təmin edir. Bu cür normaya Ruminiya və digər ölkələrin də konstitusiyalarında görmək olar.

Heç bir hakimiyyət budağına aid etmək mümkün olmayan orqanların mövcudluğu elmdə dövlət hakimiyyəti orqanları və dövlət orqanları anlayışlarının yaranmasına səbəb olmuşdur. Burada qeyd olunur ki, dövlət orqanlarından fərqli olaraq dövlət hakimiyyəti orqanlarının səlahiyyətləri hakimiyyət xarakterlidir. Biz bu fikirlə razılaşmırıq belə ki, bütün dövlət orqanları dövlətin vəzifə və funksiyalarını həyata keçirir və bunun umun onlar hakimiyyət səlahiyyətlərinə malik olmalıdırlar. Digər tərəfdən belə hesab edirik hakimiyyətlər bölgüsü sistemindən kənar orqanların yaradılması və hakimiyyət budaqları ilə paralel fəaliyyət göstərməsi hakimiyyətlər bölgüsü sisteminin zəruri elementi olan tarazlıq, çəkindirmə və səmərəli nəzarət sistemindın kənarda qalmasına səbəb ola bilər.

Yuxarıda qeyd olunduğu kimi müasir elmdə hakimiyyət budaqlarının sayı ilə bağlı yeni fikirlərin yaranmasına baxmayaraq hesab edirik ki, vahid dövlət hakimiyyətinin üç nisbətən sahələrə ayrılması daha rasionaldır, belə ki, bu sistem daxilində hakimiyyət orqanlarının yaradılması və təkmilləşdirilməsi daha səmərəli ola bilər. Bundan başqa yuxarıda səslənən fikirlər heç də mübahisəsiz, birmənalı əsaslı sayıla bilməz.

Yuxarıda üç hakimiyyət qolu ilə yanaşı dördüncü hakimiyyət qolu kimi təsisedici hakimiyyətin yaradılması təklif olunur. Zənnimizcə, bu cür təklif məqbul sayıla bilməz. Belə ki, təsisedici hakimiyyət-suverenə, yəni xalqa məxsusdur. Xalq qəbul etdiyi konstitusiya vasitəsilə təsisedici hakimiyyəti həyata keçirir, öz nümayəndəli orqanlarını yaradır. Digər tərəfdən dövlət hakimiyyətinin üç qolu xalq hakimiyyətinin əsas formalarıdır. Prezident hakimiyyəti kimi 4-cü hakimiyyət budağının yaradılmasına gəldikdə isə düşünürük ki, birincisi prezidentli respublikada artıq belə bir hakimiyyət budağı mövcuddur. Prezidentdə mənsub olan icra hakimiyyəti əslində prezident hakimiyyətdir, ikincisi, prezidentin dövlət başçısı statusuna gəldikdə isə o, hakimiyyətlər bölgüsü sistemində dövlət hakimiyyətinin vahidliyini təmin edən mühüm institut olur.

Müasir elmdə daha geniş polemika yaradan sual-"nəzarət hakimiyyəti" qolunun yaradılmasıdır. Bu hakimiyyət budağına aid edilən orqanları xarakterizə etməzdən öncə qeyd edək ki, dövlət nəzarəti bütün dövlət orqanlarının nəzarət funksiyalarını ehtiva edir. Dövlət hakimiyyətinin ümumim funksiyası kimi nəzarət müxtəlif səviyyələrdə həyata keçirilir: hakimiyyət qolları arasında qarşılıqlı nəzarət; hakimiyyət qolu daxilində-sahəvi nəzarət (məsələn, yuxarı orqanların aşağı orqanlar üzərində nəzarət); xarici-qeyri sahəvi nəzarət (məsələn konstitusiya məhkəmə nəzarəti, Hesablama Palatası tərəfindən nəzarət və s.). Müasir dövlət nəzarətinin əsas məqsədi hakimiyyətlər bölgüsü mexanizimində tarazlıq və çəkindirmə sisteminin, hakimiyyət qollarının müstəqilliyinin təmin edilməsi, hakimiyyət subyektləri tərəfindən səlahiyyət həddini aşmağa yol verilməsi.

Yuxarıda qeyd olunanlar onu göstərir ki, nəzarət fəaliyyəti universal xarakter daşıyır və hər bir dövlət orqanı üçün xarakterikdir. Əsas funksiyası nəzarət xarakter daşıyan

dövlət orqanlarına gəldikdə isə bu orqanların fərqli tərəflərinə baxmayaraq hakimiyyətlər bölgüsü sistemində onları funksional vəhdət (kontrol, nəzarət və müşahidə) birləşdirir. Lakin bu vəziyyət həmin orqanları mövcud hakimiyyət qollarından ayırıb yeni dördüncü hakimiyyət budağında birləşdirməsi zənnimizcə kifayət qədər əsaslı deyil. Məsələn, prokurorluq orqanları, konkret dövlət hüquq mühafizə sistemindən asılı olaraq, məhkəmə və yaxud icra hakimiyyəti qoluna aid ola bilər. Hesablama palatası isə Qanunvericilik hakimiyyətini həyata keçirən Palatanın strukturu orqanıdır, Mərkəzi Banka publik hüquqi şəxs statusu verilmişdir .

Konstitusiya quruculuğu sahəsində hakimiyyətlər bölgüsü konsepsiyasını qəbul etmiş demokratik dövlətlərin tarixi təcrübəsi onu göstərir ki, müəyyən hallarda məsələn, müharibə şəraitində, sosial-iqtisadi, siyasi böhran vəziyyətində hakimiyyətlər bölgüsü mexanizmi qeyri səmərəli ola bilər. Avropa ölkələrinin siyasi-hüquqi inkişaf təcrübəsi göstərir ki, bu cür vəziyyətdə onlar hakimiyyətlər bölgüsündən imtina etmiş və hakimiyyət bir orqanın əlində birləşmişdir.

Hesab edirik yuxarıda göstərilən problemlərin həlli güclü dövlət başçısı institutunun yaradılmasını zəruri edir. Təkbaşçılıq prinsipi əsasında fəaliyyət göstərən Dövlət başçısı institutu həmin problemləri daha effektli həll etmək imkanına malikdir. Lakin, dövlət başçısının bu cür fövqəladə səlahiyyətləri, zənnimizcə, konstitusiya ilə tənzimlənməlidir (məsələn, parlamentin işinin müvəqqəti dayandırılması və yaxud parlamentin buraxılması; Dövlət başçısı tərəfindən yeni hüquq normalarının yaradılması və s.)

Bu mövzuda digər aktual problemlərdən biri də hakimiyyətlər bölgüsünün konstitusiya tənzimidir.

Ayrı-ayrı demokratik, hüquqi dövlətlərin təcrübəsi göstərir ki, hakimiyyətlər bölgüsünün konstitusiya tənzimi müxtəlif formalarda həyata keçirilir.

Konstitusiya səviyyəsində hakimiyyətlər bölgüsünü qəbul etmiş ilk ölkələrdən biri Amerika Birləşmiş Ştatları hesab olunur. ABŞ Konstitusiyasında konseptual formada dövlət hakimiyyətinin hakimiyyətlər bölgüsü prinsipinə əsaslanması ifadəsinə rast gəlinmir. Burada dövlət hakimiyyəti orqanlarının (konqres, prezident, məhkəmələr) səlahiyyətlərinin bölgüsü aparılır və beləliklə hakimiyyətin təşkilatı-hüquqi əlamətə görə bölünməsi təsbit olunur. ABŞ Konstitusiyasının 1-ci maddəsi qanunverici hakimiyyəti adlanır. Burada qanunvericilik səlahiyyətləri senat və nümayəndələr palatasından ibarət olan konqresə verilmişdir, 2-ci maddə-icra hakimiyyəti adlanır və burada qeyd olunur ki, icra hakimiyyəti ABŞ prezidentinə mənsubdur, məhkəmə hakimiyyəti adlanan 3-cü maddə də isə göstərilir ki. Birləşmiş Ştatların məhkəmə səlahiyyəti Ali Məhkəmə və konqresin vaxtaşırı təsis edə biləcəyi aşağı məhkəmələrə verilmişdir. Təxmini oxşar hüquqi tənzimetmə üsuluna Fransanın Konstitusiyasında rast gəlmək olar. Burada konseptual şəkildə hakimiyyətlər bölgüsü prinsipinin qəbul edilməsi göstərilir, lakin konstitusiyanın ayrı-ayrı hissələrində qanunvericilik, icra və məhkəmə səlahiyyətlərinin müxtəlif orqanlar arasında bölünməsini müşahidə edə bilərik.

Bir neçə fərqli formada bu məsələ Almaniyanın və Türkiyənin Konstitusiyalarında öz hüquqi tənzimini tapır. Bu ölkələrin əsas qanununda birbaşa 3 hakimiyyət qolunun təşkil olunması barədə ifadəyə rast gəlmək olar. Məsələn, Almaniya Federativ Respublikası 1-ci bölməsində konkret olaraq 20-ci maddə də ümumi qeyd olunur ki, xalq öz suverenliyini seçkilər və plebisitlər yolu ilə qanunvericilik,

Icra və məhkəmə səlahiyyətləri olan xüsusi orqanlar vasitəsilə həyata keçirir.

Bu konstitusiyanın digər bölmələrində isə həmin orqanların səlahiyyətləri təsbit olunur.

Türkiyə Cümhuriyyəti Konstitusiyasının ayrı-ayrı maddələrində isə qeyd olunur ki, qanunvericilik səlahiyyəti Türk Milləti adından Böyük Millət Məclisinə məxsusdur (mad.7), icra səlahiyyəti və vəzifəsi Cümhur başkanı və Bakanlar Şurası tərəfindən həyata keçirilir (mad.8), mühakimə səlahiyyəti, Türk Milləti adından müstəqil məhkəmələr həyata keçirir. Bu konstitusiyanın digər hissələrində həmin orqanların təşkili qaydaları və səlahiyyətləri müəyyən olunur. Zənnimizcə, Türkiyə Konstitusiyası hakimiyyət və səlahiyyət anlayışlarını eyniləşdirir ki, bunu da düzgün qiymətləndirmək olmaz. Hakimiyyət və səlahiyyət terminləri fərqli anlayışlardı.

Hakimiyyətlər bölgüsü mexanizminin hüquqi tənzimi kontekstində Fransız Konstitusiyasının aşağıdakı norması xüsusi maraq doğurur. Burada deyilir ki, Respublika Prezidenti Konstitusiyaya hörmət və itaət olunmasına nəzarət edir, öz münsifliyi ilə dövlət orqanlarının normal fəaliyyətini. Habelə dövlətin varisliyini təmin edir. Bu normanın interpretasiyası əsasında qeyd etmək olar ki, Fransa Prezidenti hakimiyyət qolları arasında yaranan mübahisələri həll edir.

Braziliya Konstitusiyasının 1-ci maddəsində qeyd olunur ki, xalq hakimiyyəti konstitusiyasının tələblərinə uyğun olaraq seçkili nümayəndələr və bilavasitə həyata keçirilir, 2-ci maddəyə görə qanunvericilik, icra və məhkəmə hakimiyyəti müstəqil və bir-birilə harmoniya vəziyyətində olan hakimiyyət budaqlarıdır.

Postsovet ölkələrinin konstitusiyalarında hakimiyyətlər bölgüsünün hüquqi tənzimi özünəməxsusluğu

ilə seçilir. Bu dövlətlərin əksəriyyətində konkret normalarda, ümumi formada müəyyən fərqlərlə dövlət hakimiyyətinin təşkilinin əsas prinsipi kimi hakimiyyətlər bölgüsü bəyan edilir.

Məsələn, Belarus Respublikasının Konstitusuyasında deyilir ki, Belarus Respublikasında dövlət hakimiyyəti qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinə bölünməsi əsasında həyata keçirilir. Dövlət orqanları öz səlahiyyətləri daxilində müstəqildirlər və onlar tarazlıq və çəkindirmə əsasında bir-biri ilə əməkdaşlıq edir (91,s. 135). Zənnimizcə, Belarus Konstitusiyası dövlət hakimiyyətini dövlət orqanları sistemi ilə eyniləşdirir ki, bunu da biz düzgün mövqe hesab etmirik.

Daha düzgün olardı ki, burada dövlət orqanları termini hakimiyyət qolları termini ilə əvəz edilsin.

Qazaxıstan Respublikası Konstitusiyasının 3-cü maddəsində deyilir ki, Respublikada hakimiyyət vahiddir və o Konstitusiya və qanunlara uyğun, hakimiyyətin qanunvericilik, icra və məhkəmə budaqlarına bölünməsi, qarşılıqlı əməkdaşlıq, tarazlıq və çəkindirmə sistemindən istifadə əsasında fəaliyyət göstərir (91,s. 228). Bu konstitusiyanın digər 40-cı maddəsində isə göstərilir ki, Respublika prezidenti hakimiyyət budaqlarının birgə fəaliyyətini və hakimiyyət orqanlarının xalq qarşısında məsuliyyətini təmin edir (91,s. 237).

Qazaxıstan Konstitusiyasında bu cür normaların olmasını müsbət qiymətləndiririk. Birincisi ona görə ki, əgər konstitusiyada ümumi formada hakimiyyətin bölünməsi prinsipi bəyan olunursa, hakimiyyətin vahidliyi və bu vahidliyi təmin edən ali orqanın məsuliyyəti də müəyyən olunmalıdır.

Rusiya Federasiyası Konstitusiyasının 10-cu maddəsinə görə Rusiya Federasiyasında dövlət hakimiyyəti qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölünməsi

əsasında həyata keçirilir. Qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları müstəqildir. Bu konstitusiyanın 11-ci maddəsində isə deyilir ki, Rusiya Federasiyasında dövlət hakimiyyətini Prezident, Federal Məclis və məhkəmələr həyata keçirir (91,s. 358).

Hesab edirik, 11-ci maddənin norması dövlət hakimiyyəti subyektlərinin dairəsini əsassız məhdudlaşdırır.

Baltikyanı dövlətlərin konstitusiyalarında, Estoniya Respublikası istisna olmaqla, hakimiyyətlər bölgüsü mexanizminin tənzimi müəyyən qədər Qərbi Avropa ölkələrinin təcrübəsinə yaxındır.

Latvia və Litva Respublikasının konstitusiyalarında hakimiyyətlər bölgüsü termini istifadə olunmur. Lakin bu konstitusiyaların interpretasiyasl əsasında belə bir nəticəyə gəlmək olar ki, həmin dövlətlərdə parlamentli respublika idarəçilik forması qəbul edilmişdir və qanunvericilik hakimiyyətini parlament, icra hakimiyyətimi nazirlər kabineti, məhkəmə hakimiyyətini məhkəmələr həyata keçirir. Hər iki ölkədə İtaliya və Türkiyə Respublikalarında olduğu kimi Nazirlər Kabinetinin üzvləri Parlamentin üzvü ola bilər və yaxud onun işində iştirak edə bilər.

Latviya konstitusiyasından fərqli olaraq, Litvanın əsas qanununda belə bir müddəaya rast gəlmək olar: "Litvada dövlət hakimiyyətini Seym, Respublika Prezidenti, Hökumət, Məhkəmələr həyata keçirir" (91,s. 583).

Düşünürük ki, Litva Konstitusiyası Rusiya Federasiyasının əsas qanununda olduğu kimi dövlət hakimiyyəti subyektlərinin dairəsini əsassız olaraq məhdudlaşdırır. Belə ki, bu ölkələrin konstitusiyalarında göstərilən subyektlərdən başqa dövlət hakimiyyətini elektorat, mərkəzi və yerli icra hakimiyyəti orqanları, müəyyən hallarda bələdiyyələr və s. subyektlər həyata keçirir.

Bu sualın hüquqi tənzimində Azərbaycan Respublikası Konstitusiyasının müsbət təcrübəsini göstərmək olar. Dövlətimizin əsas qanununda qeyd olunur ki, Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətinin bölünməsi prinsipi əsasında təşkil edilir:

- Qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Mili Məclisi həyata keçirir;
- İcra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir (mad.7).

Hesab edirik hakimiyyətlər bölgüsünün bu formada ifadə olunması daha düzgündür və dövlət hakimiyyəti subyektlərinin dairəsini məhdudlaşdırmır. Konstitusiyamızda qeyd olunana icra hakimiyyəti - Prezidentə mənsubdur termini həmçinin bu hakimiyyətin digər subyektlər tərəfindən həyata keçirilməsini inkar etmir. Belə ki, hakimiyyətin kiməsə mənsub olması və onun həyata keçirilməsi anlayışları fərqlidir. Prezident icra hakimiyyəti həyata keçirmək məqəsədilə Nazirlər Kabinetini, sahəvi və digər icra hakimiyyəti orqanlarını yaradır. Həmin orqanlar isə Prezidentin rəhbərliyi ilə icra hakimiyyəti səlahiyyətlərini həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti ona mənsub olan icra hakimiyyətini deyil, icra səlahiyyətlərini həmin orqanlara deleqə edir. Səlahiyyət anlayışından fərqli olaraq hakimiyyət delegə oluna bilməz. Digər tərəfdən səlahiyyətlərin delegə olunması hakimiyyət subyektini məsuliyyətdən azad etmir. Bu kontekstdə icra və sərəncam orqanlarının təşkili, tərkibinin formalaşdıırlması və zərurət yarandıqda dəyişdirilməsi Prezidentin səlahiyyətlərinə aid olmalıdır. Belə ki, icra hakimiyyəti sistemində mövcud vəziyyətə görə Prezident xalq qarşısında məsuldur.

Yuxarıda qeyd olunan müsbət məqamlarla yanaşı konstitusiyamızda həmiyyətlər bölgüsü prinsipi bəyan edən normanın müəyyən çatışmazlıqları da mövcuddur. Məsələn, birincisi, qanunvericilik hakimiyyətini yalnız Milli Məclis deyil, xalq da bilavasitə həyata keçirə bilər, ikincisi, baxmayaraq ki, Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarına görə prokurorluq məhkəmə hakimiyyəti sisteminə daxildir, lakin o, məhkəmə orqanı deyil. Eyni zaman hesab edirik ki, əgər konstitusiyamız hakimiyyətlər bölgüsünü ümumi formada dövlət hakimiyyətinin əsas prinsipi kimi bəyan edirsə onda o, hər şeydən əvvəl dövlət hakimiyyətinin vahidliyi prinsipi və bu hakimiyyətin vahidliyini təmin edən ali orqanın vəzifəsi göstərilməlidir.

Beləliklə yuxarıda qeyd olunan fikirlər əsasında belə bir nəticəyə gəlmək olar ki, xalq suverenliyi yalnız o vaxt mümkün ola bilər ki, hakimiyyətin mənimsənilməsi, ondan sui-istifadə hallarına yol verilməsi, insan hüquq və azadlığının təminatı üçün səmərəli dövlət hakimiyyəti yəni hakimiyyətlər bölgüsü mexanizmi mövcud olsun.

Xalq suverenliyinin səmərəli təminat mexanizmi kimi Azərbaycan Respublikasının Konstitusiyasında bəyan olunan hakimiyyətlər bölgüsü konsepsiyasını aşağıdakı kimi təfsir etmək olar:

1. Azərbaycan Respublikasında suveren hakimiyyət xalqa məxsusdur. Xalq suveren hakimiyyətini bilavasitə və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında seçilən dövlət hakimiyyəti və yerli özünü-idarə orqanları vasitəsilə həyata keçirir (mad 2);
2. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi xalqdır.

Bu konstitusiya norması dövlət hakimiyyətinin vahidliyini və dövlət hakimiyyəti qollarının xalq tərəfindən və yaxud xalqın seçdiyi səlahiyyətli nümayəndələri

tərəfindən formalaşdırılmasını, bütün dövlət hakimiyyəti subyektlərinin xalqın qəbul etdiyi konstitusiya əsasında fəaliyyət göstərməsini ehtiva edir (mad 1);

3. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin vahidliyini Azərbaycan Respublikasının Prezidenti təcəssüm etdirir. O, ölkənin daxilində və xarici münasibətlərdə dövləti təmsil edir, hakimiyyət qollarının qarşılıqlı fəaliyyətini və onların xalq qarşısında məsuliyyətini təmin edir. Azərbaycan Respublikasının Prezidenti hakimiyyət qolları arasında (hüquq mübahisələri Konstitusiya Məhkəməsi həll edir) siyasi mübahisələri həll edir (mad 8, 98; 109);

4. Hakimiyyətlər bölgüsü mexanizmi Azərbaycan Respublikasında dövlət hakimiyyətinin əsas təşkilati formasıdır. Xalq suverenliyinin, insan və vətəndaş hüquq və azadlıqlarının, hakimiyyət subyektlərinin yüksək peşəkarlığının təmin olunması, hakimiyyətin mənimsənilməsi və xalqın maraqlarından uzaqlaşmasına yol verilməməsi üçün dövlət hakimiyyəti hakimiyyətlər bölgüsü əsasında təşkil olunur: qanunvericilik, icra və məhkəmə hakimiyyətləri (mad.7);

5. Azərbaycan Respublikası Konstitusiyasının müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər. Konstitusiyamızın ayrı-ayrı normalarının interpretasiyası əsasında qeyd etmək olar ki, hakimiyyət qollarının fəaliyyəti tarazlıq və çəkindirmə sistemi ilə müşahidə olunur. Hakimiyyət qollarından hansısa biri digərlərinə nisbətdə ali ola bilməz. Belə ki, suveren (ali hakimiyyət) hakimiyyət xalqa məxsusdur və xalqın ali iradəsi yalnız bir hakimiyyət institutu tərəfindən ifadə oluna bilməz. Hakimiyyət budaqları bərabər dərəcədə xalqın iradəsini ifadə edir.

Xalq suverenliyi, referendum və seçkilər, hüququn aliliyi, konstitusiya qanunçuluğu; müəyyən vəzifə səlahiyyətlərinin müddətli olması, vəzifələrin uzlaşmaması; Dövlət bacısı tərəfindən konstitusiya ilə müəyyən olunan hallarda Milli Məclisin buraxılması, veto hüququ; müəyyən hallarda Ali nümayəndəli, qanunverici orqan tərəfindən Nazirlər Kabinetinə etimadsızlığın göstərilməsi imkanı, məhkəmələrin müstəqilliyi və s. hakimiyyətləri bölgüsü mexanizmində tarazlıq və çəkindirmə sistemini təmin edir.

6. Azərbaycan Respublikasında hakimiyyətlər bölgüsü konsepsiyasına görə qanunvericilik hakimiyyətini Milli Məclis həyata keçirir. Azərbaycan Respublikasının Milli Məclisi ümumxalq nümayəndəli, seçkili, qanunverici orqandır. Azərbaycan Respublikasının qanunları həmçinin Azərbaycan elektoratı tərəfindən referendumla qəbul edilə bilər. Başqa heç bir vəzifəli şəxs, orqan qanunvericilik fəaliyyətini həyata keçirə bilməz. Dövlətimizin Konstitusiyası Parlament tərəfindən qanunların qəbul edilməsi səlahiyyətinin digər şəxslərə delegə etməsini qəbul etmir.

Konstitusiyaya əsasən icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur. Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır.

İcra hakimiyyəti həlli operativ xarakter daşıyan cari idarəçiliyi həyata keçirir, qanunlarda nəzərdə tutulan normaların icrasını təşkil edir və bu zaman müxtəlif konkret vəzifələr yerinə yetirir.

Lakin, bəzən gündəlik həyatda idarəçilik sahəsində aktual problemlərinin həll edilməsi üçün qanunvericilik normalarına rast gəlinmir. Bu cür hallarda icra hakimiyyəti ümumi səlahiyyətləri daxilində bu məsələlərin həllini öz mülahizələri əsasında həll edir.

Ümumiyyətcə icra hakimiyyətinin fəaliyyəti yalnız qanunların icrası ilə məhdudlaşmır. Belə ki, o yalnız qanunları deyil, dövlətin vəzifələrini icra edir. Dövlətin vəzifələri isə hər zaman yalnız hüquqla məhdudlaşmır. Qanun icra hakimiyyətinin fəaliyyətinin sərhədlərini müəyyən edir və bu sərhədlər daxilində icra hakimiyyəti müstəqil fəaliyyət göstərir.

İcra hakimiyyəti zəruri hallarda normayaratma fəaliyyətini həyata keçirir.

Qanunvericilik hakimiyyəti operativ həll olunması zəruri olan məsələlər üzrə icra hakimiyyətinin qəbul etdiyi qərarları ləğv edə bilməz. Lakin o, İcra hakimiyyəti tərəfindən qanunların icrası vəziyyətinə nəzarət edə bilər. İcra hakimiyyəti subyektləri isə bu qanunların icrası ilə bağlı hesabat verməlidir. Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında Konstitusiya Qanununa görə Nazirlər Kabineti hər il Milli Məclisin yaz sessiyasının beşinci iclasında öz fəaliyyəti haqqında hesabat verir. Bundan başqa Milli Məclis Nazirlər Kabinetinə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair sorğu ilə müraciət edə bilər. Həmin sorğuya cavab Nazirlər Kabineti tərəfindən bir aydan gec olmayaraq Milli Məclisin iclasında təqdim edilməlidir.

Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.

Ümumiyyətcə, hüquq elmində hakimiyyətlər bölgüsü mexanizmində məhkəmə hakimiyyətinin yeri və rolu barədə mübahisələr bu gün də davam edir. Birinci halda qeyd olunur ki, məhkəmələr hakimiyyət budaqları arasında tarazlığın qarantıdır; ikinci halda göstərilir ki, məhkəmə qanunvericilik və icra hakimiyyəti qolları arasında arbitr rolunu oynayır; üçüncüsü, məhkəmələr hakimiyyət

strukturlarının konstitusiyaya uyğun fəaliyyət göstərməsini təmin edir.

Zənnimizcə, yuxarıda səslənən hər üçü fikir hakimiyyətlər bölgüsü şəraitində məhkəmə hakimiyyəti üçün xarakterikdir və burada konstitusiya məhkəmə nəzarətinin rolu xüsusi qeyd olunmalıdır. Lakin, bütün bunlarla yanaşı məhkəmə hakimiyyətinin əsas vəzifəsi ədalət mühakiməsinin həyata keçirilməsidir.

Azərbaycan Respublikasında prokurorluq orqanları məhkəmə hakimiyyəti qoluna daxildir. Hüquq elmində və xarici dövlətlərin təcrübəsində prokurorluğun hakimiyyətlər bölgüsü sistemində yeri müxtəlif cür qəbul olunur. Məsələn, ABŞ-da prokurorluq icra hakimiyyəti qoluna daxildir. Burada Baş prokuror eyni zaman ədliyyə naziri vəzifəsini daşıyır. İtaliya, İspaniyada prokurorluq məhkəmə hakimiyyətinə daxildir. Rusiyada prokurorluq heç bir hakimiyyət qoluna aid edilmir. Bu gün elmdə prokurorluğu hətta qanunvericilik hakimiyyəti qoluna aid edən təkliflərə də rast gəlmək olar. Bu mübahisəli problemin öyərilməsini təqdim olunan dissertasiya işinin tədqiqat predmetinə daxil etməsək də, bu məsələdə Azərbaycan qanunvericiliyinin mövqeyini dəstəkləyirik. Belə ki, prokurorluq orqanları məhkəmələrdə sız qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Lakin, prokurorluq orqanları məhkəmə hakimiyyəti sistemində müstəqil məhkəmə orqanlarına tabe olmayan bir yarımsistem yaradır. Konstitusiyada göstərilir ki, Azərbaycan Respublikasının prokurorluğu ərazi və ixrisaslaşdırılmış prokurorların Azərbaycan Respublikası Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır (mad.133).

Azərbaycan Respublikasında hakimlərin təyin edilməsi prezident və Parlament tərəfindən birgə həyata keçirilir. Bu ali orqanlar məhkəməyə bilavasitə rəhbərlik etmir, göstəriş vermir. Məhkəmələr müstəqil ədalət

mühakiməsini həyata keçirir. Lakin, məhkəmə aktlarının icrasını icra hakimiyyəti təmin edir.

7. Azərbaycan Respublikasının Konstitusiyasında qəbul olunan hakimiyyətlər bölgüsü konsepsiyasının üstün və özünəməxsus cəhətlərindən biri də, onun prezidentli respublika idarəçilik formasına, unitar və dünyəvi dövlət prinsiplərinə əsaslanmasıdır.

Biz belə hesab edirik ki, gerçək həyatda hakimiyyətlər bölgüsü prinsipi prezidentli respublikalarda daha səmərəli təmin olunur. Bildiyimiz kimi, parlamentli idarəçilik (istər monarxiya, istər respublika) forması üçün parlamentin aliliyi; icra hakimiyyətinin parlament çoxluğu əsasında formalaşması, Kabinetin parlament qarşısında siyasi məsuliyyəti, hakimiyyət qolları arasında tarazlığı qoruyub saxlamaq üçün nazirlər Kabinetinə "etimadsızlıq votumu" göstərilməsinə qarşı qoyulan parlamentin buraxılması əlamətləri xarakterikdir. Parlamentli idarəçilik formasında adətən Nazirlər Kabinetinin tərkibini formalaşdırmaq dövlət başçısının səlahiyyətlərinə daxil olur. Lakin, konstitusion adətlərə görə dövlət başçısı kabinet üzvlərini təyin edəndə öz seçimini parlamentdə çoxluq təşkil edən siyasi partiya üzvlərinə yönəltməlidir.

Burada Baş nazir adətən çoxluq təşkil edən partiyanın lideri olur və o, faktiki olaraq parlamentdə çoxluq yaradan partiya-deputatları sıralarından kabinetin tərkibini müəyyən edir. Deputat mandatının itirilməsi adətən kabinet üzvü postunun da itirilməsi ilə nəticələnir. Parlamentli idarəçilikdə investitura institutu mövcuddur ki, bu da yeni formalaşan Nazirlər kabinetinin fəaliyyət proqramının Parlament tərəfindən qəbul edilməsini ehtiva edir. Nazirlər Kabinetinin tərkibinin Parlamentində çoxluq təşkil edən partiya deputatlarının sıralarından formalaşdırılmasını nəzərə alaraq kabinet apardığı siyasi kursa görə parlament qarşısında kollektiv məsuliyyət daşıyır. Hətta konkret baş

nazirə etimadsızlıq göstərilməsi bütöv kabinetin üzvləri istefa getməlidirlər. Lakin, kabinet parlament ilə razılaşmayıb onun buraxılmasına nail ola bilər. Bu cür mexanizm bir növ çəkindirmə funksiyasını yerinə yetirir. Yəni parlament kabinetə etimadsızlıq göstərməzdən öncə hər tərəfli düşünməlidir, əks halda o özü istefa göndərilə bilər. Baxmayaraq ki, parlamentli idarəçilik formasında kabinet üzvləri formal-hüquqi cəhətdən, partiya qərarları ilə bağlı deyil, lakin reallıqda kabinet parlamentdə çoxluq təşkil edən partiya funksiyasının rəhbər orqanı funksiyasını yerinə yetirir.

Yuxarıda qeyd olunanlar onu deməyə əsas verir ki, parlamentli idarəçilik formasında qanunvericilik və icra hakimiyyəti qollarının müəyyən qədər birləşməsi baş verir və onlar birlikdə dövlətin daxili və xarici siyasəti sahəsində mühüm siyasi qərarlar qəbul edirlər.

Prezidentli respublika üçün nisbətən yüksək dərəcədə isə hakimiyyətlər bölgüsünün dəqiq aparılması, hakimiyyət qanunlarının müstəqilliyi və formal bərabərliyi xarakterikdir. Burada icra hakimiyyətinin müstəqilliyi bir tərəfdən icra hakimiyyəti orqanlarının parlamentdən kənara formalaşmasında, Nazirlər Kabinetinin parlament qarşısında deyil Prezident qarşısında siyasi məsuliyyət daşımasında, digər tərəfdən İcra hakimiyyəti subyektlərinin müstəqil vəzifə və səlahiyyətlərinin həyata keçirilməsində ifadə olunur. Həmçinin, Prezidentli Respublikada bir şəxs iki və daha çox hakimiyyət qollarında təmsil oluna bilməz.

Dünyəvilik prinsipinə görə Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Azərbaycan Respublikası Konstitusiyasının 56 və 85-ci maddələrinə, Azərbaycan Respublikası seçki Məcəlləsinin 14-cü maddəsinə görə din xadimləri-peşəkar dini fəaliyyət ilə məşğul olduqları müddətdə Milli Məclisin deputatı, prezident, bələdiyyə üzvü ola bilməzlər. Məhkəmələr və

hakimlər haqqında qanunun 93-cü maddəsində qeyd olunur ki, din xadimləri hakim ola bilməzlər. Dövlət qulluğu haqqında qanunda isə deyilir ki, dövlət qulluqçusuna dini təbliğ etmək üçün dövlət qulluqçusunun statusundan istifadə etmək və dövlət orqanlarının tabeliyindəki obyektlərdə dini mərasimlərin keçirilməsinə rəsmi xarakter vermək qadağandır (mad. 20.1.8).

3. Dövlət hakimiyyəti mexanizmi: anlayışı, strukturu və prinsipləri

XX əsrin sonunda ümumxalq səsverməsi- referendum yolu ilə qəbul olunan Konstitusiyamız ölkəmizdə yeni tip dövlət hakimiyyəti mexanizmini təsis etdi. Xalq suverenliyi və onun konkret təzahürü olan insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi bu mexanizmin əsas prinsipləri kimi bəyan olundu. Azərbaycan xalqı tərəfindən dövlətimizin yeni konstitusiyası əsasında demokratik dövlət hakimiyyəti mexanizminin yaradılması sahəsində bir çox praktiki işlər görüldü, hakimiyyətlər bölgüsü konsepsiyası əsasında qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları yaradıldı. Respublikamızda demokratik dövlət hakimiyyəti mexanizminin formalaşması prosesi bu gün də uğurla davam edir. Bu kontekstdə demokratik dövlət hakimiyyətinin təşkili üçün dövlət hakimiyyəti mexanizminin anlayışı, strukturu, prinsipləri, davamlı inkişafı və bu kimi digər sualların geniş öyrənilməsi həm nəzəri, həm də praktiki cəhətdən böyük əhəmiyyət kəsb edir. Lakin, təəssüf ki, istər Azərbaycanın, istərsə də xarici ölkələrin nəzəri ədəbiyyatlarında bu sualların tədqiqinə çox az diqqət yetirilmişdir. Bəzi elmi mənbələrdə isə əsassız olaraq dövlət hakimiyyəti mexanizmi dövlət mexanizmi, dövlət aparatı terminləri ilə eyniləşdirilir. Bu problemin izahı ilə bağlı mövqeyimizə aydınlıq gətirmək üçün dövlət

hakimiyyəti mexanizmi, dövlət mexanizmi və dövlət aparatı terminlərinin nisbəti sualının təhlilini vacib bilirik.

İctimai-siyasi və hüquq ədəbiyyatlarında dövlət hakimiyyəti mexanizminin öyrənilməsinə çox az diqqət yetirilsə də, dövlət aparatı və dövlət mexanizminin nisbəti sualı ətrafında elmi mənbələrdə kifayət qədər tədqiqat işlərinə rast gəlmək olar. Ümumilikdə, bu sualın izahı ilə bağlı olan elmi mülahizələri üç qrupa bölmək olar. Birinci qrup tədqiqatçılar dövlət mexanizmi anlayışını dar və geniş mənada fərqləndirir. Burada qeyd olunur ki, dar mənada dövlət mexanizmi və dövlət aparatı anlayışları üst-üstə düşür və dövlət hakimiyyəti orqanlarının sistemi kimi xarakterizə olunur (124).

Geniş mənada isə dövlət mexanizmi siyasi sistem anlayışı ilə eyniləşdirilir. Bu yanaşma XX əsrin ortalarında keçmiş SSRİ məkanında prioritet sayılırdı. Sovet elmində mövcud olan bu cür ideologiya ictimai həyatın bütün sahələrində dövlətləşdirilmənin nəzəri əsaslandırılmasına xidmət edirdi. Təbii ki, demokratik dövlətdə, vətəndaş cəmiyyətində bu mövqe düzgün sayıla bilməz. Belə ki, siyasi sistem anlayışı özündə dövlət mexanizmindən başqa, qeyri dövlət təşkilatlarını da ehtiva edir (siyasi partiyalar, qeyri-hökumət təşkilatları və s.)

İkinci qrup tədqiqatçıların mülahizələrinə görə dövlət aparatına nisbətən dövlət mexanizmi daha geniş anlayışdır (147). Belə ki, əgər dövlət aparatı dövlət hakimiyyəti orqanlarının sistemidirsə, dövlət mexanizmi həm dövlət orqanlarının, yəni dövlət aparatının, həm də dövlət müəssisələrinin sistemi kimi çıxış edir və dövlət mexanizminin aşağıdakı struktur elementləri fərqləndirilir:

- Dövlət hakimiyyəti orqanları;
- Dövlətin daxili və xarici mühafizəsini həyata keçirən dövlət təşkilatlıları (Silahlı Qüvvələr, Təhlükəsizlik xidmətləri, Polis və s.);

- Sosial-mədəni dövlət müəssisələri (məktəblər, kitabxanalar, xəstəxanalar və s.);
- İqtisadi müəssisələr-təsərrüfat-iqtisadi fəaliyyəti həyata keçirir, məhsul istehsal edir, müxtəlif xidmətlər göstərir;
- Texniki, maliyyə və s. vasitələr, məcburetmə gücü;
- Dövlət orqanlarının administrasiyası, daimi aparat;
- Dövlət qulluqçuları.

Üçüncü qrup tədqiqatçılar isə dövlət aparatı və dövlət mexanizmi anlayışlarının nisbətini aparat və mexanizm terminlərinin etimologiyası əsasında nəzərdən keçirməyi təklif edirlər. Bu kontekstdə dövlət aparatı dövlət hakimiyyətini statikada, dövlət mexanizmi isə dinamikada xarakterizə edir. Burada qeyd olunur ki, dövlət aparatı-statik vəziyyətdə dövlət orqanlarının sistemini ifadə edir. Mexanizm termini isə müəyyən hərəkət, hadisələrin sistemi, nəyisə hərəkətə gətirən qurğu və s. mənasını verir. Bu baxımdan mexanizm anlayışının dinamik xarakterini nəzərə alaraq, onu sadəcə dövlət orqanlarının məcmusu kimi izah etmək düzgün olmazdır. Bu kontekstdə onlar dövlət mexanizminin anlayışına daxil olan bütün elementlərin məcmusunu 3 böyük qrupa bölürlər:

1. Normativ qrup-dövlət mexanizminin təşkili və fəaliyyətini tənzimləyən hüquqi aktlar aiddir;
2. İnstitusional qrup-dövlət orqanları, dövlət müəssisələri və s. aid edilir;
3. Maddi qrup-dövlət mexanizminin fəaliyyətinin maddi-texniki təminat sistemi daxildir (İnfrastruktur, mülkiyyət, maliyyə vasitələri və s.)

Beləliklə, elmi mənbələrdə dövlət aparatı və dövlət mexanizminin nisbətinə dair fikir ayrılığının mövcudluğuna baxmayaraq hesab edirik ki, bu anlayışları biz fərqləndirməliyik. Zənnimizcə, ikinci qrup tədqiqatçıların mövqeyi daha düzgündür, belə ki, dövlət mexanizmi

anlayışı dövlət aparatına nisbətən daha genişdir və özündə həm dövlət aparatını, yəni dövlət hakimiyyəti orqanlarının məcmusunu və digər dövlət təşkilatlarını, dövlət müəssisələrini və burada qulluq edən dövlət qulluqçularını ehtiva edir.

Dövlət aparatı və dövlət mexanizminin nisbəti sualının təhlili onu göstərir ki, dövlət aparatı birmənalı dövlət hakimiyyəti mexanizminin tərkib hissəsidir. Belə ki, dövlət hakimiyyəti təşkilati ifadəsini hər şeydən əvvəl dövlət orqanlarında tapır.

Dövlət mexanizminin tərkib hissəsi olan dövlət müəssisələrinin dövlət hakimiyyəti mexanizminə daxil olması ətrafında isə fikir ayrılığı yaranmışdır. Elmi ədəbiyyatlarda belə bir fikir səslənir ki, dövlət müəssisələrinin hakimiyyət səlahiyyətləri yoxdur, onlar dövlət hakimiyyətinin həyata keçirilməsində iştirak etmirlər və bu baxımdan dövlət müəssisələri dövlət hakimiyyəti mexanizminin struktur elementi sayılmır. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının şərhi kitabının müəllifi İ.Cəfərov yazır ki, dövlət müəssisələri dövlətin funksiyalarının həyata keçirilməsində iştirak etsələr də, hakimiyyət səlahiyyətlərinə malik olmurlar (42,s. 391).

Bir tərəfdən hesab edirik ki, dövlət müəssisələrini dövlət təşkilatlarının bir növü kimi dövlət orqanları ilə bərabərləşdirmək olmaz, eyni zamanda onları bir-birinə qarşı qoymaq da böyük səhvdir. Belə ki, dövlət orqanları rəhbərlik etdikləri dövlət müəssisələrinin köməyi ilə praktiki olaraq dövlətin vəzifə və funksiyalarını həyata keçirir. Digər tərəfdən dövlət müəssisələri adətən dövlət orqanlarına tabe olsalar da, nisbi müstəqilliyə malikdirlər və dövlət mexanizminin nisbətən müstəqil bir hissəsi kimi çıxış edirlər. Lakin, bu təşkilatlar dövlət orqanlarından fərqlənir. Dövlət müəssisələrinin hakimiyyətə malik olması məsələsinə gəldikdə isə istənilən təşkilat kimi dövlət

müəssisələri də həmin müəssisələrin rəhbər orqanlarında ifadə olunan hakimiyyətə malikdirlər. Bu hakimiyyət təbii ki, dövlət xarakterlidir. Lakin, dövlət orqanlarından fərqli olaraq dövlət müəssisələrinin hakimiyyəti həmin təşkilatların hüdudlarından kənara çıxmir, lokal xarakter daşıyır və yalnız müəssisələrin kollektivinə şamil olunur.

Yuxarıda göstərilənlər əsasında belə bir nəticəyə gəlmək olar ki, yalnız dövlət aparatı deyil, bütövlükdə dövlət mexanizmi də dövlət hakimiyyəti mexanizminin tərkibinə daxildir. Lakin, bu heç də bizə həmin hadisələri eyniləşdirməyə əsas vermir. Hesab edirik ki, dövlət mexanizminə nisbətən dövlət hakimiyyəti mexanizmi daha geniş anlayışdır. Birincisi demokratik siyasi rejimdə dövlət hakimiyyəti xalq (elektorat) tərəfindən bilavasitə seçkilər, referendum və s. yolu ilə həyata keçirilir. İkincisi, dövlət təcrübəsində bəzi hallarda müəyyən qeyri dövlət təşkilatlarının da dövlətin vəzifə və funksiyalarının həyata keçirilməsində iştirakını müşahidə etmək olar. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsində qeyd olunur ki, bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər verilə bilər. Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər. Digər bir misal kimi "Həmkarlar İttifaqları" haqqında Azərbaycan Respublikasının Qanununu göstərmək olar. Yuxarıda göstərilən misallarda qeyri dövlət orqanları sayılan bələdiyyələr, həmkarlar ittifaqları dövlət hakimiyyətini həyata keçirir, lakin bu cür vəziyyət bizə onları dövlət təşkilatları adlandırmağa əsas vermir və bu orqanlar dövlət mexanizminin tərkib hissəsi sayıla bilməz. Nəticə etibarı ilə qeyd etmək olar ki, yuxarıda adları çəkilən qeyri dövlət

təşkilatları müəyyən hallarda dövlət hakimiyyəti mexanizminin elementləri kimi çıxış edə bilərlər. Üçüncüsü, müasir demokratik, hüquqi dövlət ümumbəşəri dəyərləri özündə ehtiva edən beynəlxalq müqavilələrin milli hüquq sisteminə implementasiyasını özünün əsas vəzifələrindən bir kimi qəbul edir. Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra BMT, Avropa Şurası, MDB və digər beynəlxalq təşkilatlara bərabər hüquqlu üzv kimi qəbul olunmuşdur və bu təşkilatların əsas, ixtisaslaşmış, müqavilə orqanlarının yurisdiksiyasını tanımışdır. Məsələn, bu gün Azərbaycan Respublikasında BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığı, Qaçqınlar üzrə Ali Komissarlıq, Qadınlara qarşı ayrı seçkiliyin ləğvi üzrə Komitə, Əməkçi miqrantların hüquqlarının müdafiəsi Komitəsi, Uşaq hüquqları Komitəsi və s., Avropa Şurasının Avropa Məhkəməsi, İşgəncələrə qarşı Avropa komitəsi və s. orqanların yurisdiksiyası tanınır. Faktiki olaraq bu orqanlar da ölkə daxilində dövlət hakimiyyətinin həyata keçirilməsində iştirak edir, özü də bəzi beynəlxalq orqanlar tərəfindən qəbul olunan qərarlar müvafiq dövlət üçün məcburi xarakter daşıyır. Lakin göstərilən orqanların dövlət hakimiyyətinin həyata keçirilməsində iştirakı onların beynəlxalq orqan kimi statusunu dəyişmir.

Yuxarıda qeyd olunanlar əsasında belə bir nəticəyə gəlmək olar ki, dövlət hakimiyyəti mexanizmi aşağıdakı elementləri ehtiva edir:

1. Azərbaycan elektoratı tərəfindən seçkilərin, referendumun, qanunvericilik təşəbbüsünün həyata keçirilməsi;
2. Dövlət aparatı-dövlət orqanlarının sistemi;
3. Sosial-iqtisadi, elmi-mədəni, siyasi xarakterli dövlət müəssisələri və təşkilatları;
4. Qeyri-dövlət təşkilatları: Beynəlxalq təşkilatlar, bələdiyyələr və s.

Demokratik dövlət hakimiyyəti mexanizmi xalq suverenliyi və onun konkret təzahürü olan insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edən, bir tərəfdən vəhdətdə olan daxilən razılaşdırılımış və müəyyənləşdirilmiş qaydalara uyğun qarşılıqlı fəaliyyət göstərən, digər tərəfdən isə diferensiallıq və nisbi müstəqilliyi ilə fərqlənən ayrı-ayrı hissələrin, elementlərin məcmusudur.

Demokratik dövlət hakimiyyəti mexanizmi Konstitusiya və digər qanunvericilik aktları ilə tənzimlənən, özünəməxsus forma və metodlarla ictimai proseslərə təsir göstərən, dövlətin vəzifə və funksiyalarını həyata keçirən, müvafiq səlahiyyətlərə malik olan dövlət və qeyri dövlət institutlarının sistemidir.

Demokratik dövlət hakimiyyəti mexanizminin formalaşması prosesinə dövlətin inkişaf tarixi, dövlət quruculuğu ənənələri, ərazi ölçüsü, milli tərkibi, coğrafi vəziyyəti və s. amillər təsir göstərir. Bu kontekstdə dövlət hakimiyyəti mexanizminin dövlətin forması ilə sıx bağlılığı xüsusilə qeyd olunmalıdır. Əgər dövlət hakimiyyəti mexanizmi dövlətin vəzifə və funksiyalarını həyata keçirən dövlət və qeyri dövlət institutlarının sistemidirsə, dövlətin forması bu sistemin strukturu kimi çıxış edir. Məsələn, dövlət idarəçiliyi forması dövlət hakimiyyəti mexanizminin üfüqi qaydada təşkili və strukturunu, hakimiyyət subyektləri arasında səlahiyyətlər bölgüsünü müəyyən edir, dövlət hakimiyyətinin həyata keçirilməsində xalqın iştirakının dərəcəsini xarakterizə edir.

Siyasi ərazi quruluşu forması isə dövlət hakimiyyəti mexanizminin təşkili və strukturunun şaquli qaydada, yəni mərkəzi və yerli orqanlar arasında qarşılıqlı münasibətləri, ümumi dövlət siyasətinin realizəsində yerli orqanların iştirakı, yerlərdə hakimiyyətin həyata keçirilməsini ifadə edir.

Bəzi tədqiqatçılar yazırlar ki, idarəçilik forması və siyasi-ərazi quruluş formasından fərqli olaraq siyasi rejim dövlət mexanizminə daha az təsir göstərir. Bu fikirlə heç cür razılaşa bilmərik. Siyasi rejim dövlət hakimiyyətinin fəaliyyət metodlarını müəyyən edir. Dövlət hakimiyyəti mexanizminin əhali üçün açıq və yaxud qapalı olması, bürokratizm, xalqın dövlət idarəçiliyində iştirakı və s. dövlətin siyasi rejim formasından asılıdır.

Demokratik dövlət hakimiyyəti mexanizmi üçün konstitusion institutların sabitliyi, sosial-iqtisadi, siyasi sahələrdə səmərəli hüquqi tənzimetmənin mövcudluğu, dövlət hakimiyyəti elementləri arasında tarazlığın təmin olunması, dövlət idarəçiliyində vətəndaşların geniş iştirakı xarakterikdir.

Demokratik dövlət hakimiyyəti mexanizmi vətəndaş cəmiyyətinin institutları, xüsusilə yerli özünüidarə orqanları ilə sıx əlaqədə fəaliyyət göstərir və inkişaf edir. Təcrübə göstərir ki, dövlət hakimiyyəti mexanizmi qeyri dövlət təşkilatları (siyasi partiyalar, həmkarlar ittifaqları, qeyri hökumət təşkilatları və s.) ilə əməkdaşlıq və qarşılıqlı dialoq şəraitində daha səmərəli fəaliyyət göstərə bilər.

Qeyri demokratik rejimdə dövlət hakimiyyəti mexanizmi cəmiyyətdən uzaqlaşır, ondan yüksəkdə dayanır, xalqı özünə tabe edir. Demokratik rejimdə isə Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, dövlət xalq üçündür, dövlət hakimiyyəti mexanizmi xalqın, vətəndaşların maraq və mənafelərinə xidmət edir, xalq suverenliyini, insan hüquqlarını təmin edir, vətəndaşların istək və tələblərini vaxtında, keyfiyyətlə həll edir.

Beləliklə, mürəkkəb bir sistem kimi dövlət hakimiyyəti mexanizmi daxilində 4 yarımsistem fərləndirmək olar:

1. İnstitusional yarımsistem;
2. Normativ yarımsistem;

3. Funksional yarımsistem;
4. Maddi yarımsistem.

1. İnstitusional yarımsistem dövlətin vəzifə və funksiyalarını həyata keçirən dövlət və qeyri dövlət institutlarının sistemidir. Bura hər şeydən əvvəl xalq hakimiyyətinin bilavasitə demokratiya institutları olan referendum, seçkilər, qanun layihələrinin ümumxalq müzakirəsi, ictimai rəy sorğusu, 40 min seçki hüququna malik olan vətəndaşların qanunvericilik təşəbbüsü hüququ aiddir. İnstitusional yarımsistemə həmçinin, dövlət hakimiyyəti orqanları, dövlət müəssisələri, müəyyən hallarda bələdiyyələr, həmkarlar İttifaqları, beynəlxalq orqanlar daxildir.

2. Normativ yarımsistem-dövlət hakimiyyəti mexanizminin prinsiplərini, təşkili və fəaliyyətini tənzimləyən, hakimiyyət subyektlərinin vəzifə və səlahiyyətlərini müəyyən edən hüquq normalarının sistemidir.

3. Funksional yarımsistem dövlət hakimiyyəti mexanizminin yaradılmasını şərtləndirən dövlətin funksiyalarını və onların həyata keçirilməsinin forma və metodlarını ehtiva edir. Dövlətin funksiyaları ilə dövlət hakimiyyəti mexanizmi arasında birbaşa əlaqə mövcuddur. Dövlət hakimiyyəti mexanizmi məhz dövlətin vəzifə və funksiyalarını həyata keçirmək üçün təşkil olunur. Dövlətin funksiyaları dəyişdikdə dövlət hakimiyyəti mexanizmi də ona uyğun dəyişikliklərə məruz qalır.

Beləliklə, dövlət hakimiyyəti mexanizmi dövlət hakimiyyətinin həyata keçirilməsinin bütün təşkilati formalarını ehtiva edir. Yuxarıda qeyd olundu ki, dövlət hakimiyyəti dövlət aparatı, dövlət mexanizmi həmçinin, xalq (elektorat) tərəfindən, bilavasitə demokratiya institutları, bələdiyyələr vasitəsilə həyata keçirilə bilər. Lakin bütün bunlara baxmayaraq dövlət hakimiyyətinin

həyata keçirilməsində əsas yük dövlət orqanlarının üzərinə düşür. Xalq, bələdiyyələr hər zaman, hər yerdə dövlət hakimiyyətini həyata keçirmir. Məsələn, Azərbaycan elektoratı yalnız seçkilər, referendum prosesində bu işdə iştirak edir. Dövlət orqanları isə məhz dövlət hakimiyyətini həyata keçirmək üçün xüsusi yaradılmış siyasi təsisatdır. Bu kontekstdə dövlət orqanlarının anlayışı, digər dövlət və qeyri dövlət təşkilatlarından fərqli cəhətləri, demokratik dövlət aparatının səciyyəvi xüsusiyyətləri, prinsipləri suallarının tədqiq olunması böyük nəzəri və təcrübi əhəmiyyətə malikdir.

Müasir dövrdə Azərbaycanın və xarici ölkələrin normativ, nəzəri ədəbiyyatlarında dövlət orqanı anlayışı ilə bağlı müxtəlif fikirlərə rast gəlmək olar.

Professor Ziyafət Əsgərov yazır ki, dövlət orqanı dövlət tərəfindən qanuna müvafiq olaraq yaradılan, onun adından çıxış edən və onun hakimiyyətini, funksiyalarını həyata keçirən dövlət mexanizminin nisbi müstəqil struktur vahidi və ya həlqəsidir. O, həmçinin qeyd edir ki, dövlət orqanlarından fərqli olaraq cəmiyyətdə mövcud olan heç bir başqa təsisatın dövlət hakimiyyətini həyata keçirməyə əsası yoxdur. (38,s. 330). Hesab edirik ki, həqiqətən də dövlət hakimiyyətinin həyata keçirilməsi dövlət orqanlarının əsas əlamətlərindən biridir. Həmin orqanlar da məhz elə bu məqsədlə yaradılmışdır. Bununla yanaşı yuxarıda biz çalışdıq göstərək ki, dövlət hakimiyyəti yalnız dövlət orqanları tərəfindən deyil, eyni zamanda elektorat tərəfindən, dövlət müəssisələri və qeyri dövlət təşkilatları tərəfindən də həyata keçirilə bilər.

Polis Akademiyasının əməkdaşları tərəfindən hazırlanan "İnzibati hüquq" adlı dərs vəsaitində qeyd olunur ki, dövlət orqanı mütəşəkkil insanlar qrupu və kollektivlərdən ibarətdir. Daha sonra göstərilir ki, dövlət orqanının anlayışı problemi öz həllini normativ müstəvidə

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda tapmışdır və bu anlayışı qanunvericilik, məhkəmə və icra hakimiyyəti orqanlarına da aid etmək olar (87, s. 157).

Yuxarıda göstərdiyimiz dərs vəsaitinin müəllifləri ilə tam razılaşa bilmərik. Birincisi ona görə ki, dövlət orqanı yalnız insanların kollektivi ilə deyil, ayrıca bir şəxs-vətəndaşla da təmsil oluna bilər (məsələn, dövlət başçısı-prezident). Bu baxımdan Fəxrəddin Nağıyevin dövlət orqanına verdiyi tərifi daha düzgün hesab edirik. O yazır ki, dövlət orqanı müəyyən dövlətin dövlət hakimiyyət səlahiyyətləri verilmiş, həmin dövlət tərəfindən onun vəzifə və funksiyalarını yerinə yetirməyə vəkil edilmiş və həmin dövlətdə müəyyən edilmiş qaydalara uyğun fəaliyyət göstərən vətəndaşların kollektivi, yaxud vətəndaşdır(48, s. 147).

İkincisi hesab edirik ki, dövlət qulluğu haqqında qanunda verilən definisiya məhdud xarakter daşıyır və bütün dövlət orqanlarına şamil oluna bilməz. Belə ki, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 7.1-ci maddəsinə görə Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda Azərbaycan Respublikasının məqsəd və funksiyalarını həyata keçirən, qanunvericiliyə uyğun olaraq yaradılmış və dövlət büdcəsindən maliyyələşdirilən dövlət qulluqçularının qurumu dövlət orqanı sayılır.

Birincisi, bu qanunda müəyyən olunan definisiya dövlət orqanlarını digər dövlət təşkilatlarından fərqləndirməyə imkan vermir.

İkincisi, yuxarıda göstərilən qanunun təfsiri əsasında belə bir nəticəyə gəlmək olar ki, Dövlət başçısı dövlət orqanı deyil, belə ki, bu orqanda bir şəxs təmsil olunur. Eyni zamanda həmin qanunun digər müddəalarının təfsiri əsasında belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan

Respublikasının Prezidenti, Milli Məclisi, Nazirlər Kabineti, məhkəmələr və s. bu orqanların daimi aparatı istisna olmaqla dövlət qulluqçularının qurumu deyil. Nəticə etibarı ilə "Dövlət qulluğu haqqında" qanunda dövlət orqanına verilən anlayış həmin orqanlara şamil olunmur və bu baxımdan universal sayıla bilməz.

Hüquqi doktrinada dövlət qulluqçusu anlayışı "geniş" və "dar" mənada izah olunur. Geniş mənada "dövlət qulluqçusu" dövlət-hüquq kateqoriyası kimi dövlətinə qulluq edən şəxs mənasını verir. Bu kontekstdə hesab edirik ki, demokratik siyasi rejimdə "dövlət qulluqçusu" və "xalq qulluqçusu" anlayışları sinonim kimi qəbul oluna bilər. Dar mənada isə "dövlət qulluqçusu"nun anlayışı təsnifat üzrə müəyyən olunur. Məsələn, siyasi, inzibati və s. dövlət qulluqçuları.

Zənnimizcə, qanunvericilikdə dövlət qulluqçusunun geniş mənada ümumi definisiyası və təsnifatı (məsələn: siyasi, inzibati, dövlət qulluğunun xüsusi növü və s.) təsbit olunmalıdır.

Ümumilikdə, hesab edirik ki, dövlət hakimiyyəti orqanına verilən tərif aşağıdakıları özündə birləşdirməlidir:

1. Bu anlayış universal olmalıdır, yəni bütün dövlət orqanlarını ehtiva etməlidir;

2. Burada dövlət orqanının bütün əlamətləri deyil, yalnız onun səciyyəvi xüsusiyyətlərini əks etdirən əlamətləri göstərilməlidir. Bu xüsusiyyətlər dövlət orqanını digər dövlət təşkilatlarından və qeyri dövlət orqanlarından fərqləndirir. Bəzi müəlliflərin tərifində dövlət orqanı daxili struktura, maddi bazaya və s. malik olan dövlət qurumu kimi xarakterizə olunur. Lakin bu cür əlamətlər digər təşkilatlar üçün də xarakterik ola bilər. Bu baxımdan həmin əlamətlərin tərifdə iştirak etməsi dövlət orqanına verilən anlayışın lakonikliyini pozur.

3. Hər hansı bir hadisənin elementlərinin məcmusu onun mahiyyətini deyil, substratını müəyyən edir. Bu baxımdan hesab edirik ki, dövlət orqanının anlayışında, onun əsas səciyyəvi xüsusiyyətləri ilə birgə mahiyyəti də göstərilməlidir.

Zənnimizcə, yuxarıda qeyd olunanlar əsasında dövlət hakimiyyəti orqanına aşağıdakı kimi tərif vermək olar: Demokratik dövlət hakimiyyəti orqanı qanunvericiliyə müvafiq yaranan və fəaliyyət göstərən, xalq suverenliyi, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması məqsədi ilə dövlətin vəzifə və funksiyalarını həyata keçirən, dövlət hakimiyyəti səlahiyyətlərinə malik olan dövlət aparatının nisbətən müstəqil sistemidir. Əgər, biz dövlət aparatını dövlət hakimiyyəti orqanlarının sistemi kimi xarakterizə etsək, onda dövlət orqanı bu aparatın yarımsistemidir. Bu kontekstdə, qanunvericilik hakimiyyəti orqanı, icra hakimiyyəti orqanları, məhkəmə hakimiyyəti orqanları yarımsistemini fərqləndirmək olar. Demokratik dövlət aparatı isə elə bir dövlət orqanları sistemidir ki, bunların vasitəsilə xalq öz dövlət hakimiyyətini həyata keçirir.

Demokratik dövlət hakimiyyəti mexanizminin əsas elementi kimi dövlət hakimiyyəti orqanının aşağıdakı əlamətlərini göstərmək olar:

1. Dövlət orqanı ümumi məqsəd və fəaliyyət birliyinə malik olan, vəzifə və səlahiyyətlərini dövlət büdcəsindən ödənişli əsaslarla həyata keçirən insanların birliyi (kollektivi), yaxud vətəndaşdır. Həmin şəxslər maddi nemətlər yaratmır, onlar dövlət orqanlarında tutduğu vəzifəyə uyğun olaraq xalqa xidmət edir. Dövlət orqanlarında vəzifələr funksiyalarının məzmunundan, səlahiyyətlərinin mənbəyindən və tutulması üsullarından asılı olaraq siyasi, xüsusi, inzibati və yardımçı vəzifələrə

bölünür. Dövlət orqanlarında xalqa qulluq edən şəxslərin hüquqi statusu qanunvericilik aktları ilə müəyyən olunur.

2. Dövlət orqanı-dövlət hakimiyyətini həyata keçirir. Dövlət hakimiyyətinin subyekti kimi dövlət orqanı icrası məcburi olan hüquqi aktlar qəbul etmək imkanına malikdir. Bu aktlar fərdi və normativ ola bilər. Dövlət orqanı həmin hüquqi aktların icrasının təşkilini müxtəlif metodlarla: inandırma, ictimai təsir, zəruri hallarda dövlət məcburetməsinin tətbiqi yolu ilə təmin edir.

Yuxarıda qeyd olundu ki, dövlət müəssisələri də dövlət hakimiyyətinin subyektləridir. Dövlət müəssisələri adətən dövlət orqanlarına tabe olsalar da, nisbi müstəqilliyə malikdirlər. Lakin əgər dövlət orqanında həyata keçirilən dövlət hakimiyyətinin obyekti kimi cəmiyyət, onun müəyyən bir hissəsi, fərdlər çıxış edirsə, dövlət müəssisəsinin rəhbər orqanında ifadə olunan hakimiyyətin obyekti yalnız həmin müəssisənin kollektividir.

3. Dövlət orqanı daxili struktura malikdir. Dövlət orqanının strukturu vahid məqsəd, ümumi və sahəvi prinsiplər, nizam-intizam ətrafında birləşən tərkib hissələrdən (bölmə, idarə və s.) ibarətdir. "Dövlət qulluğu" Məcəlləsinin layihəsində qeyd olunur ki, dövlət orqanının bölməsi- dövlət orqanının fəaliyyət istiqamətləri üzrə hüquq və vəzifələrin bir hissəsinin həyata keçirilməsini təmin edən dövlət orqanının aparatının struktur bölməsi və ya dövlət orqanının strukturuna daxil olan qurumdur. Demokratik dövlət hakimiyyətində dövlət orqanlarının strukturu qanunvericilik aktları ilə müəyyən olunur. Qanunvericilikdən kənar hər hansı struktur hissələrin yaradılması yolverilməzdir.

4. Hər bir dövlət orqanı qanunvericiliklə müəyyən olunmuş vəzifə və səlahiyyətlərə malikdir. Dövlət orqanının səlahiyyətləri həmin orqanın həyata keçirdiyi konkret vəzifə və funksiyalarla bağlıdır. Bu vəzifə və

funksiyalara uyğun olaraq hər bir dövlət orqanı özünəməxsus vəzifə və səlahiyyətlərə malikdir.

Demokratik dövlət hakimiyyətində dövlət orqanının səlahiyyətlərinin həyata keçirilməsi yalnız onun hüququ deyil, həm də vəzifəsidir. Vətəndaşların subyektiv hüquqları ilə dövlət orqanlarının subyektiv hüquqları (səlahiyyətləri) arasında bir mühüm fərq mövcuddur. Vətəndaşlar subyektiv hüquqlarından öz mülahizələrinə görə istifadə və yaxud ondan imtina edə bilər. Dövlət orqanı tərəfindən subyektiv hüququn həyata keçirilməsi isə həm də onun vəzifəsidir və dövlət orqanı bu səlahiyyətləri həyata keçirməyə bilməz. Bu cür yanaşmanın yalnız nəzəri deyil, həm də böyük praktiki əhəmiyyəti vardır. Belə ki, bu dövlət orqanlarının məsuliyyətini daha da artırır, onlar öz səlahiyyətlərini dövlət orqanlarına verilən bir güzəşt kimi yox, vəzifələrinin layiqincə həyata keçirilməsinin zəruri vasitələri kimi qəbul edirlər.

Dövlət orqanlarının vəzifə və səlahiyyətləri Konstitusiya, konstitusiya qanunları və cari qanunvericilik aktları ilə müəyyən olunur. Demokratik, hüquqi dövlətdə "əgər qanunla icazə verilmirsə, qadağandır" prinsipi dövlət orqanlarının hüquq subyektliliyinin əsasını müəyyən edir.

5. Dövlət orqanı dövlətin məqsəd və funksiyalarını həyata keçirir. Bu əlamət "Dövlət qulluğu haqqında" Məcəllənin layihəsində dövlət orqanına verilən anlayışda da öz əksini tapmışdır. Məsələn, burada qeyd olunur ki, dövlət orqanı- Azərbaycan Respublikasının məqsəd və funksiyalarını (dövlət idarəetmə və nəzarət funksiyalarını) həyata keçirən .... dövlət qurumudur. Bu definisiyanın interpretasiyası ilə bağlı aşağıdakı suallar yaranır:

- Dövlətin məqsədi nədir?
- Dövlətin funksiyaları nədir?

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan olunur. Bununla yanaşı, hesab edirik ki, Azərbaycan Respublikası Konstitusiyasının preambulasında bəyan olunan Azərbaycan xalqının niyyətləri: dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq və s. Azərbaycan Respublikasının məqsədləri kimi qəbul oluna bilər. Belə ki, Azərbaycanda xalq və dövlət anlayışları sinonimdir.

Dövlətin funksiyalarına gəldikdə isə hesab edirik ki, "Dövlət qulluğu" Məcəlləsinin layihəsi dövlətin funksiyaları ilə dövlət hakimiyyətinin funksiyalarını qarışıq salır. Layihədə dövlətin funksiyası dövlət idarəetmə və nəzarət funksiyalarına bölünür. Bu funksiyalar dövlət hakimiyyəti üçün xarakterikdir. Vahid dövlət hakimiyyətinin nisbətən müstəqil sahələrə bölünən hər bir qolu həm idarəetmə, həm də nəzarət funksiyalarını həyata keçirir.

Dövlət hakimiyyətinin, dövlət idarəetməsinin həyata keçirilməsinin özü sözün geniş mənasında dövlətin funksiyalarının həyata keçirilməsi deməkdir. Hüquq nəzəriyyəsi, Konstitusiya hüququ nəzəriyyəsi sahəsində əksər alimlər dövlətin idarəetmə və nəzarət funksiyalarını dövlətin funksiyalarının həyata keçirilmə formaları kimi qeyd edirlər.

Demokratik dövlət istər ölkə daxilində, istərsə də xaricində, yəni dövlətlərarası münasibətlərində xalqın mənafeyini müdafiə etməlidir. Bununla əlaqədar olaraq dövlətin iki əsas funksiyası-daxili və xarici funksiyası fərqləndirilir. Bu yanaşmadan çıxış edən nəzəriyyəçilərin bir

çoxu daxili funksiyalara iqtisadi, sosial, ekoloji, hüquq mühafizəedici və ya hüquq qaydasının mühafizəsi, siyasi funksiyaları aid edirlər. Bu cür geniş yanaşmanın tərəfdarları onu əsas götürürlər ki, sadalanan həmin funksiyalar dövlətin mövcud olduğu bütün dövrlərə aid olan funksiyalardır. Belə hesab olunur ki, iqtisadiyyatın sabit axarda tənzimlənməsi və inkişaf etdirilməsi (iqtisadi funksiya), dövlət suverenliyinin qorunub saxlanması, cəmiyyətin idarə olunması (siyasi funksiya), insanların sosial tələbatlarının ödənilməsi məqsədilə bu və ya digər tədbirlərin həyata keçirilməsi (sosial funksiya), ətraf mühitin qorunması, təbiətdə pozulmuş balansın bərpa edilməsi (ekoloji funksiya), ictimai təhlükəsizliyin təmin edilməsi, pozulmuş insan və vətəndaş hüquq və azadlıqlarının bərpası və hüquq pozuntularının qarşısının alınması, hüquq pozuntularına görə məsuliyyət məsələlərinin həll edilməsi (hüquq qaydasının mühafizəsi və ya hüquq mühafizəedici funksiya), əhali arasında maarifləndirmə işinin təşkil edilməsi, təhsilin, elmin, mədəniyyətin inkişaf etdirilməsi ilə bağlı müəyyən fəaliyyətin həyata keçirilməsi (ideoloji funksiya) həmin funksiyalarla bağlı fəaliyyətin hansı məzmunda təzahür olunmasından asılı olmayaraq hər bir dövlətdə mövcuddur. Müasir demokratik dövlətlərdə isə həmin funksiyaların ümumsosiallığı daha da artır. Dövlətin funksiyaları sistemində ümumsosial funksiyaların rolu gücləndikcə cəmiyyətdəki maraqlar arasında ziddiyyətlərin həll edilməsi, ictimai kompromisin əldə olunması daha demokratik xarakter alır, hüquqi dövlət, hüququn aliliyi ideyaları daha çox reallaşır.

Xarici funksiyalar beynəlxalq aləmdə dövlət fəaliyyətinin əsas istiqamətlərini özündə təcəssüm etdirir. Onlar dövlətin aşağıdakı vəzifələrini həll etməyə xidmət edir, başqa dövlətlərlə normal münasibətlərin müəyyən edilməsi və saxlanması, mümkün xarici təcavüzdən ölkənin

müdafiəsinin təmin edilməsi. Göstərilən vəzifələrə uyğun olaraq, dövlətin iki əsas xarici funksiyası fərqləndirilir: başqa dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlıq və xarici hücumdan ölkənin müdafiəsi.

Xarici funksiyalar dövlətlərarası, həmçinin dövlətlə beynəlxalq və regional təşkilatlar arasındakı münasibətlərin tənzimlənməsində ifadə olunmaqla dövlətin xarici siyasətinin əsas istiqamətlərin əks etdirir. Dövlətin digər dövlətlər və beynəlxalq təşkilatlarla xarici əlaqələrini həyata keçirən orqanlar dövlətdaxili və xarici orqanlara ayrılır.

Daxili orqanlar daim həmin dövlətin ərazisində fəaliyyət göstərən xarici əlaqə orqanlarıdır. Bu orqanlar öz növbəsində iki növə ayrılır:

1) dövləti bütün məsələlər üzrə təmsil edən orqanlar;

2) dövləti hər hansı bir sahə üzrə təmsil edən orqanlar.

Birinci qrupa Dövlət başçısı, Nazirlər kabineti və Xarici Işlər Nazirliyi daxildir.

Azərbaycan Respublikası Konstitusiyasına görə, Azərbaycan Respublikasının Prezidenti «ölkənin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edir» (8-ci maddənin I hissəsi); 109-cu maddəyə əsasən, Prezident «Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndəliklərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələrini təyin edir və geri çağırır (15-ci bənd); xarici ölkələrin diplomatik nümayəndələrinin etimadnamə və övdətnamələrini qəbul edir (16-cı bənd); dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlayır, dövlətlərarası beynəlxalq müqavilələri təsdiq və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir; təsdiqnamələri imzalayır (17-ci bənd); Azərbaycan

Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır (30-cu bənd).

Azərbaycan Respublikasının Hökuməti xarici siyasətin həyata keçirilməsinin təmin edilməsi üzrə tədbirlər həyata keçirir. Hökumətlərarası və dövlətlərarası müqavilələr müvafiq olaraq baş nazir və nazirlik və ya idarə başçısı tərəfindən imzalanır və Hökumət tərəfindən təsdiq olunur.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bilavasitə xarici əlaqələri həyata keçirən əsas orqandır və 2001-ci il iyunun 8-də qəbul olunmuş «Diplomatik xidmət haqqında» Qanunun 2.2-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının vahid sisteminə rəhbərlik edir. «Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında» Əsasnamədə göstərilir ki, «Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının başqa dövlətlərlə və beynəlxalq təşkilatlarla əlaqələrinə rəhbərlik edən dövlət idarəetmə orqanıdır. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsi, Azərbaycan Respublikasının xarici əlaqələr sahəsində işinin təşkili və vəziyyətin üçün məsuliyyət daşıyır».

Parlamentə gəldikdə isə, qeyd etmək lazımdır ki, xarici siyasət məsələlərində bu orqan da mühüm rol oynayır. Parlament bu və ya digər aktual beynəlxalq məsələlərə öz münasibətini bildirir, digər ölkələrin parlamentlərinə müraciət qəbul edir, beynəlxalq parlament təşkilatlarının (məsələn, Avropa parlamentinin, Avropa Şurasının Parlament Assambleyasının və s.) işində iştirak edirlər. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasının Milli Məclisi dövlətlərarası və qanunlardan fərqli qaydalar nəzərdə tutan hökumətlərarası

müqavilələrin təsdiq və ləğv edilməsini həyata keçirir (maddə 95 I hissə 4-cü bənd).

Xarici əlaqələri həyata keçirən dövlətdaxili orqanların ikinci qrupuna, əsas etibarilə, İqtisadi inkişaf Nazirliyi (Xarici investisiyalar və beynəlxalq iqtisadi əməkdaşlıq departamenti), Dövlət gömrük komitəsi və b. aiddir. Digər nazirlik və idarələr də dövlətdaxili qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində dövləti onun xarici əlaqələrində təmsil edirlər.

Xarici orqanlar dövlətin ərazisindən kənarda yerləşən və dövlətin özünün, onun vətəndaşlarının və hüquqi şəxslərinin hüquq və mənafelərini həyata keçirən dövlət orqanlarıdır. Bu orqanlar öz növbəsində aşağıdakı növlərə bölünür:

Daimi orqanlar: dövlətin diplomatik nümayəndəlikləri, konsulluq nümayəndəlikləri, beynəlxalq təşkilatlar yanında daimi nümayəndəlikləri;

Müvəqqəti orqanlar: təntənəli tədbirlərdə, danışıqlar aparılmasında və s. iştirak etmək üçün digər dövlətlərə göndərilən xüsusi missiyalar, beynəlxalq konfranslarda və ya beynəlxalq orqanların işində iştirak etmək üçün göndərilən nümayəndə heyətləri və s.

6. Dövlət orqanı konstitusiya, konstitusiya qanunları, cari qanunvericilik aktları əsasında yaradılan və fəaliyyət göstərən dövlət aparatının nisbətən müstəqil, tamamlanmış struktur hissəsidir.

Demokratik siyasi rejimdə dövlət orqanları qanunvericiliyə uyğun xalq tərəfindən birbaşa seçkilər yolu ilə və suveren xalqın seçdiyi səlahiyyətli nümayəndələri tərəfindən yaradılır. Vətəndaş cəmiyyətində dövlət hakimiyyəti sistemində üstün rol Ali nümayəndəli orqanlara: Prezident və Parlamentə məxsusdur. Xalqı təmsil etmək, onun adından danışmaq və müraciət etmək yalnız bu orqanların hüququdur.

Yuxarıda qeyd olundu ki, dövlət orqanı dövlət aparatının nisbətən müstəqil, tamamlanmış strukturdur. Bu əlamət dövlət orqanının digər dövlət təşkilatlarından məsələn, dövlət müəssisələrindən fərqləndirir. Dövlət orqanlarının müstəqilliyi hər şeydən əvvəl hakimiyyət qollarının müstəqilliyi ilə müəyyən olunur. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin II hissəsinə görə qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Eyni zaman dövlət orqanlarının struktur müstəqilliyi dövlət aparatının vəhdəti prinsipini də inkar etmir. Dövlət orqanları dövlət aparatının digər elementləri ilə qarşılıqlı əməkdaşlıq əsasında fəaliyyət göstərir. Yalnız belə bir şəraitdə dövlət orqanları öz vəzifə və səlahiyyətlərini səmərəli həyata keçirə, dövlətin vəzifə və funksiyalarını gerçəkləşdirə bilər.

Dövlət orqanları vəzifə və funksiyalarına, səlahiyyətlərinə və digər xüsusiyyətlərinə görə fərqlənsələr də ümumilikdə onlar vəhdət təşkil edir. Bu da öz növbəsində dövlət hakimiyyəti orqanlarının vahid mənbəyə-xalq suverenliyinə əsaslanması, vahid məqsəd və prinsiplər ətrafında birləşməsində ifadə olunur.

Müasir normativ, nəzəri, empirik ədəbiyyatlarda həm dövlət hakimiyyəti orqanı, həm də dövlət orqanı terminlərinin istifadə olunması, dövlət hakimiyyəti sistemində heç bir hakimiyyət qoluna daxil olmayan orqanların yaradılması (məsələn, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman), Mərkəzi Seçki Komissiyası, Korrupsiyaya qarşı mübarizə Komissiyası, Məhkəmə-Hüquq Şurası), müəyyən hallarda mərkəzi hakimiyyət orqanları yanında məşvərətçi, yardımçı orqanların təşkili (məsələn, Azərbaycan Respublikasının prezidenti yanında

Təhlükəsizlik Şurası, Qeyri hökumət Təşkilatlarına dövlət dəstəyi Şurası, Apelyasiya Şurası, Dövlət sirrinin mühafizəsi üzrə idarələrarası Komissiya, Əfv Komissiyası və s.) yaradılması, elmdə dövlət hakimiyyəti orqanı və dövlət orqanı anlayışlarının fərqləndirilməsi polemikasına səbəb olmuşdur.

Yuxarıda göstərilən amilləri rəhbər tutan tədqiqatçıların mülahizələrinə görə dövlət hakimiyyəti orqanlarından fərqli olaraq dövlət orqanları dövlət hakimiyyətinə malik olmurlar.

Birincisi qeyd olunmalıdır ki, həqiqətən dövlət hakimiyyəti mexanizmində elə dövlət orqanları var ki, onların hakimiyyətlər bölgüsü sistemində yeri barədə qanunvericilikdə qeyri müəyyənliklər mövcuddur. Lakin, bu heç də o demək deyildir ki, həmin orqanlar dövlət hakimiyyətinin subyekti sayıla bilməz. Yuxarıda qeyd olundu ki, dövlət müəssisələrindən fərqli olaraq dövlət orqanlarında mövcud hakimiyyətin obyekti yalnız onun kollektivi deyil, həmçinin həmin orqanın xaricində olan fiziki, hüquqi şəxslər, dövlət və qeyri dövlət təşkilatları ola bilər. Bu kontekstdə üç hakimiyyət qolunun heç birinə daxil olmayan dövlət orqanları da dövlət hakimiyyətini həyata keçirir və daxili struktur hissələrinə nisbətdə hakimiyyət səlahiyyətlərinə malikdirlər.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında Konstitusiya qanunun müddəalarına görə Ombudsman İnsan hüquqlarının pozulması faktını müəyyən etdikdə özü bilavasitə məcburetmə tədbirləri görə bilməsə də, lakin inandırma da daxil olmaqla məcazi formada təsnifi məcburetmə tədbirlərini görə bilər.

Həmçinin Mərkəzi Seçki Komissiyası, Məhkəmə hüquq Şurası da normativ xarakterli aktlar qəbul edə bilər. Bütün bunlar onu göstərir ki, hər bir dövlət orqanı dövlət

hakimiyyətini həyata keçirir və bunun üçün özünəməxsus hakimiyyət səlahiyyətlərinə malikdir. Bu kontekstə, zənnimizcə dövlət hakimiyyəti orqanı və dövlət orqanı anlayışları arasında fərq yoxdur.

Bütün bunlara baxmayaraq dissertasiya işinin ötən paraqraflarında biz çalışdıq əsaslandıraq ki, hakimiyyətlər bölgüsü mexanizmindən kənar hər hansı dövlət orqanının yaradılması məqsədəuyğun deyildir. Belə ki, demokratik dövlət rejimində dövlət hakimiyyəti mexanizmi hakimiyyətlər bölgüsü konsepsiyasına uyğun olmur, burada hakimiyyət budaqları arasında tarazlıq və çəkindirmə sistemi yaradılır və üç hakimiyyət qolundan kənar dövlət orqanının yaradılması bu sistemdən kənar qala bilər ki, bu da onun səmərəli fəaliyyətinə mənfi təsir göstərə bilər.

İkincisi, həqiqətən Azərbaycanın dövlət idarəçiliyi təcrübəsində Ali və sahəvi mərkəzi hakimiyyət orqanları yanında dövlət orqanlarının (məsələn, Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyası, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Əyar Palatası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Əmək Müfəttişliyi, Azərbaycan Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya-kollegial orqan, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası-ixtisaslaşmış orqan və s.) və qanunvericilikdə məşvərətçi, yardımçı və ictimai əsaslarla fəaliyyət göstərən orqanlar (məsələn, Azərbaycan Prezidenti yanında Təhlükəsizlik Şurası məşvərətçi orqan, Azərbaycan Prezidenti yanında ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən Apelyasiya şurası, Azərbaycan Respublikası Milli Məclisinin Aparatı, Konstitusiya Məhkəməsinin Aparatı və s.) yaradılmasını müşahidə etmək mümkünüdür. Bu orqanlar əsas dövlət hakimiyyəti

orqanlarının səmərəli işini tımin etmək üçün köməkçi(yardımcı) orqanlar kimi yaradılaraq onların struktur elementi kimi çıxış edir. Hesab edirik bu cür orqanlar tərkibinə daxil oldüğü dövlət orqanları ilə birgə xarakterizə edilməli və həmin əsa orqanın struktur bir elementi kimi qəbul olunmalıdır. Zəruri hallarda bu orqanların qərarları strukturuna daxil oldüğü əsas orqanın hüquqi aktı ilə təmin olunur. Məsələn, Azərbaycan Prezidenti yanında Təhlükəsizlik Şurası. Təhlükəsizlik Şurası Prezidentin yanında məşvərətçi orqandır. O, Azərbaycan Respublikası Konstitusiyanın 109-cu maddəsinin 27-ci bəndinə uyğun olaraq Prezident tərəfindən yaradılır. Təhlükəsizlik Şurası vətəndaşların hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunması sahəsində Prezidentin öz Konstitusiya səlahiyyətlərini həyata keçiriməsinə şərait yaradılmasını təmin edir.

Digər orqan Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasıdır. Bu orqan sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı müraciətlərinə baxılması sahəsində çox pilləliyin təmin edilməsi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apelyasiya Şuralarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) yuxarı orqana şikayətlərin (bundan sonra-şikayət) verilməsi mexanizminin tənzimlənməsi məqsədi ilə yaradılmış və ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən kollegial orqandır.

Azərbaycan Respublikası Milli Məclisinin, Konstitusiya Məhkəməsinin daimi aparatı və işlər idarəsi Parlamentin, Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatını həyata keçirir.

Milli Məclisin Hesablama Palatası dövlət orqanları üçün xarakterik olan bütün əlamətlərə malikdir. Hesablama Palatası Milli Məclisə hesabat verən, daimi fəaliyyət göstərən dövlət büdcə-maliyyə nəzarəti orqanıdır. Hesablama palatası təşkilati və funksional müstəqilliyə malikdir.

Azərbaycan Respublikasının qanunvericiliyi və dövlət idarəçiliyi təcrübəsinə görə müxtəlif meyarlar əsasında dövlət orqanlarının aşağıdakı təsnifatını aparmaq olar:

1. Formalaşdırma üsuluna görə Seçkili (məsələn, Azərbaycan Respublikasının Prezidenti və Milli Məclisi, Azərbaycan Respublikasının Ombudsmanı, NMR Ali Məclisi) və təyin olunan (Azərbaycan Respublikasının Nazirlər Kabineti, Nazirliklər, Məhkəmələr və s.) dövlət orqanları fərqləndirilir;

2. Qərarlar qəbul etmə qaydasına görə kollegial orqanlar (məsələn, Azərbaycan Respublikasının Milli Məclisi, Nazirlər Kabineti, Konstitusiya Məhkəməsi və s.) və təkbaşçılıq prinsipi əsasında fəaliyyət göstərən orqanlar (Azərbaycan Respublikasının Prezidenti)

3. Səlahiyyətlərinin xarakterinə görə ümumi səlahiyyətli (məsələn, Azərbaycan Respublikasının Prezidenti, Milli Məclisi, Nazirlər Kabineti və s.) və xüsusi səlahiyyətli-sahəvi (məsələn, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə nazirliyi və s.) dövlət orqanları fərqləndirilir.

4. Hakimiyyətlər bölgüsü prinsipinə görə qanunvericilik hakimiyyəti orqanları (Milli Məclis, Naxçıvan Muxtar respublikasının Ali Məclisi), icra hakimiyyəti orqanları (Prezident, Nazirlər Kabineti, Nazirliklər və s.), məhkəmə hakimiyyəti orqanlarını (Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Apelyasiya Məhkəmələri və s.) ayırmaq olar.

5. Ərazi əlamətinə görə-hakimiyyət səlahiyyətləri bütün ölkə ərazisinə şamil olunan Ali və mərkəzi dövlət orqanları (Prezident, Milli Məclis, Nazirlər kabineti, nazirliklər və s.), səlahiyyətləri Muxtar Respublikanın ərazisinə şamil olunan Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Nazirlər Kabineti, Ali Məhkəməsi və s. yerli dövlət orqanları (yerli icra hakimiyyəti orqanları, rayon (şəhər) məhkəmələri və s.) fərqləndirilir.

6. Dövlət qulluğu Məcəlləsinin layihəsində müxtəlif meyarlar əsasında, yəni dövlət orqanlarının statusu, iyerarxiyası və yurisdiksiyası (ölkə, regional və yerli səviyyədə) nəzərə alınmaqla dövlət orqanlarının aşağıdakı kateqoriyalar üzrə təsnifatlaşdırılması aparılır:

- əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin III hissəsinə əsasən müəyyən edilən Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyətinin ali dövlət orqanları, habelə yuxarı icra orqanı-Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən və icra səlahiyyətlərini həyata keçirən orqanlar, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi (ali kateqoriya dövlət orqanları);

- əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Konstitusiya qanunları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən dövlət orqanları-Azərbaycan Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Azərbaycan Respublikasının Baş Prokurorluğu, Azərbaycan Respublikasının Hesablama Palatası, Məhkəmə-Hüquq Şurasının Aparatı, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) Aparatı (1-ci kateqoriya dövlət orqanları);

- əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Konstitusiya

qanunları, Azərbaycan Respublikasının qanunları ilə və Azərbaycan Respublikasının Konstitusiyasının 113-cü maddəsi ilə müəyyən edilən dövlət orqanları-Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı, Azərbaycan Respublikasının Hərbi Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) Aparatı, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatı, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyi, müvafiq icra hakimiyyəti orqanları, Milli Televiziya və Radio Şurasının Aparatı (2-ci kateqoriya dövlət orqanları);

- əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 124-cü maddələri ilə və qanunla müəyyən edilən dövlət orqanları-müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) regional mərkəzləri, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasının Aparatı, Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə idarəsi, Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanları, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının Aparatı, ağır cinayətlər məhkəmələri, inzibati-iqtisadi məhkəmələr, hərbi məhkəmələr, Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu, Bakı şəhər prokurorluğu (3-cü kateqoriya dövlət orqanları);

- əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü, 120-ci və 124-cü maddələri ilə və qanunla müəyyən edilən dövlət orqanları-müvafiq icra hakimiyyəti orqanları, müvafiq icra hakimiyyəti

orqanlarının yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar, rayon (şəhər) məhkəmələri, rayon (şəhər) prokurorluqları və hərbi prokurorluqlar (4-cü kateqoriya dövlət orqanları);

- əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 124-cü maddələri ilə müəyyən edilən dövlət orqanları-müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri (5-ci kateqoriya dövlət orqanları).

Demokratik dövlət hakimiyyəti mexanizminin mühüm elementi sayılan dövlət orqanları birlikdə mürəkkəb bir sistem təşkil edir. Qeyri demokratik rejimlərdə bu sistem xalqdan uzaqlaşır, ondan yüksəkdə dayanır və xalqı özünə tabe etməyə çalışır. Demokratik rejimdə isə dövlət aparatı cəmiyyətə xidmət edir, xalq hakimiyyətinin əsas təşkilati forması kimi çıxış edir. Bu mühüm vəzifələri layiqincə yerinə yetirmək, xalqın maraq və mənafelərini, insan və vətəndaş hüquq və azadlıqlarını səmərəli vətəndaş hüquq və azadlıqlarını səmərəli təmin etmək üçün dövlət orqanlarının təşkili və fəaliyyəti müəyyən obyektiv prinsiplərə əsaslanmalıdır. Dövlət aparatının bu prinsipləri ümumilikdə dövlət hakimiyyəti mexanizminin təşkili və fəaliyyəti prinsipləri kimi qəbul oluna bilər.

Dövlət aparatının prinsipləri dedikdə dövlət orqanlarının təşkili və fəaliyyəti prosesində rəhbər götürülən ilkin ideyalar, tələblər başa düşülür. Bu prinsiplər dövlət aparatının mahiyyətini, məzmununu, sosial təyinatını, əsas məqsəd və vəzifələrini ifadə edir. Dövlət aparatının ümumi (yəni bütün dövlət orqanlarına aid olan) və xüsusi (bir və yaxud bir neçə orqanların təşkilində istifadə olunan) prinsipləri fərqləndirilir:

1. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunan prinsiplər (məsələn, xalq suverenliyi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı, respublikaçılıq, unitarizm, dünyəvilik və s.) dövlət hakimiyyəti mexanizminin ümumi prinsipləri kimi qəbul oluna bilər.

Dövlət aparatının xüsusi prinsipləri də Azərbaycan Respublikasının Konstitusiyasında (məsələn: təqsirsizlik prezumpsiyası, məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsi qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla cinayət işlərinin qiyabi məhkəmə icraatına yol verilməməsi (mad. 127) və s.) və c ari qanunvericilik aktlarında (məsələn: prokurorluq haqqında qanunun 5-ci maddəsində vahidlik və mərkəzləşdirmə, ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikasının Baş prokuroruna tabe olması, siyasi bitərəflik prinsipləri; Polis haqqında Qnunun 4-cü maddəsində göstərilən, təkbaşçılıq prinsipin və s.) təsbit olunan prinsiplərə bölünür.

Monoqrafiyanın mövzusuna uyğun olaraq demokratik dövlət hakimiyyəti mexanizminin təşkili prosesində bu prinsiplərin böyük əhəmiyyətini nəzərə alaraq dövlət aparatının ümumi Konstitusiya prinsiplərinin daha geniş tədqiq olunmasını zəruri hesab edirik. Ümumi prinsiplər yalnız dövlət aparatının deyil həmçinin bütöv dövlət hakimiyyəti mexanizmini prinsipləri kimi xarakterizə oluna bilər.

Dövlət aparatının ümumiləşdirici, inteqrativ Konstitusiya prinsipi xalq suverenliyidir. Bütün dövlət hakimiyyəti orqanlarının yeganə mənbəyi xalqdır. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək xalqın suveren hüququdur. Xalq bilavasitə referendum yolu ilə konstitusiya və qanunlar, dövlət həyatının ən mühüm məsələlərinə dair qərarlar qəbul edir. Onun qəbul etdiyi Konstitusiya və qanunlar normativ

hüquqi aktlar sistemində ən yüksək hüquqi qüvvəyə malikdir. Xalqın Konstitusiya əsasında bütöv dövlət hakimiyyəti mexanizmi təşkil olunur, xalq ümumi bərabər və birbaşa seçki hüququ əsasında Ali dövlət hakimiyyəti orqanlarına öz nümayəndələrini seçir. Həmin orqanlar isə digər dövlət orqanlarının tərkibini formalaşdırır və onların fəaliyyətinə rəhbərlim edir.

Hesab edirik ki, xalq suverenliyi dövlət aparatının inteqrativ prinsipidir və qanunçuluq insan hüquqlarının təminatı, hakimiyyətlər bölgüsü, demokratizm, respublikaçılıq, unitarlıq, dünyəvilik, aşkarlıq və s. prinsiplər xalq suverenliyinin konkret təzahürləridir.

Dövlət aparatının təşkili və fəaliyyəti prosesində xalq suverenliyinin konkret təzahürləri kimi aşağıdakı ümumi konstitusiya prinsiplərinin xüsusi tədqiqini vacib sayırıq:

1. Qanunçuluq prinsipi.

Müasir hüquq nəzəriyyəsində qanunçuluq dövlət və ictimai həyatın təşkili prinsipi, dövlət idarəetmə metodu və hüquq münasibətlərinin bütün subyektləri tərəfindən qanunların dəqiq və dönmədən icrasını təmin edən xüsusi rejim mənalarında izah olunur . Hesab edirəm ki, qanunçuluğun anlayışına dair mövcud olan fikir plüralizmi heç də ziddiyyətli deyil, əksinə bu cür baxışlar bir-birini tamamlayır və qanunçuluq kimi bütöv bir hüquqi hadisəni formalaşdırır.

Qanunçuluğun tərifinə dair müxtəlif baxışların olmasına baxmayaraq praktiki olaraq onların hər birində qanunçuluğun mahiyyətini təşkil edən ictimai münasibətlərin bütün iştirakçıları tərəfindən hüquq normalarının göstərişlərinə ciddi sürətdə əməl etmək tələbi dayanır.

Bununla yanaşı hüququn realizəsi, hüquqi göstərişlərin həyata keçirilməsi heç də formal tələb olmayıb, cəmiyyətin və dövlətin normal fəaliyyətinin, ictimai

qaydanın, hüquq qaydasının və dövlət intizamının təmin olunmasının əsas amili kimi çıxış edir. Yalnız möhkəm qanunçuluq şəraitində ictimai və dövlət həyatında ədalətlilik, humanistlik və azadlıq ideyaları bərqərar oluna bilər.

Bu kontekstdə geniş sosial-siyasi anlamda qanunçuluq ictimai-siyasi həyatın rejimi hesab oluna bilər. Bu elə bir rejimdir ki, burada hüquq subyektlərinin fəaliyyəti qanuna əsaslanır və hüququn ədalətlilik, humanistlik, azadlıq və məsuliyyət ideyaları şəxsi maraqlardan üstün dayanır.

Qanunçuluq elə bir mənəvi-siyasi mühitdir ki, hüquqi tələblərin yerinə yetirilməsi, vətəndaşların hüquq və azadlıqlarının reallığı və toxunulmazlığı, cəmiyyətin, vətəndaşların həyat tərzinin əsasını təşkil edir.

Beləliklə, hüquqi dövlətdə qanunçuluq recimi bir-birini tamamlayan iki əsas faktoru ehtiva edir:

1) ictimai inkişafın tələblərinə cavab verən təkmil qanunvericiliyin mövcudluğu;

2) qanun və qanunqüvvəli aktların göstərişlərinin tam və qeyd-şərtsiz həyata keçirilməsi.

Qanunçuluğun möhkəmləndirilməsi nəzəriyyəsi və praktikası üçün mühüm əhəmiyyət daşıyan məsələlərdən biri də qanunçuluğun tələbləri və prinsipləri suallarının aydınlaşdırılmasıdır. Əsas etibarilə qanunçuluğun tələbləri və hüququn prinsipləri üst-üstə düşür. Belə ki, onların realizəsi ictimai tənzimetmənin optimal rejimini yaradır.

«Qanunçuluğun tələbləri» terminə son vaxtlar elmi-hüquqi ədəbiyyatlarda tez-tez rast gəlinir. Bu tələblərin məzmununa cəmiyyətin hüquqi həyatının elə bir prinsipial müddəaları daxil edilir ki, onlarsız real qanunçuluğun mövcudluğu qeyri mümkündür.

Qanunçuluq hüquq münasibətlərinin subyektlərindən aşağıdakıları tələb edir:

1. İctimai və dövlət həyatında hüququn aliliyi ideyasını təmin etmək. Qanunçuluq rejimində ictimai münasibətlərin nizamlanmasında əsas rol hüquqa məxsusdur. Burada sosial tənzimetmənin əsasında şəxsi, ideoloji, siyasi və s. oxşar motivlər yox, məhz hüquq dayanır. Lakin bu heç də o demək deyildir ki, bütün münasibətlər hüquqi təsirə məruz qalmalıdır. Demokratik, hüquqi dövlətdə yalnız obyektiv zərurət olduğu halda ictimai münasibətlərin hüquqi tənziminə üstünlük verilir.

Bəzən müəlliflər qanunçuluğun mahiyyətini hüququn subyektləri tərəfindən yalnız qanunlarda göstərilən tələblərin yerinə yetirilməsi ilə əlaqələndirirlər. Əslində isə bu cür fikirlə tam şəkildə razılaşmaq olmaz. Çünki belə bir mövqeyin qəbul edilməsi qanunçuluğun definisiyasından qanuntabeli normativ-hüquqi aktlara əməl etmənin vacibliyinin çıxarılması mənasını verə bilərdi ki, bu da son nəticədə labüd olaraq ölkədə qanunçuluq rejiminin zəifləməsinə gətirib çıxarardı. Hüququn aliliyi ideyası həm qanunların, həm də qanuntabeli normativ-hüquqi aktların təmin olunmasının zəruriliyini ehtiva edir.

Lakin, ictimai həyatın bütün sahələrində hüququn aliliyi barədə danışarkən unutmaq olmaz ki, nəzəri kontekstdə qanun, normativ-hüquqi akt və hüquq anlayışları üst-üstə düşmür.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Konstitusiyasında vurğulanır ki, normativ-hüquqi aktlar hüquqa və haqq-ədalətə əsaslanmalıdır. Yalnız bu halda möhkəm qanunçuluq rejimindən söhbət gedə bilər. Ölkəmizdə aparılan hüquqi islahatların, hüquqyaratma fəaliyyətinin əsasında da elə məhz bu ideyalar dayanır.

Azərbaycan Respublikasının qanunvericilik sistemi hüququn demokratik prinsipləri, ümumbəşəri dəyərlər əsasında formalaşır. Bu da öz növbəsində ölkəmizdə

qanunçuluğun daha da möhkəmləndirilməsi üçün yaxşı zəmin yaradır.

2. Qanunçuluğun mühüm tələblərindən biri də qanunun digər normativ-hüquqi aktlara nisbətən üstünlüyü prinsipinin təmin edilməsidir.

Hüquqi dövlətdə qanun ali hüquqi qüvvəyə malikdir və ictimai münasibətlərin tənzimində əsas rol oynayır. O münasibətlər ki, obyektiv olaraq hüququn təsir dairəsinə daxil edilir, adətən qanunla tənzimlənir. Qanunqüvvəli hüquqi aktlar isə yalnız həmin münasibətlər qanunla tənzimlənmədiyi hallarda qəbul olunur (qanun əsasında və qanunla müəyyən olunmuş formada).

Qanun-xalqın iradəsini, vətəndaş cəmiyyətinin maraqlarını ifadə edən, ali hüquqi qüvvəyə malik olan, səlahiyyətli dövlət orqanının hüquqyaratma aktıdır. Buna görə qanunçuluq ilk növbədə qanunların aliliyi ideyası ilə əlaqələndirilir. Bu kontekstdə qanunun tələblərinə zidd olan istənilən hüquqyaratma və hüquqtətbiqetmə aktlarının qəbulu qanunçuluğun pozulması kimi qiymətləndirilir. Bütün normativ-hüquqi aktlar qanunla müəyyən olunmuş qaydada və formada qəbul olunmalıdır. Yalnız bu zaman həmin hüquqi aktlar xalqın iradəsini, cəmiyyətin mənafeyini, hüququn əsas prinsiplərini ifadə edə və ölkədə möhkəm qanunçuluq rejimini təmin edə bilər.

Azərbaycan Respublikasının qanunvericilik sistemində ən yüksək hüquqi qüvvəyə malik olan qanun Konstitusiyadır. Məhz bu baxımdan Azərbaycan Respublikasında qanunçuluğunun məzmununa onun mühüm elementi kimi konstitusiya qanunçuluğu anlayışının da daxil edilməsi xüsusi önəm kəsb edir.

Ölkəmizdə Konstitusiya qanunçuluğu konsepsiyası aşağıdakıları ehtiva edir:

- Azərbaycan Respublikasının Konstitusiyası xalqımızın iradəsini, mənafeyini ifadə edir, ümumbəşəri

dəyərlərə əsaslanır, insan hüquqlarının və hər kəsin layiqli həyat səviyyəsinin təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edir. Dövlətimizin Əsas Qanunu ölkədə demokratik siyasi rejim formasını, siyasi, iqtisadi plüralizm, hakimiyyətlər bölgüsü, yerli özünüidarəetmə və s. ümumbəşəri dəyərləri özündə inteqrasiya edir;

- Azərbaycan Respublikasının Konstitusiyası normativ-hüquqi aktlar sistemində ən yüksək hüquqi qüvvəyə malikdir. Ölkəmizdə həyata keçirilən hüquqyaratma və hüquqtətbiqetmə prosesi Konstitusiyaya tam uyğun olmalıdır;
- Azərbaycan Respublikasının Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir;
- Konstitusiya qanunçuluğunu təmin etmək məqsədi ilə xüsusi Konstitusiya məhkəmə nəzarəti mexanizminin təsis olunması;

3. Demokratik, hüquqi dövlət quruculuğu şəraitində prinsipial əhəmiyyətə malik olan tələblərdən biri də qanunçuluğun və məqsədəuyğunluğun qarşı-qarşıya qoyulmasının yolverilməzliyidir.

Nə üçün qanunçuluğun və məqsədəuyğunluğun qarşı-qaşıya qoyulması yolverilməzdir?

İlk növbədə ona görə ki, hüquqa və haqq-ədalətə əsaslanan qanunun özü ən yüksək ictimai məqsədəuyğunluğu ilə fərqlənir və burada həm ictimai, həm də fərdi maraqlar maksimal dərəcədə nəzərə alınır.

Bu kontekstdə qanunçuluğun tələbinə müvafiq olaraq hüquqi dövlətdə hər bir halda qanuna əməl olunmalıdır. Məqsədəuyğunluq ideyası isə qanun əsasında və onun icrası prosesində realizə oluna bilər. Bu zaman qanun çərçivəsində elə bir tədbir görülməlidir ki, o yerli maraqları, fərdi xüsusiyyətləri nəzərə alaraq konkret hal üçün öz məqsədəuyğunluğu ilə seçilsin.

Əgər qanun ictimai inkişafın tələblərindən geri qalırsa, onda o müəyyən olunmuş qaydada dəyişdirilməlidir. Lakin nə qədər ki, qanun qüvvədədir, deməli onun göstərişləri də hamı üçün məcburidir. Köhnəlmiş qanun ləğv edilənə qədər heç bir kəs onu məqsədəuyğunsuzluq baxımından poza bilməz.

Hüquqtətbiqetmə subyektləri yalnız qanunverici orqan qarşısında köhnəlmiş qanunun ləğv edilməsi xahişi ilə çıxış edə bilər.

4. Qanunçuluğun ümumiliyi tələbi isə onun qanunçuluğun şəxslərə görə qüvvəsini xarakterizə edir. Qanunçuluq ayrı-seçkiliyə yol vermir və onun tələbləri istisnasız hüququn bütün subyektlərinə aiddir.

Hüququn göstərişlərinə bütün vətəndaşlar və onların yaratdığı birliklər, siyasi partiyalar, vəzifəli şəxslər, dövlət orqanları əməl etməlidirlər. Cəmiyyətdə elə bir təşkilat və yaxud insan ola bilməz ki, qanunçuluğun təsirindən kənarda qalsın.

Elmi-nəzəri ədəbiyyatlarda haqlı olaraq qeyd olunur ki, qanunçuluğun məzmunu əhəmiyyətli dərəcədə onun subyektlərinin tərkibindən asılıdır. Alimlərin əksəriyyəti qanunçuluğun anlayışını ictimai münasibətlərin bütün iştirakçılarının, yəni dövlət orqanları, vəzifəli şəxslər, ictimai təşkilatlar və vətəndaşların fəaliyyəti ilə bağlayırlar.

Lakin bu definisiyada vətəndaşları, bəzi hallarda isə ictimai təşkilatları istisna edən və bu tərkibi əhəmiyyətli dərəcədə məhdudlaşdıran təkliflər də səslənir. Hesab edirik ki, qanunçuluğun subyektiv tərkibindən kimlərinsə çıxarılması həmin şəxslərdə hüquqi göstərişlərin icra edilməsinin qeyri-vacibliyi barədə fikir yarada və son nəticədə qanunçuluq rejiminin pozulmasına gətirib çıxara bilər. Qanunçuluğun subyektiv tərkibinin məhdudlaşdırılması onun ümumiliyinə, hüquqi göstərişlərin

ümumməcburiliyinə, o cümlədən hər kəsin hüquq bərabərliyi ideyasına ziddir.

Müasir konsepsiyaya görə qanunçuluğun əksər tələbləri hər şeydən əvvəl dövlət hakimiyyəti orqanlarına ünvanlanır. Belə ki, hakimiyyət səlahiyyətinə malik olan dövlət orqanlarının, vəzifəli şəxslərin hüquqazidd fəaliyyəti qanunçuluğun əsaslarını sarsıdaraq şəxsiyyət və cəmiyyət üçün daha çox təhlükə doğurur. Lakin, əgər vətəndaşlar tərəfindən törədilən hüquqpozma halları kütləvi xarakter alarsa, onda cəmiyyətdə cinayətkarlığın səviyyəsi artar və bu da sözsüz ki, qanunçuluq reciminin pozulmasına səbəb olar.

5. Qanunçuluq rejiminin digər mühüm tələblərindən biri də ölkədə hüquq pozuntularına qarşı səmərəli mübarizənin təşkilidir.

Hüquqi dövlət hüquqpozuntularına qarşı səmərəli mübarizə aparmaq üçün zəruri maddi, siyasi, sosial və s. xarakterli tədbirlər həyata keçirir. Əhalinin yüksək maddi həyat şəraiti, etibarlı sosial müdafiəsi, ölkədə siyasi sabitlik, yüksək hüquq mədəniyyətinə malik olan ədalətli hüquq mühafizə orqanlarının mövcudluğu qanunçuluq rejiminin real əsasını təşkil edir.

Hüquq subyektlərinin, ölkə ərazisində yaşayan bütün insanların hüquq və azadlıqlarının, qanuni mənafelərinin bilavasitə müdafiəsi hüquq mühafizə orqanları tərəfindən həyata keçirilir.

Qanunçuluq anlayışına yaxın olan kateqoriyalardan biri də dövlət intizamıdır. Bu kateqoriyaların tam təcrid olunmuş halda mövcudluğu qeyri mümkündür. Çünki onlar bir-birini tamamlayır, digər kateqoriyaların əsas prinsip və tələblərinin reallaşmasına köməklik göstərir. Bütün bunlarla yanaşı nizam-intizam qanunçuluğa nisbətən daha geniş anlayışdır. Belə ki, o yalnız qanun və qanunqüvvəli aktların deyil, həm də bütün fərdi qayda və göstərişlərin, həmçinin

şifahi əmr, sərəncam və göstərişlərin yerinə yetirilməsini tələb edir. Nizam-intizamın mühüm hissələrindən biri də işçi tərəfindən çalışdığı təşkilatda əmək intizamına əməl etməsi, öz xidməti vəzifələrinin, ona həvalə olunmuş tapşırıqların vicdanla yerinə yetirilməsidir.

Təbii ki, nizam-intizam qanunçuluğu da ehtiva edir. Lakin bu kateqoriyalar nə qədər çox bir-birilə yaxın olsalar da, onları eyniləşdirmək olmaz. Qanunçuluq nizam-intizamın təməlidir, onsuz sonuncunu təsəvvür etmək belə qeyri mümkündür. Bu iki kateqoriya arasında ümumilik ondan ibarətdir ki, onların hər ikisi cəmiyyət üçün obyektiv zəruriliyə malikdir, bir çox hallarda eyni funksiyalar yerinə yetirirlər.

2. Demokratizm prinsipi dövlət aparatının bütün həlqələrində xalqın mənafelərinin təmsil edilməsi, demokratik seçki sistemi vətəndaşların mülki və siyasi sosial-iqtisadi və mədəni hüquq və azadlıqlarının səmərəli təminat sistemi, irqindən, mülkiyyətindən, dinindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, habelə işgüzarlıq keyfiyyətlərinə aid olmayan başqa səbəblərdən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının dövlət orqanlarında qulluq etmək hüququnun təmin olunmasında ifadə olunur. Demokratizm prinsipi Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında bilavasitə və ya nümayəndələri vasitəsilə iştirak etmək hüququnu ehtiva edir.

Müasir dövrdə inkişaf etmiş ölkələrdə dövlət aparatının fəaliyyətində demokratizm prinsipinin təzahürü kimi Elektron Hökumətin formalaşdırılması hesab edilir. Elektron hökumət-informasiya cəmiyyətinə xas olar, informasiya-telekommunikasiya texnologiyalarının imkanlarına və vətəndaş cəmiyyətinin dəyərlərinə əsaslanan dövlət idarəçiliyidir. Demokratiya yolunda inkişaf edən ölkələrdə (ABŞ, Böyük Britaniya, İsveç və s.) elektron

hökumətə ümumilikdə dövlətin fəaliyyətinin effektivliyinin artırılmasına yönəlmiş bir konsepsiya kimi baxılır.

Hazırda "elektron hökumət" quruculuğunun yüksək pillələrində olan Sinqapur, Koreya, İsveç kimi ölkələrdə belə elektron xidmətlərin təkcə dövlət hakimiyyəti orqanlarının deyil, eyni zamanda yerli özünüidarəetmə orqanlarının və özəl şirkətlərin xidmətlərini əhatə etdiyini və sayının 1500-ü keçdiyini nəzərə alsaq elektron xidmətlərin tətbiqi nəticəsində insanların həyatının nə qədər rahatlaşdığını nə qədər zaman, maliyyə, enerji və s. ehtiyatlara qənaət edildiyini təsəvvür etmək çətin olmaz.

1. Dövlət aparatənən fəaliyyətində insan hüquqlarının təminatı prinsipi.

Müasir şəraitdə hər bir dövlətin demokratik imici onun insan hüquqlarına münasibəti, həmin dövlətdə insan hüquqlarının vəziyyəti ilə müəyyən edilir. Demokratiya və insan hüquqları bir-biri ilə qırılmaz surətdə bağlıdır və biri-digərini şərtləndirir. Azərbaycan Respublikası məhz bu prinsipləri əldə rəhbər tutaraq və demokratik hüquqi dövlət qurmağı ən ümdə vəzifələrdən biri hesab edərək, insan hüquqlarının müasir konsepsiyasını ölkənin əsas qanunu səviyyəsində tanımış və onun adekvat normativ əsasını yaratmışdır. Dövlət həyatının bütün sahələrində o cümlədən, dövlət hakimiyyəti mexanizminin fəaliyyətində ən yüksək hüquqi qüvvəyə malik olan Konstitusiyamızda insan hüquqlarının və hər kəsin layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilmişdir (maddə 12, I hissə). Konstitusiyanın «Əsas insan və vətəndaş hüquqları və azadlıqları» adlanan 48 maddədən (24-71 mad.) ibarət III fəslinin mətni insana, insan ləyaqətinə, insan hüquqlarına hörmət ruhunda yazılmışdır.

Bəşər sivilizasiyasının iki mütərəqqi ideyası-konstitusionalizm1 və insan hüquqlarının müdafiəsi ideyalarının üzvi bağlılığı Azərbaycan Respublikasının Konstitusiyasında öz layiqli ifadəsini tapmışdır.

Konstitusionalizm konsepsiyasına görə Konstitusiya normativ aktlar sistemində ali hüquqi qüvvəyə malikdir və dövlətin hüquqyaratma fəaliyyəti ona uyğun aparılmalıdır. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyası insan hüquqlarının təsbitində paternalizm (məsələn, Şimali Koreya) konsepsiyasından qətiyyətlə imtina etmişdir. Demokratik, hüquqi dövlətlərdə isə insan hüquq və azadlıqları dövlət hakimiyyəti iradəsinin təzahürü olaraq «yuxarıdan verilən hədiyyə» kimi yox, insanın mövcudluq faktı ilə, insanın təbiəti ilə şərtlənən azadlıq ölçüsü kimi götürülmüşdür.

Mütərəqqi haldır ki, ölkəmizin Konstitusiyasında yalnız insan hüquqlarının geniş kataloqunu bəyan etmir, həm də bu hüquqların reallaşması üçün zəruri olan təminatlar mexanizmini də yaradır. Etiraf edək ki, vətəndaş üçün bu hüquqların formal təsbitindən daha çox real təmin olunması önəmlidir. Bəzi ölkələrin konstitusiya quruculuğu praktikasına diqqət yetirsək görərik ki, burada konstitusiya səviyyəsində insan hüquqlarının geniş kataloqu bəyan olunmasa da, lakin real həyatda vətəndaşların hüquq və azadlıqları səmərəli təmin olunur (İsveç, İsveçrə, Norveç və s.). Qeyd olunan bu fikir bizə onu deməyə əsas verir ki, bu məsələnin həllində kəmiyyətdən çox keyfiyyət daha önəmlidir.

Azərbaycan Respulikasının Konstitusiyasına əsasən (mad.71) : I. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq

qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

II. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır.

III. Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.

IV. Heç bir halda heç kəs din, vicdan, fikir və əqidəsini açıqlamağa məcbur edilə bilməz və bunlara görə təqsirləndirilə bilməz.

V. Bu Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz.

VI. Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir.

VII. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir.

VIII. Heç kəs törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır. Hüquq pozuntusu törədildikdən sonra yeni qanunla bu cür hərəkətlərə görə məsuliyyət aradan qaldırılmışsa və ya yüngülləşdirilmişsə, yeni qanun tətbiq edilir.

IX. Hər kəs qanunla qadağan olunmayan hərəkətləri edə bilər və heç kəs qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz.

X. Dövlət orqanları yalnız bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının üstünlüyünü və ölkə ərazisində birbaşa qüvvəsini elan etməklə və bunların təmin olunmasını Azərbaycan dövlətinin ali məqsədi olduğunu bəyan etməklə, qüvvədə olan Konstitusiya müəyyən edir ki, məhz dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir və bu müdafiənin məhkəmə orqanlarında həyata keçirilməsinə imkan yaradır.

İnsan hüquqlarının Konstitusiya təsbitinin əsasında duran mühüm prinsiplərdən biri də Konstitusiyanın 25-ci maddəsinqdə əks olunmuş hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipidir. Belə ki, fəaliyyətdə bərabərlik hüququnu təmin etmədən insanın bütün digər hüquq və azadlıqlarının real qorunmasına nail olmaq mümkün deyildir. Buna görə də 25-ci maddənin III hissəsində birmənalı şəkildə təsbit edilmişdir ki, «dövlət irqindən, miliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir». Həmin maddədə «İnsan və vətəndaş hüquqlarını və azadlıqlprını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətinə görə məhdudlaşdırmaq qadağandır».

İnsan hüquq və azadlıqlarının real təmin edilməsi üçün həlledici şərtlərdən biri də insanlara öz hüquqlarını müdafiə etmək və pozulmuş hüquqlarını bərpa etmək imkanının verilməsidir. Hüquqi dövlətin bu mühüm tələbi Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsində təsbit edilmişdir. Həmin maddənin I hissəsində deyilir: «Hər kəsin

qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüquq vardır».

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqları sisteminin bu cür qısa analizi göstərir ki, Əsas Qanunun bu hissəsi insan və vətəndaş hüquq və azadlıqları sahəsində dünya birliklərinin irəli sürdüyü tələblərə tam uyğundur və hansı ki, hər bir demokratik hüquqi dövlətin Konstitusiyasında əks olunmalıdır. Bundan başqa, ″Azərbaycan Respublikasının Konstitusiyası ratifikasiya etdiyi müvafiq beynəlxalq sazişlərdə ″analoqu″ olmayan bir sıra hüquqlara malikdir. Bu, sağlam ətraf mühitdə yaşamaq hüququ (m.39); cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ (m.54); müraciət hüququ (m.57); azad sahibkarlıq hüququ (m.59); qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsidir (m.66). İnsan hüquqlarının beynəlxalq qəbul olunmuş kataloqunu ötüb keçmə faktını, bütövlükdə alqışlamamaq və eyni zamanda insan hüquqlarının beynəlxalq standartlarının təşəkkülü və inkişafında daxili qanunvericiliyin göstərdiyi mühüm təsiri nəzərdən qaçırmaq olmaz. Yuxarıda göstərilən qrupa təhlükəsiz yaşamaq hüququnu (m.31) da aid etmək olar. Belə ki, insan hüquqlarının beynəlxalq kataloqunda bu hüququn birbaşa ekvivalenti yoxdur″.

Beynəlxalq hüquqa əsasən beynəlxalq səviyyədə qəbul olunmuş prinsiplərə görə dövlət vətəndaşlara öz konstitusion hüquq və azadlıqlarından istifadə etmək üçün real hüquqi və təşkilati mexanizmlər yaratmalıdırlar.

Dövlət hakimiyyəti orqanlarında qulluq edən şəxslərin yüksək peşəkarlığı və etik davranış ifadəsi, prinsipi kimi Azərbaycan Respublikasının Konstitusiyasında, Dövlət qulluğu Məcəlləsində birbaşa göstərilməsə də lakin bu prinsipin icrasını təmin edən ayrı-ayrı normalara Azərbaycan Respublikasının Konstitusiyasında (maddə 121,

126), Dövlət Qulluğu Məcəlləsinin layihəsində (maddə 3, 7, 13 və s.) və digər qanunvericilik aktlarında rast gəlmək olar.

Demokratik dövlət hakimiyyəti mexanizmi dövlət qulluqçularının yüksək etik davranışa malik olması, şəxsin, cəmiyyətin və dövlət maraqları naminə öz vəzifə borcunu səmərəli yerinə yetirməsi, öz fəaliyyətini yüksək peşəkarlıqla yerinə yetirməsini ehtiva edir

Azərbaycan Respublikasının Milli Məclisi Dövlət qulluqçularının etik davranış qaydaları haqqında qanun qəbul etmişdir. Bu qanun dövlət qulluqçuları üçün etik davranış qaydalarını və prinsiplərini və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir.

Dövlət qulluqçularının etik davranış qaydaları haqqında qanunda qeyd olunur ki, dövlət qulluqçusu etik davranış və öz peşəkar və fiziki şəxslərin inamını artırmalı və möhkəmləndirməlidir. Dövlət qulluqçusu ilə bağlı vəzifələrin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirə biləcək, habelə dövlət orqanlarının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməli, siyasi bitərəfliyə əməl etməlidir.

Dövlət qulluqçusuna qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, dövlət qulluqçusu onlardan imtina etməlidir. Maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər dövlət qulluqçusuna ondan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə birbaşa rəhbərinə məlumat verməli və maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanına akt üzrə təhvil verilməlidir.

Dövlət qulluqçusu xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təəssüratı yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri özü və ya digər şəxslər üçün tələb edə və ya

qəbul edə bilməz. Bu qayda qonaqpərvərliklə bağlı və dəyəri "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunda nəzərdə tutulmuş məbləğdən yuxarı olmayan hədiyyələrin təqdim olunduğu hallara şamil edilmir.

Dövlət qulluqçusunun etik davranış qaydalarına əməl olunmasına nəzarəti: dövlət orqanının rəhbəri (xidməti qaydada), yuxarı orqan (tabeçilik əsasında) və müvafiq nəzarət orqanları həyata keçirir.

Dövlət qulluqçularının etik davranış qaydaları haqqında qanunda qeyd olunur ki, dövlət orqanının rəhbəri öz səlahiyyətləri çərçivəsində bu qanunla müəyyən olunmuş etik davranış qaydalarını və onlara əməl olunması ilə bağlı təminatları konkretləşdirən normativ hüquqi (və ya normativ xarakterli) aktları işləyib hazırlamalı və təsdiq etməlidir. Hazırda dövlətimizin müxtəlif sahəvi orqanlarında bu cür normativ hüquqi aktlar hazırlanıb və qəbul edilmişdir.

4. Demokratik dövlət aparatının digər mühüm prinsiplərindən biri də aşkarlıq prinsipidir. Parlamentin, məhkəmələrin və digər orqanların iclaslarının açıq keçirilməsi, onların fəaliyyətinin kütləvi informasiya vasitələrində işıqlandırılması, vəzifəli şəxslər, dövlət orqanlarının fəaliyyəti, normativ hüquqi aktları barədə məlumatların ictimaiyyət üçün açıq olması dövlət aparatının fəaliyyətində aşkarlıq prinsipinin təzahürləridir.

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsində qeyd olunur ki, hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. Bu konstitusiya norması əsasında "İnformasiya azadlığı haqqında" Qanun qəbul edilmişdir. Həmin qanun informasiya azadlığının həyata keçirilməsi üçün qaydalar müəyyənləşdirir, vətəndaşların informasiya əldə etmək hüququnun təmin edilməsi sahəsində dövlət orqanlarının, bələdiyyələrin, mülkiyyət növündən asılı

olmayaraq bütün hüquqi şəxslərin vəzifə və funksiyalarını tənzimləyir.

İnformasiya azadlığı haqqında Azərbaycan Respublikasının Qanunda qeyd olunur ki, səlahiyyətli orqanlar öz informasiya ehtiyatlarından hər kəsin maneəsiz, sərbəst və bərabər şərtlərlə istifadə edə bilmək hüququnu təmin etməyə borcludurlar və bu məqsədlə informasiya məsələləri üzrə vəzifəli şəxs təyin edir, informasiya xidmətləri göstərirlər.

Səlahiyyətli orqanlar hər cari ildən sonra ən geci üç ay ərzində özlərinin fəaliyyətləri barədə aşağıdakı məlumatları dərc etməlidirlər:

- həmin orqanın strukturu, funksiyası, gəlirləri, xərcləri və ilin sonuna olan göstəriciləri;
- vəzifəli şəxslərin adı, soyadı, vəzifəsi, telefon nömrəsi və digər məlumatlar;
- ictimaiyyətə göstərilən xidmətlər;
- informasiya ehtiyatları, informasiya sistemi, informasiyanın növ və kateqoriyaları, onların təsnifatı barədə xülasə.

Səlahiyyətli orqanlar həmçinin qəbul etdikləri mühüm qərarlar və rəsmi tədbirlər barədə vaxtaşırı brifinqlər, mətbuat relizləri, mətbuat konfransları vasitəsilə və digər yollarla məlumat verməyə borcludurlar.

6. Demokratik dövlət aparatının ən mühüm Konstitusiya prinsiplərindən biri də hakimiyyətlər bölgüsü prinsipidir. Bu prinsipin mahiyyətinə görə xalq suverenliyi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının real təminatı səmərəli dövlət idarəçiliyinin təşkili, avtoritarizmin yaranmasının qarşısının alınması məqsədilə dövlət hakimiyyəti üç nisbətən müstəqil sahələrə bölünməlidir (qanunvericilik, icra və məhkəmə hakimiyyəti). Hakimiyyətlər bölgüsü prinsipi konseptual şəkildə Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin

III və IV hissələrində təsbit olunur. Göstərilən Konstitusiya normalarına əsasən Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

-qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;

-icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;

-məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir. Burada deyilir ki, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər. Dissertasiya tədqiqatının ötən proqramında Azərbaycan Respublikasının Konstitusiyasında hakimiyyətlər bölgüsü konsepsiyası barədə daha geniş məlumat verilir.

4.Demokratiya modellərinin Azərbaycan Respublikasının Konstitusiyasında konvergensiyası

Müasir dilimizdə ən geniş yayılmış terminlərdən biri demokratiyadır. Antik dünyada yaranan və 2500 ildən çox tarixi olan demokratiya termini bu gün ictimai həyatın müxtəlif sahələrində istifadə olunan sosial varlıqdır. Hətta cəmiyyətin ictimai, bədii fikrinin və zövqünün formalaşmasında mühüm rol oynayan incəsənət əsərlərinin demokratikliyi barədə yanaşmalara da rast gəlinir. Bu məfhumun semantikasında fikir plüralizminin mövcudluğuna baxmayaraq müasir siyasi leksikonda demokratiya daha çox ümumbəşəri dəyərlər sisteminə əsaslanan ideal ictimai quruluş və ona uyğun dünyagörüşüdür.

Siyasi və hüquqi təlimlər tarixi elminin mülahizələrinə görə qədim və zəngin tarixə malik olan demokratiya termini mütərəqqi inkişaf yolu keçmişdir. Lakin dialektika təliminə əsasən inkişaf həmişə bir keyfiyyət vəziyyətinin başqası ilə əvəz edilməsi, eyni zamanda inkişafın sonrakı mərhələsində əvvəlki mərhələlərdə meydana gələn müəyyən xüsusiyyətlərin və mexanizmlərin irsən qəbul edilməsini nəzərdə tutur ki, bu da öz növbəsində inkişafın ardıcıllığını və mütərəqqiliyini müəyyən edir. Əks halda, tərəqqi ümumiyyətlə mümkün olmazdı.

Bu kontekstdə demokratiya nəzəriyyəsinin də tarixində keçmişin dialektik inkişafına əsaslanan varislik əlaqəsini müşahidə etmək olar. Belə ki, hər bir tarixi dövrdə yaranan demokratiya nəzəriyyələri özlərindən əvvəl gələn təlimlərə əsaslanır, onlardan istifadə edir, bəzən də tənqid edir. Lakin bütün hallarda bu əlaqə mövcuddur. Bu müstəvidə bəşər tarixinin müxtəlif dövrlərində yaranan demokratiya modelləri konseptual demokratiya nəzəriyyəsinin məzmununu yeni-yeni mütərəqqi ideyalarla zənginləşdirərək demokratik dövlət quruculuğu yoluna qədəm qoyan və onu inkişaf etdirən ölkələrə əvəzsiz töhfələr vermişdir. Ona görə də demokratiyanın genezisi və tarixi inkişafı, ayrı-ayrı demokratik institutların formalaşması haqqında nəzəri biliklərin öyrənilməsi konstitusiyalı dövlət quruculuğu yolunda inkişaf edən ölkələr üçün mühüm əhəmiyyət kəsb edir.

Dünya təcrübəsi onu göstərir ki, müasir dövrdə demokratik dövlətlərin konstitusiyaları üçün müxtəlif tarixi vaxtlarda yaranan demokratiya modellərinin konvergensiyası xarakterikdir. Lakin Konvergensiya nəzəriyyəsi yalnız hadisələrin mütərəqqi xarakterli keyfiyyətlərinin inteqrasiyasını nəzərdə tutur. Bu mənada vurğulamaq olar ki, demokratiya modellərinin konvergensiyası Azərbaycan Respublikası Konstitusiyasının da prioritet prinsiplərindəndir.

Bu prosesin mahiyyətini müəyyən etmək üçün həmin demokratiya modellərinin dialektikanın qanunları metodologiyası əsasında təhlilini zəruri hesab edirəm.

Çoxluğun hakimiyyətinə əsaslanan dövlət idarəçiliyinin ilk tarixi forması birbaşa demokratiyadır. Qədim dövrün Afina polisində məhz həmin demokratiya modeli hökmranlıq edirdi (103,s.154). Burada hakimiyyətin əsas institutu sayılan xalq yığıncağı partiya, parlament, yaxud bürokratiya kimi heç bir vasitəçi institutlar olmadan qanunlar və qərarlar qəbul etmək səlahiyyətinə malik idi. Antik demokratiya nə qədər ki, müdrik və nüfuzlu başçıların təsiri altında idi, sosial ziddiyyətlər aradan qaldırılır, çoxluğun tam hakimiyyəti müxtəlif rəylərlə, söz azadlığı ilə hesablaşaraq, fərdi maraqları da təmin edirdi. Lakin nüfuz sahiblərinin dəyişməsi, hakimiyyətin total xarakteri, iqtisadi ziddiyyətlərin artması, ümumi mənəvi pozğunluq Afina demokratiyasına sarsıdıcı zərbə vurdu və dövlətdə oxlokratiya (qara kütlənin hakimiyyəti) rejimi yarandı.

Antik demokratiya təcrübəsi bəşər övladına göstərdi ki, bazar meydanında, küçələrdə kütlə ədalətli, rasional qərarlar qəbul edə bilməz. Tarixi reallıqlara görə demokratiya müəyyən hallarda (əgər qanunla məhdudlaşmazsa, idarəçilik aparatına sərişтəsiz insanlar gətirilərsə və s.) ayrı-ayrı qüvvələrə demokratik institutlardan sui-istifadə etmək imkanı yarada bilər.

Orta əsrlər dövründə bəzi şəhər respublikaları istisna olmaqla, Avropada və bütün dünyada uzun əsrlər boyu avtoritar, monarxiya idarəçilik forması ilə cəmiyyət üzərində hökmranlıq həyata keçirilirdi. «Demokratiya» sözü Avropanın siyasi leksikonunda az qala iki min il müddətinə yoxa çıxdı və yaxud Aristotelin düşündüyü mənada düzgün olmayan idarəçilik forması kimi işlədildi (103,s.158). Lakin həmin dövrdə mütləq hakimiyyətin məhdudlaşdırılması, habelə

azadlıq, bərabərlik və humanistlik ideyaları qədim və orta əsrlərin demokratik dəyərləri kimi qiymətləndirilə bilər.

Siyasi və demokratik təfəkkürün inkişafında yeni dövrdə yaranan liberalizm konsepsiyasının da müəyyən rolu olmuşdur. Belə ki, məhz liberalizm sosial təfəkkür tarixində ilk dəfə konstitusiya və digər institutlar vasitəsilə siyasi hakimiyyətin səlahiyyətlərini məhdudlaşdırır, azlığın hüquqlarını çoxluğun despotiyasından müdafiə edərək şəxsiyyətə ayrılmaz, fundamental hüquqlar verir və onu siyasi sistemin əsas elementi qismində təsdiq edir.

Müasir konstitusiyalara konvergensiya olunan konstitusionalizm, hakimiyyətlər bölgüsü, xalq suverenliyi, parlamentarizm və digər demokratik xarakterli konsepsiyalar liberalizmin əsas ideyaları hesab olunur. Bu mənada liberalizm demokratiyanın inkişafına öz mühüm töhfələrini versə də, ancaq onun ideyaları uzun illər demokratiya praktikası ilə mütənasiblik təşkil etmədi. Belə ki, klassik liberal demokratiyanın əsas prinsipləri antik demokratiyadakı kimi əhalinin hamısına-aşağı təbəqəyə, fəhlə sinfinə, qadınlara şamil edilmirdi və ona görə də xalqın hakimiyyəti ola bilməzdi. Sözsüz ki, bu cür yanaşma liberalizmin reallaşdığı ölkələrdə sosial ziddiyyətlərin getdikcə kəskinləşməsinə səbəb oldu.

Belə bir şəraitdə liberal demokratiyanın qüsurlarını aradan qaldırmaq və həqiqi xalq hakimiyyəti yaratmaq cəhdi sosial demokratiya modelinin formalaşmasına təsir göstərdi. Bəzən elmdə sosial demokratiya modeli marksizmdən və xüsusilə də Lenin demokratiyası nəzəriyyəsindən qaynaqlanan «sosialist demokratiyası» anlayışı ilə qarışıq salınır. Həqiqətdə isə «sosialist demokratiyası» onun aklomasion (yuxarının qəbul etdiyi qərarların yalnız zahirən bəyənilməsi) institutları ilə cəmiyyətin totalitar strukturunu gizlətmək üçün bir pərdə rolunu oynayır, faktiki hakimiyyəti real demokratiyanın deyil, kommunist partiyası rəhbərliyinin əlində cəmləşdirirdi. Onun

həyata keçirilməsi cəhdi isə nomenklaturanın, totalitarizmin yaranmasına, hər cür şəxsi azadlığın boğulmasına, qeyri-düşüncəlilərə qarşı terrora gətirib çıxardı. Bu cür «sosialist demokratiyası» kommunist partiyasının rəhbərliyi altında XX əsrin sonunda Qazaxıstanda, Baltikyanı ölkələrdə, Tiflisdə, 20 Yanvar hadisələri zamanı Bakıda xalqı qırmaqla özünün əsl mahiyyətini bir daha üzə çıxardı.

«Sosialist demokratiyası»ndan fərqli olaraq XIX əsrin ikinci yarısında yaranan sosial demokratiya ideologiyası liberalizmə münasibətdə varisliyi inkar etmədən demokratiya məfhumunun evolyusiyasında özünəməxsus rol oynadı. Sosial demokratiya modelinin sosial dövlət, ümumi rifah dövləti, sosial yönümlü bazar iqtisadiyyatı ideyalarının inkişaf etməsi sosial-iqtisadi hüquqların yaranmasına gətirib çıxartdı. İkinci nəsil insan hüquqlarının tələblərinə görə, dövlət bu prinsipə əsaslanaraq cəmiyyətdə sosial ədalətin bərqərar edilməsinə xidmət etməlidir (59,s.220).

Sosial demokratiya özünün prinsiplərini, məqsəd və vəzifələrini hüquqi dövlətçilik formasında həyata keçirməklə insanları müxtəlif amillər səbəbindən bu və ya digər məsələdə şəxsiyyətinə və ləyaqətinə mənfi təsir edəcək dərəcədə başqalarının asılılığında olmaqdan xilas etmiş oldu.

Ümumilikdə, sosial demokratiya modeli cəmiyyətin humanistləşməsinə, qarşıdurmanın azalmasına və vətəndaşlar arasında həmrəyliyin formalaşmasına geniş imkanlar yaratdı. Dövlətin iqtisadi və sosial münasibətlərə fəal müdaxilə etməsi hesabına konstitusion-hüquqi tənzimetmənin predmeti genişləndi, siyasi sistemin yeni elementlərinin konstitusion statusu müəyyən edildi, Əsas Qanuna insan və vətəndaşların hüquq və azadlıqlarının yeni qrupu (sosial-iqtisadi hüquqlar) daxil edildi. Sosial demokratiya modelinin mütərəqqi ideyalarının Azərbaycan Respublikasının Konstitusiyasında təsbiti ölkəmizdə sosial-iqtisadi siyasət prioritetlərinin düzgün müəyyənləşdirilməsinə, əhalinin sosial müdafiəsinin

gücləndirilməsinə, qlobal bir problem olan yoxsulluğun aradan qaldırılmasına və ölkə əhalisinin layiqli həyat səviyyəsinin təmin edilməsinə şərait yaratmışdır.

Demokratiyanın kəmiyyət və keyfiyyət dəyişmələri XX əsrdə yeni plüralist və reprezentativ xarakterli demokratiya modellərinin yaranmasını şərtləndirdi.

Plüralist demokratiya modeli müxtəlif, bəzən bir-birinə zidd qüvvələrin, qrupların, partiyaların, ictimai təşkilatların siyasi proseslərdə öz proqramlarına uyğun olaraq sərbəst iştirak etməsinin zəruriliyini müəyyən edir (59,s.222). Çünki, bu qrupların müxtəlif konstitusion vasitələrlə öz siyasi məqsədlərini hökumətə, parlamentə, seçicilərə çatdırmaq imkanları daha böyükdür.

Plüralizm ideyaları demokratiyanın inkişafına özünəməxsus töhfələr versə də tarixi təcrübə göstərir ki, ondan sui-istifadə müəyyən neqativ hadisələrin yaranmasına səbəb ola bilər.

Dialektikanın mülahizələrinə görə ziddiyyət dünyanı hərəkətə gətirən varlığın ümumi forması, mübarizə isə inkişafın qaynağıdır. Bu ziddiyyətlərin, mübarizənin mütləqləşdirilməsi filosofların çoxu tərəfindən bu gün də təhlükəli amil kimi qiymətləndirilir.

Bu baxımdan, siyasi və ideoloji plüralizmin təzahürü kimi yaranan və siyasi həyatda iştirak edən ictimai birliklər tərəfindən ümumxalq maraqlarına xidmət edən vahid prinsiplərin inkarı və onların yeritdiyi radikal mübarizə siyasəti heç bir vaxt demokratiyanın inkişafına xidmət edə bilməz. Azərbaycanın 1991-1992-ci illərdəki «demokratiya» təcrübəsi yuxarıda qeyd etdiyimiz fikrin əyani göstəricisidir. Belə ki, həmin dövrdə müxtəlif siyasi qüvvələrin vəzifə uğrunda apardıqları qeyri konstitusion mübarizəsi, idarəçilik qabiliyyəti, sərişləsi olmayan şəxslərin populist çıxışlarla dövlət idarəçiliyində vəzifə qazanıb dövlətçilik irsini total inkar etməsi ölkədə demokratiyanın tamamilə əksi olan

kleptokratiya (siyasi hakimiyyətdə təmsil olunan rəhbərlər öz şəxsi maraqlarını ümumxalq maraqlardan üstün tutur) rejiminin yaranmasına səbəb oldu.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu rejimə son qoyuldu. Azərbaycan xalqı ümummilli lider ətrafında birləşərək demokratik, hüquqi dövlət quruculuğu yoluna qədəm qoydu və hazırda bu yolda inamla addımlayır.

XX əsr reprezentativ xarakterli demokratiya modellərinin meydana gəlməsi elektorat probleminin də yeni səviyyədə aktuallaşmasına səbəb oldu.

Müasir dünyada demokratik cəmiyyətdə inkişaf və idarəetmə məsələlərinin daha çox elitarlıq prinsipinə əsaslanması, yüksək intellektə və qabiliyyətə malik elitanın həlledici rol oynaması elmi həqiqətdir.

Demokratik dövlət quruculuğunun uğurla həyata keçirilməsi üçün yüksək siyasi və hüquqi mədəniyyətə malik olan, bacarıqlı, peşəkar kadrların, siyasi elitanın formalaşması xüsusi önəm kəsb edir. Təcrübə göstərir ki**,** meritokratiya, yəni rəhbər vəzifələrə sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq savadlı, bacarıqlı insanların seçilməsi prinsipi demokratiyanın əsasını təşkil edir.

Demokratik dövlət suveren, siyasi elitaya malik olmalıdır. Milli dövlətçiliyə xidmət edən və intellektual qabiliyyətləri ilə fərqlənən bu elita milli lider ətrafında birləşə, xalqın potensial enerjisini bir araya gətirə və onu quruculuq işlərinə səfərbər edə bilər.

Etiraf etmək lazımdır ki, cəmiyyətin ən layiqli insanlarını siyasi hakimiyyətə gətirmək üçün sadəcə seçki məntəqəsinə gəlib səs vermək kifayət etmir. Bunun üçün elektoratın həm də demokratik, siyasi və hüquqi dünyagörüşü, o cümlədən, ən yaxşılar arasından seçim imkanı olmalıdır.

Azərbaycanda 1993-cü ildən başlayaraq bu günə qədər seçki sistemini tənzimləyən normativ-hüquqi aktların və seçki

təcrübəsinin retrospektiv təhlili göstərir ki, respublikada seçkilər institutu daim inkişaf edir. Ölkəmizdə demokratik seçki qanunvericiliyinin formalaşması və bütövlükdə seçki qanunvericiliyinin unifikasiyası məqsədilə qəbul olunan və dövlət başçısının təşəbbüsü ilə təkmilləşdirilən Seçki Məcəlləsi yeni dövrün tələblərinə cavab verir və ölkəmizdə seçki prosesinin azad, ədalətli keçirilməsi üçün yaxşı zəmin yaradır. Bununla yanaşı, müasir dövrün tələbələrinə uyğun olaraq seçki sisteminin daim təkmilləşdirilməsi seçkilərdə absenteizmin qarşısının alınması probleminin də həllini vacib sayır. Bu sahədə hüquq elminin də üzərinə müvafiq vəzifələr düşür.

Elitar demokratiya nəzəriyyəsinə alternativ kimi yaradılan partisipator model isbat edir ki, xalqın siyasi həyatda iştirakı yalnız seçkilərlə məhdudlaşmır. Bu model həm də ictimai həyatın mühüm məsələlərinin müzakirəsində və siyasi qərarların qəbul edilməsində vətəndaşların bilavasitə referendumla iştirakını nəzərdə tutur. Partisipator demokratiya modelinin əsas institutlarına referendum və seçkilər aiddir. Müasir demokratik konstitusiyalarda xalq hakimiyyətinin həyata keçirilmə mexanizmində hər iki institutdan istifadə olunur.

Azərbaycan Respublikasının konstitusiya qanunvericiliyində də xalq hakimiyyətinin bilavasitə ifadəsi olan referendumlara xüsusi yer verilir. Bu instituta maraq qanunauyğundur və tarixən əsaslıdır. Belə ki, mühüm qərarların qəbulunda xalqın iştirakı vətəndaşı vətəninin taleyi üçün məsuliyyətli edir, onda həmrəylik hissini yarada bilir.

Azərbaycan Respublikasında keçirilən konstitusiya referendumlarının nəticələri partisipator demokratiyanın bu mülahizələrini bir daha təsdiq etdi. Belə ki, vətəndaşlarımız ölkəmizdə konsolidasiyalı demokratiya quruculuğu və insan hüquqlarının daha da etibarlı təminatı sahəsində mühüm referendum aktlarını qəbul etdi.

İnformasiya kommunikasiya texnologiyalarının sürətli inkişafı "Elektron demokratiya" modelinin yaranması ideyasını elmə gətirmişdir.

Müasir dövrdə xalq hakimiyyətinə əsaslanan modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanalrının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün "Elektron demokratiyanın" yaradılması əsas amillərdən biridir.

"Elektron demokratiya"- informasiya texnologiyalarından istifadə etməklə xalq hakimiyyətinin həyata keçirilməsində, ölkə vətəndaşlarının dövlətin idarə olunmasında səmərəli iştirakına, dövlət qurumları tərəfindən ölkə ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsinə şərait yaradır.

Yaradılan imkanların əsas məqsədi xalq idarəçiliyinin səmərəliliyini artırmaq, sosial xidmət təminatında dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" azaltmaq, həmçinin, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi bu məqsədə çatmağın vasitələridir. Ölkəmizdə "Elektron demokratiyanın" formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanır və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncamı, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Fərmanı və digər normativ hüquqi aktlarla fəaliyyəti üçün hüquqi baza yaradılmışdır .

Ölkəmizdə “Elektron Hökumət” portalının fəaliyyəti əsasən AR Prezidentinin 2013-cü il 5 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş “Elektron Hökumət” portalı haqqında Əsasnamə ilə tənzimlənir (3).

Bu Əsasnamə “Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 3.3-cü bəndinə əsasən, Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 avqust tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı”nın (Elektron Azərbaycan)” həyata keçirilməsi üzrə Tədbirlər Planı”nın 7.2.1-ci yarımbəndindən irəli gələn vəzifələrin həyata keçirilməsi məqsədi ilə hazırlanmışdır, dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin (bundan sonra-dövlət qurumları) elektron xidmətlərindən “bir pəncərə” prinsipi əsasında istifadəni təmin edən “Elektron hökumət” portalının fəaliyyətinin təşkilinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir .

Portal dövlət qurumlarının elektron xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim olunmasına, istifadəçilərin onlardan istifadəsinə, dövlət qurumlarının portala qoşulmuş informasiya sistemlər və ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) müvafiq sənədlər barədə qanunla müəyyən edilmiş qaydada informasiya əldə edilməsinə xidmət edir.

Ölkəmizdə xalq hakimiyyətinə əsaslanan idarəçiliyin təşkil edilməsi, dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin daha da artırılması, şəffaflığın təmin

edilməsi və bürokratiyanın aradan qaldırılması üçün elektron hökumətin inkişafı, təkmilləşdirilməsi, elektron xidmətlərin sayının artırılması istiqamətində tədbirlər təbii ki, davamlı olmalıdır.

Bu kontekstə mühüm tədbirlərdən biri də Yerli icra hakimiyyəti orqanlarında vətəndaş müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında AR Prezidentinin Fərmanıdır. Bu Fərmanla AR Prezidenti Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiyanın 10. 2.4-cü yarımbəndinə uyğun olaraq (bu strategiya AR Prezidentinin 2014-cü il 2 aprel Sərəncamı ilə təsdiqlənmişdir) dövlət orqanalrında elektron sənəd dövriyyəsinin və vətəndaşların müraciətləri üzrə karguzarlığın elektron formada aparılmasını təmin etmək məqsədilə yerli icra hakimiyyəti orqanalrında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılmasını nəzərdə tutur. Bu sistem yerli icra hakimiyyəti orqanalrında vətəndaşların müraciətlərinin qeydiyyatının aparılmasını, onlara dair müxtəlif təhlillərin hazırlanmasını, statistik məlumatların və hesabatların əldə olunmasını, eləcə də müraciətlərin icrasına nəzarətin həyata keçirilməsini təmin edir.

Ölkəmizdə elektron demokratiyanın formalaşması sahəsində ən mühüm sənədlərdən biri kimi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin İKT vasitələri ilə ümumxalq müzakirəsinə çıxarılmasını nəzərdə tutan Prezident aktlarıdır.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnaməyə görə Azərbaycan Respublikasının Nazirlər Kabineti və mərkəzi icra hakimiyyəti orqanları tərəfindən hazırlanmış normativ

hüquqi aktların layihələri (əldə olunması qanunla məhdudlaşdırılan informasiyaları əks etdirən layihələr istisna olmaqla) razılaşdırılmaya göndərildiyi andan "elektron hökumət" portalında yerləşdirilməlidir. Portalda yerləşdirilmiş normativ hüquqi aktların layihələrinə dair verilən təkliflər məqsədəuyğun hesab edildikdə nəzərə alınır, məqsədəuyğun hesab edilmədikdə təklifi verən şəxsə bu barədə əsaslandırılmış cavab təqdim olunur.

Yuxarıda göstərilən Prezidentin Fərmanının icrasını təmin etmək məqsədi ilə 25 iyun 2012-ci il tarixdə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi Qaydaları təsdiq edilmişdir.

Bu Qaydalar Azərbaycan Respublikasının Nazirlər Kabineti və mərkəzi icra hakimiyyəti orqanları tərəfindən hazırlanmış normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi, layihələrin açıq (ictimai və ya peşəkar) müzakirəsi həmçinin müzakirədə iştirak etmiş şəxslərə informasiya sahibləri tərəfindən cavab verilməsi qaydalarını müəyyən edir .

Ölkəmizdə elektron demokratiyanın formalaşması və inkişafı sahəsində yuxarıda qeyd olunan ölkə başçısının fərman və sərəncamlarının icrası məqsədilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində də müvafiq işlər həyata keçirilmişdir. Belə ki, respublikamızda "Elektron hökumət" portalına qoşulan, ilk "veb saytını" yaradan dövlət orqanlarından biri də məhz Daxili İşlər Nazirliyi olmuşdur. Hal-hazırda Azərbaycan Respublikasının hər bir vətəndaşı DİN-in bu saytı vasitəsilə daxili işlər orqanlarının fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar və xidməti vəzifələrin icrası ilə bağlı müəyyən məlumatlarla tanış ola

bilər və vətəndaşları maraqlandıran bu və ya digər məsələlərlə bağlı onlayn müraciət edə bilərlər.

Müasir informasiya kommunikasiya texnalogiyaları ölkəmizdə ictimai asayişin qorunması və ictimai təhlükəsizliyin təmin olunması işinə də öz layiqli töhfəsini vermişdir. Bununla bağlı daxili işlər orqanlarında "Təhlükəsiz şəhər" və "102" zəng xidmətinin təşkili və fəaliyyətini xüsusilə vurğulamaq yerinə düşərdi. Qeyd edilənlərlə yanaşı daxili işlər orqanlarında operativ idarəçiliyi təmin etmək məqsədilə elektron sənəd dövriyyəsi sistemi də fəaliyyətə başlamışdır.

Dövlət idarəçiliyi təcrübəsi göstərir ki, müasir informasiya cəmiyyətində elektron sistemin rolu nə qədər böyük olsa da o, mənfi təzahürlərdən də azad deyildir. Belə neqativ hallara kibercinayətləri, elektron sistem vasitəsilə törədilən digər növ cinayətləri aid etmək olar.

Qeyd olunan problemlərin həll olunması və aradan qaldırılması istiqamətində peşəkar mütəxəssislərin hazırlanması respublikamız üçün də böyük aktuallıq kəsb edir.

Bu gün biz qeyd edə bilərik ki, ölkəmiz demokratik rejimin bərqərar edilməsinin üç fazasını uğurla keçib: milli konsensusa nail olundu, hazırlıq fazası keçildi, demokratik rejim bərqərar edildi. Lakin daha uzağa baxan Azərbaycanın məqsədi konsolidasiyalı demokratiyadır. Bu gün bütün sivil cəmiyyətlərdə olduğu kimi insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasını qarşısına ali məqsəd kimi qoyan Azərbaycan Respublikası ictimai, sosial inkişafa zəmin yaradan konsolidasiyalı demokratik cəmiyyət quruculuğu uğrunda yorulmadan mübarizə aparır. Dövlətimizin həyata keçirdiyi sosial-iqtisadi siyasəti, dünyanın davamlı inkişaf edən ölkəsinə çevrilməsi ölkəmizdə gedən demokratikləşmə strateji xəttinin dönməz olduğuna inamı bir daha artırır.

BÖLMƏ III. Xalq hakimiyyətinin bilavasitə konstitusiya formaları.

Fəsil 3. Azərbaycan Respublikasında Referendum.

§ 1. Referendumun anlayışı və növləri.

Bəşər sivilizasiyasının inkişafı prosesində idarəetmə və özünütəşkiletmə əsasları ilə insanların birgə yaşayışını təmin edən məlum ictimai hakimiyyət formaları bərqərar olmuş, ictimai hakimiyyətin müəyyən konsepsiyası yaranmışdır. Onun bir növü də xalqın hakimiyyətin mənbəyi kimi tanınmasına əsaslanan xalq demokratiyası və yaxud demokratiyadır.

Demokratiya prosesləri çərçivəsində vətəndaşlar öz məqsədlərinin, rəhbərlərinin və cəmiyyətdəki işlərin idarəolunması metodlarının seçilməsində iştirak edir, vətəndaşlar üçün səsvermə hüququna şərait yaranır, özünü ifadə etmək azadlığı isə cəmiyyətin bütün qrupları üçün "eşitmək" və "eşidə bilmək" imkanı ilə qovuşur. Demokratiya hakimiyyətin əldə edilməsi şərtlərini və onun məhdudlaşdırılması sistemini müəyyən edir. O, iqtisadi, siyasi və sosial imkanlara doğru geniş imkanları və

həmçinin, zərurət yarandıqda vətəndaşlara hərəkət etməyə imkan verən institutların mövcudluğunu nəzərdə tutur.

Bəşəriyyət, onun mütərəqqi mütəfəkkirləri xalq tərəfindən dövlət hakimiyyəti suverenliyinin həyata keçirilməsinin iki əsas demokratik formasını yaratmışdır. Birincisi-xalq (seçici korpusu) tərəfindən seçilən nümayəndəli dövlət hakimiyyəti orqanları vasitəsilə həyata keçirilən xalq hakimiyyətidir. Nümayəndəli orqanlar xalq tərəfindən yaradıldığına, xalqın adından dövlət hakimiyyətini həyata keçirdiyinə və onun qarşısında cavabdeh olduğuna görə xalq nümayəndəliyi adlanır və xalq suverenliyi, xalq hakimiyyəti prinsipinin təşkil olunması formalarından biridir.

İkincisi-vasitəsiz və ya birbaşa demokratiyadır. Demokratik cəmiyyətdə seçkili orqanlar vasitəsi ilə xalqa dövlət hakimiyyətini həyata keçirməyə imkan verən nümayəndəli demokratiyadan fərqli olaraq, birbaşa demokratiya bilavasitə xalq hakimiyyəti kimi dövlətin idarə olunmasında xalqın təşəbbüsü və özfəaliyyətini, dövlət qərarlarının qəbul edilməsində onun birbaşa iradəsini ifadə edir. Xalqın öz iradəsini ifadə etməsinin formalarından biri də referendumdur. Hüquqi aspektlər referendumda qanunverici orqanın yalnız parlamentə deyil, həm də bilavasitə xalqa məxsus olmasını bildirir. Buna görə də qanun yaradıcılığı yalnız parlamentə məxsus deyil.

İstənilən dövlətdə siyasi hakimiyyət vahiddir və bir tərəfindən nümayəndəli təsisatlarla, digər tərəfdən isə referendumda iştirak edən xalq arasında bölüşdürülə bilməz. Demokratik cəmiyyətdə bütün hakimiyyət həm nümayəndəli orqanlar vasitəsilə, həm də birbaşa yolla onu həyata keçirən xalqa məxsusdur. Bu zaman bütün hallarda dövlət hakimiyyətinin daşıyıcısı qismində hakimiyyətin mənbəyi, onun suveren sahibi, ali qanunverici kimi xalq çıxış edir.

Elmi-texniki tərəqqi, spesifik biliklərin inkişafı, informatizasiya və onlarla bağlı olan bir çox faktorlar ictimai həyatın bütün sahələrinə, o cümlədən dövlətin idarəolunması üzrə demokratik təməllərin inkişafına, xalq hakimiyyətinə təsir edir. Bununla əlaqədar Rusiyanın görkəmli alimi, Rusiya Elmlər Akademiyasının üzvü Y.A.Tixomirov hələ ötən əsrin 60-cı illərində nəşr olunan kitabında dövlət hakimiyyətinin həyata keçirilməsində zəhmətkeşlərin iştirakının iki deyil üç əsas formasının mövcudluğu barədə tezis irəli sürmüşdür. Belə ki, bunlar: birbaşa-bu halda xalq və ya onun bir hissəsinin özü dövlət həyatının məsələlərini həll edir; nümayəndəli-bu halda qeyd olunan məsələləri seçilən nümayəndələr həll edir; peşəkar-bu halda "peşəkar biliklərə malik olan xüsusi təbəqəli insanlar idarəetmənin cari və xüsusi funksiyalarının yerinə yetirilməsi üçün seçilir"(148,s.54). Lakin bu mövqe qüsursuz deyil, çünki, birincisi "xüsusi təbəqəli insanlar" xalqa məxsus olan suveren dövlət hakimiyyətini həyata keçirmir və ikincisi peşəkarlıq-demokratiya forması deyil. Əlbəttə, elmi-texniki tərəqqi, cəmiyyətin inkişafının ən vacib məsələlərində birbaşa demokratiyanın vacib institutu olan referendumun daha geniş istifadəsinə yardım edir. İnformasiya hesablama texnikası və texnologiyanın müasir inkişafı şəraitində konsultativ referendumun gedişatı zamanı səslənmiş təkliflərin çevik və təfsilatlı uçotu, onların ümumiləşdirilməsi və nəticə çıxarılması keçmişə nisbətən bu gün daha çox mümkündür.

Referendum-sərbəst dövlət hüquqi-institut, olduqca əhəmiyyətli siyasi aktdır və onun köməyi ilə xalq ümumvacib hüquqi norma və qərarları qəbul edən ali qanunverici kimi çıxış edir. Referendumun mənası da məhz bundan ibarətdir.

Hüquqi ədəbiyyatda referendum anlayışına xeyli tərifl ər verilmişdir. Belə ki, ilk dəfə olaraq sovet dövlət-

hüquq elmində referendum probleminə monoqrafiya tədqiqatını həsr etmiş V.F.Kotok hesab edir ki, referendum "bu və ya digər dövlət qərarlarına xalq səsverməsi yolu ilə yekun və mütləq xarakter verilən təsdiqdir"(149,s.5). V.V.Maklakov yazır ki, referendum ".... dövlət və özünüidarəetmə qərarlarının qəbul edilməsi üçün həyata keçirilən seçici səsverməsidir"(150,s.79). M.V.Baqlay referendum anlayışına nisbətən geniş tərif vermişdir. Belə ki, "Dünya praktikasında referendum-hər hansı sənəd layihəsinin gizli səsvermə yolu ilə vətəndaşlar tərəfindən təsdiq edilməsi (və ya təsdiq edilməməsi), parlamentin, dövlət başçısının və ya hökumətin bu və ya digər hərəkətləri ilə razı (və ya narazı) olmasıdır"(92,s.372).

Referendum anlayışına dair digər hüquqşünas alimlərin də tərifl ərini misal gətirmək olar, lakin düşünürük ki, hüquq ensiklopediya lüğətinə istinad etməklə kifayətlənmək olar. Belə ki, burada qeyd olunan anlayışa belə tərif verilmişdir: "Dövlət hüququnda referendum-konstitusiya, qanunverici və ya digər daxili və ya xarici siyasət məsələlərinə dair son qərarın qəbul edilməsi məqsədilə seçici korpusuna müraciət etmək deməkdir".

Referendum anlayışına dair təqdim olunan tərifləri qüsursuz hesab etmək olmaz. Belə ki, xalq (daha dəqiq seçici korpusu) tərəfindən "bu və ya digər dövlət qərarlarının təsdiq edilməsi", "parlamentin, dövlət başçısının və yaxud hökumətin bu və ya digər hərəkətləri ilə razılığın (narazılığın) ifadə edilməsi" haqqında müddəa şübhə doğurur, çünki "təsdiq etmək" sözü dedikdə seçicilər tərəfindən bu və ya digər qanunun (qərar) qəbul edilməsi deyil, parlament (və ya digər ali hakimiyyət orqanları) tərəfindən əvvəl qəbul edilmiş qanunlara (qərarlara) öz razılığının ifadə edilməsi başa düşülə bilər. Bununla üzləşməmək üçün ümumxalq səsverməsi aktı ilə qanunun və

ya hər-hansı qərarın qəbul edilməsini etiraf etmək daha düzgün olardı.

Bundan başqa, güman edirik ki, referendum zamanı ali dövlət hakimiyyəti orqanlarının hər-hansı hərəkəti və yaxud aktlarına deyil, referendumun keçirilməsinə təşəbbüs edən subyektlərin səsverməyə çıxardığı məsələlərə baxılır və qərar qəbul edilir və nəhayət, referenduma, hər-hansı qanun layihəsi və ya qərarın qəbul edilməsi haqqında deyil, həm də referendum yolu ilə və ali dövlət hakimiyyəti orqanları (məhkəmə hakimiyyəti orqanlarından başqa) tərəfindən qəbul edilmiş qüvvədə olan qanunun ləğv edilməsi və yaxud dəyişdirilməsi haqqında da məsələ çıxarıla bilər.

Yuxarıda sadalananlardan irəli gələrək referendum anlayışına belə tərif vermək olar. Referendum-öz suveren hüququnu həyata keçirən səsvermə yolu ilə qanun layihəsini və ya konkret məsələyə dair digər aktı qəbul edən (və ya qəbul etməyən) və yaxud ali hüquqi qüvvəyə malik olan, dövlət hakimiyyəti orqanları tərəfindən təsdiqə ehtiyacı olmayan, Azərbaycan Respublikasının bütün ərazisində icrası bütün dövlət orqanları, vəzifəli şəxslər və vətəndaşlar üçün mütləq olan qanunun və ya digər aktın ləğv edilməsi və ya dəyişdirilməsi haqqında qərar qəbul edən xalqın birbaşa demokratiyasının formasıdır.

Ümumxalq səsverməsi olan referendum bir çox dövlətlərin Konstitusiyalarında təsbit olunmuşdur. Referendum xalqın suverenliyinin ifadə olunma formasıdır. Azərbaycan Respublikasının Konstitusiyası referendum keçirmək hüququnu 2-ci maddədə təsbit etmişdir; burada deyilir ki, "sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur". Bu maddənin II hissəsində öz suveren hüququnun xalq tərəfindən hansı yolla və hansı formalarda reallaşdırılması müəyyən edilmişdir: "Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə

ümumxalq səsverməsi referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsi ilə həyata keçirir". Postsovet respublikalarının konstitusiyalarında da suverenlik və dövlət hakimiyyətinin xalq tərəfindən həyata keçirilməsi formaları təxminən belə redaksiyada təsbit edilmişdir.

Dövlət və hüquq nəzəriyyəsində və təcrübəsində referendum bəzən fərqli təfsir edilir. Məsələn, o ümumxalq sorğusu və plebissitlə bərabər tutulur. V.F.Kotok hesab edir ki, "mahiyyətcə referendumla əhali sorğusu və plebissit arasında fərq yoxdur"(150,s.4). M.N.Marçenko isə referendumu ümumxalq səsverməsi yolu ilə mütləq xarakter alan bu və ya digər dövlət qərarının təsdiq edilməsi kimi nəzərdən keçirir(160,s.3).

Bundan başqa, sovet hüquq ədəbiyyatında referendum və ümumxalq sorğusunun konstitusiyada bərabər tutulmasına hətta bəraət də qazandırılırdı. 1937-ci ildə N.Kumikin yazırdı ki, "Sovet referendumu özünün yeni mənasında burjuaziya demokratiyası şəraitində referendum ilə müqayisədə SSRİ-nin yeni Konstitusiyasında tamamilə düzgün olaraq "ümumxalq səsverməsi deyil, ümumxalq sorğusu" adlanır(161,s.37).

Eyni zamanda, bir çox monoqrafiyalarda və lüğətdə bir tərəfdən referendum və plebissit, digər tərəfdən isə ümumi seçkilər arasında fərq qeyd edilir, lakin onların hər biri seçicilərin səsverməsi əsasında həyata keçirilir. "Referendum" termini latın mənşəlidir (mənası bəyan edilməli məlumat deməkdir) və dövlət və ya özünüidarəetmə qərarının qəbul edilməsi üçün seçicilərin səs verməsini bildirir.

Seçicilərin səsverməsini plebissit də adlandırırlar (latın dilindən "plebiscitum"-xalqın qərarı). Bütün elmi ədəbiyyatlarda və hüquq lüğətlərində bu termin "beynəlxalq

təcrübədə ərazi mübahisələrinin həlli metodu" kimi müəyyən edilir, burada əhaliyə imkan verilir ki, birbaşa səsvermə yolu ilə yaşadıqları ərazinin hansı dövlətə mənsub olmasını müəyyən etsinlər". Bununla əlaqədar V.V.Maklakov tərəfindən plebissitə verilən tərif yanlışdır, onun fikrincə "plebissit-ölkə və ya bölgə üçün taleyüklü məsələlər üzrə referendumdur"(162,t.2,s.79). Düşünürük ki, konstitusiyanın qəbul edilməsi, şübhəsiz, bütün xalq və ölkə üçün taleyüklü xarakterə malikdir, buna görə də hal-hazırda əksəriyyət ölkələrdə konstitusiya referendum yolu ilə qəbul edilir.

Birbaşa demokratiyanın həyata keçirilməsi formalarına həmçinin hakimiyyət orqanlarının (parlament, prezident, bələdiyyələr) vətəndaşlar tərəfindən ümumi birbaşa seçkisi aiddir. Həmçinin, bura insanları maraqlandıran məsələlərə görə dövlət orqanlarına birbaşa müraciət etmək, qanun layihələri və digər qərarların ümumxalq müzakirəsi zamanı öz iradəsini birbaşa bəyan etmək hüququ da aiddir. Lakin bütün bunlarla yanaşı, qanunların və dövlət üçün digər vacib qərarların qəbul edilməsində birbaşa səsvermə yolu ilə xalqın bilavasitə iştirakı dövlətin idarə olunmasında vətəndaşların birbaşa iradəsinin ifadə olunmasının ən parlaq formasıdır.

Ümumi birbaşa seçkilərlə referendum arasındakı nisbətə gəldikdə isə, nəzərə almaq lazımdır ki, seçkilər və referendumun vahid qanunla, Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənən bir çox təşkilati prosedurları eyni olsa da, bu oxşarlıq onları bir institutda birləşdirməyə əsas vermir. Referendum və seçkilər birbaşa demokratiyanın müxtəlif, sərbəst formalarıdır, çünki, birincisi, seçkilərin məqsədi seçənlərin və yaxud seçkili orqanlara namizədlərin seçilməsidir, referenduma isə qanunun və yaxud digər dövlət qərarının qəbul edilməsi haqqında məsələ çıxarılır. İkincisi isə seçkilər zamanı, seçki kompaniyası prosesində

müxtəlif siyasi mövqeləri təmsil edən namizədlər rəqabət aparır. Referendumun keçirilməsi təşəbbüskarları isə referenduma çıxarılan məsələyə dair əksəriyyət seçicilərin müsbət cavabını almaq məqsədini qarşılarına qoyurlar.

Əgər referendumun gedişatında qanunla müəyyən edilmiş şərtlərə riayət olunursa, onda referendum yolu ilə qəbul edilmiş qərar xalqın qərarı hesab edilir. Onun hüquqi qüvvəsi isə parlament tərəfindən qəbul edilmiş cari qanunların hüquqi qüvvəsindən üstündür. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktların siyahısını müəyyən edən Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsində "referendumla qəbul edilən aktlar" öz əhəmiyyətinə görə Konstitusiyadan sonra ikinci yerdə göstərilir və yalnız sonra "qanunlar" qeyd edilmişdir.

Bəzən siyasi və dövlət-hüquqi ədəbiyyatlarında, həmçinin rəsmi sənədlərdə referendumun ümumxalq sorğusu ilə bərabərləşdirilməsinə rast gəlmək olur. Belə ki, o, 1936-cı il SSRİ Konstitusiyası ilə və ona uyğun olaraq müttəfiq respublikaların konstitusiyaları ilə xarakterizə olunmuşdur. Məsələn, 1937-ci il Azərbaycan SSR Konstitusiyasının 33-cü maddəsinin "r" bəndində yazılmışdır ki, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti "ümumxalq sorğusunu (referendumu) keçirir". Konstitusiyanın mətnindən göründüyü kimi, burada referendum tamamilə ümumxalq sorğusuna bərabər tutulur. Lakin belə bərabərləşdirmə ilə bir çox nüfuzlu alimlər razılaşmadı.

Hələ XX əsrin 60-cı illərində R.A.Safarov ümumxalq sorğusunun referendumdan fərqli olaraq ümumxalq səsverməsi deyil, seçicilərin baxışlarının aşkar edilməsi, onlarla məsləhətləşmə olmasına arxalanaraq yuxarıda göstərilən bərabərləşdirməni qətiyyətlə rədd edirdi(163,s.18). Qanun layihələrinin ümumxalq

müzakirəsini ümumxalq səsvermə-referendum adlandıran İ.N.Qavilenkovla da razılaşmaq olmaz(164,s.102)

Öz hüquqi təbiətinə görə qanun layihələri və digər vacib dövlət qərarlarının ümumxalq müzakirəsi kimi institut da ümumxalq sorğusuna yaxındır. O, demokratiyanın, xalq idarəetməsinin inkişafına yardım edir, hər bir vətəndaşı üçün dövlət idarəetməsində iştiraka konstitusion hüququn həyata keçirilməsi imkanını (Azərbaycan Respublikası Konstitusiyası maddə 55), yalnız respublika və yerli əhəmiyyətli qanun və qərar layihələrinin müzakirəsində deyil, Azərbaycan Respublikası üçün mühüm beynəlxalq xarakterli bəzi məsələlərin həllində də iştirakını nəzərdə tutur.

Referendumun birbaşa demokratiyanın sərbəst forması, sərbəst dövlət-hüquqi institutdur və bəzi hallarda ilkin ümumxalq müzakirəsi olmadan keçirilə bilər. Buna baxmayaraq ümumxalq müzakirəsindən keçməyən qanun layihələri üzrə ümumxalq səsverməsi ilə müqayisədə, qanun layihələrinin ilkin ümumxalq müzakirəsi zamanı ümumxalq səsverməsi daha effektiv olur. Ümumxalq müzakirəsi qanunun birbaşa xalq və ya qanunverici orqan tərəfindən qəbul edilməsindən asılı olmayaraq onun layihəsinin praktiki hazırlanmasında vətəndaşların iştirakını və gələcək qanunun məzmununa təsir etməsini təmin edir.

Buna görə də ümumxalq müzakirəsini, bir sıra hallarda ümumxalq sorğusu kimi, referendumun konsultativ mərhələsi kimi dəyərləndirmək lazımdır. Bu mərhələdə qanun layihəsini dərc etmiş orqan (Milli Məclis, Azərbaycan Respublikasının Prezidenti) xalqla məsləhətləşir. Vətəndaşlar onun təkmilləşdirilməsinə dair təkliflər verir, qanunu dərc etmiş orqan isə onları ümumiləşdirir və ilkin layihəyə zəruri düzəlişlərini edir.

Qanun layihəsi üzrə ümumxalq müzakirəsinin ardınca gələn ümumxalq səsverməsi imperativ mandat təşkil edir.

Bu mərhələdə xalq onun birbaşa iştirakı ilə hazırlanmış layihəni təsdiq edir. Düşünürük ki, imperativ mandatı mütləq konsultativ referendum qabaqlamalıdır, onun keçirilməsi zamanı seçicilər qabaqcadan və təfsilatla qanun layihəsinin məzmunu ilə tanış olmaq imkanına malik olur. Həmçinin, məqsədəuyğun olardı ki, ümumxalq müzakirəsi zamanı vətəndaşlar tərəfindən irəli sürülmüş təklif və iradlar nəzərə alınsın və müzakirə üçün qanun layihəsini təqdim etmiş orqanlar vətəndaşların bəyəndiyi qanun layihəsini ümumxalq səsverməsindən bir ay əvvəl dərc etsin. Bu halda seçicilər layihənin yekun redaksiyası ilə tanış ola biləcək, referendumun keçirilməsi üzrə komissiyalar isə zəruri hazırlıq işlərini aparacaqlar.

Ən vacib dövlət qərarlarının layihələri və qanun layihələrini sovet hakimiyyəti tez-tez ümumxalq müzakirəsinə çıxarırdı. Bütün formallığı, bəzən isə bəyanat xarakterli olması ilə yanaşı belə akt səmərəli təmələ malik olurdu. Hətta bu kimi müzakirələrin keçirilməsi qaydalarını tənzimləmək üçün SSRİ Ali Soveti və müttəfiq respublikaların ali sovetləri tərəfindən xüsusi qanunlar da dərc edilmişdir.

Belə təsəvvür edirik ki, dövlətin idarə olunması işinə daha çox vətəndaşların cəlb edilməsi üçün əksəriyyətinin maraqlarına toxunan vacib məsələlər üzrə qanun layihələrinin ümumxalq müzakirələrindən siyasi həyat təcrübəsində daha geniş istifadə etmək məqsədəuyğun olardı.

Belə ümumxalq müzakirələrinin həm referendumda, ümumxalq səsverməsindən əvvəl referendumla əlaqədə olmadan sərbəst keçirilməsi də faydalı olardı. Müzakirələri ölkədə aparılan müxtəlif sosial-iqtisadi və siyasi islahatlar üzrə aparmaq lazımdır (məsələn, təhsil, ekologiya sahəsində islahatlar, yoxsulluğun azaldılması, cinayətkarlıq, narkotiklər, korrupsiya ilə mübarizə üzrə, özəlləşdirmə üzrə

və s. islahatlar). Lakin ümumxalq müzakirələrinin keçirilmə vaxtının referendumun keçirilməsi müddətlərindən qısa olması vacibdir. Belə halda referendumun predmetini ifadə edərkən müzakirə nəticələrini nəzərə almaq mümkün olur.

Referendumların məzmunu, hüquqi qüvvəsi, təsir ərazisindən asılı olaraq konstitusion nəzəriyyə onları müxtəlif növlərə bölür. Elmdə referendumların bir sıra növləri seçilir: konstitusion və qanunverici, imperativ və konsultativ, mütləq (icbari) və fakültativ, qanunverici və qanunvericilikdən sonrakı, rədd edən, ümumdövlət (ümummilli) və yerli.

Konstitusion referendumla yeni konstitusiyanın qəbul edilməsi və yaxud qüvvədə olan Konstitusiyaya dəyişikliklərin edilməsi haqqında məsələ həll olunur. Bir çox demokratik ölkələrdə, həmçinin əksəriyyət postsovet respublikalarında (Azərbaycan Respublikası, Rusiya Federasiyası, Belarus, Gürcüstan, Qazaxıstan, Tacikistan, Litva, Estoniya) Konstitusiya referendum yolu ilə qəbul edilir. Xalq səsverməsinin nəticələri ali hüquqi qüvvəyə malikdir, onun qərarları heç kim tərəfindən təsdiq edilmir və bu yolla Konstitusiya qüvvəyə minir. Əksər ölkələrdə Konstitusiyaya dəyişikliklər də referendum yolu ilə həyata keçirilir. Konstitusion referenduma misal kimi 12 noyabr 1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi ilə əlaqədar keçirilən və 24 avqust 2002-ci il, 18 mart 2009-cu il, 26 sentyabr 2016-cı ildə Konstitusiyaya prinsipial dəyişikliklər edilərkən baş tutan referendumları göstərmək olar.

Referendum yolu ilə qəbul edilən adi qanunlara da dəyişikliklər analoji yol ilə həyata keçirilir. Təəssüf ki, qanunverici referendumlara dair (referendum yolu ilə adi qanunların qəbul edilməsi və eyni qaydada əlavə və dəyişikliklərin həyata keçirilməsi) qanunvericilik praktikamızda misallar yoxdur.

Yuxarıda göstərilən konstitusion və mütləq referendumların müqayisəsi zamanı belə bir ümumi müddəa aşkar olunur ki, onların keçirilməsi mümkünlüyü Konstitusiya ilə nəzərdə tutulur və zəruri halda mütləqdir.

Bu barədə ədəbiyyatda fərqli fikir də səslənir. Belə ki, B.A.Straşun hesab edir ki, əgər qanunvericilikdə xüsusi göstəriş yoxdursa referendumla qəbul edilən qanun öz hüquqi qüvvəsinə görə parlament tərəfindən qəbul edilmiş qanundan fərqlənmir. Əlavə olaraq o qeyd edir ki, "referendumla qəbul edilən qanun gələcəkdə digər qanunlar kimi ali nümayəndəli orqan tərəfindən dəyişdirilə və ya ləğv edilə bilməz"(90,s.334-338). Müəyyən fərqlə V.O.Luçin də onunla həmrəydir, o, referendumla təsdiq edilmiş Konstitusiyanın ayrı-ayrı müddəalarının ali nümayəndəli orqan tərəfindən dəyişdirilməsi hüququnun saxlanmasını məqsədəuyğun hesab edir(165,s.81). Bununla razılaşmaq çətindir, çünki, birincisi, bu halda referendumun mənası və təyinatı itmiş olur; ikincisi, bu hal qərarın yalnız qəbul edən və ya yuxarı orqan tərəfindən ləğv edilməsi və ya dəyişdirilməsinin mümkünlüyü prinsipinə ziddir; üçüncüsü, Azərbaycan Respublikasının Konstitusiyasında referendum yolu ilə qəbul edilən aktlar qanunlardan ayırd edilmişdir və qeyd olunduğu kimi, respublikanın qanunvericilik sistemində onlara yer ayrılmışdır. (Azərbaycan Respublikası Konstitusiyası maddə 148).

Hüquqşünas alimlər imperativ və konsultativ referendumların qərarlarının qeyri-bərabər qüvvəyə malik olmasını qeyd edərək onları bir-birindən fərqləndirirlər. İmperativ referendum ali hüquqi qüvvəyə malik olan və sanksiyalaşdırmaya ehtiyacı olmayan qanun qəbul edir. Konsultativ referendum isə ümumxalq müzakirəsinə çıxarılan qanun layihəsi və ya digər məsələ üzrə xalqın rəyinin öyrənilməsini ehtiva edir. Belə məsələyə dair qərar isə ali nümayəndəli orqan tərəfindən qəbul edilir. Bunu qeyd

edərək V.T.Kabışev öz kitabında 1936-cı il SSRİ Konstitusiyasının ümumxalq müzakirəsini misal kimi gətirir.

1936-cı il Konstitusiyasının ümumxalq müzakirəsi və qəbul edilməsi məsələlərinə sonrakı beş il ərzində çox sayda dərc olunmuş siyasi və hüquqi ədəbiyyat həsr olunmuşdur. Bu Konstitusiyanın yaradılmasına Sovet İttifaqının Kommunist partiyası təşəbbüskar olmuşdur. Bu məqsədlə 6 fevral 1935-ci ildə keçirilən SSRİ VII qurultayında 1924-cü ildən qüvvədə olan Konstitusiyaya dəyişikliklərin edilməsi təklifi irəli sürülmüşdür. İ.V.Stalinin sədrliyi ilə Konstitusiya komissiyası əvvəlcə Kommunist partiyasının Mərkəzi Komitəsi, sonra isə SSRİ MİK-in Rəyasət Heyəti tərəfindən bəyənilən yeni Konstitusiya layihəsini hazırlamışdır. 13 iyul 1936-cı ildə yeni Konstitusiyanın layihəsi ümumxalq müzakirəsi üçün kütləvi informasiya vasitələrinə təqdim edilmişdir. Beləliklə, sovet qanunverici təcrübəsində ilk dəfə olaraq ümumxalq müzakirəsi düsturu meydana gəlmişdir.

Siyasi və hüquqi ədəbiyyatda olan məlumatlarda göstərilir ki, ümumxalq müzakirəsi beş aya yaxın 42189 Sovetlər plenumlarında, 79294 seksiya və deputat qruplarında, 411109 zəhmətkeş yığıncaqlarında davam edirdi. Cəmi bu müzakirələrdə 51,5 milyon insan iştirak etmişdir. Ümumilikdə layihəyə 2 milyona yaxın təklif və düzəlişlə verilmişdir. Konstitusiya mətninin son mətninə redaksiya komissiyası 32 maddəyə aid olan 43 düzəliş və əlavələr daxil etmişdir. Bütün bunlara baxmayaraq 1936-cı il Konstitusiyası SSRİ-nin ali qanunverici orqanı olan VIII Ümumittifaq sovetlər Fövqəladə qurultayı tərəfindən 5 dekabr 1936-cı ildə təsdiq edilmiş və mütləq referendum olan ümumxalq səsverməsi ilə deyil, konsultativ referendum olan ümumxalq müzakirəsi yolu ilə qəbul edilmişdir. Əlbəttə mətbuatda təqdim olunan bütün məqalələr həqiqətə

uyğun gəlmirdi və şübhə doğururdu ki, repressiyaların artdığı dövrdə xalq cəmiyyətin real vəziyyətinə uyğun gəlməyən Əsas Qanunun layihəsinə belə dəstək versin. 1977-ci il Konstitusiya layihəsinin də dırnaqarası ümumxalq müzakirəsi kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırıldı və 1936-cı ildə olduğu kimi ümumxalq səsverməsi olan referendum yolu ilə deyil (Konstitusiyanın 5-ci maddəsində nəzərdə tutulduğu kimi) SSRİ Ali Sovetinin növbədənkənar yeddinci sessiyası tərəfindən 7 oktyabr 1977-ci ildə qəbul edilmişdir. Konstitusiya layihəsinin müzakirəsində öz şərhlərini və oxucu məktublarını dərc edən mərkəzi mətbuat da iştirak edirdi. Lakin məktublarda olan tənqidi materiallar redaksiyanın arxivlərində qalaraq qəzet səhifələrinə çıxmırdı. Onlar Şura seçkilərinə dair seçki sisteminə aid idi və bir deputat yerinə azı iki namizədin sürülməsi zərurəti irəli sürülürdü. Sovet İttifaqı Kommunist partiyasının siyasi sistemin özülü elan edilməsi, Şuranın rolunun artırılması və bəzi digər məsələlər də Konstitusiya layihəsində mənfi qarşılanmışdır. Ölkə rəhbərliyi bu kimi səmərəli təklifləri rədd edirdi.

Bütün deyilənləri nəzərə alaraq israr etmək olar ki, V.T.Kabışev öz monoqrafiyasında tamamilə haqsız olaraq 1936-cı il SSRİ Konstitusiyasında olduğu kimi mütləq referendumu qanun layihələri və digər məsələlərin ümumxalq müzakirəsi ilə (konsultativ referendumla) bərabər tutur. Düşünürük ki, konsultativ referendum institutu barədə danışmaq, üstəlik onu imperativ referendumla müqayisə etmək olmaz. Düzdür, bəzi ölkələrin məsələn, İspaniyanın Konstitusiyası "xüsusilə vacib siyasi məsələlərin ümumxalq konsultativ referenduma çıxarılmasını" nəzərdə tutur.

Hüquq elmi də mütləq və fakültativ referendumları fərqləndirir. Mütləq referendum konstitusiyada göstərilən konkret məsələlər üzrə keçirilir. Belə ki, Azərbaycan

Respublikası Konstitusiyasının 3-cü maddəsində müəyyən edilir ki, Konstitusiya qəbul edilməsilə və ona düzəlişlərin edilməsilə bağlı məsələlər, həmçinin Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi məsələləri yalnız referendum yolu ilə həll edilə bilər. Aydındır ki, belə məsələlər yarandıqda Konstitusiyanın tələbi ilə onlar yalnız referendum yolu ilə həll edilə bilər. Başqa yol ilə yəni, referendum təşəbbüskarının istəyi ilə dövlət hakimiyyəti orqanları tərəfindən həlli yolverilməzdir.

V.A.Luçin qeyd edir ki, fakültativ referendum dedikdə, yalnız ümumxalq səsverməsi ilə deyil, səlahiyyətli dövlət orqanları tərəfindən də sərbəst olaraq həll oluna bilən məsələlər barədə referenduma çıxarılması vacib olmayan məsələlərdir(165,s.81). Düşünürük ki, müəllifin bu mövqeyi ilə razılaşmaq olar. Belə referendum keçirilməsinə zərurət yarandıqda hər bir halda referendumun keçirilməsinə təşəbbüs hüququ olan subyektin özü tərəfindən müəyyən edilməlidir. Referenduma çıxarılması Konstitusiya və ya qanunla qadağan olunan məsələ və yaxud layihələri istisna etməklə istənilən məsələ və ya dövlət (özünüidarəetmə) qərarının layihəsi fakültativ referendumun predmeti ola bilər. Fakültativ referendumlar yalnız onlara zərurət yaranan halda keçirilir. Bu baxımdan bir neçə Avropa dövlətinin təcrübəsinə nəzər yetirmək maraqlı olardı.

Misal üçün, bu sahədə Portuqaliya qanunvericiliyinə diqqət yetirmək olar. Burada, fakültativ referendum ümummilli əhəmiyyəti olan istənilən problemlə bağlı, o cümlədən beynəlxalq sazişlərlə əlaqədar keçirilə bilməz, yalnız maliyyə məsələləri istisna təşkil edir. İrlandiyada üçün xüsusi əhəmiyyət kəsb edən istənilən qanun referenduma çıxarılır. İspaniyada fakültativ referendum baş korteslər palatalarından birinin üzvlərinin 1/10 tələbi ilə Əsas Qanuna qismən dəyişikliklər tətbiq oluna bilər. İsveçdə qeyri-müəyyən müddətli və yaxud 15 ildən artıq müddətə

olan beynəlxalq sazişlər fakültativ referendumun predmetidir. Xalqın təşəbbüsü ilə 1949-cu ildə qüvvədə olma müddəti bir ildən artıq olan federal qərarların fakültativ referenduma çıxarılması mümkün olmuşdur. Bundan başqa yalnız qeyri-müəyyən müddətli və denonsasiya olunmayan beynəlxalq sazişlər deyil, həm də digər sazişlər də fakültativ referenduma çıxarıla bilər; sonuncu halda referendum federal yığıncağın hər iki palatasının qərarı ilə keçirilməlidir.

Dövlət-hüquq elmi və təcrübəsinə qanunvericilikdən qabaq və qanunvericilikdən sonrakı referendumlar da tanışdır, bunları parlamentdən qabaq və parlamentdənsonrakı referendum kimi də qeyd etmək olar. Adətən konsultativ referendum qanunvericilikdən qabaq olur, yəni nəticələri parlament üçün mütləq olmayan qanun layihəsi və ya digər qərarların ümumxalq müzakirəsi şəklində. Buna baxmayaraq belə səsvermə baş tutarsa, onun nəticələri qanunverici orqanlara mühüm təsir göstərmiş olur. Belə ki, 1955-ci ildə İsveçdə ölkə ərazisində sağtərəfli hərəkətin tətbiqi barədə məsələ üzrə konsultativ referendum nəticəsində rədd cavabı alınmışdır. Buna görə də parlament yeni nəzarət qaydalarının qüvvəyə minməsinə cəhd göstərmədi. (80, s.204). Qanunvericilikdən sonrakı referenduma misal kimi 1991-ci ildə parlament tərəfindən qəbul edilən və ümumxalq səsverməsi ilə (referendumla) bəyənilmiş 29 dekabr 1991-ci il tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktını misal göstərmək olar.

Rədd edən referendum da mövcuddur. Belə referendum İtaliya Konstitusiyasının 75-ci maddəsində təsbit olunub. Burada müəyyən edilir ki, 500 min seçicinin və yaxud beş vilayət şurasının tələbi ilə "qanunun və yaxud qanun qüvvəsinə malik olan aktın tamamilə və yaxud qismən ləğv edilməsi üçün" referendum keçirilə bilər. Elmi

ədəbiyyatda rədd edən referendumların İtaliyada keçirilməsinə dair çoxsaylı misallar gətirilir. Belə referendumlarda boşanmalar haqqında, siyasi partiyaların dövlət tərəfindən maliyyələşdirilməsi ictimai asayişin mühafizəsi, ömürlük həbs, silah gəzdirməyə icazə haqqında qanunların ləğv edilməsi haqqında məsuliyyət çıxarılır. Maraqlıdır ki, ləğv edilməsi nəzərdə tutulan bu qanunlar seçici korpusu tərəfindən dəstəklənmiş və öz qüvvəsini saxlamışdır.

Nəhayət, tətbiq ərazisinə görə referendumlar bütün ölkə miqyasında keçirilən ümumdövlət (ümummilli) və bir və ya bir neçə inzibati-ərazi vahidləri hüdudlarında (ştat, əyalət, torpaq, vilayət, rayon və s.) keçirilən yerli referendumlara bölünür. Maraqlıdır ki, ABŞ Konstitusiyası və qanunvericiliyi bütün ölkə miqyasında ümummilli referendumların keçirilməsini nəzərdə tutur. Burada Almaniya və İngiltərədə olduğu kimi referendum yalnız federasiya subyektləri, inzibati-ərazi vahidləri tərəfindən həyata keçirilir.

Müxtəlif referendum növlərinin spesifik xüsusiyyətlərinə aydınlıq gətirərək, həmçinin birbaşa demokratiya sistemində onların yeri və rolunu müəyyən edərək referendum növlərinin hansındasa "aparmaq" deyil, onların hamısının nəzərə almaq lazımdır.

İctimai rəyin ifadə edilməsi forması kimi və vacib normativ-hüquqi aktların, siyasi və digər qərarların qəbul edilməsi üsulu kimi referendum bir millətin deyil, bütün mütərəqqi bəşəriyyətin nailiyyətidir. Bu ümumbəşəri mədəni dəyərdir. Lakin cəmiyyətin siyasi həyatında referendum institutunun əhəmiyyətinə həddən atıq qiymət vermək, xüsusən də onu mütləqiyyətləşdirmək olmaz.

Uzun müddət, xüsusən də ikinci dünya müharibəsi ərəfəsində referendum institutu dünya ictimaiyyətinin gözü önündə nüfuzdan düşmüşdür. Bunun əsas səbəbi 1933-cü

ildə faşist Almaniyasında bu institutun fəal istifadəsi ilə ölkənin Millətlər Liqasından çıxması haqqında məsələnin həlli olunmasıdır. Göstərilən beynəlxalq təşkilat isə hərbi münaqişələrin qarşısının alınması, sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üçün birinci dünya müharibəsindən sonra yaradılmışdır. 1934-cü ildə faşist Almaniyası prezident və nasist partiyasının fyureri vəzifələrinin birləşdirilməsi, bununla da həmin vaxt reyxskansler olan Hitler tərəfindən göstərilən postların ələ keçirilməsi haqqında, 1938-ci ildə Avstriyanın Almaniyaya birləşdiriləsi haqqında məsələlərin həlli üçün referendumdan istifadə etmişdir.

Başqa bir misal da gətirmək olar. 1968-ci ilin 24 sentyabrında Afina xuntası "qara polkovnikləri" antidemokratik Konstitusiyasının qəbul edilməsi üzrə referendum keçirmişdir. Dırnaqarası referendum Yunanıstanda qəddar terror və iqtidarın özbaşınalığı şəraitində həyata keçirilmişdir. Əhalinin qorxudulması vəziyyətində xunta özünə yararlı Konstitusiyanın formal bəyənilməsinə nail oldu.

Hətta, Fransa kimi demokratik ölkədə də referendum bir şəxsin -respublika prezidentinin hökmünün həyata keçirilməsi üçün vasitəyə çevrilə bilmişdir. 1962-ci ilin oktyabrında Fransada keçirilmiş səsvermə buna əyani misaldır. Milyonlarla fransalı "ümumi səsvermə ilə referendumla prezidentin seçilməsinə" dair dövlət başçısı tərəfindən xalqa təqdim olunan qanun layihəsinə "bəli" və yaxud "xeyir" cavabını verməli idi. Şarl de Qollun istefaya gedərək hökumət böhranı və vətəndaş müharibəsinin başlanması təhdidləri ilə fransalı seçiciləri razılıq verməyə məcbur etmişdir. Digər referendumlar keçirilərkən də Şarl de Qoll onları öz şəxsiyyəti ilə əlaqələndirirdi.

Lakin bu və ya digər neqativ faktları əsaslandıraraq referendum institutunun əhəmiyyəti barədə qənaətə gəlmək

səhv olardı. Xalqın suverenliyini birbaşa ifadə edən dövlət-hüquq institutlarından biri olaraq referendum institutu qanun layihələrini qəbul edib-etməmək, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən digər məsələləri həll etmək üçün vətəndaşlara imkan verir.

Referendum institutun təhlili zamanı həm bu gün, həm də perspektivdə cəmiyyət və ölkə üçün referendum predmetinin əhəmiyyətini dərk etmək qabiliyyətini, ümumiyyətlə xalqın siyasi şüurunun səviyyəsi kimi bir amili də nəzərə almaq lazımdır. Hər bir ölkədə referendum yalnız o halda siyasi və ideoloji cəhətdən effektiv olar ki, o istənilən məsələnin həlli zamanı humanist məqsədlərə yönəlmiş olsun, cəmiyyət saxta demokratik dəyərlərlə aldadılmasın və referenduma hazırlıq və onun keçirilməsi üçün bütün zəruri təşkilati-texniki və digər şəraitlər yaradılsın.

2.

2. Referendum haqqında qanunvericilik

Birbaşa demokratiyanın ən vacib formalarından biri kimi referendum Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi və digər qanunvericilik aktları ilə tənzimlənir.

Konstitusiya-dövlətin siyasi və dövlət-hüquqi həyatının əsas qanunudur, dövlətin quruluşunu və fəaliyyətinin əsas prinsiplərini müəyyən edən ən mühüm ictimai münasibətləri, təməlqurucu milli və dövlət suverenliyi, şəxsiyyətin əsas hüquq və azadlıqları, ölkənin hüquq sistemi, dövlət hakimiyyəti və onu həyata keçirən orqanların təşkili və fəaliyyətini nizamlayır. Konstitusiyada təsbit edilən belə institutlardan biri də referendum və onun əsas prinsipləridir.

Azərbaycan Respublikasının Konstitusiyası əsasında və ona uyğun olaraq referendumun keçirilməsinin təşkili ilə

bağlı olan bütün məsələlər Milli Məclis tərəfindən qəbul edilən və Azərbaycan Respublikasının Prezidenti tərəfindən 27 may 2003-cü ildə imzalanmış Azərbaycan Respublikası Seçki Məcəlləsi ilə tənzimlənir.

Referendum haqqında qanunvericiliyin baxılmasını Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş normaların təhlilindən başlayaq. Bunu xarici konstitusion qanunverici aktlarla, ilk növbədə, postsovet respublikalarının qanunvericilikləri ilə müqayisədə təhlil etmək maraqlı olardı.

Qeyd olunduğu kimi, Azərbaycan Respublikasının Konstitusiyası «Xalq suverenliyi» adlanan 2-ci maddədə müəyyən edir ki, «Azərbaycan xalqı öz suveren hüququnu birbaşa ümumxalq səsverməsi-referendumla və azad, gizli və şəxsi səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında seçilmiş öz nümayəndələri vasitəsilə həyata keçirir». Referendumun belə tərifi Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyasında referendumla bir sıraya qoyulan mühüm dövlət məsələlərinə dair ümumxalq səsverməsindən (maddə 5) prinsipial şəkildə ayırmağa imkan verir. Düşünürük ki, qüvvədə olan Azərbaycan Respublikasının Konstitusiyasında referendumun belə dəqiq və birmənalı tərifi cəmiyyət və dövlətin siyasi həyatında iştiraka (maddə 54) və dövlətin idarə olunmasında iştiraka (maddə 55) vətəndaşların konstitusion hüququndan irəli gəlir. Əsas Qanunda belə normanın mövcudluğu və onun həyata keçirilməsi Konstitusiyada bəyan edilmiş demokratik cəmiyyət və dövlətin quruculuğu işində vətəndaşların siyasi şüuru və fəallığının artmasına yardım edir. Ölkə üçün vacib məsələlərin ümumxalq müzakirəsi kimi zəruri demokratik mexanizm formasına qaldıqda isə, onu həm referenduma hazırlıq prosesində, həm də sərbəst şəkildə keçirmək olar.

Azərbaycan Respublikası Konstitusiyasının 2-ci maddəsinin II hissəsində qeyd olunur ki, xalqın suveren hüququ, həmçinin demokratik seçki sistemi əsasında, yəni xalq tərəfindən seçilən nümayəndəli dövlət hakimiyyəti orqanları vasitəsilə seçilən «nümayəndələri» vasitəsilə də həyata keçirilir. Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq Azərbaycanda nümayəndəli orqanlara Milli Məclis (qanunvericilik hakimiyyəti orqanı) və bələdiyyələr (yerli özünüidarəetmə orqanları) aiddir. Xalqın suveren hüququ başqa bir nümayəndəli orqanla-prezidentlik institutu ilə də həyata keçirilir, çünki prezident də respublikanın xalqı (seçici korpusu) tərəfindən seçilir. Xalqın iradəsi həmçinin məhkəmə hakimiyyəti orqanları tərəfindən, «aşağı» instansiyalardan başlayaraq, respublikanın Konstitusiya Məhkəməsinə qədər həyata keçirilir. Azərbaycan Respublikası vətəndaşlarının iradəsini həyata keçirərkən, onlar xalqın adından öz qərarlarını çıxarır.

Xalqın suveren iradəsinin həyata keçirilməsində digər dövlət orqanlarının iştirak etməsinə dair məsələ elmi ədəbiyyatda fərqli tərzdə nəzərdən keçirilir. Bəzi müəlliflər hesab edir ki, xalqın iradəsini yalnız ali dövlət hakimiyyəti orqanları ifadə edir. Digərlərinin fikrincə, bu iradə bütün dövlət mexanizmi ilə, yəni dövlət orqanlarının bütün sistemi ilə həyata keçirilir. Məsələn, Rusiya Federasiyası Konstitusiyasının 3-cü maddəsinin 2-ci bəndində təsbit olunmuş müddəaya görə «Xalq öz hakimiyyətini birbaşa yolla, həmçinin dövlət orqanları və yerli özünüidarəetmə orqanları vasitəsilə həyata keçirir». Bununla əlaqədar, M.V.Baqlay yazır: «Xalqın iradəsi dövlət hakimiyyətinin bütün qollarının fəaliyyətinin bazisi kimi xidmət edir. O, hüquqda inteqrasiya olunub. Əlbəttə ki, xalq qanunverici hakimiyyəti daha çox birbaşa müəyyən edir, çünki nümayəndəli orqanlar birbaşa vətəndaşlar tərəfindən

seçilir(92,s.109). Lakin, xalqın iradəsi icra və məhkəmə hakimiyyətləri üçün də sistemyaradıcı faktor kimi qalır, çünki onlar seçilən nümayəndəli orqanlar və yaxud seçilən dövlət başçısı tərəfindən formalaşır. Bu, əlbəttə ki, xalqın iradəsinin ifadə edilməsinin dolayı formasıdır, lakin buna baxmayaraq, o, kifayət qədər legitimdir».

Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsinin II hissəsində mütləq referendum yolu ilə həll olunmalı məsələlər qeyd olunmuşdur. Bura ilk növbədə Konstitusiyanın qəbul edilməsi və ona dəyişikliklərin edilməsi aiddir. Referendum yolu ilə bu qədər vacib məsələlərin qəbul edilməsinə əsas var, çünki konstitusiya dövlət və cəmiyyətin həyatında xüsusi yer tutur və onu haqlı olaraq dövlətin Əsas Qanunu və yaxud «Qanunların qanunu» adlandırmaq olar. Konstitusiya dövlətin və bütün cəmiyyətin hüquqi əsasıdır, latın dilində «constitutio»-təyin edirəm, təsdiq edirəm deməkdir. O, dövlətin əsası, quruluşu və məqsədlərini, xalqın suverenliyini, onun iradəsinin ifadə etmə formalarını, dövlətdə şəxsiyyətin vəziyyətini, onun hüquq və azadlıqlarını və ictimai münasibətlərin digər vacib sahələrini müəyyən edir. Xalqın iradəsi əsasında ümumxalq səsverməsi ilə qəbul edilən konstitusiya dövlətlə vətəndaşlar arasında «ictimai razılaşma» qismində çıxış edir, onsuz siyasi cəhətdən təşkil olunmuş cəmiyyətdə insanların azad və birgəyaşayışı mümkün deyil. Məhz konstitusiya dövlətə legitimlik verir və eyni zamanda, ictimai özünüidarəetmə sahəsinə dövlət müdaxiləsinin hüdudlarını müəyyən edir, bu da vətəndaş cəmiyyətinin formalaşması və fəaliyyət göstərməsi üçün vacib şərtlərdən biridir. Konstitusiyanın prioriteti-hüququn hökmranlığı, hakimiyyət özbaşınalığı və təbəələrin hüquqsuzluğunun inkar edilməsinə əsaslanan hüquqi dövlətin mütləq əlamətidir. Bu sənədin müstəsna vacib rolu və hüquqi təbiətinə görə Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilib ki, o,

yalnız referendum yolu ilə xalqın öz iradəsinin ifadə edilməsi əsasında qəbul edilə və ya düzəliş edilə bilər.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Konstitusiyasında onun mətninə düzəlişlər haqqında təkliflərin verilməsi üzrə kifayət qədər mürəkkəb qaydanı müəyyən edən ayrıca fəsil var. Bütün bunlar uzun müddət qüvvəsini saxlayan konstitusiyanın sabitliyini təmin edir. Lakin, bu o demək deyil ki, bir dəfə qəbul edilən konstitusiya dəyişdirilə bilməz. İctimai inkişafın dialektikası belədir ki, heç bir ölkə dəyişməz statik vəziyyətdə qalmır, o, inkişaf edir, onun siyasi sistemi, ayrı-ayrı dövlət və hüquq institutları inkişaf edir, bu da təbii ki, qüvvədə olan konstitusiyaya dəyişikliklər zərurətini, ictimai münasibətlərdə baş verən dəyişikliklərlə sosial reallığın yeni şərtlərlə onun uyğunlaşdırılması tələbatını yaradır. Məsələn, bu səbəbdən 2002-ci, 2009-cu, 2016-cı illərdə Azərbaycan Respublikası Konstitusiyasının müəyyən maddələrində dəyişikliklərin edilməsinə dair referendum keçirilmişdir.

Mütləq referendumun keçirilməsinin digər predmeti Azərbaycan Respublikası sərhədlərinin dəyişdirilməsi haqqında məsələdir. 3-cü maddənin II hissəsindən başqa bu müddəa Konstitusiyanın 11-ci maddəsinin III hissəsində də qeyd olunmuşdur. Burada göstərilib ki, «…yalnız Azərbaycan xalqının iradəsi əsasında Milli Məclisin qərarı ilə keçirilən referendum yolu ilə dövlət sərhədləri dəyişdirilə bilər». Bu da tamamilə əsaslıdır, çünki dövlət sərhədləri ölkənin vahid, toxunulmaz və ayrılmaz ərazi məkanlarını müəyyən edir. Dövlət sərhədlərinin dəyişdirilməsi haqqında referenduma çıxarılan məsələ Azərbaycan Respublikasının təhlükəsizliyi, dövlət suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı tələblərinə cavab verməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının referendum keçirilməsini mümkünsüz edən məsələləri müəyyənləşdirən 3-cü maddəsinin 3-cü hissəsinə 24 avqust

2002-ci ildə «Azərbaycan Respublikasının Konstitusiyasına düzəlişlərin edilməsi haqqında» Azərbaycan Respublikası Referendum Aktı əlavə edilmişdir. Bu əlavəyə uyğun olaraq referendum vergi, dövlət büdcəsi, amnistiya və əfv məsələlərinə dair və seçilməsi qanunverici və icra hakimiyyəti orqanlarına aid edilən vəzifəli şəxslərin vəzifəyə təyin olunması və ya təsdiq edilməsi məsələlərinə dair referendum keçirilə bilməz.

Yuxarıda sadalanmış bütün məsələlərin həlli qaydası birbaşa Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilmişdir. Məsələn, amnistiya aktını Milli Məclis qəbul edir, əfvin həyata keçirilməsi Nazirlər Kabinetinin, rayon (şəhər) məhkəmələrinə hakimlərin təyin edilməsi isə respublika prezidentinin səlahiyyətlərinə aiddir. Dövlət büdcəsinin təsdiq edilməsi, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, apellyasiya məhkəmələri hakimlərinin, Baş Prokurorun və s. təyin edilməsini isə prezidentin təqdimatı ilə Milli Məclis həyata keçirir.

Sadalanmış məqamlardan sonra analoji məsələlərin digər postsovet respublikaların konstitusiyalarında necə həll olunmasını müqayisə etmək maraqlı olardı. Əsasən, baxılan problemlər oxşar tərzdə nizamlanır. Məsələn, Belorus Respublikası Konstitusiyasının III hissəsinin 2-ci fəsli «Seçki sistemi. Referendum (xalq səsverməsi)» adlanır və 6 maddədən ibarətdir. Bu fəslin sonuncu 78-ci maddəsində referendumların keçirilməsi qaydası göstərilib və qeyd olunub ki, referenduma çıxarılması mümkün olmayan məsələlərin siyahısı Belorus Respublikasının qanunu ilə müəyyən edilir. Konstitusiya səviyyəsində təsbit olunan müddəaya görə referendum ümumi, azad, bərabər və gizli səsvermə yolu ilə keçirilir, burada 18 yaşa çatan (maddə 64) və seçici hüququna malik olan (maddə 76) respublika vətəndaşları iştirak edir.

Ukrayna Konstitusiyasında ayrıca «Seçkilər və referendum» bölməsi var. Bu bölmə 6 maddədən ibarətdir, burada da referendumun təyin edilməsinə təşəbbüskarlar sadalanır, həmçinin referendum yolu ilə həll edilən və referenduma çıxarılması mümkün olmayan (vergilər, büdcə, amnistiya) məsələlər müəyyən edilmişdir. Belorus Respublikasının Konstitusiyasında olduğu kimi, Ukrayna Konstitusiyasında da seçki və referendumlarda iştirak üçün yaş həddi (minimum 18 yaş) göstərilmişdir.

Belorus və Ukrayna Konstitusiyalarından fərqli olaraq, Özbəkistan Respublikası Konstitusiyasının 9-cu maddəsi ən mühüm məsələlərin referenduma çıxarılmasını qeyd edərək «Referendumun keçirilməsi qaydalarının qanunla müəyyən edilməsini» göstərməklə kifayətlənmişdir. Gürcüstan Konstitusiyasında referendumun keçirilməsinə yol verilməyən məsələlər sadalanmışdır (maddə 74). Beləliklə, postsovet respublikalarının konstitusiyaları referendum institutu məsələlərinə müxtəlif tərzdə toxunur.

Konstitusiya normalarının müqayisəli təhlili göstərir ki, bu institut Azərbaycan Respublikası Konstitusiyasının üç hissədən ibarət olan 3-cü maddəsində daha uğurla tənzimlənmişdir. Bununla yanaşı, burada referendumda iştirak üçün yaş həddinin göstərilməsi məqsədəuyğun olardı. Nümayəndəli hakimiyyət orqanlarına üzvlərin seçkilərində və referendumda həlledici səslə iştirak hüququna yaş həddinin müəyyən edilməsi vətəndaşların demokratik hüquqlarının reallaşdırılmasında vacib şərtlərdən biridir və konstitusiya səviyyəsində təsbit olunmalıdır. Lakin Azərbaycan Respublikası Konstitusiyasının qanunvericilik hakimiyyəti haqqında fəsildə də, bələdiyyələr haqqında fəsildə də, «Seçki hüququ» adlanan 56-cı maddədə də yaş həddi göstərilməyib.

Azərbaycan Respublikasının Konstitusiyasında bir sıra digər məsələlər də nizamlanmışdır. Belə ki, 94-cü maddənin

4-cü bəndində müəyyən edilmişdir ki, referendum məsələlərinə dair ümumi qaydalar respublikanın Milli Məclisi tərəfindən müəyyən edilir; 95-ci maddənin 18-ci bəndində referendumun təyin olunması haqqında məsələnin Milli Məclis tərəfindən həll olunması göstərilib. Referendumun təyin olunmasını Azərbaycan Respublikasının Konstitusiyası, həm də respublika prezidentinin də səlahiyyətlərinə aid edir. Ölkənin qanunvericilik sistemini müəyyən edən 148-ci maddəsinin 1-ci hissəsində Azərbaycan Respublikasının Konstitusiyası referendumla qəbul olunan aktları göstərir. 152-ci maddədə həmçinin qeyd olunur ki, Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklərin edilməsi haqqında qərarlar yalnız referendum yolu ilə qəbul edilir.

Azərbaycan Respublikasının Konstitusiyasının 153-cü maddəsi konstitusiya mətnində dəyişikliklərin edilməsi barədə Milli Məclis və ya respublika prezidenti tərəfindən təklifin irəli sürülməsi hallarını nəzərdə tutur. Bu halda təklif olunan dəyişikliklər üzrə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin rəyi alınmalıdır. Eyni zamanda, növbəti 154-cü maddədə qeyd olunur ki, Konstitusiya Məhkəməsi referendum yolu ilə qəbul edilən konstitusiya mətnində dəyişikliklərin edilməsinə dair qərar qəbul edə bilməz. 155-ci maddədə konstitusiyanın bir sıra maddələrində dəyişikliklərin edilməsi barədə təkliflərin referenduma çıxarılması təşəbbüsünə məhdudiyyətlər qeyd olunmuşdur.

Bu gün referendumla bağlı olan bütün məsələlər referendum haqqında ayrıca qanunda deyil, Azərbaycan Respublikasının Seçki Məcəlləsində təsbit olunmuşdur. Bir tərəfdən buna bəraət qazandırmaq olar, çünki referendum və seçkilərin (Milli Məclisə, prezidentliyə və bələdiyyələrə) bir çox təşkilati məsələlərin tənzimlənməsi oxşar normativ baza əsasında qurulmuşdur. Azərbaycan Respublikasının

Konstitusiyası eyni qaydada həm respublika vətəndaşlarının seçici hüquqlarını, həm də onların referendumda iştirak etmək hüququnu müdafiə edir.

Seçkilərdə və referendumda bir çox təşkilati prosedurlar, seçki ərazi və dairələri, seçkilərə hazırlıq və onların keçirilməsini həyata keçirən seçki komissiyaları üst-üstə düşür. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası, dairə seçki komissiyaları, ərazi (sahə) seçki komissiyaları həm seçkilər, həm də referendumların keçirilməsi üçün ümumi olur. Seçici siyahılarının və referendum iştirakçılarının siyahısının tərtib etmə qaydası, səsvermə qaydası və s. də ümumidir.

Lakin, digər tərəfdən referendum və seçkilərin tənzimlənməsində bu və digər məqamların oxşarlığı seçkilər və referendum üzrə qanunvericiliyin bir hüquqi sənəd olan Seçki Məcəlləsində birləşdirilməsi üçün əsas vermir. Ötən fəsildə qeyd olunduğu kimi, seçki və referendumun oxşar cəhətləri olsa da, onlar birbaşa demokratiyanın fərqli formalarıdır. Seçkilər bu və ya digər orqanlara namizədlərin seçilməsinə xidmət edir, referendum yolu ilə isə müəyyən qərarlar qəbul edilir. Seçki kampaniyası prosesində seçkilərdə müxtəlif siyasi mövqeləri təmsil edən namizədlər rəqabət aparır. Referendumun keçirilməsinin təşəbbüskarları təklif etdiyi qanun layihəsi və qərarlarının əksəriyyət seçicilər tərəfindən qəbul edilməsinə razılığın qazanılması məqsədini güdür.

Hüquq ədəbiyyatında qeyd edilir ki, seçkilər və referendum üzrə qanunvericilik arasında fərqlərin aradan qaldırılması demokratik institutların inkişafı baxımından neqativ fəsadlara gətirib çıxara bilər. Məsələn, belə fəsadlardan biri kimi referendum yolu ilə prezidentin səlahiyyət müddətinin konstitusiyada nəzərdə tutulmuş müddətdən artıq uzadılması təcrübəsini göstərmək olar.

Praktiki olaraq belə referendum alternativsiz seçkilər deməkdir.

Belorus, Moldova və Azərbaycan Respublikasını istisna etməklə, postsovet respublikalarının əksəriyyətində referendum haqqında ayrıca qanunlar qüvvədədir. Sadalanan respublikalarda referendum, parlament, prezident və yerli özünüidarəetmə orqanlarına seçkilərin keçirilməsini tənzimləyən normalar vahid seçki qanunvericiliyi olan seçki məcəllələrinə daxil edilmişdir. Bu məcəllələr məzmun və strukturuna görə kifayət qədər böyükdür, bu da onların istifadəsini xeyli çətinləşdirir. Məsələ ondadır ki, tətbiqi və istifadəsi obyekt və subyekt sayının məhdud olmasına görə mülki, cinayət, prosessual və digər məcəllələrdən fərqli olaraq Seçki Məcəlləsi geniş əhali təbəqəsi olan seçici korpusunu, yəni seçki hüququna malik olan şəxsləri əhatə edir, bu da praktiki olaraq 18 yaşa çatmış bütün vətəndaşlar deməkdir.

Seçki Məcəlləsinin qəbul edilməsi haqqında məsələ Rusiya Federasiyasının Dövlət Dumasında müzakirə olunmuşdur və bəzi partiya fraksiyaları (xüsusən də «Yabloko») Rusiyada keçirilən bütün seçki səviyyələrində tətbiq olunan əsas seçki prosedurlarını unifikasiya edən məcəllənin qəbul edilməsində daha israrlı idi. Lakin, belə yanaşma nə elmi dairələrdə, nə də qanunvericilər arasında yetərli qədər dəstək qazana bilməmişdir. Vətəndaşların seçki hüquqları və zəmanətlərinin sistemləşdirilməsi üçün daha səmərəli yol lazım idi. 1994-cü ildə «Rusiya Federasiyası vətəndaşlarının seçki hüquqlarının əsas zəmanətləri haqqında» Federal Qanununun qəbul edilməsi ilə bu məsələ həllini tapmışdır.

Bununla yanaşı, seçki və referendumun təşkilati prosedurlarının oxşar olmasını nəzərə alan Rusiya qanunvericisi seçki və referendum haqqında sərbəst qanunlar olarkən, vətəndaşların müvafiq hüquqlarının

zəmanətlərini tənzimləyən vahid qanunverici akt olan «Rusiya Federasiyası vətəndaşlarının seçki hüquqlarının əsas zəmanətləri haqqında» Federal Qanunun qəbul edilməsi zərurətini etiraf etmişdir. Bununla əlaqədar, yuxarıda adı çəkilən «Rusiya Federasiyası vətəndaşlarının seçki hüquqlarının əsas zəmanətləri haqqında» Federal Qanun qüvvəsini itirmiş oldu.

Referendum və hakimiyyət orqanlarına (Milli Məclis, prezident, bələdiyyələr) seçkilər birbaşa demokratiyanın forması olduğuna görə və referendumla seçkilərin bir çox təşkilati məsələlərinin eyni olmasını və ümumi qaydalarla həll olunması mümkünlüyünü nəzərə almaqla, həmçinin onların keçirilməsi xərclərinin azaldılması üçün bizim respublikada bu tədbirlərin 2003-cü ilin mayında qəbul edilən Azərbaycan Respublikasının Seçki Məcəlləsində tənzimləmək məqsədəuyğun hesab edilmişdir.

Azərbaycan Respublikasının Seçki Məcəlləsi Ümumi və Xüsusi hissədən, 38 fəsildən ibarət olan 7 bölmədən, 246 maddədən ibarətdir. Nümayəndəli orqanlara (Milli Məclisə, prezident, bələdiyyələrə) bütün seçkilər prosesini nəzərdə tutan bölmələrlə yanaşı, məcəllədə xüsusi-«Referendum» bölməsi var.

Məcəllənin Ümumi hissəsi vətəndaşların seçki hüququ, seçkilərdə və referendumda iştirakının əsas prinsiplərinin müəyyən edilməsinə, fəal və passiv seçki hüququnun məzmununa həsr edilmişdir (1, 2-ci fəsillər). Məcəllənin 3, 4, 5, 6-cı fəsillərində referendum və seçkiləri təşkil edən orqanlar haqqında, onların sistemi, yaranma qaydaları, səlahiyyət müddətləri, hüquq və vəzifələri haqqında, həmçinin referendumun təşkili və keçirilməsi üzrə eyni zamanda müvafiq funksiyaları yerinə yetirən seçki komissiyalarının fəaliyyət zəmanətləri haqqında bəhs olunur. Məcəllənin 18.3-cü maddəsində qeyd olunur ki, Azərbaycan Respublikası Konstitusiyasının 3, 83, 101 və

142-ci maddələrinə uyğun olaraq, onlar (Məcəllənin 35.4-35.6-cı maddələrində göstərilən bəzi sahə seçki komissiyalarını istisna etməklə) daim fəaliyyət göstərən dövlət orqanlarıdır.[2]

Məcəllənin növbəti 7-ci fəsli referenduma hazırlıq və onun keçirilməsi zamanı aşkarlığa həsr olunmuşdur. Burada komissiyaların fəaliyyətində aşkarlıq məsələləri, referendum prosesinin müşahidə olunması prinsipləri ətraflı sadalanır, yerli və xarici müşahidəçilərin, həmçinin kütləvi informasiya vasitələri nümayəndələrinin hüquq və vəzifələri göstərilir. Məcəllənin demokratik mahiyyəti həm də onunla təsdiq olunur ki, o, həm referendum, həm də seçkilərin keçirilməsi kampaniyasında siyasi partiya və partiya bloklarının iştirakını nəzərdə tutur, onların iştirakı şərtlərini, nümayəndələrinin səlahiyyətlərini müəyyən edir (fəsil 9).

Referendumun keçirilməsi üçün MSK tərəfindən aparılan səsvermədə iştirak hüququna malik olan vətəndaşların vahid seçicilər siyahısının mövcudluğu müstəsna əhəmiyyətə malikdir. Məcəllə siyahının təsdiq edilməsi qaydaları və müddətini, onun dəqiqləşdirilməsini və əhalinin nəzərinə çatdırılması məsələlərini müəyyən edir (fəsil 8). Seçici hüquqlarının zəmanətləri referendum kampaniyasının bu mərhələsinin düzgün təşkilindən asılıdır.

Məcəllənin üç fəsli (11, 12 və 13) referendumqabağı təbliğatın geniş məsələlər dairəsini tənzimləyir. Bunlarda referenduma çıxarılan məsələlərin «lehinə» və yaxud «əleyhinə» təşviqatın aparılması üçün nəzərdə tutulan təbliğat qruplarının yaradılması və qeydiyyatı qaydalarını, onların statusunu müəyyən edən normalar təqdim olunmuşdur. Məcəllədə seçkiqabağı təbliğat, onun keçirilmə qaydası və müddətləri, ictimai rəyin sorğusu, KİV-dən (dövrü mətbuat, televiziya, radio) pulsuz və ödənişli

[2] Qeyd etmək lazımdır ki, respublika Konstitusiyasının 3, 83, 141, 142-ci maddələrində belə göstərişlər yoxdur

istifadəsinin şərt və tələbləri, kütləvi tədbirlərlə təbliğatın aparılması, çap və digər materialların yayılması məsələlərinə xeyli yer ayrılmışdır. Lakin təbliğatın bütün bu imkanları vətəndaşların seçki hüquqlarının pozulması, tamah məqsədilə istifadəsini istisna edir. Bunların qarşısını almaq üçün Məcəllədə müəyyən qadağa və məhdudiyyətlər müəyyən edilmişdir.

Onu da qeyd etmək lazımdır ki, Məcəllə dövlət hesabına referendumun hazırlığı və keçirilməsinin maliyyələşdirilməsini nəzərdə tutur. Bununla yanaşı, burada digər maliyyələşdirmənin, fiziki və hüquqi şəxslərin vəsaitləri köçürülə bilən referendum fondlarının yaradılmasına da yol verilir. Eyni zamanda, belə şəxslərin dairəsi də məhduddur, yəni bu fondlara xarici dövlətlərdən və xarici hüquqi şəxslərdən, əcnəbi və vətəndaşlığı olmayan şəxslərdən, beynəlxalq təşkilat və bələdiyyələrdən, hərbi hissə və regional birliklərdən vəsait qəbul etmək qadağandır.

Referendumun təşkili, ona hazırlıq, keçirilməsi və nəticələrinin müəyyənləşdirilməsi üzrə bütün işi yuxarıda göstərilən orqanlar həyata keçirir. Məcəllədə baş rol Mərkəzi Seçki Komissiyasına (MSK) ayrılmışdır. Bu komissiya respublikanın Milli Məclisi tərəfindən seçilən 18 nəfərdən ibarətdir.

§3. Referenduma təşəbbüs və onun təyin edilməsi hüququ

Paraqrafın adından göründüyü kimi, burada «referendum təyin etmək təşəbbüsü» anlayışı «referendum təyin etmək» anlayışından fərqləndirilir.

Adətən, ümumdövlət referendumunun təyin edilməsi hüququ dövlət başçısına və ya parlamentə, bəzən isə hər iki orqana məxsus olur. Onlar bunu ya öz təşəbbüsü ilə, ya da səlahiyyətli (konstitusiya və ya qanunla) subyektlərin

təşəbbüsü ilə keçirirlər, məsələn, seçici və ya parlament deputatları, hökumət, regional hakimiyyət orqanları.

Qeyd olunduğu kimi, referendum təyin etmək hüququnu Azərbaycan Respublikasının Konstitusiyası Milli Məclisə (maddə 95, bənd 18) və Prezidentə (maddə 109, bənd. 18) vermişdir. Referendum təyin etmək təşəbbüsü olan hər hansı digər subyektləri konstitusiya nəzərdə tutmamışdır. Beləliklə, respublikamızda referendum təyin etmək təşəbbüsünə hüquq referendum təyin etmək hüququna malik olan subyektlərə, yəni Milli Məclisə və Prezidentə məxsusdur. Burada məntiq var, çünki referendum təyin etmək hüququna referenduma təşəbbüs hüququ da daxildir.

Bir sıra uzaq və yaxın xarici ölkələrdə vəziyyət fərqlidir. Belə ki, Belorus Respublikasının Konstitusiyasına görə, respublika referendumları prezidentin şəxsi təşəbbüsü ilə, həmçinin Konstitusiya ilə təyin olunan qaydada parlament palatalarının təklifi ilə (Senat və Nümayəndələr Palatası) və yaxud 450 min seçicinin, o cümlədən hər bir vilayətdən və Minsk şəhərindən azı 50 min seçicinin təklifi ilə təyin olunur (maddə 74). Bu maddədə həmçinin, qeyd olunur ki, Senat və Nümayəndələr Palatası və yaxud vətəndaşların referendum keçirilməsi təklifi irəli sürüldükdən sonra, 30 gündən gec olmayaraq, prezident ümumrespublika referendumunu təyin etməlidir. Referendumda qəbul edilən qərar prezident tərəfindən imzalanır.

Gürcüstanda referendumu parlamentin, ən azı 200 min seçicinin tələbi ilə və yaxud öz təşəbbüsü ilə prezident təyin edir (maddə 74).

Qazaxıstan Konstitusiyasına görə, parlament referendum təyin edə bilməz, o, yalnız respublika referendumunun təyin olunmasına təşəbbüs göstərir (maddə 53, bənd 10). Referendumun keçirilməsi haqqında qərar prezident tərəfindən qəbul edilir (maddə 44, bənd 10).

Bəzi postsovet respublikalarında referendumun keçirilməsi barədə təklifin irəli sürülməsinə təşəbbüs hüququ referendum haqqında qanunlarda təsbit olunmuşdur. Belə ki, Rusiya Federasiyasının «Referendum haqqında» 1995-ci il tarixli Konstitusiya Qanununun 8-ci maddəsində referendumun keçirilməsinə təşəbbüs hüququ ən azı 2 milyon Rusiya vətəndaşı, Rusiya Federasiyası Konstitusiyasının 135-ci maddəsinin 3-cü hissəsi ilə nəzərdə tutulan halda Konstitusiya yığıncağı üçün təsbit olunmuşdur.

Qazaxıstanda konstitusion normaları inkişaf etdirən «Referendum haqqında» Konstitusiya Qanunu bu hüququ respublika hökuməti, bütün vilayətləri, paytaxtı və respublika əhəmiyyətli şəhərləri təmsil edən ən azı 200 min seçici üçün təsbit edir.

Moldova Seçki Məcəlləsinin «Referendum» bölməsində müəyyən edilmişdir ki, referendumun keçirilməsi təşəbbüsü azı 100 min seçicidən, parlament deputatlarının 1/3 hissəsindən, həmçinin respublika prezidenti və hökumətindən irəli gələ bilər.

Digər ölkələrdə referenduma təşəbbüs və onun təyin olunması hüququnun konstitusion və qanunverici tənzimlənməsinə dair misallara nəzər yetirək. Belə ki, Macarıstanda Konstitusiya referendumun parlament tərəfindən təyin edilməsini nəzərdə tutur, respublika prezidenti müvafiq təşəbbüs hüququna malikdir. Xalq səsverməsi və xalq təşəbbüsü haqqında qanun təşəbbüs hüququnu prezidentdən başqa, Nazirlər Şurasına, parlamentin ən azı 50 deputatına və ən azı 50 min seçiciyə vermişdir. Təşəbbüskar Dövlət yığıncağının sədrinə xalq səsverməsinə çıxarılan sualın ifadə olunması ilə təklifi təqdim edir. Dövlət yığıncağı deputatların 2/3 hissəsinin səsi ilə referendum keçirilməsinə və ya təşəbbüsün rədd edilməsinə dair qərar qəbul edir. Beləliklə, referendumun

keçirilməsi haqqında son qərar Dövlət yığıncağına məxsusdur. Lakin əgər təşəbbüs ən azı 100 min vətəndaşdan irəli gələrsə, Dövlət yığıncağı belə referendumu təyin etməyə borcludur. Referendumun təyin olunması haqqında qərarın hansı çoxluq tərəfindən qəbul edilməsi və belə qərarı Dövlət yığıncağı qəbul etmədikdə, hansı fəsadların yaranacağı qeyri-aydın qalır.

«Referendum haqqında» 1995-ci il tarixli Qanuna görə, Polşada referendumun keçirilməsi haqqında qərar həm Seymin öz təşəbbüsü ilə, həm də Senatın, Nazirlər Şurasının və yaxud fəal seçici hüququna malik olan azı 500 min vətəndaşın təklifi ilə qəbul edilir.

Bolqarıstan Konstitusiyasına uyğun olaraq referendumun keçirilməsi haqqında qərar Xalq yığıncağı tərəfindən qəbul edilir (maddə 84, bənd 5). Referenduma məsələnin çıxarılmasına təşəbbüs hüququna xalq deputatlarının ümumi sayının 1/4 hissəsi, Nazirlər Şurası, respublika prezidenti malikdir. Xalq yığıncağının qərarı əsasında prezident referendumun keçirilməsi tarixini təyin edir (maddə 98, bənd 1).

İtaliya Konstitusiyasının 75-ci maddəsinə uyğun olaraq, 500 min seçicinin və yaxud 5 vilayət şurasının tələbi ilə tam və ya qismən qanunun, qanun qüvvəsinə malik olan aktın ləğv edilməsi üçün referendum təyin edilir. 138-ci maddəyə uyğun olaraq konstitusiyaya dəyişikliklərin edilməsi haqqında qanunlar və digər konstitusion qanunlar parlamentdə qəbul edildikdən sonra, dərc olunduğu gündən 3 ay sonra qeyd olunan subyektlər, həmçinin parlamentin istənilən palatasının 1/5 hissəsi tələb etdikdə, referenduma çıxarılır. Əgər hər bir palatada təkrar səsvermədə qanun palata üzvlərinin 2/3 hissəsi tərəfindən qəbul edilibsə, referendum keçirilmir.

Digər ölkələrə nisbətən daha çox referendum keçirilən İsveçrədə qüvvədə olan Konstitusiya sadə qanunların qəbul

edilməsi zamanı referendum institutunu nəzərdə tutmur. Burada yalnız rədd edən referendum keçirilməsi mümkündür. Konstitusiyanın 89-cu maddəsinə uyğun olaraq, federal qanunlar və ümummütləq federal qərarlar 50 min seçicinin və ya 8 kantonun tələbi ilə referenduma çıxarılır. Referendum ölkənin Federal yığıncağının (parlamentin) qərarı ilə təyin edilir. İsveçrə Konstitusiyası tam və ya qismən yenidən baxıla bilər. Tam baxılmanın təşəbbüskarı kimi Federal yığıncağın bir və ya hər iki palatası və yaxud 100 min seçici çıxış edə bilər. Təşəbbüs irəli sürüldükdən sonra ümummilli referendum keçirilir. Konstitusiyanın qismən baxılmasının təşəbbüskarı kimi Federal yığıncaq və yaxud 100 min seçici çıxış edə bilər. Əgər referendum təşəbbüskarı seçicilər olarsa, onda hər bir maddədə güman edilən dəyişikliklər və yaxud yeni maddələrin qəbul edilməsi ayrıca təşəbbüs predmeti olmalıdır. Əgər Federal yığıncaq təklif olunan təşəbbüsü bəyənməsə, onda o, öz layihəsini hazırlamalı və xalq təşəbbüsü qaydasında təklif olunan layihəni rədd etməyi tövsiyə etməli və yaxud öz kontrlayihəsinə səs verməyi təklif etməlidir.

Fransa Konstitusiyasının 11-ci maddəsinə uyğun olaraq «respublika prezidenti parlament sessiyası zamanı hökumətin təklifi ilə və yaxud hər iki palatanın «Jurnal of ofisyel»də çap olunmuş birgə təklifi ilə dövlət hakimiyyətinin təşkilinə dair istənilən qanun layihəsini referenduma çıxara bilər…». Beləliklə, təkliflər parlamentdən irəli gəlməlidir. Lakin parlament təşəbbüsü az ehtimallıdır, çünki palatalar qanunvericilik hüququna malikdir və çətin ki, bu hüquqdan imtina etsinlər. Üstəlik, Konstitusiya mütləq referendumda baxılmalı məsələləri müəyyən etmir. Buna görə də, parlament hər hansı məsələnin referenduma çıxarılması barədə bir dəfə də olsa təşəbbüs irəli sürməmişdir.

Hökumət isə öz təşəbbüsünü parlament sessiyası zamanı da həyata keçirə bilər. Hökumət referendum keçirməyi prezidentə təklif etmək barədə qərarına görə parlament qarşısında məsuliyyət daşıyır. Məsələnin referenduma çıxarılmasının təşəbbüskarları barədə Konstitusiyada belə tələb müəyyən edilmişdir. Təcrübədə məsələ fərqlidir: Fransada baş tutan bütün referendumlar Fransa Respublikasının V Konstitusiyasının qəbul edilməsinin (1958) və ona dəyişikliklərin edilməsinin (1962) təşəbbüskarı olan prezident Şarl de Qollun şəxsi təşəbbüsü ilə keçirilirdi.

Deyilənlərə onu da əlavə etmək lazımdır ki, 89-cu maddəyə uyğun olaraq referendum yolu ilə konstitusiyanın yenidən baxılması təşəbbüsü də prezidentə məxsusdur.

Makedoniya Respublikası Konstitusiyasının 73-cü maddəsinin I hissəsinə uyğun olaraq parlament deputatların ümumi sayının səs çoxluğu ilə öz səlahiyyətlərinə aid olan məsələlər üzrə referendumun təyin olunması haqqında qərar qəbul edir, bu maddənin III hissəsinə əsasən isə parlament 150 min seçicinin tələbi ilə referendum təyin etməlidir.

Xorvartiya Respublikasının Konstitusiyası referendum təyin etmək hüququnu yalnız Sobor (parlament) Nümayəndələrinin Palatasına və respublika prezidentinə vermişdir. Konstitusiyanın 87-ci maddəsinin I hissəsinə uyğun olaraq Nümayəndələr Palatası Konstitusiyanın dəyişdirilməsi layihəsi üzrə qanun layihəsi və ya səlahiyyətinə aid digər məsələ üzrə referendum təyin edə bilər. Həmin maddənin II hissəsinə uyğun olaraq, prezident konstitusiyanın dəyişdirilməsi və digər vacib məsələlər üzrə referendum təyin edə bilər, lakin prezident bu səlahiyyəti yalnız hökumət sədrinin kontrasiqnaturası ilə onun təklifi üzrə həyata keçirir.

Qeyd etmək maraqlı olardı ki, ABŞ-da ümummilli referendumlar ümumiyyətlə yoxdur. Parlamentin aliliyi

ideyası həmişə hökmranlıq edən anqlo-sakson ölkələrində də referendum tətbiq olunmur. Referendumun geniş tətbiqi nəzərdə tutulan Almaniya, İsveçrə kimi ölkələrdə də üstünlük daha çox yerli referendumlara verilir. Bu gün dünya təcrübəsi daha çox ona meyl edir ki, referendumların yerli problemlərin həlli üçün istifadə edilməsi daha məqsədəuyğundur. Belə ki, ABŞ-ın bütün ştatlarında ştat konstitusiyasına düzəlişlərin layihələri yekun ratifikasiya üçün mütləq referenduma çıxarılırlar. 22 ştatın konstitusiyalarının müddəasına görə, 5 faiz seçicinin tələbi ilə ştatın legistraturası tərəfindən bəyənilmiş qanun layihəsi referendumda təsbiq olunmalıdır.

Referenduma dair bəzi ölkələrin konstitusiya və cari qanunvericiliyinin qısa icmalından göründüyü kimi, bir sıra hallarda referendum təyin etmək təşəbbüsünə prezident və parlamentdən başqa, seçicilər qrupu və parlament deputatları qrupları malik olur. Paraqrafın əvvəlində qeyd olunduğu kimi, bizim respublikada 1995-ci il Konstitusiyası ilə və sonra, 1997-ci ilin dekabrında qəbul olunmuş «Referendum haqqında» Qanunla referendumun təyin olunmasına dair seçicilər qrupunun təşəbbüs hüququ nəzərdə tutulmamışdır. Bu hüquq 2003-cü ilin mayında Azərbaycan Respublikası Seçki Məcəlləsinin qəbul edilməsi ilə seçicilər qrupu üçün təsbit edilmişdir. Məcəllənin 122-ci maddəsində müəyyən edilib ki, «fəal seçici hüququna malik olan ən azı 300 min Azərbaycan Respublikası vətəndaşı referendumun keçirilməsi üzrə qərarın qəbul edilməsi təklifi ilə prezidentə və ya Milli Məclisə müraciət edə bilərlər». Maddədən göründüyü kimi, burada söhbət seçicilərin tələbi barədə deyil, referendum təyin etmək təklifi barədə gedir.

Düşünürük ki, bu demokratik institut xalq suverenliyi prinsipinə vətəndaşların hüquq və azadlıqlarının zəmanətlərinə uyğundur və yuxarıda sadalanmış ölkələrdə olduğu kimi (Rusiya, Qazaxıstan, Belorus, Gürcüstan,

Moldova, Macarıstan, Bolqarıstan) Azərbaycan Respublikasının da Konstitusiyasında təsbit olunmalı idi. Seçicilər qrupuna verilmiş referendum keçirmək üzrə təşəbbüs hüququ ictimai həyatın müxtəlif sahələrində dövlətin həyata keçirdiyi fəaliyyətə zidd olaraq müəyyən məsələyə dair xalq səsverməsi yolu ilə öz maraqlarını həyata keçirməyə, bununla da ona ümummilli maraqlar qüvvəsini verməyə imkan verir. Xalqın azlıqda olan hissəsi bu və ya digər məsələlərə dair öz fikrinə malik olmaq və qanun çərçivəsində ona tərəfdar çıxmaq ixtiyarındadır. Referendum keçirmək təşəbbüsünə analoji hüququ Azərbaycan Respublikası Milli Məclisinin deputatları-millət vəkillərinin qruplarına da vermək olardı. Belə hüquq bir sıra ölkələrin qanunvericiliklərində nəzərdə tutulmuşdur.

Parlamentin deputatlar qrupunun referendum təyin etmək təşəbbüsü ölkənin seçici korpusunun müəyyən hissəsini təmsil edən müxalif partiyalara imkan verir ki, hakim partiya və ya partiyalarla fikir ayrılığını həll etmək üçün xalqa müraciət etsinlər. Aydındır ki, burada söhbət referendum təyin etmək barədə deyil, referendum təyin etməyə səlahiyyəti olan subyektlər qarşısında referendumun keçirilməsi məsələsinin qoyulması təşəbbüsü haqqında gedir. Azərbaycanda belə səlahiyyətli subyektlər-Milli Məclis və Azərbaycan Respublikasının Prezidentidir.

Referendum predmetinin bəzi məhdudiyyətləri ilə yanaşı, Azərbaycan Respublikası Konstitusiyasının 9-cu fəslinin 155-ci maddəsi «Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər barədə təklif təşəbbüsünün məhdudlaşdırılmasını» müəyyən edir. Bu maddəyə uyğun olaraq Konstitusiyanın 1, 2, 6, 7, 8 və 21-ci maddələrinə dəyişikliklərin edilməsi barədə məsələlər eləcə də, Konstitusiyanın III fəslində nəzərdə tutulan və Azərbaycan Respublikasının iştirakçısı olan beynəlxalq sazişlərlə nəzərdə tutulan həddən daha yüksək dərəcədə insan hüquq

və azadlıqlarının məhdudlaşdırılması barədə məsələlər referenduma çıxarıla bilməz. Bununla da yuxarıda sadalanan maddələrin mətnləri hətta referendum təyin etmək hüququna malik olan Milli Məclis və respublika prezidenti kimi subyektlər üçün də toxunulmazdır.

Azərbaycan Respublikası Konstitusiyasında bu cür normaların olması nə ilə izah olunur? İş orasındadır ki, yuxarıda sadalanmış bütün maddələr, həmçinin III fəsil Azərbaycan dövlətinin, onun konstitusiya quruluşunun əsasını təşkil edən prinsip və müddəaları, şəxsiyyətin hüquqi statusunu, yəni Əsas Qanunumuzun bütün mahiyyətini, onun demokratik məzmununu müəyyən edən hər şeyi təsbit edir.

Belə ki, 1 və 2-ci maddələr Azərbaycan dövlətinin ən vacib təməllərdən birini-xalq hakimiyyəti prinsipini müəyyən edir: xalq dövlət hakimiyyətinin yeganə mənbəyidir, öz taleyini azad və müstəqil şəkildə müəyyənləşdirmək və dövlət quruluşu və idarəetmə formalarını təsis etmək yalnız onun suveren hüququdur; xalq öz suveren hüququnu həm birbaşa-ümumxalq səsverməsi (referendum) yolu ilə, həm də demokratik yolla seçilən nümayəndələri vasitəsilə həyata keçirir. Xalqın vəhdəti və aliliyi ideyasını davam etdirən 6-cı maddədə deyilir ki, Azərbaycan xalqının heç bir hissəsi, heç bir sosial qrup və ya təşkilat, heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəmək ixtiyarına malik deyil. Əlavə olaraq göstərilir ki, hakimiyyətin ələ keçirilməsi xalqa qarşı ən ağır cinayətdir.

Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsi Azərbaycan dövlətçiliyinin idarəetmə forması, dövlət quruluşu forması, dövlət (siyasi) rejimi forması kimi təməlqoyucu institutları müəyyən edir. Dövlət idarəetməsi və dövlət rejimi formasına görə, Azərbaycan demokratik respublika, dövlət quruluşu formasına görə isə unitar

dövlətdir. Sonra bu maddədə müəyyən edilir ki, dövlət hakimiyyəti hakimiyyət bölgüsü prinsipi əsasında təşkil olunur. Məlum olduğu kimi, bizim konstitusiya mexanizminə ilk dəfə olaraq daxil edilmiş bu prinsipin mahiyyəti dövlətin effektiv idarə olunmasının, qanunverici, icra və məhkəmə hakimiyyətinin səmərəli iş birliyinin təmin edilməsindən, hakimiyyət qollarının hamısının bir nəfərin əlində cəmləşməsinin (keçmişdə totalitarizm və avtoritarizmə gətirən hal) qarşısını almaqdan ibarətdir.

Bu maddənin tələblərinin Azərbaycan dövləti və xalqının taleyi üçün müstəsna vacibliyinə görə Azərbaycan Respublikasının Konstitusiyası onun yenidən baxılması ehtimalını tamamilə istisna edir.

Bu qadağanı biz əsaslı görürük, çünki demokratik respublika idarəetmə formasını hər hansı başqa idarəetmə forması ilə, məsələn, monarxiya ilə əvəz etmək və yaxud respublika inkişafının dünyəvi xarakterinin dəyişilməsinə yol vermək absurd olardı.

Azərbaycan dövlətinin başçısı-respublika prezidentinə həsr olunmuş Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsi milli dövlətçiliyimizin effektiv fəaliyyəti və inkişafı üçün məzmunlu və əhəmiyyətinə görə prinsipialdır. Azərbaycan Respublikası Konstitusiyasının 6-cı fəslinin normaları ilə birgə burada qeyd olunur ki, Azərbaycan xalqı dünyada daha geniş yayılmış iki demokratik respublika idarəetmə forması olan-prezidentli və parlamentli idarəetmədən prezident respublikası xeyrinə öz seçimini etmişdir. Belə seçimi bir çox həyati vacib faktorlar müəyyən etmişdir: ictimai-siyasi vəziyyətin, iqtisadi və sosial durumun, xarici siyasi şəraitin mürəkkəbliyi.

Bir çox ölkələrin təcrübəsi, həmçinin Azərbaycanın son illərdəki inkişaf təcrübəsi göstərir ki, bazar iqtisadiyyatına keçid, yeni demokratik, siyasi və dövlət-hüquq institutlarının bərqərar olması, qanunçuluq və

asayişin təmin edilməsi və ən əsası, insan hüquq və azadlıqlarının müdafiəsi xeyli dərəcədə dövlət hakimiyyətinin sabitliyindən asılıdır. Keçid dövrünün bütün sınaqlarından keçən Azərbaycanda belə sabitliyin zəmanətçisi ümumxalq səsverməsi ilə seçilən Azərbaycan Respublikasının Prezidentidir. Azərbaycan xalqının birliyini təcəssüm edərək, geniş səlahiyyətlər almaqla, dövlətə rəhbərlik edən prezident dövlətin və ictimai həyatın bütün sahələrində müstəsna əhəmiyyətli funksiyaları həyata keçirir. O, ölkə daxilində və beynəlxalq arenada Azərbaycanı təmsil edir, ölkənin Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır, onun müstəqilliyi və ərazi bütövlüyünün zəmanətçisidir.

Azərbaycan dilinin statusunun respublikanın dövlət dili kimi ali qanunvericilik səviyyəsində Konstitusiyanın 21-ci maddəsində təsbit edilməsi həqiqətən tarixi əhəmiyyət kəsb edir. Milli dil problemi-xalqın həyatı, güzəranı, mədəniyyəti, gələcəyi üçün vacib olan mərkəzi problemlərdən biridir. Ərazi kimi dil də millətin əsasını təşkil edir və xalqın öz dilini yaşatmaq, inkişaf etdirmək niyyəti təbiidir, çünki dil yaşadıqca, xalq da yaşayır və əksinə, dilin yox olması ilə xalq özü də yox olur. Məhz buna görə Azərbaycan dilinə dövlət dili statusunun verilməsi haqqında konstitusion müddəa əsaslı və təbiidir.

İstənilən konstitusiyanın əsl demokratizmi və humanizminin əsas meyarı onun tərəfindən təsbit olunan şəxsiyyət hüquq və azadlıqları, qanunsuzluq və özbaşınalıqdan onun müdafiə olunmasıdır.

Vətəndaş cəmiyyəti və hüquqi dövlət qurmağı niyyət edən Azərbaycan Respublikası üçün şəxsiyyətin azadlığı ideyası konstitusion konsepsiyanın ayrılmaz hissəsinə çevrilmişdir. Ölkə həyatında keçid dövrünün çətinliklərinə baxmayaraq, insan hüquq və azadlıqlarının Azərbaycan Respublikasının Konstitusiyasında maksimum həcmdə təsbit

olunması səciyyəvidir. Onu qeyd etmək kifayətdir ki, Azərbaycan Respublikasının Konstitusiyasında əsas vətəndaş hüquq və azadlıqlarına həsr olunmuş III fəsil 48 maddədən ibarətdir. Burada digər sovet konstitusiyaları ilə müqayisədə şəxsiyyətin daha çox hüquq və azadlıqları, onların zəmanətləri müəyyən edilmişdir. Şərti olaraq onları üç qrupa bölmək olar: şəxsi hüquq və azadlıqlar, mülki və siyasi hüquq və azadlıqlar, iqtisadi, sosial və mədəni hüquq və azadlıqlar.

Hal-hazırda Azərbaycan dünya birliyinin bir hissəsidir. Buna görə respublikada şəxsiyyətin statusunu müəyyən edən Azərbaycan Respublikası Konstitusiyasının müddəaları BMT Nizamnaməsi, İnsan hüquqları Bəyannaməsi, mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktlarda, Avropa Şurasının sənədlərində, müxtəlif beynəlxalq konvensiyalar kimi vacib beynəlxalq-hüquqi sənədlərdə təsbit olunmuş ümumdünya insan hüquq və azadlıqları səviyyəsini əks etdirir.

Azərbaycan Respublikasının Konstitusiyasında şəxsiyyətin statusunun, onun əsas hüquq və azadlıqlarının daha dolğun təsbit olunması ölkəmizdə hüquqi dövlətin formalaşmasının vacib şərtlərindən biridir.

Yuxarıda sadalananlar Konstitusiyanın 155-ci maddəsi ilə nəzərdə tutulan «konstitusiyaya dəyişikliklərin təklifi təşəbbüsünün məhdudlaşdırılması» müddəasının Azərbaycan dövlətinin əsaslarının, onun fundamental təməllərinin müdafiəsinə yönəldilməsi zərurətindən irəli gəlmişdir.

§4. Referendumun predmeti və düsturu

Qeyd olunduğu kimi, hüquqi ədəbiyyatda referendum xalq səsverməsi yolu ilə yekun və mütləq xarakter alan

qanun və ya digər dövlət qərarının qəbul edilməsi kimi müəyyən edilir.

Referendum institutu üçün ciddi problem referendum predmetinin, yəni xalq səsverməsi yolu ilə həll edilməli məsələnin və ya məsələlər dairəsinin müəyyən edilməsidir. Referendum növünün (mütləq, fakultativ, konstitusion və s.) seçimi referendum predmetindən asılıdır.

Referendum predmeti haqqında suala cavab hər hansı ölkənin konstitusiyasında, referendum haqqında qanunda və digər qanunverici aktlarda verilir. Özünəməxsus tərzdə bu sual Azərbaycan Respublikası Konstitusiyasında həll olunur. Belə ki, «Ümumxalq səsverməsi olan referendum yolu ilə həll olunan məsələlər» adlı 3-cü maddənin I hissəsində qeyd edilir ki, «Azərbaycan xalqı onun hüquq və maraqlarına toxunan istənilən məsələni referendum yolu ilə həll edə bilər». Bu maddənin II hissəsində «yalnız referendum yolu ilə həll oluna bilən» məsələlər müəyyən edilmişdir, yəni həmin məsələlər üzrə referendumun keçirilməsi mütləqdir. III hissədə «barəsində referendum keçirilməyən»[3] məsələlər sadalanır və bununla da referendum predmetinə dair məhdudiyyət müəyyən edilir.

Azərbaycan Respublikasının Konstitusiyası yalnız referendum yolu ilə həll oluna bilən məsələlərə: 1. Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsini və ona dəyişikliklərin edilməsini; 2. Azərbaycanın dövlət sərhədinin dəyişdirilməsini aid edir.

Konstitusiyanın qəbul edilməsi və yaxud ona dəyişikliklərin edilməsi haqqında məsələ həll olunan referendum konstitusion referendum adlanır. Əgər konstitusiyanın və ya ona dəyişikliklərin qəbul edilməsi konstitusiyanın özündə yalnız referendum yolu ilə nəzərdə

[3] Konstitusiyanın 3-cü maddəsinin III hissəsinə 24 avqust 2002-ci ildə keçirilən referendumda əlavə edilmişdir

tutulursa, onda belə referendum həm də mütləq referendum adlana bilər.

Konstitusiyaların qəbul edilməsinin bir sıra üsulları mövcuddur-parlament vasitəsilə, referendum yolu ilə, bu məqsədlə çağırılan təsisetmə yığıncağında. Bu və ya digər üsulun daha demokratik olması barədə suala cavab seçim kriterisi hesab edilə bilər.[4]

Bəzi ölkələrin konstitusiyaları (məsələn, Ukrayna, Özbəkistan, Moldova, Tacikistan, Türkmənistan, Yaponiya, Yunanıstan, Bolqarıstan və s.) parlament tərəfindən konstitusiyanın qəbul edilməsini nəzərdə tutur. Latviya, İtaliya, Hindistan, Braziliya və bir sıra digər ölkələrin konstitusiyaları təsistetmə yığıncağına üstünlük vermişdir. Nəhayət, Fransa, AFR, İspaniya, İsveçrə və digər dövlətlərdə konstitusiya referendum yolu ilə qəbul olunur.

Postsovet respublikalarının əksəriyyətinin (Özbəkistan, Qazaxıstan, Ukrayna, Rusiya, Belorusiya, Tacikistan, Litva, Estoniya) konstitusiyalarında konstitusiyanın qəbul edilməsi və ona dəyişikliklərin edilməsi referendumla nəzərdə tutulur, lakin bəzi ölkələrdə bu proses birmənalı tərzdə keçmir. Məsələn, bəzi konstitusiyalarda müəyyən edilmişdir ki, bir sıra fəsillər və maddələr yalnız referendum yolu ilə, digərləri isə parlament tərəfindən dəyişdirilə bilər və yaxud konstitusiyaya dəyişikliklərin edilməsi həm parlament tərəfindən, həm də referendum yolu ilə həyata keçirilə bilər. Belə ki, 1993-cü ildə referendum yolu ilə qəbul edilən Rusiya Federasiyası Konstitusiyasının 135-ci maddəsi Rusiya Federasiyası Konstitusiyasının yenidən baxılması haqqında məsələdə əhəmiyyətinə görə konstitusion normaların iyerarxiyasını müəyyən etmişdir, bu da onların yenidən baxılmasına fərqli yanaşmanı müəyyən edir. Bu iyerarxiyada ən yüksək yerləri

[4] Təxminən XIX əsrin əvvəllərinə qədər konstitusiya dövlət başçısı olan monarxın birtərəfli aktı ilə bəxş olunurdu. Əlbəttə ki, belə konstitusiyalar az demokratik olurdu

Rusiya Federasiyası Konstitusiyasının 1, 2 və 9-cu fəsillərində olan normalar tutur. 1-ci fəslin normaları konstitusiya quruluşunun əsasını təşkil edən və digər konstitusion müddəaların konkret məzmununu müəyyən edən prinsipləri təsbit edir. Şəxsiyyətin hüquqi statusunu tənzimləyən 2-ci fəslin normaları ilə birlikdə onlar Rusiya Federasiyasının Konstitusiyasına düzəlişlərin edilməsi və onun baxılması qaydasını müəyyən edir. Federal yığıncaq (RF parlamenti) yalnız konstitusiyanın göstərilən fəsillərinin müddəalarının baxılması haqqında təklif olunan qərarı qəbul edə bilər və bu qərar Federasiya Şurasının və Dövlət Duması deputatlarının ümumi sayından 3/5 hissəsinin səs çoxluğu ilə qəbul edilir. Bu halda təsis etmə hakimiyyətinin xüsusi orqanı olan konstitusiya yığıncağı çağırılır (bir çox ölkələrdə bu orqan təsis etmə yığıncağı adlanır).

Konstitusiya yığıncağı və onun fəaliyyətinin formalaşdırılması qaydası konstitusiya qanunu ilə və yığıncağın öz reqlamenti ilə müəyyən edilir. 135-ci maddənin III hissəsi federal yığıncağın təklifi ilə onun mümkün olan həllərinin üç variantını nəzərdə tutur. Birincidə konstitusiya yığıncağı parlamentin təklifi ilə razılaşmır və qüvvədə olan konstitusiyanın dəyişilməməsini təsdiq edir; ikincidə konstitusiya yığıncağı parlamentin qərarı ilə razılaşır, yeni konstitusiyanın layihəsini hazırlayır və üzvlərinin ümumi hissəsinin 2/3 səsi ilə onu qəbul edir; konstitusiya yığıncağı parlamentin təklifi ilə razılaşır və «ümumxalq səsverməsinə çıxarılan» yeni konstitusiya layihəsini hazırlayır. Sonra 136-cı maddədə müəyyən edilir ki, RF Konstitusiyasının qalan fəsillərinə (3-8) düzəlişlər Federal Konstitusiya Qanununun qəbul edilməsi üçün nəzərdə tutulan qaydada qəbul edilir.

1992-ci ilin 25 oktyabr tarixində qəbul edilmiş Litva Respublikası Konstitusiyasının 148-ci maddəsi konstitusiyaya dəyişikliklərin edilməsinin «qarışıq»

qaydasını da nəzərdə tutur. Belə ki, «Litva dövləti» adlanan 1-ci fəslin və «Konstitusiyanın dəyişdirilməsi» adlanan 14-cü fəslin müddəaları yalnız referendumla dəyişdirilə bilər. Konstitusiyanın digər fəsillərinə konstitusion düzəlişlər baxılmadan keçməli və onlara dair səsvermə Seymdə iki dəfə keçirilməlidir. Bu səsvermələr arasında ən azı üç ay fasilə olmalıdır. Əgər hər səsvermədə Seym üzvlərinin 2/3 hissəsi dəyişikliklərin lehinə səs verərsə, Konstitusiyaya dəyişikliyin edilməsi haqqında qanun layihəsi qəbul edilmiş hesab ediləcəkdir.

Estoniya Respublikası 28 iyul 1992-ci ildə referendum yolu ilə yeni konstitusiya qəbul etmiş ilk postsovet respublikasıdır. Litva Konstitusiyasında olduğu kimi, burada da bəzi fəsillərə dəyişikliklər (fəsil 1-«Ümumi müddəalar» və fəsil 15-«Konstitusiyanın dəyişdirilməsi») yalnız referendum yolu ilə mümkündür. Eyni zamanda, 15-ci fəsildə göstərilir ki, konstitusiya: 1. referendum yolu ilə; 2. Dövlət yığıncağının ardıcıl iki heyətləri ilə; 3. təcili məsələ qismində Dövlət yığıncağı tərəfindən qəbul edilmiş qanun əsasında dəyişdirilə bilər. Konstitusiyaya dəyişikliklər barədə qanun layihəsi Dövlət yığıncağı tərəfindən üç oxunuşla baxılır, bu zaman oxunuşlar arasında müəyyən vaxt kəsiyi olmalıdır. Konstitusiyaya dəyişikliklər qaydası üçüncü oxunuş zamanı müəyyən edilir.

24 noyabr 1996-cı ildə referendum yolu ilə Konstitusiyasını qəbul edən Belorusda müəyyən fərq var. Konstitusiyaya düzəliş və əlavələr həm parlament tərəfindən, həm də referendum yolu ilə həyata keçirilə bilər. Belorus Konstitusiyasının 138-ci maddəsi müəyyən edir ki, «Konstitusiyaya düzəliş və əlavələr haqqında məsələ prezidentin və yaxud seçki hüququna malik olan ən azı 150 min respublika vətəndaşlarının təşəbbüsü ilə parlamentin palataları tərəfindən baxılır». Sonra 139-cu maddədə göstərilir ki, konstitusiyaya düzəliş və əlavələr haqqında

qanun «ən azı üç ay vaxt kəsiyi ilə parlamentin iki müzakirəsi və bəyənməsindən sonra» qəbul edilə bilər. Bu zaman qanunun lehinə «parlamentin hər bir palatasının tam heyətinin ən azı ¾ hissəsi səs verdikdə» qəbul edilmiş hesab edilir. Bundan sonra Konstitusiyanın 140-cı maddəsində müəyyən edilir ki, «Konstitusiyaya dəyişiklik və əlavələr referendum yolu ilə edilə bilər».

Qırğızıstan Respublikasında tamamilə başqa mənzərənin şahidi oluruq. Onun Konstitusiyası 5 may 1993-cü ildə Qırğızıstan Ali Sovetinin XII sessiyasında qəbul edilmişdir (düzəliş və əlavələr 10 fevral 1996-cı ildə edilmişdir). Bu sənəddə maraq doğuran amil ondan ibarətdir ki, Qırğızıstan Konstitusiyası ümumxalq səsverməsi ilə qəbul edilməsə də, 8-ci fəslin («Konstitusiyaya dəyişiklik və əlavələr edilməsi qaydası») 96-cı maddəsində müəyyən edilir ki, «Konstitusiyaya dəyişiklik və əlavələr Qırğızıstan Respublikasının Prezidenti tərəfindən təyin olunan referendum yolu ilə qəbul edilir. Eyni zamanda həmin maddənin 2-ci hissəsində göstərilir ki, dəyişiklik və əlavələr Joçorku Keneşin (parlamentin) palataları tərəfindən respublika prezidentinin təklifi ilə, Qanunverici yığıncaq və Xalq nümayəndələri Yığıncağının əksəriyyət deputatlarının təklifi ilə və yaxud azı 300 min seçicinin təşəbbüsü ilə qəbul edilə bilər.

Qazaxıstanda «Konstitusiyaya dəyişiklik və əlavələr referendum yolu ilə edilə bilər…». Eyni zamanda prezident bu məsələni parlamentin baxılmasına da verə bilər (maddə 91).

Azərbaycanda 12 noyabr 1995-ci ildə ümumxalq referendumda müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmişdir. Qeyd olunduğu kimi 2002, 2009, 2016-cı illərdə referendumla Konstitusiyaya əlavə və dəyişikliklər edilmişdir.

18 oktyabr 1991-ci ildə parlament, daha dəqiq, respublikanın Milli Şurası tərəfindən Azərbaycan xalqının taleyi üçün böyük tarixi əhəmiyyət kəsb edən «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul edilmişdir. Siyasi və hüquqi cəhətdən bu vacib sənəd həm adı, həm məzmununa görə konstitusiya qanunu xarakterini daşıyırdı və onun prinsipləri sonradan 1995-ci il Konstitusiyasının əsasını təşkil etmişdir. Məhz buna görə də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» ümumxalq səsverməsinə çıxarılmışdır və 29 dekabr 1991-ci ildə baş tutan referendumda xalq tərəfindən bəyənilmişdir. Burada tarixi faktlara istinad etməklə, Azərbaycanın iki dəfə Rusiya tərəfindən anneksiya edilməsi göstərilmişdir: XIX əsrin əvvəlində və 1920-ci ilin 27-28 aprel tarixlərində ilk Azərbaycan Respublikasının hakimiyyətinin devrilməsi və 30 dekabr 1922-ci ildə SSRİ-nin yaranması barədə Sazişlə həmin anneksiyanın təsbit edilməsi ilə.

28 may 1918-ci ildə Azərbaycan Milli Şurası tərəfindən qəbul edilmiş Müstəqillik haqqında Bəyannaməyə əsaslanaraq və «Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsi haqqında» Azərbaycan Ali Sovetinin 30 avqust 1991-ci il tarixli Bəyannaməsini rəhbər tutaraq, Konstitusiya aktı Azərbaycan Respublikasını 28 may 1918-ci ildən 28 aprel 1920-ci ilədək mövcud olmuş Azərbaycan Demokratik Respublikasının varisi elan etmişdir. Aktın imzalandığı məqamdan SSRİ-nin yaranması haqqında Sazişin Azərbaycana aid hissəsi qüvvədən düşmüş hesab edilmişdir. Azərbaycan Respublikasının müstəqilliyinə qarşı yönəlmiş istənilən hərəkətlər suveren dövlətin daxili işlərinə müdaxilə kimi qiymətləndirilir və beynəlxalq hüquq normalarına uyğun olaraq cavab addımlarına səbəb olurdu. Azərbaycan Respublikasının suverenliyi ayrılmazdır və onun bütün ərazisinə şamil edilir.

Konstitusiya aktı ilə Azərbaycan Respublikasının suverenliyinin əsas hüquqi, siyasi və iqtisadi zəmanətləri təsbit olunmuşdur. Burada qeyd olunur ki, Azərbaycan xalqı öz idarəetmə formasını seçməkdə ayrılmaz hüquqa malikdir, digər xalqlarla öz münasibətlərini sərbəst müəyyən edir və tarixi, milli ənənələrinə uyğun olaraq öz siyasi, iqtisadi və mədəni həyatını inkişaf etdirir. Azərbaycan xalqı öz müstəqil, dünyəvi, demokratik, unitar dövlətini yaradır. Sonra Konstitusiya aktında respublikada hakimiyyətlərin bölgüsünə əsaslanan dövlət hakimiyyətinin təşkili prinsipləri, onun formalarının çoxluğu, vətəndaşların seçki hüququ və bəzi digər hüquqlar, Azərbaycan dövlətinin suverenliyinə dair bir sıra təşkilati məsələlər müəyyən edilmişdir.

Azərbaycanda ikinci konstitusiya referendumu 24 avqust 2002-ci ildə baş tutmuşdur. Burada «Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklərin edilməsi haqqında» Qanun qəbul edilmişdir. Bu Qanuna uyğun olaraq Konstitusiyanın 23 maddəsinə çoxsaylı və prinsipial dəyişikliklər edilmişdir. Bu dəyişikliklər qanunverici, icra, məhkəmə və bələdiyyə hakimiyyətlərinin statusuna, seçki sisteminə, prezidentin vaxtından əvvəl postdan getməsi ilə əlaqədar onun səlahiyyətlərinin icrasına, vətəndaşların və insan hüquqları üzrə müvəkkilin birbaşa Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət etməsinə, referendum məsələlərinə, Azərbaycan Respublikasının Konstitusiyasına dəyişiklik və əlavələrin edilməsi barədə təkliflərin məhdudlaşdırılmasına və digər məsələlərə şamil edilirdi. Məsələlərin əhatəsi və bu referendumla konstitusiyaya edilmiş dəyişikliklərin məzmununa görə onu konstitusion islahat adlandırmaq olar.

Əsas Qanuna edilən bütün dəyişiklikləri (40-a yaxın) seçicilər üçün anlamaq, əlbəttə ki, çətin olmuşdur. Bunları nəzərə alaraq, referendum təşkilatçıları, Mərkəzi Seçki

Komissiyası qüvvədə olan konstitusiya maddələrinin və həmin maddələrin referendumla dəyişdirilməli mətnlərini müqayisəli şəkildə dərc etmişdir. Məqsəd seçicilərin işini asanlaşdırmaq və konstitusiyaya dair təklif olunan dəyişikliklərdən baş çıxarmaq üçün onlara imkan vermək olmuşdur (1, 17 iyul 2002). Eyni məqsədlə referendumda səsvermə üçün səkkiz bülleten hazırlanmış və seçicilərə paylanmışdır. Hər bir bülleten konstitusiya mətninin dəyişikliyinə dair müəyyən məsələlər dairəsini əhatə edirdi. Bu zaman bülletendə Konstitusiyanın bir neçə maddəsinə və yaxud maddələrin hissə və bəndlərinə dair dəyişikliklər əks olunmuşdur. Bütün bunlar yuxarıda qeyd olunduğu kimi, ümumxalq səsverməsi yolu ilə Əsas Qanuna dəyişikliklərin edilməsinin zəif olduğunu göstərir. Konstitusiya hüququna dair ədəbiyyatda göstərildiyi kimi konstitusiyanın qəbul edilməsi zamanı referendumdan istifadənin əhəmiyyəti müxtəlif ola bilər. Bəllidir ki, əgər referendum dinc şəraitdə seçicilərə qarşı birtərəfli təzyiq göstərilmədən keçirilirsə, parlament və ya təsisat yığıncağı tərəfindən qəbul edilmiş aktın referendumda işıqlandırılması demokratiya tələblərinə cavab verir.

Bəzi elmi əsərlərdə göstərilir ki, əksəriyyət hallarda referendum yalnız bu və ya digər dövlətin totalitar cizgilərini gizlətmək üçün pərdədir. Məşhur macar hüquqşünası və politoloqu A.Şayo hesab edir ki, «demokratik şüarlar aynasında referendum olduqca cazibəli görünsə də, o, hakimiyyətin məhdudlaşdırılması üçün, daha az dərəcədə isə bu məhdudiyyətin manipulyasiyasız xalq idarəetməsi üçün az yararlıdır»(166,s.73).

Bununla əlaqədar, fikrimizcə, ədəbiyyatda əsaslı olaraq göstərilir ki, referendumu birbaşa demokratiyanın ali ideal forması kimi mütləqləşdirmək və yaxud əksinə, yalnız qara çalarlarla bəzəmək olmaz.

Qeyd olunduğu kimi, Azərbaycanda Konstitusiyanın 3-cü maddəsinin II hissəsi və 11-ci maddəsinin III hissəsinə uyğun olaraq yalnız referendum yolu ilə həll edilən digər məsələ respublikanın dövlət sərhədlərinin dəyişilməsi haqqında məsələdir.

Əksəriyyət postsovet respublikalarının konstitusiyaları kimi, Azərbaycan Respublikası Konstitusiyası da mütləq referendumda baxılmalı məsələləri, həmçinin barəsində referendumun keçirilməsi mümkün olmayan məsələləri göstərir. Müxtəlif ölkələrin konstitusiyalarında bu məhdudiyyətlər bəzən eyni, bəzən isə fərqli məsələlərə aid ola bilər.

Belə ki, son vaxtlara qədər Azərbaycan Respublikasının Konstitusiyasında referenduma çıxarılan məsələlərə dair hər hansı məhdudiyyətlər yox idi. Yalnız 2002-ci ilin avqustunda Konstitusiyaya ciddi dəyişikliklər edilərkən, «Ümumxalq səsverməsi-referendum yolu ilə həll olunan məsələlər» adlı 3-cü maddəyə III hissə əlavə edilmişdir. Burada qeyd olunur ki, «vergi və dövlət büdcəsi; amnistiya və əfv; seçilməsi, təyin edilməsi və təsdiq edilməsi qanunverici və (və yaxud) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid olan vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi kimi məsələlər üzrə referendum keçirilə bilməz».

Bəzi müəlliflərin hesab etdiyinə əks olaraq referendum predmetinin belə məhdudlaşdırılması xalq suverenliyinin məhdudlaşdırılması deyil, çünki xalq özü referendum yolu ilə konstitusiyanı qəbul edirkən, ona dəyişikliklər etməyə də səlahiyyətlidir, bu dəyişikliklərin bəziləri isə konstitusiyaya bu və ya digər məsələlər barədə referendum yolu ilə dəyişikliklərin edilməsinə məhdudiyyətlərin qoyulmasını da nəzərdə tuta bilər. Üstəlik belə məhdudiyyətlər üçün müəyyən əsaslar da var. Məsələn, əgər büdcə layihəsi referendumda rədd edilərsə, yeni

layihənin qəbul edilməsi üçün yenidən referendum proseduru (hətta, bir neçə) tələb olunacaq, buna da böyük vəsaitlər sərf olunmalıdır. Nəticədə isə ölkə uzun müddət təsdiq olunmayan büdcə ilə qalmalı olacaq. Lakin qeyd etmək lazımdır ki, Konstitusiyanın 3-cü maddəsinə dəyişikliklərin edilməsi həmin maddənin «Ümumxalq səsverməsi-referendum yolu ilə həll olunan məsələlər» adına ziddir, xüsusən də, bu ziddiyyət həmin maddənin I hissəsinə aiddir, çünki burada birmənalı şəkildə göstərilir ki, «Azərbaycan xalqı onun hüquq və maraqlarına toxunan istənilən məsələni referendum yolu ilə həll edə bilər».

Referendum predmetinə dair məhdudiyyətlər Gürcüstan Konstitusiyasında da var. Belə ki, 74-cü maddənin II hissəsində deyilir ki, «Amnistiya və ya əfv məsələləri, beynəlxalq saziş və müqavilələrin ratifikasiyası və denonsasiyası məsələləri, həmçinin insanın əsas konstitusion hüquq və azadlıqlarını pozan məsələlər üzrə qanunun qəbul edilməsi və ya ləğv edilməsi üçün referendumun keçirilməsinə yol verilmir».

Əksəriyyət postsovet dövlətlərində referendum predmetinin məhdudlaşdırılması referendum haqqında qanunlarda müəyyən edilmişdir. Belə ki, Rusiya Federasiyasının «Referendum haqqında» Konstitusiya Qanununun 3-cü maddəsi müəyyən edir ki, aşağıdakı məsələlər referenduma çıxarıla bilməz:

1. Rusiya Federasiyası subyektlərinin statusunun dəyişdirilməsi;

2. Prezident, Federal yığıncaq palatalarının səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması və yaxud artırılması, vaxtından əvvəl seçkilərin təyin edilməsi və yaxud təxirə salınması;

3. Federal büdcənin qəbul edilməsi və dəyişdirilməsi, dövlətin daxili maliyyə öhdəliklərinin icrası və dəyişdirilməsi;

4. Federal vergi və rüsumların, həmçinin onların ödənilməsindən azad etmənin tətbiqi, dəyişdirilməsi və ləğv edilməsi;

5. Əhalinin sağlamlığı və təhlükəsizliyinin təmin edilməsi üzrə fövqəladə və təxirəsalınmaz tədbirlərin qəbul edilməsi;

6. Amnistiya və əfv. Bundan başqa, qeyd olunur ki, referenduma çıxarılan məsələlər ümumi qəbul edilmiş insan hüquq və azadlıqlarını, onların reallaşdırılmasının konstitusion zəmanətlərini məhdudlaşdırmamalı və ya ləğv etməməlidir.

Belarusiyada respublikanın ərazi bütövlüyünü poza bilən, prezidentin seçilməsi və yaxud vəzifədən azad edilməsi ilə bağlı məsələlər, təyin edilməsi ölkə prezidenti və ya parlamentin səlahiyyətlərinə aid edilən vəzifəli şəxslərin təyin edilməsi (seçilməsi, azad edilməsi) ilə bağlı məsələlər, həmçinin büdcə, vergi, amnistiya və əfv məsələləri respublika referendumuna çıxarıla bilməz.

Respublika referendumunun predmeti ola bilməyən məsələlər Qazaxıstanın «Respublika referendumu haqqında» Konstitusiya Qanununda, Moldova Respublikasının «Referendum haqqında» Qanununda və digər keçmiş sovet respublikalarının analoji qanunlarında müəyyən edilmişdir.

Referendum predmetinin məhdudlaşdırılmasına dair misallar bəzi xarici ölkələrdə də var. Belə ki, İtaliya Konstitusiyasının 75-ci maddəsinə uyğun olaraq vergi və büdcə haqqında, amnistiya və əfv haqqında, beynəlxalq sazişlərin ratifikasiyasına səlahiyyətlər haqqında qanunlar barədə referendumun keçirilməsinə yol verilmir. Bolqarıstanda Böyük Xalq Məclisinin səlahiyyətlərinə daxil olan məsələlər üzrə konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi haqqında məsələlərin, dövlət büdcəsi və vergilər haqqında, Konstitusiya Məhkəməsinin səlahiyyətləri haqqında məsələlərin referenduma çıxarılması qadağandır.

Onların həlli üçün qanun xüsusi qayda nəzərdə tutmuşdur. Danimarka Konstitusiyasında 42-ci paraqrafın 6-cı hissəsində referendum predmeti ola bilməyən xeyli məsələlərin siyahısı verilmişdir. Bunlar ilk növbədə maliyyə-büdcə problemləri, vətəndaşlığın əldə edilməsi, monarxın statusu və digər məsələlərdir.

Qeyd olunduğu kimi, qanunverici referendum növlərindən biri adi qanunların qəbulu və düzəlişlərin edilməsidir. Lakin, nə keçmiş ittifaqda, nə də ki, Azərbaycanda hər hansı qanun layihəsinin ümumxalq səsverməsi ilə qəbul edilməsi üçün bir dəfə də olsa qanunverici referendum keçirilməmişdir. Respublikada qanunverici referendumlar hal-hazırda da keçirilmir və bununla da, birbaşa demokratiyanın belə vacib formasının rolu və əhəmiyyəti kiçildilir.

Bu arada, Azərbaycan Respublikasının qüvvədə olan Konstitusiyası referendum yolu ilə «xalqın hüquq və azadlıqlarına toxunan istənilən məsələni referendum yolu ilə həll etmək» üçün xalqın geniş imkanlarını qeyd edir və bu ixtiyarı yalnız referendum predmeti ola bilməyən bir neçə məsələlər dairəsi ilə məhdudlaşdırır. Deməli, xalq bir sıra prinsipial məsələlərin həll edilməsi üçün referendumun keçirilməsini tələb edə bilər. Məsələn, təqaüd təminatı kimi məsələyə dair prinsipial müddəalar «Təqaüd haqqında» Qanuna əlavə oluna bilər. Dövlət hakimiyyəti orqanlarına seçki qaydaları məsələləri, sosial-iqtisadi, ekoloji təminat məsələləri, sağlam ətraf mühit şəraitində yaşamaq hüququ və xalqın hüquq və maraqlarına aid digər vacib məsələləri referendum yolu ilə həll etmək imkanlarının xalqa verilməsi olduqca faydalı və demokratik addım olardı.

Həm nəzəri, həm də praktiki baxımdan referendumun predmeti ilə bağlı olan referendum düsturu problemi prinsipial dərəcədə vacibdir. Konstitusiya referendumu haqqında öncə söhbət açılarkən, qeyd edilmişdir ki,

konstitusiyanın və ona dəyişikliklərin edilməsi haqqında qanunların qəbul edilməsi üzrə referendum zahirən (formasına görə) olduqca demokratik görünsə də, eyni zamanda, kifayət qədər zəifdir. Axı bu halda referendum predmeti və düsturu üst-üstə düşür və seçici, necə deyərlər, bir nəfəsə «bəli» və ya «xeyr» deməklə, ölkə, cəmiyyət və xalq üçün vacib olan sənədi qəbul etməli və ya rədd etməlidir. Bu zaman o, konstitusiyanın ayrılıqda götürülən hər hansı maddəsi ilə razı olmadığını ifadə edə bilmir.

Əksəriyyət hallarda isə referendumun predmeti və düsturu üst-üstə düşmür və referenduma çıxarılan məsələlər fərqli ifadə oluna bilər. Hüquq ədəbiyyatında iki növ düsturun geniş yayılması göstərilir. Birincidə səs verənə sualla müraciət edilir və müəyyən qanun layihəsi və ya qərarın mətni ilə razı olub-olmaması ondan soruşulur, o, isə lehinə «bəli» və yaxud əleyhinə «xeyr» cavabını verməlidir. Bu halda səs verən şəxs qarşısında sadə və aydın dildə ifadə olunan bir sual qoyulur. Məsələn, hal-hazırda bəzi dövlət inhisarlarının, məsələn, neft-qaz sahəsi və digərlərinin özəlləşdirilməsinin mümkün olması və ya zərurətinə o necə münasibət göstərir?

Digər növ-səs verən şəxsə sualın iki və ya daha çox variantlarının təklif edilməsi və onun tərəfindən birinin seçilməsi və ya hamısının rədd edilməsidir. Ona səs verərək, hər hansı variant üzrə «bəli» və ya «xeyr» cavabını vermək təklif oluna bilər, lakin müsbət cavab yalnız o halda etibarlı olur ki, variantlardan biri üzrə verilmiş olsun. Düsturun bu növü bir neçə məsələ səsverməyə çıxarılan və hər bir məsələ üzrə ayrı qərarın qəbul edilməsi, tələb olunan referendumla qarışıq salınmamalıdır. İtaliyada ümumxalq səsverməsinə bir neçə sərbəst məsələ çıxarıldıqda, səsverənlərin rahatlığı üçün hər bir məsələ fərqli rəngdə olan ayrı kağızda çap edilir.

Səsvermə bülletenində çox sayda sualların daxil edilməsi referendum mətninin, onun predmetinin vətəndaşlar tərəfindən qavranmasını çətinləşdirir və qarışıqlığa gətirə bilər.

Referendum predmetindən irəli gələrək, biz yuxarıda referendumun keçirilməsinin konstitusion məhdudlaşdırılması haqqında danışmışdıq. Konstitusiyanın 3-cü maddəsinin III hissəsində sadalanmış məsələlər üzrə referendumun keçirilməsinin qeyri-mümkünlüyü haqqında, həmçinin AR Konstitusiyasının 155-ci maddəsi ilə müəyyən edilən müddəaların dəyişdirilməsinin davam etdirilməsi təşəbbüsünün məhdudlaşdırılması haqqında söhbət gedirdi.

Bununla yanaşı, ayrı-ayrı hallarda referendum haqqında qanunvericilik ümumiyyətlə referendumun keçirilməsi mümkünlüyünü istisna edir. Bu məsələ respublikamızın Seçki Məcəlləsinin 121-ci maddəsində müəyyən edilmişdir. Bu maddənin müddəasına görə, Azərbaycan Respublikasının ərazisində və yaxud 25 faizdən çox ərazisində hərbi və ya fövqəladə vəziyyət zamanı, həmçinin hərbi və ya fövqəladə vəziyyət ləğv edildikdən sonra 3 ay ərzində referendum keçirilə bilməz.

Hərbi və fövqəladə vəziyyətin tətbiq edilməsi əsasları respublika konstitusiyasının 111-ci maddəsində «Hərbi vəziyyətin elan edilməsi» və 112-ci maddəsində «Fövqəladə vəziyyətin tətbiqi» təsbit olunmuşdur. Respublika ərazisinin müəyyən hissəsi faktiki işğal olunduqda, ona müharibə elan olunduqda, Azərbaycan üzərinə hərbi təcavüz təhlükəsi yarandıqda, respublika ərazisi blokadaya alındıqda, həmçinin belə blokadanın real təhlükəsi yarandıqda hərbi vəziyyət elan olunur. Təbii fəlakət, epidemiyalar, böyük ekoloji və digər fəlakətlər zamanı, həmçinin Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına yönələn hərəkətlər törədildikdə və yaxud dövlət çevrilişi, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar zamanı, vətəndaşların

həyat və təhlükəsizliyi üçün, dövlət institutlarının normal fəaliyyəti üçün təhlükə yaradan digər münaqişələr zamanı fövqəladə vəziyyət elan edilir.

Bu maddələrə və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 29-cu bəndinə uyğun olaraq həm hərbi, həm də fövqəladə vəziyyət respublika prezidentinin fərmanları ilə elan edilir və o, 24 saat ərzində həmin fərmanları Milli Məclisin təsdiqinə təqdim edir. Bundan başqa, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktdan irəli gələn beynəlxalq-hüquqi öhdəliklərə uyğun olaraq Azərbaycan Prezidenti üç gün müddətində göstərilən Beynəlxalq Paktın öhdəliklərindən kənara çıxmanı təşkil edən hüquq və azadlıqların məhdudlaşdırılması barədə, onların həcmi və belə qərarın səbəbləri barədə BMT-nin Baş Katibinin məlumatlandırılması üçün tədbir görür.

Azərbaycan Konstitusiyasına uyğun olaraq respublikanın parlamenti tərəfindən 4 fevral 1992-ci ildə «Fövqəladə vəziyyət haqqında» Qanun və 6 yanvar 1994-cü ildə «Hərbi vəziyyət haqqında» Qanun qəbul edilmişdir. Burada hərbi və ya fövqəladə vəziyyətin tətbiqi əsasları ilə yanaşı, tətbiq olunan vəziyyətlərin rejimi, onların məqsədi, aparılma qaydası və müddətləri və s. müəyyən edilir. Bu aktlar müvafiq dövr üçün dövlət orqanlarının, ictimai birliklərin, vətəndaşların, müəssisə və təşkilatların fəaliyyətinin xüsusi hüquqi rejimini müəyyən edir.

Onu da qeyd etmək vacibdir ki, hərbi və ya fövqəladə vəziyyət zamanı bəzi demokratik institutların, məsələn, hər hansı ərazidə hərəkət azadlığı, toplantı, mitinq, küçə yürüşlərinin, nümayişlərin və digər kütləvi tədbirlərin, tətillərin keçirilməsi məhdudlaşdırılır. Konstitusiyanın 71-ci maddəsinin III hissəsində qeyd olunduğu kimi, «Müharibə, hərbi və fövqəladə vəziyyət, həmçinin səfərbərlik elan olunduqda, insan və vətəndaş hüquq və azadlıqlarının həyata

keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaqla, qismən və müvəqqəti məhdudlaşdırıla bilər». Maddədə xüsusi olaraq göstərilib ki, «məhdudlaşdırılan hüquq və azadlıqlar barədə əhali qabaqcadan məlumatlandırılacaq».

Təbii ki, hərbi və fövqəladə vəziyyət zamanı referendum kimi kütləvi siyasi-hüquqi tədbirin keçirilməsi qeyri-mümkündür ki, bu da qeyd olunduğu kimi, Azərbaycanın Seçki Məcəlləsində təsbit olunmuşdur.

FƏSİL 5. SEÇKİ SİSTEMİ VƏ SEÇKİ HÜQUQU

§ 1. Seçkilərin anlayışı, növləri, sosial funksiyaları və təşkili prinsipləri.

Xalq hakimiyyətinin həyata keçirilməsinin bilavasitə demokratiya formasına həmçinin seçki hüququ aiddir. Konstitusiya hüququnda «seçkilər» dedikdə seçki hüququ olan şəxslərin səs verməsi vasitəsilə dövlət orqanının tərkibinin formalaşdırılması və ya məsul şəxsə səlahiyyətlərin verilməsi proseduru başa düşülür. Bir şərtlə ki, bu yolla təqdim edilən hər bir mandata iki və ya daha çox namizəd iddia etsin.

Bu tərif seçkiləri dövlət orqanlarının formalaşdırılması və məsul şəxslərə səlahiyyətlərin verilməsi üzrə digər proseduralardan, xüsusən də səs vermə yolu ilə həyata keçirilən kollegial təyin etmə proseduradan fərqləndirir. Məsələn: Azərbaycan Respublikasının Milli Məclisi dövlət başçısının təqdimatına əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Respublikası Apellyasiya məhkəmələri hakimlərini təyin edir (Azərbaycan Respublikası Konstitusiyası, mad. 95. I hissə bənd 10).

Göstərilən misalda hər bir vəzifəyə bir qayda olaraq bir namizəd irəli sürüldüyü halda, seçkilərin mahiyyəti ondan ibarətdir ki, iki və hətta daha çox namizəddən bir nəfər seçilsin. Düzdür, bəzən konstitusiya normaları və ya qanun bir neçə namizəd arasından bir nəfərin seçilməsini tələb etsə də, bu, o hallarda baş verir ki, həmin təyinat kollegial yox, təkbaşçılıq prinsipi əsasında fəaliyyət göstərən orqan tərəfindən, məsələn, prezident tərəfindən həyata keçirilir. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 109 maddəsinin 9-cu bəndinə müvafiq olaraq Azərbaycan Respublikasının Prezidenti Konstitusiya Məhkəməsinin 9 hakimindən birini Konstitusiya Məhkəməsinin sədri təyin edir.

Beləliklə, seçkilər-səsvermə vasitəsilə həyata keçirilən nümayəndəli hakimiyyət sisteminin formalaşdırılmasıdır.

Seçki institutunun bu tərifində nümayəndəli hakimiyyət anlayışı sözün geniş mənasında işlədilir.

Azərbaycan Respublikası Konstitusiyasının 2-ci maddəsinin II hissəsində deyilir:

«… Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi-referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir». Respublikamızın müvafiq qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının dövlət başçısı, parlament və bələdiyyə üzvləri seçkilər əsasında seçilir.

Seçkilərin bütün müxtəlifllikləri fərqli əsaslar üzrə təsnif edilə bilər.

Məsələn keçirilmə səviyyəsinə görə ümumdövlət, regional və yerli seçkilər fərqləndirilir. Ölkəmizdə ümumdövlət səviyyəsində Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikası Milli Məclisinin üzvləri seçilir.

Regional səviyyədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkiləri misal göstərmək olar. Naxçıvan Muxtar Respublikasında qanunvericilik hakimiyyətini Muxtar Respublikanın Ali Məclisi həyata keçirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 45 deputatı majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər.

Yerli səviyyədə yerli özünüidarəetmə orqanlarının nümayəndəli orqanları seçilirlər.

Seçkilərin birbaşa və dolayı, növbəti və növbədənkənar, ümumi və qismən, ilkin və təkrar növləri də fərqləndirilir:

- ***birbaşa seçkilər*** onunla səciyyələnir ki, vətəndaşlar dövlət orqanlarına öz nümayəndələrini bilavasitə seçirlər;
- - ***dolayı seçkilərdə*** seçki məsələsini vətəndaşlar yox, onlar tərəfindən seçilmiş şəxslər-xüsusi seçki kollegiyası, deputatlar və s. həll edir. Bizim ölkəmizdə bu cür seçkilər keçirilmir;
- ***növbəti seçkilər*** seçkili dövlət və yerli özünüidarəetmə orqanlarının səlahiyyətlərinin qanunvericilikdə nəzərdə tutulmuş müddəti başa çatdıqda keçirilir. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin I hissəsində deyilir: «Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının seçkiləri hər 5 ildən bir noyabr ayının birinci bazar günü keçirilir»;
- ***növbədənkənar seçkilər***-dövlət və bələdiyyə orqanlarının səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması halında keçirilir (məsələn, parlamentin buraxılması, prezidentin istefa verməsi). Azərbaycan Respublikasının Konstitusiyasına əsasən dövlət başçısı istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə, impiçment qaydasında

vəzifədən kənarlaşdırıldıqda vaxtından əvvəl vəzifədən getmiş sayılır və 3 ay ərzində növbədənkənar prezident seçkiləri keçirilir (Azərbaycan Respublikası Seçki Məcəlləsi, mad. 179);

- ***əlavə seçkilər***-Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə əgər konkret dairə üzrə seçkilər zamanı səslərin düzgün hesablanmadığı aşkar olunarsa, Konstitusiya Məhkəməsinin qərarı ilə bu dairədən seçilmiş sayılan deputat mandatdan məhrum edilir.

Parlamentin deputatı Azərbaycan Respublikasının vətəndaşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə, dövlət orqanlarında vəzifə tutduqda, din xadimi olduqda, sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul olduqda (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla) və yaxud istefa verdiyi hallarda deputat mandatdan Mərkəzi Seçki Komissiyasının qərarı ilə məhrum edilir.

Deputat mandatının boş qalmasından sonra bir ay müddətində müvafiq birmandatlı seçki dairəsi üzrə növbədənkənar seçkilər keçirilir. Növbədənkənar seçkilər keçirilərkən birmandatlı seçki dairəsi üzrə namizədlərin irəli sürülməsi, onların qeydə alınması, digər seçki hərəkətləri Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada həyata keçirilir (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, mad. 176).

Milli Məclisin deputatlığından çıxanların yerinə növbədənkənar seçkilər parlamentin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa, keçirilmir (Azərbaycan Respublikasının Konstitusiyası, mad. 87, II hissə).

- ***təkrar seçkilər*** növbəti, növbədənkənar, ümumi və qismən seçkilər baş tutmamış və ya onların nəticələri etibarsız sayıldığı hallarda keçirilir.

Bununla belə təkrar seçkiləri təkrar səsvermədən fərqləndirmək lazımdır. Məsələn, Azərbaycan Respublikasının seçki qanunvericiliyinə müvafiq olaraq, əgər seçki bülleteninə prezidentliyə namizəd kimi ikidən çox şəxs daxil edilibsə və onlardan heç biri seçilməyibsə, Mərkəzi Seçki Komissiyası seçkilərdə daha çox səs toplamış 2 namizəd üzrə təkrar səsvermə təyin edir. Təkrar səsvermə ümumi seçkilərdə səsvermə günündən sonra ikinci bazar günü keçirilir (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, mad. 205). Lakin əgər prezident seçkilərinin nəticələri Konstitusiya Məhkəməsi tərəfindən etibarsız hesab edilərsə və Azərbaycan Respublikasının prezidenti seçilməzsə, onda Mərkəzi Seçki Komissiyasının qərarı ilə təkrar prezident seçkiləri təyin edilir (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, mad. 206). Təkrar səsvermədən fərqli olaraq, təkrar seçkilərdə seçki prosesinin hər bir mərhələsi yenidən təşkil olunur.

Cəmiyyətin siyasi sistemində Seçki institutunun yeri və rolu onun funksiyalarında ifadə olunur. Bu funksiyalara aşağıdakılar daxildir:

1. İctimai maraqların təmsil olunması. Seçki institutunun əsas təyinatını əks etdirən ən vacib funksiyadır. Demokratiya fenomeninin birmənalı izahının olmamasına və onun real formalarının müxtəlifliyinə baxmayaraq, demək olar ki, müasir cəmiyyətdə demokratiya plüralist və nümayəndəlidir. Müxtəlif maraqlara malik olan müxtəlif sosial qruplar öz tələblərini hakimiyyət institutlarına çatdırmağa, siyasi qərarların qəbuluna təsir göstərməyə çalışırlar. Qrup maraqlarının ötürülməsinin ən vacib yolu seçkilərdir, burada seçicilər hansı siyasi qüvvələrin onların maraqlarının lazımi səviyyədə əks etdirmək imkanında olduğunu həll edirlər.

2. Hakimiyyətin legitimləşdirilməsi. Xalq tərəfindən seçilmiş hakimiyyət legitmidir. Onların vasitəsilə xalq öz

suveren hüquqlarının həyata keçirilməsi üçün öz nümayəndələrini təyin edir və onlara mandat verir. Bununla da insanın və vətəndaşın ən vacib hüquqlarından biri təmin olunur.

Onu da qeyd etmək lazımdır ki, hakimiyyətin legitimləşdirilməsi tək seçkilər vasitəsilə həyata keçirilmir. Məhkəmə hakimiyyəti dövlət başçısı və parlament, icraedici orqanlar, prezident tərəfindən aparılan təyinatlar vasitəsilə formalaşdırılır və bu onların legitimliyini inkar etmir. Bir şərtlə ki, bu cür təyinatlar konstitusiyaya uyğun olaraq həyata keçirilmiş olsun.

3. Siyasi həyatın sosial barometri. Seçki mexanizmi vasitəsilə vətəndaşların vacib siyasi institutlara münasibəti özünü biruzə verir. Seçkilərin keçirilməsi prosesində müxtəlif siyasi qüvvələrin maraqları, müxtəlif baxışlar və platformalar toqquşur, seçkilərin nəticələri onların nüfuz dərəcəsini qiymətləndirməyə imkan verir, seçicilərin əhvalını, siyasi həyat ənənələrini göstərir.

4. Siyasi elitanın cəlb olunması. Müasir demokratiyada seçkilər siyasi elitanın formalaşdırılması və tənzimlənməsinin vacib mexanizmidir və selektor (elitanın tərkibini seçənlər) qismində bütün vətəndaşlar çıxış edir. Seçkilər onlara imkan verir ki, mandatı hakimiyyət səlahiyyətlərini layiqincə təmsil edəcək şəxslərə versinlər.

5. Siyasi sosiallaşma. Vətəndaşların istənilən cəmiyyətdə siyasətə cəlb olunma səviyyəsi qənaətbəxş olmasa da, fəaliyyətin bu sahəsi sosial sistem çərçivəsindən kənarda deyil. İnsan yaşadığı cəmiyyətdən təcrid olunmuş şəkildə yaşaya bilmədiyinə görə o, həmin cəmiyyətlə qarşılıqlı təsir vərdişlərini, habelə onun siyasi sisteminə uyğunlaşma vərdişlərini formalaşdırmalıdır. Öz maraqlarını təmin etmək üçün siyasi məkanda oriyentasiya etmək və siyasi mexanizmlərdən istifadə etmək bacarıqları siyasi sosiallaşma prosesində qazanılır. Seçki kampaniyasının

gedişatı ərzində seçicilərin səsləri uğrunda rəqabət aparan siyasi qüvvələr və namizədlər fərdlərə intensiv kommunikativ təsir göstərir və bununla yanaşı bu və ya digər siyasi rəylərin, dəyərlərin, davranış standartlarının formalaşmasına təkan verir. Vətəndaşların iştirakının özü də qanuni baxımdan məqbul sayılan siyasi qarşılıqlı təsir vasitələrinə uyğunlaşma, dövlət institutlarına ehtiramın formalaşması öhdəliklərinin dərk olunması deməkdir.

Beləliklə, Demokratiyanı seçkilərsiz təsəvvür etmək mümkün deyil, amma onların olması da hələ cəmiyyəti demokratik etmir. Seçkilər siyasi elita tərəfindən avtoritar və ya totalitar rejimlərdə hakimiyyətin legitimliyinin qanuniləşdirilməsi məqsədi üçün istifadə edilə bilər.

1948-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş Ümumdünya İnsan hüquqları Bəyannaməsinin 21-ci maddəsində deyilir:

"-Hər bir insan öz ölkəsinin idarə olunmasında bilavasitə, yaxud azad seçilmiş nümayəndələr vasitəsilə iştirak etmək hüququna malikdir.

- Hər bir insan öz ölkəsində dövlət qulluğuna girmək məsələsində bərabər hüquqa malikdir.

- Hakimiyyət üçün xalqın iradəsi əsas olmalıdır, bu iradə gizli səsvermə, yaxud səsvermənin azadlığını təmin edən başqa bərabər formalar vasitəsilə ümumxalq və bərabər seçki hüququ ilə keçirilməli olan dövri və saxtalaşdırılmamış seçkilərdə öz ifadəsini tapır". Ümumdünya İnsan hüquqları Bəyannaməsi əsasında insan hüquqları sahəsində yeni beynəlxalq standartlar və öhdəliklər, o cümlədən, Mülki və siyasi hüquqlar haqqında BMT-nin Beynəlxalq Paktı, Avropa Şurasının İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası, ATƏT-in 1990-cı il Kopenhagen sənədindəki öhdəliklər işlənib hazırlanmışdır. Bu başlıca sənəddə öz ölkəsinin idarə olunmasında vətəndaşların iştirakı

hüququnun təmin olunmasında seçkilərin mərkəzi rolu xüsusilə qeyd olunur.

Qısa şərhdə də Kopenhagen sənədi tələb edir ki, ölkələr:

- azad seçkiləri ağlabatan dövriliklə keçirsinlər;
- ümumxalq və bərabər seçki hüququna zəmanət versinlər;
- seçkilərin gizli keçirilməsini, səslərin sayılmasını və onlar haqqında məlumatın düzgün olmasını, nəticələrin isə çap olunmasını təmin etsinlər;
- siyasi partiyalar yaratmaq hüququna hörmət etsinlər, hakimiyyət orqanları və qanun qarşısında bərabərlik əsasında bir-biri ilə yarışmaq imkanlarını təmin etsinlər;
- siyasi kampaniyaların namizədlər, partiyalar və ya seçicilərə hər hansı inzibati təzyiq, zorakılıq, yaxud cəzalanma qorxusu olmadan vicdanla və azad şəraitdə keçə bilməsini təmin etsinlər;
- kütləvi informasiya vasitələrinə maneəsiz, ayrı-seçkilik qoyulmadan buraxılışı təmin etsinlər;
- zəruri miqdarda səs almış namizədlərin lazımi qaydada vəzifələrinə başlamalarını təmin etsinlər.

Beləliklə, təşkilati və həyata keçirilmə baxımından seçkilər bir sıra mühüm prinsiplərə cavab verməlidir.

Bu prinsipləri daha ətraflı şərh edək:

1. Seçkilərin məcburiliyi və dövriliyi prinsipi- seçkilərin dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının legitimliyini təmin edir. Ehtimal olunur ki, seçkili hökumət institutlarının fəaliyyəti vaxta görə reqlamentləşdirilir və onların həyata keçirilməsi müntəzəm olaraq seçki prosedurları yolu ilə həyata keçirilir. Seçkilərin dövriliyi seçkili orqanların səlahiyyətlərinin müddəti ilə müəyyən olunduğuna görə aydındır ki, burada söhbət yalnız ümumi və ya yerli seçkilərin mütəmadiliyindən gedir. Bu, seçicilərə imkan

verir ki, seçki orqanlarının tərkibini mütəmadi olaraq dəyişsinlər və beləliklə də onlara olan etimadı və ya etimadsızlığı ifadə etsinlər. Bu seçkili şəxsləri və siyasi birlikləri seçicilərin maraq və münasibətləri ilə hesablaşmağa, onlarla daimi əlaqəni qoruyub saxlamağa, öz siyasi kurslarının düzgünlüyünə inandırmağa vadar edir.

Azərbaycan Respublikasında Prezidentin səlahiyyət müddəti 7 il, Parlamentin hər çağırışının səlahiyyət müddəti 5 ildir (Azərbaycan Respublikasının Konstitusiyası, mad. 84,101). 18 mart 2009-cu il referendumu Azərbaycan Respublikası Konstitusiyasının 84-cü və 101-ci maddələrində aparılan düzəlişlərə görə «Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin və Azərbaycan Respublikası Prezident seçkilərinin keçirilməsini mümkün etmədikdə həmin orqanların çağırışının səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir.

Digər tərəfdən unutmaq olmaz ki, səlahiyyətlərin qısa müddəti elektoratın seçkili orqanın tərkibinə münasibətini dəqiq ifadə etməyə imkan versə də, seçkili şəxslərə öz imkanlarını tam realizə etməyə və bütün qarşıya qoyulmuş məqsədləri yerinə yetirməyə imkan vermir.

2. Seçkilərdə şəffaflıq və aşkarlıq prinsipi-seçicilərin namizədlər, partiyalar, seçkili orqanlar, qanunvericilik, seçki prosesi barədə məlumatlarla təmin edilməsini nəzərdə tutur.

Seçicilərin məlumatlandırılması etibarlılıq və tərəfsizlik prinsipinə, yəni seçki kampaniyasının bütün iştirakçılarına eyni yanaşmanın olmasına əsaslanmalıdır.

3. Seçkilərin azadlığı prinsipi-seçicilərin fikir, söz, məlumat, toplantı və assosiasiyalar, gizli səsvermə azadlığının olmasını nəzərdə tutur. Vətəndaş seçkilərdə iştirak edib-

etməməyi özü həll etməlidir. Heç kim vətəndaşa təsir göstərməklə onu seçkilərdə iştirak etməyə və ya etməməyə məcbur edə və ya onun öz fikrini azad ifadə etməsinə maneə yarada bilməz. Düzdür, belə vəziyyətdə aşağıdakı kolliziya yarana bilər. Əgər seçkilərdə nisbətən az sayda vətəndaş iştirak etmişdirsə, o zaman şübhə yarana bilər ki, təşəkkül tapmış hakimiyyət institutları həqiqətən də nümayəndəli və legitimdirmi?

Qeyd etmək lazımdır ki, bir sıra ölkələrdə (Türkiyə, Yunanıstan, Fransa, İsveçrə və s.) seçkilərdə iştirak vətəndaşın öhdəliyi kimi nəzərdən keçirilir. Bizim respublikamızda bu vətəndaşın öz hüququdur. O seçkilərdə iştirak edib-etməməyi özü qərarlaşdırır.

Bu mənada biz Azərbaycan qanunvericiliyi ilə razıyıq. Çünki vətəndaşı seçkilərdə iştirak etməməyə görə cəzalandırmaq yox, onun iştirak etməməsinin səbəblərini aydınlaşdırmalı və bu səbəblərin aradan qaldırılması yollarını tapmaq lazımdır.

4. Alternativ seçkilər prinsipi-təşkilatlanmanın və seçkilərin aparılmasının rəqabətli xarakterini nəzərdə tutur. Seçici bu halda ən azı iki namizəddən və ya namizədlər siyahısından birini seçmək imkanı qazanır. Vətəndaşlar müxtəlif siyasi dəyərlər, ideyalar, proqramlar arasında seçim etmək imkanına malik olmalıdırlar.

Konstitusiya səviyyəsində seçki hüququnun bəyan edilməsi, real həyatda isə seçkilərin alternativ siyasi qüvvənin olmaması şəraitində keçirilməsi seçki hüququ institutuna tamamilə ziddir. Tarix göstərir ki, sovetlər birliyi dönəmində seçkilər məhz bu ənənələrə uyğun keçirilirdi. «İzvestiya» qəzetinin 7 sentyabr 1977-ci il tarixli sayında SSRİ-nin 1977-ci il Konstitusiya layihəsinin müzakirəsi ilə bağlı oxucuların məktublarındakı rəy və təkliflərin analitik xülasəsi dərc edilmişdi. Orada qeyd edilir ki, Konstitusiya layihəsinin «Seçki sistemi» adlı fəslinin bütün maddələrinə dair

məktublarda səsvermə bülletenində bir yerə azı iki namizədin göstərilməsi təklif olunur. Lakin SSRİ-nin bürokratik aparatı bu təkliflərə qarşı laqeydlik göstərərək onları arxivə göndərdi.

Çox əfsuslar olsun ki, bu gün də istər elmdə, istərsə də təcrübədə seçkiləri referendumla eyniləşdirənlərə rast gəlinir. Buna misal olaraq, bəzi ölkələrdə referendum yolu ilə dövlət başçısının «seçilməsi», yaxud onun səlahiyyət müddətinin artırılmasını göstərə bilərik. Bu cür siyasi addımları əslində demokratiyaya uyğun gəlməyən alternativsiz «seçkilər» adlandırmaq olar.

5. Seçkilərin ədalətliliyi prinsipi-seçki prosesinin qeyri-obyektivliyindən və saxtalaşdırmadan qorunması tədbirlərini nəzərdə tutur və aşağıdakıları ehtiva edir:

- seçkilərin müstəqil orqanlar tərəfindən təşkil olunması, onların fəaliyyəti üzərində nəzarət mexanizminin olması;
- namizəd və partiyalar üçün bərabər seçkiqabağı şəraitin yaradılması;
- seçkilərin seçki kampaniyası keçirməsinə imkan verəcək müddətə keçirilməsi;
- seçki prosesinin ədalətli maliyyələşdirilməsinin təmin olunması;
- seçkinin nəticələrini müəyyən edən zaman obyektivliyə əməl olunması;
- seçki kampaniyasının keçirilməsi ilə əlaqədar olaraq, vətəndaş hüquqlarının, seçki qanunvericiliyinin və şikayətlərin dərhal və effektiv nəzərdən keçirilməsi.

Beləliklə, demokratiya, ədalətli rəqabət və alternativ siyasi qüvvələr şəraitində mütəmadi azad seçkilərin keçirilməsini nəzərdə tutur.

§ 2. Seçki sistemi anlayışı, subyektləri və növləri.

Müasir elmi düşüncə tədqiq edilən obyektləri sistem kimi nəzərdən keçirməyə meyllidir. Cəmiyyətin siyasi

sisteminin tərkib hissəsi olan seçki institutunun özü də nisbətən azad sistemli obyekt kimi nəzərdən keçirilə bilər. Bu halda, seçki sistemindən bəhs edilir. Müvafiq olaraq, ilk öncə seçki sisteminin nə olması müəyyən edilməlidir.

Bu termin hüquq ədəbiyyatlarında iki mənada-geniş və dar mənada işlənir.

İlk öncə seçki sistemini geniş mənada nəzərdən keçirək. Geniş mənada seçki sistemi dedikdə ümumi hakimiyyət orqanlarının seçkisi ilə bağlı olub, seçki qaydalarını təşkil edən münasibətlər başa düşülür. Bu sistem əsasən konstitusiya hüquq normaları ilə tənzimlənir, ancaq təkcə konstitusion hüquqi münasibətlərdən ibarət deyildir. O, qeyri-hüquqi normalarla da tənzimlənir-bura seçkilərdə iştirak edən ictimai təşkilatların korporativ normaları, adət və ənənələr, siyasi əxlaqın normaları, etika və s. aiddir.

Seçki sisteminin əsas tərkib hissələrinə seçki subyektləri və seçki hüququ aiddir.

Məlum olduğu kimi, siyasət sferası da daxil olmaqla, istənilən sosial fəaliyyət növü onun subyektlərinin məqsədyönlü fəallığına əsaslanır. Ona görə də seçki sisteminin ən vacib komponenti seçki subyektləri hesab olunurlar. Onların arasından aşağıda verilənləri ayırd etmək mümkündür:

- seçicilər;
- siyasi partiyalar;
- seçkili vəzifələrə namizədlər;
- seçkili orqanlar;
- müşahidəçilər;
- KİV;
- dövlət.

Seçki subyektləri seçki prosesində aşağıdakı şərtlərə riayət etməlidirlər:

- mətbuat azadlığına hörmət bəsləmək;

- öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, partiyaların (siyasi partiyalar bloklarının) seçki kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;

- seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmamaq, təşviqat materiallarını məhv etməmək və korlamamaq;

- seçkiqabağı kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;

- seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları ilə əməkdaşlıq etmək;

- seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək;

- səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək ilə onlarla əməkdaşlıq etmək;

- səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərmək;

- seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməmək;

- seçki komissiyalarının fəaliyyətinə əsassız müdaxilə etməmək,

- səslərin verilməsi və ya hesablanması prosesini pozmamaq;

- seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək;

- hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materiallar yaymamaq;

- seçicilərə mükafat təklif etməmək, onları cəza ilə hədələməmək və s.

SEÇİCİLƏR

Seçki prosesində əsas fəaliyyət göstərən şəxslərdən biri seçicidir.

Seçici-Azərbaycan Respublikası Seçki Məcəlləsinin 1.1.3-cü maddəsinə əsasən səsvermə hüququna malik olan şəxsdir.

Bu subyektin xarakterizə edilməsi zamanı hüquq elmində «elektorat» adlanan termindən də istifadə edilir.

Ölkənin, yaxud ərazi vahidinin seçicilərinin məcmusuna seçici korpusu və ya elektorat deyilir.

Seçki prosesində hüquqi seçici korpusu-siyahıya daxil edilən (qeydiyyatdan keçən) seçicilərin cəmi, faktiki seçici korpusu-səsverən seçicilərin cəmi, potensial seçici korpusu-qeydiyyatdan keçən və hansısa səbəbdən qeydiyyatdan keçməyən bütün seçicilərin cəmi terminlərdən istifadə olunur.

Seçicilərin seçki sisteminin strukturunda xüsusi statusu bir tərəfdən onunla şərtlənir ki, onlar hakimiyyət strukturlarının formalaşdırılmasında iştirak edərək demokratiyanı xalq hakimiyyəti kimi təsdiq edirlər. Digər tərəfdən isə, seçicilər tərəfindən ifadə edilmiş üstünlüklər nümayəndəli orqanın konkret tərkibinin formalaşmasında meyar rolunu oynayır.

Seçicilərin seçkilərdə iştirak etməsi onların siyasətə cəlb olunmasının əsas formasıdır. Məhz seçkinin gedişatı ərzində vətəndaşlar siyasətin subyektlərinə çevrilirlər. Adətən seçki kampaniyaları arası dövrdə onların siyasi prosesdə iştirakı elə də böyük olmur.

SİYASİ PARTİYALAR

Seçki subyektləri arasında vacib yeri onların kollektiv iştirakçıları-siyasi partiyalar tutur. Bu təsadüfi deyildir, çünki partiyanın fəaliyyətinin əsas məqsədi-siyasi

hakimiyyətin əldə edilməsi və ya onun həyata keçirilməsində iştirakdır.

Siyasi partiyaların seçki sistemi strukturunda xüsusi statusu həm də onunla şərtlənir ki, çoxsaylı maraqlar qrupundan (hansılar ki, oxşar funksiyalar həyata keçirirlər) fərqli olaraq, onlar sadəcə seçkilərdə iştirak edən siyasi subyektlər deyil. Onların seçki sistemindəki yeri həm də hüquqi baxımdan təsbit olunmuşdur. Beləliklə, demokratik ölkələrdə siyasi partiyalara siyasi sistemin fəaliyyətində əsas rollardan biri verilir. Siyasi partiyaların seçki sistemində statusu onlarda geniş hüquqlar spektrinin olmasını nəzərdə tutur:

- namizədlərin irəli sürülməsi hüququ;
- seçki kampaniyasını maliyyələşdirmək hüququ;
- dövlət tərəfindən maliyyə dəstəyi almaq hüququ;
- seçkiqabağı təbliğat aparmaq hüququ;
- seçkilərin gedişatına nəzarət hüququ.

Bundan başqa, siyasi partiyaların seçki subyektləri qismində fəaliyyəti müəyyən məhdudiyyətlərlə müşayiət olunur.

Siyasi partiyaların statusu yalnız ümumi ola bilər, yəni regional partiyaların mövcudluğu qəbuledilməzdir.

Beləliklə, seçki birliyi dedikdə, seçkilərdə iştirak etmək hüququ olan siyasi partiya, habelə onların müvafiq səviyyədə qanunauyğun olaraq seçkilərdə iştirak etmək hüquqları olan regional bölmələri nəzərdə tutulur.

Azərbaycan Respublikasının Seçki Məcəlləsində siyasi partiyaların və siyasi partiyaların bloklarının seçkilərdə iştirakının əsasları təsbit edilmişdir. Belə ki, seçkilərdə iştirak edən siyasi partiya (siyasi partiyalar bloku) aşağıdakı şərtlərə riayət etməlidir:

-digər siyasi partiyanın (siyasi partiyalar blokunun) seçki kampaniyası zamanı öz siyasi ideyalarını və

baxışlarını azad və sərbəst yaymaq hüququna hörmət bəsləmək;

- digər siyasi partiyaların (siyasi partiyalar bloklarının), seçicilərin və ictimai təşkilatların hüquqlarına hörmət bəsləmək;

- seçicilərlə azad ünsiyyətin yaradılması üçün digər siyasi partiyalara (siyasi partiyaların bloklarına) mane olmamağı və s.

Seçki birliyinin bir növü də seçki blokudur. Seçki bloku-iki və ya daha çox partiyadan təşkil olunan və namizədlərin ümumi siyahısının (ümumi namizədin) irəli sürülməsi məqsədilə yaradılan siyasi koalisiya formasıdır.

Azərbaycanın seçki qanunvericiliyinə görə siyasi partiyaların blokunu azı iki siyasi partiya yarada bilər. Siyasi partiya blokun tərkibinə daxildirsə, seçkilərin keçirildiyi dövrdə müstəqil partiya kimi çıxış edə bilməz və ya digər bloka daxil ola bilməz. Siyasi partiyaların bloku Mərkəzi Seçki Komissiyasında qeydə alındıqdan sonra onun tərkibinə hər hansı digər siyasi partiya daxil edilə bilməz (Seçki Məcəlləsi mad. 50).

Seçki blokları siyasi partiyaların resurslarının birləşdirilməsi, potensial elektorat kütləsinin sayının artırılması və nəticə etibarilə seçki kampaniyasında qələbə şansının artırılması məqsədilə yaradılır.

Seçki blokları-koalisiyalar adətən uzunömürlü olmurlar. Onlar, konkret seçki kampaniyası və siyasi subyektlərin müəyyən nisbəti şəraitində yaradılırlar. Seçki bloku seçkilərin təyin olunduğu andan etibarən istənilən vaxt yaradıla bilər (təbii ki, namizədlərin irəli sürülməsi müddətləri nəzərə alınmaqla), onun əsas səlahiyyətləri isə, seçki kampaniyasının bitməsi ilə başa çatır.

Seçkili vəzifələrə irəli sürülən namizədlər, siyasi partiyalardan heç də az əhəmiyyətli olmayan seçki subyektləridir. Konkret seçkili vəzifələrinin növləri, sayı və

çəkisi müasir demokratiyada bir-birlərindən fərqlənir və idarəetmə formasının, ərazi quruluşu formasının, dövlətin miqyasının və siyasi ənənələrin xüsusiyyətlərindən asılıdır.

Azərbaycanda dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları sistemində aşağıdakı vəzifələr seçkili sayılır:

- Azərbaycan Respublikasının Prezidenti;
- Azərbaycan Respublikası Milli Məclisinin deputatları;
- Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları;
- yerli özünüidarəetməni həyata keçirən bələdiyyələrin üzvləri.

Namizədlərin seçkili vəzifələrə irəli sürülməsi həm bilavasitə (özünüirəlisürmə yolu ilə) və həm də seçicilərin, siyasi partiyaların, siyasi partiya bloklarının təşəbbüsü ilə baş tuta bilər. Birinci halda, söhbət özünü müstəqil namizəd kimi irəli sürən və yaxud hər hansı partiya mənsubiyyətini göstərməyən namizəddən gedir.

Seçkilərdə siyasi partiya yaxud siyasi blok tərəfindən dəstək namizədə öz hakimiyyət imkanlarından, resurslarından və nəhayət, ağlından yararlanmaq imkanı verir. Belə olduqda namizəd partiyanın populyarlığından müəyyən pay əldə edir və özü üçün informasiya məsələlərini asanlaşdırır.

Demək olmaz ki, namizədin partiya tərəfindən dəstəklənməsi heç bir rol oynamır. Bu dəstəyin onun öz güclü potensialı ilə uzlaşması seçkilərdə müvəffəqiyyət üçün ən etibarlı mənbə rolunu oynaya bilər.

SEÇKİ ORQANLARI

Bütün seçki prosesinə təşkilati rəhbərliyi seçki orqanları həyata keçirir. Əksər ölkələrdə onlar müstəqil ixtisaslaşmış institutlar kimi seçkilərə hazırlığı və onun

həyata keçirilməsinə dair qanunvericilikdə müəyyən edilmiş funksiyaları yerinə yetirirlər.

Məlum olduğu kimi zəngin təcrübəyə malik ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu seçki kampaniyasının hazırlığı, təşkili və keçirilməsi sahəsində müşahidənin aydın metodologiyasını təfsilatı ilə işləyib hazırlamışdır. Bu təlimatda seçki prosesinə təşkilati rəhbərliyi həyata keçirən orqanlara da xüsusi yer ayrılmışdır. Burada deyilir ki, milli seçki idarəsi, adətən seçkilərin təşkili və keçirilməsi üçün təyin edilir. Bəzən seçki prosesi ilə məhkəmə orqanları məşğul olurlar. Seçkilərin keçirilməsinə görə hansı təşkilatın məsuliyyət daşımasından asılı olmayaraq onun işi müstəqil, maneəsiz və açıq olmalıdır.

Alternativ seçki idarəsi siyasi partiyaların vəkil etdiyi nümayəndələrin balansına əsaslana bilər. Dəqiq ifadə olunmuş partiya nümayəndəliyinin balansı seçki idarəsinin bütün səviyyələrində çoxpartiyalı bərabər təmsilçiliklə təmin edilən ehtiyat tədbirlər sisteminin yaradılmasına yönəlir. Seçki komissiyasının tərkibinə daxil olan siyasi partiyaların nümayəndələri seçki kampaniyasında iştirak edə bilməzlər.

İdarənin daimi təşkilata çevrilməsi, yaxud daimi icraçı orqanlarının olması arzuedilən haldır. Əgər bu müvəqqəti təşkilatdırsa, onun müstəqilliyi o zaman təmin edilə bilər ki, üzvləri müəyyən müddətə təyin edilir və onlar özlərinin əsas iş yerlərinə qayıtmaq imkanına malik olurlar.

Əgər seçkilərin təşkilinə və keçirilməsinə görə məhkəmə orqanları məsuliyyət daşıyırsa, onların müstəqilliyi açıq proseduralar vasitəsilə təmin edilir. Məhkəməni təmsil edənlər hakimiyyətdən, yaxud dövlət vəzifələrinə namizədlərdən asılı olmamalıdırlar.

Seçki idarəsi özünümüdafiə, assosiasiya, iclas azadlığı hüququnun həyata keçirilməsinə, ayrı-seçkilikdən imtina

olunmasına kömək və qanunun vaxtında yerinə yetirilməsinə nəzarət etməlidir. Hər cür tərəfbazlıq və hakimiyyətdən yanlış istifadə seçkilərin legitimliyinə ciddi ziyan vura bilər.

Seçki idarəsinin aşkarlığı seçki komissiyasının açıq iclaslarının keçirilməsi, eləcə də bunların müvafiq şəkildə protokollaşdırılması yolu ilə xeyli yaxşılaşdırıla bilər. Bu, ictimaiyyətin seçki sisteminə etibarının yüksəldilməsinə kömək edərdi.

Müxtəlif nazirliklər, digər mərkəzi inzibati orqanlar, yaxud rayon, şəhər hakimiyyətinin nümayəndəlikləri də seçkilərin təşkilində və keçirilməsində inzibati, təşkilati məsələləri yerinə yetirmək üçün milli seçki idarələrinə köməklik göstərir. Onlar seçicilərin siyahılarının, bülletenlərin, digər lazımi materialların hazırlanmasına və yayılmasına, eləcə də onların saxlanılmasına və təhlükəsizliyinə görə məsuliyyət daşıya bilərlər.

Seçki komissiyasının müstəqilliyi dövlətin təqdim etdiyi şəffaf, kafi və müstəqil büdcə ilə təmin olunur.

Seçki orqanlarının sistemi, formalaşdırılması və səlahiyyətləri müxtəlif ölkələrdə bir sıra özünəməxsusluqlara malikdirlər.

Bəzi ölkələrdə seçki orqanlarının rəhbərliyi və ya bütün işçi heyəti dövlət aparatının bəzi səlahiyyətli şəxsləri ilə əvəzlənirlər. Məsələn, Belçikada aşağı ərazi seçki komissiyasının sədri birinci instansiyanın və ya beynəlxalq məhkəmənin hakimidir. Almaniyada hər bir səviyyənin seçki orqanları müvafiq seçki rəhbərini (bu şəxs bir qayda olaraq Daxili İşlər Nazirliyinin məmuru olur) və onun rəhbərliyi altında olan və çox vaxt seçicilər arasından onun tərəfindən təyin olunan seçki komissiyasını daxil edir. Meksikada Federal seçki komissiyasına daxili işlər üzrə dövlət katibi (yəni Nazir) rəhbərlik edir və müvafiq parlament palataları və ya onların Daimi Komissiyaları

tərəfindən təyin olunmuş bir senatordan, hər bir milli siyasi partiyadan olan, komissiyanın katibi sayılan dövlət notariusu, komissiya tərəfindən təyin olunmuş bir səlahiyyətlidən ibarət olur. ABŞ-da seçkilərin keçirilməsi üzrə mərkəzi ümummilli Federal Seçki komissiyası federal səviyyədə seçki kampaniyalarının maliyyələşdirilməsinə nəzarət edir. Bundan əlavə, o seçki qanunvericiliyinə riayət olunmasına nəzarət edir və seçki məsələləri üzrə ümummilli məlumat mərkəzi rolunu oynayır. Federal seçki komissiyası 6 nəfərdən ibarət olur ki, onlar da Prezident tərəfindən təyin olunur və senat tərəfindən 6 illik müddətə təsdiq edilir. Bununla yanaşı, 3 nəfər eyni partiya mənsubiyyətinə malik ola bilərlər. Hər iki ildən bir komissiyanın tərkibinin üçdə bir hissəsi təzələnir. Federal səviyyədə seçkilərlə əlaqədar ayrı-ayrı məsələlərə Ədliyyə Nazirliyi, Müdafiə Nazirliyi və Əhalini Siyahıyaalma Bürosu məşğul olur.

Xarici ölkələrin seçki praktikasında seçki orqanlarının quruluş və statusu nə qədər fərqli olsa da, seçki sistemində əhəmiyyəti onların malik olduqları geniş səlahiyyətlərlə müəyyən olunur:

-seçki siyahılarının hazırlanması;

-dövlət tərəfindən ayrılmış maliyyə vəsaitlərinin, pulsuz efir xidmətinin, namizəd və partiyalar arasında KİV-in nəşriyyat sahəsinin bölgüsü qaydası;

-səsvermənin təşkili;

-seçki nəticələrinin müəyyən olunması və s.

Ümumilikdə Azərbaycan Respublikasında seçki komissiyalarının səlahiyyətləri dünya təcrübəsinə uyğundur.

Ölkəmizdə seçki (referendum) komissiyaları vətəndaşların seçki hüququnun realizəsini və müdafiəsini təmin edir, eyni zamanda seçkilərin təşkilini və keçirilməsini həyata keçirir. Bu komissiyalar aşağıdakılardır:

-Azərbaycan Respublikasının Mərkəzi Seçki (referendum) Komissiyası;

-dairə seçki (referendum) komissiyaları;

-məntəqə seçki (referendum) komissiyaları.

Seçki komissiyalarının işinə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası rəhbərlik edir (seçki Məcəlləsi mad. 18).

Azərbaycan Respublikasında seçki orqanlarının fəaliyyətinin əsas prinsipləri ondan ibarətdir ki, seçki (referendum) komissiyaları seçkilərin (referendumun) hazırlanmasında və keçirilməsində dövlət hakimiyyəti orqanlarından, bələdiyyə qurumlarından, siyasi partiyalardan, qeyri-hökumət təşkilatlarından və başqa ictimai təşkilatlardan, digər hüquqi və fiziki şəxslərdən asılı deyildir. Bu prinsipə əsasən yuxarıda qeyd olunan orqanların və ya onların vəzifəli şəxslərinin seçki (referendum) komissiyalarının fəaliyyətinə müdaxilə etməsinə yol verilmir. Seçki (referendum) komissiyalarının işinə müdaxilə edən və ya təsir göstərən şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati və ya cinayət məsuliyyətinə cəlb edilirlər.

Səlahiyyətləri daxilində seçki (referendum) komissiyalarının qəbul etdiyi qərarlar və digər aktlar müvafiq ərazidə fəaliyyət göstərən dövlət orqanları, bələdiyyə qurumları, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, qeyri-hökumət təşkilatları, digər ictimai təşkilatlar, referendum üzrə təşviqat qrupları, vəzifəli şəxslər və seçicilər üçün məcburidir, eyni zamanda yuxarı seçki komissiyalarının qərarları aşağı seçki komissiyaları üçün məcburidir.

Seçki (referendum) komissiyaları səlahiyyətləri daxilində seçkilərin (referendumun) hazırlanmasının və keçirilməsinin gedişi, onların nəticələri haqqında məlumat

verilməsi, seçkilərin (referendumun) hazırlanmasında və keçirilməsində istifadə edilən məlumatların əldə edilməsi, toplanılması, tamamlanması, yenidən işlənilməsi, ötürülməsi və mühafizə edilməsi, habelə seçki (referendum) komissiyalarının fəaliyyətinin informasiyası təminatı məqsədi ilə (seçicilər haqqında məlumatların qorunması və yayılmaması şərti ilə) dövlət avtomatlaşdırılmış informasiya sistemindən istifadə etmək hüququna malikdirlər.

Seçkilərin (referendumun) təşkili və keçirilməsi zamanı seçki (referendum) komissiyaları və onların üzvləri, digər vəzifəli şəxslər öz fəaliyyətlərində aşağıdakı tələblərə əməl etməlidirlər:

- seçkilərin (referendumun) təşkili və keçirilməsində qanuna əsaslanmalı, qanunlar tam, bərabər və qərəzsiz tətbiq olunmalıdır;

- qanun çərçivəsində hər bir siyasi partiyaya, referendum üzrə təşviqat qrupuna, namizədə, seçiciyə və seçki (referendum) komissiyasının digər iştirakçılarına ədalətli və bərabər münasibət bəsləməlidirlər;

- namizədə, siyasi partiyalar, referendum üzrə təşviqat qruplarına, seçiciyə münasibətdə neytral və qərəzsiz olmalıdırlar;

- hər hansı bir namizədin, siyasi partiyanın, referendum üzrə təşviqat qrupunun dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi başa düşülə bilən hərəkətlərə yol verilməməlidir;

- seçkilərin (referendumun) təşkilatçısı kimi xidməti və şəxsi mənafelər arasında ziddiyyətlərə yol verməməlidirlər;

- seçki (referendum) kompaniyasında iştirak edənlərdən heç bir hədiyyə və digər bəxşişlər almamalıdırlar;

- qanunsuz, onların vəzifələri ilə ziddiyyət təşkil edən göstərişlər icra etməməlidirlər və s.

MÜŞAHİDƏÇİLƏR

Seçkilərin gedişatına nəzarəti müşahidəçilər həyata keçirir. Hüquqi ədəbiyyatda «seçkilərə nəzarət» müxtəlif cür izah edilir. Məlum olduğu kimi, zəngin təcrübəyə malik ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu seçki kampaniyasının hazırlığı, təşkili və keçirilməsi sahəsində müşahidənin aydın metodologiyasını təfsilatı ilə işləyib hazırlamışdır. DTİHB-nin seçkiləri müşahidə ilə bağlı bu təlimatında «uzunmüddətli müşahidə» ilə «qısamüddətli müşahidə» terminləri bir-birindən fərqləndirilir.

«Uzunmüddətli müşahidəçilər» bütün seçki mərhələlərində işləsələr də «qısamüddətli nəzarətçilər» yalnız səsvermə günündə iştirak edirlər.

Müşahidəçi qismində aktiv seçki hüququna malik olan Azərbaycan Respublikası vətəndaşları o cümlədən, Azərbaycan Respublikasının Seçki Qanunvericiliyində (maddə 44) göstərilən xarici vətəndaşlar çıxış edə bilərlər.

Seçkilərin gedişatına nəzarət, həm də etimad göstərilmiş şəxslər-seçkili vəzifələrə namizədlər vasitəsilə-seçki prosesi çərçivəsində bu subyektlər tərəfindən bir məşvərətçi səs hüququna malik üzvün seçki komissiyasına təyin olunması vasitəsilə, habelə xarici müşahidəçilər vasitəsilə beynəlxalq nəzarət yolu ilə həyata keçirilə bilər. Bu cür təşkilatlardan biri 1991-ci ildən bəri fəaliyyət göstərən Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosudur. DTİHB seçki prosesinə müşahidə üzrə fəaliyyəti inkişaf edən demokratiyalara yönəlmişdir. Belə ki, etalon adlandırılan demokratiyaları da problemsiz hesab etmək olmaz. DTİHB-nin əsas fəaliyyəti demokratik seçki keçirmək ənənəsinin təşəkkül tapmasından və gücləndirilməsindən ibarətdir və onlar mövcud resursları seçki prosesini optimallaşdıracaq yerdə xərcləyirlər.

1994-cü ilin dekabrında Budapeştdə keçirilən zirvə görüşü nəticəsində DTİHB-nin Mandatı daha müfəssəl məzmun aldı. Hazırda bu mandat seçki prosesinə uzunmüddətli müşahidələrə nail olunmasına yönəlib. Seçkiləri müşahidə bir günün işi deyil və yeni mandat da məhz bu faktın dərk edilməsinin nəticəsidir.

DTİHB belə hesab edir ki, seçki prosesinə bilavasitə seçki günü aparılan müşahidə əsasında hərtərəfli qiymət verilə bilməz. Buna görə də DTİHB hazırda öz fəaliyyətini genişləndirərək seçki prosesinin uzunmüddətli müşahidəsinə nail olunmasına yönəldib və bunu təkcə seçki günü, yaxud seçkilərdən əvvəlki, ya da dərhal sonrakı günlərdə qısamüddətli müşahidələrlə məhdudlaşdırmır.

Belə bir yanaşma üsulu uzunmüddətli müşahidəçinin seçki prosesinin müxtəlif dövrlərində ölkədə olmasını tələb edir. Seçki prosesinin gedişi haqqında nəticə çıxarmaq üçün müşahidəçi kütləvi informasiya vasitələrindən, seçki kampaniyası ərzində seçicilərin və namizədlərin qeydiyyatından tutmuş seçkilərin yekun mərhələsinə və səslərin hesablanmasına, nəticələrin elan olunmasına və seçilmiş namizədlərin vəzifələrinin icrasına başlanmasınadək seçki silsiləsinin müxtəlif dövrlərini nəzərə almalıdır.

DTİHB-nin müşahidəçilərdən ibarət nümayəndə heyətinin sahə vəzifələrini dörd dövrə bölmək olar: seçkiqabağı dövr, seçkilər günü, bilavasitə seçkilərdən sonrakı müşahidə dövrü və seçkilər başa çatdıqdan sonrakı uzadılmış dövr. Qısamüddətli müşahidəçilər yalnız seçkilər günü və bilavasitə seçkilərdən sonrakı müşahidə dövründə işlədikləri halda, uzunmüddətli müşahidəçilər seçkilərin bütün mərhələləri ərzində çalışırlar.

DTİHB-nin seçkiləri müşahidə ilə bağlı işləyib hazırladığı təlimatın strukturu uzunmüddətli və qısamüddətli müşahidənin məqsədi, fərqi və vəzifələrinə həsr olunub.

DTİHB-nin seçki prosesini uzunmüddətli müşahidə mandatına müvafiq olaraq, ATƏT-in iştirakı dövlətləri seçkilərə ən azı üç ay qalmış DTİHB-ni xəbərdar etməlidirlər. Əvvəlcədən belə bir xəbərdarlıq edilmədikdə, DTİHB müşahidə üçün dəvətə müsbət cavab vermək iqtidarında olmaya bilər. Seçki haqqında rəy müşahidə metodologiyası və sonrakı qənaətlər əsasında yaranır. Belə bir qənaətə gəlmək üçün DTİHB qəbul olunmuş beynəlxalq standartlara müvafiq olaraq dəvət edən hökumətdən müvafiq təminatlar gözləyir:

- lazımi sayda müşahidəçiləri qiymətləndirmək. Bu, dəvət edən hökumətlə müzakirə olunmur;
- adi, ayrı-seçkilikdən uzaq proses vasitəsilə akkreditə almaq;
- seçki prosesi barədə seçki orqanlarından informasiya almaq;
- bütün partiyaların nümayəndələri ilə görüşmək;
- bütün seçkilər ərzində və bilavasitə seçkilər günü ölkənin bütün regionlarına getməyə icazə almaq;
- bütün ölkə ərazisində seçki məntəqələrinə və səslərin hesablandığı yerlərə maneəsiz daxil olmaq imkanı əldə etmək;
- kütləvi bəyanat hüququna malik olmaq.

DTİHB-nin seçkiləri müşahidə ilə bağlı təminatında bütün müşahidəçilərin riayət etməli olduqları aşağıdakı ümumi qaydalar sadalanır:

- müşahidəçilər öz vəzifələrini yerinə yetirərkən qərəzsizliyə ciddi şəkildə əməl etməli və iqtidara, partiyalara, namizədlərə, yaxud seçkilər prosesində meydana çıxan mübahisəli məsələlərə münasibətdə əvvəlcədən yaranmış yanlış rəy və ya rəğbət bildirməməlidirlər;
- müşahidəçilər hökumətin, yaxud seçki komissiyasının verdiyi vəsiqəni özlərində saxlamalı və tələb

etdikdə özlərini marağı olan bütün hakimiyyət nümayəndələrinə təqdim etməlidirlər;

- müşahidəçilər hansısa partiyaya məxsus rəngin rəmzini, yaxud etiketini özləri ilə gəzdirməməlidirlər;

- müşahidəçilər yerli hakimiyyət orqanlarının diqqətini qaydalara riayət olunmamasına yönəldə bilərlər, amma onlar heç vaxt seçki hakimiyyətinin qərarlarına zidd olan təlimat verməməli və ya hərəkət etməməlidirlər;

- müşahidəçilər özlərinin bütün qənaətlərini yaxşı sənədləşdirilmiş, mötəbər və yoxlanıla bilən faktlara əsasən qurmalı, statistik icmal formasını olduqları seçki məntəqəsində doldurmalıdırlar;

- müşahidəçilər özlərinin müşahidələri barədə mətbuat nümayəndələrinə və ya marağı olan şəxslərə hər hansı fərdi, yaxud vaxtından əvvəl şərh verməkdən qaçmalıdırlar;

- lazım gəldikdə, müşahidəçilər seçkilərdən sonrakı brifinqlərdə telefonla, yaxud faks vasitəsilə iştirak etməlidirlər;

- müşahidəçilər dövlətin bütün qanunlarına və qaydalarına riayət etməlidirlər.

Bununla belə, bəzən elə vəziyyət yaranır ki, orada xarici müşahidəçilərin iştirakı faydasız qiymətləndirilir. Məsələn, alternativsiz seçkilər, iqtidarda olan hakimiyyətdən başqa deputatlığa əksər namizədlərə seçkilərdə iştirak etmək qadağan olunur, müxalifəti təmsil edən namizədlər praktiki olaraq məqsədəuyğun seçki kampaniyası aparmaq imkanından məhrumdurlar və s. Bu cür vəziyyətdə seçkilər açıq-aşkar dekorativ xarakter daşıyır və beynəlxalq təşkilatlar hətta dəvət alsalar belə, oraya müşahidəçi göndərməkdən imtina edə bilərlər.

Müəyyən ölkələrdə müşahidəçilər institutu tanınmır. Məsələn, Böyük Britaniyada, İtaliyada, Fransada o nəzərə alınmamışdır.

Azərbaycan azsaylı ölkələrdəndir ki, orada xarici müşahidəçilərin iştirakı qanunvericilik səviyyəsində öz əksini tapmışdır.

Azərbaycan Respublikasının seçki qanunvericiliyinə müvafiq olaraq seçki komissiyalarının üzvləri, müvafiq seçki dairəsi üzrə qeydə alınmış namizədlər və onların səlahiyyətli nümayəndələri, yaxud onların vəkil edilmiş şəxsləri, referendum üzrə təşviqat qruplarının vəkil edilmiş şəxsləri, siyasi partiyaların, siyasi partiya bloklarının vəkil edilmiş şəxsləri seçki komissiyasının iclasını, habelə səslərin hesablanmasını, məntəqə və dairə seçki komissiyalarında seçki bülletenləri, seçki siyahıları ilə, səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələri ilə, səsvermənin nəticələri və yekunları haqqında protokollarla müvafiq işin aparılmasını müşahidə etmək və onlarla tanış olmaq, dairə və seçki komissiyalarının qərarlarının və digər seçki sənədlərinin (seçki siyahıları, səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələri, seçki bülletenləri və imza vərəqələri istisna olmaqla) sürətlərini almaq, seçki komissiyalarında digər seçki hərəkətlərinin həyata keçirilməsini müşahidə etmək hüququna malikdirlər. Müvafiq seçki komissiyalarının iclaslarında iştirak etmək və adı çəkilən sənədlərlə tanış olmaq üçün yuxarıda göstərilən şəxslərin seçki komissiyalarından əlavə icazə almaları və ya müşahidəçi qismində qeydiyyatdan keçmələri tələb olunmur. Müvafiq seçki komissiyası onların seçki sənədləri ilə iş aparılan və ya səslər hesablanan yerə sərbəst daxil olmasını təmin edir (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, mad. 40).

Seçki komissiyalarının iclaslarında, seçki sənədləri ilə səslərin hesablanması ilə əlaqədar işin gedişində kütləvi informasiya vasitələri nümayəndələrinin də iştirak etmək hüququ vardır.

Müşahidəçilər, o cümlədən beynəlxalq müşahidəçilər, kütləvi informasiya vasitələrinin nümayəndələri bütün seçki komissiyalarında seçki hərəkətlərinin həyata keçirilməsini, səsvermənin nəticələrinin və seçkilərin (referendumun) yekunlarının müəyyənləşdirilməsini, səsvermənin nəticələri və seçkilərin (referendumun) yekunları (ümumi yekunlar) haqqında protokolların tərtib olunmasını, habelə səslərin hesablanmasını və yenidən hesablanmasını müşahidə edə bilərlər.

Yerli və beynəlxalq müşahidəçilər eyni hüquqlara malikdirlər və eyni vəzifələr daşıyırlar.

Beynəlxalq (xarici) müşahidəçilər seçki qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada və müvafiq dəvət əsasında Azərbaycan Respublikasına gələrkən Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçirlər. Azərbaycan Respublikasının vətəndaşları beynəlxalq müşahidəçi statusu ala bilməzlər.

Beynəlxalq müşahidəçinin səlahiyyət müddəti Mərkəzi Seçki Komissiyasında qeydə alındığı gündən başlayır və seçkilərin (referendumun) yekunlarının (ümumi yekunlarının) rəsmi dərc edildiyi gün tamam olur.

Beynəlxalq müşahidəçilər yerli müşahidəçilərlə eyni hüquqlara malikdirlər.

Bununla yanaş beynəlxalq müşahidəçilər səsvermə günündən sonra seçki qanunvericiliyi, seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı mətbuat konfransı keçirmək və kütləvi informasiya vasitələrinə müraciət etmək, seçicilərlə, namizədlərlə, qeydə alınmış namizədlərlə, seçki komissiyalarının üzvləri ilə, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələri ilə, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının vəkil

edilmiş şəxsləri ilə görüşmək hüquqları da var (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, mad. 44.9).

Beynəlxalq müşahidəçilər yerli müşahidəçilərlə eyni vəzifələri daşıyırlar. Bunlarla yanaşı beynəlxalq müşahidəçilərə seçki kampaniyasının gedişi, seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar olmayan fəaliyyətlə məşğul olmaq üçün öz statusundan istifadə etmək qadağan olunur.

Beynəlxalq müşahidəçi qanunları, beynəlxalq hüquq normalarını pozduğu hallarda Mərkəzi Seçki Komissiyası onun qeydiyyatını ləğv edə bilər.

Kütləvi informasiya vasitələri.

Seçicilərin məlumatlandırılması, seçki kampaniyasının işıqlandırılması, seçki qanunvericiliyinin izah olunması, seçkilərin müddəti və qaydasına dair məlumatların yayılması, namizəd və partiyalar haqqında məlumatların, habelə səsvermənin yekunu və seçki nəticələrinin elan olunması kütləvi informasiya vasitəsilə həyata keçirilir.

Seçicilərin məlumatlandırılması qərəzsiz və etibarlı olmalıdır, namizəd və partiyaların bərabərliyi prinsipi pozulmamalıdır.

Məlumatlandırmanın digər növü obyektivlik və qərəzsizlik prinsipləri üzərində qurulmalı olan ictimai rəyin nəticələrinin seçki kampaniyası ərzində dərc olunmasıdır. KİV təcrübələrində bir qayda olaraq, ictimai rəyə təsir göstərmək üçün seçkiqabağı sorğular keçirir.

Qeyd etmək lazımdır ki, sosioloji sorğular potensial seçicilərin gözündə elmilik, obyektivlik, qərəzsizlik kimi qəbul olunur. Bu cəhətdən, onların ictimai rəyin formalaşdırılmasında nüfuzu kifayət qədər böyük ola bilər ki, bu da son günlər seçkiqabağı mərhələdə kifayət qədər əhəmiyyətlidir.

KİV həm də namizədlər və siyasi partiyalar tərəfindən həyata keçirilən seçkiqabağı təbliğat üçün də vacib bir yoldur.

Seçkiqabağı təbliğat-seçiciləri seçkilərdə iştirak etməyə və müəyyən namizədlərin lehinə və ya əleyhinə səs verməyə yönəldən rabitə fəaliyyətidir.

Seçkiqabağı tabliğatın keçirilməsi üçün KİV-in efir vaxtı və çap yeri təmin etməsi həm pulsuz, həm də pullu əsasla həyata keçirilir. Amma istənilən halda, əgər milli qanunvericiliklə digər hallar nəzərdə tutulmazsa, KİV bütün namizəd və partiyalara bərabər şərait yaratmalıdır.

Kütləvi informasiya vasitələrinin nümayəndələri bütün seçki komissiyalarının iclaslarını işıqlandıra, səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokollar və qərarlar ilə tanış ola, habelə müvafiq seçki komissiyasının qərarının, protokolunun və onlara qoşulan digər sənədlərin surətlərinin bir nüsxəsini haqq ödənilmədən çıxara və ya ala, əlavə nüsxələri isə Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilən haqq ödənilməklə ala bilərlər.

Kütləvi informasiya vasitələri seçkilərlə bağlı ictimai rəy sorğusunun nəticələrini dərc etdikdə rəy sorğusu keçirən təşkilatlar onun keçirilməsi vaxtını, dəqiq ifadə edilmiş sualları, sorğuda iştirak edənlərin sayını bildirməlidir.

Səsvermə gününə 24 saat qalmış ictimai rəy sorğusu nəticələrinin, seçkilərin nəticələri barədə proqnozların kütləvi informasiya vasitələrində dərc edilməsinə yol verilmir (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, mad. 76.2).

DÖVLƏT

Seçki subyekti kimi dövlət seçki sistemi strukturunda xüsusi yer tutur. Bir tərəfdən, onun seçkilərdə iştirakı

seçicilər, namizədlər, siyasi partiyalarla müqayisədə ikinci yerdə durur. Digər tərəfdən, seçki sistemi siyasi sistemin tərkib hissəsidir və onda mərkəzi mövqeni dövlət institutu tutur. Bu nöqteyi-nəzərdən yanaşıldıqda da dövlət seçki sisteminin təşəkkül tapmasının, fəaliyyətinin və dəyişməsinin müəyyənedici faktoru olur.

Seçkilərin dekorativ yox, əsl demokratik olması üçün dövlət aşağıdakıları yerinə yetirməlidir:

- seçicilərin qərəzsiz qeydiyyatı prosedurunu müəyyən etmək;
- siyasi partiyaların təşəkkülünə və onların müstəqil fəaliyyətinə kömək etmək;
- seçkiləri qanunvericiliyə uyğun maliyyələşdirmək, habelə siyasi partiyalara maliyyə dəstəyi göstərmək;
- azad və ədalətli seçki kampaniyalarının keçirilməsinə şərait yaratmaq;
- KİV-də seçkilərin işıqlandırılmasına və bütün namizədlər, siyasi partiyalar üçün bu kanala maneəsiz çıxışa imkan verəcək tədbirlərin görülməsinə nail olmaq;
- vətəndaşların seçki prosedurları və qaydaları ilə tanış olması üçün şəraitin yaradılması;
- seçkilərin beynəlxalq hüquqi öhdəliklərə və milli qanunvericiliyə uyğun keçirilməsini təşkil edən müstəqil inzibati strukturların yaradılmasını təmin etmək.

Azərbaycanın siyasi sistemində dövlət və yerli özünüidarəetmə orqanları bir sıra elektoral fəaliyyətlərin yerinə yetirilməsi üçün kifayət qədər səlahiyyətlərlə təmin olunmuşdur. Eyni zamanda, onlar namizədlərin irəli sürülməsində, təbliğat tədbirlərinin həyata keçirilməsində və s. iştirak edə bilməzlər.

Qanun dövlət və bələdiyyə orqanlarına seçki komissiyalarının fəaliyyətinə müdaxilə etməyi qadağan etmişdir.

Bununla belə, Azərbaycan Respublikasının MSK-ı və digər seçki komissiyaları dövlət orqanlarıdırlar.

Dövlət orqanlarının üzərinə seçkilərin təyin olunması öhdəliyi qoyulmuşdur. Bu orqanlar həm də seçki komissiyalarını formalaşdırırlar.

Bələdiyyə qurumları öz ərazilərində seçicilərin qeydiyyatını aparır və buna dair məlumatları seçki komissiyasına ünvanlayırlar. Sonuncu ilə razılaşma əsasında bələdiyyə qurumları seçki məntəqələrinin formalaşdırılmasında iştirak edirlər.

Dövlət və bələdiyyə qurumları, habelə onların vəzifəli şəxsləri pulsuz əsasda binaların, nəqliyyatın, rabitə vasitələrinin, texniki avadanlıqların təmin olunması sahəsində seçki komissiyalarına kömək etməlidirlər.

Dövlət seçki komissiyalarının fəaliyyətini maliyyələşdirir. Bundan əlavə, dövlət namizəd və partiyaların seçki kampaniyalarının maliyyələşdirilməsində dolayısı ilə-pulsuz efir vaxtı verməkdə və ya KİV-də çap yeri təqdim etməkdə iştirak edir.

Dövlət hakimiyyəti və yerli idarəetmə orqanları qeydiyyatdan keçmiş namizədlərə və seçki birliklərinə seçicilərlə görüşlərin, ictimai debatların, mitinqlərin, yürüşlərin keçirilməsində köməklik göstərməli və bu tədbirlərin təhlükəsizliyini təmin etməlidir.

Dövlətin hüquq-mühafizə orqanları vətəndaşların seçki hüquqlarının və seçki qanunlarının pozulmasına qarşı tədbirlər görür.

Nəhayət, məhz dövlət müvafiq qanunlar qəbul etməklə və onlara düzəlişlər etməklə seçki sistemində islahatlar aparır.

Bütün seçki subyektlərinin hərəkətləri və onlar arasında yaranan münasibətlər, seçki sisteminin daha bir vacib komponenti olan seçki hüququ ilə tənzimlənir. Bu barədə biz növbəti paraqrafda söhbət açacağıq.

İndi isə seçki sistemini dar mənada təhlil edək. Elmi ədəbiyyatlarda dar mənada seçki sistemi seçkilərin nəticələrinin müəyyən edilməsi üsulu kimi izah olunur. Dar mənada seçki sistemi: səsvermə üsulunu (məsələn: kumulyativ, preferensial və s.), səsvermə növünü (namizədə, partiyaya), seçki dairəsinin növünü (birmandatlı, çoxmandatlı), əldə olunan səslərə görə mandatların müəyyənləşdirilməsi qaydalarını ehtiva edir. Bu kontekstdə konstitusiya hüququ elmində və demokratik ölkələrin seçki təcrübəsində müxtəlif seçki sistemləri tətbiq olunur. Professor Ziyafət Əsgərov yazır ki, seçki sisteminin növləri tarixi inkişaf prosesində seçkilərdə ortaya çıxan nöqsanların aradan qaldırılması üçün meydana gəlmişdir. Bu cür təkmilləşdirilmələrin aparılmasına başlıca səbəb seçki nəticələrində əhalinin iradəsinin tam əks oluna bilməməsidir. Başqa sözlə, əhalinin kimə səs verməsi bəzən seçkinin nəticələrini müəyyən edə bilmir. Azadlıqda qalan hissənin səsləri daim itir. Bunun qarşısını almaq, yəni səslərin itməməsi və onların seçkilərin nəticələrində maksimum dərəcədə obyektiv əks olunması üçün müxtəlif seçki sistemləri ortaya çıxmışdır. (38, s. 302).

Müasir demokratik dövlətlərin seçki qanunvericiliyində və təcrübəsində seçki sisteminin aşağıdakı növləri tətbiq olunur:

1. Majoritar seçki sistemi. Majoritar seçki sistemi (fransızca majorite-çoxluq deməkdir), ayrı-ayrı namizədlərə səs verməni nəzərdə tutur (müstəqil və ya partiyadan irəli sürülmüş). Bu sistem seçkilərin eyni mandatlı dairələr (bir dairə-bir deputat) və ya vahid dairə üzrə keçirilməsini nəzərdə tutur. Majoritar sistemin əsasında çoxluq prinsipi durur, yəni seçicilərin çoxunun səsini qazanmış şəxs qalib hesab edilir.

Konstitusiya hüququ elmində majoritar seçki sisteminin üç əsas növü fərqləndirilir: mütləq çoxluq, nisbi və ixtisaslı səs çoxluğu.

Mütləq səs çoxluqlu majoritar seçki sisteminə görə seçicilərin ümumi sayının yarıdan çoxunun səsini qazanan şəxs seçilir. Ayrı-ayrı xarici ölkələrin təcrübəsində bu səs çoxluğu üç üsulla müəyyən edilir: birinci üsul ölkə üzrə qeydə alınan seçicilərin ümumi sayının yarıdan çoxu, ikinci üsul səsvermədə iştirak edən seçicilərin ümumi sayının yarıdan çoxu, üçüncü üsul isə səsvermədə iştirak edən və etibarlı sayılan səslərin yarıdan çoxunu ehtiva edir.

Bəzi dövlətlərin seçki qanunvericiliyində mütləq majoritar seçki sisteminə görə seçkilərdə seçicilərin iştirakının minimum faizi müəyyənləşdirilir və bu faizdən az elektorat iştirak edərsə, seçki baş tutmamış hesab olunur.

Azərbaycan Respublikasında majoritar seçki sisteminin mütləq səs çoxluğu Prezident seçkilərində tətbiq olunur. Konstitusiya normalarına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir (maddə 101, II hissə).

Majoritar sistemin bu növünün üstünlüyü ondan ibarətdir ki, həqiqətən də seçicilərin əksəriyyətinin dəstəklədiyi namizəd seçilmiş sayılır.

Lakin bu sistem özünəməxsus çatışmazlığı da vardır: birincisi, seçicilərin iştirakının aşağı həddi müəyyən olunur; ikincisi, dairədən namizədliyini irəli sürmüş şəxslərin sayı nə qədər çoxdursa, onlardan hər hansı birinin səslərin əksəriyyətini qazanması ehtimalı aşağı olur. İkinci halda seçkilərin ikinci turu keçirilir (təkrar səsvermə). Bu seçkilərdə bir qayda olaraq, birinci turda ən çox səs toplamış iki namizəd iştirak edir.

Ümumilikdə isə seçki sisteminin bu növü bir sıra üstünlüklərə malikdir:

- parlamentdə çoxsaylı partiya fraksiyalarının yaranmasına şərait yaradır;

- böyük və nüfuzlu partiyaların qələbəsinə şərait yaradır, parlamentli idarəetmə formalarında parlament çoxluğuna əsaslanan dayanıqlı idarəetməyə imkan verir;

- deputatın öz seçiciləri ilə kifayət qədər sıx əlaqədə olmasını təmin edir.

Majortar seçki sisteminin mütləq səs çoxluğu növündən fərqli olaraq nisbi majoritar seçki sistemində namizəd qələbə qazanmaq üçün öz rəqiblərinin hər birinin ayrılıqda yığdığı səslərdən çox səs yığmalıdır (ABŞ, İngiltərə və s. dövlətlərdə istifadə olunur).

Majoritar sistemin bu növündə qələbə qazanmaq üçün lazım olan səslərin sayı bilavasitə dairə üzrə namizədliyini irəli sürmüş namizədlərin sayından asılı olur. Namizədlərin sayı nə qədər çox olarsa, seçilmək üçün bir o qədər az səs tələb olunur. Əgər namizədlərin sayı 10-dan çoxdursa, səslərin cəmi 10 faizini və ya daha azını qazanmış namizəd qalib hesab olunur. Müvafiq şəkildə onun rəqibləri seçicilərin 90 faizinin səsini qazanır. Buradan belə nəticəyə gəlmək olur ki, hər hansı namizəd seçicilərin mütləq azlığı tərəfindən seçilsə də, eyni zamanda onların nisbi çoxluğu ilə seçilmişdir. Nisbi majoritar seçki sisteminin çatışmazlığı da məhz bundadır. Üstünlüyü isə ondan ibarətdir ki, səslərin eyni çoxluğunu qazanmaq ehtimalı çox aşağıdır. Bundan başqa, bu sistemdə bir qayda olaraq seçkilərin baş tutmuş hesab edilməsi üçün lazım olan iştirak səviyyəsi müəyyən olunmur.

Majoritar nisbi çoxluq sistemi bir çox ölkələrdə: ABŞ-da, Böyük Britaniyada, Rusiyada, Azərbaycanda isə parlament və bələdiyyə seçkilərində tətbiq olunur.

İxtisaslaşdırılmış majoritar seçki sistemində qanun namizədin seçilmiş hesab edilməsi üçün səslərin müəyyən faizini nəzərdə tutur. Adətən, bu faiz mütləq əksəriyyətdən

yəni 50% + 1 səsdən çoxdur. Belə ki, Çilidə birinci turda deputat seçilmək üçün şəxs səslərin 2/3-ni toplamalıdır. İtaliyada 1993-cü il islahatlarına qədər müəyyən edilmişdir ki, senata namizəd birinci turda seçilmək üçün seçicilərin bütün verilmiş səslərinin 65%-ni almalıdır. Əslində belə əksəriyyəti qazanmaq çox çətindir, çünki səslər müxtəlif namizədlər arasında bölünür. Ona görə də İtaliyanın tarixi təcrübəsi göstərdi ki, ən yaxşı halda birinci turda 315 senatdan yeddisi, bəzən biri seçilirdi, bəzən isə heç kim seçilmirdi (41, s. 274-275).

Əgər ixtisaslaşdırılmış majoritar sistemdə birinci turda heç kim qələbə qazanmırsa, adətən bir-iki həftədən sonra ikinci tur keçirilir. Bu sistemdə ikinci turda seçicilərin yeni səsverməsinə digərləri ilə müqayisədə ən çox səs toplamış iki namizəd çıxarılır.

27 noyabr 1995-ci il tarixində qüvvəyə minmiş Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsində Azərbaycan Respublikası Prezidentinin səsvermədə iştirak edənlərin üçdə iki səs çoxluğu ilə seçilməsi nəzərdə tutulurdu. Lakin 24 noyabr 2002-ci il tarixində Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında Referendum Aktı ilə bu qayda mütləq majoritar sistemlə əvəz olunmuşdur. Hazırda Azərbaycan Respublikasında ixtisaslaşdırılmış majoritar seçki sistemi tətbiq olunmur.

Nadir hallarda majoritar sistemin qeyd etdiyimiz üç növü ilə yanaşı, əlavə iki növündən də istifadə olunur: 1) Vahid ötürülməyən səs; 2) Kumulyativ votum sistemi.

Vahid ötürülməyən səs sistemində proporsional sistemdə olduğu kimi çoxmandatlı dairələr yaradılır, lakin seçici bülletenində olan bu və ya digər partiya siyahısından yalnız bir namizədin lehinə səs verə bilər. Başqalarına nisbətən daha çox səs toplamış namizədlər seçilmiş sayılır, yəni majoritar seçki sisteminin nisbi səs çoxluğu tətbiq

olunur (seçicilərin sayı dairə üzrə mandatların sayına uyğun gəlir). Gördüyümüz kimi bu sistemdə proporsional və majoritar seçki sisteminin bəzi elementləri iştirak edir.

Kumulyativ (latınca "məcmu") votum zamanı hər bir seçki çoxmandatlı seçki dairəsi üzrə seçilməli olan səlahiyyətli şəxslərin (mandatların) sayına müvafiq səslərə malik olur. O, bütün səsləri bir namizədə və yaxud istədiyi müxtəlif namizədlərə verə billər (məs: Bavariya). Kumulyativ seçki sistemində nəticələr nisbi çoxluq prinsipi üzrə müəyyən edilir, yəni digərləri ilə müqayisədə daha çox səs toplamış namizədlər seçilmiş sayılır (həmin dairə üzrə deputat yerlərinin sayına müvafiq olaraq). Nəticələrin müəyyən edilməsi qaydalarına görə kumulyativ votum majoritar seçki sisteminin əlavə bir növü kimi qəbul edilir.

Ayrı-ayrı demokratik dövlətlərin seçki təcrübəsinin təhlili onu göstərir ki, majoritar seçki sistemi aşağıdakı üstünlüklərə malikdir:

1. Namizədlər və seçicillər arasında bilavasitə əlaqələrin yaranması və möhkəmlənməsinə imkan yaradır. Namizədlər qeydə alındığı dairələrdə mövcud vəziyyəti, seçicilərin maraqlarını daha yaxşı bilir, onlarla sıx təmasda olur. Seçicilər də öz növbəsində yaşadıqları dairədə seçkili orqanlara qeydə alınmış namizədlərini yaxından tanıyır və kimlərə etimad göstərəcəyini daha yaxşı bilir;

2. Xalq arasında böyük nüfuza malik olan, daha güclü siyasi birliklərin nümayəndələrinin seçilməsinə, nüfuzu olmayan, kiçik və orta səviyyəli partiyaların seçki orqanlarından uzaqlaşmasına gətirib çıxarır.

Majoritar seçki sistemi qaydasında seçilən nümayəndələr daha çox öz partiyalarından və onun liderlərindən deyil, seçicilərindən asılı olur.

3. Ölkədə iki-üç partiyalı sistemin yaranmasına səbəb olur. Burada yaxşı təşkil olunmuş, xalq arasında böyük nüfuza malik olan partiyalara seçkilərdə qalib gəlmək və

sabit, səmərəli fəaliyyət göstərən hökümət formalaşdırmaq imkanı yaradır.

4. Majoritar seçki sistemi bir və yaxud bir neçə şəxslərin timsalında tanınmış hər hansı bir partiyaya deyil, konkret namizədə seçki səslərinin verilməsinə imkan yaradır, seçkilərə deputatlığa namizədi daha yaxından tanımağa şərait yaradır. Deputat seçildiyi təqdirdə üzərinə götürdüyü tapşırıqları yerinə yetirmək və seçicilər qarşısında mənəvi məsuliyyəti artırır, deputata partiyanın göstərişlərini deyil, seçicilərin rəyini, iradəsini rəhbər tutaraq sərbəst və müstəqil şəkildə fəaliyyət göstərməsinə təminat verir.

Majoritar seçki sistemindən fərqli olaraq proporsional seçki sistemində deputat mandatları verilən səslərin miqdarına müvafiq olaraq seçkilərdə iştirak edən partiyalar arasında proporsional qaydada bölünür.

Proporsional seçki sistemi qaydasında nümayəndəli orqanlara keçirilən seçkilərdə namizədləri yalnız siyasi partiyalar irəli sürür (hər partiya öz namizədlərinin siyahısını təqdim edir), seçici isə müvafiq partiyanın bütöv siyahısına səs verir. Proporsional seçki sistemi çoxmandatlı və ümumdövlət seçki dairələrində tətbiq edilə bilər. Bu növ seçki sistemi Finlandiya, İsveçrə, İsveç, Norveç, Danimarka, Belçika, Latviya və s. ölkələrin seçki təcrübəsində tətbiq olunur.

Proporsional seçki sistemində partiyaların mandatlarının sayını müəyyən etmək üçün seçki metri (kvota) yəni, bir deputatın seçilməsi üçün zəruri olan səslərin ən az sayı müəyyən edilir.

Seçki kvotasının müəyyən edilməsi müxtəlif metodlarla həyata keçirilir. Kvotanın müəyyən edilməsinin birinci, ən sadə metodu ingilis hüquqşünas alimi T.Her tərəfindən əsaslandırılmışdır. Nəzəri ədəbiyyatlarda bu metoda təbii kvotanın müəyyənləşdirilməsi üsulu deyilir. İngilis alimi T.Herin metoduna görə seçki kvotasının

müəyyən edilməsi üçün verilən səslərin ümumi miqdarı mandatların sayına bölünür, bundan sonra hər bir partiyanın nə qədər mandat qazandığını müəyyən etmək üçün hər bir partiyanın ayrılıqda topladığı səslərin sayı kvotaya bölünür.

T.Her kvotasının təkmilləşdirilməsi nəticəsində ingilis hüquqşünası Henri Drupun və Bazel Universitetinin professoru H.Bişofun seçki kvotaları yarandı. Drup kvotası [x:(u+1)]+1 düsturu ilə, Bişof kvotası isə x:(u+1) düsturu ilə müəyyən olunur. Hegenbax-Bişof qaydasında müəyyən olunan seçki kvotası bəzən süni kvota adlanır. Bu sistemin üstün cəhəti ondadır ki, bölənə mandatların sayına bir və ya iki rəqəminin əlavə edilməsi nəticəsində kvota kiçilir və bir dəfəyə daha çox yer bölmək imkanı yaranır.

Proporsional seçki sisteminin başqa bir növü də Belçikanın Qent Universitetinin professoru Vinter Dont tərəfindən təklif edilmişdir. V.Dont sisteminə görə hər bir partiya siyahısına verilmiş səslər sadə ədədlərə bölünür (1,2,3,4 və s.). Daha sonra əldə olunmuş rəqəmlər çox rəqəmdən az rəqəmlərə doğru yerləşdirilir. Sıra sayı deputat mandatlarının sayına uyğun gələn rəqəmi özündə əks etdirən partiya bu mandata sahib olur.

Ayrı-ayrı ölkələrin seçki təcrübəsində siyasi partiyalar seçkilərdə birləşib blok yaradaraq iştirak edə bilərlər. Blok öz adından vahid siyahı təqdim edir. Bəzən bu sistemdə panaşaj tətbiq edilir. Panaşaj o deməkdir ki, seçici bir neçə ayrı-ayrı siyahıda olan şəxslərə səs verir və ya özü siyahıya yeni namizəd əlavə edir.

Nəzəri ədəbiyyatlarda proporsional seçki sisteminə yaxın olan yarıproporsional və preferensial seçki sistemlərindən bəhs olunur.

Yarıproporsional sistemdə vahid çoxmandatlı seçki dairəsi üzrə seçici partiya siyahısına deyil, hər hansı bir partiyadan olan bir namizədə səs verir. Ən çox səs toplayan namizəd seçilmiş sayılır. Yuxarıda (bəzi müəlliflər kimi) biz

də bu sistemi majoritar seçki sisteminin nisbi səs çoxluğuna aid etdik. Lakin, bu sistemi proporsional seçki sisteminin bir növü kimi xarakterizə etmək daha düzgün olardı. Belə ki, burada namizədləri siyasi partiyalar irəli sürür. Preferensial sistemdə isə seçici vahid çoxmandatlı seçki dairəsində, sadəcə siyahıya səs vermir, həm də siyahıda ən çox kimə üstünlük verdiyini qeyd edir. Sonradan səslər hesablanarkən ilk olaraq ən çox preferensiyaya (üstünlüyə) malik olan namizədlər arasında bölünür.

Bəzi xarici ölkələrin seçki təcrübəsində daha çox "qalığı qalan partiyalara əlavə yer" qaydasından başqa digər üsullara da rast gəlmək olar. Məsələn, daha çox səs toplamış partiyalara mükafat qaydasında əlavə yerlərin verilməsi, digər bir qaydaya görə isə seçkilərdə iştirak edən partiyaların qalıqları ümumləşdirilir və boş qalan yerlər üzrə yeni kvota müəyyən olunur.

Yuxarıda qeyd olundu ki, proporsional seçki sistemində panaşaj preferensial üsula görə seçici partiya siyahısında olan konkret namizədlərə səs verir və bu zaman namizədin yalnız partiya mənsubiyyətinə deyil, həmçinin şəxsi keyfiyyətlərini də nəzərə almaq imkanı əldə edir (Belçika və s.). Müəyyən ədəbiyyatlarda göstərilir ki, bu cür qaydalar proporsional seçki sisteminin çatışmayan cəhətlərini aradan qaldırmaq məqsədilə istifadə olunur. Belə ki, adətən proporsional seçki sistemində partiyaların namizədlərinin siyahısı qapalı olur və seçicilərin bu siyahıya təsir göstərmək imkanı faktiki olaraq yoxdur. Panaşaj və preferensional sistemdə isə seçici nəinki istədiyi partiya siyahısına səs verir, eyni zamanda partiya siyahısı daxilində istədiyi namizədə üstünlük verə bilər, onun yerini dəyişə bilər, panaşaj üsulunda hətta istədiyi yeni namizədi əlavə edə bilər.

Ümumilikdə proporsional seçki sisteminin aşağıdakı üstün cəhətlərini göstərmək olar:

1. Cəmiyyətdə fəaliyyət göstərən siyasi partiyaların xalq arasında hansı nüfuza malik olmasını müəyyən edir;

2. Dövlət və vətəndaş cəmiyyəti institutları arasında əks-əlaqə sistemini təmin edir;

3. Siyasi plüralizm, çoxpartiyalığın inkişafına təsir göstərir.

Etiraf etmək lazımdır ki, yuxarıda göstərilən proporsional seçki sisteminin müsbət cəhətləri majoritar sistem vasitəsilə də realizə oluna bilər. Lakin, seçki qanunvericiliyi və təcrübəsi göstərir ki, proporsional seçki sisteminin bir çox çatışmayan tərəfləri də mövcuddur ki, bu da müqayisədə majoritar sistemin daha çox xalq suverenliyinə uyğun olmasını xarakterizə edir. Bu sual Azərbaycanın yeni konstitusiya layihəsinin müzakirəsi dövründə müxtəlif mübahisələrə səbəb oldu və bu gün də müzakirə obyekti kimi qalmaqda davam edir. Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə qəbul olunan Konstitusiyasında hər iki sistemin tətbiqi nəzərdə tutulurdu. Lakin 24 avqust 2002-ci il referendumunda Azərbaycanda proporsional seçki sistemi ləğv olundu. Azərbaycan Respublikasının Konstitusiya qanunvericiliyində aparılan bu dəyişiklik xalqımızın maraqları və insan hüquqları nöqteyi-nəzərindən müsbət qiymətləndirilməlidir. Seçki sisteminin daimi təkmilləşdirilməsi zərurətini nəzərə alaraq, onun heç bir növünü ideallaşdırmadan hesab edirik ki, proporsional seçki sistemi ümumilikdə vətəndaşların seçki hüquqlarının məhdudlaşdırılması ilə səciyyələnir. Birincisi, proporsional seçki sistemində nümayəndəli orqanlara keçirilən seçkilərdə namizədləri yalnız siyasi partiyalar irəli sürür (hər partiya öz namizədlərinin siyahısını təqdim edir), seçici isə müvafiq partiyanın bütöv siyahısına səs verir. Bu da öz növbəsində heç bir siyasi partiyanın üzvü olmayan, lakin seçilmək arzusunda olan vətəndaşların beynəlxalq aktlarda və konstitusiyada təsbit olunan nümayəndəli orqanlara

seçilmək hüququnun məhdudlaşdırılması deməkdir. Görkəmli dövlət xadimi Heydər Əliyev ilk növbədə məhz insan hüquqlarının aliliyi prinsipini rəhbər götürərək Azərbaycan parlamentinə yalnız proporsional qaydada seçkilərin keçirilməsini məqsədəuyğun saymırdı.

Xarici ölkələrin və Azərbaycanın seçki təcrübəsi proporsional seçki sisteminin aşağıdakı çatışmayan cəhətlərini də ortaya çıxarır:

- siyasi spektrin bifurkasiyasına səbəb olur;
- ölkə miqyasında kifayət qədər dəstək qazanmayan, həmçinin, siyasi sistemdə rolu aşağı olan partiyalara seçkili orqanda təmsil olunmaq imkanı yaradır;
- burada seçicilər konkret namizədlərə yox, partiyalara səs verir ki, bu da deputatlarla seçicilər arasındakı əlaqələri zəiflədir və həm də deputatların öz partiyalarından asılılıqlarını artırır. Çünki öz rəhbərliyi adından hansısa namizədi növbəti seçkilərdə siyahıya daxil etmək və onun siyahıda yerini müəyyənləşdirmək partiyanın ixtiyarına verilir;
- əgər proporsional sistem parlamentli idarəetmə üsulu olan ölkələrdə istifadə edilirsə, onun fəaliyyəti dövründə hökumətin formalaşdırılmasında müəyyən çətinliklər ortaya çıxır, çünki adətən, heç bir partiya parlamentdə mütləq əksəriyyətə malik olmur. Ona görə də hökumət bəzən dayanıqsız olan çoxpartiyalılıq əsasında təşkil olunur.

Yuxarıda qeyd edilənlərdən başqa Heydər Əliyevin təbirincə desək, əgər partiyanın doğrudan da nüfuzu varsa, həmin partiya majoritar sistem üzrə hansı dairədən istəyir öz namizədini verib seçilə bilər.

§ 3. Seçki hüququ: anlayışı, mənbələri və prinsipləri

«Seçki sistemi» anlayışı kimi, «seçki hüququ» anlayışı da həm geniş, həm də dar mənada işlədilir.

Seçki hüququ geniş mənada ictimai münasibətləri tənzimləyən, dövlət və yerli özünüidarəetmə orqanlarının seçilməsi ilə bağlı olan konstitusiya hüquq normalarının sistemidir.

Məntiqi olaraq obyektiv seçki hüququ geniş mənada seçki sistemini tənzimləsə də yuxarıda qeyd edildiyi kimi, onu tam əhatə etmir.

Seçki hüququnun mənbələrinə, seçki hüquq normalarını müəyyən edən normativ hüquqi aktlar daxildir. Seçki qanunvericiliyi sistemində aparıcı yer Azərbaycan Respublikasının Konstitusiyasına aiddir. O, xalq hakimiyyətinin həyata keçirilməsinin formalarını və seçkilərin əsas parametrlərini müəyyən edir.

Elektoral sırasına aşağıdakı konstitusiya müddəaları aiddir:

- seçkilər və referendum xalq hakimiyyətinin bilavasitə demokratiya formasıdır (maddə 2);
- vətəndaşların dövlət hakimiyyəti orqanlarına seçmək və seçilmək hüququ bəyan edilir (maddə 56);
- vətəndaşların seçki hüquqlarının məhdudlaşdırılması parametrləri müəyyən olunur (mad. 56, 86, 100);
- Prezident və Milli Məclisə deputat seçkilərinin keçirilməsi məsələləri (maddələr, 83-87, 100-103);
- Bələdiyyə seçkilərinin prinsipləri təsbit olunur (maddə 142).

Seçki hüququnun mənbələri sistemində əsas yer Seçki Məcəlləsinə məxsusdur. Azərbaycanda müasir standartlara cavab verən seçki qanunvericiliyinin formalaşması və bütövlükdə seçki qanunvericiliyinin unifikasiyası məqsədilə 2003-cü ilin may ayında Seçki Məcəlləsi qəbul edilmişdir. Bu Məcəllə beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilmişdir. Avropa Şurasının Venesiya

Komissiyasının və ATƏT-in DTİHB-nin yekun rəyində bildirilmişdir ki, Azərbaycanın Respublikasının Seçki Məcəlləsinin seçkilərin və referendumun keçirilməsinə aid bəndlərində beynəlxalq meyarlara və ən yaxşı təcrübələrə uyğun olan hərtərəfli çərçivələr nəzərdə tutulur.

Azərbaycan Respublikasının Seçki Məcəlləsinin daxili strukturu: yeddi bölmə, otuz səkkiz fəsil və 246 maddədən ibarətdir. Birinci bölmə-"Əsas anlayışlar"; ikinci bölmə-"Ümumi müddəalar"; üçüncü bölmə-"Seçkilərin (referendumun) keçirilməsi"; dördüncü bölmə-"Referendum"; beşinci bölmə-"Milli Məclisə seçkilər"; altıncı bölmə-"Azərbaycan Respublikası Prezidentinin seçkiləri"; yeddinci bölmə-"Bələdiyyə seçkiləri adlanır".

Təbii ki, seçki qanunvericiliyi və seçki praktikası təkmilləşən prosesdir. Bu baxımdan dövlət başçısı tərəfindən Məcəlləyə təqdim edilmiş və Milli Məclis tərəfindən qəbul edilən əlavə və dəyişikliklər də mahiyyət baxımından seçki prosesinin azad, demokratik və şəffaf keçirilməsinə xidmət edir.

Məcəllədə edilmiş əlavə və dəyişikliklərdən biri şikayətlərə baxılma prosesinin dəqiqləşdirilməsidir. Hər bir şikayətə dair MSK əsaslandırılmış qərar qəbul etməli, şikayətin araşdırılması zamanı cinayət əməli ehtimal edilərsə, bu haqda prokurorluğa məlumat verilməlidir, prokurorluq orqanı isə həmin məlumata 3 gün müddətində baxmalıdır (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, mad. 112.4).

Seçkidə yerli və beynəlxalq müşahidə ilə bağlı olan düzəlişə görə müşahidə seçkiləri elan olunduğu gündən başlana bilər və bu, bütün mübahisələrə baxıldıqdan sonra seçkilərin yekunlarının rəsmi dərc edildiyi gün başa çatmış hesab olunur.

Mahiyyət üzrə edilən dəyişikliklərdən biri də MSK tərəfindən dairə seçki komissiyalarının katibliyində daimi

fəaliyyət göstərən və əmək haqqı alan işçilər və onların vəzifələrinin müəyyən edilməsidir. Bu düzəliş peşəkar seçki administrasiyasının formalaşması yönümündə mühüm addımdır. Həmçinin, nəzərdə tutulmuş düzəlişə görə Seçki Məcəlləsinin müvafiq maddələrində «minimum əmək haqqı» sözləri «şərti maliyyə vahidi» sözləri ilə əvəz edilmişdir. Seçki Məcəlləsində bir sıra redaktə xarakterli dəyişikliklər də aparılmışdır. Ümumilikdə, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əlavə və dəyişikliklər haqqında Qanun özündə bir çox mütərəqqi normaları əks etdirir və seçkilərin beynəlxalq meyarlara əsasən keçirilməsinə xidmət edir. Seçki Məcəlləsində öz əksini tapmış əlavə və düzəlişlər Avropa Şurası Venesiya Komissiyasının rəyində də müsbət qiymətləndirilib.

Seçki hüququ mənbələri sırasına seçkilərə bilavasitə aidiyyatı olmayan, lakin seçki prosesinin ayrı-ayrı cəhətlərini tənzimləyən bir sıra qanunlar da aid edilməlidir:

- «Siyasi partiyalar haqqında» qanun;
- «Sərbəst toplaşmaq azadlığı haqqında» qanun;
- Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi;
- Azərbaycan Respublikasının Cinayət Məcəlləsi.

Seçki qanunvericiliyi sisteminə, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Mərkəzi Seçki Komissiyasının qərarları da daxildir.

6 noyabr 2005-ci il tarixli parlament seçkilərinə hazırlıq dövründə və həmin seçkilərin keçirilməsi zamanı bu sahədə baş verə bilən qanun pozuntularının qarşısını almaq, Milli Məclisə seçkiləri Azərbaycan Respublikası Seçki Məcəlləsinin müddəalarına tam uyğun keçirmək, bu sahədə icra hakimiyyəti orqanlarının üzərlərinə düşən vəzifələrin lazımınca yerinə yetirilməsini təmin etmək məqsədilə, Azərbaycan Respublikasının Prezidenti 11 may 2005-ci il tarixdə «Azərbaycan Respublikasında seçki praktikasının

təkmilləşdirilməsinə dair» sərəncam imzalamışdır. Bu sərəncamda Azərbaycan rəhbərliyinin seçkilərin azad, şəffaf və ədalətli keçirilməsi ilə bağlı siyasi iradəsi açıq şəkildə bəyan edilmişdir. Qərara alınmışdır ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, digər dövlət məmurları tərəfindən seçki prosesinə qanunazidd olaraq müdaxilə edilərsə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq onlar məsuliyyətə cəlb ediləcəkdir. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılmışdır ki, öz səlahiyyətləri çərçivəsində seçkilərdən sonra siyasi mənsubiyyətə görə vətəndaşların təqib olunmasına yol verməsinlər və bu cür faktlar aşkar edilərsə, belə hərəkətlər etmiş şəxslərin məsuliyyətə cəlb olunmaları üçün zəruri tədbirlər görsünlər. Dövlət KİV-də, eləcə də özəl televiziya və radio yayımları şirkətlərində deputatlığa namizədlərin bərabər əsaslarla təbliğ olunmasının təmin edilməsi də prezident tövsiyələri sırasında yer almışdır. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına həvalə olunmuşdur ki, bütün deputatlığa namizədlərin kütləvi informasiya vasitələrindən bərabər qaydada istifadə etmələrini və onlar üçün bərabər təbliğ imkanlarının yaradılmasını təmin etsinlər.

Əlamətdar haldır ki, bu seçkilərdə ilk dəfə olaraq «exit-poll» rəsmən qəbul edilir və bu prosesin gedişinə qanunazidd müdaxilələrin olmaması üçün müvafiq göstərişlər verilir. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılıb ki, öz səlahiyyətləri çərçivəsində paralel səsvermənin nəticələrinin ədalətli və şəffaf şəkildə həyata keçirilməsinə dair zəruri tədbirlər görsünlər və müvafiq seçki rəsmilərinə yardım göstərsinlər. Vətəndaşların toplaşmaq azadlığının, seçki kampaniyası zamanı və seçkilərdən sonra ictimai sabitliyin təmin edilməsi məqsədi ilə dövlət orqanlarına lazımi tədbirlərin görülməsi ilə bağlı göstəriş də verilib.

Seçki praktikasının təkmilləşdirilməsi sahəsində görülən tədbirlərin səmərəliliyini artırmaq, vətəndaşların seçki hüquqlarının daha dolğun təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti 2005-ci il oktyabr ayının 25-də daha bir mühüm sərəncam imzalamışdır.

Bu sərəncamda «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikası qanunundan nizamnamə kapitalında xarici, fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan və ya başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatlarının respublikada keçirilən seçkilərin müşahidə etməsinə qadağanın götürülməsi məsələsinin müzakirəsi parlament qarşısında təklif edilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına tövsiyə edilmişdir ki, seçki vəsiqələrinin paylanması və seçici siyahılarının dəqiqləşdirilməsi ilə əlaqədar yaranmış problemləri nəzərə alaraq, seçicilərin səsvermə günü seçki bülletenlərini aldıqları zaman barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsi qaydalarına dair müvafiq təlimatı qısa müddətdə hazırlayıb MSK-nın müzakirəsinə çıxarsınlar. Bu hüquqi aktda digər mühüm tədbirlərin görülməsi də nəzərdə tutulmuşdur.

Seçki hüququnun mənbəyi kimi Mərkəzi Seçki Komissiyasının aşağıdakı normativ xarakterli aktlarını göstərmək olar:

- Azərbaycan Respublikası MSK-nın Reqlamenti;
- Səsvermə üçün qeydiyyatdan çıxma vəsiqəsinin verilməsi qaydası haqqında Təlimat;
- Dairə və məntəqə seçki komissiyalarının seçici siyahıları ilə iş qaydaları haqqında Təlimat;
- Dairə seçki komissiyasının üzvlüyünə namizədlərin irəli sürülməsi qaydaları haqqında Təlimat;
- MSK yanında nəzarət-təftiş xidməti haqqında Əsasnamə;

- Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikası Prezidenti seçkilərinin təşkili haqqında Əsasnamə;

- Siyasi partiyalar blokunun qeydə alınması, namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydası haqqında Təlimat;

- Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə müşahidə aparılması qaydaları haqqında Təlimat və s.

Seçkilərin tənzimlənməsində beynəlxalq aktlar xüsusi yer tutur. Seçki institutuna dair beynəlxalq sənədlər arasında Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt, İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına dair Protokol; Qadınların siyasi hüquqlarına dair Konvensiya; İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsinə dair Konvensiya və s. göstərmək olar. Bu beynəlxalq-hüquqi aktlar tərəf dövlətlər üçün ümumməcburi xarakter daşıyır.

Öz əhəmiyyət dairəsinə görə az olmayan, lakin tövsiyə xarakteri daşıyan seçkilərə aid beynəlxalq sənədlər isə aşağıdakılardır:

- Ümumdünya İnsan Hüquqları Bəyannaməsi;

- Seçki kampaniyalarının kütləvi informasiya vasitələrində işıqlandırılması haqqında Avropa Şurasının Nazirlər Komitəsinin üzv dövlətlərə Tövsiyələri;

- Venesiya Komissiyası tərəfindən özünün 51-ci Plenar Sessiyasında qəbul edilmiş Seçkilər üzrə Qaydaları;

- 52-ci Plenar Sessiyasında qəbul edilmiş İzahlı Hesabat;

- ATƏT-in DTİHB-nin seçkiləri müşahidə ilə bağlı Təlimat və s.

Seçki hüququ dar mənada-vətəndaşların seçkili hakimiyyət orqanlarının formalaşdırılmasında iştirak etməsi

hüququdur. Bu mənada aktiv və passiv seçki hüququ fərqləndirilir:

- aktiv seçki hüququ-vətəndaşların seçmək hüququdur;
- passiv seçki hüququ-vətəndaşların seçilmək hüququdur.

Seçkilərin demokratik və onların nəticələrinin legitim hesab olunması seçki hüququnun bir sıra prinsiplərinə riayət edilməsi ilə şərtlənir. Subyektiv seçki hüququ prinsipləri-seçkilərin elə tanınması və gerçəkləşdirilməsi şərtləridir ki, onlara riayət olunması nəticəsində bu seçkilər həqiqətən xalqın iradəsinin ifadəsinə çevrilir. Əksinə, bu prinsiplərin pozulması seçkilərin, hakimiyyətin və yerli özünüidarəetmə seçkili orqanlarının legitimliyini şübhə altına alır.

Bu prinsiplərlə daha ətraflı tanış olaq.

Ümumi seçki hüququ prinsipi

Ümumi seçki hüququ prinsipi həm seçicilər, həm də namizədlər üçün səmərəli, qərəzsiz və ayrı-seçkilikdən uzaq qeydiyyata buraxılışın təminatı kimi başa düşülür. Ümumilik prinsiplərinə görə, qanuna müvafiq yaş həddinə çatan və qeydiyyat şərtlərini yerinə yetirən vətəndaşlar seçkilərdə iştirak etmək hüququna malik olmalıdırlar.

Konstitusiya qanunvericiliyi ilə seçki hüquqları olan şəxslərin dairəsi **«senz»** adlanan şərtlərlə məhdudlaşır.

Bununla birgə, əgər senzlər Konstitusiyada əks olunmayıbsa və onların qanunla təyin edilməsi əsas Qanunda nəzərdə tutulmayıbsa, onda «senz»lər seçki və yaxud digər qanunla müəyyən edilə bilməzlər.

Konstitusiyaya və yaxud qanuna əsasən, seçki hüququna malik olan şəxs seçici adlanır. Əksər hallarda seçici yalnız yaşadığı ölkənin vətəndaşları ola bilər, lakin bəzi hallarda seçki hüququ müvafiq ərazidə yaşayan xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə də verilir. Əgər bu kateqoriyalı şəxslər həmin ölkədə müəyyən müddət ərzində yaşayır və vergi ödəyirlərsə, o halda, yerli

özünüidarəetmə orqanlarına seçkilərdə iştirak edə bilərlər (Macarıstan, İspaniya, Finlandiya və s.).

Azərbaycan Respublikasının Seçki qanunvericiliyinə əsasən, dövlətimizin ərazisində 5 ildən az olmayaraq daimi yaşayan apatridlər Prezident seçkiləri, Milli Məclisə seçkilər, bələdiyyə seçkiləri və ya referendum zamanı səsvermədə iştirak edə bilərlər. Azərbaycan Respublikasında müvafiq bələdiyyələrin ərazisində 5 ildən az olmayaraq yaşayan xarici ölkənin vətəndaşları bələdiyyə seçkiləri zamanı səsvermədə iştirak edə bilərlər (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, mad. 12.).

Seçici senzləri arasında ***yaş senzini*** göstərmək lazımdır. Yaş senzi şəxsin müəyyən yaş həddinə çatdıqdan sonra seçki hüquqlarına malik olması deməkdir. Əksər ölkələrdə səsvermədə iştirak, yəni aktiv seçki hüququ üçün seçki gününədək ən azı şəxsin 18 yaşına çatması tələb olunur. Bəzən daha yuxarı yaş həddi müəyyən edilir.

Hal-hazırda əksər ölkələrdə aktiv seçki hüququ senzi aşağı salınır ki, bu da adətən, vətəndaşların həddi-buluğa çatma yaşının azalması ilə əlaqədardır. Beynəlxalq təşkilatların dünya miqyasında keçirdikləri tədqiqatlar və 186 dövlətdən 150-nin məlumatına görə 109 dövlətdə aktiv seçki hüquqları 18 yaşından yuxarı (Yaponiyada-20, Mərakeşdə-20, Latviyada-21) şəxslərə verilir. Ancaq 4 ölkədə-Braziliya, Kuba, İran və Nikaraquada səsvermə hüququndan 16 yaşdan yuxarı vətəndaşlar istifadə edirlər.

Yaş senzi Böyük Britaniyada 1969-cu ildə Xalq nümayəndəliyi haqqında qanunla 21 yaşdan 18 yaşa qədər azaldılmışdır. ABŞ-da 1971-ci ildə Konstitusiyaya XXVI düzəliş edildikdən sonra düzəliş seçicilərin yaş senzi 18 yaşa qədər azalmışdır. İsveçrə qanunvericiliyi seçki hüquqlarını 18 yaşına çatmış, yaşadıqları kantonun qanunvericiliyi ilə bu hüquqdan məhrum edilməmiş İsveçrə vətəndaşlarına verir. Ancaq qeyd etmək lazımdır ki, demokratik İsveçrə bu yaş

senzini 1990-cı ilədək səsvermə üçün 20 yaş nəzərdə tutmuşdur. Yaş senzinin 20-dən 18-ə azaldılması konstitusiyaya müvafiq düzəliş verən 1990-cı ilin əvvəlindəki referendumda qəbul edilib. Seçki yaşının azalması seçici korpusunun genişlənməsinə səbəb olur.

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və Seçki Məcəlləsinin 14-cü maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, Milli Məclisə seçkilərin, Prezident seçkilərinin, bələdiyyələrə seçkilərin, referendumun keçirilməsi günü (həmin gün də daxil olmaqla) 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının seçmək, referendumda səs vermək, seçkilərin (referendumun) gedişini müşahidə etmək, seçkiqabağı (referendumqabağı) təşviqatda iştirak etmək, seçki Məcəlləsi ilə nəzərdə tutulmuş seçki hərəkətlərində və referendumun hazırlanması ilə bağlı hərəkətlərin həyata keçirilməsində iştirak etmək hüququ-***aktiv seçki hüququ vardır.***

Azərbaycan Respublikasında 5 ildən az olmayaraq daimi yaşayan, vətəndaşlığı olmayan şəxslər də müvafiq yaş həddinə çatdıqdan sonra Prezident seçkiləri, Milli Məclisə seçkilər, bələdiyyə seçkiləri və ya referendum zamanı səsvermədə iştirak edə bilərlər (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, maddələr 12.2 və 12.3).

Passiv seçki hüququ üçün, bir qayda olaraq, daha yüksək yaş həddi tələb edilir ki, bu da dövlət işlərinin həll edilməsində iştirak zamanı həyat təcrübəsinə malik olmaq zəruriyyəti ilə əlaqədardır. Məsələn, Fransa parlamentinin aşağı palatasının deputatı üçün 23 yaş, İtaliya parlamentinin yuxarı palatasının deputatı üçün 40 yaş, ABŞ prezidenti üçün 35 yaş tələb olunur. Azərbaycan Respublikasının Konstitusiyasında 26 sentyabr 2016-cı il tarixdə keçirilən referendumla passiv seçki hüququ üçün aşağıdakı yaş məhdudiyyətləri :

- Azərbaycan Respublikasının Prezidenti üçün 35 yaş (Azərbaycan Respublikasının Konstitusiyası, mad. 100);

- Azərbaycan Respublikasının Milli Məclisinin deputatları üçün 25 yaş (Azərbaycan Respublikasının Konstitusiyası, mad. 85) ləğv edilmişdir. Konstitusiyamızın intrpretasiyası əsasında belə bir nəticəyə gəlmək olar ki, 18 yaşına çatmış Azərbaycan Respublikasının vətəndaşları həmçinin passiv seçki hüququna malikdirlər. Zənnimizcə bu cür normanın konstitusiyamızda təsbit olunması daha məqsədəuyğun olardı.

Oturaqlıq senzi dövlət tərəfindən qoyulmuş tələbdir, buna əsasən seçki hüququ yalnız o vətəndaşa verilir ki, bu və yaxud digər ərazidə müəyyən olunmuş müddətdə yaşasın. Bu senz əksər xarici dövlətlərdə mövcuddur, ancaq onun təcrübədə istifadə olunması və mənası hər bir dövlətdə bəzi xüsusiyyətlərə malikdir. Məsələn, Fransada səsvermə üçün oturaqlıq senzi 6 aydır. Yeni Zenlandiyada-3 ay, Yaponiyada-3 ay.

İsveçrədə federal seçki gününə 10 gün qalmış vətəndaş, əgər onun daimi yaşayış yeri yoxdursa, qeydiyyatdan keçmək üçün anadan olduğu günü təsdiq edən sənədi təqdim etməlidir. Kantonal və kommunal səsvermələrdə oturaqlıq senzi adətən 3 aydır. Bəzi ölkələrdə oturaqlıq senzi detallaşdırılmır və ümumi tələb odur ki, vətəndaşın daimi yaşayış yeri olsun. Məsələn, İslandiyada seçicinin mütləq «yatmaq üçün yeri» olmalıdır. Belçikada-kommunada 6 aydan az olmayaraq daim yaşamaq tələb olunur.

Oturaqlıq senzini vətəndaşlıq senzi ilə qarışdırmaq olmaz. ***Vətəndaşlıq senzinə*** müvafiq olaraq yalnız həmin dövlətin müəyyən edilmiş müddətdən az olmayaraq, vətəndaşlığında olan şəxslər səsverməyə buraxılır. Məsələn, Argentinada vətəndaşlıq aldıqdan 3 il, Tunisdə isə 5 ildən sonra səs vermək hüququ verilir.

Azərbaycanda aktiv seçki hüququna münasibətdə oturaqlıq senzi tətbiq olunmur. Passiv seçki hüququna münasibətdə bu senz Azərbaycan Respublikası Prezidenti seçkiləri üçün nəzərdə tutulur: namizəd Azərbaycan ərazisində ən azı 10 il yaşamalıdır (Azərbaycan Respublikasının Konstitusiyası, mad. 100).

Passiv seçki hüququna dair oturaqlıq senzinə gəldikdə, onun olması vətəndaşlara dairənin problemləri ilə yaxından tanış olan və onları özününkü hesab edən nümayəndəni seçməyə imkan verir.

Konstitusion quruluşun başlanğıcında müəyyən edilən ***əmlak senzi*** ondan ibarətdir ki, seçiciyə müəyyən məbləğdə əmlak məxsus olmalı idi, yaxud o, müəyyən ölçüdə vergi ödəməli idi. Hesab edirdilər ki, lazımi əmlakı olmayan bir kəs dövlət idarəçiliyinə qoşula bilməz. Fəhlə sinfinin öz hüquqları uğrunda mübarizəsi və onların təhsil səviyyəsinin inkişafı XX əsrdə bu senzin hər yerdə ləğv olunmasına gətirib çıxartdı.

İlkin olaraq, seçki hüququna yalnız kişilər malik idi və qadınlara tamamilə şamil edilmirdi. ***Cins senzi*** seçki hüququnda uzun illər ən çox möhkəm və davamlı məhdudiyyətlərdən olmuşdur. Uzunmüddətli mübarizədən sonra irəliləyiş mümkün oldu. 1893-cü ildə bu senz Yeni Zelandiyada, sonralar, əsasən, II Dünya müharibəsindən sonra bir çox ölkələrdə ləğv olunur. 1920-ci ildə ABŞ-ın Konstitusiyasına edilən yeni düzəliş (XIX) qadınlara səs hüququ verir. Qadınlar bu hüququ İngiltərədə-1928, Fransada-1944, İtaliyada-1945, Yunanıstanda-1956-cı ildə əldə etdilər. Maraqlıdır ki, öz demokratik ənənəsi ilə məşhur olan İsveçrə uzun müddət Avropada yeganə dövlət idi ki, burada qadınlar seçki hüququna malik deyildilər. Yalnız, 1971-ci ilin fevralında milli referendumda Konstitusiyaya müvafiq düzəliş edilir. Əvvəl bir çox kantonlarda qadınlara seçki hüququ verilmişdi, ancaq milli səviyyədə belə cəhd

1959-cu ildə edilir və uğursuzluqla nəticələnir. Rədd cavabının səbəbləri bunlardır: qadınlar özləri bu cür hüququ istəmirlər (bu barədə dəfələrlə sorğu keçirilib), qadınların siyasətdən başı çıxmır və onların yeri evdir, onlar orduda xidmət etmirlər (hüququn verilməsinin əleyhdarları bunda bir əlaqə tapırdılar). Odur ki, belə hüququn verilməsi siyasi rəqibliyə şərait yaradır. Qeyd etmək maraqlıdır ki, qadınların seçki hüququ olmadığı kantonlar bu gün yeganədirlər ki, birbaşa demokratiyanın elementləri orada qüvvədədir.

Əxlaq senzi senzlər içərisində xüsusi qrup təşkil edir. İtaliyada qanun ilə müəyyən edilmiş əxlaq xarakterli xətalara görə (məsələn, müfləşməyə görə) seçki hüququndan 5 il müddətinə məhrum edilirlər. İslandiyada seçicilərdən tələb olunur ki, yaxşı həyat tərzi keçirsin, sərbəst öz əmlakını idarə etsin. Meksikada narkotik maddələrdən istifadə edənlər, Niderlandda isə valideyn hüquqlarından məhrum edilənlər səs vermirlər.

Adətən, ayrı-ayrı ölkələrin seçki təcrübəsində məhkəmənin qərarı ilə azadlıqdan məhrum edilmə növündə cəzasını çəkən şəxslər seçki hüquqlarından məhrum edilirlər.

Bu ölkələrin əsas qanunları xalqın suverenliyini, hər bir vətəndaşın dövlətin idarə olunmasında iştirakını tanımasına baxmayaraq, vətəndaşı azadlıqdan məhrum etmə yerlərində cəza çəkmək səbəbindən referendumlarda iştirak hüququndan, aktiv seçki hüququndan məhrum edirlər.

Diqqət edilməlidir ki, insan islah müəssisəsində cəzasını çəkdiyindən o müvəqqəti olaraq (cəza müddətində) vətəndaşlığını yox, ancaq bu müəssisələrin daxili qanunları ilə reqlamentləşdirilmiş yerdəyişmə azadlığını itirir. Və yaxud demək olar ki, məhkumlar cəza çəkdiyi yerdə azadlıqdan məhrum edilmirlər, yalnız onların azadlığını məhdudlaşdırırlar. Bir sözlə, hər hansı bir hüquq

pozuntusuna yol vermiş insanın islah məqsədilə ona bu cəzanı çəkdiyi müddətdə, onun bəzi konstitusion hüquqlarını məhdudlaşdıran cəza növü tətbiq edilir. Bu cəza növləri, əgər məhkumu bu ölkələrin Konstitusiyası ilə nəzərdə tutulmuş vətəndaşlıq hüququndan məhrum etmirsə, o halda, o, vətəndaş olaraq qalır və seçmək, səs vermək hüququna malikdir. Ona görə də məhkumun müvəqqəti olaraq həm yaşadığı, həm də cəza çəkdiyi əmək-islah müəssisəsinin yerləşdiyi ərazinin ərazi-seçki məntəqələrində səs verməkdə iştirak etmək hüququ var. O, mühüm dövlət məsələləri üzrə keçirilən referendumlarda (bütün referendumlarda) səs verməlidir, çünki azad olduqdan sonra, o da başqaları kimi, referendum yolu ilə qəbul edilmiş qanunlara əməl etməlidir.

Hesab edirik ki, yol verdiyi qanun pozuntularına görə vətəndaşı hüquq və azadlıqlarından məhrum etməklə, eyni zamanda onun siyasi hüquq və azadlıqlarını, seçki hüququnu, ümumxalq səsverməsində iştirak etmək, azad söz və s. hüququnu tam əlindən almaq olmaz.

Sevindirici haldır ki, keçmiş SSRİ dövlətlərindən Azərbaycan, Ukrayna və Litvanın konstitusiyalarına görə referendumlarda və seçkilərdə iştirak etmək hüququndan yalnız fəaliyyət qabiliyyətsizliyi məhkəmənin qərarı ilə müəyyən edilən şəxslər məhrum edilir. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinin II hissəsinə uyğun olaraq məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslər seçkilərdə, habelə referendumda iştirak etmək hüququndan-aktiv seçki hüququndan məhrumdurlar.

Ölkəmizdə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslər referendumda və Prezident seçkilərində seçmək-aktiv seçki hüququna malikdirlər.

Passiv seçki hüququna gəldikdə Azərbaycan Respublikasının Konstitusiyasına əsasən ağır cinayətlərə görə məhkum olunmuş şəxslər prezident, parlamentin deputatı seçilə bilməzlər (maddə 100, 85).

Ümumi seçki hüququ prinsipinə yekun olaraq qeyd etmək olar ki, özü-özlüyündə seçki senzlərinin mövcudluğu seçki hüququnu qeyri-demokratik qiymətləndirmir və yaş, vətəndaşlıq, oturaqlıq və s. senzlərini məqbul hesab etmək mümkündür. Lakin, əgər seçki hüququ əmlak xarakteri, cinsi, irqi, etnik və ya dini mənsubiyyətə, əqidəyə görə məhdudiyyətlər nəzərdə tutursa, bu onun demokratikliyini şübhə altına alır.

Passiv seçki hüququnda olan senzlərlə əlaqədar vəzifələrin uzlaşmaması anlayışı mövcuddur. Vəzifələrin uzlaşmaması eyni zamanda seçkili və başqa dövlət vəzifəsi tutmağın qadağan olunması deməkdir. O, dövlət vəzifəsi tutan şəxsin nümayəndəli təsisatlarla seçilməsi imkanını istisna etmir, lakin seçildiyi halda həmin şəxs dövlət vəzifəsindən və ya deputatlıqdan imtina etmək məsələsini həll etməlidir. Vəzifələrin uzlaşmaması, həmçinin icra və ya məhkəmə hakimiyyəti sistemində hər hansı dövlət vəzifəsini tutmağın da qadağan edilməsi deməkdir.

Vəzifələrin uzlaşmaması halları Azərbaycan Respublikası Konstitusiyasının 56, 85 və 100-cü maddələri və Seçki Məcəlləsi ilə müəyyən edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinin III hissəsinə uyğun olaraq aşağıdakı şəxslər tutduqları vəzifələrə görə Milli Məclisin deputatı, prezident, bələdiyyə üzvü ola bilməzlər:

- hərbi qulluqçular (hərbi qulluqda olduqları müddətdə);
- hakimlər (hakim olduqları müddətdə);
- dövlət qulluqçuları (dövlət qulluğunda olduqları müddətdə);

- din xadimləri (peşəkar dini fəaliyyətlə məşğul olduqları müddətdə).

Bərabərlik seçki hüququ prinsipi.

Bərabərlik prinsipi hər bir vətəndaşın başqa vətəndaşlarla bərabər səslər əsasında seçkilərdə iştirak etməsini ifadə edir. Bu prinsip həm aktiv, həm də passiv seçki hüququnun realizəsi zamanı təmin edilməlidir.

Aktiv seçki hüququna münasibətdə bərabərlik prinsipi bütün seçicilər üçün seçki nəticələrinə eyni təsir etmək imkanının təmin olunmasını nəzərdə tutur. Bu halda seçki hüququnun bərabərliyinə aşağıdakı üsullarla nail olmaq mümkündür:

- seçicinin bir seçki məntəqəsi üzrə siyahıya alınması;
- seçicilərin eyni səs sayı ilə təmin olunması;
- vahid təmsilçilik normasının təmin olunması, yəni hər bir deputat təqribən eyni sayda seçiciləri təmsil edir. Sonuncu norma əsasında seçki dairələri təyin olunur. Majoritar seçki sistemi zamanı müxtəlif seçki dairələrində seçicilərin sayı arasındakı fərq 10 faizdən çox olmamalıdır. Proporsional təmsilçilik sistemində (Azərbaycanda tətbiq olunmur) seçki məntəqələrindəki seçicilərin sayı müxtəlif ola bilər, lakin hər bir dairədən olan təmsilçilərin sayı seçicilərin sayına proporsional olmalıdır (DTİHB-nin Təlimatı).

Seçki qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının inzibati ərazi vahidinin hüdudları daxilində, bir qayda olaraq orta təmsilçilik normasından 5 faizdən, yolu çətin və ucqar yerlərdə isə 10 faizdən çox (az) olmamaq şərtilə onların ərazisində qeydə alınmış seçicilərin sayı seçki dairələrində təqribən bərabər olmalıdır (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, mad. 29.3.1).

Azərbaycan Respublikasının Seçki Məcəlləsi bərabər seçki hüququnu aşağıdakı kimi müəyyən edir:

Passiv seçki hüququna tətbiq olunduqda bərabərlik prinsipi bütün vətəndaşlara seçilmək hüquqlarının gerçəkləşdirilməsi üçün bərabər imkanların yaradılmasında ifadə edilir. Bunun üçün aşağıdakıların olması vacibdir:

- istənilən vətəndaş (passiv seçki hüququ nəzərə alınmaqla) seçilmək üçün başqaları ilə eyni seçilmək iddiasına malik olmalıdır;
- bütün namizədlər eyni hüquqlara malik olmalı və eyni öhdəlikləri daşımalıdırlar.

Birbaşa seçki hüququ

Birbaşa seçki hüququ prinsipi-vətəndaşların dövlət orqanlarına və yerli özünüidarəetmə orqanlarına öz nümayəndələrini bilavasitə seçməsidir. Adətən parlamentin aşağı palatasının və ya birpalatalı parlamentin deputatları, yerli özünüidarəetmə orqanları birbaşa seçkilərlə seçilir. Lakin bu halda da istisna vardır. Bəzi ölkələrdə (Banqladeş, Pakistan) aşağı palataya müəyyən sayda qadın deputatları parlamentin özü tərəfindən seçilir(41,s.246).

Bununla yanaşı, bir sıra ölkələrdə dövlətin bir çox orqanları və vəzifəli şəxsləri birbaşa olmayan (dolayı) seçkilər yolu ilə seçilir. ABŞ prezidentinin seçilməsi buna misal ola bilər. Burada seçicilər bu və ya digər partiyadan olan seçkiçilərə səs verirlər, sonra isə həmin seçkiçilər öz ştatlarının paytaxtlarında toplaşaraq qabaqcadan bu və ya digər partiyadan prezidentliyə namizəd elan edilmiş şəxsə səs verirlər. Seçicilərin səsləri ABŞ-ın paytaxtı Vaşinqtonda toplanır. Oxşar qayda Argentinada da tətbiq edilir. Dolayı yolu ilə, həmçinin, Hindistanda parlamentin yuxarı palatası, Almaniyada, Yunanıstanda prezident parlament tərəfindən seçilir.

Azərbaycan Respublikasında birbaşa seçki hüququ prinsipi tətbiq olunur. Seçki Məcəlləsi bunu belə müəyyən edir:

Vətəndaşlar seçkilərdə namizədin lehinə, referenduma çıxarılan məsələnin lehinə və ya əleyhinə şəxsən səs verirlər.

Başqa şəxslərin yerinə səs vermək qadağandır (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, mad. 5.)

Gizli səsvermə

Gizli səsvermə zamanı seçicilərin öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir. Bu prinsip seçicilərin xüsusi təchiz olunmuş və əlahiddə kabinalarda yerləşərək bülleteni müstəqil doldurmalı olduqlarını bildirir. Bu zaman kənar şəxslərin səsvermə proseduruna, o cümlədən, doldurulmuş bülletenlərin seçki qutularına salınması prosesinə qarışması imkanı istisna olmalıdır. Vətəndaşların iradələrini ifadə etmələri elə keçməlidir ki, sonra bu və ya digər bülletenin seçicilərdən məhz kimin doldurduğunu müəyyən etmək mümkün olmasın. Bütöv qruplarla, yaxud xüsusi kabinədən kənarda səsvermə-gizli səsvermə prinsipinə ziddir.

Gizli səsvermənin zərurəti bəlli olduğuna baxmayaraq, onun tarixi xeyli qısadır.

Afina demokratiyası zamanında (birbaşa demokratiya) plebs (xalq) özünün razılığını, yaxud narazılığını əllərini qaldırmaqla bildirirdi. Bu gün İsveçrənin bəzi kantonlarında və yarımkantonlarında bu qədim ənənələr hələ də saxlanılır.

Fransada nəzəri cəhətdən gizli səsvermə 1789-cu ildə qanuna salınıb, ancaq praktiki olaraq bu 1871-ci ildən həyata keçirilir. Böyük Britaniyada isə 1872-ci ildən etibarən gizli səsvermə prosedurundan istifadə edilir.

Gizli səsvermə onunla təmin olunur ki, seçici səsvermə bülletenini doldurarkən, yaxud səsvermə maşını ilə manipulyasiya edərkən, tək, hamının nəzərindən kənar bir kabinədə olmalıdır.

Sərbəst səsvermə

Sərbəst səsvermə prinsipi o deməkdir ki, seçici referendumda, səsvermə prosesində hansı səviyyədə, nə cür iştirak etməsini özü həll edir. Bu prinsip əksər ölkələr üçün xarakterikdir. 1985-ci il ümumi seçki rejimi haqqında İspaniyanın orqanik qanununun 5-ci maddəsində bu prinsip belə izah olunur: heç kim heç cür seçki hüquqlarının həyata keçirilməsinə və yaxud səsvermə sirrinin açıqlanmasına məcbur edilə bilməz.

Seçicilərin seçkilərdə iştirak etməməsi absenteizm adlandırılır. Onun səviyyəsinə müəyyən səbəblər, ən çox da iqtisadi və siyasi şərait təsir edir. Birinci halda, seçici səsverməyə aşağıdakı səbəblərdən getmir: xəstəlik, ezamiyyət, seçki ərazisindən kənara çıxması, yaxud da seçki onu sadəcə olaraq maraqlandırmır. İkinci halda isə seçici, referendumun predmeti və formulası onu qane etmədiyindən, özünün səsverməməsindən bir etiraz aktı kimi istifadə edir, yaxud da o hesab edir ki, yaranmış şəraitdə səsvermə düzgün ola bilməz.

Absenteizmin yüksək səviyyəsi ona gətirib çıxarır ki, qəbul edilən qanun layihəsinin, yaxud başqa qərarların az sayda seçici ilə ümumxalq səsvermə yolu ilə qəbul edilməsi, qəbul edilən qərarların lagitimliyini şübhə altına alır, yaxud əgər qanun referendumun baş tutması üçün mütləq minimum seçici iştirakını müəyyən edirsə, səsvermə prosesinin nəticəsiz qalmasına gətirib çıxarır.

Bu gün əksər ölkələrin əsas qanunları, hər bir insanın və vətəndaşın hüquq və azadlıqlarını beynəlxalq hüquq normaları ilə ümumi qəbul edilmiş prinsiplərə əsasən tanıyır, onlara təminat verir və hər bir vətəndaşın seçki kampaniyasında və referendumlarda iştirak edib-etməmək hüququ var. Lakin yada salmaq lazımdır ki, hər bir vətəndaş hüquq və azadlıqlarını əldə etməklə, cəmiyyətə və dövlətə qarşı vəzifələri də öz üzərinə götürür. Əgər hakimiyyət bütün xalqa, vətəndaşlara məxsusdursa, onda onlar da

ölkədə baş verən hadisələrə, dövlətin taleyinə laqeyd qalmamalıdırlar. Biz yuxarıda sübut etməyə çalışırdıq ki, müttəhim və məhbuslara da səsvermə imkanı verilməlidir, burada isə tamamilə sağlam, seçki hüquqlarından məhrum edilməyən insanlar öz siyasi düşüncələrinə görə, yaxud öz fraksiyalarının xeyrinə seçkiləri, yaxud referendumu baykot edirlər. Bu zaman isə, yuxarıda qeyd etdiyimiz kimi, xalq öz əsas qanunu üçün səs verir.

Əlbəttə, söhbət burada ondan getmir ki, vətəndaş layihənin lehinə, yaxud əleyhinə səs versin. Hər bir absenteizm xalqın birliyinə, onun suverenliyinə xələl gətirir.

Siyasi laqeyd-absenteistlərin səs vermək istəyən və nə cür səs verməyi bilən hər hansı bir çoxluğa qoşulmasını daha düzgün hesab etmək olardı. Seçkilərdə və referendumlarda siyasi motivlərə görə iştirak etməməyə gəldikdə isə, hər halda səsvermədə iştirak etmək daha düzgün olardı. Lehinə, yaxud əleyhinə səs vermək isə vətəndaşın öz hüququdur.

Bir sıra ölkələrdə mütləq rəy nəzərdə tutulub, yəni seçicilərin səsverməsinə vətəndaşlıq borcu kimi baxılır. Yunanıstanda, Türkiyədə, İsveçrədə və s. ölkələrdə seçkilərdə iştirak etməyən seçicilər hüquqi məsuliyyətə cəlb olunurlar.

Belçikada səsvermədə iştirak etməməsinə görə, birinci dəfə töhmət elan edilir və yaxud az miqdarda cərimə edilir, ikinci dəfə, əgər birincidən sonra 6 ildən çox keçməyibsə, böyük cərimə, əgər birinci dəfədən 6-10 ilədək müddət keçibsə, seçicinin soyadını, xüsusi siyahıda yaşadığı yer üzrə kommunanın inzibati binası qabağından asırlar. Argentinada seçkilərə gəlməyən seçici nəinki cərimə olunur, hətta 3 il ərzində dövlət vəzifələrini tutmaq imkanından məhrum edilir.

Mütləq rəy təyin olunan yerdə seçicilərin səsvermədə iştirakı 90 faizə çatır və ondan da artıq olur. Lakin

səsvermənin bu yollarla təmin olunan legitimliyi hesab edirik ki, bir qədər süni görünür.

§ 4. Seçki prosesinin anlayışı və mərhələləri.

Seçki institutunun sistemli araşdırılması onun yalnız struktur miqyasda nəzərdən keçirilməsi ilə məhdudlaşmır. Seçki sisteminə dair tam təsəvvürə malik olmaq üçün onun necə fəaliyyət göstərməsi və dəyişməsini bilmək lazımdır. Seçki institutunun sistemli analizinin bu cəhəti «seçki prosesi» anlayışında öz əksini tapır.

Hər bir hüquqi proses kimi, seçki prosesi həm müəyyən fəaliyyətdir, həm də bu fəaliyyəti tənzimləyən hüquqi normalar sistemidir.

Onu da qeyd etmək lazımdır ki, elmi ədəbiyyatda seçki prosesinin mərhələləri barədə vahid fikir yoxdur.

B.B. Maklakovun mövqeyinə görə seçki prosesinin mərhələləri aşağıdakı kimidir:

1) seçkilərin təyin edilməsi;
2) seçki dairələrinin təşkili;
3) seçki məntəqələrinin təşkili;
4) seçki orqanlarının yaradılması;
5) seçicilərin qeydiyyatı;
6) namizədlərin irəli sürülməsi;
7) təşviqat kampaniyası;
8) səsvermə;
9) səslərin hesablanması və səsvermənin yekunlarının müəyyən olunması;
10) ikinci tur olarsa, yeni seçkilər;
11) seçkilərin nəticələrinin müəyyən edilməsi və dərc olunması(90,s.339).

Professor Z.Əsgərov seçki prosesini aşağıdakı mərhələlərə bölür:

1) seçkilərin təyin edilməsi;

2) seçki dairələrin və məntəqələrinin yaradılması;
3) seçki orqanlarının yaradılması;
4) seçicilərin qeydiyyatı;
5) namizədlərin irəli sürülməsi;
6) təbliğat kampaniyası;
7) səsvermə;
8) səslərin hesablanması və nəticələrin müəyyən olunması;
9) ikinci tur;
10) seçkilərin nəticələrinin elan edilməsi(38, s.310-311).

Fikrimizcə, seçki qanunvericiliyində seçki prosesinin mərhələləri tam əhatə olunur və onun hüquq ədəbiyyatında aşağıdakı formada qeyd edilməsi məqsədəmüvafiq olardı.

1) seçkilərin (referendumların) təyin edilməsi;
2) seçki (referendum) orqanlarının və seçki dairələrinin, məntəqələrinin yaradılması;
3) seçici (referendumda iştirak etmək hüququ olan vətəndaşların) siyahılarının hazırlanması;
4) seçkilər zamanı namizədlərin irəli sürülməsi və qeydiyyatı;
5) seçkiqabağı (referendumqabağı) təşviqat;
6) səsvermənin təşkili.

Seçkilərin təyin olunması

Seçkilərin təyin olunması proseduru çoxlarına sadə görünə bilər. Lakin seçkilərin vacib prinsiplərindən olan məcburililik və dövrililik məhz bu mərhələdə gerçəkləşdirilir. Seçkilərin tarixinin təyin edilməsi rəsmi seçki kampaniyasının başlanması deməkdir. Seçkilərin təyin olunması namizəd və siyasi partiyalara tam miqyaslı seçki kampaniyasını həyata keçirməyə imkan verəcək müddətdə

olmalıdır. Seçkilərin təyin olunması prosedurunun mahiyyəti-səsvermə gününün təyin olunmasıdır. Həmin gün dəyişilməzdir.

Seçkilərin tarixi konstitusiya ilə müəyyən edilə bilər. Məsələn, Kosta-Rikada prezident seçkiləri dörd ildə bir dəfə fevralın birinci bazar günü keçirilir. Müddətlər başqa olsa da, analoji qayda Latviyada, Meksikada ABŞ-da da müəyyən edilmişdir. Konstitusiyada seçkilərin tarixi deyil, şərtləri müəyyən edilə bilər: seçkilərin həmin orqanın və ya vəzifəli şəxsin səlahiyyət müddəti bitdikdən (Bolqarıstan, Polşa, Çexiya) və nümayəndəli orqan buraxıldıqdan sonra (Böyük Britaniyada 20 gün sonra) keçirilir. Lakin bu şərtlər olduqda da seçkilərin dəqiq tarixi barədə müvafiq akt qəbul olunur. Seçkilərin tarixi ya bir orqan (Belorusda prezident, Kosta-Rikada Ali Seçki Tribunalı, İspaniyada kral) tərəfindən, ya da hansı orqanın və ya vəzifəli şəxsin seçiləcəyindən asılı olaraq müxtəlif orqanlar tərəfindən təyin edilir. Bolqarıstanda prezident seçkiləri parlament, parlament seçkiləri isə prezident tərəfindən təyin olunur(41,s.258-259).

Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin II hissəsinə müvafiq olaraq «Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir». Konstitusiyanın 109-cu maddəsinin I bəndinə görə «Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri təyin edir». Prezident seçkilərinin keçirilməsi günü Mərkəzi Seçki Komissiyasının qərarı ilə elan edilir. (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, mad. 178.2). Seçki Məcəlləsinin 213.1-ci maddəsinə müvafiq olaraq «Bələdiyyə seçkilərini Mərkəzi Seçki Komissiyası təyin edir».

Seçki (referendum) orqanlarının və seçki dairələrinin, məntəqələrinin yaradılması.

Seçki orqanlarının yaradılması seçkilərin təmin edilməsinin ən vacib təşkilati-hüquqi elementlərindən biridir. Azərbaycan Respublikasında seçki orqanları sisteminin önündə Mərkəzi Seçki Komissiyası durur. Seçki Məcəlləsinin 24-cü maddəsinə görə, Mərkəzi Seçki Komissiyası 18 üzvdən ibarətdir. Mərkəzi Seçki Komissiyasının üzvləri Milli Məclis tərəfindən seçilir. Mərkəzi Seçki Komissiyasının 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) və onların namizədliklərini təqdim edən deputatları, 6 üzvü deputatları Milli Məclisdə azlıq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyaları təmsil edir.

Mərkəzi Seçki Komissiyası hər 5 ildən bir 125 seçki (referendum) dairəsi yaradır. Dairə seçki komissiyaları bilavasitə seçkilərdən (referendumdan) əvvəl yaradılarsa, onlar səsvermə gününə azı 50 gün qalmış təşkil edilməlidir. Dairə seçki komissiyası 9 üzvdən ibarətdir. Dairə seçki komissiyasının üzvləri Mərkəzi Seçki Komissiyası tərəfindən təyin edilirlər.

Məntəqə seçki komissiyaları müvafiq dairə seçki komissiyaları tərəfindən 6 üzvdən ibarət tərkibdə təşkil edilir.

Məntəqə seçki komissiyaları bilavasitə seçkilərdən (referendumdan) əvvəl yaradılarsa, onlar səsvermə gününə azı 40 gün qalmış təşkil edilməlidir. Məntəqə seçki komissiyaları 6 üzvdən ibarət tərkibdə təşkil edilir.

Seçki komissiyalarının bütün növlərinin təşkil edilməsində Seçki Məcəlləsində əks olunmuş qaydalara riayət olunmalıdır.

Seçki dairəsi bir və ya bir neçə namizədin seçilməsi üçün müəyyən ərazinin və ya kollektivin seçicilərini birləşdirir.

Dünya təcrübəsində təmsilçiliyin xarakterindən asılı olaraq ərazi və ya istehsal seçki dairələri yaradılır. Birincisi, seçiciləri yaşayış yeri, ikincisi isə iş yeri üzrə birləşdirir. İstehsal seçki dairələri hazırda Çində mövcuddur. Lakin istehsal seçki dairələri həmişə ölkə və ya inzibati-ərazi vahidi miqyasında ərazi seçki dairələri ilə yanaşı olaraq yaradılır. Bəzi ölkələrdə dairələr etnik əlamətə görə yaradılır (Sinqapur, Fici)(41,s.259).

Seçki dairələrinin 3 əsas növü var:

- bir namizədin seçildiyi təkmandatlı dairə;
- bir neçə namizədin seçildiyi çoxmandatlı dairə;
- seçkilərin keçirildiyi bütün ərazini əhatə edən vahid dairə.

Azərbaycan Respublikasında seçkilərin (referendumun) keçirilməsi üçün müvafiq ərazi vahidlərində daimi yaşayan və qeydə alınmış seçicilərin sayı haqqında müvafiq icra hakimiyyəti orqanlarının bələdiyyə qurumları ilə birgə Mərkəzi Seçki Komissiyasına təqdim etdikləri məlumatlar əsasında həmin ərazi vahidlərində Mərkəzi Seçki Komissiyası hər 5 ildən bir 125 seçki (referendum) dairəsi yaradır. Seçki dairələri, bir qayda olaraq, seçicilərin orta təmsilçilik norması əsasında yaradılır. Seçicilərin orta təmsilçilik norması qeydə alınmış seçicilərin ümumi sayının 125-ə bölünməsi yolu ilə müəyyənləşdirilir. Milli Məclis deputatlarının seçkiləri zamanı seçki dairələri-birmandatlı seçki dairələri, referendum, prezident seçkiləri, bələdiyyə üzvlərinin seçkiləri zamanı isə seçki əraziləri hesab edilirlər.

Seçki dairələri aşağıdakı tələblərə riayət edilməklə yaradılır:

- Azərbaycan Respublikasının inzibati ərazi vahidinin hüdudları daxilində, bir qayda olaraq, orta təmsilçilik

normasından 5 faizdən, yolu çətin və ucqar yerlərdə isə 10 faizdən çox (az) olmamaq şərti ilə onların ərazisində qeydə alınmış seçicilərin sayı seçki dairələrində təqribən bərabər olmalıdır;

- aralarında sərhəd olmayan inzibati ərazi vahidləri üzrə seçki dairəsinin yaradılmasına yol verilmir;

- seçicilərin bu və ya digər qrupunun çoxluq təşkil etməsi naminə məqsədli şəkildə seçki dairələrinin sərhədlərinin müəyyən edilməsinə (dəyişdirilməsinə) yol verilmir.

Dairə seçki komissiyası 9 üzvdən ibarətdir. Dairə seçki komissiyasının üzvləri Mərkəzi Seçki Komissiyası tərəfindən təyin edilirlər.

Dairə seçki komissiyasının 3 üzvünün namizədliyi deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanın Mərkəzi Seçki Komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən, 3 üzvünün namizədliyi deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları Mərkəzi Seçki Komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən, 3 üzvünün namizədliyi isə heç bir siyasi partiyaya mənsub olmayan Milli Məclis deputatlarını Mərkəzi Seçki Komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən təqdim edilir. Dairə seçki komissiyasının üzvlüyünə namizədləri Mərkəzi Seçki Komissiyasında siyasi partiyaları təmsil edən komissiyanın üzvlərinə müvafiq siyasi partiyaların yerli təşkilatları da təqdim edə bilərlər. Heç bir siyasi partiyaya mənsub olmayan deputatları Mərkəzi Seçki Komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən dairə seçki komissiyasına irəli sürülmüş namizədlər 2 maraqlı tərəflərlə: bir namizəd deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı Mərkəzi Seçki Komissiyasında təmsil edən komissiya üzvləri ilə, digər namizəd deputatları Milli Məclisdə azlıq

təşkil edən siyasi partiyaları Mərkəzi Seçki Komissiyasında təmsil edən komissiya üzvləri ilə razılaşdırılır.

Seçki məntəqəsi seçicilərin öz iradəsini ifadə etmək üçün gəldiyi və verilmiş səslərin ilkin hesablanmasının aparıldığı səsvermə məntəqəsidir. Adətən, seçki məntəqəsi az sayda sakinləri əhatə edir. Xəstəxanalarda, üzən gəmilərdə və dağlıq yerlərdə daha kiçik seçki məntəqələri yaradıla bilər.

Bir qayda olaraq seçki məntəqəsi seçki dairəsindən xeyli kiçikdir və dairənin ərazisində bir neçə, bəzən isə daha çox seçki məntəqəsi yerləşir. Bunlar texniki əhəmiyyət daşıyır və çox vaxt onların təşkilinin tənzimlənməsi qanunla yox, qanunqüvvəli aktla tənzimlənir.

Fransada seçki məntəqəsi ölkə ərazisinin inzibati bölgü vahidi olan kommunadır. İspaniyada bu cür vahidlər bir neçə, hər biri 500-dən 2 min seçicini əhatə edən seçki məntəqələrinə (bölmələrə) bölünə bilər. İtaliyada da kommunalar hər biri 100-dən 800-ə qədər səs verən vətəndaşı, çətinliklə gedilə bilən yerlərdə isə 50-100 vətəndaşı əhatə edən seçki məntəqələrinə bölünə bilər.

Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq səsvermənin keçirilməsi və səslərin hesablanması məqsədi ilə bələdiyyə qurumlarının ərazilərində qeydə alınmış seçicilərin sayı nəzərə alınmaqla hər 5 ildən bir seçki (referendum) məntəqələri yaradılır.

Seçki məntəqələri müvafiq dairə komissiyaları tərəfindən müvafiq icra hakimiyyəti orqanı və bələdiyyə qurumu ilə razılaşdırılmaqla, seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının zəruriliyi, yerli və digər şərait nəzərə alınmaqla yaradılır.

Seçki məntəqələri yaradılarkən aşağıdakı tələblərə riayət olunmalıdır:

- hər seçki məntəqəsinin ərazisində ən çoxu 1500 və ən azı 50 seçici qeydə alınmalıdır;

- seçki məntəqələrinin sərhədləri seçki dairələrinin sərhədlərini pozmamalıdır.

Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus olan sektorunda yerləşən neft platformalarında, səsvermə günü üzən gəmilərdə (seçicilərin sayı 50-dən artıq olduqda), seçicilərin müvəqqəti olduqları yerlərdə (xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində) seçki məntəqələri Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi qaydada yaradılır. Belə seçki məntəqələri yerləşdikləri yerdə və ya gəminin qeydiyyatda olduğu yerdə yaradılmış seçki dairəsinin tərkibinə daxil olur. Bu cür seçki məntəqələri yalnız referendum və prezident seçkilərinin keçirilməsi üçün yaradılır.

Hərbi qulluqçular ümumi seçki məntəqələrində səs verirlər. Müddətli hərbi qulluqda olan Azərbaycan Respublikası vətəndaşlarının seçki məntəqələrinə çatdırılması (getmələri) qaydaları Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilir. Yaşayış məntəqələrindən kənarda yerləşən hərbi hissələrdə seçki məntəqələrinin yaradılmasına yalnız o halda yol verilir ki, hərbi qulluqçuların ümumi seçki məntəqələrinə ictimai nəqliyyatla çatdırılması üçün bir saatdan çox vaxt lazım olsun və hərbi qulluqçuların ümumi sayı 50-dən artıq olsun.

Səsvermə günü xarici dövlətlərdə olan seçicilərin səs verməsi və səslərin hesablanması üçün seçki məntəqələri seçicilərin olduğu ərazilərdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsul idarələrinin rəhbərləri tərəfindən konsul qeydiyyatında olan seçicilərin sayı 50-dən artıq olduqda yaradılır. Bu cür seçki məntəqələri yalnız referendum və prezident seçkilərinin keçirilməsi üçün yaradılır.

Məntəqə seçki komissiyaları müvafiq dairə seçki komissiyaları tərəfindən 6 üzvdən ibarət tərkibdə təşkil edilir.

Məntəqə seçki komissiyasının 2 üzvünün namizədliyi deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı dairə komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən, 2 üzvünün namizədliyi deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları dairə seçki komissiyasında təşkil edən komissiya üzvləri tərəfindən, 2 üzvünün namizədliyi isə heç bir siyasi partiyaya mənsub olmayan Milli Məclis deputatlarını dairə seçki komissiyasında təmsil edən üzvlər tərəfindən təqdim edilir. Məntəqə seçki komissiyasının üzvlüyünə namizədləri dairə seçki komissiyasında partiyaları təmsil edən dairə seçki komissiyasının üzvlərinə müvafiq siyasi partiyaların yerli təşkilatları, heç bir siyasi partiyaya mənsub olmayan Milli Məclis deputatlarını təmsil edən dairə seçki komissiyasının üzvlərinə isə seçicilər və (seçicilərin təşəbbüs qrupları) təklif edə bilərlər. Həmin namizədlər müvafiq seçki dairəsinin ərazisində daimi yaşayan Azərbaycan Respublikası vətəndaşları olmalıdırlar.

Seçici siyahılarının hazırlanması

Seçici siyahıları-seçicilər tərəfindən öz səsvermə hüquqlarının həyata keçirilməsi üçün zəruri şərtlərdəndir və şəxsin seçicilər siyahısına daxil edilməsi deməkdir ki, onun əsasında o, səsverməyə buraxılır. Dünya praktikasında bu prosedur məcburi və ya könüllü xarakter daşıya bilər. Birinci halda müvafiq xidmət qurumları səsvermə hüququ olanların hamısının adlarını siyahıya alır (Almaniya, İsveç və s.).

Məsələn, Almaniyada, İsveçrədə, İsveçdə əhalinin və onun yerdəyişməsinin qeydiyyatı aparılır, hakimiyyət orqanlarının isə onların tabeliyində olan ərazilərdə yaşayan şəxslər haqqında məlumatları olur.

İsveçrədə seçici siyahıları hər dəfə seçkilərqabağı rəsmi vəzifəli şəxsin «qapıdan qapıya» gəzməsi ilə tərtib olunur. Böyük Britaniyada seçici siyahıları hər il tərtib edilir və 15 dekabrda bağlanılır. Tərtib edilmiş siyahılar bağlandıqdan sonra ona heç bir dəyişiklik edilmir. Siyahılar bağlanandan sonra yaşayış yerini dəyişənlər, yalnız əvvəlki yaşadığı yer üzrə səs verə bilər. Siyahıda səsverməyə vətəndaşların vəzifəsi kimi baxılmasına və səsvermədən imtina edənlərin cəzalandırılmasına baxmayaraq (cəza mənəvidir) qanunvericilik bu cür qaydaları nəzərdə tutur. Siyahılar hər dairə üzrə tərtib edilir və hər il dekabr-mart ayları arası onlara yenidən baxılır.

İkinci, könüllü qeydiyyat ondan ibarətdir ki, seçki siyahısına daxil edilmə vətəndaşın özünün təşəbbüsü ilə həyata keçirilir. Bu cür sistem İspaniyada, Meksikada, ABŞ-da, Fransada mövcuddur (Fransa seçiciləri qanuna görə mütləq qeydiyyatdan keçməlidir). «Seçicilər üçün qeydiyyat məcburidir, lakin bu vəzifəni yerinə yetirməyənlər cəzalandırılmır, çünki, seçkilərdə iştirak məcburi deyil». Bu cür qayda ona gətirib çıxarır ki, seçicilərin bir çoxu qeydiyyatsız qalır və hüquqi elektoratın dairəsi əksər hallarda konstitusiya və qanunda nəzərdə tutulduğundan daha məhdud olur.

Əksər ölkələrdə seçici siyahılarının tərtib edilməsi bələdiyyə hakimiyyətinin səlahiyyətinə daxildir (Niderland, Polşa) Latın Amerikası ölkələrində bunun üçün milli, yaxud vətəndaş registri kimi xüsusi xidmət mövcuddur (siyahı cədvəli, qeyd dəftərləri). İsraildə siyahıları Daxili İşlər Nazirliyi, İsveçdə Vergi İdarəsi, Böyük Britaniyada qeydiyyatçı məmurlar tərtib edirlər. Lakin, Amerika ölkələrinin bəzilərində (vətəndaş registri xidməti olmayan yerlərdə) bu siyahılar xüsusi təyin edilmiş komissiya tərəfindən tərtib edilir. Həmin siyahılar seçkiləri keçirən

orqanlara (ölkələrin əksəriyyətində məntəqə komissiyalarına) verilir.

Siyahıya daxil edilmiş şəxslərə xüsusi seçici kartı verilir (bəzən barmaq izləri ilə və fotoşəkillə, hərdən elektron səsvermə imkanlarını nəzərə almaqla).

Siyahıya daxil edilmiş seçici başqa yerə getdikdə (məsələn, ezamiyyətə) digər seçki məntəqəsində səs vermək üçün bəzi hallarda vəsiqə ala bilər. Lakin bu, yalnız eyni namizədlərin bütün ölkədə səsverməyə çıxarılan ümumdövlət seçkilərinin bəzi növləri, məsələn, prezidentin bilavasitə vətəndaşlar tərəfindən seçilməsi zamanı olur. Belə hallarda çox vaxt seçicinin müvəqqəti olacağı yerdə başqa namizədin səsvermədə iştirakı səbəbindən ona daimi yaşayış yerində, vaxtından əvvəl səs vermək hüququ verilir. Adətən seçkilərə bir-iki həftə qalmış vaxtından əvvəl səsverməyə icazə verilir. Bu halda seçki komissiyası istifadə edilmiş bülletenin saxlandığı möhürlənmiş zərfi seçkilər günü açır.

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun seçkiləri müşahidə ilə bağlı Təlimatında deyilir ki, seçicilərin siyahıları seçicilər üçün aşkar olmalıdır. Buna görə də siyahıdakı yanlışlıqlarla əlaqədar şikayətin bildirilməsi üçün seçicilərin siyahısı seçicilərə seçkilərə qədər çatdırılmalıdır.

Bu Təlimatda qeyd olunur ki, qeydiyyat prosesinin qiymətləndirilməsi seçicilərin qeydiyyatı zamanı əsassız məhdudiyyətlərin aradan qaldırılması üçün vacibdir. İrqi, cinsi, etnik mənsubiyyəti, dini etiqad, keçmiş siyasi əqidə, dil, savad səviyyəsi, əmlak vəziyyəti, yaxud qeydiyyatı, pul ödəmək imkanı əlamətlərinə görə qoyulan məhdudiyyətlər əsassız sayılır.

Əsaslı məhdudiyyətlərə yaşayış yeri, vətəndaşlıq, azadlıqdan məhrumetmə yerlərində olmaq, məhkəmənin qərarına görə əqli çatışmazlıq kimi amillər daxil edilə bilər. Bununla yanaşı, vətəndaşlığa gəlincə, uzun müddət bir

ölkədə yaşayan və de-fakto həmin ölkənin vətəndaşı sayılan şəxslərə seçkilərdə iştirak etmək üçün bərabər qeydiyyata alınma imkanı yaradılmalıdır.

Seçicilərin qeydiyyatı prosesi o zaman yaxşı nəticə verir ki, seçicilərin siyahısı müntəzəm olaraq təzələnsin. Tam kompyuterləşdirilmiş siyahı hakimiyyət orqanlarına seçici siyahılarının yoxlanılmasında kömək edə bilər. Bu üsulla da seçicilərin siyahısının mötəbərliyi təmin olunur. Buna baxmayaraq, bəzi ölkələrin seçicilərin kompyuterləşdirilmiş siyahısını hazırlamaq üçün imkanı olmaya bilər. Buna görə də, ölkələrin malik olduğu şəraitdən asılı olaraq qeydiyyat metodu müxtəlifdir. Hər bir metod seçicilərin sayının dəqiqləşdirilməsi və qeydiyyatı üçün müəyyən prosesə riayət olunmasını tələb edir. Ola bilər ki, seçkiqabağı təşviqat aparmaq üçün yekun qeydiyyat formaları ilə evbəev gəzmək və yaxud adlarını seçici siyahısına daxil etmək üçün əhalidən müvafiq seçki dairəsinin qeydiyyat mərkəzinə gəlməsini tələb etmək zərurəti yaransın. Seçici siyahısı, əhalinin siyahıya alınmasının nəticələrinə əsasən, yaxud digər dövlət qeydiyyat sənədlərinə görə də tərtib edilə bilər. Seçkilərarası dövrdə genişmiqyaslı müraciət və daxili miqrasiya əhalinin tərkibində əhəmiyyətli dəyişiklik yarada bilər. Yaşayış yerlərini dəyişən seçicilərin sayının dəqiqləşdirilməsinin və qeydiyyatının çətinliyi ciddi texniki iş aparılmasını tələb edir. Seçicilər köhnə yaşayış yeri üzrə siyahıdan çıxarılıb, yeni yaşayış yeri üzrə siyahıya daxil edilməlidirlər.

Təkrar qeydiyyatın qarşısının alınması üçün tədbirlər görülməlidir. Əgər seçicilərdə xüsusi seçici vəsiqələri mövcuddursa, bu vəsiqələrin saxtalaşdırılmasının və çoxaldılmasının qarşısını almaq üçün tədbirlər həyata keçirilməlidir. Seçki siyahısı mövcud deyilsə, təkrar səsverməyə yol verməmək üçün seçicilərin vəsiqələrində möhür olmalıdır.

DTİHB-in Təlimatında deyilir ki, bəzi hallarda seçicilərin rəsmi siyahısı mövcud olmaya bilər və səsverməyə mülki siyahı əsasında razılıq verilir. Bu cür hallarda mülki siyahı hamı üçün aşkar olmalıdır. Müstəsna hallarda seçicilərdən, bilavasitə səsvermə günü seçki məntəqəsinə qeydiyyatdan keçmək tələb edildikdə, rəsmi qeydiyyat aparmaq mümkündür. Bu cür hallarda çoxdəfəlik səsvermənin qarşısını almaq üçün pozulmayan mürəkkəbdən istifadə etmək, yaxud vəsiqəyə möhür vurmaq kimi xüsusi tədbirlərə əl atmaq olar.[5]

Bəs Azərbaycan Respublikasının seçki qanunvericiliyində seçici siyahılarının tərtib edilməsinə dair hansı tələblər mövcuddur?

Azərbaycanda seçicilərin qeydiyyata alınması məcburidir və Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq həyata keçirilir. Bu qanuna görə seçici siyahıları müvafiq seçki dairəsinin seçki məntəqəsi ərazisində yaşayan və seçki hüququna malik olan Azərbaycan Respublikası vətəndaşlarının siyahılarıdır (Seçki Məcəlləsi, maddə 1.1.9).

Azərbaycan Respublikasında vahid seçici siyahıları Mərkəzi Seçki Komissiyası tərəfindən aparılır və təsdiq olunur. Hər il seçicilərin siyahısının dəqiqləşdirilməsi ilə bağlı məlumatları məntəqə seçki komissiyaları dairə seçki komissiyaları vasitəsilə Mərkəzi Seçki Komissiyasına təqdim edirlər. Bu siyahılar hər bir məntəqə üzrə hər il mayın 30-dək təsdiq edilir və səsvermə gününə azı 25 gün qalmış yenidən dəqiqləşdirilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 46.1-ci maddəsinə əsasən seçicilərin daimi siyahısı səsvermə gününə azı 25 gün qalmış dəqiqləşdirilir. Bu müddətdən sonra səsvermə gününədək seçici siyahısına seçici MSK-nın

[5] Dirçəliş. Bakı, 2005

müəyyən etdiyi qaydada yalnız məntəqə seçki komissiyası tərəfindən əlavə edilə bilər.

Səsvermə günü səsvermə vəsiqəsi ilə səs verən seçicilərin səsvermə vəsiqəsi seçicilər siyahısına əlavə edilir. Seçki Məcəlləsinin 47.9-cu maddəsinə əsasən, seçici vəsiqələri paylandıqdan və seçici siyahıları ümumi tanışlıq üçün təqdim edildikdən sonra seçki məntəqəsinin ərazisində məskunlaşan və hər hansı səbəbdən siyahılara daxil edilməyən seçicilər şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd, zərurət olduqda isə həmçinin seçicinin həmin seçki məntəqəsi ərazisində daha çox yaşamasını təsdiq edən sənədin əsasında məntəqə seçki komissiyası tərəfindən seçici siyahılarına əlavə edilə bilərlər.

Daimi seçici siyahılarından əlavə müvəqqəti seçici siyahıları da olur. Müvəqqəti seçici siyahılarına konsul idarələri rəhbərlərinin və ya diplomatik nümayəndələrin, habelə seçicilərin müvəqqəti olduqları (məsələn, hərbi hissələr, xəstəxanalar, sanatoriyalar) müəssisələrin rəhbərliyinin aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar daxil edilir və səsvermə gününə 25 gün qalmış, müstəsna hallarda isə məntəqə seçki komissiyasının yaradılmasından 2 gün sonra dəqiqləşdirilir (Seçki Məcəlləsi, mad. 46.4, 46.8).

Seçici siyahıları məntəqə komissiyaları tərəfindən 2 nüsxədə tərtib olunur. Burada seçicinin adı, soyadı, atasının adı, doğulduğu il (18 yaşı tamam olmuşlar üçün əlavə olaraq doğulduğu ay və gün), daimi yaşadığı yerin ünvanı və seçki məntəqəsinin nömrəsi göstərilir. Birinci nüsxə məntəqə seçki komissiyasında saxlanılır, ikinci nüsxə isə dairə seçki komissiyasına verilir. Seçki dairəsi üzrə ilkin seçici siyahıları hər il martın 5-dən gec olmayaraq 2 nüsxədə tərtib edilir və aprelin 5-dək MSK-ya təqdim olunur.

Azərbaycan Respublikasının seçki qanunvericiliyinə görə bir seçici yalnız bir seçki məntəqəsi üzrə seçici

siyahılarına daxil edilə bilər. Əgər seçici bilərəkdən bir neçə seçki məntəqəsi üzrə seçici siyahısına daxil edilərsə, o, İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati məsuliyyətə cəlb oluna bilər.

Məntəqə seçki komissiyası seçicilərin seçici siyahıları ilə tanış olmaq məqsədi ilə həmin siyahını səsvermə gününə azı 35 gün qalmış səsvermə otağından kənarda yerləşən seçicilərin yaxşı görə biləcəyi və gediş-gəliş üçün asan yerlərdə məlumat lövhələrində yerləşdirir. Burada vətəndaşların yaşadıqları evlərin və mənzillərin nömrələri göstərilməməlidir (Seçki Məcəlləsi, maddə 48.1).

Seçicilərin siyahılarının əhəmiyyəti çox böyükdür. Birincisi, bütün seçicilər haqqında məlumatlar seçki siyahılarında öz əksini tapır. İkincisi, seçici siyahılarına vətəndaşların daxil edilməsi onların seçki hüququna malik olması hüququnu təsdiq edir. Üçüncüsü, seçki bülletenləri seçici siyahıları üzrə verilir. Dördüncüsü, seçicilər siyahısı üzrə həmin ərazidə yaşayan seçicilərin sayı müəyyən olunur.

Seçkilər zamanı namizədlərin irəli sürülməsi və qeydiyyatı

Passiv seçki hüququnun realizəsi namizədlərin irəli sürülməsi prosedurasından başlanır.

Namizəd müxtəlif üsullarla irəli sürülə bilər. Birincisi, hər bir şəxsin öz namizədliyini irəli sürməsi mümkündür (Rusiya, Fransa, Yaponiya və s.) lakin bu zaman, adətən, tələb edilir ki, onu, çox az sayda olsa da, seçicilər öz imzaları ilə müdafiə etsinlər (məsələn, Fransa, Hindistan və Yaponiyada 1 seçici, Böyük Britaniya, İrlandiya və Avstriyada -10, İsveçrədə-15, Niderlandda-25). İkincisi, namizədlər siyasi partiyalar tərəfindən irəli sürülə bilər. Bəzən yalnız partiya tərəfindən irəli sürülməyə yol verilir (Avstriya, Portuqaliya). Namizədlərin partiya tərəfindən

irəli sürülməsinin xüsusi halı Amerika praymerizidir (ilkin seçkilər). Partiya yığıncaqlarında (yığıncaqlara özlərini bu və ya digər partiyanın tərəfdarları hesab edən şəxslər gəlirlər) gizli səsvermə ilə namizədlərin irəli sürülməsi praymerizin mahiyyətini təşkil edir. Namizədlərin irəli sürülməsinin bu sistemindən Türkiyədə də istifadə olunur. Üçüncü, namizədləri irəli sürmək hüququ müxtəlif ictimai təşkilatlara verilir (Belarus, Ukrayna). Dördüncüsü, namizədlər seçicilər və ya seçicilər qrupu (onların yığıncaq şəklində rəsmiləşdirilməsi məcburi deyildir) tərəfindən də irəli sürülə bilər: Hindistanda, Fransada, Yaponiyada 1 (çox vaxt bu, elə öz-özünü irəli sürmədir), Kanadada, Belçikada 2, Böyük Britaniyada 10, Niderlandda 25 seçici namizəd irəli sürə bilər.

Totalitar sosializm ölkələrində namizədlərin siyasi partiyalar, ictimai təşkilatlar tərəfindən, habelə seçicilərin iş yeri və ya yaşayış yeri üzrə yığıncaqlarında irəli sürülməsi nəzərdə tutulsa da, əslində onlar hakim partiya tərəfindən irəli sürülürdü. Müxtəlif formalardan istifadə isə yalnız bunun pərdələnməsinə xidmət edirdi. Burada öz-özünü irəli sürməyə, həmçinin seçicilər qrupu tərəfindən irəli sürülməyə yol verilirdi. Misal kimi keçmişdə SSRİ dövlətini göstərmək olar(41,s.266).

Bir çox ölkələrdə namizədlərin irəli sürülməsinin sadalanan üsulları birləşdirilir. Namizəd həm partiya, həm seçicilər qrupu, həm də vətəndaşların birliyi və s. tərəfindən irəli sürülə bilər.

Bir çox ölkələrdə qanun bir yerə bir namizədin irəli sürülməsinə icazə vermir. Bu cür hallarda seçkilər baş tutmamış hesab olunur. Ona görə də belə vəziyyətdə namizədlərin irəli sürülməsi müddəti seçki komissiyası tərəfindən uzadıla bilər. Böyük Britaniyada, Hindistanda isə bir yerə bir namizədin irəli sürülməsi mümkündür, lakin bu halda həmin seçki dairəsi üzrə seçkilər keçirilmir.

Namizədlərin qeydiyyata alınması müddəti bitdikdən sonra irəli sürülmüş tək namizəd səsvermə keçirilmədən seçilmiş elan edilir.

Bəzi ölkələrdə namizəd qeydiyyata alınmaq üçün seçki girovu qoymalıdır (Fransa, Böyük Britaniya, Niderland, Yaponiya). Əgər seçkilərdə iştirak etmiş namizəd qanunla müəyyən edilmiş minimum səs toplayarsa, seçki girovu onun özünə qaytarılır. Məsələn, Böyük Britaniyada parlament seçkilərində seçki girovu 500 funt sterlinq təşkil edir və namizəd ən azı səslərin 5 faizini toplayarsa, girov geriyə qaytarılır(41,s.267).

Ölkəmizdə Seçki Məcəlləsinin 53 və 54-cü maddəsinə əsasən namizədlər öz təşəbbüsü, seçicilər, siyasi partiyalar və siyasi partiya blokları tərəfindən irəli sürülə bilər. Namizədin qeydiyyatı üçün irəli sürülən şərtlərdən biri də qanunla müəyyən olunmuş sayda imzalar yığmaq və müvafiq seçki komissiyasına bu barədə bildiriş göndərmək tələbidir.

Bildirişdə namizədi irəli sürən hər bir təşəbbüsçünün və namizədin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, bundan başqa, irəli sürülən namizədin əsas iş və ya xidməti yeri, tutduğu vəzifə göstərilməlidir.

Bildirişlə birlikdə namizədin seçkili dövlət və ya bələdiyyə orqanlarında seçkili vəzifəyə seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyinə dair yazılı öhdəliyi olan ərizə də göndərilir. Bu ərizədə onun tərcümeyi-halına aid məlumatlar (soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri) göstərilir. Namizədin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, ərizədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsi, namizədin xarici ölkədə cinayət

məsuliyyəti yaradan əməli olmuşdursa və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa, xarici ölkənin müvafiq qanununun adı göstərilməlidir. Namizədin ərizəsində Azərbaycan Respublikasının vətəndaşlığı haqqında məlumatla yanaşı, xarici ölkə vətəndaşlığının və başqa ölkələr qarşısında öhdəliklərinin olub-olmaması da göstərilməlidir.

Seçicilər, siyasi partiyalar və siyasi partiya blokları tərəfindən irəli sürülmüş namizədlərin dəstəklənməsi üçün Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş seçicilərin imzası tələb olunur.

Belə ki, Milli Məclisə seçkilər zamanı namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanmalıdır. Siyasi partiya, siyasi partiyalar bloku və yaxud seçicilərin təşəbbüs qrupları prezidentliyə irəli sürdükləri namizədin müdafiəsi üçün 40 mindən az olmayan sayda seçici imzası toplamalıdırlar. Bu zaman 60-dan az olmayan seçki dairəsinin hər birinin ərazisindən azı 50 imza toplanmalıdır. Müvafiq seçki ərazisi üzrə bələdiyyə üzvlüyünə namizədin müdafiəsi üçün 15-150-dən az olmayan sayda seçici imzası toplanmalıdır.

Namizədlərin qeydiyyatı üçün seçicilərin imzalarının düzgünlüyünün yoxlanılmasının böyük rolu var. İmza vərəqələrində olan bütün imzalar yoxlanılmalıdır. Etibarsız sayılan imzalar çıxıldıqdan sonra qalan seçici imzalarının sayı qeydiyyat üçün lazım olan saydan az olarsa, namizəd qeydə alınmır. İmza vərəqələri yoxlanılarkən müvafiq seçki komissiyasında namizədlər, onların səlahiyyətli nümayəndələri, siyasi partiyaların, siyasi partiya bloklarının səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Namizədin qeydə alınması barədə qərarın sürəti müvafiq seçki komissiyası tərəfindən həmin qərarın qəbul edildiyi gündən etibarən bir gün müddətində namizədə, namizəd irəli sürmüş siyasi partiyanın və ya siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə verilməli, qeydiyyatdan imtina olunubsa, həm də bunun əsasları göstərilməlidir. İmtina üçün aşağıdakılar əsas ola bilər: imza toplanması qaydasının pozulması; göstərilən sənədlərin düzgün rəsmiləşdirilməməsi və ya olmaması; namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımi saydan az olması; namizədlərin, siyasi partiyanın, siyasi partiyalar blokunun təqdim etdikləri məlumatların düzgün olmaması; namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondunun yaradılması qaydasının və müvafiq seçki fondunun vəsaitinin xərclənməsi qaydasının pozulması (bu əsas yalnız o vaxt tətbiq edilə bilər ki, əvvəllər bu cür pozuntuya görə xəbərdarlıq edilsin və ya cərimə tətbiq olunsun).

Seçkiqabağı (referendumqabağı) təşviqat.

Əksər ölkələrdə namizədlər qeydiyyata alındıqdan və ya onların siyahısı dərc edildikdən sonra (Litva) onlara seçkiqabağı təbliğat aparmağa rəsmi icazə verilir. Yalnız ayrı-ayrı ölkələrdə buna səsvermə günü elan edildiyi vaxtdan (Rumıniya) və ya səsvermə gününə müəyyən müddət (Türkiyədə 15 gün) qalmış icazə verilir.

Xarici ölkələrin qanunvericiliyi bu təbliğatın şərtlərini müxtəlif cür tənzim edir: bəzi ölkələrdə son dərəcədə sərt, digərlərində isə yumşaq. Lakin qanun həmişə təbliğatın yol verilən metodlarını elan edir, qalan metodları isə qadağan edir. Qanun seçkiqabağı təbliğatın başlanma və qurtarma vaxtını (adətən seçkilər gününə bir sutka qalmış təbliğat başa çatır) tənzim edir, bəzi ölkələrdə hətta afişaların yerləşdirilməsi və onların sayı da müəyyən edilir. Lakin

kütləvi informasiya vasitələrindən istifadə və seçki kampaniyasının maliyyələşdirilməsi məsələləri daha müfəssəl təmin olunur. Seçkilərdə namizəd kimi qeydiyyata alınmış şəxslər dövlət kütləvi informasiya vasitələrindən istifadə hüququna malik olurlar. Namizədlər belə informasiya vasitələrindən pulsuz və bərabər həcmdə istifadə edirlər: bunun xərcləri dövlət xəzinəsindən ödənilir. Məsələn, Yaponiyada parlamentə hər bir namizəd radio və televiziya ilə bir dəfə beş dəqiqə yarım çıxış etmək, beş dəfə qəzet reklamı dərc etdirmək, müəyyən tirajla bir rəngli plakat çap etdirmək hüququna malikdir. Bundan əlavə, hər bir namizəd seçicilərə paylamaq üçün dövlət hesabına 350 min poçt açıqcası və mikroavtobusla ucqar rayonlara getmək üçün müəyyən miqdarda benzin alır. Böyük Britaniyada radio və televiziya ilə pulsuz çıxış etmək hüququ parlamentə ən azı 50 namizəd irəli sürmüş partiyalara verilir. Namizədlər, həmçinin pulla əlavə qəzet səhifələri, radio və televiziyada əlavə vaxt da ala bilərlər. Adətən qanun belə vaxtın bütün namizədlərə qiymətinə və efirə çıxma vaxtına görə eyni şərtlərlə verilməsini tələb edir. Bu vaxt kifayət qədər baha başa gəldiyinə görə ABŞ-da namizədlər, digər verilişlər arasındakı intervallarla 1-2 dəqiqəlik çıxış edirlər(41,s.268).

Namizədlərin imkanlarının bərabərliyini təmin etmək məqsədi ilə müəyyən vəzifəli şəxslərin və yerli özünüidarəetmə orqanlarının seçkiqabağı təbliğatda iştirakı qadağan edilir. Adətən hərbi hissələrdə və ictimai nəqliyyatda təbliğat qadağan olunur; təbliğat dövlət orqanlarının fəaliyyətinə mane olmamalıdır; vətəndaşların və namizədlərin şəxsi həyatına müdaxilə etmək qadağandır. Qanun seçki kampaniyası aparılmasına maliyyə xərclərinin həddini müəyyən edir. Hüquqi və fiziki şəxslərdən ianələrin icazə verilmiş maksimal məbləği müəyyən edilir, həm də nəzərə almaq lazımdır ki, hüquqi şəxslər tərəfindən ianələrin

miqdarı fiziki şəxslərin yol verilən ianələrindən xeyli artıq olur (məsələn, Almaniyada 10 dəfə). Əcnəbi vətəndaşlarından, xarici dövlətlərdən, xarici kapitalın iştirak etdiyi şirkətlərdən (adətən, əgər xarici kapitalın payı 25-30 faizdən artıqdırsa), beynəlxalq təşkilatlardan ianələr qəbul etmək qadağan olunur. (41).

Çox vaxt namizədlərə və ya onları irəli sürən partiyalara seçki xərcləri üçün dövlət büdcəsindən müəyyən məbləğdə vəsait ayrılır. Bu məbləğ bütün namizədlərə bərabər miqdarda verilə bilər, lakin çox vaxt o, partiyanın topladığı səslərin sayından asılı olur və seçkilərdən sonra partiyalara seçki xərclərinin əvəzi kimi verilir. Belə vəziyyət İtaliyada, Kanadada, Finlandiyada, İsveçdə və bir çox digər ölkələrdə mövcuddur. Onların bəzilərində həmin məbləği bütün partiyalar deyil, yalnız seçicilərin səsinin müəyyən faizini toplamış partiyalar alır (məsələn, Almaniyada 0,5 faiz, İtaliyada 2 faiz). Bu və ya digər tədbirlər (seçki girovu və s.) çox kiçik partiyalara və əhali arasında açıq-aşkar nüfuzu və müvəffəqiyyət şansları olmayan namizədlərə qarşı yönəlmişdir.

Bir sıra ölkələrdə (Qazaxıstan, Polşa) dövlətin partiyalara və ya namizədlərə seçki kampaniyası üçün vəsait ayırmaq hüququ yoxdur.

Azərbaycan Respublikasının seçki qanunvericiliyinə müvafiq olaraq seçkiqabağı təşviqat aparmaq hüququna qeydə alınmış namizəd, siyasi partiya və siyasi partiyalar blokunun vəkilləri, səlahiyyətli nümayəndələri malikdirlər. Xarici dövlətlərə və xarici hüquqi şəxslərə, xarici vətəndaşlara, vətəndaşlığı olmayan şəxslərə, 18 yaşına çatmamış vətəndaşlara, vəzifə və ya xidməti üstünlüklərindən istifadə etməklə, dövlət orqanlarında, idarələrdə, təşkilatlarda işləyən şəxslərə, dövlət və ya bələdiyyə qulluqçularına, hərbi qulluqçulara, seçki

komissiyalarına seçkiqabağı təşviqat aparmaq qadağan edilir.

Seçkiqabağı təşviqat çıxış, müşahidə, mətbuat konfransı, canlı yayım (birbaşa efir), debat, dəyirmi masa, siyasi reklam, namizəd haqqında teleoçerklərin və videofilmlərin (bədii filmlər istisna olmaqla) göstərilməsi ilə həyata keçirilir.

Qanunvericilik seçkiqabağı təşviqatın hər hansı materiallarının yayılmasını aşağıdakı şəxslərə qadağan edir:

-xarici dövlətlərə və xarici hüquqi şəxslərə;

-xarici vətəndaşlara;

-vətəndaşlığı olmayan şəxslərə;

-18 yaşına çatmamış vətəndaşlara;

-vəzifə və ya xidməti üstünlüklərindən istifadə etməklə, dövlət orqanlarında, idarələrində, təşkilatlarında işləyən şəxslərə;

-dövlət və ya bələdiyyə qulluqçularına;

-hərbi qulluqçulara;

-seçki komissiyalarına;

-seçki komissiyalarının həlledici səs hüquqlu üzvlərinə və digər vəzifəli şəxslərə.

Seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.

Vətəndaşların səsverməsinə təsir etməmək üçün seçkilərə bir neçə gün qalmış ictimai rəy sorğularının nəticələrini yaymaq qadağan olunur (Fransada 7, Macarıstanda 8 gün qalmış).

Azərbaycan Respublikasının seçki qanunvericiliyinə görə kütləvi informasiya vasitələri seçkilərlə bağlı ictimai rəy sorğusunun nəticələrini dərc edərkən rəy sorğusunu keçirən təşkilatlar onun keçirilməsi vaxtını, dəqiq ifadə edilmiş sualları, sorğuda iştirak edənlərin sayını bildirməlidir. Səsvermə gününə 24 saat qalmış ictimai rəy

sorğusu nəticəsinin, seçkilərin nəticələri barədə proqnozların kütləvi informasiya vasitələrində dərc edilməsinə yol verilmir.

Teleradio şirkətləri təşkilatları redaksiyalarının təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olduqda və ya onlar dövlət büdcəsindən maliyyələşdirildikdə, həmin teleradio verilişləri təşkilatları seçkilərdə qeydə alınmış namizədlərə, siyasi partiyalara və siyasi partiyalar blokuna seçkiqabağı proqramlarını təbliğ etmək üçün dövlət hakimiyyəti orqanlarının ayırdığı vəsait hesabına bərabər şərait yaratmalıdırlar. Yəni namizədlərin həmin təşkilatların kanallarında pulsuz efir vaxtı almaq hüququ vardır. Özəl telekanallar istər seçki kampaniyasına, istərsə də seçkiqabağı təşviqata efir vaxtı ayrılmasına iştirak edilməyə məcbur edilə bilməzlər. Əgər özəl telekanalda qeydə alınmış namizədlərə efir vaxtı verilmişdirsə, bu zaman ödənişin məbləği və şərtləri qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyalar bloku üçün eyni olmalıdır.

Teleradio şirkətləri efir vaxtının verilməsinin mümkünlüyü barədə məlumatı qeydə alınmış namizədlərə, siyasi partiyalara, siyasi partiya blokuna, MSK-ya və dairə seçki komissiyasına bildirişin göndərilməsi ilə yanaşı, ödənişin məbləği barədə məlumatı da seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərcindən ən geci 30 gün ərzində dərc etməlidirlər.

Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq namizədlərin seçkiqabağı təşviqat xarakterli materialları təsisçisi dövlət orqanları, təşkilatları olan, yaxud dövlət büdcəsindən maliyyələşdirilən və həftədə azı bir dəfə çıxan dövri nəşrlərdə ödənişsiz dərc üçün müvafiq yer almaq hüququ vardır.

Qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, həm də seçicilərlə görüşlər,

yığıncaqlar, digər seçkiqabağı kütləvi tədbirlər keçirmək yolu ilə seçkiqabağı təşviqat apara bilər.

Qeydə alınmış namizədlər seçicilərlə görüşlərin keçirilməsi üçün yer ayrılması barədə müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidirlər. Bu halda dövlət orqanları, bələdiyyə qurumları qeydə alınmış namizədə vətəndaşlarla görüşlər, açıq müzakirələr təşkil edilməsində və keçirilməsində kömək etməlidirlər.

Seçki qanunvericiliyinin tələblərinə müvafiq olaraq dövlətin müvafiq reyestrlərinə daxil edilmiş, mədəniyyət obyektləri sayılan bina və avadanlıq təşviqat məqsədləri üçün istifadə edilə bilməz.

Qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları qanunla müəyyənləşdirilmiş qaydada çap, audiovizual və digər seçkiqabağı təşviqat materiallarını buraxmaq hüququna malikdirlər.

Hər bir seçki məntəqəsinin ərazisində təşviqat materialları lövhələrdə yerləşdirilir. Həmin yerlər dairə seçki komissiyasının təşkili ilə müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumları tərəfindən müəyyənləşdirilir. Belə yerlər seçicilərin gəlməsi üçün əlverişli olmalı və elə müəyyənləşdirilməlidir ki, oradakı məlumatları oxumaq mümkün olsun.

Seçkiqabağı təşviqat materialları otaqlarda, binalarda, digər obyektlərdə yalnız göstərilən obyektlərin mülkiyyətçisinin və ya sahiblərinin razılığı ilə yerləşdirilə bilər.

Seçkiqabağı təşviqat materialları dövlətin müvafiq reyestrinə daxil edilmiş tarix və ya mədəniyyət abidələri sayılan binalarda və otaqlarda, habelə seçki komissiyalarının otaqlarında, o cümlədən, səsvermə otağında namizədlər haqqında, bülletenlərin doldurulması qaydası haqqında məlumatların yerləşdirilməsi məqsədilə ayrılan məlumat

lövhələrində, seçki komissiyaları binalarının dəhlizləri və girişlərində yerləşdirilə bilməz.

Səsvermə günü seçki məntəqələrində namizədlər barədə məlumatlar və onların təbliğat plakatları, şəkilləri ola bilməz. Çünki səsvermə günü hər hansı təbliğat növündən istifadə etmək qadağandır.

Qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının seçkiqabağı proqramlarında, yığıncaqlarda, kütləvi informasiya vasitələrində yayılan təşviqat materiallarında və çıxışlarda hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar, vətəndaşların şərəf və ləyaqətini təhqir edən mülahizələr olmamalıdır. Seçkiqabağı təşviqat aparılarkən sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqat formasında sui-istifadə qadağandır. Bu cür hallara yol verilməsi cinayət, inzibati, mülki qanunvericiliyə müvafiq məsuliyyət yaradır.

Seçkiqabağı təşviqatda bilavasitə, yaxud dolayısı ilə iştirak edən namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun, onların səlahiyyətli nümayəndələrinin, habelə digər şəxslərin və təşkilatların seçicilərini aşağıdakı üsullarla ələ alması qadağandır:

- təşkilati işlərin yerinə yetirilməsi məqsədi istisna olmaqla, seçicilərə pul vəsaiti, hədiyyələr və digər qiymətli materiallar vermək (döş nişanları, yapışqanlı nişanlar, plakatlar və nominal dəyərə malik olan digər təşviqat materialları istisna edilməklə);

- göstərilən təşkilati işi yerinə yetirən seçiciləri səsvermənin nəticəsindən asılı olaraq mükafatlandırmaq və ya belə mükafatlandırmanı rədd etmək;

- malların güzəştli satışını keçirmək, hər hansı malı (çap materialları istisna olmaqla) pulsuz vermək;

- əvəzsiz və ya güzəştli şərtlərlə xidmətlər göstərmək;
- seçkiqabağı təşviqat zamanı seçicilərə qiymətli kağızlar, habelə maddi sərvətlər, pul vəsaiti veriləcəyini vəd etmək yolu ilə, habelə qanunvericiliyə zidd olan digər əsaslarla xidmətlər göstərilməsi ilə təsir etmək.

Seçkilərin (referendumların) maliyyələşdirilməsi.

Seçkilərin maliyyələşdirilməsi vətəndaşların seçki hüququnun realizəsində böyük əhəmiyyət kəsb edir. Namizədlərin, qeydə alınmış namizədlərin, namizəd irəli sürmüş və ya namizəd qeydə alınmış siyasi partiyaların, siyasi partiya bloklarının, referendum üzrə təşviqat qruplarının fəaliyyətinin maliyyələşdirilməsi üçün seçki (referendum) fondları yaradılır. Qüvvədə olan Seçki Məcəlləsi dəqiqliklə bu fondların yaranma şərtini, qaydasını və müddətini, seçki fondunda olan maliyyə vəsaitlərinin istifadə qaydalarını, namizədlərin və seçki bloklarının maliyyə hesabatlarını və seçki fondlarından istifadə hüquqi rejiminin pozulmasına görə məsuliyyət müəyyən edir.

Seçki Məcəlləsinin analizi onu göstərir ki, namizədlərin, siyasi partiyaların seçki bloklarının seçki fonduna aid bir sıra xüsusiyyətlər xasdır.

Birincisi, Seçki Məcəlləsi seçki fondlarının mütləq yaradılmasını nəzərdə tutur.

İkincisi, Seçki Məcəlləsi seçki fondunu formalaşdırmaq üçün maliyyə vəsaitlərinin mənbələrini müəyyən edir. Bura aiddir: siyasi partiyaların, siyasi partiyalar blokunun, könüllü ianələr və hüquqi şəxslərin vəsaitləri. Bununla belə, namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının, referendum üzrə təşviqat qruplarının seçki fondlarına könüllü ianə ayırmaq, yaxud natura şəklində və ya xidmət göstərilməsi yolu ilə yardım etmək aşağıdakı şəxslərə və orqanlara qadağan edilir:

-xarici dövlətlərə və xarici hüquqi şəxslərə;

-xarici vətəndaşlara;

-vətəndaşlığı olmayan şəxslərə;

-18 yaşına çatmamış vətəndaşlara;

-beynəlxalq təşkilatlara və beynəlxalq ictimai hərəkatlara;

-seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə Azərbaycan Respublikasının hüquqi şəxsinin nizamnamə kapitalında xarici ölkələrin və xarici hüquqi şəxslərin, o cümlədən əcnəbi vətəndaşların iştirak (mülkiyyət) payı 30 faizdən çox olarsa, Azərbaycan Respublikasının hüquqi şəxslərinə;

-dövlət hakimiyyəti orqanlarına və bələdiyyə qurumlarına;

-dövlət bələdiyyə təşkilatlarına və idarələrinə;

-seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə nizamnamə kapitalında dövlətin və ya bələdiyyənin iştirak payı 30 faizdən artıq olan hüquqi şəxslərə;

-hərbi hissələrə;

-xeyriyyə təşkilatlarına, dini birliklərə, idarələrə və təşkilatlara;

-anonim ianə köçürənlərə.

Üçüncüsü, seçki fondlarında olan vəsaitlər təyinatlı məqsəd daşıyır. Bu vəsaitdən yalnız aşağıdakı məqsədlər üçün istifadə edilə bilər:

-namizədlərin irəli sürülməsinin müdafiəsi, referendum üzrə təşviqat qrupunda üzvlüyə razılıq verilməsi üçün imzaların toplanmasına yönəlmiş təşkilati-texniki tədbirlərin maliyyə təminatı, habelə seçici imzalarının toplanması üçün müvafiq şəxslərin haqqının ödənilməsi;

-seçkiqabağı təşviqatla bağlı işlərin, habelə informasiya və məşvərət xidmətlərinin dəyərinin ödənilməsi;

-seçki kampaniyasının keçirilməsi ilə əlaqədar hüquqi şəxslərin və vətəndaşların bilavasitə yerinə yetirdikləri digər işlərin dəyərinin ödənilməsi ilə bağlı xərclər.

Dördüncüsü, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiya blokları, referendum üzrə təşviqat qrupları səsvermə gününədək seçki fondlarının hesablarına köçürülmüş pul vəsaitindən istifadə edirlər. Namizədlərə, qeydə alınmış namizədlərə, siyasi partiyalara, siyasi partiya bloklarına, referendum üzrə təşviqat qruplarına seçkiqabağı təşviqat fəaliyyəti və imzaların yığılması üçün seçki fondlarına daxil olan vəsaitdən başqa, digər pul vəsaitindən istifadə etmək qadağandır.

Səsvermənin təşkili

Səsvermə seçki prosesinin əsas mərhələsidir, çünki, məhz bu mərhələdə elektorat iradəsini ifadə edir və öz nümayəndələrini seçkili dövlət və yaxud yerli özünüidarəetmə orqanlarına seçir.

Əsasən səsvermə rəsmi bülletenlərlə həyata keçirilir.

Bir sıra ölkələrdə seçicilərin bir hissəsi səsvermə üçün xüsusi seçki maşınlarından istifadə edir (Niderland, ABŞ ştatlarının çoxunda və s.). Bu halda seçki kabinəsi telefon kabinəsinə oxşayır, seçici kabinəyə daxil olur, pərdəni örtür, linglərin yerini dəyişir və düymələri basır. Maşın elə quraşdırılmışdır ki, iki dəfə səs vermək mümkün deyildir. Son illərdə bəzi ölkələrdə, o cümlədən, Braziliyada səsvermə üçün perfokartı EHM tipli maşınlar əvəz edir. Maşın səsvermənin nəticəsini hesablayır və onu dərhal yekunlaşdırıcı mərkəzə verir.

Seçki məntəqəsində hesab edilir ki, maşınlar nəinki səsvermənin gedişində seçicinin öz iradəsinin ifadə etməsinə nəzarət etməyə, onun nəticələrini tez müəyyən etməyə

imkan verir, eləcə də mümkün qanun pozuntularından qorumağa zəmanət verir.

Savadsızların sayı çox olan ayrı-ayrı ölkələrdə bülletenlər yerinə namizədlərin portretləri yapışdırılmış qutulardan istifadə edilir. Seçici bülleteni rəğbət bəslədiyi namizədin portreti olan qutuya salır. Afrikada kiçik Svazilend krallığında kəndli seçicilər kənddə «ayaqları ilə səs verirlər». Onlar rəğbət bəslədikləri namizədin dayandığı qapıdan keçirlər.

Səsvermə əyani və qiyabi ola bilər. Əyani səsvermə zamanı seçici özü seçki komissiyasına gəlir və bülleten alır, qiyabi səsvermə zamanı isə onun əvəzinə başqa şəxslər etibarnamə ilə səs verir. Məsələn, Fransa və Almaniya qanunvericiliyi vəkalətnamə ilə səsvermə imkanını nəzərdə tutur. İsveçrə, Almaniya, Danimarkada poçt vasitəsilə səs verməyə icazə verilir. Məsələn, Almaniya qanunvericiliyi nəzərdə tutur ki, poçt vasitəsi ilə səs verən seçici vaxtında özünün səsvermə hüququnu təsdiq edən sənədini və ayrıca möhürlənmiş zərfdə bülletenini göndərməlidir. O vaxt səsvermə baş tutmuş sayılır ki, bu poçt göndərişləri səsvermə günü saat 6-ya kimi göndərilən ünvana çatsın. Vəsiqədə seçici öz imzası ilə qeyd etməlidir ki, bülleteni şəxsən özü doldurub. Göndəriş isə pulsuzdur.

Azərbaycan Respublikasında səsvermə rəsmi bülletenlərlə həyata keçirilir. Seçki bülletenlərinin hazırlanması qaydası, mətni və forması, onların sayı, hazırlanmasına aid tələblər MSK tərəfindən təsdiq edilir. Seçki bülletenlərində namizədlərin adı əlifba sırası ilə yerləşdirilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 104-cü maddəsinə görə seçkilər günü saat 7^{50}-də məntəqə seçki komissiyasının sədri seçki məntəqəsini açır. Bundan sonra, sədr seçki komissiyasının üzvlərinə, orada olan seçicilərə və

müşahidəçilərə boş seçki qutularını göstərib möhürləyir, saat 8^{00}-da isə səsvermənin başlandığını elan edir.

Saat 8^{00}-dan sonra səsverməyə gələn seçiciyə seçki bülleteni seçici vəsiqəsi ilə birlikdə şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd təqdim edildikdə verilir. Seçici seçki bülletenini aldıqdan sonra seçicilər siyahısına şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası və nömrəsi yazılır. Seçici yazıların düzgünlüyünü yoxlayır və bülleteni alarkən imza edir. Seçiciyə bülleteni verən şəxs seçicinin seçici vəsiqəsinə səsvermə gününün tarixini əks etdirən xüsusi möhür (ştamp) vurur. Bundan sonra seçici səs vermək üçün səsvermə kabinəsinə keçir.

Seçki qanunvericiliyinin tələbinə görə hər bir seçici şəxsən və təklikdə səs verir. Başqa şəxslərin əvəzinə səs verməyə icazə verilmir.

Seçki bülleteni seçicidən başqa heç kəsin daxil olmasına icazə verilməyən, gizli səsvermə üçün xüsusi avadanlıqla təchiz edilmiş otaqda və ya kabinədə doldurulur və seçki qutusuna salınır.

Seçki qutuları şəffaf olmalıdır. Onların şəffaflığının dərəcəsi onların dolu olub-olmamasını müəyyən etməyə imkan verməlidir. Səsvermə günü seçki qutuları məntəqə seçki komissiyasının sədri tərəfindən möhürlənir. Möhürlər plastikdən hazırlanmalıdır və hər birinin öz nömrəsi olmalıdır (Azərbaycan Respublikası Seçki Məcəlləsi, mad.103).

Maraq doğuran məsələlərdən biri də daimi yaşayış yeri üzrə səsverənlərin siyahılarına salınmış, lakin səsvermə günü yaşayış yerini tərk etmiş seçicilərin səsvermə probleminin həllidir.

Məsələn, Rusiya Federasiyasında səsvermənin keçirilməsinə azı 30 gün qalmış seçkilərdə iştirak etmək hüququ olan vətəndaşların siyahılarına daxil edilən seçicinin səsvermə keçirilən günü müəyyən səbəblərdən yaşayış

yerindən kənarda olacağı və səsverməyə gəlib çatmayacağı aşkar edilərsə, bu halda həmin şəxs məntəqə komissiyasından qeydiyyatdan çıxma vəsiqəsi ala bilər. Həmin vəsiqəni açarkən, vətəndaş aldığı tarixi qeyd edir və siyahıya qol çəkir. Seçici qeydiyyatdan çıxma vəsiqəsini təqdim edərək Rusiya Federasiyasının hər hansı seçki məntəqəsində siyahıya salına və səs verə bilər.

Fransa qanunvericiliyi vəkalətnamə ilə səsvermə imkanını nəzərdə tutur. Xaricdə olan vətəndaşlar səsverməni səfirliklərdə, yaxud sərhədyanı departamentlərdə həyata keçirir.

İtaliya qanunu vəkalətnamə, poçt ilə, yaxud da qeydiyyatdan çıxma vəsiqəsi ilə səsverməni nəzərdə tutmur, çünki bu cür səsverməni qeyri-konstitusion hesab edir. İtaliyanın 1947-ci il tarixli Əsas Qanunun 48-ci maddəsi səsvermənin şəxsi xarakterini qeyd edir. Yalnız bəzi kateqoriya vətəndaşlar üçün xüsusi prosedur nəzərdə tutulur (əlillər, korlar). Bu şəxslər etibar etdikləri adamların müşayiəti ilə səsvermə kabinəsinə daxil ola bilər. Xaricdə yaşayan və səsvermə günü siyahıya alındıqları yerdə ola bilməyən vətəndaşlar isə onların xaricə getməmişdən əvvəl siyahıya alındıqları kommunalarda şəxsən səs verə bilərlər. Belə şəxslərə İtaliyaya gəlmək və geri qayıtmaq üçün (yol xərci və s.) bəzi imtiyazlar verilir.

Bəs Azərbaycan Respublikasının seçki qanunvericiliyi bu problemi necə həll edir?

Azərbaycan Respublikasının Seçki Məcəlləsinə görə səsvermə günü seçicilər siyahısına daxil edilmiş, seçki məntəqəsində səsvermə imkanı olmayan seçici müvafiq dairə seçki komissiyasında (səsvermə gününə 45-25 gün qalmış) və ya məntəqə seçki komissiyasında (səsvermə gününə 24-3 gün qalmış) səsvermə vəsiqəsini ala bilər və həmin vəsiqə əsasında səsvermə günü olduğu ərazidəki seçki məntəqəsində səs verə bilər. Bu qayda Milli Məclisə

seçkilər zamanı müvafiq seçki dairəsinin ərazisində, prezident seçkilərində respublikanın bütün ərazisində, bələdiyyə seçkilərində isə müvafiq bələdiyyənin ərazisində tətbiq edilir.

Səsvermə vəsiqəsi müvafiq seçki komissiyası tərəfindən seçicinin ərizəsi əsasında seçiciyə və ya notariat qaydasında təsdiq edilmiş vəkalətnamə əsasında onun nümayəndəsinə verilir. Ərizədə seçicinin səsvermə vəsiqəsi almasının səbəbləri göstərilməlidir. Ərizə verildiyi gündən başlayaraq iki gün müddətində məntəqə seçki komissiyası dairə seçki komissiyasına müraciət edərək seçicinin əvvəl səsvermə vəsiqəsini alıb-almaması faktını araşdırmalıdır. Bir seçiciyə bir neçə səsvermə vəsiqəsinin verilməsi qadağandır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 105-ci maddəsinə görə, məntəqə seçki komissiyası səhhətinə görə səsvermə otağına gələ bilməyən seçicilərə səsvermədə iştirak etmək imkanı yaratmalıdır. Bu məqsədlə seçki məntəqəsində bir daşınan seçki qutusu olmalıdır. Əgər seçici seçki günü səhhətinə və ya digər üzrlü səbəblərdən seçki məntəqəsinə gələ bilməyəcəyini yəqin edərsə, o, seçkilər gününə azı 24 saat qalmış səsvermə otağından kənarda səs vermək istəyini məntəqə seçki komissiyasına yazılı və ya şifahi şəkildə, bilavasitə özü və ya digər şəxs vasitəsilə bildirməlidir.

Seçkilərin nəticələrinin müəyyən edilməsi

Səslərin ilkin hesablanması seçki məntəqələrində aparılır. Azərbaycan Respublikasının Seçki Məcəlləsində göstərilmiş saatda seçki qutuları açılır və məntəqə seçki komissiyaları bülletenlərin məlumatlarını toplayır. Məlumatlar protokolda qeyd edilir və dərhal yuxarı seçki komissiyasına göndərilir. Həmin komissiyalar protokolların məlumatlarını ümumiləşdirir və seçki dairəsi üzrə və ya

bütövlükdə ölkə üzrə seçkilərin nəticələrini müəyyən edir. Səslərin hesablanmasının gedişinə namizədlər, onların nümayəndələri, müşahidəçilər (daxili və xarici), kütləvi informasiya vasitələri nəzarət edirlər.

Azərbaycan Respublikasının seçki qanunvericiliyinə əsasən, ölkəmizdə konkret olaraq seçkilərin nəticələri aşağıdakı kimi müəyyən edilir.

Səsvermə müddəti başa çatdıqdan sonra, məntəqə seçki komissiyasının sədri ucadan elan edir ki, «yalnız seçki bülleteni almış və səsvermə otağında olan seçicilər səs verə bilərlər». Bu, o deməkdir ki, yalnız bu elanadək səsvermə otağında növbəyə dayanmış seçicilər səs verə bilərlər.

Seçki qutuları açılmamışdan əvvəl, istifadə edilməmiş seçki bülletenləri səsvermə otağındakı müşahidəçilərin müşahidəsi ilə məntəqə seçki komissiyasının üzvləri tərəfindən sayılır və ləğv edilir. Həmin seçki bülletenlərinin sayı elan edilir və səsvermənin yekun protokolunda qeyd olunur. Seçki bülleteni almış seçicilərin imzalarının sayı səsvermənin yekun protokoluna daxil edilir. Eyni zamanda, səsvermə vəsiqəsi ilə səs verən və ayrıca seçki məntəqəsindən kənarda, daşınan seçki qutusundan istifadə etməklə səs verən seçicilərin sayı yekun protokolunda göstərilir. Bundan sonra, məntəqə seçki komissiyasının sədri seçki qutularının möhür və plomblarının etibarlılığını yoxlayır, məntəqə seçki komissiyasının üzvlərini və müşahidəçiləri bununla əyani surətdə tanış edərək seçki qutularını açır.

Seçki qutuları növbə ilə açılır: əvvəlcə daşınan seçki qutusu, sonra isə daşınmaz seçki qutuları.

Məntəqə seçki komissiyasının sədri tərəfindən məntəqə seçki komissiyası üzvlərinin iştirakı ilə seçicilərin səslərinin hesablanması aparılır. Bu zaman istifadə edilmiş hər bir seçki bülleteni möhürlənir. Məntəqə seçki

komissiyasının bütün üzvlərini və müşahidəçiləri səsvermənin nəticələri ilə tanış edir.

Səsvermə başa çatıb səslər hesablandıqdan sonra, məntəqə seçki komissiyası müşahidəçilərin iştirakı ilə səsvermənin nəticələri haqqında 3 nüsxədən ibarət protokol tərtib edir.

Protokolun 1-ci nüsxəsi səsvermə günü məntəqə seçki komissiyasına seçki qanunvericiliyinin pozulması ilə əlaqədar daxil olmuş şikayətlər (ərizələr) və bunlar üzrə məntəqə seçki komissiyasının qəbul etdiyi qərarlar, məntəqə seçki komissiyası tərəfindən seçki bülletenlərinin alınması haqqında akt, istifadə edilməmiş seçki bülletenlərinin ləğv edilməsi haqqında akt, səsvermə vəsiqələrinin verilməsi və istifadə edilməyən səsvermə vəsiqələrinin ləğv edilməsi haqqında akt, seçki bülletenlərinin kəsilmiş sol künclərinin sayı haqqında akt, Seçki Məcəlləsinin 104.15-ci maddəsində göstərilən korlanmış seçki bülletenlərinin ləğv edilməsi haqqında akt, Seçki Məcəlləsinin 105.3-cü maddəsində göstərilən akt, seçki bülletenləri və məntəqə üzrə seçicilərin siyahısı əlavə edilməklə dərhal, lakin 24 saatdan gec olmayaraq məntəqə seçki komissiyası sədrinin və müxtəlif siyasi partiyaları təmsil edən iki üzvünün və müşahidəçilərin müşayiəti ilə dairə seçki komissiyasına göndərilir.

Azərbaycan Respublikası ərazisindən kənarda yaradılmış məntəqə seçki komissiyaları səsvermənin nəticələri haqqında protokolun 1-ci nüsxəsini ona əlavə edilmiş sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilmiş dairə seçki komissiyasına göndərirlər.

Məntəqə seçki komissiyası tərəfindən göndərilən sənədlər dairə seçki komissiyasının sədrinə təqdim edilir. Onun tapşırığı ilə komissiyanın üzvləri bu sənədləri seçki qanunvericiliyinin tələblərinə cavab verməsini, səsvermənin nəticələrində uyğunsuzluğun olub-olmamasını yoxlayırlar.

Sonra məntəqə seçki komissiyalarının protokollarında olan bütün məlumatların ümumiləşdirilməsi əsasında dairə seçki komissiyasının protokolu tərtib edilir. Göstərilən məlumatların ümumiləşdirilməsi fasiləsiz aparılır. Dairə seçki komissiyasının protokolunun 1-ci nüsxəsi müvafiq sənədlərlə birlikdə dairə seçki komissiyasının sədri və müxtəlif siyasi partiyaları təmsil edən üzvlərin müşayiəti ilə MSK-ya göndərilir.

Prezident seçkilərinin nəticələri üzrə Mərkəzi Seçki Komissiyası dairə seçki komissiyalarının protokollarında olan bütün məlumatların ümumiləşdirilməsi əsasında protokol tərtib edir. Milli Məclisə və bələdiyyələrə seçkilərin nəticələri üzrə Mərkəzi Seçki Komissiyasının protokolları tərtib edilmir. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə və bələdiyyələrə seçkilərin ümumi yekunları haqqında protokollar tərtib edilir.

Seçkilərin ilkin nəticələri dairə seçki komissiyası səsvermənin nəticələrinə dair protokolu MSK-ya təqdim etdikdən dərhal sonra Mərkəzi Seçki Komissiyası tərəfindən seçki dairələri üzrə səsvermənin nəticələrini ümumiləşdirən cədvəl şəklində dərc edilir və həmin məlumatlar Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilir.

§ 5. Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayət edilməsi.

Seçicilər, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, referendum üzrə təşviqat qrupları qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının vəkil edilmiş şəxsləri, müşahidəçilər,

habelə seçki komissiyaları vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər. Əgər şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına, mərkəzi Seçki Komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) isə apelyasiya instansiyası məhkəməsinə şikayət edə bilərlər (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, mad. 112.1, 112.3).

Seçki komissiyasına seçkilərin gedişi zamanı daxil olan hər bir şikayət üzrə qərar 3 gün müddətində, səsvermə gününə 30 gündən az müddət qalarsa 2 gün müddətində, lakin səsvermə günüdən gec olmayaraq səsvermə günü və yaxud növbəti gün isə dərhal qəbul edilir və şikayətçiyə çatdırılır (Azərbaycan Respublikasının Seçki Məcəlləsi 112.10).

Şikayətdə göstərilmiş qanun pozuntusu Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq cinayət hesab oluna bilərsə, müvafiq seçki komissiyası şikayətdə göstərilən çatışmamazlıqların və qanun pozuntularının aradan götürülməsinə dair qəbul etməklə yanaşı cinayət işinin başlanması məqsədi ilə müvafiq prokurorluq orqanına müraciət edə bilər. Hər bir şikayətə dair Mərkəzi Seçki Komissiyası əsaslandırılmış qərar qəbul etməlidir. Şikayətin araşdırılması zamanı cinayət əməlinin olması ehtimal edilərsə, bu barədə prokurorluq orqanına məlumat verilir. Müvafiq prokurorluq orqanı həmin məlumata 3 gün müddətində baxmalıdır.

Seçki komissiyalarının qərarlarından şikayətlərə məhkəmələr 3 gün müddətində baxmalıdırlar. Məhkəmə

qərarından yuxarı instansiya məhkəməsinə şikayət 3 gün müddətində verilə bilər (Azərbaycan Respublikasının Seçki Məcəlləsi 112.11).

Seçicinin seçici siyahısına daxil edilməsi ilə əlaqədar mübahisələrə dair ərizələr rayon (şəhər) məhkəmələrinə, seçki (referendumda iştirak) hüquqlarının müdafiəsinə dair digər məsələlərə isə apelyasiya instansiyası məhkəməsinə verilir.

Hüquq pozuntularının xarakterindən asılı olaraq seçki qanunvericiliyinin pozulmasına görə konstitusion-hüquqi, cinayət və inzibati məsuliyyət nəzərdə tutulmuşdur.

Konstitusiya hüquq məsuliyyətinin əsasını konstitusiya hüquq sahəsində olan hüquqpozmalar təşkil edir. Bu məsuliyyət dövlət məcburetmə tədbirlərinin səlahiyyətli orqan tərəfindən hüquqpozana qarşı tətbiq edilməsində ifadə olunur. Namizədin məsuliyyət dərəcəsini onun qeydiyyatının ləğv edilməsi təşkil edir. Namizədi məsuliyyətə cəlb edilməsinin subyekti kimi seçki komissiyası çıxış edir, belə ki, namizədin qeydiyyatını ləğv edərək seçki komissiyası yurisdiksiya funksiyasını realizə edir.

Namizədin qeydiyyatının ləğv edilmə əsaslarına aşağıdakılar aiddir:

1. Namizədlərin irəli sürülməsi qaydalarının pozulması;
2. Namizədlərin qeydə alınması qaydalarının pozulması;
3. Seçkiqabağı təşviqatın aparılması qaydalarının pozulması;
4. Seçki kampaniyasının maliyyələşdirilməsi qaydalarının pozulması;
5. Seçicilərin ələ alınması faktı, yəni namizəd, siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu və ya onların səlahiyyətli nümayəndələri və ya vəkil

edilmiş şəxsləri tərəfindən qadağan olunmuş hərəkətlərin edilməsi müəyyənləşdirildikdə.

6. Namizəd, siyasi partiyanın, siyasi partiyalar blokunun, təşviqat qrupunun səlahiyyətli nümayəndəsi vəzifə və ya xidməti mövqelərindən seçki kampaniyası zamanı istifadə etdikdə.

Namizədliyin irəli sürülməsi qaydalarının pozulması onların qeydiyyatının ləğvi əsası kimi aşağıdakılarda ifadə olunur:

Namizədin müdafiəsi üçün seçici imzalarının toplanması qaydalarının pozulması.

Dövlət orqanlarının, bələdiyyə qurumlarının, mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin imza toplamasında iştirakına yol verilmir. İmza toplanması prosesində seçiciləri imzalamağa məcbur etmək, imza atmağa imkan verməmək və ya buna görə onları hər hansı formada mükafatlandırmaq qadağandır. Həmin qadağaya əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu toplanmış imzaların etibarsız sayılması və namizədin qeydiyyatından, qeydə alınmış namizədlərin qeydiyyatından imtina üçün əsas ola bilər.

Seçkiqabağı təşviqatın aparılması qaydalarının pozulması onların qeydiyyatının ləğvi əsası kimi aşağıdakı kimi ifadə olunur:

Qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku, qeydə alınmış namizədin vəkil edilmiş şəxsi, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi və ya vəkil edilmiş şəxsi hərbi hissələrin yerləşdiyi ərazidə, hərbi təşkilatlarda və ya hərbi idarələrdə təşviqat apara bilməz.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq, seçkiqabağı təşviqat aparılarkən kütləvi informasiya vasitələrindən sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqat forması qadağandır.

Qeydə alınmış namizəd, referendum üzrə təşviqat qrupu yuxarıda qeyd edilən tələbləri pozduqda, müvafiq seçki komissiyası təqdimatla məhkəməyə müraciət etməlidir, digər dövlət orqanları da bu hüquqdan istifadə edə bilərlər. Qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu seçkiqabağı təşviqatın aparılmasının digər qaydalarını pozduqda müvafiq seçki komissiyası qeydə alınmış namizədə, siyasi partiyaya, siyasi partiyaların blokuna, referendum üzrə təşviqat qrupuna öz qərarı ilə xəbərdarlıq edir və ya qanunsuz təşviqat fəaliyyətinin qarşısının alınması barədə təqdimatla məhkəməyə müraciət edir.

Seçki komissiyasının maliyyələşdirilməsi qaydalarının pozulması onların qeydiyyatının ləğvi əsası kimi aşağıdakı kimi ifadə olunur:

a) müvafiq seçki dairəsi üzrə irəli sürülmüş namizəd öz seçki kampaniyasının maliyyələşdirilməsi üçün namizədin seçki fondunun xərclərinin müəyyən edilmiş yuxarı həddindən 5%-dən artıq digər pul vəsaitindən istifadə etdikdə və bu haqda əvvəl edilmiş xəbərdarlıq nəzərə alınmadıqda;

b) siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu öz seçki (referendum) kampaniyasının maliyyələşdirilməsi üçün onlar üçün müəyyənləşdirilmiş seçki fondlarının məsrəflərinin yuxarı həddindən 5%-dən artıq olan digər pul vəsaitindən istifadə etdikdə və bu haqda əvvəl edilmiş xəbərdarlıq nəzərə alınmadıqda;

c) qeydə alınmış namizəd, namizədləri qeydə alınmış siyasi partiya, siyasi partiyaların bloku onların fonduna daxil olan qanunsuz ianələrdən istifadə etdikdə və bu haqda əvvəl edilmiş xəbərdarlıq nəzərə alınmadıqda.

Seçicilərin ələ alınması faktı, yəni namizəd, siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu və ya onların səlahiyyətli nümayəndələri və ya vəkil

edilmiş şəxsləri tərəfindən qadağan olunmuş hərəkətlərin edilməsi müəyyənləşdirildikdə onların qeydiyyatının ləğvi əsası kimi aşağıdakı kimi ifadə olunur:

a) təşkilati işlərin yerinə yetirilməsi məqsədi istisna olmaqla, seçicilərə pul vəsaiti, hədiyyələr və digər qiymətli materiallar vermək (döş nişanları, yapışqanlı nişanlar, plakatlar və nominal dəyərə malik olan digər təşviqat materialları istisna edilməklə);

b) göstərilən təşkilati işi yerinə yetirən seçiciləri səsvermənin nəticəsindən asılı olaraq mükafatlandırmaq və ya belə mükafatlandırmanı vəd etmək;

c) malların güzəştli satışını, hər hansı malı (çap materialları istisna olmaqla) pulsuz vermək;

d) əvəzsiz və ya güzəştli şərtlərlə xidmətlər göstərmək;

e) seçkiqabağı təşviqat zamanı seçicilərə qiymətli kağızlar, habelə maddi sərvətlər, pul vəsaiti verəcəyini vəd etmək yolu ilə, habelə qanunvericiliyə zidd olan digər əsaslarla xidmətlər göstərilməsi ilə təsir etmək.

Namizəd siyasi partiyanın, siyasi partiyalar blokunun, təşviqat qrupunun səlahiyyətli nümayəndəsi vəzifə və ya xidməti mövqelərindən seçki kampaniyası zamanı istifadə etdikdə onların qeydiyyatının ləğvi əsası kimi aşağıdakılarda ifadə olunur:

a) tabelikdə və ya digər xidməti asılılıqda olan dövlət və bələdiyyə qulluqçuları sayılan şəxsləri iş vaxtı namizəd irəli sürülməsinə və ya seçilməyə kömək göstərən fəaliyyətə cəlb etmək;

b) bütün namizədlər və ya qeydə alınmış namizədlər dövlət orqanlarının, yaxud bələdiyyə orqanlarının yerləşdiyi binalardan eyni şərtlərlə istifadə edə bilmədikləri halda, bu binalardan namizəd irəli sürməyə və ya seçilməyə kömək göstərən fəaliyyətlə məşğul olmaq üçün istifadə etmək;

c) dövlət orqanlarının, təşkilatlarının, bələdiyyə qurumlarının fəaliyyətini təmin edən rabitə, informasiya, telefon vasitələrindən imzaların toplanması və seçkiqabağı təşviqat üçün istifadə etmək;

e) namizəd irəli sürülməyə və ya seçilməyə kömək üçün dövlət və ya bələdiyyə mülkiyyətində olan nəqliyyat vasitələrindən pulsuz və güzəştli şərtlərlə istifadə etmək;

d) dövlət və bələdiyyə qulluqçularını xidməti ezamiyyət zamanı imza yığılmasına və ya seçkiqabağı təşviqata cəlb etmək;

q) kütləvi informasiya vasitələrindən güzəştli şərtlərlə imza toplanması və ya seçkiqabağı təşviqat məqsədi ilə istifadə etmək;

j) namizədlər, namizədi irəli sürmüş siyasi partiyalar, siyasi partiyaların blokları və onların səlahiyyətli nümayəndələri, habelə təsisçiləri, mülkiyyətçiləri, sahibləri göstərilən şəxslər və təşkilatlar olan hüquqi şəxslər və onların xahişi və tapşırığı ilə hərəkət edən digər fiziki və hüquqi şəxslər seçki kampaniyasının gedişində xeyriyyə fəaliyyəti ilə məşğul ola bilməzlər. Göstərilən şəxslərin və təşkilatların digər fiziki və hüquqi şəxslərə maddi və maliyyə yardımı etmək, seçicilərə və ya təşkilatlara maliyyə yardımı, maddi yardım və xidmət göstərmək təklifi ilə müraciət etməsi qadağandır. Fiziki və hüquqi şəxslərin siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və ya namizədlər adından, yaxud onların müdafiəsi məqsədi ilə xeyriyyə fəaliyyəti ilə məşğul olması qadağandır.

Bundan başqa seçki komissiyası namizədin, referendum üzrə təşviqat qrupunun qeydiyyata alınmasından onlar tərəfindən təqdim etdikləri məlumatlar həqiqi olmadıqda və ya onların etibarsızlığı əhəmiyyətli xarakter daşıdıqda imtina edə bilər.

Qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupu tərəfindən seçicilərin ələ alınması və seçkilərin nəticələrini düzgün müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları seçkilərin ilkin nəticələrinin rəsmi dərc edilməsindən sonra aşkara çıxarıldıqda Mərkəzi Seçki Komissiyası seçkilərin yekunlarının rəsmi dərc edilməsinədək namizədin seçilməsinin və ya referendumun yekunlarının etibarsız sayılması haqqında Apellyasiya İnstansiya Məhkəməsinə müraciət edə bilər.

Məhkəmə göstərilən pozuntuların olduğunu müəyyənləşdirərkən həmin pozuntuların seçicilərin iradəsini düzgün müəyyənləşdirməyə imkan vermədiyini hesab edərsə, seçkilərin yekunları haqqında müvafiq seçki kosmissiyasının qərarını ləğv edə bilər. Bu halda seçilmiş namizədin səlahiyyətləri itirilmiş hesab edilir.

Seçki dairəsində seçicilərin siyahısının tərtib edilməsi, seçki komissiyalarının yaradılması, səsvermə, səslərin hesablanması və ya seçkilərin yekunlarının müəyyənləşdirilməsi qaydaları pozulduqda, digər pozuntular olduqda və bu hərəkətlər (hərəkətsizlik) seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə müvafiq məhkəmə birmandatlı və vahid seçki dairəsi üzrə səsvermənin nəticələri və ya seçkilərin yekunları haqqında seçki komissiyasının qərarını ləğv edə bilər.

Müvafiq məhkəmə və ya Mərkəzi Seçki Komissiyası məntəqə və dairə seçki komissiyalarının səsverməsinin nəticələri və ya seçkilərin yekunları haqqında qərarlarını ləğv edə bilər.

Vətəndaşların seçki hüquqlarının pozulmasında təqsirkar bilinən şəxslər cinayət, mülki və inzibati məsuliyyətə cəlb edilə bilərlər.

Azərbaycan Respublikasında seçki hüququna qəsdə görə cinayət məsuliyyəti müəyyən olunmuşdur.

Cinayət Məcəlləsində həmin pozuntular aşağıdakı kimi müəyyən edilmişdir:

- seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə mane olma (Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, mad. 159);

- seçkilərdə (referendumda) iştirak qaydalarını pozma (Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, mad. 159-1);

- seçki (referendum) komissiyalarının işinə müdaxilə etmə və ya təsir göstərmə (Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, mad, 160);

- seçki (referendumda iştirak) sənədlərini saxtalaşdırma, bilə-bilə düzgün hesablamama, yaxud səsvermənin gizliliyini pozma (Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, mad. 161).

Keçmiş müttəfiq respublikalarının bəzilərinin qanunvericiliyində, məsələn, Belarus Respublikası Cinayət Məcəlləsinin 191-ci maddəsində, Rusiya Federasiyası Cinayət Məcəlləsinin 141-ci maddəsində, Qazaxıstan Respublikası Cinayət Məcəlləsinin 139-cu maddəsində, Gürcüstan Respublikası Cinayət Məcəlləsinin 163-cü maddəsində, Tacikistan Respublikası Cinayət Məcəlləsinin 150-ci maddəsində qeyd edilən əməllərlə yanaşı, seçki komissiyalarının işinə mane olmağa görə də cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Bəzi ölkələrdə bu tərkiblərdən savayı seçki hüquqlarının digər şəkildə pozulmasına görə də məsuliyyət nəzərdə tutulmuşdur. Belə ki, ABŞ-ın federal qanununa (29-cu fəsil) əsasən özünün namizədliyinə dəstəyi təmin etmək məqsədi ilə vəzifəyə təyin etməni vəd etmə (599-cu maddə) seçkilər və siyasi fəaliyyət əleyhinə cinayət hesab edilir; Moldovada (Cinayət Məcəlləsinin 133,1-ci maddəsi), Latviyada (Cinayət Məcəlləsinin 91-ci maddəsi) və Estoniyada (Cinayət Məcəlləsinin 132,1-ci maddəsi)

deputatlığa namizəd barədə bilə-bilə yalan məlumatları yayma cəzalandırılır; Bolqarıstan Cinayət Məcəlləsinin 168-ci maddəsində qeyd olunur ki, Bolqarıstanda seçki hüququna malik olmadan seçki hüququnu həyata keçirən şəxs cəzalandırılır; Alman qanunvericiliyi bu müddəanı dəqiqləşdirərək bildirir ki, analoji hərəkət «seçkilərin nəticələrinin düzgün olmamasına birbaşa təsir göstərir (107a); «İsveçrədə seçiciləri ələ alma ilə yanaşı» «seçici səslərin ovlanması»da cinayət hesab olunur; Özbəkistan Cinayət Məcəlləsinin 147-ci maddəsi seçkili vəzifəyə namizədin müvəkkillərinə mane olmağa görə xüsusi cinayət məsuliyyəti müəyyən etmişdir.

Bir sıra Avropa dövlətlərində, (məsələn, Hollandiyanın Cinayət Məcəlləsinin 126-cı maddəsi, İsveçin Cinayət Məcəlləsinin 17-ci fəslinin 8-ci maddəsinin 1 və 3-cü hissələri, Danimarkanın Cinayət Məcəlləsinin 177-ci maddəsi, İsveçrənin Cinayət Məcəlləsinin 281-ci maddəsi) seçkilərdə ələ almağa görə bu qanunsuz hərəkətlərin hər iki subyekti üçün-həm ələ alan, həm də ələ alınan üçün məsuliyyət müəyyən edilmişdir.

İnzibati məsuliyyətin tətbiqi əsası Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 39-42, 42-1-42-4, 43-43-1, 44, 45-1-45-2, 46-48 maddələri ilə müəyyən edilib.

Vətəndaşların seçki hüquqlarının təmin olunması sahəsində daxili işlər orqanların vəzifələri.

Seçki sistemi vətəndaşların seçki hüququna bütövlükdə zəmanət verən, seçkiqabağı mübarizə şəraitini özündə ehtiva etməklə seçki prosesində lazımi səviyyəni təmin edir.

Seçki azadlığının zəmanətləri sırasına seçicilərə real dərk edilmiş və məsuliyyətli iradə azadlığını, habelə vətəndaşların və seçki bloklarının seçici maraq və

hüquqlarını təmin edən vasitə və şərtlər daxil edilə bilər. Bu siyasi hüquqların təmin olunmasında vətəndaşların seçki hüquqlarının realizəsi zamanı daxili işlər orqanlarının cinayətlər və digər hüquqpozmalarla mübarizə üzrə fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Daxili işlər orqanlarının adı çəkilən fəaliyyəti əməliyyat-axtarış, cinayət prosessual və inzibati fəaliyyət kimi təşkilatı-hüquqi formalarda gerçəkləşir.

Respublikamızın dünya dövlətləri ilə inteqrasiyası, milli qanunvericiliyin sosial sifarişdən irəli gələrək dinamik inkişafı vətəndaşların seçki hüquqlarının təmini, həmçinin mühafizə və müdafiəsi üzrə dövlət hakimiyyət orqanları, xüsusilə də daxili işlər orqanları üçün yeni məqsədlər müəyyən edir. Belə ki, ictimai hakimiyyət orqanlarının formalaşdırılması prosesinə hüquqi nəzarətin zəifləməsi cəmiyyətin idarə edilməsi mühitinə cinayətkarlığın təsir göstərməsi, kriminal elementlərin dövlət hakimiyyət orqanlarına nüfuz etməsi üçün real təhlükə yarada bilər. Məhz bu səbəbdən araşdırılan sahədə daxili işlər orqanlarının fəaliyyətinin öyrənilməsi və təkmilləşdirilməsi son dərəcə vacib hesab olunur.

Son zamanlar seçkilərin keçirilməsi prosesində formalaşmış beynəlxalq standartlar, eyni zamanda vətəndaşların seçki hüquqlarının təmini ilə əlaqədar daxili işlər orqanlarının fəaliyyətini nizamlayan normalar Azərbaycan Respublikasının seçki qanunvericiliyində təsbit olunmuşdur.

Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının təmini sahəsində daxili işlər orqanlarının digər hüquq-mühafizə orqanları və seçki komissiyaları ilə qarşılıqlı fəaliyyət formaları, eləcə də bu fəaliyyətin təşkilinin qanunvericilikdə təsbit olunması son dərəcə mühüm əhəmiyyətə malikdir. Respublikada seçki kampaniyası zamanı daxili işlər orqanlarının fəaliyyəti

xüsusi şərtlərlə xarakterizə edilə bilər. Məhz bu səbəbdən əməkdaşlar peşəkarlığa, hüquqi savadlılığa və yüksək ruha, eləcə də siyasi-hüquqi mədəniyyətə malik olmalıdır.

Daxili işlər orqanlarının vəzifələrindən biri məntəqə seçki komissiyalarının təhlükəsiz fəaliyyət göstərməsinə şərait yaratmaqdan ibarətdir. Bu məqsədlə aşağıdakı kompleks tədbirlər realizə olunur:

- yuxarı seçki komissiyasından aşağı seçki komissiyasına seçki bülletenlərinin aparılması zamanı polis əməkdaşlarının müşayiət etmələri üzrə. Mərkəzi seçki komissiyası seçki bülletenlərini nəşriyyatdan alandan sonra akt üzrə dairə seçki komissiyalarına göndərir. Dairə seçki komissiyası tərəfindən seçki bülletenləri səsvermə gününə azı 3 gün qalmış seçki məntəqələrinə gətirilir.

Dairə seçki komissiyalarının sədrləri seçki bülletenlərinin məntəqə seçki komissiyalarına təhlükəsiz çatdırılmasını təmin etməlidir. Bunun üçün polis əməkdaşları işə cəlb olunurlar.

Seçki bülletenləri məntəqə seçki komissiyalarının otağında gecə-gündüz 2 polis əməkdaşlarının mühafizəsi altında saxlanılır.

Seçki komissiyasının sədrləri seçki bülletenlərinin alınması, göndərilməsi və saxlanması üçün məsuliyyət daşıyır.

Məntəqə seçki komissiyasının səsvermənin yekunları haqqında tərtib edilmiş protokolları yuxarı seçki komissiyasına müşayiətlə çatdırılır. Səslər hesablandıqdan sonra seçki məntəqəsində seçki komissiyası tərəfindən tərtib olunmuş protokollar və bütün seçki sənədləri zərflərə qoyulub möhürlənəndən sonra məntəqə seçki komissiyasının vəzifəli şəxsləri tərəfindən yuxarı seçki komissiyasına göndərilir. Protokolların təhvil verilməsi zamanı müşahidəçilər iştirak edə bilərlər.

Polis əməkdaşının vəzifəsi məntəqə seçki komissiyasının vəzifəli şəxsini seçki sənədləri ilə məntəqə seçki komissiyasının avtonəqliyyatında yuxarı seçki komissiyasının avtomobil müşayiətini təmin etməkdir.

Məntəqə seçki komissiyasının sənədlərinin yuxarı seçki komissiyasına göndərilməsinin marşrutu qabaqcadan dəqiqləşdirilir.

Dövlət yol polisinin nümayəndələri məntəqə seçki komissiyasına seçki günü ayrılmış nəqliyyat vasitələrinin texniki vəziyyətinin yoxlanılmasına kömək göstərir.

- məntəqə seçki komissiyalarının yerləşdiyi binaların və seçki sənədlərinin mühafizəsi üzrə. Seçki ərəfəsində seçki kampaniyasında iştirak edən siyasi rəqiblər arasında qarşıdurma kəskinləşir. Bununla əlaqədar olaraq istər seçki qərargahı yanında, istərsə də siyasi partiyaların (namizədlərin) qərargahlarının yerləşdiyi otaqlarda mübahisə, münaqişə, toqquşma və provokasiya hərəkatı təşkil edilə bilər.

Siyasi partiyaların (namizədlərin) səlahiyyətli nümayəndələri dairə və məntəqə seçki komissiyalarına, onların seçki qərargahının yerləşdiyi yeri haqqında məlumat verir. Seçki komissiyaları bu haqda daxili işlər orqanlarına siyasi partiyaların (namizədin) seçki qərargahının yerləşdiyi binanın bilavasitə yaxınlığında polis keşiyi marşrutlarının müəyyən olunması üçün məlumat verir. Patrul keşiyi çəkən polis əməkdaşları dairə və məntəqə komissiyalarının telefon nömrələrini, seçki qərargahlarının yerləşdiyi ünvanı, komissiyaların vəzifəli şəxslərinin adlarını, soyadlarını və atalarının adlarını, seçki qərargahlarının rəhbərlərinin adlarını, soyadlarını və atalarının adlarını bilməlidirlər.

Seçki məntəqəsinin yanında, seçki qərargahı yerləşən binada qanun pozuntusu baş verərsə, polis əməkdaşları tez bir halda həmin qanun pozuntusunun qarşısını almalı, qanun pozuntusunu törədən şəxsə qarşı saxlanması tədbiri

görməklə operativ surətdə müvafiq seçki komissiyasına məlumat verməlidir.

Seçki qərargahına daxili işlər orqanları tərəfindən məlumat verilməlidir ki, polis əməkdaşları tərəfindən onların otaqları ətrafında patrul keşiyi həyata keçirilsin, qərargahın məntəqə və dairə seçki komissiyası və müvafiq polis şöbəsi ilə rabitə əlaqəsi qurulsun.

Məntəqə seçki komissiyasının otağı mühafizə altına alınır. Seçki məntəqəsinin və komissiyasının yerləşdiyi binanın mühafizəsi üçün polis əməkdaşları tərəfindən təhlükəsiz patrul keşiyi çəkilməyi nəzərdə tutan marşrut seçilir.

Məntəqə seçki komissiyasının otağının mühafizəsi polis əməkdaşları ilə məntəqə seçki komissiyasının sədri arasında komissiyaya daxil olan seçki sənədlərinin-seçicilərin siyahısı qəbul olunduqdan sonra, seçki bülletenlərinin məntəqə seçki komissiyalarına qəbul olunduqdan sonra və saxlanılması üçün gecə-gündüz mühafizəsi qabaqcadan razılaşdırılır. Sədr polis əməkdaşının yerləşəcəyi yeri təyin edir (bir qayda olaraq seçki sənədlərinin saxlandığı məntəqə seçki komissiyasının otağında).

Məntəqə seçki komissiyasının sədri iş günü qurtarandan sonra polis əməkdaşının iştirakı ilə seçki sənədlərini otaqda olan seyfə qoyub möhürləyirlər və sonra otaq polis əməkdaşının mühafizəsinə verilir.

Məntəqə seçki komissiyasının otağı yanğınsöndürmə vasitəsi, rabitə vasitəsi və məntəqə seçki komissiyasının məhsul şəxslərinin əlaqə telefonu olan siyahı ilə təmin olunmalıdır.

Seçki məntəqəsinin mühafizə olunan otağı (otaqları) gecə növbəsi zamanı vaxtaşırı dövrələmə baxışı keçirirlər.

Polis əməkdaşı məntəqə seçki komissiyasının otaqlarının hüdudlarından kənarda fövqəladə növbədənkənar

situasiya baş verdiyi halda yubanmadan hadisə haqqında mühafizə etdiyi otağı tərk etmədən növbətçi hissəyə və məntəqə seçki komissiyasının sədrinə xəbər verir.

Otaqda yanğın baş verdikdə polis əməkdaşı bu halda polisin növbətçi hissəsinə, məntəqə seçki komissiyasının vəzifəli şəxslərinə xəbər verir əlavə qüvvə gələnə qədər (polis, yanğın söndürmə mühafizəsi və məntəqə seçki komissiyasının məhsul şəxsləri) sərbəst şəkildə yanğın söndürülməsi üçün tədbirlər görür ondan sonra texnoloji avadanlıqların və seçki sənədlərinin təxliyəsinə yardım edir.

Məntəqə seçki komissiyasının otağı seçki günü açılır.

Gecə növbəsindən sonra seçki günü polis əməkdaşı məntəqə seçki komissiyasının otağının qapısını məntəqə seçki komissiyasının sədr və üzvlərinin gəlişindən sonra açır. Mühafizə olunan otağı (otaqları) və möhürlənmiş seyfi onlara təhvil verir.

Polis əməkdaşının iştirakı ilə məntəqə seçki komissiyasının sədri komissiya üzvləri ilə birlikdə seyfi açıb oradan seçki komissiyasının işinə lazım olan sənədləri götürür.

Məntəqə və dairə seçki komissiyalarının seçkilərin keçirilməsi ilə bağlı sənədləri mühafizə edilən yerlərdə saxlanılır.

Seçki bülletenləri və səsvermə vəsiqələri seçkilərin yekunlarının rəsmi dərci günündən başlayaraq azı 6 ay müddətində dairə seçki komissiyalarında saxlanılır. Seçki komissiyalarının səsvermənin nəticələri barədə protokolları növbəti seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərci günündən başlayaraq azı 1 il müddətində Mərkəzi Seçki Komissiyasında saxlanılır. Seçki komissiyalarının maliyyə hesabları qeydə alınmış namizədlərin, siyasi partiyaları, siyasi partiya bloklarının, referendum üzrə təşviqat qruplarının yekun maliyyə sənədləri növbəti seçkilərin təyin edilməsi

haqqında qərarların rəsmi dərci günündən sonra azı 1 il müddətində Mərkəzi Seçki Komissiyasında saxlanılır.

Seçki bülletenləri, səsvermə vəsiqələri, seçicilərin siyahıları, səsvermənin nəticələri haqqında seçki komissiyalarının protokolları və onlara əlavə edilmiş sənədlər, seçki komissiyalarının maliyyə hesabatları qeydə alınmış namizədlərin, qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının referendum üzrə təşviqat qruplarının yekun maliyyə hesabatları rəsmi sənədlər sayılır. Seçki sənədlərinin mühafizəsinə və saxlanılmasına görə müvafiq seçki komissiyalarının sədri bu sənədlər yuxarı seçki komissiyasına və ya dövlət arxivinə təhvil veriləndən məsuliyyət daşıyırlar. Həmin sənədlərin göndərilənə qədər mühafizəsi polis əməkdaşları tərəfindən aparılır.

- seçki günü və ondan sonra məntəqə seçki komissiyalarının üzvlərinin qanuni fəaliyyətinin həyata keçirilməsi ilə (eyni zamanda əgər onlara təzyiq və ya digər təhdid varsa) əlaqədar. Polis seçkilərdə qanuna uyğun olaraq asayişi qorumalıdır. Polis əməkdaşı seçki prosedurasına qarışa bilməz, seçicilərə seçki hüquqlarını reallaşdırmaq üçün məsləhət verə bilməz.

Polis əməkdaşı asayişi qoruyarkən, seçicilərlə və digər şəxslərlə ünsiyyətdə ədəbli və nəzakətli olmalı, istənilən situasiyada, o cümlədən vətəndaşdan nizam-intizama riayət etməyi tələb etdikdə belə səbir və təmkinlik göstərməlidir.

Seçki Məcəlləsinə əsasən səsvermədə seçici kimi iştiraketmə halları istisna edilməklə, dövlət orqanlarının vəzifəli şəxslərinin olması qadağandır. Hüquq mühafizə orqanlarının əməkdaşları məntəqədə asayişin bərpa edilməsi məqsədi ilə, məntəqə seçki komissiyasının sədri tərəfindən seçki məntəqəsinə dəvət oluna bilərlər və öz vəzifələrini icra etdikdən sonra seçki məntəqəsini dərhal tərk etməlidirlər. Hüquq mühafizə orqanının əməkdaşı səsvermə zamanı səsvermə otağında olduqda səsvermə dayandırılır. Səsvermə

zamanı asayişi bərpa etmək 6 saatdan artıq mümkün olmazsa, dairə seçki komissiyasının qərarı ilə seçki məntəqəsi bağlanır. Belə seçki məntəqəsində səsvermə etibarsız sayılır.

Seçki Məcəlləsinə əsasən qeydiyyatdan keçmiş namizəd, siyasi partiya seçkilər keçirilən zamanı özünün müşahidəçisini təyin edir.

Məcəllə ilə müşahidəçilərin digər ictimai birliklər tərəfindən də təyin edilməsi nəzərdə tutulmuşdur.

Müşahidəçilər öz hüquqlarını yaxşı bilməli və məcəllədə onlara aid olmayan hərəkətlərə yol verməməlidir.

Seçki Məcəlləsinə əsasən, seçicinin öz iradəsini ifadə etməsinə təsir göstərməyə cəhd edən və ya gizli səsverməni pozan müşahidəçi məntəqə seçki komissiyasının qərarına əsasən otaqdan çıxarıla bilər.

Müşahidəçinin otaqdan çıxarılması barədə məntəqə seçki komissiyasının qərarını yerinə yetirməkdən imtina etdikdə məntəqə seçki komissiyasının sədri hüquq-mühafizə orqanlarının işçilərini məntəqədə asayişin bərpa edilməsi məqsədilə dəvət edə bilər. Həmin şəxslər öz vəzifələrini icra etdikdən sonra seçki məntəqəsini dərhal tərk etməlidir.

Bölmə-V. Xalq hakimiyyətinin nümayəndəli demokratiya formaları.

Fəsil 6. Azərbaycan Respublikasının Dövlət başçısı.

§1. Dövlət hakimiyyəti sistemində Dövlət Başçısı institutunun yeri və rolu.

Xalq hakimiyyəti sistemində xüsusi yer nümayəndəli demokratiyanın ən mühüm forması sayılan prezidentlik institutuna məxsusdur.

Prezident termini latıncadan “öndə gedən”, “sədrlik edən” mənasını verir. Bəzi ölkələrdə bir sıra dövlət və qeyri-dövlət təşkilatlarının da rəhbər orqanı prezident adlanır (məsələn: Dövlət Neft Şirkətinin Prezidenti, AMEA-nın Prezidenti, hansısa özəl iqtisadi kompaniyanın Prezidenti və s.).

Prezident hər şeydən əvvəl dövlət başçısı funksiyalarını həyata keçirən ali ümumxalq nümayəndəli, seçkili orqandır, xalqın dövlətçilik rəmzidir. Parlamentdən fərqli olaraq Prezident xalq hakimiyyətini təkbaşçılıq prinsipi əsasında həyata keçirir. Düzdür, bəzi xarici dövlətlərin konstitusiya təcrübəsində kollegial dövlət başçısı institutuna da rast gəlmək olur (məsələn, İsveçrə Konfederasiyası). İsveçrədə dövlət başçısı və hökümətin (kabinetin) səlahiyyətlərini Federal Şura adlanan vahid kollegial orqan həyata keçirir. İsveçrə Konfederasiyasının 1999-cu il Konstitusiyasına görə Federal Şura Konfederasiyasının ali icra və sərəncam orqanıdır. Federal Şura parlament tərəfindən seçilən 7 üzvdən ibarətdir və onlardan biri hər il dekabr ayında prezident (sədr) seçilir (maddə 174). Konfederasiyanın Prezidenti təmsilçilik funksiyasını yerinə yetirir, Federal Şuranın digər üzvlərindən fərqli heç bir üstünlüklərə malik deyildir.

Bütün bunlara baxmayaraq bu gün dünya təcrübəsində dövlət başçısı orqanının kollegial formasına çox az rast gəlinir. Müasir dövlətlərin əksəriyyətində Prezident təkbaşçılıq prinsipi əsasında fəaliyyət göstərir. Zənnimizcə bu cür vəziyyət dövlət başçısı funksiyalarının səmərəli yerinə yetirilməsi üçün daha münasibdir.

Dövlət quruculuğu təcrübəsində prezidentlik institutu iki yüz ildən çox tarixə malikdir. Prezidentlik institutunun yaranma tarixi bəzi xarici ölkələrdə burjua inqilabları nəticəsində monarxiyanın ləğvi və yeni tipli respublika idarəçilik formasının yaranmasına təsadüf edir. Respublikalı

idarəçilik formasında Prezident vəzifəsinin təsis olunması obyektiv xarakter daşıyırdı. Bu cür vəziyyəti ilk növbədə monarxiyanı ləğv etmiş ölkələrdə istər ölkə daxilində, istərsə də beynəlxalq münasibətlərdə personifikasiyalaşdırılmış təmsilçiliyin zəruriliyi tələb edirdi. Dövlətçilik tarixində ilk dəfə prezidentlik institutu XVIII əsrdə ABŞ-da təsis edilmiş (1787-ci il Konstitusiyası ilə) və 1789-cu ildə C.Vaşinqton Amerika Birləşmiş Ştatlarının birinci Prezidenti seçilmişdir.

XIX əsrin birinci yarısında ABŞ-ın bu təcrübəsini bir sıra Latın Amerikası ölkələri də qəbul etdilər (məsələn, Venesuela 1812-ci il, Kolumbiya 1819-1831-ci il və s.).

Avropada isə dövlət başçısı kimi prezidentlik institutu ilk dəfə Fransa və İsveçrədə (1848-ci il) yaranmışdır.

Azərbaycan xalqının dövlətçilik irsində dövlət başçısı vəzifəsinin qədim tarixə malik olmasına baxmayaraq xalq hakimiyyətinin nümayəndəli demokratiya forması kimi prezidentlik institutunun yaranması ölkəmizdə XX əsrin sonuna təsadüf edir.

1990-cı il may ayının 19-da Azərbaycan SSR Ali Sovetinin sessiyası respublikamızda ilk prezidentlik institutunu təsis etdi və A.Mütəllibovu bu vəzifəyə təyin etdi desək hüquqi cəhətdən daha düzgün olardı.

26 iyun 1991-ci il tarixdə iki fəsildən və 18 maddədən ibarət Prezident seçkiləri haqqında qanun qəbul olundu. Qanuna görə Prezidentliyə namizədliyə dair 65 yaşdan yuxarı, 35 yaşdan isə aşağı həddolmaqla yaş senzi müəyyən edilirdi. Ümumiyyətlə demokratik ölkələrin konstitusiya quruculuğu təcrübəsində prezident seçkilərində namizədliyə dair yuxarı yaş senzinin müəyyənləşdirilməsi hallarına rast gəlinmir. Həmin dövrdə Azərbaycanda mövcud olan siyasi şəraitin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, həmin vaxt ölkəmizin dövlət idarəçiliyində təmsil olunan Moskvanın rəhbər marionet rejimi xalqının dərdinə qalan və

onunla birlikdə öz suverenliyi uğrunda mübarizə aparan Heydər Əliyev şəxsiyyətinin cəmiyyət arasında böyük nüfuzundan qorxuya düşmüş və Prezidentliyə namizədlərə dair yuxarı yaş senzinin (65 yaş) müəyyənləşdirilməsi yolu ilə onlar Heydər Əliyevin Prezident seçkilərində iştirak etməsi üçün süni maneələr yaratmışlar.

Öz hakimiyyətini ümumxalq seçkisi ilə qanuniləşdirməyə çalışan Azərbaycanın o vaxtki marionet siyasi rejimi 1991-ci il sentyabrın 8-də prezident seçkilərinin keçirilməsini elan etdilər. Nəticə etibarilə A.Mütəllibov yenidən Prezident vəzifəsini tutdu.

1992-ci il fevralın 26-da ermənilər XX əsrin ən böyük faciələrindən biri olan Xocalı soyqırımını törətdilər. Yaranmış şəraitdə martın 6-da respublika prezidenti A.Mütəllibov istefa verməyə məcbur oldu.

1992-ci il iyunun 7-də yeni prezident seçkilərində AXCP-nin sədri Əbülfəz Elçibəy prezident seçildi.

1992-ci ildə demokratik xarakterli populist çıxışları ilə xalq arasında özünə nüfuz qazanan, əslində isə demokratiyanın mahiyyətini bilməyən, demokratik dövlət quruculuğu qabiliyyətindən uzaq olan, öz ambisiyalarını xalqın mənafeyindən üstün tutan, dövlət idarəçiliyində səriştəsiz şəxslərin siyasi hakimiyyətə gəlməsi Ermənistanın hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və onun ətrafındakı rayonların işğalı Azərbaycanda demokratiya ilə deyil, sosial-iqtisadi böhran və xaosla nəticələndi, ölkəmiz vətəndaş müharibəsi təhlükəsilə üzləşdi. Belə bir ağır vəziyyətdə xalq cəbhəsi hakimiyyəti Heydər Əliyevi xalqın tələbi ilə Bakıya dəvət etdi.

Ölkəmizin ağır vəziyyətində xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu dövrdə parlamentdə Heydər Əliyevin prezident seçilməsi fikirləri də səslənirdi. Lakin o bu təkliflərin

hamısını rədd edərək qeyd etdi ki, mən həyatım boyu dövlətin Konstitusiya və qanunlarına sadiq olmuşam və bu gün də sadiqəm. Hər şey qanun çərçivəsində həll olunmalıdır. Biz öncə referendum yolu ilə ölkənin ağır vəziyyətində özü-özünü hakimiyyətdən kənarlaşdıran prezidentin addımına siyasi qiymət verməliyik və əgər referendum nəticəsində ona etimadsızlıq göstərilərsə, yeni prezident seçkiləri təyin edilməlidir. Bu seçkilərdə mənimlə birlikdə hər bir azərbaycan vətəndaşına öz namizədliyini irəli sürmək imkanı yaradılmalıdır ki, xalq da istədiyi namizədə öz səsini versin.

Belə də oldu, 1993-cü ilin avqust ayının 29-da Azərbaycan vətəndaşlarının 98,5 faizi Əbülfəz Elçibəyə etimadsızlıq göstərdi və referendumla ölkəmizdə ədalətli seçkilərin əsası qoyuldu. 1993-cü ilin oktyabr ayının 3-də keçirilən prezident seçkilərində ümummilli lider Heydər Əliyev alternativləri üzərində böyük nisbətlə üstünlük qazanaraq dövlət rəhbəri seçildi. Bu seçkiləri ölkə tarixində ilk dəfə olaraq xarici müşahidəçilər də izlədilər və onlar yekun rəylərində prezident seçkilərinin bütün demokratik normalara cavab verdiyini bəyan etdilər.

Yenidən respublika rəhbərliyinə qayıtmış H.Əliyev dövlətçiliyin möhkəmləndirilməsi üçün çox mühüm tədbirlər həyata keçirdi. 1994-cü il sentyabrın 20-də Azərbaycanın iqtisadi dirçəlişi üçün çox vacib olan "Əsrin müqaviləsi" imzalandı. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə müstəqil Respublikanın ilk Konstitusiyası qəbul edildi. Həmin vaxt Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirildi.

1998-ci il oktyabrın 11-də alternativ əsasda keçirilən seçkilərdə Heydər Əliyev qələbə qazanaraq yenidən 5 il müddətinə Azərbaycan Respublikasının prezidenti seçildi. Onun rəhbərliyi ilə hüquqi, iqtisadi və demokratik islahatlar dönmədən davam etdirilirdi. Onlardan ən mühümü XX əsrin

sonunda müstəqil dövlətimizin ilk demokratik Konstitusiyasının qəbuludur.

Demokratik ölkələrin konstitusiya quruculuğu təcrübəsində hakimiyyətlər bölgüsü sistemində Dövlət başçısının yeri, vəzifə və funksiyaları fərqlidir.

Struktur nöqteyi nəzərdən elə ölkələr var ki, burada dövlət başçısı heç bir hakimiyyət qoluna daxil deyildir. Məsələn, AFR-in 1948-ci il Konstitusiyasında (b 1, maddə 55) qeyd olunur ki, Prezident heç bir hakimiyyət qoluna daxil deyildir; İtaliya Konstitusiyasında (1947) isə göstərilir ki, Prezident vəzifəsi başqa vəzifələrlə uzlaşmır. İkinci qrup ölkələrdə dövlət başçısı strukturca həm qanunvericilik, həm də icra hakimiyyəti qollarına daxildir (məsələn, Hindistan, Belçika) Belçika Konstitusiyasına görə (1831-1994-cü il redaktəsi) kral qanunvericilik hakimiyyətinə daxildir və icra hakimiyyəti ona mənsubdur. Üçüncü qrup ölkələrdə dövlət başçısı icra hakimiyyətinə daxildir (ABŞ, Braziliya, Luksemburq və s.); Dördüncü qrup ölkələrdə isə dövlət başçısının hakimiyyəti rəmzi xarakter daşıyır və o, real səlahiyyətlərə malik olmur (Yaponiya, İsveç, İngiltərə).

Azərbaycan Respublikasının yeni 1995-ci il (əlavə və dəyişikliklərlə) Konstitusiyasına görə prezidentlik institutu aşağıdakı cəhətləri ilə səciyyələnir:

1. Azərbaycan Respublikasının Prezidenti dövlət başçısıdır və bu ali vəzifəni yerinə yetirmək üçün müvafiq vəzifə və funksiyalara malikdir;

2. Azərbaycan Respublikasının Prezidenti xalq suverenliyi, hakimiyyətlər bölgüsü, demokratik, hüquqi dövlət, unitarlıq, respublikaçılıq, dünyəvilik, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, vətəndaşların layiqli həyat səviyyəsinin təminatı prinsipləri əsasında fəaliyyət göstərir;

3. Hakimiyyətlər bölgüsü sistemində icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur. Bu

mexanizm tarazlıq və çəkindirmə sistemi ilə müşahidə olunur;

4. Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər. Bir şəxs eyni zamanda iki, üç hakimiyyət qolunda təmsil oluna bilməz;

5. Prezident ümumi, bərabər və birbaşa seçki hüququ əsasında, gizli və şəxsi səsvermə yolu ilə Azərbaycan Respublikasının vətəndaşları tərəfindən 7 il müddətə seçilir. Respublikamızın ərazisində 10 ildən artıq daimi yaşayan, seçki hüququ olan, ağır cinayətlərə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının vətəndaşı Prezident seçilə bilər;

6. Qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir. Prezident qanunvericilik təşəbbüsü və veto hüququna malikdir.

Yuxarıda qeyd olunan konstitusiya normaları əsasında struktur baxımından ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti icra hakimiyyətinə daxildir. Belə ki Azərbaycan Respublikası Konstitusiyasının 99 maddəsində qeyd olunur ki, icra hakimiyyəti Prezidentə mənsubdur. Bu konstitusiya norması onu deməyə əsas verir ki, respublikamızda icra hakimiyyəti sisteminə Prezident rəhbərlik edir və bu kontekstdə konstitusiya qanunvericiliyi onun səlahiyyətlərini müəyyən edir. Lakin, bütün bunlara baxmayaraq Azərbaycan Respublikasının Prezidenti hər şeydən əvvəl Dövlət başçısıdır və bu ali vəzifənin həyata keçirilməsi sahəsində mühüm funksiyalara malikdir.

Nəzəri mənbələrə görə Prezidentin funksiyaları dövlət başçısının ən mühüm ümumi vəzifələridir. Prezidentin səlahiyyətləri isə onun funksiyalarından yaranır və konkret hüquq və vəzifələri ehtiva edir.

Lakin təcrübə göstərir ki, Prezidentin funksiyalarının tam şəkildə səlahiyyətlər üzrə konkretləşdirilməsi bəzən mümkün olmur. Bu baxımdan təcrübədə Prezidentin ekstraordinar vəziyyətlərdə təzahür edən (konkretləşdirilməyən), aşkar görünməyən səlahiyyətləri də yarana bilər. Həmin vəziyyəti nəzərə alan Azərbaycan Respublikasının Konstitusiyası bu problemi aşağıdakı formada tənzimləyir. Konstitusiyamızın Prezidentin səlahiyyətləri adlı 109-cu maddəsinin 32-ci bəndində qeyd olunur ki, Azərbaycan Prezidenti Konstitusiya ilə Milli Məclisin və məhkəmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər məsələləri icra qaydasında həll edir.

Ölkəmizdə dövlət idarəçiliyi formasının özünəməxsusluğu və bu kontekstdə Prezidentin səlahiyyətləri sualını araşdırmazdan öncə, dövlət başçısının funksiyalarını nəzərdən keçirək:

1. Xalq hakimiyyətinin və xalq suverenliyinin təminatı funksiyası.

Bu sahədə öncə qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Prezidenti xalq hakimiyyətinin nümayəndəli demokratiya institutudur. Belə ki, Azərbaycan Respublikasının vətəndaşları tərəfindən ümumi, bərabər və birbaşa seçki hüququ əsasında, sərbəst, gizli və şəxsi səsvermə yolu ilə 7 il müddətinə seçilir. Bu baxımdan xalqı təmsil etmək, onun adından danışmaq və müraciət etmək Prezidentin konstitusion hüququdur;

Ölkəmizdə seçkilərin dövriliyinin təmin olunması, demokratik seçki sisteminin təşkili və inkişafı sahəsində Prezident mühüm vəzifələr yerinə yetirir.

Həmçinin referendumun təyin olunması, ictimai rəy sorğusunun, normativ hüquqi aktların ümumxalq müzakirəsinin təşkili və keçirilməsi sahəsində Prezidentin səlahiyyətləri xalq hakimiyyətinin təminatı funksiyasına xidmət edir.

Qanun layihələrinin və dövlət həyatının ən mühüm məsələlərinə dair başqa qərarların ümumxalq səsverməsi yolu ilə qəbulu üçün AR Konstitusiyasının 109-cu maddəsi (bənd 18) dövlət başçısına referendum təyin etmək səlahiyyəti verir.

Bu sahədə ictimai münasibətləri tənzimləyən ən mühüm sənədlərdən biri kimi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin ümumxalq müzakirəsinə çıxarılmasını nəzərdə tutan Prezident aktlarıdır.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnaməyə görə Azərbaycan Respublikasının Nazirlər Kabineti və mərkəzi icra hakimiyyəti orqanları tərəfindən hazırlanmış normativ hüquqi aktların layihələri (əldə olunması qanunla məhdudlaşdırılan informasiyaları əks etdirən layihələr istisna olmaqla) razılaşdırılmaya göndərildiyi andan "elektron hökumət" portalında yerləşdirilməlidir. Portalda yerləşdirilmiş normativ hüquqi aktların layihələrinə dair verilən təkliflər məqsədəuyğun hesab edildikdə nəzərə alınır, məqsədəuyğun hesab edilmədikdə təklifi verən şəxsə bu barədə əsaslandırılmış cavab təqdim olunur.

Prezidentin yuxarıda göstərilən Fərmanının icrasını təmin etmək məqsədi ilə 25 iyun 2012-ci il tarixdə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi Qaydaları təsdiq edilmişdir.

Bu Qaydalar Azərbaycan Respublikasının Nazirlər Kabineti və mərkəzi icra hakimiyyəti orqanları tərəfindən hazırlanmış normativ hüquqi aktların layihələrinin "Elektron

hökumət" portalında yerləşdirilməsi, layihələrin açıq (ictimai və ya peşəkar) müzakirəsi, həmçinin müzakirədə iştirak etmiş şəxslərə informasiya sahibləri tərəfindən cavab verilməsi qaydalarını müəyyən edir.

Müvafiq qanunvericiliyin müddəalarına görə normativ hüquqi aktların layihələri razılaşdırılmağa göndərildiyi andan bilavasitə həmin layihəni hazırlamış dövlət orqanı tərəfindən portalda yerləşdirilir.

Layihənin müzakirəsində iştirak etmək istəyən şəxslər portalda tələb olunan qeydiyyatdan keçməlidirlər.

Layihənin hazırlanması üçün qanunvericiliklə və ya norma-yaratma orqanının tapşırığı ilə 2 ay və ya daha az müddət müəyyən edildiyi hallarda informasiya sahibi layihənin müzakirəsi üçün 5 gündən, digər hallarda isə 10 gündən az vaxt müəyyənləşdirməməlidir. Müzakirə müddəti bitmiş layihələr portaldan çıxarılır.

Verilmiş irad və təkliflər nəzərə alınmaqla layihə üzərində dəyişikliklər edildikdə, hazırlanmış yeni variant razılaşdırılmağa göndərildiyi andan yenidən portalda yerləşdirilir.

Layihənin yeni variantı razılaşdırılmağa göndərildikdən və ya təsdiq edilmək üçün normayaratma orqanına təqdim edildikdən sonra "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş müddət ərzində irad və təklifləri məqsədəuyğun hesab edilməyən şəxslərə layihəni portalda yerləşdirmiş dövlət orqanı tərəfindən bu barədə portal vasitəsilə əsaslandırılmış cavab göndərilir.

Müzakirəsi tam başa çataraq təsdiq üçün normayaratma orqanına təqdim edilmiş layihələrlə əlaqədar yaranmış bütün məlumatlar arxivləşdirilir və siyahısı portalda saxlanılır.

Xalq hakimiyyətinin təmin olunması sahəsində həyata keçirilən ən mühüm tədbirlərdən biri də mərkəzi və yerli

icra hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının yanında İctimai Şuraların yaradılmasıdır.

Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələri vətəndaşların ölkənin ictimai-siyasi həyatında, eləcə də dövlətin idarə olunmasında iştirak hüququnu və bu hüququ reallaşdırmağın yollarını özündə ehtiva edir.

Konstitusiyaya görə vətəndaşlar dövlətin idarə edilməsində bilavasitə və seçdiyi nümayndələri vasitəsi ilə iştirak edirlər. Konstitusiyanın 1, 2, 50, 54, 55, 57, 58, 94, 96, 130-cu maddələrində bu hüquq və qaydalar bu və ya digər şəkildə əks olunmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 58-ci maddəsinə görə hər kəsin istənilən birlik, siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud olan birliyə daxil olmaq hüququ vardır. Vətəndaş cəmiyyətini təmsil edən təsisatların qərarlarının qəbul olunmasında iştirakı, dövlət və özünüidarə orqanlarının fəaliyyətinə ictimai nəzarəti həyata keçirməsinin hüquqi əsasları müvafiq qanunvericilik aktlarında da əks olunmuşdur.

Məsələn, qeyri hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Qanunda göstərilir ki, qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunlarında və öz nizamnaməsində nəzərdə tutulmuş qaydada normativ hüquqi aktların təkmilləşdirilməsi təklifləri ilə çıxış edə bilər.

Digər qanunvericilik aktlarında da içtimai iştirakçılğın hüquqi əsaslarını, forma və qaydalarını müəyyən edən müddəalar vardır.

Bu məsələyə dair Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunan “2012-2015-ci illərdə Açıq Hökumətin Təşviqi üzrə Milli Fəaliyyət Planı” və "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nda xüsusi yer verilir.

Belə ki, hökumətlərin açıq və hesabatlı olması, xalqın iştirakına və ictimai nəzarətə əsaslanan idarəetmə sisteminin təşkili müasir dövrün ən aktual məsələsi kimi mütərəqqi dünyanın, bütün demokratik dövlətlərin və xalqların gündəmini təşkil edir. Həqiqi hesabatlılıq və şəffaflıq mexanizmlərinin sosial rifahın və ədalətin təmin edilməsində həlledici amil olmasının praktik təsdiqi bu istiqamətdə təşəbbüs və səylərin daha geniş vüsət almasını şərtləndirmişdir.

Demokratik dünyanın tərkib hissəsi kimi Azərbaycan Respublikası şəffaflığa və icitmai nəzarətə əsaslanan idarəetmənin təşkilini öz strateji məqsədləri sırasına daxil etmişdir. Davamlı olaraq qəbul edilən və həyata keçirilən dövlət proqramları, konsepsiyalar, strategiyalar və digər tədbirlərlə korrupsiyanın qarşısının alınması və şəffaflığın təmin edilməsinə səy göstərilir. Əsas missiyası hökumətləri daha şəffaf, hesabatlı və məsuliyyətli etmək olan "Açıq Hökumət Tərəfdaşlığı" təşəbbüsünə qoşulmaqla Azərbaycan Respublikası açıq hökumətin təşviqi və şəffaflığın artırılması ilə əlaqədar fəaliyyətini beynəlxalq standartlara uyğunlaşdırmaq, müsbət təcrübələri öyrənmək və paylaşmaq niyyətini ifadə edib. 2011-ci ildə təsis edilən"Açıq Hökumət Tərəfdaşlığı" Platformasında iştirakçı dövlətlər üzərlərinə 4 istiqamət üzrə öhdəlik götürdüklərini bəyan ediblər: 1) hökumətlərin fəaliyyəti ilə bağlı məlumatlara əlçatanlğın artırılması; 2) idarəetmədə vətəndaş iştirakçılığının genişləndirilməsi; 3) dövlət idarəetməsində yüksək peşə etikasının tətbiqi; 4) hökumətin daha hesabatlı və açıq olması üçün yeni nəsil texnologiyaların tətbiq olunması.

Azərbaycan üzərinə götürdüyü öhdəliyə sadiqliyini "2012-2015-ci illərdə Açıq Hökumətin Təşviqi üzrə Milli Fəaliyyət Planı" və "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" (MFP) kimi sənədlərlə nümayiş etdirib. Hər iki MFP "Açıq Hökumət

Tərəfdaşlığı" təşəbbüsü prinsiplərinin, xüsusilə idarəetmədə ictimai iştirakçılığın təmin edilməsi üçün geniş imkanlar nəzərdə tutmuşdur. MFP-yə ictimai iştirakçılığın praktikaya son illərdə daxil olan ictimai şuraların yaradılmasını və gücləndirilməsini nəzərdə tutan tədbirlərin daxil edilməsi ictimai iştirakçılığın formallıqdan real məzmuna keçəcəyinə böyük ümidlər yaratmışdır.

Birinci MFP mərkəzi və yerli icra hakimiyyəti orqanlarının üzərinə 2012-2013-cü illərdə "əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması" vəzifəsini qoymuş olsa da, həmin vaxt onların yaradılması və fəaliyyətini tənzim edən qanunvericilik aktı olmamışdır. Əlbəttə ki, təcrübədə birinci MFP-nin təsdiq edilməsinə qədər də bəzi mərkəzi icra hakimiyyəti orqanları yanında QHT-lərdən təşkil edilən ictimai qurumlar fəaliyyət göstərirdi. Onların təşkili və fəaliyyəti ümumi normativ hüquqi aktlara, özfəaliyyətə və könüllülüyə əsaslanmaqla həyata keçirilirdi. Lakin şuraların yaradılmasının MFP-yə vəzifə olaraq daxil edilməsi bu sfera üzrə münasibətlərin daha aydın və dəqiq tənzimlənməsini zəruri etmişdir.

22 noyabr 2013-cü ildə qəbul edilmiş və 1 iyun 2014-cü ildə qüvvəyə minmiş "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu ictimai şuralar üzrə münasibətləri tənzim edən əsas normativ hüquqi akt kimi çıxış edir. Qanunun tənzimləmə predmetinə ictimai şuraların statusu, yaradılması və fəaliyyət qaydaları, hüquq və vəzifələri, strukturu və digər vacib məqamlar daxildir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə" isə ictimai şuralara seçkilərin təşkili və keçirilməsi qaydalarını müəyyən edir.

Qanun ictimai şuraların statusunu mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının yanında yaradılan məşvərətçi qurum kimi müəyyən edir. 5-15 üzvdən ibarət tərkibdə və səlahiyyət müddəti iki il olan ictimai şuralar vətəndaş cəmiyyəti institutları-qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar), kütləvi informasiya vasitələri, həmkarlar ittifaqları, vətəndaşların təşəbbüs qrupları və bələdiyyələrin məhəllə komitələri tərəfindən seçilir. İctimai şuralar üçün aşağıdakı hüquqlar təsbit edilib:

1) mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarından öz fəaliyyəti üçün zəruri olan məlumatları, ictimaiyyətlə məsləhətləşmələr tələb edən məsələlər üzrə hüquqi aktların layihələrini almaq;

2) ictimaiyyətlə məsləhətləşmələrin keçirilməsi barədə mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanına təkliflər vermək;

3) müvafiq ərazidə və sahədə dövlət siyasətinin formalaşması və həyata keçirilməsi barədə təkliflərlə çıxış etmək;

4) müvafiq sahədə dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi barədə hüquqi aktların layihələrinin hazırlanması ilə bağlı təkliflər vermək;

5) ictimai əhəmiyyət kəsb edən məsələlərin həllinə dair vətəndaş cəmiyyəti institutlarının təkliflərini toplamaq, ümumiləşdirmək və mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanına təqdim etmək;

6) dövlət və cəmiyyət həyatının ayrı-ayrı məsələlərinin müzakirəsi üçün açıq tədbirlər (ictimai müzakirələr, dinləmələr, seminarlar, konfranslar, dəyirmi masalar və digər tədbirlər) təşkil etmək;

7) ictimai rəyin öyrənilməsi üçün sorğular keçirmək və ya müvafiq təşkilatlara sorğu keçirilməsi barədə təkliflər vermək;

8) hüquqi aktların layihələrinin ictimai müzakirəsini keçirmək və s.

İctimai şuraların qanunla müəyyən edilən statusu və malik olduğu hüquqlar onlara qarşıya qoyulan məqsədə çatmaq üçün hüquqi imkanlar yaradır. Onların praktikaya transformasiyasını isə yuxarıda qeyd edilən müxtəlif dövlət sənədlərinin həyata keçirilməsi təmin etməlidir. Bu isə bilavasitə ictimai şuralar yaratmağa məsul olan icra orqanlarının məsuliyyətindən və iradəsindən əhəmiyyətli dərəcədə asılıdır.

Ölkədə icra hakimiyyəti orqanları yanında VCİ nümayəndələrindən təşkil edilmiş ictimai təsisatların mövcudluğu bununla bağlı rəsmi siyasəti xeyli qabaqlamışdır. «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı» təsdiq edilənədək bir sıra mərkəzi icra hakimiyyəti orqanlarında şuralar artıq mövcud idi. Ədliyyə Naziri yanında 2006-cı ildən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında 2010-cu ildən, Gənclər və İdman Nazirliyin yanında 1994-cü ildən müxtəlif adlarla fəaliyyət göstərən şuralar müəyyən təcrübələr yaratmışdılar. Buna baxmayaraq dövlət orqanları yanında bu cür təsisatların yaradılması rəsmi dövlət siyasətinə ilk dəfə olaraq «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nına daxil edlməklə gətirilmişdir.

MFP-nin 4.2-ci bəndi mərkəzi və yerli icra hakimiyyəti orqanları üçün 2012-2013-cü illərdə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması vəzifəsini müəyyən etmişdir. Bu vəzifənin MFP-yə daxil edilməsi qısa bir zamanda dövlət orqanları yanında şuraların yaradılacağına böyük ümidlər yaradırdı. Lakin MFP-nin icra vəziyyəti üzrə nəticələr gözləntilərin özünü doğrultmadığını göstərmişdir. MFP-də göstərilən müddətdə bir çox mərkəzi və yerli icra hakimiyyəti

orqanları tərəfindən belə şuraların yaradılması təmin edilmədi.

İctimai şuraların yaradılmasına "İctimai iştirakçılıq haqqında" Qanunun qəbul edilməsi müəyyən qədər impuls verməli idi. İctimai şuraların statusu üzrə qanunvericiliyin olmaması onun təşkili və fəaliyyətində həqiqətən müəyyən çətinliklər və suallar yarada bilərdi. Qanun qəbul edilənə qədər şuraların təşkil edildiyi dövlət orqanlarında bu məsələlər əsasən daxili qaydalarla tənzim edilirdi. Lakin qanunun qəbulu ilə vahid tənzimləmə olsa da bu işdə mövcud vəziyyət geniş vüsət almadı.

Yerli özünüidarəetmə orqanları yanında şuraların yaradılması isə ümumiyyətlə heç bir yerdə xatırlanmır və bu məsələ demək olar ki, ictimai diqqətdən tamamilə kənarda qalıb.

Qeyd etmək lazımdır ki, yerli özünüidarəetmə orqanlarında şuraların yaradılması məsələsi dövlət proqramlarına da daxil edilməmişdir.

Göstərilən səylərə baxmayaraq şuraların yaradılması üzrə zəif nəticələr bu məsələnin yeni MFP-yə daxil edilməsini şərtləndirmişdir. Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planının 4.2.1 bəndi 2016-2018-ci illərdə mərkəzi və yerli icra hakimiyyəti orqanları üçün ictimai şuraların fəaliyyətinin təşkil edilməsi, gücləndirilməsi və davamlılığının təmin edilməsi, 4.2.2. bəndi isə ictimai şuraların tərkibi və fəaliyyəti ilə bağlı rəsmi internet resurslarında ayrıca bölmələrin yaradılması və məlumatların mütəmadi yenilənməsini nəzərdə tutan vəzifələr müəyyən etmişdir.

Zənnimizcə, bu sahədə vəziyyəti intensivləşdirmək üçün inzibati məsuliyyət müəyyən olunmalıdır. Qeyd etmək lazımdır ki, bu cür məsuliyyətin yaranması ilə bağlı müvafiq Qanunun tətbiqi barədə Prezidentin fərmanında da təklif

nəzərdə tutulmuşdur. Bu problemin aradan qalxmasında vətəndaş cəmiyyəti institutlarının da fəallığı önəmlidir.

İctimai şuraların səmərəli fəaliyyət göstərməsi və qarşıya qoyulan məqsədlərə nail olunması üçün yuxarıda qeyd edilən və onun fəaliyyətinə mane olan halların aradan qaldırılması mütləqdir. Bunlar həll edilmədən və əməli addımlar atılmadan ictimai şuralardan səmərəli fəaliyyət və real nəticələr gözləmək əbəsdir.

İctimai şuraların yaradılması ilə bağlı siyasi iradə daha qətiyyətli şəkildə göstərilməlidir. İslahatların konseptual əsaslarının hazırlanmasında siyasi iradə nümayiş etdirildiyi kimi onun həyata keçirilməsində də eyni iradə nümayiş etdirilməlidir. Ölkə praktikasından siyasi iradənin sayəsində həll edilməsi çətin görünən problemlərin qısa zaman kəsiyində uğurlu həlli üzrə çoxlu sayda nümunələr göstərmək mümkündür.

İctimai şuraların təşkili prosesində icra hakimiyyəti orqanlarının manipulyasiyaya yol verməmələri üçün seçkilərin təşkili və keçirilməsinin müstəsna olaraq onların səlahiyyətinə aid edilməsi qaydası dəyişdirilməlidir. Bu məsələnin koordinasiya edilməsi məsələsinin müvafiq dövlət orqanına həvalə edilməsi (Məsələn, AR Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası bu funksiyanı yerinə yetirə bilər) ictimai şuraların təşkilində icra orqanların təsirini aradan qaldırmaqla bərabər həm də ümumiikdə prosesin özünə impuls verə bilər.

Problemin həllinə kömək edə biləcək digər addım qanunvericilik qaydasında VCS-lərin ictimai şuralar yaradılması təşəbbüsçüsü kimi tanınması ola bilər. Müəyyən sayda VCS nümayəndələrinin ictimai şuralar yaratmaqla bağlı təklifinin icra orqanları tərəfindən nəzərə alınmasının məcburiliyinin qanunvericiliyə gətirilməsi ictimai şuraların yaradılmasındakı ətaləti aradan qaldırmağa müəyyən qədər müsbət təsir göstərə bilər.

İctimai şuraların vətəndaş cəmiyyəti subyektləri tərəfindən təşkil edilməsi nəzərdə tutulsa da, prosesin əsas iştirakçıları qismində QHT-lər çıxış edirlər. Buna görə də ictimai şuraların səmərəliliyi ilk növbədə güclü QHT sektorunun mövcudluğundan keçir. Mərkəzdə və iri şəhərlərdə ictimai şuraların yaradılması üçün yetərincə QHT olduğu halda ucqar rayonlar haqqında bunu demək çətindir. Daha çox sovet dövründən qalan çox dövlətin himayə etdiyi əmək, müharibə veteranları və s. kimi təşkilatlar istisna olmaqla müstəqil QHT-lərin olmadığı rayonlar belə mövcuddur. Belə rayonlarda əlbəttə ki, müstəqil və səmərəli fəaliyyət göstərəcək ictimai şuralardan söhbət belə gedə bilməz.

İctimai şuralara seçkilərin şəffaf və obyektiv şəkildə keçirilməsi onların gələcək inkişafına və fəaliyyətinə təsir göstərən əsas amillərdəndir. Praktikada ictimai şuralara seçkilər haqqında elanın yalnız müvafiq icra hakimiyyəti orqanlarının rəsmi internet səhifəsində yerləşdirilməsi bir çox hallarda VCS-lərin bu barədə məlumat almaq imkanlarını məhdudlaşdırır. İnformasiyaya əlçatanlığın təmin edilməsi üçün elanlar əksəriyyətə əlçatan və daha çox baxış sayı olan digər saytlarda da yerləşdirilməlidir.

Ölkəmizdə xalq hakimiyyətinə əsaslanan modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün Azərbaycan Prezidentinin təşəbbüsü ilə "Elektron hökumətin" yaradılması əsas amillərdən biridir.

Müasir dünyamızda informasiya cəmiyyətinin, demokratik dövlətin dəyərlərinə əsaslanan "Elektron hökumətə" inkişaf etmiş ölkələrdə (ABŞ, Böyük Britaniya, Fransa və s.) ümumilikdə dövlətin fəaliyyətinin effektivliyinin artırılmasına yönəlmiş bir konsepsiya kimi baxılır.

“Elektron Hökumət”-müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən ölkə ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsinə şərait yaradır.

Yaradılan imkanların əsas məqsədi dövlətin idarə olunmasında xalqın bilavasitə iştirakını fəallaşdırmaq, sosial xidmət təminatında dövlət qulluqçuları və vətəndaşlar arasında olan “məsafəni” azaltmaq, həmçinin, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır.

Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi bu məqsədə çatmağın vasitələridir. Beynəlxalq təcrübəyə əsasən vətəndaşların dövlət orqanları ilə təmaslarının daha münasib şəkildə təşkili üçün “bir pəncərə” prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi “Elektron Hökumət” portalı tətbiq edilir.

Ümumi şəkildə “Elektron Hökumət”in əhəmiyyətini aşağıdakı kimi təsvir etmək olar:

- Dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə həyata keçirilən fəaliyyətin səviyyəsinin yüksəldilməsi və onlardan istifadə imkanlarının sadələşdirilməsi;
- Dövlət qurumlarının və yerli özünüidarəetmə orqanlarının işinin səmərəliliyinin artırılması və təqdim olunan elektron xidmətlərin keyfiyyətinin yüksəldilməsi;
- İstifadəçilərə dövlət qurumları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılması və yerinə yetirilmə prosedurlarının sadələşdirilməsi;

- Elektron xidmətlər vasitəsilə istifadəçilərə təqdim olunan məlumatların həqiqiliyinin, tamlığının, etibarlılığının və sərbəst əldə olunmasının təmin edilməsi;

- İstifadəçinin sorğusuna əsasən məlumatların axtarılmasına və əldə edilməsinə sərf olunan vaxtın maksimum azaldılması;

- İstifadəçinin yerləşdiyi coğrafi məkandan asılı olmayaraq ölkənin bütün ərazisində təqdim olunan elektron xidmətlərdən istifadənin mümkünlüyü.

Ölkəmizdə "Elektron Hökumət"in formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanır və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncamı, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Fərmanı və digər normativ hüquqi aktlarla fəaliyyəti üçün hüquqi baza yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi bu sahədə görülən işlərin əlaqələndiricisi olaraq "Elektron Hökumət"in formalaşması üzrə digər dövlət orqanları ilə sıx fəaliyyət göstərir və müvafiq infrastrukturun yaradılması üzrə fəaliyyəti həyata keçirir. Artıq elektron imzaların istifadəsi üçün Milli Sertifikasiya Xidmətləri Mərkəzi yaradılmış, dövlət qurumlarının informasiya sistemləri arasında informasiya mübadiləsini təmin edən infrastruktur qurulmuş, "Elektron Hökumət" portalı hazırlanaraq istifadəyə verilmişdir. Bütün dövlət qurumları bunlardan bəhrələnərək vətəndaşlara elektron xidmətlərin göstərilməsini təmin edə bilirlər.

Ölkəmizdə "Elektron Hökumət" portalının fəaliyyəti əsasən AR Prezidentinin 2013-cü il 5 fevral tarixli Fərmanı

ilə təsdiq edilmiş "Elektron Hökumət" portalı haqqında Əsasnamə ilə tənzimlənir.

Bu Əsasnamə "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 3.3-cü bəndinə əsasən, Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 avqust tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 7.2.1-ci yarımbəndindən irəli gələn vəzifələrin həyata keçirilməsi məqsədi ilə hazırlanmışdır, dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin (bundan sonra-dövlət qurumları) elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadəni təmin edən "Elektron hökumət" portalının (bundan sonra-portal) fəaliyyətinin təşkilinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

Portal dövlət qurumlarının elektron xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim olunmasına, istifadəçilərin onlardan istifadəsinə, dövlət qurumlarının portala qoşulmuş informasiya sistemləri və ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) müvafiq sənədlər barədə qanunla müəyyən edilmiş qaydada informasiya əldə edilməsinə xidmət edir.

Portalın yaradılması, idarə olunması, fəaliyyətinin təşkili və inkişafı portalın operatoru Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən təmin edilir.

Portalın iştirakçıları-informasiya sistemləri və ehtiyatları portala qoşulmuş, onlar vasitəsilə elektron xidmətlər göstərən və portala qoşulmuş digər informasiya sistemləri və ehtiyatları ilə informasiya mübadiləsində iştirak edən dövlət və qeyri-dövlət qurumlarıdır.

Portalın istifadəçiləri-fiziki və hüquqi şəxslər, dövlət qurumlarıdır.

İştirakçılar aidiyyəti informasiya ehtiyatlarını portala qoşmalı, göstərdikləri elektron xidmətlərin portala inteqrasiya olunmasını təmin etməli, həmçinin öz informasiya ehtiyatlarındakı məlumatlardan elektron xidmətlərin göstərilməsi zamanı qanunla müəyyən edilmiş qaydada istifadəni təmin etməlidirlər.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bu sahədə görülən işlərin əlaqələndiricisi olaraq digər dövlət orqanları ilə sıx əməkdaşlıq edir və elektron sənədlərin mübadiləsinin təşkil edilməsi üçün müvafiq infrastrukturun yaradılması üzrə fəaliyyət göstərir. Bu məqsədlə nazirliyin nəzdində Milli Sertifikasiya Xidmətləri Mərkəzi yaradılmışdır.

Vətəndaşlara, dövlət qurumlarına, yerli icra hakimiyyəti orqanlarına, biznes strukturlarında işləyən hüquqi və fiziki şəxslərə həmin Mərkəz tərəfindən elektron sənədi təsdiq edən elektron imza verilir. Elektron imzanın və elektron sənədin istifadəsi elektron sənəd dövriyyəsinin tətbiqi, əlaqədar subyektlərin hüquqlarının müəyyənləşdirilməsi və aralarında yaranan münasibətlərin hüquqi əsasları "Elektron imza və elektron sənəd haqqında" AR Qanunu ilə tənzimlənir.

Hazırda aparılan təhlil onu göstərir ki, portalda 35 dövlət qurumu tərəfindən 200-dən çox elektron xidmət istifadəçilərə təqdim edilib. Hər bir dövlət qurumu elektron xidmətlərini "Bir pəncərə" prinsipi əsasında həyata keçirir.

Ölkəmizdə xalq hakimiyyətinə əsaslanan idarəçiliyin təşkil edilməsi, dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin daha da artırılması, şəffaflığın təmin edilməsi və bürokratiyanın aradan qaldırılması üçün elektron hökumətin inkişafı, təkmilləşdirilməsi, elektron xidmətlərin sayının artırılması istiqamətində tədbirlərin davam etdirilməsi zəruridir.

Statistik məlumatlar onu göstərir ki, elektron xidmətlərin geniş tətbiqi nəticəsində vətəndaşlar tərəfindən edilən şikayətlərin sayı azalıb.

Bu sahədə mühüm tədbirlərdən biri də yerli icra hakimiyyəti orqanlarında vətəndaş müraciətləri üzrə vahid elektron informasiya sisteminın yaradılması haqqında AR Prezidentinin Fərmanıdır. Bu Fərmanla AR Prezidenti Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiyanın 10.2.4-cü yarımbəndinə uyğun olaraq (bu strategiya AR Prezidentinin 2014-cü il 2 aprel Sərəncamı ilə təsdiqlənmişdir) dövlət orqanlarında elektron sənəd dövriyyəsinin və vətəndaşların müraciətləri üzrə kargüzarlığın elektron formada aparılmasını təmin etmək məqsədilə yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılmasını nəzərdə tutur. Bu sistem yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətlərinin qeydiyyatının aparılmasını, onlara dair müxtəlif təhlillərin hazırlanmasını, statistik məlumatların və hesabatların əldə olunmasını, eləcə də müraciətlərin icrasına nəzarətin həyata keçirilməsini təmin edir.

Respublikamızda demokratiyanın davamlı inkişafı, dövlət orqanlarının fəaliyyətinə ümumxalq nəzarətinin gücləndirilməsi, şəffaflığın daha da artırılması sahəsində görülən tədbirlərdən biri də Azərbaycan Respublikası Prezidenti yanında, o cümlədən mərkəzi və yerli icra

hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılmasıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının fəaliyyəti Dövlət başçısının 2016-cı il 3 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş Əsasnamə ilə tənzimlənir.

Həmin Əsasnaməyə görə, Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurası sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı müraciətlərinə baxılması sahəsində çoxpilləliyin təmin edilməsi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) yuxarı orqana şikayətlərin verilməsi mexanizminin tənzimlənməsi məqsədi ilə yaradılmış və ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən kollegial orqandır.

Şuranın vəzifələri aşağıdakılardan ibarətdir:

- mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən verilmiş şikayətlərə baxılmasını təmin etmək;

- Şuraya daxil olan şikayətlər ilə əlaqədar hərtərəfli, tam və obyektiv araşdırma aparmaq və işin nəticəsi üzrə müvafiq olaraq əsaslandırılmış şəkildə yazılı qərar qəbul etmək;

- Şurada baxılan müraciətlərin uçotunu aparmaq, onları təhlil etmək, icmallaşdırmaq və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə yarımillik və illik arayışlar (hesabatlar) təqdim etmək;

- Şuranın qəbul etdiyi qərarların icrasına nəzarət etmək;

- Şuranın qəbul etdiyi qərarlarla bağlı izah vermək;

- fəaliyyəti zamanı öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

- qanunvericiliyə uyğun olaraq dövlət və kommersiya sirrinin və qanunla açıqlanması və yayılması qadağan edilən digər məlumatların qorunması üçün zəruri tədbirlər görmək;

- qanunla və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

Şuranın tərkibi (sədri və digər səkkiz üzvü) Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyasının və mərkəzi icra hakimiyyəti orqanlarının nümayəndələrindən ibarət olmaqla, Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Zənnimizcə şuranın tərkibinə vətəndaş cəmiyyəti institutlarının (qeyri hökumət təşkilatları, qeyri dövlət kommersiya təşkilatları və s.) nümayəndələrinin də daxil olması məqsədəuyğun olardı.

Bu səpkidə həyata keçirilən tədbirlərdən biri də Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli Fərmanı ilə sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin və dövlət qulluğuna qəbulla bağlı namizədlərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədi ilə Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılmasıdır. Ölkə başçısının Fərmanı ilə həmin Apellyasiya Şuraları haqqında nümunəvi Əsasnamə də qəbul edilmişdir. Əsasnaməyə görə, mərkəzi icra hakimiyyəti orqanının Apellyasiya Şurası sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin özlərinin

sahibkarlıq fəaliyyəti ilə bağlı mərkəzi icra hakimiyyəti orqanının, onun strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların qərarlarından, digər hərəkət və ya hərəkətsizliyindən verdikləri şikayətlərə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan və ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən kollegial orqandır.

Mərkəzi icra hakimiyyəti orqanının strukturuna daxil olan qurumların qərarlarından, digər hərəkət və ya hərəkətsizliyindən verilmiş şikayətlərə Apellyasiya Şurasında o halda baxılır ki, eyni məzmunlu şikayətə, ilkin olaraq, həmin qurumlara və vəzifəli şəxslərə münasibətdə mərkəzi icra hakimiyyəti orqanının sistemində hər hansı yuxarı orqan və ya yuxarı vəzifəli şəxs baxmış olsun.

Yuxarıda adı çəkilən Əsasnamənin təhlili əsasında belə bir nəticəyə gəlmək olar ki, Apellyasiya Şurasının tərkibi (sədri və digər altı üzvü) mərkəzi icra hakimiyyəti orqanının rəhbəri tərəfindən müəyyən edilir və Şuranın sədri onun müavinlərindən biri olmalıdır. Digər altı üzvün namizədliyini isə Şuranın sədri təqdim edir. Apellyasiya Şurasının üzvlüyünə namizədlər kimlərdən seçilir? Bu məsələ Əsasnamədə göstərilmir. Belə bir məntiqi nəticəyə gəlmək olar ki, bu məsələnin həlli səlahiyyəti Şuranın sədri və müvafiq mərkəzi icra hakimiyyəti orqanının rəhbərinə verilmişdir.

Hesab edirik ki, istər mərkəzi, istərsə də yerli icra hakimiyyəti orqanlarında yaradılan Apellyasiya Şuralarının tərkibində vətəndaş cəmiyyəti institutlarını təmsil edən namizədlərin də iştirak etməsi xalq nəzarətini daha da gücləndirər, dövlət və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın daha səmərəli olmasını təmin edə bilərdi.

Həmçinin, yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının təşkili məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli Fərmanlı ilə yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə təsdiq edilmişdir.

Burada qeyd olunur ki, yerli icra hakimiyyəti orqanının Apellyasiya Şurası sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı yerli icra hakimiyyəti orqanının, inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, yerli icra hakimiyyəti başçısının yanında olan dövlət büdcəsindən maliyyələşən qurumların, tabeliyində olan dövlətə məxsus hüquqi şəxslərin, mərkəzi icra hakimiyyəti orqanlarının ikili tabelikdə olan yerli qurumlarının (bundan sonra-yerli icra hakimiyyəti orqanı) qərarlarından, digər hərəkət və ya hərəkətsizliyindən verdikləri şikayətlərə baxan və ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən kollegial orqandır.

Bu Əsasnamənin məzmunundan belə nəticə çıxarmaq olur ki, yerli icra hakimiyyəti orqanlarında yaranan apellyasiya şuraları yalnız sahibkarlıq məsələləri ilə bağlı şikayətlərə baxır. Zənnimizcə, bu Şuraların baxdığı şikayətlərıin dairəsini genişləndirmək daha məqsədəuyğun olardı. Məsələn, bu şuralar tərəfindən yerli icra hakimiyyəti səviyyəsində çalışan dövlət qulluqçularının hərəkət və hərəkətsizliyindən olan şikayətlərə də baxılması məqsədəuyğun olardı.

Xalq hakimiyyəti və xalq suverenliyinin təminatı funksiyasının həyata keçirilməsi sahəsində Prezidentin ən mühüm vəzifələrindən biri də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunan və normativ hüquqi aktlar sistemində ən yüksək hüquqi qüvvəyə malik olan Azərbaycan Respublikası Konstitusiyasının mühafizəsidir.

Hər şeydən əvvəl qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Prezidenti ölkəmizdə Konstitusiyanın aliliyinin, dövlətimizin konstitusiya quruluşunun mühafizəsinin ali qarantıdır.

Respublikamızın bütün dövlət və qeyri dövlət orqanları, vətəndaş cəmiyyəti institutları Konstitusiyanın aliliyinə əməl etməlidirlər. Bu mühüm prinsipin gerçəkləşməsi sahəsində vəzifənin layiqincə yerinə yetirilməsində ali nəzarəti Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

Burada ən təsirli mexanizmlərdən biri də Prezidentin veto hüququ və Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnu göstərmək olar.

Demokratik ölkələrin konstitusiya təcrübəsində veto hüququnun aşağıdakı növləri fərqləndirilir:

1. Nisbi veto (öz növbəsində bölünür sadə və mürəkkəb növlərə);
2. Mütləq veto;
3. Seçkili veto.

Azərbaycan Respublikasının konstitusiya quruculuğu təcrübəsində Prezidentin veto hüququnun nisbi (mürəkkəb), seçkili və mütləq növlərindən istifadə olunur.

Azərbaycan Respublikası Konstitusiyasının 110-cu maddəsinin I hissəsində qeyd olunur ki, qanun Prezidentin etirazını doğurursa, o, qanunu imzalamayıb öz etirazları ilə birlikdə göstərilən müddət ərzində Azərbaycan Respublikasının Milli Məclisinə qaytara bilər.

Dövlət başçısı adətən aşağıdakı hallarda veto hüququndan istifadə edir: qanun xalqın maraqlarına uyğun olmadıqda, xalq suverenliyini məhdudlaşdırdıqda, Azərbaycan Respublikasının Konstitusiyasına, insan və vətəndaş hüquqlarına, azadlıqlarına, dövlətimizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə zidd olduqda. Bu kontekstdə Azərbaycan Prezidentinin Sərəncamı ilə təsdiq

edilmiş "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında sənədlərlə iş barədə Təlimat"da göstərilir ki, qanun Administrasiyaya daxil olduqdan sonra müvafiq olaraq Qanunvericilik şöbəsi və digər struktur bölmələri onun ekspertizasını keçirərək, imzalamaq üçün Prezidentə təqdim edirlər.

Yuxarıda göstərilənləri nəzərə alaraq belə bir sual yarana bilər ki, nəyə görə Parlament Prezidentin əsaslandırılmış veto hüququnu qəbul etməsin? Hesab edirik ki, səmərəli dövlət hakimiyyəti mexanizmi hakimiyyət qolları arasında qarşılıqla razılaşma, əməkdaşlıq və bir-birini dəstək prinsipi əsasında fəaliyyət göstərə bilər. Unutmaq olmaz ki, hakimiyyət budaqları arasında konfrontasiyanın mənfi nəticələrindən ilk növbədə xalq zərər çəkir.

Lakin, yuxarıda deyilənlərə baxmayaraq demokratik dövlətin Konstitusiyası veto hüququ ilə bağlı hakimiyyət qolları arasında mübahisə yaranarsa, onun həlli mexanizmini də nəzərdə tutur. Azərbaycanın konstitusiya qanunvericiliyinə görə bu problemin həllində son söz Parlamentə məxsusdur. Lakin bu zaman Azərbaycan Respublikası Prezidentinin Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ yaranır.

Azərbaycan Respublikasının konstitusiya qanunvericiliyi həmçinin, mütləq veto hüququnu nəzərdə tutur.

Bəzi ədəbiyyatlarda göstərilir ki, mütləq veto keçmişin, dualist monarxiyanın məhsuludur, onun müasir dövrdə istifadəsi məqsədəuyğun sayılmır. Biz bu fikirlə razılaşmırıq və hesab edirik ki, müəyyən hallarda xüsusilə konstitusion qanunların qəbulu prosesində mütləq veto hüququndan istifadə müəyyən hallarda əhəmiyyətli rol oynaya bilər. Buna misal kimi ölkəmizin Konstitusiyasını göstərmək olar. Burada qeyd olunur ki, Azərbaycan

Respublikasının Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları həm birinci, həm də ikinci səsvermədən sonra imzalanmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunur (maddə 156, hissə III). Azərbaycan Respublikası Konstitusiyanının 110-cu maddəsinin II hissəsində isə göstərilir ki, konstitusiya qanunları Prezident tərəfindən imzalanmazsa qüvvəyə minmir. Bu cür təcrübəni düzgün hesab edirik. Birincisi, ona görə ki, Konstitusiyanı xalq qəbul edir və əgər ona hər hansı bir əlavələr edilirsə, bu zaman xalqı təmsil edən hər iki hakimiyyət qolu nümayəndələrinin razılığa verməsi məqsədəuyğun olardı.

İkincisi, hakimiyyətlər bölgüsü mexanizminə görə, hakimiyyət budaqları arasında səmərəli tarazlıq və çəkindirmə mexanizmi olmalıdır. Məsələn, konstitusiya qanunları Azərbaycan Respublikası Konstitusiyasının əsas mətninə zidd olarsa, konstitusiyanın birinci bölməsində əks etdirilmiş müddəalarla əlaqədar əlavələr təklif edilərsə və digər zəruri hallarda Dövlət başçısı mütləq veto hüququndan istifadə edə bilər.

Azərbaycan Prezidenti xalq suverenliyinin, dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, dövlətimizin tərəfdar çıxdığı beynəxalq müqavilələrin, məhkəmə hakimiyyətinin müstəqilliyinin Ali qarantıdır. Bu baxımdan konstitusiya qanunlarının qəbulu prosesində Prezidentə mütləq veto hüququnun verilməsini düzgün hesab edirik.

Prezidentin ikinci əsas funksiyası təmsilçilik funksiyasıdır. Konstitusiyada qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti ölkə daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir (maddə 8, hissə I).

Ziyafət Əsgərov yazır ki, Prezidentə dövlət başçısı statusu verilməsi obyektiv səbəblərdən irəli gəlmişdir. Hər şeydən əvvəl, bunu istər ölkə daxilində, istərsə də

beynəlxalq münasibətlərdə personifikasiyalaşdırılmış təmsilçiliyin səviyyəsinin yüksəldilməsi tələb edirdi (38,s. 376).

Dövlət başçısının təmsilçilik funksiyası böyük tarixə malikdir. Belə ki, qədim dövrlərdən bəri o, ölkə daxilində və xaricdə digər dövlət başçıları ilə münasibətlərdə dövləti təmsil etmişdir.

Məhz bu çoxəsrlik ənənələrə görə dövlət başçısı xarici ölkələrdə öz diplomatik nümayəndəliklərini təsis edir, xarici ölkələrə səfərlər edir, danışıqlar aparır, səfirlərini təyin edir, beynəlxalq müqavilələr bağlayır və s. Ölkə daxilində dövlətin iqtisadi və sosial proqramlarını təsdiq edir, milli bayramların və digər mühüm hadisələrin keçirildiyi vaxtlarda təntənəli mərasimlərə sədrlik edir, mühüm hadisələrlə bağlı və əlamətdar günlərdə xalqa müraciət edir, əhalini təbrik edir və s.

Prezidentin üçüncü mühüm funksiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatıdır. Demokratik, hüquqi dövlətdə xalq hakimiyyətinin təminatı ilə üzvi surətdə bağlı olan dövlətin əsas fəaliyyət istiqaməti insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı funksiyasıdır.

Azərbaycan Respublikasının Konstitusiyasına görə insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir (maddə 12, hissə I). Bu konstitusion norma Prezident başda olmaqla bütün dövlət orqanlarının vəzifə və funksiyalarının təməlini təşkil edir.

Azərbaycan Respublikasının yeni (1995-ci il) Konstitusiyası qəbul olunduğu vaxtdan bu günədək ölkəmizdə insan və vətəndaş hüquqlarının, azadlıqlarının təminatı sahəsində bir sıra mühüm hüquqi sənədlər qəbul olunmuşdur. Həmin sənədlərin və Azərbaycan gerçəkliyinin

retrospektiv təhlili onu göstərir ki, bu aktların müddəaları əsasında ölkəmizdə insan hüquqlarının səmərəli təminat sistemi yaradılmışdır.

1998-ci ildə görkəmli siyasi xadim Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının tərəqqisini məhz "insan meyarı"nın inkişaf etdirilməsində görərək, insan hüquqlarının müdafiəsi sahəsində ilk fundamental sənəd olan Milli Dövlət Proqramını təsdiq etmişdir.

Demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş tədbirlər nəticəsində bir çox nailiyyətlər əldə edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2006-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının icra vəziyyəti mütəmadi qaydada təhlil edilmiş, onun icrası nəticələrinin müzakirəsi üçün cəmiyyətin bütün təbəqələrinin nümayəndələrinin iştirakı ilə ictimai dinləmələr keçirilmişdir.

İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədi ilə 27 dekabr 2011-ci il tarixdə Prezidentin Sərəncamı ilə yeni Milli Fəaliyyət Planı təsdiq edildi.

Altı fəsildən ibarət olan yeni Milli Fəaliyyət Proqramı ölkəmizdə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, əhalinin müxtəlif qruplarının hüquqlarının (qaçqın və məcburi köçkünlər, hərbi qulluqçular, qadınlar, uşaqlar, ahıllar, əlillər, məhkumlar və s.) müdafiəsi, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, insan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirləri, insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq və digər tədbirlərin daha da gücləndirilməsi, yuxarıda göstərilən sahələrdə dövlət fəaliyyətinin daha da təkmilləşdirilməsi tələblərini müəyyən edirdi.

Bu hüquqi sənəddə diqqəti cəlb edən məsələlərdən biri də elektron demokratiyanın inkişafına yönələn tədbirlərin görülməsidir. Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanında göstərilmişdir ki, modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün əhaliyə elektron xidmətlərin göstərilməsi zəruridir. Bu məqsədlə mərkəzi icra hakimiyyəti orqanlarının rəsmi internet səhifələrində elektron xidmət bölməsi yaradılmalı, xidmətin həyata keçirilməsi üçün tələb edilən sənədlərin siyahısı yerləşdirilməli və vətəndaşların həmin sənədlərlə birlikdə müraciətlərinin elektron qaydada qəbul edilməsi təmin edilməlidir. Həmin Fərmanın icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli qərarı ilə "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı" təsdiq edilmişdir.

Ölkəmizdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının səmərəli təmin olunması məqsədilə təşkil olunan modern mexanizmlərdən biri də 13 iyul 2012-ci il

tarixdə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə yaradılan Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir. Agentliyin əsas vəzifəsi "Asan xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi, həmçinin xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, nəzarət və qiymətləndirmənin aparılmasını, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasını, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsini, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini təmin etməkdir. Agentliyin strukturu və əsasnaməsi Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli fərmanı ilə təsdiq edilmişdir.

Azərbaycan dövlətinin brendi sayılan, həm ölkə əhalisi, həm də beynəxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilən "Asan xidmət"in fəaliyyəti barədə qısa olaraq məlumat vermək istərdim.

. 2015-ci ildə "ASAN xidmət" BMT-nin 2015-ci il Dövlət Xidmətləri Mükafatına (ing. United Nations Public Service Award 2015) layiq görülüb. 2015-ci ilin martın 2-də "ASAN xidmət" Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən 13 sahə üzrə keçirilən, müxtəlif dövlətlərin 700-dən çox müəssisənin müraciət etdiyi müsabiqənin "Dövlət xidmətlərinin həyata keçirilməsinin təşkilində təhlükəsiz əmək şəraitinin qurulması" sahəsi üzrə qalibi olub.

"Asan xidmət" mərkəzlərində fəaliyyətin tənzimlənməsi və davranış Qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin kollegiyasının 6 iyun 2013-cü il tarixli qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin təbirincə desək: "ASAN xidmət" vətəndaş-məmur münasibətlərinə

yenilik gətirdi, rüşvətxorluğa qarşı mübarizədə bizə daha da böyük güc verdi. Yəni, göstərdi ki, rüşvətxorluqla mübarizə aparmaq və qələbə çalmaq da mümkündür. "ASAN xidmət"in mənası və əhəmiyyəti bundan ibarətdir".

Bu gün "ASAN xidmət" mərkəzlərində vətəndaşlara dövlət orqanları ilə yanaşı, özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 250-dən çox müxtəlif xidmətlər göstərilir.

"ASAN xidmət" vətəndaşlara dövlət və özəl xidmətlərin vahid məkandan göstərilməsini təmin edən nadir bir modeldir və e-hökumətin əhəmiyyətli tərkib hissələrindən biridir. Mərkəzlərin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulur.

Xidmətlərin göstərilməsində innovativ metodlar vətəndaşlara vaxtlarına və vəsaitlərinə qənaət etməyə imkan verir. Belə ki, vahid mərkəzi ziyarət edən vətəndaşlar onlarla dövlət və özəl təşkilatlar tərəfindən göstərilən müxtəlif xidmətlərdən istifadə edə bilərlər.

Xidmətlərin göstərilməsinə görə rüsumlar banklar vasitəsilə ödənilir ki, bu da "ASAN xidmət"in əsas prinsiplərindən olan şəffaflığın təminində önəmli pay sahibidir. Mərkəzlərdə həyata keçirilən bütün əməliyyatlar və tranzaksiyalar videomüşahidə kameralarının vasitəsilə qeydiyyata alınır. Beləliklə, bürokratik maneələr və korrupsiya halları tam aradan qaldırılır.

"Vətəndaş həmişə haqlıdır" şüarını rəhbər tutan "ASAN xidmət"də nəzakətlilik və etik davranış qaydalarına ciddi əməl olunur. Mərkəzlərin əməkdaşları ixtisasartırma üzrə müxtəlif təlimlərdən keçirlər, beləliklə daim etik davranış sərişlərini artırmış olurlar.

"ASAN xidmət"də yeni ideyalar və innovativ metodların tətbiqi vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətini artırmağa xidmət edir.

Əlbəttə, bütün bunların nəticəsidir ki, "ASAN xidmət" mərkəzlərinə edilən müraciətlər gündən-günə artmaqdadır.

Lakin "ASAN xidmət" mərkəzlərin təsis olunmadığı bölgələrdə yaşayan vətəndaşlara da xidmət göstərməyi özünə borc bilir. Regionlardakı əhaliyə xidmətlərin çatdırılması və mərkəzlərə gəlmədən vətəndaşların xidmətlərdən yararlanmalarının təmini üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz edilmiş irihəcmli xüsusi avtobuslar vasitəsilə səyyar formada əhaliyə xidmətlər göstərilir.

2017-ci il fevralın 1-dən etibarən səyyar "ASAN qatar" yerlərdə vətəndaşlara xidmət göstərməyə başlayıb.

Səyyar "ASAN xidmət"in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır. Bu gün artıq demək olar ki, "ASAN xidmət" bu əsas məqsədinə nail olub. Belə ki, 2013-cü ildən bu günə kimi keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 98-100 faiz arasında dəyişir.

Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi vətəndaşların məişət sahəsində qarşılaşdıqları məsələlərin həlli, ölkəmizdə turizm sektorunun, kiçik sahibkarlığın, gənclərin inkişafı və digər istiqamətlərdə də uğurlu fəaliyyəti ilə diqqəti cəlb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 4 may tarixli Fərmanında verilmiş tapşırığa müvafiq olaraq vətəndaşların məişət sahəsində qarşılaşdıqları məsələlərin həlli üçün kommunal sahədə xidmətlər göstərən "ASAN kommunal" mərkəzləri yaradılıb. "ASAN xidmət"in fəaliyyət prinsipləri və standartlarını rəhbər tutan "ASAN kommunal"

mərkəzlərində Azəriqaz, Azərsu, Azərişıq şirkətlərinin 45 növ kommunal xidmətləri göstərilir.

Dövlətimizin başçısının tapşırığına əsasən yaradılan "ASAN radio" 2015-ci il dekabrın 24-dən etibarən 100 FM dalğasında yayıma başlayıb. "ASAN radio" dövlət xidmətləri sahəsində ixtisaslaşan ilk və yeganə radiodur.

Könüllülər "ASAN xidmət" fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın bir komponentidir.

"ASAN Könüllüləri" Təşkilatı gənclərin hərtərəfli inkişafı üçün "ASAN akademiya", "Könüllülər yurdu Azərbaycan", "Mədəniyyət carçısı", "Könüllülər parlamenti", "ASAN məktub", "Əsgərə məktub" kimi böyük layihə və proqramlar həyata keçirməkdə davam edir. "ASAN xidmət" könüllülük fəaliyyəti gənclərin məsuliyyətli vətəndaş kimi formalaşdırılmasını prioritet hesab edir.

Qeyd etmək lazımdır ki, ASAN könüllülərinin "ASAN məktub" və "ASAN kadr" layihələri qabaqcıl təcrübələr kimi Birləşmiş Millətlər Təşkilatının "Cənub əməkdaşlığı çərçivəsində qabaqcıl mexanizmlər və həllər" adlı portalına daxil edilib.

Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun sadələşdirilməsi, müasir informasiya texnologiyalarının tətbiqi ilə operativliyi və şəffaflığı təmin edən elektron viza sisteminin yaradılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti 2016-cı il iyunun 1-də "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN viza" sisteminin yaradılması haqqında" Fərman imzalayıb.

Sistem vasitəsilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər standart elektron vizanı 3 iş günü, sürətləndirilimiş qaydada isə 3 saat ərzində 3 addımla (müraciət et, ödəniş et və e-vizanı yüklə) əldə edə bilər. Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan

şəxslərə elektron viza verilməsi üçün "ASAN viza" sistemi 2017-ci il yanvarın 10-dan fəaliyyətə başlayıb. Hazırda "ASAN viza" portalı 7 dildə (azərbaycan, ingilis, fransız, ispan, ərəb, fars və rus) fəaliyyət göstərir.

Dövlət başçısının Fərmanı ilə yaradılan "ASAN viza" sistemi qısa müddət ərzində ölkəmizə turist axınının artmasına şərait yaratdı.

Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ABAD" (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxs Prezident İlham Əliyevin 2016-cı il 23 sentyabr tarixli Fərmanı ilə yaradılıb. "ABAD" publik hüquqi şəxsin yaradılmasında məqsəd Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədilə sosialyönümlü layihələrin həyata keçirilməsidir.

"ABAD" publik hüquqi şəxsin fəaliyyətinin prioritet istiqamətləri dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək göstərməkdir.

Vətəndaş cəmiyyətində insan və vətəndaş hüquqlarının və azadlıqlarının səmərəli təminatı hər şeydən əvvəl ölkədə elə bir obyektiv və subyektiv şəraitin yaradılmasını ehtiva edir ki, məhz bu şəraitdə insan və vətəndaş hüquqlarının, azadlıqlarının gerçəkləşməsi mümkündür. Əgər obyektiv şərait ölkə ərazisində təkmil sosial-iqtisadi, mədəni, sabit siyasi vəziyyətlə bağlıdırsa, subyektiv amil ilk öncə müstəqil demokratik məhkəmə sisteminin yaradılması ilə bağlıdır.

Hər iki halda Dövlət başçısının üzərinə mühüm vəzifələr düşür.

Ölkəmizdə insan və vətəndaş hüquqlarının, azadlıqlarının etibarlı təminatı məqsədilə zəruri, sabit sosial-iqtisadi mühitin yaradılması sahəsində mühüm əhəmiyyət kəsb edən dövlət tədbirlərindən Dövlət başçısının fərmanları ilə qəbul edilən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarını göstərmək olar.

Ölkənin sosial-iqtisadi inkişaf strategiyasında prioritet kimi müəyyən edilmiş və neft-qaz gəlirlərindən səmərəli istifadə etməklə regional tarazlığın təmin edilməsi istiqamətində müstəsna rol oynayan regional inkişaf üzrə Dövlət Proqramları əhalinin işgüzar fəallığının artmasına, regionlarda sahibkarlıq fəaliyyətinin daha da genişlənməsinə, infrastruktur layihələrinin həyata keçirilməsinə, beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisə və obyektlərin yaradılmasına səbəb olmuş, vətəndaşların rifahını xarakterizə edən keyfiyyət göstəricilərini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır.

Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişafı, ölkə regionlarının tarazlı inkişafının təmin edilməsi, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin və müəssisələrin yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılması və həyat səviyyəsinin yüksəldilməsindən ibarət olmuşdur.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" uğurlu icrası bütün regionların inkişafında yeni bir mərhələnin yaranmasına səbəb olmuş, formalaşmış əlverişli iqtisadi mühit ölkənin sosial-iqtisadi inkişafı sahəsində başlanmış

tədbirlərin davam etdirilməsi zərurətini yaratmışdır. Ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunması məqsədilə 2004-cü ildən başlanmış tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir.

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində mühüm rol oynamışdır.

Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin davamı olaraq "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" hazırlanmışdır. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynamışdır.

Ölkə regionlarının, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də

davam etdirmək, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, bölgələrdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafına dair yeni Dövlət Proqramı təsdiq edilmişdir.

Yuxarıda göstərilən hüquqi sənədlər və həmin sənədlərin icrasına dair həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının ali təminatçısı kimi Azərbaycan Respublikasının Prezidenti öz funksional vəzifələrini innovativ metodlar əsasında davamlı və uğurla həyata keçirir.

Azərbaycan Respublikasında Dövlət başçısının digər mühüm funksiyası Milli Təhlükəsizliyin, dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün təminatı funksiyasıdır.

Hər bir dövlətin davamlı inkişafı, xalq suverenliyinin, insan və vətəndaş hüquqlarının və azadlıqlarının etibarlı təminatı əhəmiyyətli dərəcədə ölkənin milli təhlükəsizlik sisteminin səviyyəsindən asılıdır.

Türkiyə Cümhuriyyətinin banisi M.K.Atatürk təhlükəsizliyi təmin edən əsas subyekt kimi dövləti əsas götürərək bunu aşağıdakı kimi ifadə edir: “Hökumətin varlığının səbəbi ölkənin asayişini, millətin hüzur və rahatlığını təmin etməkdir. Bütün ölkədə gerçək bir asayiş hakim olmalıdır. Millət böyük bir hüzur və asayişin içində rahat olmalıdır. Ölkəmizin hər hansı bir guşəsində xalqın təhlükəsizliyini, dövlətin bütövlük və asayişini pozmağa qalxanlar dövlətin bütün qüvvələrini qarşısında görməlidir” (30, s. 191).

Müasir şəraitdə ölkəmizdə səmərəli milli təhlükəsizlik sisteminin formalaşması, onun təkmil hüquqi bazasının yaradılması istiqamətində müvafiq işlər görülmüşdür.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasının, onun tərkib hissəsi sayılan Hərbi doktrinanın, Milli Təhlükəsizlik haqqında, Terrorçuluğa qarşı, Dini ekstremizmə qarşı mübarizə haqqında, Kəşfiyyat və əks-kəşfiyyat haqqında və digər qanunvericilik aktlarının qəbul edilməsi təhlükəsizlik sisteminin hüquqi bazasının yaradılmasında mühüm rola malikdir. Həmçinin bu sahədə görülən praktiki işlər milli təhlükəsizlik sisteminin səmərəli fəaliyyət göstərdiyini təsdiq edir.

İlk növbədə qeyd olunmalıdır ki, yuxarıda adları çəkilən normativ hüquqi aktların və təhlükəsizlik sahəsində digər konseptual sənədlərin işlənib hazırlanması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il sərəncamı ilə işçi qrupu yaradıldı və bu qrup ilk növbədə milli təhlükəsizlik konsepsiyasını işləyib hazırlamağa başladı. 2007-ci il mayın 23-də cənab Prezidentin sərəncamı ilə həmin konsepsiya təsdiq olundu. Bu konsepsiya hərbi doktrinanın, xarici siyasət strategiyasının, iqtisadiyyat, mədəniyyət, elm, təhsil, səhiyyə, nəqliyyat və s. sahələrdə konsepsiyaların hazırlanması üçün əsasdır.

Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası» dövlətimizin müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarının müəyyən edilməsi məqsədi ilə hazırlanmışdır.

Ümumilikdə «Giriş» hissəsindən, «Təhlükəsizlik mühiti», «Azərbaycan Respublikasının milli maraqları», «Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər», «Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri» adlı dörd bölmədən və «Yekun müddəalar»dan ibarət olan Konsepsiya, sənədin

«Giriş» hissəsində də bildirildiyi kimi, dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avratlantik məkana inteqrasiyasını, bununla yanaşı tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur.

Konsepsiyaya əsasən, Azərbaycan Respublikasının təhlükəsizlik mühiti deyildikdə, onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalisinin rifah və dəyərlərinin qorunmasına təsir edən amillərin məcmusu başa düşülür.

Sənəddə, eyni zamanda, respublikanın təhlükəsizlik mühiti üçün beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik vasitələrin qaçaqmalçılığı və kütləvi qırğın silahlarının yayılması kimi təhdidlərin mövcudluğunun dövlət qarşısında müəyyən vəzifələr qoyduğu da bildirilir.

Konsepsiyanın «Azərbaycan Respublikasının milli maraqları» bölməsində xalqımızın fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarət olan milli maraqlarımız aşağıdakı kimi sıralanır:

- dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;
- Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi;
- vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının təmin olunması;
- demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmini yolu ilə dövlətin

funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;

- beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün dəyərlərini bölüşdüyü beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsi;

- bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədi ilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;

- təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, təhsil, elmi və texnoloji potensialın artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;

- dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi;

- Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi.

Konsepsiyanın «Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər» bölməsində respublikamızın milli təhlükəsizliyinə təhdidlərdən söz açılır və bu təhdidlər «Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər», «Qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması və insan hüquq və əsas azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyalarını yerinə yetirməyə qarşı fəaliyyət», «Separatçılıq, etnik, siyasi və dini ekstremizm», «Terrorçuluq və kütləvi qırğın silahlarının yayılması», «Regional münaqişələr və transmilli mütəşəkkil

cinayətkarlıq», «Azərbaycan Respublikasının enerji infrastrukturuna qarşı fəaliyyət», «Xarici siyasi, hərbi və ya iqtisadi asılılıq», «İqtisadi qeyri-sabitlik», «Peşəkar insan ehtiyatlarının çatışmazlığı», «Regional hərbiləşdirmə» və «Ekoloji problemlər» adları altında qruplaşdırılır.

«Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri» bölməsində bildirilir ki, suveren dövlət kimi Azərbaycan Respublikası daxili və xarici siyasət vasitələrindən istifadə edərək mövcud təhlükəsizlik mühitində təhdidlərin nəzarət altında saxlanılmasına və aradan qaldırılmasına, habelə ölkənin milli maraqlarının təmin edilməsinə yönəlmiş milli təhlükəsizlik siyasətini formalaşdırır və həyata keçirir.

Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri kimi, təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin edilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması, Avropa və Avratlantik strukturlarına inteqrasiya, beynəlxalq təhlükəsizliyə töhfə, beynəlxalq təşkilatlarla əməkdaşlıq, regional əməkdaşlıq və ikitərəfli münasibətlər (region ölkələri ilə əməkdaşlıq, qeyri-region ölkələri ilə əməkdaşlıq), müdafiə qabiliyyətinin möhkəmləndirilməsi və təhlükəsizliyin daxili siyasət vasitələri ilə təmin edilməsi (demokratiyanın möhkəmləndirilməsi, milli və dini tolerantlıq mühitinin qorunması, elm, təhsil, mədəniyyət siyasəti və mənəviyyatın qorunması, iqtisadi və sosial inkişaf, daxili təhlükəsizliyin möhkəmləndirilməsi, sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi, miqrasiya siyasəti, enerji təhlükəsizliyi siyasəti, nəqliyyat təhlükəsizliyi siyasəti, fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi, informasiya təhlükəsizliyi siyasəti) göstərilir.

Konsepsiyanın «Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri» bölməsinin 4.2-

ci bəndində («Müdafiə qabiliyyətinin möhkəmləndirilməsi») Azərbaycan Respublikasının müdafiə qabiliyyətinin ölkənin milli maraqlarını təmin etmək üçün əsas amillərdən biri olduğu qeyd olunur və bildirilir ki, dövlətimizin müdafiə siyasəti milli resurslara və mövcud təhlükəsizlik vəziyyətinə əsaslanan, demokratik nəzarət altında olan müdafiə qabiliyyətinin inkişaf etdirilməsinə və saxlanmasına əsaslanır.

Konsepsiyaya əsasən, Azərbaycan Respublikasının milli müdafiə siyasətinin əsasını bütün ölkələrlə dinc yanaşı yaşama, digər dövlətlərin suverenliyinə və müstəqilliyinə hörmət və onların daxili işlərinə qarışmama, mövcud dövlət sərhədlərinin bütövlüyü və onların dəyişməzliyi, beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi, hərbi quruculuqda konkret qüvvələr nisbətini nəzərə almaqla zəruri müdafiə kifayətliliyi məfhumunun dəstəklənməsi təşkil edir.

Konsepsiyanın «Yekun müddəalar»ında bir daha vurğulanır ki, bu Konsepsiya Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsasını təşkil edir və dövlətin milli maraqlarının qorunması məqsədi ilə müvafiq dövlət strukturlarının üzərinə xüsusi vəzifələr qoyur və bu kontekstdə onların əlaqələndirilmiş fəaliyyətini zəruri edir. Eyni zamanda, Konsepsiya ölkənin daim dəyişən təhlükəsizlik mühitini, Azərbaycan Respublikasının milli maraqlarını və təhlükəsizlik siyasətinin əsas istiqamətlərini müəyyən edir.

«Yekun müddəalar»da həmçinin Konsepsiyanın hərbi doktrina, xarici siyasət strategiyası, müdafiə icmalı, iqtisadi konsepsiya, mədəniyyət, elm, təhsil, səhiyyə və nəqliyyat strategiyaları da daxil olmaqla, dövlət fəaliyyətinin müxtəlif sahələri ilə bağlı daha müfəssəl sənədlərin hazırlanması üçün əsas olduğu da qeyd edilir.

Ölkəmizin milli təhlükəsizlik sisteminin hüquqi bazasını təşkil edən ən mühüm konseptual sənədlərdən biri

də Milli Təhlükəsizlik sisteminin tərkib hissəsi sayılan Azərbaycan Respublikasının Hərbi doktrinasıdır. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə yaradılan işçi qrupu tərəfindən həmin doktrinanın layihəsi hazırlanmışdır və Dövlət başçısı tərəfindən Milli Məclisin təsdiqinə təqdim olunmuşdur.

Azərbaycanın Hərbi doktrinası Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatı strategiyasının tərkib hissəsi olaraq, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici hərbi və digər təhdidlərdən qorunmasına yönəlmiş hərbi təhlükəsizlik sisteminin konseptual əsasını müəyyənləşdirən sənəddir.

Hərbi doktrina hərbi təhlükəsizliyə təhdidlərin vaxtında aşkarlanması, təhlil edilməsi, qiymətləndirilməsi, qarşısının alınması, onlara yetərli müqavimətin göstərilməsi, dövlətin, əhalinin və ərazinin müdafiəyə hazırlanması, səmərəli hərbi təhlükəsizlik sisteminin yaradılması, müharibə və silahlı münaqişələrin qarşısının alınması, silahlı təcavüzün dəf edilməsi ilə bağlı məsələlərə dair Azərbaycan Respublikasının mövqeyini əks etdirir.

Hərbi doktrina Azərbaycan Respublikasının təhlükəsizlik mühitini və milli maraqlarının həyata keçirilməsinə mane olan və ya onlara təhlükə yaradan şərait, proses və amilləri təhlil edir.

Hərbi doktrina milli təhlükəsizliyin hərbi-strateji, hərbi-siyasi, hərbi-iqtisadi, hərbi-texniki və təşkilati əsaslarını, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin vəzifələrini, onların hazırkı mərhələdə və perspektivdə əsas quruculuq, inkişaf və hazırlıq prioritetlərini müəyyən edir.

Milli Təhlükəsizlik haqqında Qanunun 10.2-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvələr və dövlət orqanlarına

Azərbaycan Respublikasının Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələr, xüsusi xidmət orqanları, polis, prokurorluq, gömrük, vergi və digər hüquq mühafizə orqanları, sənaye, energetika, nəqliyyat sahəsində işlərin təhlükəsiz görülməsi qaydalarına məsuliyyət daşıyan, rabitə və informasiya təhlükəsizliyini, ətraf mühitin mühafizəsini və əhalinin sağlamlığının qorunmasını təmin edən dövlət orqanları daxildir. Bu orqanlara ümumi, ali rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali baş komandanı həyata keçirir.

Milli Təhlükəsizlik funksiyasının həyata keçirilməsində Dövlət başçısına köməklik göstərən orqanlardan biri də Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurası-10 aprel 1997-ci ildə yaradılıb. Təhlükəsizlik Şurası Prezidentin yanında məşvərətçi orqandır. O, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 27-ci bəndinə uyğun olaraq Prezident tərəfindən yaradılır. Təhlükəsizlik Şurası vətəndaşların hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunması sahəsində Prezidentin öz Konstitusiya səlahiyyətlərini həyata keçirməsinə şərait yaradılmasını təmin edir.

Şuraya vitse-prezident, Milli Məclisin sədri, baş nazir, Prezident administrasiyasının rəhbəri, dövlət müşavirləri, baş prokuror, xarici işlər naziri, müdafiə naziri, dövlət təhlükəsizlik xidmətinin rəisi, daxili işlər naziri daxildir

Təhlükəsizlik Şurasının iclaslarına Prezident sədrlik edir.. İclasların gündəliyi və məsələlərin müzakirəsi qaydası Administrasiya rəhbərinin təqdimatı əsasında Prezident tərəfindən müəyyənləşdirilir.

Milli Təhlükəsizliyin təminatı sahəsində dövlət idarəçiliyini təkmilləşdirmək məqsədilə bu sahəyə bilavasitə dövlət idarəçiliyini həyata keçirən dövlət orqanının fəaliyyətində müəyyən dəyişiklik edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2015-ci ildə Milli Təhlükəsizlik Nazirliyi ləğv edilib, onun bazasında Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətləri yaradılmışdır.

Müasir informasiya cəmiyyətində qloballaşan dünyada yaranan mühüm problemlərdən biri də informasiya təhlükəsizliyinin təmin edilməsidir.

Bununla bağlı ölkəmizdə informasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında 2012-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Fərmanı qəbul edilmişdir. Fərmanda göstərilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması, bu sahədə təhdidlərin qarşısının alınması, təhlili və qabaqlanması üçün dövlət və qeyri-dövlət informasiya infrastrukturu subyektlərinin, onların istifadəçilərinin fəaliyyətinin əlaqələndirilməsi, kibertəhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi və idarə olunması, ümummilli hazırlığın və maarifləndirmənin təmin edilməsi məqsədi ilə

Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi yaradılsın.

Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi dövlət orqanları, dövlətə məxsus olan hüquqi şəxslər, o cümlədən Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər üçün xüsusi dövlət rabitəsinin, xüsusi təyinatlı informasiya-

telekommunikasiya sistemlərinin və şəbəkələrinin, idarələrarası elektron sənəd dövriyyəsinin, dövlət qurumlarının internet şəbəkəsi ilə əlaqəsinin, onların internet informasiya resurslarının məlumat və resurs mərkəzində yerləşdirilməsinin təşkilini, istismarını, təhlükəsizliyini və inkişafını təmin edən, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyini təmin etmək məqsədi ilə xüsusi texniki tədbirləri həyata keçirən qurumdur.

Eyni zaman Kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyası, mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırma, əhalinin, özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsi və onlara metodiki kömək göstərilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında əlaqələndirici qurum olan Elektron Təhlükəsizlik Mərkəzi yaradılmışdır.

Bir sıra demokratik dövlətlərin konstitusiyası Dövlət başçısının siyasi inteqrativ funksiyasını təsbit edir. Prezidentin bu cür funksiyası hər şeydən əvvəl xalqın vahidliyinin, dövlət hakimiyyəti qollarının qarşılıqlı əməkdaşlığı və anlaşma şəraitində fəaliyyətinin, onlar arasında ziddiyyətlərin aradan qaldırılması yolu ilə dövlət hakimiyyətinin vahidliyinin təmin olunmasında təzahür edir.

Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsinin II hissəsində qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir. Prezident ölkədə ayrı-ayrı partiyaları, qeyri hökumət təşkilatlarını, sosial qrupları deyil, bütün xalqın hər bir vətəndaşın maraqları naminə fəaliyyət göstərir. Bir neçə dəfə kütləvi informasiya vasitələrində Prezident seçkilərindən sonra cənab İlham Əliyev öz çıxışlarında qeyd

etmişdir ki, mən hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm.

Dini, irqi, milli ayrı seçkiliyi, siyasi radikalizmi və digər ziddiyyətləri yaymaq yolu ilə xalqımızı parçalamağa çalışan dağıdıcı qüvvələrin qanunsuz əməllərinə Prezident biganə qala bilməz və Dövlət başçısı kimi müvafiq qətiyyətli tədbirlər görməyə borcludur. XX əsrin sonundan bu günədək xalqımızı parçalamağa, onun vahidliyini pozmağa, cəmiyyət daxilində ziddiyyətlər yaradıb ölkəmizdə vətəndaş müharibəsi yaratmağa cəhd göstərən qüvvələrə qarşı Dövlət başçısının rəhbərliyi ilə konstitusiya çərçivəsində qətiyyətli dövlət məcburiyyət tədbirləri görülmüş və bu cəhdlərin hamısının qarşısı alınmışdır.

Dünyada baş verən siyasi proseslər onu deməyə əsas verir ki, bu sahədə ehtimal olunacaq təhdidlər hələ də mövcuddur və bəzi hallarda ölkəmizə də sirayət edir. Bu baxımdan hesab edirik ki, bu cür mənfi təzahürlərin qarşısının alınması üçün müvafiq preventiv tədbirlərin görülməsi, xüsusilə cəmiyyət arasında maarifləndirici işlərin görülməsi, vətəndaşlarımızın həm hüquqi, həm də siyasi mədəniyyətinin davamlı olaraq inkişaf etdirilməsi olduqca vacibdir. Bu işdə təhsil müəssisələrinin və kütləvi informasiya vasitələrinin rolunu xüsusi qeyd etmək istəyirəm.

Dövlət başçısının siyasi inteqrativ funksiyasının həyata keçirilməsində önəmli məsələlərdən biri də dövlət hakimiyyəti budaqları arasında qarşılıqlı əməkdaşlığın və kompromisin yaradılması, ziddiyyətləri aradan qaldırmaq yolu ilə dövlət hakimiyyətinin vahidliyinin təmin edilməsidir.

Bu cür təcrübəyə Fransanın konstitusiya qanunvericiliyində rast gəlmək olar. Məsələn, Fransanın konstitusiya qanunvericiliyinə görə, Prezident heç bir hakimiyyət qoluna daxil deyil, konstitusiyanın və

hakimiyyət qollarının normal fəaliyyətini təmin etmək məqsədillə arbitr funksiyasını yerinə yetirir.

Bu məsələ Azərbaycan Respublikasının Konstitusiyasında bir qədər fərqli formada tənzimlənir. Azərbaycan Respublikası Konstitusiyasının 98-ci maddəsinə görə Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

§2. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri

Dövlət hakimiyyəti sistemində Prezidentin səlahiyyətləri hər şeydən əvvəl dövlət idarəçiliyi formasından asılıdır.

Müasir dövlətlərin konstitusiya quruculuğu təcrübəsində respublika idarəçilik formasının prezidentli, parlamentli, qarışıq (yarımprezidentli, yarımparlamentli) növləri fərqləndirilir.

Məsələn, prezidentli respublikada Prezident eyni vaxtda həm dövlət başçısı, həm də icra hakimiyyəti funksiyalarını həyata keçirir.

Bəzi nəzəri mənbələrdə qeyd olunur ki, prezidentli respublikada Prezident həm dövlət başçısı, həm də hökumət başçısıdır. Hökumət anlayışı isə burada dar mənada yəni ali kollegial icra və sərəncam orqanı (Nazirlər Kabineti) kimi xarakterizə olunur. Bu cür yanaşmanı düzgün hesab etmirik. Belə ki, prezidentli respublikada Nazirlər Kabineti (ali, kollegial icra və sərəncam orqanı) mövcud olmaya da bilər. Buna misal kimi prezidentli respublikanın ilk vətəni sayılan Amerika Birləşmiş Ştatlarını göstərmək olar. Burada mərkəzi icra hakimiyyəti orqanları (nazirliklər) birbaşa prezidentə tabedir.

Prezidentli respublikanın digər mühüm xüsusiyyəti ondadır ki, burada həm qanunverici, həm də icraedici hakimiyyət öz mandatını bilavasitə xalqdan alır. Həmçinin icra hakimiyyəti orqanlarını prezident yaradır və həmin orqanların rəhbərlərini də özü təyin edir, onlar Prezident qarşısında məsuldur. Bu orqanların istefasını yalnız Prezident qəbul edə bilər.

Müasir dünyamızda prezidentli respublika və qarışıq respublika idarəçilik formaları ilə müqayisədə parlamentli respublikalar nisbətən az yayılmışdır (məsələn, AFR, İtaliya, Avstriya, Estoniya, Çexiya, Sloveniya və s.). Professor B.A.Straşun bu cür vəziyyəti onunla izah edir ki, çoxpartiyalı sistemin parlamentarizm dövlət rejimini şərtləndirdiyi ölkələrdə tez-tez hökumət böhranları baş verir (90,s. 376).

Adətən, parlamentli respublikada prezidentin seçilməsinin elə qaydası nəzərdə tutulur ki, o, öz mandatını bilavasitə xalqdan almır. Burada prezidentin birbaşa olmayan seçkilərinin müxtəlif üsulları tətbiq edilir. O, ya parlament (məsələn, Yunanıstan, Çexiya, Slovakiya,

Macarıstan və s.), ya da xüsusi kollegiya tərəfindən (məsələn, Almaniyada kollegiyanın tərkibinə aşağı palatanın bütün deputatları və torpaqların nümayəndəli orqanları tərəfindən seçilmiş eyni sayda deputatlar daxildir; İtaliyada kollegiyanın tərkibinə parlamentin hər iki palatasının üzvləri və vilayət şuralarının nümayəndələri daxildir) (41, s. 193).

Prezidentli respublikadan fərqli olaraq parlamentli respublikada dövlət başçısı Baş Naziri seçməkdə və Nazirlər Kabinetinin tərkibini formalaşdırmaqda tam müstəqil deyildir. Burada baş nazir vəzifəsini adətən parlamentdə çoxluq təşkil edən partiyanın lideri və ya parlamentdə əksəriyyət təşkil edən partiyalar blokunun təklif etdiyi namizəd tutur. Baş nazir hökumətin tərkibini müəyyən edir və parlamentin təsdiqinə verir.

Parlamentli respublikada Nazirlər Kabineti parlament qarşısında siyasi məsuliyyət daşıyır. Belə ki, parlamentin qəbul etdiyi etimadsızlıq votumu Nazirlər Kabinetini istefaya getməyə məcbur edir. Lakin bu zaman Nazirlər Kabineti Prezident tərəfindən parlamentin buraxılmasına nail ola bilər. Belə olan halda Prezident mütləq yeni seçkilər təyin etməlidir. Seçkilərin nəticələri kabinet partiyasının xeyrinə olmadıqda sonuncu istefaya getməyə məcburdur.

Qarışıq (yarımprezidentli, yarımparlamentli) respublika idarəçilik formasında xalq həm prezidenti, həm də parlamenti seçir. Burada kabinet təşkil edilərkən parlamentin partiya tərkibi əhəmiyyətli rol oynayır, çünki Prezident tərəfindən Baş Nazirin təyin edilməsində parlamentin (aşağı palatanın) razılığı tələb olunur. Bu Nazirlər Kabinetinin təşkil olunmasının qismən parlament üsuludur, çünki baş nazir istisna olmaqla digər nazirlərin təyin edilməsi üçün parlamentin razılığı tələb olunmur.

Nazirlər Kabineti paraqrafında onun tərkibinin formalaşdırılması modelləri daha konkret baxılacaq.

Azərbaycanın respublika idarəçiliyi formasının hansı növünü (prezidentli, parlamentli, qarışıq) qəbul etməsi Konstitusiyamızda konkret olaraq göstərilmir. Lakin əsas qanunun ayrı-ayrı normalarının interpretasiyası əsasında belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasının Konstitusiyası prezidentli respublika idarəçilik formasına üstünlük verir. Bununla bağlı bir neçə konstitusiya normasını misal kimi göstərmək olar.

Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsinin I hissəsində qeyd olunur ki, Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir, 99-cu maddədə isə göstərilir ki, Azərbaycan Respublikasında icra hakimiyyəti Prezidentə mənsubdur. ABŞ təcrübəsindən fərqli olaraq Azərbaycanda, kollegial icra və sərəncam orqanı sayılan Nazirlər Kabineti də fəaliyyət göstərir. Lakin Azərbaycan Respublikasında bəzi mənbələrin qeyd etdiyi kimi, icra hakimiyyəti Prezident və Nazirlər Kabineti arasında bölünmür. Azərbaycan Respublikası Konstitusiyasına görə icra hakimiyyəti Prezidentə mənsubdur. Nazirlər Kabineti isə Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır (maddə 114, II hissə). Bu orqanı Prezident icra səlahiyyətlərinin həyata keçirilməsi məqsədilə yaradır, onun iş qaydasını müəyyənləşdirir. Azərbaycan Respublikası Nazirlər Kabineti Prezidentə tabedir və onun qarşısında cavabdehdir.

Məsələn, parlamentli respublikanın üstün cəhətləri kimi Ziyafət Əsgərov yazır ki, parlamentli respublikada icra hakimiyyəti qanunverici hakimiyyətin tam nəzarəti altındadır ki, bu da hakimiyyətin iki budağı arasında ziddiyyəti minimuma endirir. Belə sistemə malik olan dövlətlərdə, demək olar ki, Qərbi Avropanın bütün ölkələrində inflyasiyanın səviyyəsi aşağıdır, büdcə daha yaxşı balanslaşdırılmışdır, milli valyuta sabitdir, bu ölkələr daxili və xarici problemlərin azlığı ilə seçilir (38,s. 373).

Bu gün yuxarıda göstərilən dövlətlərin təcrübəsi onu göstərir ki, həmin ölkələr heç də sosial-iqtisadi, mədəni, daxili və xarici, siyasi böhran problemlərindən azad deyil. Ona görə də parlament idarəçiliyi formasının pozitiv cəhətini aşağıdakı kimi təfsir etsək daha düzgün olardı:

1. Dövlət hakimiyyətinin iki budağı arasında siyasi ziddiyyətləri aradan qaldıran mexanizminin olması;

2. Nazirlər Kabinetinin fəaliyyətinə nisbətən güclü parlament nəzarətini ehtiva edən İnvestitura institutunun mövcudluğu.

Yuxarıda qeyd olunan müsbət tərəflərlə yanaşı Ziyafət Əsgərov haqlı olaraq yazır ki, parlamentli respublikalar müəyyən çatışmazlıqlardan da uzaq deyildir.

Birinci nöqsan partiya sisteminin rəngarəngliyindən ibarətdir ki, bu da parlamentli respublikanın kövrəkliyinə, hökumətlərin qeyri-sabitliyinə rəvac verir. İkinci nöqsan isə icra hakimiyyəti tərəfindən əks təsirə məruz qalmayan sadə parlament çoxluğunun yaratmağa qadir olduğu istibdad təhlükəsidir (38,s. 373).

Zənnimizcə, prezidentin xalq tərəfindən deyil, əsasən parlament yolu ilə seçilməsi və kontrasiqnatura institutunun olması hallarını da parlamentli respublikanın zəif cəhətləri kimi qəbul etmək olar.

Parlamentli respublikadan fərqli olaraq prezidentli respublikanın aşağıdakı üstün cəhətlərini göstərmək olar:

1. Prezidenti xalq seçir;

2. Qanunvericiliklə Prezidentin hüquqi məsuliyyəti müəyyən olunur (məsələn, konstiutsiya məsuliyyəti, impiçment proseduru);

3. Baş Nazirin təyin edilməsi, Nazirlər Kabinetinin təşkili (əgər bu cür orqan mövcuddursa) prezident tərəfindən həyata keçirilir;

4. Mərkəzi icra orqanlarının rəhbərlərini prezident vəzifəyə təyin edir və azad edir;

5. Nazirlər Kabinetinin tərkibinin formalaşmasında adətən prezidentlə parlament arasında siyasi qarşıdurmanın yaranması ehtimalı az olur. Yaransa da bu halda son söz prezidentə məxsus olur ki, bu cür vəziyyəti tamamilə məqbul hesab edirik. Belə ki, icra hakimiyyəti sistemində mövcud vəziyyətə görə prezident suveren, yəni xalq qarşısında məsuldur;

6. Hakimiyyətlər bölgüsü, yəni hakimiyyət qolları arasında tarazlıq, çəkindirmə mexanizmi daha səmərəli olur. Bir hakimiyyət qolunda təmsil olunan şəxs ikinci, üçüncü hakimiyyət qollarında vəzifə tuta bilməz.

Yuxarıda göstərilən üstün cəhətlərinə görə prezidentli respublika idarəçilik formasının qəbulunu ölkəmiz üçün daha münasib hesab edirik. Bu kontekstə Ziyafət Əsgərov haqlı olaraq yazır ki, hakimiyyət forması kimi prezidentli respublikanın üstünlüyü ondan ibarətdir ki, ümumi və birbaşa seçkilər yolu ilə seçilmiş prezident özündə bütün ölkənin ümumilli səylərini və insanların vahid dövlətə məxsusluğu hissini təcəssüm etdirir və parlamentar sistemə nisbətən siyasi sabitliyin daha yüksək səviyyəsinə təminat verir (38,s. 373).

Bütün pozitiv əlamətləri ilə yanaşı klassik prezidentli respublika idarəçilik üsulunun tarixi təcrübəsi onun bəzi zəif tərəflərini də üzə çıxarmışdır:

1. Hakimiyyət budaqları arasında siyasi konfliktləri aradan qaldıran təsirli mexanizmin yoxluğu;

2. Nazirlər Kabinetinin, mərkəzi icra orqanlarının fəaliyyətinə parlament nəzarətinin nisbətən zəif xarakterli olması.

Olduqca təqdirəlayiq hal kimi göstərmək olar ki, Azərbaycan Respublikasında aparılan konstitusiya islahatları prezidentli respublika idarəçilik formasının yuxarıda göstərilən çatışmazlıqlarını aradan qaldırmışdır. Buna misal olaraq 2016-cı ildə keçirilən referendumda

Azərbaycan Respublikası Konstitusiyasına 98* maddəsinin əlavə edilməsini, Nazirlər Kabinetinin, mərkəzi icra orqanlarının fəaliyyətinə parlament nəzarətinin gücləndirilməsini göstərmək olar. Bu kontekstə Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında konstitusiya qanunu xüsusi əhəmiyyət kəsb edir. Həmin qanunun müddəalarına görə Azərbaycan Respublikasının Nazirlər Kabineti hər il Azərbaycan Respublikası Milli Məclisinin yaz sessiyasının beşinci iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabat verir.

Beləliklə, prezidentli respublika idarəçilik formasını qəbul edən Azərbaycan Respublikasının konstitusiya qanunvericiliyi əsasında prezidentin səlahiyyətlərini ümumilikdə iki qrupa bölmək olar: 1. Dövlət başçısı funksiyalarının həyata keçirilməsilə bağlı səlahiyyətlər; 2. İcra hakimiyyəti funksiyalarının icrası ilə bağlı prezidentin səlahiyyətləri.

Şahin Əliyev yazır ki, Prezidentin dövlətin başçısı statusu ilə bağlı səlahiyyətləri konstitusiyalarda mümkün qədər tam əks etdirilir. Lakin prezidentin icra hakimiyyətinin başçısı statusundan irəli gələn səlahiyyətlərə bu qayda müstəsna hallarda aid edilir. Adətən, prezidentin səlahiyyətləri tam sadalanandan sonra qeyd edilir ki, başqa məsələlər prezident tərəfindən icra qaydasında həll edilir. Bu onunla bağlıdır ki, konstitusiyada icra ilə bağlı bütün məsələləri tam əhatə etmək olduqca çətindir, ona görə ki, icra sahəsi qanunvericilik sahəsindən fərqli olaraq operativ qaydada həll edilən məsələləri əhatə edir və bu məsələlər həyatın tələblərinə uyğun olaraq bu və ya digər formada özlərini biruzə verə bilər (71,s. 51).

Şahin Əliyev mahiyyətcə prezidentin səlahiyyətlərini beş qrupa bölür: beynəlxalq münasibətlər, ali nümayəndəli

orqanla münasibətlərdə, dövlət idarəetmə sahələrində, məhkəmə orqanlarının fəaliyyətinə aid və fövqəladə hallar yarandıqda Prezidentin səlahiyyətləri .

Professor B.J.Çirkin yuxarıda göstərilənlərlə yanaşı həmçinin Prezidentin normayaratma fəaliyyəti, silahlı qüvvələrə sərəncam verməküzrə və şəxsiyyətin hüquqi statusu sahəsində səlahiyyətlərini də fərqləndirir (41,s. 354-355).

Professor B.A Straşun dövlət başçısının ümumilikdə parlament, hökumət və məhkəmə hakimiyyətilə münasibətdə, şəxsiyyətin statusu, beynəlxalq münasibətlər, ölkənin müdafiəsi və təhlükəsizliyinin təmin olunması sahələrdə səlahiyyətlərini xarakterizə edir (90,s. 568-569).

Yuxarıda adları çəkilən alimlər prezidentin hakimiyyət qollarına münasibəti, idarəçilik sahələri, Prezidentin funksiyaları kimi meyarlar əsasında dövlət başçısının səlahiyyətlərini fərqləndirir.

Başqa bir yanaşma da mövcuddur, məsələn hüquqi tənzimetmənin formasına görə konstitusiyada, konstitusiya qanunlarında, qanunlarda, qanun qüvvəli aktlarda təsbit olunan Prezidentin səlahiyyətləri (141, s. 79).

Zənnimizcə Prezidentin səlahiyyətlərinin təsnifat meyarlarına inteqrativ yanaşma onların xarakterizəsi üçün nisbətən geniş imkanlar yaradır.

Beləliklə dövlət başçısının funksiyaları, hakimiyyət qolları ilə münasibəti, dövlət idarəçiliyi forması əsasında Prezidentin konstitusiya səlahiyyətlərini aşağıdakı qruplara bölmək olar:

1. Ali nümayəndəli qanunverici orqanla münasibətlərdə Prezidentin səlahiyyətləri;
2. Beynəlxalq münasibətlər sahəsində Prezidentin səlahiyyətləri;
3. Hüquqyaradıcılığı sahəsində Prezidentin səlahiyyətləri;

4. Ölkənin müdafiəsi və təhlükəsizliyinin təminatı sahəsində Prezidentin səlahiyyətləri;

5. Dövlət hakimiyyətinin vahidliyi, dövlət orqanları arasında qarşılıqlı əməkdaşlığın təminatı və ziddiyətlərin aradan qaldırılması sahəsində Prezidentin səlahiyyətləri;

6. Özünün vəzifə və funksiyalarının səmərəli həyata keçirilməsi, fəaliyyətinin təmin olunması səlahiyyətləri (Prezident Administrasiyasının təşkili);

7. Məhkəmə hakimiyyəti ilə münasibətlərdə Prezidentin səlahiyyətləri;

8. Şəxsiyyətin hüquqi statusu sahəsində səlahiyyətlər;

9. Dövlət orqanlarının təşkili, səlahiyyətli şəxslərin təyin olunması, seçilməsi sahəsində səlahiyyətləri;

10. İcra hakimiyyəti sisteminin təşkili və həyata keçirilməsi səlahiyyətləri.

Yuxarıda qeyd olunan bölgüdən irəli gələrək Prezidentin səlahiyyətlərini daha ətraflı nəzərdən keçirək.

1. **Ali nümayəndəli qanunverici orqanla münasibətlərdə Prezidentin səlahiyyətləri.** Azərbaycan Respublikası Prezidentinin Milli Məclisin bütün iclaslarında iştirak etmək hüququ var. Bu məqsədlə Milli Məclisin iclas salonunda Dövlət başçısı üçün xüsusi yer ayrılır və burada Azərbaycan Respublikasının dövlət bayrağı yerləşdirilir. Bundan başqa Prezident Milli Məclisə seçkiləri təyin edir, zəruri hallarda Milli Məclisin növbədənkənar sessiyasının çağırılması üçün parlamentin sədrinə müraciət edir. Parlamentlə münasibətlərdə ən mühüm səlahiyyətlərə Prezidentin qanunvericilik prosesində iştirakını göstərmək olar. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti qanunvericilik təşəbbüsü hüququna malikdir. Qanunvericilik təşəbbüsü qaydasında Prezidentin Milli Məclisə təqdim etdiyi qanun və qərar layihələri iki ay ərzində səsə qoyulur, əgər həmin aktların qəbulunu prezident təcili elan edibsə, bu müddət 20 gün təşkil edir. Azərbaycan Respublikasının

Prezidenti parlament tərəfindən qəbul olunan qanunları imzalayır və onların icrasına dair müvafiq fərman və sərəncamlar qəbul edir. Qanunun imzalanması prosesində prezident veto hüququndan istifadə edə bilər.

2. **Beynəlxalq münasibətlər sahəsində prezidentin səlahiyyətləri.** Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunur ki, prezident xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir (maddə 8).

Beynəlxalq münasibətlərdə təmsilçilik funksiyasını həyata keçirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin xarici ölkələrin dövlət başçılarına müraciət etmək, onlarla görüşlər keçirmək, danışıqlar aparmaq, xarici ölkələrə rəsmi səfərlərə gedərkən şərəflə qarşılanmaq və bu zaman beynəlxalq aktlarla müəyyən olunan xüsusi imtiyazlardan istifadə etmək hüquqları vardır. Bundan başqa Azərbaycan Prezidenti dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlayır, dövlətlərarası və qanunlardan fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri təsdiq və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir, təsdiqnamələri imzalayır. Azərbaycan Respublikasının Prezidenti həmçinin xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələri təyin edir və geri çağırır, xarici dövlətlərin səfirlərinin etimadnamə və övdətnamələrini qəbul edir.

3. **Hüquqyaradıcılığı sahəsində prezidentin səlahiyyətləri.** Bu sahədə dövlət başçısının səlahiyyətlərini iki qrupa bölmək olar:

1. Qanunvericilik prosesində prezidentin iştirakı.

2. Prezident tərəfindən ictimai münasibətləri tənzimləyən normativ hüquqi aktların qəbulu. Bu kontekstdə Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsində qeyd olunur ki, ümumi qaydalar müəyyən etdikdə Prezident fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar qəbul edir.

Azərbaycan Respublikasının Konstitusiyası yalnız Prezidentin fərmanlarını hüquqyaratma aktı kimi qəbul edir.

Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununda qeyd olunur ki, Prezidentin fərmanları Konstitusiya ilə onun səlahiyyətlərinə aid edilmiş və normativ tənzimləmə predmeti olan məsələlər üzrə qəbul edilir. Dövlət başçısı tərəfindən qəbul edilən əsasnamələr, nizamnamələr, qaydalar və norma nəzərdə tutan digər aktlar Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə təsdiq edilir (maddə 18).

Prezidentin sərəncamları isə konkret (birdəfəlik) təşkilati, nəzarət, təsdiqetmə tədbirlərinin həyata keçirilməsi məqsədilə qəbul edilən və ya digər birdəfəlik tətbiq halları üçün nəzərdə tutulan qeyri-normativ hüquqi aktlardır.

Lakin təcrübədə bəzən fərqli mənzərə müşahidə olunur. Belə ki, müəyyən hallarda Prezidentin fərmanı tətbiqetmə (qeyri-normativ), sərəncam isə əksinə normayaratma aktı kimi qəbul olunur.

Məsələn, "S.Q.Əsgərovun, Ə.B.Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında", "X.İ.Hacıyevin Konstitusiya Məhkəməsinin sədri təyin edilməsi haqqında" fərmanları misal göstərmək olar . Ziyafət Əsgərov haqlı olaraq yazır ki, hər hansı bir şəxsi təltif etdikdə, kimisə vəzifəyə təyin etdikdə bunu nəzərdə tutan akt uzun müddət qüvvədə qalıb konkret təltifin saxlanılması, istifadəsi, kiminsə vəzifədə qalması əsası kimi çıxış edə bilər, lakin bu aktlar heç bir halda ümumi qayda müəyyən etmir (38,s. 395).

Başqa bir misalda Azərbaycan Prezidenti Administrasiyasında sənədlərlə iş üzrə Təlimat normayaratma aktı olduğu halda Prezidentin Sərəncamı ilə təsdiq edilmişdir.

Hesab edirik ki, hüquqyaratma təcrübəsində bu cür vəziyyət Azərbaycan Respublikası Konstitusiyasının müvafiq müddəalarına ziddir.

4. **Ölkənin müdafiəsi və təhlükəsizliyi sahəsində prezidentin səlahiyyətləri.** Bu qrup səlahiyyətlərin açıqlanması zamanı hər şeydən əvvəl qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanıdır və dövlətimizin müstəqilliyinin, ərazi bütövlüyünün təmin olunması onun əsas funksiyalarından biridir. Bu funksiyanı həyata keçirmək üçün konstitusiya prezidentə aşağıdakı səlahiyyətlər verir:

- Azərbaycan Respublikasının hərbi doktrinasını Parlamentin təsdiqinə verir;
- Silahlı Qüvvələrin ali komanda heyətini vəzifəyə təyin edir və vəzifədən azad edir;
- Ümumi və qismən səfərbərlik elan edir;
- Azərbaycan Respublikası vətəndaşlarının müddətli hərbi xidmətə çağırılması və müddətli hərbi xidmətdə olan hərbi qulluqçuların ehtiyata buraxılması barədə qərarlar qəbul edir;
- Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasını yaradır;
- Parlamentin razılığı ilə müharibə elan edir və sülh bağlayır;
- Azərbaycan Respublikası Konstitusiyasında göstərilən əsaslar olduqda fövqəladə və hərbi vəziyyət elan edir.

5. **Dövlət hakimiyyətinin vahidliyi, dövlət orqanları arasında qarşılıqlı əməkdaşlığın təmin olunması, ziddiyyətlərin aradan qaldırılması sahəsində Prezidentin səlahiyyətləri.**

Hakimiyyətlər bölgüsü mexanizmində Prezident hakimiyyət budaqları arasında qarşılıqlı əməkdaşlığı təmin edir, hər

hansı siyasi ziddiyyətlər yaranarsa onları aradan qaldırır və bununla da dövlət hakimiyyətinin bütövlüyünü qoruyub saxlayır. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 98-ci maddəsinə müvafiq olaraq bu istiqamətdə aşağıdakı səlahiyyətlər müəyyən edilmişdir:

- Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

- Növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda Azərbaycan Respublikasının Milli Məclisinə növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayının birinci bazar günü keçirilir.

Azərbaycan Respublikasının Milli Məclisi Nazirlər Kabinetinə etimadsızlıq göstərdiyi halda bu məsələnin həlli başqa cür də həll oluna bilər. Belə ki, Azərbaycan Respublikasının Prezidenti Nazirlər Kabinetini istefaya göndərə bilər.

Azərbaycan Respublikasının Konstitusiyasına görə icra hakimiyyətinin Prezidentə mənsub olması və

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Prezidentə tabe olmasına baxmayaraq dövlət başçısı baş naziri parlamentin razılığı ilə vəzifəyə təyin edir. Zənnimizcə bu cür qayda gələcəkdə parlament ilə nazirlər kabineti arasında sıx əməkdaşlıq və anlaşılma şəraitində fəaliyyət göstərməsinə pozitiv zəmin yaradır.

6. **Məhkəmə hakimiyyəti ilə münasibətlərdə Prezidentin səlahiyyətləri.** Hər şeydən əvvəl qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır (AR Konstitusiyası maddə 8, IV hissə) . Ölkəmizdə müasir dövrün tələblərinə cavab verən, yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması, hakimlərin müstəqilliyini təmin edən mexanizmlərin təkmilləşdirilməsi, onların sosial müdafiəsinin daha da yaxşılaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın artırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, müasir informasiya texnologiyalarından geniş istifadə, məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsi, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi sahəsində dövlət başçısının qəbul etdiyi hüquqi aktlar böyük önəm kəsb edir. Bu kontekstdə mühüm əhəmiyyət kəsb edən sənədlərdən biri kimi Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixində imzaladığı "Məhkəmə hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı göstərmək olar.

Yuxarıda adı çəkilən Prezident fərmanında bütün məhkəmələrin sədrlərinə, hakimlərinə tövsiyə edilir ki, məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və məhkəmələrə etimadın möhkəmlənməsindən ötrü fəaliyyətlərində ədalətli olsunlar, habelə, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun qarşısında bərabərliyinə və Azərbaycan Konstitusiyasında və

qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etsinlər.

Cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi məqsədilə Ali Məhkəməyə, Baş Prokurorluğa, Ədliyyə Nazirliyinə müvafiq qanun layihələrini hazırlayıb prezidentə təqdim etmələri göstərilmişdir.

Həmçinin Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası və Ədliyyə Nazirliyi vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə baxmaqdan ötrü ixtisaslaşmış məhkəmənin yaradılması barədə qanun layihəsini hazırlaması nəzərdə tutulmuşdur.

Fərmanda, həmçinin hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması da vacib sayılır.

Hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların maddi təminatının əhəmiyyətli dərəcədə artırılmasına da diqqət yetirilməsi zəruri sayılır.

Məhkəmə icraatının obyektivliyini daha dolğun şəkildə təmin etməkdən ötrü bütün məhkəmə iclaslarının fasiləsiz audioyazısının aparılması və protokolun məhkəmə iclasının audioyazısına uyğun tərtibi tələbinin müəyyən edilməsi qeyd oluunur.

Hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə Məhkəmə-Hüquq Şurasına müvafiq məlumatların qəbulu üçün qaynar xəttin yaradılması tövsiyə edilmişdir.

Yuxarıda göstərdiyimiz fərmanda Azərbaycan Respublikasının Prezidenti Ədliyyə Nazirliyinə aşağıdakı tədbirlərin görülməsinə dair mühüm tapşırıqlar vermişdir:

1. Məhkəmələrin və digər orqanların qərarlarının qanunla müəyyən edilmiş müddətdə icrasının təmin edilməsi, "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, icra məmurlarının süründürməçilik və sui-istifadə hallarına yol vermələrinin qarşısının alınması məqsədilə ciddi tədbirlər görsün;

2. Məhkəmələrin və digər orqanların qərarlarının icrasının sürətləndirilməsi və effektivliyinin artırılması məqsədilə bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərini təqdim etsin;

3. Məhkəmələrin və digər orqanların qərarlarının icrasının alternativ mexanizmləri, o cümlədən icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı qabaqcıl beynəlxalq təcrübəni öyrənsin və həmin təcrübənin Azərbaycan Respublikasında tətbiqinin mümkünlüyü barədə məlumat versin;

4. Məhkəmə ekspertizası fəaliyyətinin alternativ mexanizmləri, o cümlədən ekspertizanın özəl qurumlar tərəfindən həyata keçirilməsi ilə bağlı beynəlxalq təcrübəni təhlil etsin və müvafiq təkliflərini təqdim etsin;

5. Ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmaq məqsədilə "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılmasını təmin etsin, fiziki və hüquqi şəxslərin "Elektron məhkəmə" informasiya sistemindən istifadəsinin təşviqi üçün tədbirlər görsün və s.

Məhkəmə hakimiyyəti ilə münasibətlərdə Prezidentin səlahiyyətlərinə həmçinin ümumi və ixtisaslaşdırılmış məhkəmələrin hakimlərinin, Parlamentin razılığı ilə Baş Prokurorun vəzifəyə təyin edilməsi və Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Apellyasiya Məhkəmələri hakimlərinin vəzifəyə təyin edilməsi üçün namizədlərin Milli Məclisə təqdim edilməsini aid etmək olar.

7. **Öz işinin təşkili və fəaliyyətinin təminatı sahəsində Prezidentin səlahiyyətləri.** Vəzifə və funksiyalarının səmərəli həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti yanında müxtəlif dövlət təsisatları yaradılmışdır, məsələn Azərbaycan Respublikası Prezidenti yanında Təhlükəsizlik Şurası, Vətəndaşlıq məsələləri Komissiyası, Əfv məsələləri Komissiyası, Hüquqi islahat Komissiyası, Dövlət sirrinin mühafizəsi üzrə idarələrarası Komissiya, Heraldika Şurası və s. Bu orqanlardan ən mühümü Prezidentin Administrasiyasıdır. Prezidentin Administrasiyasını Azərbaycan Respublikasının prezidenti təşkil edir və onun rəhbərini təyin edir.

Hazırda prezidentin Administrasiyasında ictimai-siyasi məsələlər, hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər, qanunvericilik və hüquq ekspertizası, dövlət qulluğu və kadr məsələləri, sənədlərlə və vətəndaşların müraciətləri ilə iş, xarici siyasət, humanitar siyasət, strateji araşdırma və planlaşdırma və digər şöbələr mövcuddur.

Prezidentin Administrasiyası Prezidentin və onun yanında yaradılan konsultativ və digər orqanların fəaliyyətini təmin edir, onların qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqələrini təşkil edir, ölkəmizin daxili və xarici siyasətinin strategiyasına dair analitik materiallar hazırlayır, təkliflər, praqnozlar verir, dövlət kadr siyasətini həyata keçirir, icra hakimiyyəti üzərində prezident nəzarətini həyata keçirir, qanunvericilik qaydasında parlamentə təqdim etmək üçün qanun layihələri hazırlayır, Prezidentin fərman və sərəncamlarının layihələrini hazırlayır və digər mühüm vəzifələri yerinə yetirir.

Prezident Administrasiyasında rəhbər vəzifələrə namizədləri Administrasiya rəhbərinin təqdimatı ilə Prezident təyin edir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Prezident Administrasiyasında sənədlərlə iş barədə Təlimat qəbul olunmuşdur. Bu sənədin önəmini inkar etmədən hesab edirik ki, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Prezident Administrasiyasının hüquqi statusunu, strukturunu, maddi təminatını tənzimləyən Əsasnamənin qəbulu zəruridir.

8. **Şəxsiyyətin hüquqi statusu sahəsində Prezidentin səlahiyyətləri**, Dövlət başçısı insan və vətəndaş hüquqlarının və azadlıqlarının ali təminatçısı funksiyasını həyata keçirir. Bu kontekstdə biz ölkəmizdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı sahəsində zəruri tədbirlərin görülməsini ehtiva edən Prezident aktlarını və bu mühüm hüquqi sənədlərin icra vəziyyətini təhlil etdik. Bu sahədə görülən işlərin retrospektiv təhlili onu göstərir ki, respublikamızda insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı sahəsində dövlət başçısının rəhbərliyi ilə səmərəli mexanizmlər yaradılır və bu iş davamlı olaraq inkişaf edir.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə görə insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu konstitusiya norması Prezident başda olmaqla bütün dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin əsas prinsipi kimi çıxış edir.

Konstitusiyamızın digər maddəsində isə qeyd olunur ki, insan və vətəndaş hüquqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur (maddə 71, hissə I). Bu sahədə ali nəzarəti həyata keçirən ən mühüm dövlət orqanlarından biri Prezidentlik institutudur. Bütün bunlarla yanaşı şəxsiyyətin hüquqi statusuna dair bəzi konkret normalar Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri adlı

Konstitusiyanın 109-cu maddəsinə daxil edilmişdir. Məsələn, Azərbaycan Respublikasının Prezidenti vətəndaşlıq məsələlərini, siyasi sığınacaq verilməsi məsələlərini həll edir, əfv edir, dövlət təltifləri ilə təltif edir, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin seçilməsi haqqında Milli Məclisə təqdimat verir.

9. **İcra hakimiyyəti funksiyalarının həyata keçirilməsi sahəsində Prezidentin səlahiyyətləri.** Azərbaycan Respublikası Konstitusiyasının 99-cu maddəsinə görə icra hakimiyyəti Prezidentə mənsubdur. Dövlət başçısının həm də icra hakimiyyəti sisteminə rəhbərlik etməsi statusu onu göstərir ki, icra hakimiyyəti sahəsində mövcud vəziyyətə görə Prezident xalq qarşısında məsuldur. Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə Nazirlər Kabinetini yaradır, onun strukturunu və tərkibini müəyyən edir.

Prezident Milli Məclisin razılığı ilə Baş naziri vəzifəyə təyin edir. Nazirlər Kabinetinin üzvlərini vəzifəyə təyin edir və vəzifədən azad edir, zəruri hallarda Kabinetin iclaslarına sədrlik edir, Nazirlər Kabinetinin istefası haqqında qərar qəbul edir. Bundan başqa Azərbaycan Respublikasının Prezidenti dövlət büdcəsindən icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları yaradır, zəruri hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktlarını ləğv edir.

Ölkəmizdə icra hakimiyyəti sahəsində aparılan ən mühüm islahatlardan biri də vitse-prezidentlik institutunun təsis edilməsidir. Bu institutun yaradılması Azərbaycan Respublikası Konstitusiyasına 26 sentyabr 2016-cı il tarixdə

referendumla aparılan əlavə və dəyişikliklərlə müəyyən olunmuşdur.

26 sentyabr 2016-cı il tarixli Referendum Aktına görə Azərbaycan Respublikasının Konstitusiyasının 23 maddəsinə dəyişiklik, 6 maddəsinə isə əlavələr edilmişdir. Bu əlavə və dəyişikliklər insan hüquq və azadlıqlarının qorunmasına təminat verən əsasların təkmilləşdirilməsini, səmərəli və çevik dövlət idarəçiliyi mexanizminin formalaşdırılmasını, icra hakimiyyəti şaqulisinin və icra intizamının möhkəmləndirilməsini, həyata keçirilən iqtisadi islahatların effektivliyini və ardıcıllığını təmin etmək üçün iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsini, qanunvericilik hakimiyyətinin fəaliyyəti ilə bağlı yeni tələblərin müəyyən edilməsini, dövlətin təhlükəsizliyinə cəmiyyətdə sabitliyə əlavə təminatın yaradılmasını nəzərdə tutur. Bu baxımdan prezidentli respublika idarəçilik formasının təkmilləşdirilməsi, onun müasir çağırışlara adekvatlığı, iqtisadi islahatların dairəsinin genişləndirilməsinə xidmət edən mühüm konstitusion əlavələrdən biri də ölkəmizdə vitse-prezidentlik institutunun yaradılmasıdır.

Vitse-prezidentlik institutu çevik və səmərəli idarəçiliyin təmin edilməsi üçün əlverişli mexanizm kimi bəzi xarici ölkələrin konstitusiya quruculuğu təcrübəsində geniş tətbiq olunur və böyük tarixə malikdir.

Bir çox izahlı lüğətlərdə "vitse" sözü latıncadan əvəz edən, köməkçi, vəzifə mənalarında izah olunur. Bu kontekstdə vitse-prezident prezidentin müavini, prezidentdən sonra gələn ikinci şəxs kimi başa düşülür.

Dövlət hüququ institutu kimi vitse-prezident vəzifəsi ilk dəfə 1789-cu ildə ABŞ-da yaradılmışdır. Bu ölkədə hər dörd ildən bir vitse-prezident prezidentlə birlikdə seçilir. Əgər ABŞ prezidenti hər hansı səbəbdən vaxtından əvvəl vəzifədən gedərsə dövlət başçısının qalan səlahiyyət

müddətini vitse-prezident həyata keçirir. Beləliklə burada növbədənkənar prezident seçkiləri keçirilmir.

ABŞ-ın bu təcrübəsi sonralar Latın Amerikası ölkələrinə də sirayət etmişdir.

Avropada vitse-prezident vəzifəsi fəaliyyət göstərdiyi ölkələr sırasına Bolqarıstan, İsveçrə, Azərbaycan və s. aid etmək olar.

Xarici ölkələrin konstitusiya təcrübəsində adətən bir vitse-prezident olur və həmin şəxs prezidentlə birlikdə seçilir. Burada vitse-prezident dövlət başçısı vaxtından əvvəl vəzifədən getdikdə və yaxud hansısa səbəblərdən müvəqqəti olmadıqda onun bəzi səlahiyyətlərini həyata keçirir. Bundan başqa vitse-prezident dövlət başçısının müəyyən tapşırıqlarını, ictimai vəzifələri yerinə yetirir.

Azərbaycan Respublikasının konstitusiya qanunvericiliyində vitse-prezidentlik institutu özünəməxsus cəhətlərilə fərqlənir. Birincisi, Azərbaycan Respublikasında bir neçə vitse-prezident vəzifəsinin yaradılması nəzərdə tutulur (vitse-prezidentlərin sayı konstitusiyamızda konkret göstərilmir). Onlardan biri birinci vitse-prezident təyin olunur. İkincisi, vitse-prezidentlər Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunur. Üçüncüsü, Azərbaycan Respublikası Konstitusiyasında vitse-prezidentlərin konkret səlahiyyətləri müəyyənləşməyib. Yalnız Azərbaycan Respublikası Konstitusiyasının 105-ci maddəsində qeyd olunur ki, Prezident vaxtından əvvəl vəzifədən getdikdə 60 gün müddətində növbədənkənar prezident seçkiləri keçirilir. Bu dövr ərzində prezidentin səlahiyyətlərini Birinci vitse-prezident icra edir. Bu müddət ərzində Birinci vitse-prezident istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə dövlət başçısının müəyyən etdiyi ardıcıllıqla Azərbaycan Respublikasının

vitse-prezidenti Birinci vitse-prezident statusu almış olur və Prezidentin səlahiyyətlərini icra edir.

Azərbaycan Respublikası Konstitusiyasının 106-cı maddəsində vitse-prezidentlərin immuniteti və toxunulmazlığa xitam verilmə qaydaları, 107-ci maddəsində isə Birinci vitse-prezidentin təminatı məsələləri tənzimlənir.

Bununla bağlı Konstitusiyamızda konkret normalar olmasa da hesab edirik ki, vitse-prezidentlər Azərbaycan Prezidenti Administrasiyasının strukturuna daxil olan vəzifələrdir və onların statusu Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq olunan Əsasnamə ilə tənzimlənməlidir.

Zənnimizcə, ölkəmizdə vitse-prezidentlik institutunun yeni Azərbaycan modeli yaranmışdır. Bu modelin əhəmiyyəti və statusunu ümumi şəkildə aşağıdakı kimi görürük:

Vitse-prezident vəzifələrinin təsis edilməsi Azərbaycanda prezident üsul-idarəsinin təkmilləşdirilməsini, onun müasir çağırışlara adekvatlığını, fors-major vəziyyətlərdə dövlət idarəçiliyi mexanizminin optimal funksionallığını təmin etmək məqsədindən irəli gəlir, iqtisadi islahatların dairəsinin genişləndirilməsinə və onların sürətləndirilməsinə xidmət edir. Həmçinin yeni institutun formalaşdırılması ilə Azərbaycan Prezidentinin səlahiyyətlərinin icra mexanizmi dəqiqləşir, dövlət idarəçiliyi iflic vəziyyətə düşmək təhlükəsindən sığortalanır.

Əgər prezident bu və ya digər islahatın həyata keçirilməsinə görə bütün siyasi məsuliyyəti öz üzərinə götürürsə, digər icra orqanları burada ya passiv rol oynayırlar, yaxud da fəal müşahidəçiyə çevrilirlər.

Digər tərəfdən, Nazirlər Kabineti kollegial orqandır və bu və ya digər proseslərə operativ və vaxtında müdaxilə etmək iqtidarında deyil. Özünün əhəmiyyətli qərarlarını belə hökumət müxtəlif nazirliklər səviyyəsində təsdiq etdirməli

və digər prosedur qaydalara riayət etməlidir. Bəzən həmin proses illərlə uzana bilir ki bu da islahatların sürətini azaldır, onları ətalətli və uğursuz edir. Bu baxımdan, vitse-prezidentlik institutu prezidentin bu və ya digər göstərişlərinin həyata keçirilməsinə nəzarəti gücləndirə, bürokratik əngəlləri aradan qaldıra və proseslərin qat-qat sürətlənməsinə səbəb ola bilər.

Vitse-prezidentlik institutu o qədər çevik orqandır ki, hakimiyyətin digər şaxələrinin, o cümlədən Nazirlər Kabinetinin statusuna xələl gətirmədən öz funksiyalarını həyata keçirir.

Qeyd, prezidentli respublika idarəçilik formasına malik olan ölkələrdə prezident dövlət başçısıdır və icra hakimiyyəti sisteminə rəhbərlik edir. Burada hər üç hakimiyyət qolunun formalaşmasında prezidentin dövlət başçısı kimi müəyyənedici, təsdiqedici və təqdimedici səlahiyyətləri mövcuddur. Dövlət başçısı xalq qarşısında hakimiyyətin işi ilə bağlı hesabat verir, xalqın sifarişlərini hakimiyyət budaqlarına ötürür və görülən işlərlə bağlı hesabat tələb edir.

Dövlət başçısının konstitusiya səlahiyyətləri hakimiyyətin hər üç qolunu əhatə edir. Bu da öz növbəsində dövlət idarəçiliyinin hər üç istiqaməti üzrə dövlət nəzarətini genişləndirir, müşahidələri artırır. Bu kontekstdə vitse-prezidentlik ilk növbədə, Prezident vəzifəsinin müəyyən hallarda əvəz olunması və səlahiyyətlərinin həyata keçrilməsini, həmçinin, dövlət rəhbərliyinin müxtəlif sahələrində səlahiyyətlərin rəhbər-köməkçilər kimi bölünməsini ehtiva edə bilər.

Siyasətşünas alim Elşən Nəsibov prezidentin səlahiyyətlərinin hakimiyyətin hər üç qolunu əhatə etdiyini nəzərə alaraq Birinci vitse-prezident dövlət rəhbərinin icra hakimiyyəti qolu üzrə səlahiyyətli köməkçisi, həmin qola rəhbərlik edən şəxs, dövlət rəhbərinin qanunvericilik

hakimiyyəti və məhkəmə hakimiyyəti üzrə səlahiyyətli rəhbər köməkçiləri (vitse-prezidentləri), həmçinin siyasi-ideoloji işlərə rəhbərlik edən, dövlət rəhbəri ilə xalq arasında əlaqələrdə funksional rəhbər köməkçi vitse-prezident vəzifələrinin yaradılmasını məqsədəuyğun hesab edir.

Vitse-prezidentlik institutunun formalaşdırılması məqsədilə və onların işinin ümumi xüsusiyyətlərinin xassələrinin hüquqi əsaslarının müəyyən olunması və hüquqi bazanın təkmilləşdirilməsi yönündə "Vitse-prezidentlər haqqında Əsasnamə" də qəbul edilə bilər. Vitse-prezidentlər öz səlahiyyət sahələri üzrə hüquq yaratma funksiyasına sahib ola, müvafiq qərarlar qəbul edə bilərlər. Sistem daxilində, struktur daxilində sərəncamlar imzalaya bilərlər.

Qeyd edilənlərdən irəli gələrək vitse-prezidentlərin səlahiyyətlərinin əsas prinsiplərini və istiqamətlərini bu şəkildə ümumiləşdirmək olar:

- Prezidentin hakimiyyət qolları üzərində səlahiyyətlərinin yerinə yetrilməsində rəhbər-köməkçi şəxslər kimi iştirak edirlər;
- Vitse-prezidentlər sahələr üzrə dövlət proqramlarının və fəaliyyət planlarının hazırlanması təşəbbüskarları ola bilərlər. Bu kimi strateji-konseptual sənədlərin icrasına rəhbərliyi həyata keçirə bilirlər;
- Vitse-prezidentlər dövlət rəhbərinin konstitusion səlahiyyətlərinin piramidanın aşağı strukturlarında yerinə yertirilməsinə nəzarət həyata keçirə bilirlər;
- Vitse-prezidentlər sahələr üzrə qanunvericilik təşəbbüsü ilə dövlət rəhbəri qarşısında çıxış edə, dövlət rəhbərinə təkliflər verə bilirlər;
- Vitse-prezidentlər ölkə siyasətinin müvafiq sahələri üzrə proqnozlaşdırılması işinə rəhbərliyi həyata keçirə bilirlər;

- I Vitse-prezident və vitse-prezidentlər ölkənin mövcud və gələcək taleyi ilə bağlı strateji kollegial qərarların qəbulunda iştirak edir, müvafiq qərar layihələri hazırlaya bilirlər;

- I Vitse-prezident və vitse-prezidentlər ölkənin elm, təhsil, mədəniyyət konsepsiyalarının hazırlanmasında iştirak edir və ali səviyyəli qərar qəbulunda təşəbbüslər irəli sürən tərəflər kimi çıxış edə bilirlər;

- I Vitse-prezident və vitse-prezidentlər dövlət rəhbərinin vəkalətnaməsi ilə dövləti beynəlxalq münasibətlərdə təmsil edirlər, dövlət adından müqavilə, saziş imzalayırlar, beynəlxalq müqavilələrə imza atırlar;

- I Vitse-prezident və vitse-prezidentlər dövlət rəhbəri qarşısında məsuliyyət daşıyırlar;

- I Vitse-prezident və vitse-prezident postları inzibati baxımdan Prezident Administrasiyasının tərkibi hesab olunurlar;

- Vitse-prezidentlik prezident səlahiyyətərinin bölünməsi məsələlərini özündə əks etdirməklə, ali idarəçilikdə çoxdüşüncəliliyi yaradır və burada humanizm elementləri formalaşır;

I Vitse-prezident digər icra sahələri ilə yanaşı, ölkənin xarici siyasəti üzrə dövlət rəhbərinin səlahiyyətlərinin icrasında rəhbər-köməkçi ola bilər;

I Vitse-prezident ölkənin təsərrüfat həyatı üzrə (iqtisadi, sosial və infrastrukturlardan ibarət olan sistem) siyasətin komplektləşdirilməsində prezidentin rəhbər-köməkçisi ola bilər. Sahəyə rəhbərlik, eləcə də sahələrin strukturları arasında koordinasiya funksiyalarına rəhbərliyi həyata keçirə bilər.

I Vitse-prezident ölkənin müdafiə və təhlükəsizlik sahələrində dövlət rəhbərinin köməkçisi ola bilər;

I Vitse-prezident icra hakimiyyəti strukturları ilə bağlı prezident qarşısında təkliflə çıxış edə bilər, icra hakimiyyəti

(mərkəzi və yerli) rəhbərlərinin seçim və təyinat məsələsində öz təkliflərini verə bilər.

.

§ 3. Azərbaycan Respublikası Prezidentinin seçkiləri

Ötən paraqraflarımızın birində qeyd olundu ki, parlamentli respublikalarda adətən /İtaliya, Hindistan, Almaniya Federativ Respublikası və s./ prezidenti konstitusiya ilə müəyyən olunmuş müddətə parlament seçir.

Prezidentli respublikalarda isə prezident birbaşa, məsələn, Fransa, Rusiya, Kolumbiya və s. ölkələrdə yaxud dolayı /məsələn, ABŞ-da/ seçki hüququ əsasında seçilir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, dövlətimizin ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən, ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər. O, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi, həmçinin gizli səsvermə yolu ilə 7 il müddətinə seçilir (Azərbaycan Respublikasının Konstitusiyası, maddələr, 100, 101.) Prezidentliyə namizədləri siyasi partiyalar, siyasi partiyaların blokları, seçki hüququ olan vətəndaşlar irəli sürə bilərlər. Namizəd kimi qeydə alınmaq üçün onlar 40 mindən az olmayan sayda seçki imzası toplamalıdırlar. 60-dan az olmayan seçki dairəsinin hər birinin ərazisindən azı 50 imza toplamalıdır (Azərbaycan Respublikasının Seçki Məcəlləsi, mad. 181.1).

Prezidentliyə namizədin qeydə alınması Mərkəzi Seçki Komissiyası tərəfindən həyata keçirilir.

Prezidentliyə qeydə alınmış namizəd toxunulmazlıq hüququna malikdir. Belə ki, o Seçki Məcəllənin 70.1-ci maddəsində göstərilən müddətdə müvafiq prokurorun razılığı olmadan, namizəd kimi qeydə alındıqdan sonra törətdiyi əməllərə görə cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz və məhkəmə qaydasında müəyyənləşdirilən inzibati tənbeh tədbirlərinə məruz qala bilməz. Qeydə alınmış namizəd cinayət başında yaxalanarsa, tutula bilər. Belə razılıq verildikdə və ya qərar qəbul edildikdə, müvafiq prokuror və ya məhkəmə namizədin qeydə alındığı seçki komissiyasını bu barədə dərhal xəbərdar edir.

Azərbaycan Respublikası Prezidenti majoritar seçki sistemi əsasında seçilir. Əsas qanunun 101 maddəsinin II hissəsinə görə Prezident səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

Bu səs çoxluğu səsvermənin birinci dövrəsində toplanmayıbsa, səsvermə günündən sonra ikinci bazar günü səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə ancaq birinci dövrədə ən çox səs toplamış iki namizəd yaxud ən çox səs toplamış və öz namizədliyini geri götürmüş namizədlərdən sonra gələn iki namizəd iştirak edir. Səsvermənin ikinci dövrəsində səs çoxluğu toplayan namizəd Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır. Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsini mümkün etmədikdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir.

Mərkəzi Seçki Komissiyası səsvermə günündən başlayaraq 10 gündən gec olmayan müddətə prezident

seçkilərinə yekun vurur və nəticələri təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edir. Konstitusiya Məhkəməsi Prezident seçkilərinin yekunları haqqında məlumatı səsvermə günündən sonra 14 gün ərzində rəsmən elan edir. Bu barədə məlumat elan olunduğu gündən başlayaraq 3 gün ərzində Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin Konstitusiya Məhkəməsinin hakimlərinin iştirakı ilə and içmə mərasimi keçirilir və bu vaxtdan dövlət başçısı öz səlahiyyətlərinin icrasına başlamış sayılır.

Ölkəmizin konstitusiya qanunvericiliyi növbədənkənar Prezident seçkilərinin keçirilməsi qaydalarını da müəyyən edir. Bu cür vəziyyət **Prezidentin öz səlahiyyətlərini daimi icra edə bilmədiyi hallarda yaranır.**

Məsələn, Azərbaycan Respublikasının Prezidenti istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə, Konstitusiya ilə nəzərdə tutulmuş impiçment qaydasında vəzifəsindən kənarlaşdınldıqda vaxtından əvvəl vəzifədən getmiş sayılır. Bu cür hallarda növbədənkənar prezident seçkiləri keçirilir. Bu məsələnin tənzimi ilə bağlı Konstitusiyamızda deyilir ki, Azərbaycan Respublikasının Prezidenti istefa verdikdə onun istefa ərizəsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunur. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi istefa ərizəsini Azərbaycan Respublikası Prezidentinin özünün verdiyinə əmin olduğu təqdirdə Azərbaycan Respublikasının Prezidentinin istefasının qəbul olunması haqqında qərar qəbul edir. Həmin andan Azərbaycan Respublikasının Prezidenti istefa verdiyinə görə vəzifədən getmiş sayılır.

Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlumat verildikdə Azərbaycan Respublikasının Milli Məclisi bu faktın aydınlaşdırılması üçün Azərbaycan

Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edir. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi bu barədə qərarı hakimlərin 6 səs çoxluğu ilə qəbul edir. Əgər Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi bu faktı təsdiq etməzsə, məsələ bununla bitmiş sayılır.

Azərbaycan Respublikasının Prezidenti vaxtından əvvəl vəzifədən getdikdə 60 gün müddətində növbədənkənar Prezident seçkiləri keçirilir. Bu halda Azərbaycan Respublikasının yeni Prezidenti seçilənədək onun səlahiyyətlərini Azərbaycan Respublikasının Birinci vitse-prezidenti icra edir.

Bu müddət ərzində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Respublikasının Birinci vitse- prezidenti istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdıyi ardıcıllıqla Azərbaycan Respublikasının vitse-prezidenti Birinci vitse-prezident status almış olur və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edir.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Birinci vitse-prezidentin icra etməsi mümkün olmadıq- da, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Baş naziri icra edir.

Prezidentin səlahiyyətlərini Baş nazirin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədri icra edir. Yuxarıda göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədrinin icra etməsi mümkün olma- dıqda, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin başqa vəzifəli şəxs tərəfindən icrası haqqında qərar qəbul edir.

§ 4. Dövlət hakimiyyəti sistemində Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeri və rolu.

Yuxarıda qeyd olundu ki, xalq hakimiyyəti sistemində dövlət hakimiyyətinin əsas prinsiplərindən biri hakimiyyətlər bölgüsüdür. Hakimiyyətlər bölgüsü müasir demokratiyanı səciyyələndirən və vahid dövlət hakimiyyətinin üç nisbətən müstəqil qanunvericilik, icra və məhkəmə hakimiyyəti budaqlarına bölünməsini ehtiva edən ümumbəşəri dəyərdir. Burada özünəməxsus vəzifə və funksiyalara malik olan hakimiyyət qolu-icra hakimiyyətidir. İcra hakimiyyəti qanunvericilik və məhkəmə hakimiyyətinin nəzarəti ilə xüsusi mexanizm vasitəsilə dövlət idarəçiliyini həyata keçirən müstəqil hakimiyyət budağıdır.

Vahid dövlət hakimiyyətinin müstəqil qolu kimi ümumilikdə icra hakimiyyətinin aşağıdakı əlamətlərini göstərmək olar:

1. Xalq suverenliyi, demokratiklik, hüquqilik,unitarlıq,dünyəvilik,respublikaçılıq,subordinasiya və koordinasiya prinsipləri əsasında fəaliyyət göstərir;
2. Dövlət hakimiyyətinin müstəqil qoludur;
3. Fəaliyyəti icra və sərəncam xarakter daşıyır;
4. Qanunvericilik hakimiyyətinə nisbətdə icra hakimiyyətinin normativ hüquqi aktları qanuntabeli xarakterə malikdir;
5. Daimi və fasiləsiz fəaliyyət göstərir;
6. Öz vəzifə və funksiyalarını xüsusi mexanizm (dövlət orqanları, nazirlik,komitə, xidmət,

agentlik, komissiya, idarə və s...), dövlət müəssisələri, publik hüquqi şəxslər və s. vasitəsilə həyata keçirir;

7. Dövlət məcburetmə tədbirlərini həyata keçirmək məqsədi ilə müəyyən resurslara malikdir.

İcra hakimiyyəti sistemində demokratik dövlətin vəzifə və funksiyalarının həyata keçirilməsində mühüm rola malik olan dövlət orqanlarından biri də Azərbaycan Respublikasının Nazirlər Kabinetidir.

Bəzi normativ və nəzəri ədəbiyyatlarda "Nazirlər Kabineti" və "Hökumət" anlayışı eyniləşdirilir. Məsələn professor B.A.Straşunun redaktorluğu ilə hazırlanan "Xarici ölkələrin konstitusiya (dövlət) hüququ" adlı dərslikdə qeyd olunur ki, hökumət ölkədə icra və sərəncam fəaliyyətinə rəhbərlik edən ümumi səlahiyyətli kollegial orqandır. Onun tərkibinə adətən əsas mərkəzi icra hakimiyyəti orqanları daxil edilir (90, s.592)

Təxmini eyni mövqedən çıxış edən professor M.B.Baqlay yazır ki, Hökumət icra hakimiyyətinin ali kollegial, icra və sərəncam orqanıdır, onun tərkibinə adətən nazirlər daxildir (92, s. 587)

İngilis dilli mənbələrdə isə Hökumət daha çox geniş mənada "Government"-yəni "idarəetmə sistemi" və yaxud Dövlət Başçısı institutu da daxil olmaqla qanunvericilik və icra hakimiyyəti orqanlarını ehtiva edən bütöv bir sistem kimi xarakterizə olunur. (90, s. 593)

Kontinental (qitə) hüquq ailəsinə daxil olan bəzi ölkələrdə (məs.Fransa və s.) Nazirlər Şurası və Kabinet Şurası terminləri də fərqləndirilir. Nazirlər Şurasının iclasları Prezidentin sədrliyi ilə keçirilən hökumətin rəsmi iclaslarıdır. Adətən bu iclaslarda daha mühüm məsələlər müzakirə olunub əhəmiyyətli qərarlar qəbul olunur. Kabinet Şurasının iclasları isə Prezidentin xüsusi tapşırığı əsasında Baş Nazirin sədrliyi ilə keçirilir.

Beləliklə, konstitusiya hüququ elmində "Hökumət" termini geniş və məhdud mənada izah olunur. Geniş mənada "Hökumət" dövlət idarəçiliyi sistemi kimi, məhdud mənada isə "Hökumət" mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərindən formalaşan dövlət idarəçiliyinin ali kollegial icra və sərəncam orqanı kimi xarakterizə olunur. Lakin bəzi ölkələrin dövlət quruculuğu təcrübəsində bu cür anlayışın tətbiqi qəbul oluna bilməz.(məsələn:ABŞ, Braziliya, Meksika və s.). Belə ki, burada dövlət hakimiyyətinin ali kollegial icra və sərəncam orqanı yoxdur və hər bir nazirlik birbaşa Prezidentə tabedir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin mövcud olmasına baxmayaraq yuxarıda qeyd olunan Hökumətin məhdud mənada tərifi Respublikamızın Nazirlər Kabinetinə şamil oluna bilməz. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunur ki, icra hakimiyyəti Azərbaycan Respublikası Prezidentinə mənsubdur (mad.99). Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır, Prezidentə tabedir və onun qarşısında cavabdehdir (mad.114)

Yuxarıda göstərilən konstitusiya normalarının interpretasiyası əsasında Nazirlər Kabinetinə aşağıdakı kimi anlayış vermək olar:Azərbaycan Respublikasının Nazirlər Kabineti qanunvericiliklə müəyyən olunan vəzifə və funksiyaları həyata keçirən Azərbaycan Respublikası Prezidentinin yuxarı icra və sərəncam orqanıdır. Bu kimi yanaşma heç də Nazirlər Kabinetini Prezidentin kölgəsi kimi xarakterizə etmir. Azərbaycan Respublikasının Nazirlər Kabineti konstitusiya ilə müəyyən edilən icra hakimiyyəti sahəsində real hakimiyyət səlahiyyətlərinə malikdir və ölkədə icra və sərəncam fəaliyyətinə ümumi rəhbərliyi təmin edir. Lakin o, bunu Prezidentin rəhbərliyi

altında həyata keçirir və onun strukturunu, iş qaydasını Prezident müəyyənləşdirir.

Konstitusiya qanunvericiliyinə uyğun olaraq Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti qarşısında həm hüquqi, həm də siyasi məsuliyyət daşıyır.

Müasir konstitusiya hüququ elmində dövlət hakimiyyəti orqanları sistemində Nazirlər Kabinetinin əhəmiyyəti məsələsinə dair fikir ayrılığı mövcuddur. Bəzi elmi mənbələrdə qeyd olunur ki, ali kollegial icra və sərəncam orqan kimi Nazirlər Kabineti yalnız parlamentli dövlət idarəçiliyi üçün xarakterikdir. Prezidentli respublikada isə prezident öz administrasiyasının köməyi ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinə rəhbərlik edə bilər. Yuxarıda biz ABŞ, Meksika və s... dövlətlərin bu cür praktikasını göstərdik.

İkinci qrup alimlər isə müasir dövrdə icra hakimiyyəti orqanlarının vəzifə və funksiyalarının sürətlə artması, şəraitində çoxsaylı icra hakimiyyəti orqanlarının fəaliyyətini koordinasiya edən ümumi səlahiyyətli ali kollegial icra və sərəncam orqanının yaradılmasını idarəçilik formasından asılı olmayaraq zəruri hesab edir.

Professor Çirkin yazır ki, son vaxtlar bir çox prezidentli və yarımprezidentli respublikalarda getdikcə daha çox Nazirlər Kabineti adlanan kollegial ali icra və sərəncam orqanının yaradılması təcrübəsinə rast gəlmək olur (41,s. 359).

Hesab edirəm ki, Dövlət hakimiyyəti sistemində Nazirlər Kabinetinin rolu problemi onun digər hakimiyyət qollarını təmsil edən subyektlərlə qarşılıqlı əlaqəsi kontekstində tədqiq olunmalıdır.

Hər şeydən əvvəl qeyd edilməlidir ki, hakimiyyətlər bölgüsü konsepsiyasına görə Parlament, Konstitusiya Məhkəməsi və Nazirlər Kabineti fərqli hakimiyyət budaqlarına daxildir və öz səlahiyyətləri çərçivəsində

müstəqildirlər. Lakin bu müddəa heç də həmin orqanların qarşılıqlı fəaliyyət göstərməsini inkar etmir. Hakimiyyət budaqları arasında tarazlıq və sui-istifadədən çəkindirmə müxanizminə müvafiq olaraq, digər hakimiyyət budaqlarını təmsil edən Parlament və Konstitusiya Məhkəməsi həm Nazirlər Kabineti ilə əməkdaşlıq edir, həm də həmin orqanlar konstitusiya qanunvericiliyi əsasında Nazirlər Kabinetinin fəaliyyətinə müvafiq olaraq siyasi və hüquqi nəzarəti həyata keçirir.

İlk növbədə, Nazirlər Kabinetinin Parlamentlə qarşılıqlı əlaqəsini nəzərdən keçirək.

Birincisi, Parlament-qanunvericilik hakimiyyəti orqanı kimi Nazirlər Kabineti də daxil olmaqla icra hakimiyyəti orqanlarının fəaliyyətini tənzimləyən qanunlar qəbul edir. İkincisi, Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanı kimi parlament tərəfindən qəbul olunan qanunları icra edir. Lakin, bu heç də o demək deyildir ki, Nazirlər Kabineti özü hüquqyaratma fəaliyyətini həyata keçirmir. Azərbaycan Respublikası Konstitusiyasının 120-ci maddəsinə əsasən, ümumi qaydalar müəyyən etdikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərarlar, başqa məsələlər üzrə sərəncamlar qəbul edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin normayaratma fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu, İcra hakimiyyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı və digər qanunvericilik aktları ilə tənzimlənir.

Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununda qeyd olunur ki,

Nazirlər Kabineti Konstitusiya və Azərbaycan Respublikası Prezidentinin aktları ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə qərarlar qəbul edir. Həmçinin Nazirlər Kabineti mərkəzi icra hakimiyyəti orqanları tərəfindən həll edilə bilməyən məsələlər üzrə normativ hüquqi aktlar qəbul edir (maddə.19)

Amerikanlı politoloq Robert Dalyanın "Poliarxiya" demokratiya modelinə görə təyinetmə yolu ilə formalaşan dövlət orqanları seçkili, yəni ümumxalq nümayəndəli orqan qarşısında hesabat verməlidir. Bu kontekstə Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanı sayılan Nazirlər Kabinetinin hər il Milli Məclisdə hesabat verməsi ölkəmizdə xalq hakimiyyəti konsepsiyasına uyğun gəlir. Bu münasibətlər. Milli Məclisdə Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə tənzimlənir. Burada qeyd olunur ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti hər il Azərbaycan Respublikası Milli Məclisinin yaz sessyasının beşinci iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabat verir. Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair sorğu ilə müraciət edə bilər. Milli Məclisin sorğusuna cavab Azərbaycan Respublikasının Nazirlər Kabinetini təmsil edən səlahiyyətli şəxs tərəfindən Parlamentin iclasında bir aydan gec olmayaraq təqdim edilir. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının sorğularına cavab vermək üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydaları ilə müəyyən edilmiş hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri Azərbaycan Respublikası Milli Məclisinin iclaslarında iştirak edirlər. Azərbaycan Respublikası Milli Məclisi tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinə etmad göstərilməsi

məsələsi Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkiləri gününə 6 aydan az qaldıqda müzakirəyə çıxarıla bilməz. Azərbaycan Respublikası Milli Məclisi tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinə etmad göstərilməsi məsələsi eyni məsələyə dair birinci müzakirədən yalnız 6 ay keçdikdən sonra təkrarən müzakirəyə çıxarıla bilər.

Lakin, Milli Məclisdə Nazirlər Kabinetinə etimadsızlıq göstərilməsi heç də sonuncunun istefaya getməsi mənasına gəlmir. Əks vəziyyət Azərbaycan Respublikası Konstitusiyasının müəyyən etdiyi hakimiyyət budaqları arasında tarazlıq sistemi ilə ziddiyyət təşkil edə bilər. Belə ki, parlament qanunvericilik hakimiyyətinə, Nazirlər Kabineti isə icra hakimiyyətinə daxildir. İcra hakimiyyəti isə Prezidentə mənsubdur və bu sahədə mövcud vəziyyətə görə xalq qarşısında Prezident məsuldur. Bu baxımdan Nazirlər Kabinetinin vaxtından əvvəl istefaya getməsi məsələsini yalnız Prezident həll edə bilər.

Ümumilikdə, Nazirlər Kabineti də daxil olmaqla, nazirlik və digər mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinə Parlament nəzarətinin aşağıdakı formalarını göstərmək olar:

1.Deputat sorğusu (interpellyasiya);

2.Etimadsızlıq göstərilməsi;

3. Nazirlər Kabinetinin və nazirlərin parlament iclasında məruzə və hesabatı;

4.Parlament dinləmələri;

5.Parlament təhqiqatları;

6.Yüksək vəzifəli şəxslərin impiçmenti. Azərbaycan təcrübəsində bu daha çox Prezidentə aiddir. İcra hakimiyyəti sisteminə rəhbərlik edən Prezidentin impiçment qaydasında və yaxud səhhətinə görə vaxtından əvvəl vəzifədən getməsi məsələlərinin həlli Parlamentin iştirakı ilə həyata keçirilir.

7.Parlament nəzdində dövlət orqanlarının fəaliyyəti.Burada Milli Məclisin Hesablama Palatasının rolu xüsusi əhəmiyyət kəsb edir.

Nazirlər Kabinetinin Konstitusiya Məhkəməsi ilə münasibətlərinə gəldikdə isə hər şeydən əvvəl onu göstərməliyik ki, konstitusiya nəzarəti orqanı kimi Konstitusiya Məhkəməsi Nazirlər Kabinetinin qəbul etdiyi qərar və sərəncamların Konstitusiyaya uyğunluğunu təmin edir. Əgər Nazirlər Kabinetinin hüquqi aktları konstitusiyaya zidd olarsa, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi həmin aktları ləğv etmək səlahiyyətinə malikdir.

Həmçinin, Konstitusiya Məhkəməsi Nazirlər Kabinetinin qərarlarının Qanunlara, Azərbaycan Respublikası Prezidentinin Fərmanlarına, bələdiyyə aktlarının isə Nazirlər Kabinetinin qərarlarına uyğunluğu məsələsinə baxa bilər. Bu məsələləri Konstitusiya Məhkəməsi müəyyən subyektlərin sorğusu əsasında həyata keçirir. Nazirlər Kabineti də həmin subyektlər sırasına daxildir, yəni Konstitusiya Məhkəməsinə sorğu göndərmək hüququna malikdir. (Azərbaycan Respublikası Konstitusiyası maddə.130, III hissə). Konstitusiya məhkəmə nəzarəti orqanı isə qanunla müəyyən olunmuş müddət ərzində həmin sorğuya baxıb müvafiq qərar qəbul etməlidir.

Digər dövlət hakimiyyəti orqanlarından fərqli olaraq Prezident və Nazirlər Kabineti münasibətləri subordinasiya prinsipi əsasında qurulur.

Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədilə Nazirlər Kabinetini yaradır, onun strukturunu, tərkibini və iş qaydasını müəyyənləşdirir. Nazirlər Kabineti Prezidentə tabedir və onun qarşısında cavabdehdir. Nazirlər Kabinetini yalnız Prezident istefaya göndərə bilər. Nazirlər Kabinetinin səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının

119-cu maddəsi ilə müəyyən edilir. Lakin, Prezident onun səlahiyyətlərinə aid olan hər hansı bir məsələnin həllini Nazirlər Kabinetinə tapşıra bilər.

Ümumi səlahiyyətli kollegial icra və sərəncam orqan kimi Nazirlər Kabinetinin tərkibi və strukturu ayrı-ayrı dövlətlərdə fərqlidir. Adətən, bir çox ölkələrin qanunvericilik təcrübəsində bu məsələnin hüquqi tənzimi ümumi xarakter daşıyır və bu kontekstə hansı icra hakimiyyəti orqanlarının və onun rəhbərlərinin Nazirlər Kabinetinin strukturuna və tərkibinə daxil edilməsini, idarəçilik formasından asılı olaraq, hökumət başçısı müəyyən edir. Məsələn, AFR konstitusiyasına görə Federal hökumətin (Nazirlər Kabineti) tərkibi Federal Kansler və federal nazirliklərdən ibarətdir (94, s.191). İtaliya Respublikasının Konstitusiyasında qeyd olunur ki, Nazirlər Şurasının tərkibi sədr və nazirləri birləşdirir. (94,s.289). Təxmini oxşar normaya Rusiya Federasiyasnın Konstitusiyasında rast gəlirik. Burada göstərilir ki, Hökumət-sədr, onun müavinləri və federal nazirliklərdən ibarətdir (91, s. 389). Unitar respublika kimi Litva dövlətinin konstitusiyası da yuxarıda göstərilən ölkələrdə olduğu kimi konkret Nazirlər Kabinetinin tərkibinə hansı subyektlərin daxil olmasını müəyyən edir. Belə ki, Litva Respublikası Konstitusiyasının 91-ci maddəsinə əsasən Hökumət (Nazirlər Kabineti) Baş Nazir və nazirləri ehtiva edir (91, s.604).

Yuxarıda göstərdiyimiz ölkələrin təcrübəsindən fərqli olaraq aşağıdakı dövlətlərin konstitusiya qanunvericiliyi Nazirlər Kabinetinin tərkibini ümumi qaydada tənzimləyir. Məsələn, Yaponiyanın Konstitusiyasında qeyd olunur ki, Kabinet Baş Nazir və digər dövlət nazirlərindən ibarətdir (94 s.394), Latviya Respublikasının konstitusiyasında isə göstərilir ki, Nazirlər Kabineti sədr və onun dəvət etdiyi

nazirləri ehtiva edir. Nazirlərin sayı və onların səlahiyyətləri qanunla müəyyən olunur. (91, s.577).

Belarus Respublikasının Konstitusiyasında bu norma isə bir qədər fərqli formada ifadə olunur. Burada müəyyən olunur ki, Hökumətin (Nazirlər Kabineti) tərkibinə Baş Nazir, onun müavinləri, nazirlər daxildir. Kabinetin tərkibinə, həmçinin digər mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri də daxil edilə bilər (91, s.164)

Professor Çirkin yazır ki, bəzi anqlosakson hüquq ailəsinə daxil olan dövlətlərdə (məs. Böyük Britaniya, Hindistan və s.) hökumət və kabinet fərqləndirilir. Hökumətə bütün nazirlər, aparıcı nazirlərin müavinləri sayılan kiçik nazirlərin və digər şəxslərin daxil olması səbəbindən onun tərkibi çox geniş olur. Lakin hökumət xüsusi orqan kimi adətən tam tərkibdə toplaşmır. Bir qayda olaraq ölkəni Kabinet idarə edir və onun iclasları keçirilir. Burada nazirləri adətən Baş nazir müəyyən edir və Nazirlər Kabinetinin tərkibinə 20-yə yaxın nazir daxildir. Kabinetin iclası adətən Baş Nazirin igamətgahında həftədə bir dəfə keçirilir (41,s.361).

Siyasi tərkibinə görə Nazirlər Kabineti birpartiyalı, koalision və bitərəf ola bilər. Hər hansı partiyanın mütləq əksəriyyətə malik olduğu parlamentli dövlətlərdə birpartiyalı hökumət yaradılır.

Prezidentli respublikalarda birpartiyalı Kabinet yaradıla bilər. Burada Prezident nazirləri öz partiyasından təyin edir. Lakin bəzi hallarda kabinetin tərkibinə digər partiyaların nümayəndələrini və yaxud heç bir partiyaya mənsub olmayan şəxsləri daxil edə bilər. Bu cür təcrübə Azərbaycan Respublikası üçün də xarakterikdir.

Parlamentli idarəçilik formasını qəbul etmiş ölkələrdə isə parlament seçkilərində hər hansı partiya zəruri əksəriyyət səsləri qazana bilmədikdə, parlamentə seçilmiş bir neçə

partiyanın nümayəndələrindən ibarət koalision hökumət formalaşdırılır.

Əgər koalisiya əsasında hökumət yaratmaq mümkün olmursa, onda mütəxəssislərdən ibarət xidməti hökumət yaradılır. Həmin mütəxəssislər bitərəf və ya partiyalara mənsub ola bilərlər, lakin onların fəaliyyətində partiya mənsubiyyəti nəzərə alınmamalıdır. Belə hökumət, adətən, müvəqqəti xarakterli olur və partiyalı əsasda hökumət təşkil etməyin mümkün olacağı yeni parlament seçkilərinə qədər fəaliyyət göstərir (41, s.368)

Azərbaycan Respublikası Konstitusiyasının 115-ci maddəsinə görə, Nazirlər Kabinetinin tərkibinə Baş nazir, onun müavinləri, nazirlər və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər.

Konstitusiyamızın interpretasiyası əsasında belə bir nəticəyə gəlmək olar ki, Nazirlər Kabinetinin səlahiyyət müddəti Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddəti ilə məhdudlaşır. Belə ki, Konstitusiyaya görə yeni seçilmiş Azərbaycan Prezidenti vəzifəsini tutduğu və səlahiyyətlərini icra etməyə başladığı gün Nazirlər Kabineti istefa verir (mad.116).

Azərbaycan Respublikasının Prezidenti Milli Məclisin razılığı ilə Baş naziri vəzifəyə təyin edir. Baş Nazirin müavinlərini, nazirləri və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərini isə Azərbaycan Respublikasının Prezidenti özü vəzifəyə təyin edir.

Konstitusiyamızın 119-cu maddəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin aşağıdakı səlahiyyətlərini təsbit edir.

- Dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;

- Dövlət büdcəsinin icrasının təmin edilməsi;

- Maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsinin təmin edilməsi;

- Dövlət iqtisadi proqramlarının, sosial təminat proqramlarının həyata keçirilməsinin təmin edilməsi;

- Nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik, zəruri hallarda onların aktlarının ləğv edilməsi;

Həmçinin Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

Yuxarıda göstərilən səlahiyyətlərin həyata keçirilməsinin təşkili qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası ilə müəyyən olunur.

Azərbaycan Respublikası Konstitusiyasının 114-cü maddəsinin IV hissəsinə görə Nazirlər Kabinetinin iş qaydasını Azərbaycan Respublikasının Prezidenti müəyyənləşdirir. Bu konstitusiya normasının həyata keçirilməsi üçün Dövlət başçısının Fərmanı ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası və Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə təsdiq edilmişdir.

Bu qaydaya uyğun olaraq Nazirlər Kabineti onun səlahiyyətlərinə aid olan məsələləri öz iclaslarında həll edir. Kabinetin iclasına, bir qayda olaraq, Baş nazir sədrlik edir. Kabinetin iclasında Dövlət başçısı iştirak etdikdə, iclasa Prezident sədrlik edir.

Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktlarının, Nazirlər Kabinetinin tərkibinə daxil olan mərkəzi icra hakimiyyəti orqanları, habelə yerli icra hakimiyyəti orqanları və dövlətin hüquqi çəxsləri tərəfindən icrasına nəzarəti həyata keçirir. İcraya nəzarət Nazirlər Kabinetinin Aparatı tərəfindən təşkil və təmin olunur.

Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş və Azərbaycan Respublikası Prezidentinin aktları ilə ona həvalə olunmuş səlahiyyətlərin (o cümlədən normativ hüquqi aktların layihələrinin hazırlanması ilə bağlı fəaliyyətinin) həyata keçirilməsini, eləcə də iclasların, müşavirələrin və digər tədbirlərin keçirilməsini planlaşdırır.

Baş nazir Kabineti növbəti il üçün təsdiq edilmiş iş planı və onun icrası barədə Prezidenti məlumatlandırır.

Nazirlər Kabinetinin iclası onun üzvlərinin azı yarısı iştirak etdikdə səlahiyyətli hesab olunur.

Nazirlər Kabinetinin iclasında baxılan məsələlərə dair qərarlar səsvermə ilə qəbul edilir. Qərar iclasda iştirak edən

Nazirlər Kabineti üzvlərinin sadə səs çoxluğu ilə qəbul olunur. Səslər barabər olduqda, iclasda sədrlik edənin səsi həlledici sayılır. Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikası Prezidentinin aktlarında Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş məsələlərin həlli, habelə Azərbaycan Respublikası Prezidentinin Nazirlər Kabinetinə verdiyi tapşırıqların icrasının təşkili məqsədilə Nazirlər Kabineti aktlar qəbul edir, həmçinin Baş nazir və onun müavinləri Nazirlər Kabinetinin digər üzvlərinə, Nazirlər Kabineti Aparatının rəhbərinə, yerli icra hakimiyyəti orqanlarının və dövlətin hüquqi şəxslərinə tapşırıqlar verirlər.

Fəsil 6. Azərbaycan Respublikasının Milli Məclisi(Parlamenti).

1. Azərbaycan Respublikasının Milli Məclisi ümumxalq nümayəndəli qanunverici orqan kimi.

Konstitusiya hüququ elmində parlament ümumxalq nümayəndəli, seçkili, kollegial, qanunverici orqan kimi xarakterizə olunur. Lakin, siyasi-hüquqi ədəbiyyatlarda

parlament sözünün etimologiyası ilə bağlı fikir ayrılığı yaranmışdır.

Bir qrup tədqiqatçıların yanaşmalarına görə "Parlament" iki latın mənşəli sözün birləşməsindən əmələ gəlib: "partum" (bərabər) və "lamentum" (şikayətlər). Bu mənada parlament öz şikayətlərini bildirmək üçün bərabər səlahiyyətli insanların birləşdiyi (yığışdığı) yer kimi izah olunur. İkinci qrup tədqiqatçılar isə göstərirlər ki, parlament iki fransız sözünün birləşməsi nəticəsində yaranmışdır: "parle" (danışmaq) və "ment" (rəy, fikir). Bu kontekstdə parlament fikir bildirmək, məsləhət vermək məqsədilə birləşən insanların məclisidir.

Etimoloji mənasından asılı olmayaraq hüquqşünaslıqda siyasi-hüquqi termin kimi parlament ümumxalq nümayəndəli, kollegial, qanunverici orqan mənasında başa düşülür.

Siyasi-hüquqi təlimlər tarixində parlamentin genezisi sualı ətrafında fikir ayrılığına rast gəlmək olar. Bəzi nəzəri ədəbiyyatlarda Qədim Afina polisinin və Qədim Roma respublikasının xalq yığıncaqları müasir parlamentin sələfi kimi qeyd olunur. Xarici ölkələrin dövlət və hüquq tarixi elminin mülahizələrinə görə qanunların qəbulu həqiqətən həmin orqanların əsas səlahiyyəti sayılırdı. Lakin biz bir mühüm məsələni unutmamalıyıq ki, Qədim Afina və Romada mövcud olan xalq yığıncaqları xalq hakimiyyətinin birbaşa demokratiya formasıdır. Müasir dövrdə dövlətlərin təcrübəsində bu cür demokratiya formasına nadir hallarda və yalnız yerli özünüidarə səviyyəsində rast gəlmək mümkündür. Parlament isə qanunverici orqan kimi xalq hakimiyyətinin nümayəndəli, seçkili demokratiya institutudur.

Əksər alimlər İngiltərəni parlamentin vətəni hesab edirlər. Məsələn, professor B.A.Straşunun redaktorluğu ilə hazırlanan "Xarici ölkələrin konstitusiya (dövlət) hüququ"

dərsliyində qeyd olunur ki, Parlamentin vətəni İngiltərə hesab olunur. XIII əsrdə yaranan və kral hakimiyyətini məhdudlaşdıran bu orqan iri torpaq sahiblərini (feodalları), ali ruhani şəxsləri, şəhər və qraflıqların nümayəndələrini birləşdirirdi (90,s. 401).

Professor B.J.Çirkin yazır ki, Parlamentin sələfinin Qədim Yunanıstanda və Qədim Romada nümayəndəli orqanlar və Avropada orta əsrlərin əvvəllərində silki-nümayəndəli təsisatlar olmasına baxmayaraq, müasir parlamentin yaranmasını İngiltərədə XIII-XIV əsrlərdəki hadisələrlə əlaqələndirirlər. Həmin vaxt İngiltərədə kralın hakimiyyəti iri feodalların, ali ruhanilərin, şəhər və kənd yerlərinin (icmaların) nümayəndələrinin məclisi ilə məhdudlaşdırılmışdır (41,s. 302).

Professor O.E.Kutafin isə yazır ki, ilk parlamentlər (inglis parlamenti, ispan kortesləri) XII-XIII əsr yaranmışdır. Lakin, silki-nümayəndəli orqanlardan fərqli olaraq müasir parlamentlərin tarixi burjua inqilablarından sonra başlayır və məhz bu vaxtdan etibarən parlament mühüm dövlət hakimiyyəti orqanı kimi fəaliyyət göstərməyə başlayır (89,s. 337).

Zənnimizcə, yuxarıda göstərilən alimlərin fikirləri ilə qismən razılaşmaq olar. Hər şeydən əvvəl ona görə ki, ümumxalq nümayəndəli, qanunverici orqan sayılan müasir parlamentdən fərqli olaraq XIII əsrdə İngiltərədə yaranan Parlament silki-nümayəndəli orqan idi. Digər tərəfdən qanunvericilik orqanı kimi müasir parlamentdən fərqli olaraq orta əsrlərdə yaranan İngilis parlamentinin əsas vəzifələrini vergi məsələlərinin müəyyən edilməsi, dövlət vəsaitlərinin xərclənməsinə ümumi nəzarətin həyata keçirilməsi təşkil edirdi. Yalnız XIV əsrin sonunda İngilis parlamenti qanunvericilik təşəbbüsü hüququnu əldə etmişdir.

XIV əsrin ortalarında İngiltərə parlamentində 2 palata: lordlar palatası (yuxarı palata) və icmalar palatası (aşağı palata) formalaşdı.

İngiltərənin ictimai-siyasi həyatında özünəməxsus yer tutan həmin orqan aşağıdakı mühüm səlahiyyətlərə malik idi:

1. Qanunvericilik təşəbbüsü hüququnun həyata keçirilməsi;
2. Dövlət vəsaitlərinin xərclənməsinə ümumi nəzarət və vergi məsələlərinin həll edilməsi;
3. Yüksək vəzifəli şəxslərin fəaliyyəti üzərində nəzarət hüququ;
4. Bəzi hallarda məhkəmə orqanı kimi çıxış etmək.

Burada xüsusilə qeyd olunmalıdır ki, yalnız 1689-cu ildən etibarən "Hüquqlar haqqında bill" parlamentin razılığı olmadan Kral tərəfindən qanunların qüvvəsini dayandırmaq, yaxud onları ləğv etmək hüququnu ləğv etdikdən sonra İngiltərə Parlamenti həm də qanunverici orqanı kimi fəaliyyətə başladı. Lakin bütün bunlara baxmayaraq burjua inqilablarından sonra istər Avropada (İngiltərə, Fransa və s.) istərsə də Amerikada (ABŞ) parlament seçkilərində irqinə, milliyyətinə, cinsinə, əmlak vəziyyətinə və s. görə müəyyən olunan senzlər həmin parlamentləri ümumxalq nümayəndəli orqan adlandırmağa imkan vermirdi. Hətta parlamentarizmin vətəni sayılan İngiltərədə bu proses 150 ildən çox vaxt tələb etdi.

İngiltərədə 1832-ci ildə həyata keçirilən seçki islahatlarına görə əmlak senzi məhdudlaşdırıldı. 1867-1868-ci illər, daha sonra 1884-1885-ci illərdə qəbul edilən yeni qanunlarda bu senz daha da aşağı salındı, 1918-ci ildə isə ümumi, bərabər seçki hüququ elan olundu (kişilər üçün 21 yaşdan yuxarı, qadınlar üçün isə 30 yaşdan yuxarı). Yalnız 1968-ci ildən etibarən yaş senzi həm kişilər, həm də qadınlar üçün 18 yaş müəyyən olundu.

1872-ci ilə qədər İngiltərədə parlament və bələdiyyə seçkilərində gizli səsvermə tətbiq olunmurdu. Bu isə öz növbəsində müəyyən qrup seçicilərə təsir göstərilməsi və digər sui istifadə hallarına yol açırdı. Bu cür vəziyyət seçkilərin tətbiq olunduğu digər dövlətlər üçün də xarakterik idi. Məsələn, ABŞ-da 1889-cu ildən etibarən seçkilərin gizli səsvermə prinsipi əsasında keçirilməsi təcrübəsi tətbiq olunmağa başladı.

Qaranja A.P. yazır ki, XIX əsrdə və XX əsrin əvvəlində parlament formal olaraq ümumxalq nümayəndəli orqan hesab olunurdu. Belə ki, həmin dövrdə mövcud olan müxtəlif senzlər vətəndaşların əksəriyyətini seçki hüququndan məhrum edirdi. Məsələn, 1815-ci ildə Fransada 30 milyon vətəndaşdan yalnız 80 mini seçki hüququna malik idi (s. 30).

Professor O.E.Kutafin isə yazır ki, ümumxalq nümayəndəli orqan kimi müasir parlamentlər burjua inqilabları nəticəsində yaranır. Demokratik dövlətlərin tarixi təcrübəsinə əsaslanaraq hesab edirik ki, professor O.E.Kutafinin fikirləri ilə yalnız formal cəhətdən razılaşmaq olar. Belə ki, bir mütərəqqi elmi nəzəriyyə kimi ümumxalq nümayəndəliyi konsepsiyasının formalaşması həmin dövrə təsadüf edir.

Professor Straşun qeyd edir ki, hələ XVIII-XIX əsrlərdə formalaşan milli (xalq) nümayəndəliyi konsepsiyası aşağıdakı prinsiplərin məcmusu kimi ifadə oluna bilər:

1. Milli (xalq) nümayəndəliyi konstitusiya ilə təsis olunur;

2. Suveren xalq parlamentə qanunvericilik hakimiyyətini həyata keçirmək səlahiyyəti verir;

3. Bu məqsədlə xalq Parlamentə öz nümayəndələrini (deputatları) seçir;

4. Parlamentin üzvü yalnız onu seçənləri deyil bütün xalqı təmsil edir və buna görə də o, seçicilərdən asılı deyil və geri çağırıla bilməz (90,s. 404).

Bu konsepsiyanın hazırlanmasında burjua ideologları C.Lokk, Ş.L.Monteskye, J.J.Russo, Leon Dyuqi və digər alimlərin böyük rolu olmuşdur.

Yaranma və tarixi inkişaf kontekstində müasir Parlamentin aşağıdakı əsas əlamətlərini göstərmək olar:

- Parlament konstitusiya qanunvericiliyi əsasında yaranır və fəaliyyət göstərir;
- Parlament ümumxalq nümayəndəli seçkili, kollegial orqandır;
- Parlament qanunvericilik hakimiyyətini həyata keçirir;
- Müasir parlament daimi fəaliyyət göstərən orqandır. Parlament üzvləri daimi əsaslarla (parlamentin səlahiyyət müddətindən asılı olaarq 3 il; 5 il və s.) fəaliyyət göstərir. Deputatlar parlamentdə fəaliyyət göstərdiyi müddət ərzində digər dövlət qulluğu vəzifəsindən azad olmalıdırlar;
- Hakimiyyətlər bölgüsü mexanizmində parlament tarazlıq və çəkindirmə sisteminin mühüm elementi kimi çıxış edir;
- Parlament öz fəaliyyətində siyasi plüralizmə (çox partiyalılıq) əsaslanır;
- Parlamentin işi xüsusi təşkilati formalarda həyata keçirilir, onun qərarları isə məcburi xarakter daşıyır.

Elmi-nəzəri mənbələrdə ayrı-ayrı tədqiqatçılar bəzi müsəlman ölkələrində monarxın yanında yaradılan Məşvərətçi Şuranı, inkişaf etməkdə olan Afrika və Asiya ölkələrində real hakimiyyətə malik olmayan qanunvericilik orqanlarını da parlament adlandırırlar .

Professor Çirkin yazır ki, bəzi islam ölkələrində Müşvərətçi parlamentlər mövcuddur. Onlar bəzən monarxın razılığı ilə qanunlar qəbul edirlər, bəzən isə, ümumiyyətlə

qanunlar qəbul edə bilməzlər (məsələn, BƏƏ-də təyin edilən Milli Məclis olmasına baxmayaraq, qanunqüvvəli aktları Əmirlər şurası qəbul edir). Səudiyyə Ərəbistanında isə belə aktları Məşvərətçi Şurada müzakirə edildikdən sonra kral qəbul edir (41,s. 322).

Hesab edirik ki, yuxarıda qeyd olunan orqanaları ümumiyyətlə parlament adlandırmaq düzgün deyil. Belə ki, parlament-nümayəndəli, seçkili və real hakimiyyətə malik olan qanunvericilik orqanıdır.

Müasir ədəbiyyatlarda bəzi müəlliflər hətta SSRİ-də mövcud olan Ali Soveti eləcə də SSRİ-nin tərkibinə daxil olan müttəfiq respublikaların da Ali Sovetlərini Parlament adlandırmağa cəhd göstərirlər. SSRİ Konstitusiyasına görə bütün hakimiyyətin sovetlərə məxsus olması, digər dövlət orqanlarının sovetlərə tabe olması, qanunların qəbulu bu orqanların səlahiyyəti kimi bəyan olunsa da, onları parlament adlandırmaq düzgün hesab etmək olmaz. Belə ki, totalitar, avtoritar siyasi rejimdə nümayəndəli demokratiya institutlarının yaranması və fəaliyyəti adətən imkansızdır. Zənnimizcə, hakimiyyətlər bölgüsü, çoxpartiyalılıq, demokratik seçkilər olmayan yerdə parlamentdən danışmaq düzgün deyil.

Bu gün belə bir fikir səslənir ki, 1918-1920-ci illərdə mövcud olan Azərbaycan Demokratik Respublikası şərq aləmində qadınlara kişilərlə bərabər seçki hüququ verən ilk demokratik dövlətdir. Cəmiyyətimizdə səslənən bu fikir tamamilə doğrudur və Avro-Atlantik məkanda mövcud olan demokratik dövlətlərin seçki tarixinə diqqət yetirdikdə görə bilərik ki, bu sahədə ADR-in dövlətçilik təcrübəsi həm də Avro-Atlantik məkanda birincilər sırasına aid oluna bilər. Çox təəssüf ki, ADR-in bu cür demokratik siyasəti məlum tarixi səbəblərdən gerçəkləşə bilmədi.

Müxtəlif ölkələrdə parlamentlər müxtəlif cür adlanır. Məsələn, ABŞ və Latın Amerika ölkələrində Konqres,

Fransada Milli Məclis, Türkiyədə Böyük Millət Məclisi, Rusiyada Federal Məclis, Danimarkada Folketinq, İslandiyada Altinq, Norveçdə Stortinq, İsveçdə Riksdaq,İsraildə Knesset və s.

Azərbaycan Respublikasında parlament Milli Məclis adlanır.

Hesab edirik ki, aşağıdakı əlamətlər Azərbaycan Respublikasının Milli Məclisini müasir parlament kimi xarakterizə edir. Azərbaycan Respublikasının Milli Məclisi:

Konstitusiya qanunvericiliyi əsasında təsis olunur və fəaliyyət göstərir; Xalq suverenliyinin həyata keçirilmə mexanizmidir; Ümumxalq nümayəndəli kollegial orqandır; Demokratik seçkilər əsasında təşkil olunur; Hakimiyyətlər bölgüsü mexanizmində qanunvericilik hakimiyyətini həyata keçirir; Siyasi plüralizm (çox partiyalılıq) şəraitində fəaliyyət göstərir; Daimi fəaliyyət göstərən orqandır.

Yuxarıda deyilənləri nəzərə alaraq təklif edirik ki, Azərbaycan Respublikasının Konstitusiyasına aşağıdakı müddəalar əlavə edilsin: "Azərbaycan Respublikasının Milli Məclisi-Azərbaycan Respublikasının Parlamentidir".

Bu gün biz tam məsuliyyətlə deyə bilərik ki, Azərbaycanda demokratik, özünəməxsus inkişaf yolu keçmiş Parlament mövcuddur. Heç də xatirəmizdən silinməyib: dövlət müstəqilliyimizin əldə olunmasının ilk illərində fəaliyyət göstərən Azərbaycanın Ali Soveti (öz səlahiyyətlərini 1992-ci ildə müvəqqəti yaradılmış Milli Məclisə ötürdü) daha çox müxtəlif ambisiyalı insanların bir yerə toplaşdığı orqan idi. Deputatların intizamsızlığı, kobud, qeyri-etik çıxışları ilə yadda qalan bu orqan ümumxalq nümayəndəli qanunverici orqan kimi deyil, daha çox vəzifə hərisliyi ilə yaşayan, əsassız ittihamlar, böhtanlar, populist çıxışları ilə seçilən şəxslərin arenasına bənzəyirdi.

Bu gün isə Azərbaycan Respublikasının Milli Məclisi (parlament) öz səlahiyyətlərindən kənar işləri deyil, özünə

aid olan funksiyaları həyata keçirir, xalqına sədaqətlə xidmət edir. Parlamentimizin tərkibinə diqqət yetirsək görərik ki, bu gün Azərbaycan Respublikasının Milli Məclisində yüksək əxlaqa, etikaya malik olan, cəmiyyətimizin müxtəlif təbəqələri arasında böyük hörmət və ehtirama, nüfuza malik olan ziyalılarımız, alimlərimiz, siyasi qərarların, qanunların qəbulu sahəsində təcrübəli insanlar təmsil olunur. Bütün bunlarla yanaşı parlamentin fəaliyyətinin davamlı inkişafı ölkədə konsolidasiyalı demokratiyanın yaranması üçün zəruri şərtlərdən biridir.

Müasir dövrdə bu mövzuda mövcud olan problemli suallardan biri də parlament və parlamentarizm hadisələrinin nisbəti məsələsidir. Konstitusiya hüququ elmində bu problematika ilə bağlı müxtəlif yanaşmalar formalaşmışdır.

Birinci yanaşmanın müəllifləri parlamentarizmi dövlət orqanları sistemində parlamentin aliliyi kimi xarakterizə edir. Hüquqşünaslıqda bu yanaşmanın tərəfdarları daha çoxluq təşkil edir. Məsələn, İ.V.Qrankin yazır ki, parlamentarizmi fərqləndirən ən mühüm cəhət dövlət hakimiyyəti sistemində parlamentin üstün mövqeyə malik olmasıdır (səh 19).

M.B.Baqlay və B.A.Tumarovun mülahizələrinə görə dövlət orqanları sistemində parlamentin aliliyinə əsaslanan dövlət quruluşu parlamentarizm adlanır (s.əh 301).

M.A.Moqurova isə yazır ki, parlamentarizm elə bir siyasi-dövlət rejimidir ki, qanunvericilik və icra hakimiyyəti arasında yaranan münasibətlərdə aparıcı rol parlamentə məxsusdur (səh 26).

Yuxarıda göstərilən alimlərin parlamentin üstün mövqeyə malik olması barədə fikirləri üst-üstə düşsə də lakin, parlament üstünlüyünün nədən ibarət olması barədə mülahizələr fərqlidir. Məsələn, V.E.Çirkin hesab edir ki, dövlət hakimiyyəti sistemində qanunvericilik hakimiyyətinin aliliyi aşağıdakı ideyalarla əsaslandırılır:

1. Parlamenti xalq seçir;

2. Parlament ali hüquqi qüvvəyə malik olan qanunlar qəbul edir;

3. Digər dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir (41,s. 185).

Dövlət hakimiyyəti sistemində qanunvericilik hakimiyyətinin aliliyi barədə fikirlərə, hakimiyətlər bölgüsü konsepsiyasının baniləri arasında da rast gəlmək olar. XVIII əsrdə İngilis burjua ideoloqu C.Lokk qeyd edirdi ki, digər hakimiyyət qolları üçün ali və məcburi qanunlar yaratmaq ixtiyarına malik olan hakimiyyət qolu, onlardan yüksəkdə dayanmalıdır (səh 75).

Bu gün parlamentin aliliyi doktrinasını qəbul edən ölkələrin Konstitusiyasında bu barədə birbaşa müddəa yoxdur. İstisna hal kimi Yaponiyanın Konstitusiyasını göstərmək olar. Yaponiya Konstitusiyasının 41-ci maddəsində göstərilir ki, parlament dövlət hakimiyyətinin ali və yeganə qanunvericilik orqanıdır .

M.V.Baqlay parlamentin aparıcı mövqeyini, onun istənilən məsələlər üzrə qanunlar qəbul etmək, Nazirlər Kabinetini formalaşdırmaq və onun fəaliyyətinə nəzarət etmək imkanlarında görür (92, s. 424).

Zənnimizcə, hakimiyyətlər bölgüsü sistemində hansısa hakimiyyət qolunun ali olması xalq suverenliyinə ziddir. Xalq suverenliyinə görə ali hakimiyyət hansısa hakimiyyət qoluna deyil, xalqın özünə məxsusdur. Xalq isə hakimiyyət budaqlarını təşkil edir və onlara suverenliyi deyil, hakimiyyət səlahiyyətlərini delegə edir. Hakimiyyətlər bölgüsü sistemində hakimiyyət budaqlarının müstəqilliyi və tarazlığı bu konsepsiyanın əsas elementlərindən biridir.

Hətta parlamentli respublikalarda hakimiyyət budaqları arasında tarazlığın qorunub saxlanılması üçün müxtəlif mexanizmlərdən istifadə olunur. Məsələn, bəzi demokratik Avropa ölkələrində idarəçilik sistemi aşağıdakı

qaydalar əsasında təşkil olunur: Prezident adətən Parlament tərəfindən seçilir; Baş Nazir Parlament seçkilərində ən çox səs qazanan partiyanın lideri olur və öz növbəsində Nazirlər Kabinetinin üzvlərinin namizədliyini təsdiq etmək üçün Prezidentə təqdim edir; Sonra Baş Nazir qanunla müəyyən olunmuş müddətdə parlamentə Kabinetin tərkibini və siyasi proqramını təqdim edir (investitura institutu). Bununla Parlamentin yeni Kabinetə olan etimadı rəsmi xarakter alır. Burada Parlament Nazirlər Kabinetinə etimad göstərməyə də bilər. Bu halda Nazirlər Kabineti istefaya getməlidir. Belə bir vəziyyətdə tarazlığın qorunub saxlanılması üçün Nazirlər Kabineti Prezident vasitəsilə Parlamentin istefaya göndərilməsinə nail ola bilər (əgər həmin ölkənin Konstitusiyası yol verirsə). Bu cür idarəçilik formasını qəbul etmiş ölkələrin tarixi təcrübəsi göstərir ki, fraqmentar çoxpartiyalılıq şəraitində Nazirlər Kabineti parlamentdə çoxluğun sabit dəstəyinə malik olmaya da bilər və Nazirlər Kabinetinə parlament etimadının rəsmiləşdirilməsi prosesində Parlamentə seçilmiş müxtəlif partiyalar arasında konfliktlər (münaqişələr) yarana bilər. Bu cür neqativ halların qarşısını almaq üçün bəzi ölkələrdə icra hakimiyyətini gücləndirmək üçün yeni qaydalar yaradılır. Məsələn, Prezidentin parlament yolu ilə deyil, xalq tərəfindən seçilməsini, Nazirlər Kabinetinin siyasi kursunun müəyyən edilməsində, onun üzvlərinin təyin olunmasında Prezidentə geniş səlahiyyətlərin verilməsini göstərmək olar. Bəzi ölkələrdə elə bir konstruktiv etimadsızlıq votumu tətbiq olunur ki, bu zaman Parlamentə Kabineti istefaya göndərmək hüququ verilmir.

Başqa bir misal kimi İsveç dövlətinin idarəçilik təcrübəsini göstərmək olar. Hazırda İsveçdə Baş Nazir və nazirlər parlamentin sədri (onun vəzifəsi Prezident adlanır) tərəfindən təyin olunur. Lakin burada investitura institutundan istifadə olunmur. Bu cür idarəçilik sistemində

Parlament seçkilərində daha çox yer qazanmış siyasi partiyanın lideri Baz Nazir olur. Geniş müstəqilliyə malik olan Baş Nazir Parlamentin buraxılması təklifi ilə Prezidentə müraciət edə bilər. Burada tarazılğı qoruyub saxlamaq üçün Nazirlər Kabinetinin konstitusiya məsuliyyəti müəyyən olunur. Eyni zamanda bu sistemdə Nazirlər də deputat ola bilər. Belə hesab olunur ki, bu cür qayda parlament-kabinet münasibətlərinin möhkəmləndirilməsinə xidmət edir.

Konstitusiya hüququ elmində parlament və parlamentarizm terminlərini eyniləşdirən tədqiqatçılara da rast gəlmək mümkündür.

Biz bu terminlərin fərqləndirilməsinin tərəfdarıyıq və hesab edirik parlamentarizm investitura və kontrasiqnatura elementlərini ehtiva edən parlamentli dövlət idarəçiliyi formasını qəbul etmiş ölkələr üçün xarakterikdir.

§ 2. Azərbaycan Respublikası Parlamentinin (Milli Məclis) funksiyaları və konstitusiya səlahiyyətləri.

Xalq hakimiyyəti sistemində parlamentin yeri və rolu onun vəzifə və funksiyalarında ifadə olunur. Parlamentin funksiyaları qanunverici orqanın fəaliyyətinin əsas və ümumi istiqamətlərini müəyyən edir. Bu kontekstdə parlamentin vəzifə və səlahiyyətləri daha konkretdir və onun funksiyalarının həyata keçirilməsinin təzahürü kimi çıxış edir.

Tarixi ənənəyə görə parlamentin üç əsas klassik funksiyası fərqləndirilir: 1. Qanunvericilik; 2. Dövlət büdcəsinin təsdiqi; 3. İcra hakimiyyəti orqanlarının fəaliyyətinə nəzarət.

Zənnimizcə, yuxarıda göstərilən ənənəvi funksiyaları inkar etmədən müasir parlamentin funksiyalarını aşağıdakı kimi ifadə etmək olar: 1. Təmsilçilik funksiyası; 2.

Qanunvericilik funksiyası; 3. Hakimiyyətlər bölgüsü konsepsiyasının tələblərinə əsasən nəzarət-çəkindirmə funksiyası.

Parlamentin təmsilçilik funksiyası onun xalqın maraq və iradəsinin ifadəçisi kimi nəzərdən keçirilməsi mənasını verir. Parlamentin təmsilçilik xarakteri hər şeydən əvvəl demokratik seçkilər vasitəsilə müəyyən olunur. Onun milli, yaxud xalq nümayəndəliyi kimi tərifi də elə buradan yaranır.

Azərbaycan Respublikasının Konstitusiyasında xalq nümayəndəliyi konsepsiyası aşağıdakı müddəalara əsaslanır:

1. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır (mad 1,I);

2. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə-referendum (bilavasitə demokratiya) və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvemə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir (mad 2, II);

3. Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur (mad 4);

Konstitusiya hüququ elmində xalq nümayəndəliyi dar və geniş mənada izah olunur. Xalq nümayəndəliyi dar mənada seçkili, kollegial, qanunverici orqanı ehtiva edir. Geniş mənada bura həmçinin təkbaşçılıq prinsipi əsasında fəaliyyət göstərən seçkili orqanlar aiddir.

Azərbaycan Respublikasının Konstitusiyası xalq nümayəndəliyi anlayışını geniş mənada qəbul edir. Bu kontekstdə ümumdövlət səviyyəsində Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Milli Məclisi ümumxalq nümayəndəli orqanlar hesab olunur.

Azərbaycan Respublikası Konstitusiyasının 4-cü maddəsinin təfsiri əsasında belə bir nəticəyə gəlmək olar ki,

Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Milli Məclisi (parlamenti) xalqı təmsil etmək hüququna malikdir.

4. Azərbaycan xalqı vahiddir. Onun vahidliyini Azərbaycan Prezidenti təcəssüm etdirir (maddə 5, 8);

5. Azərbaycan xalqının heç bir hissəsi, sosial, qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz (maddə 6);

6. Azərbaycan xalqı konstitusiya vasitəsilə qanunvericilik hakimiyyətini Milli Məclisə (parlamentə), icra hakimiyyətini Prezidentə, məhkəmə hakimiyyətini isə müstəqil məhkəmələrə həyata keçirmək səlahiyyətləri verir (maddə 7).

Təmsilçilik funksiyası parlament üzvlərini ümumxalq və yerli maraqlar arasında mütənasiblik tapmağa məcbur edir. Təmsilçiliyin mahiyyəti ondan ibarətdir ki, hər bir qanunverici, bir tərəfdən, qanunyaradıcılığı vasitəsilə ümumdövlət normativ hüquqi aktlar qəbul edir, digər tərəfdən isə öz seçki dairəsinin maraqlarının özünəməxsus müdafiəçisi kimi çıxış edir.

Parlamentin təmsilçilik funksiyası konkret olaraq dövlət büdcəsinin təsdiqi, beynəlxalq müqavilələrin təsdiqi və ləğv edilməsi, müharibə və sülh məsələlərinin həll olunmasında, yüksək vəzifəli şəxslərin təyinatında, vəzifədən azad olunmasında iştirakında və digər səlahiyyətlərində təzahür edir.

Qanunyaradıcılığı Parlamentin ikinci əsas funksiyasıdır. Bu funksiya qanunların qəbulunu, onlara əlavə və dəyişikliklərin edilməsini, qanunvericiliyin sistemləşdirilməsini, qanunların icrasına parlament nəzarətini ehtiva edir.

Azərbaycan Respublikası Milli Məclisinin qanunyaradıcılığı fəaliyyətinin dairəsi Konstitusiyanın 94-cü maddəsinin I hissəsi ilə məhdudlaşdırılmışdır. Burada Milli

Məclisin hansı məsələlər üzrə müəyyən etdiyi ümumi qaydalar göstərilmişdir. Bununla yanaşı həmin maddənin III hissəsində qeyd olunur ki, bu maddənin I hissəsinə Konstitusiya qanunu ilə əlavələr edilə bilər. Nəzərə alsaq ki, konstitusiya qanunları Milli Məclis tərəfindən də qəbul oluna bilər, belə nəticəyə gəlmək olar ki, elə parlamentin özü zərurət yarandıqda bu dairəni genişləndirə bilər. Lakin bir məsələni unutmayaq ki, Prezidentin Milli Məclis tərəfindən qəbul olunan Konstitusiya qanunlarına dair mütləq veto hüququ var. Bu cür mexanizmin mövcudluğu həmin məsələnin həllində parlamenti tələsik, hərtərəfli ölçülməmiş, zəruriliyi olmayan addımlardan çəkindirə bilər.

Qanunvericilik funksiyasının realizəsi prosesində Milli Məclis konstitusiya qanunları (konstitusiyaya əlavələr) və adi qanunlar qəbul edir.

Azərbaycan Respublikasının Konstitusiyası yalnız iki subyekti: xalqı və Milli Məclisi qanunyaradıcılığı ilə səlahiyyətləndirir. Delege edilmiş qanunyaradıcılığı Azərbaycanda tətbiq olunmur.

Azərbaycan Respublikası Konstitusiyasına əlavələr həmçinin Azərbaycan Parlamentində 95 səs çoxluğu ilə Konstitusiya qanunları şəklində qəbul oluna bilər. Bu cür qanunlar Milli Məclisdə iki dəfə səsə qoyulur və ikinci səsvermə birinci səsvermədən 6 ay sonra keçirilir. Bu cür qanunlar həm birinci, həm də ikinci səsvermədən sonra dövlət başçısına imzalanamq üçün təqdim olunur.

Konstitusiyamızın ayrı-ayrı normalarının interpretasiyası əsasında belə bir nəticəyə gəlmək olar ki, konstitusiyaya əlavələr haqqında konstitusiya qanunları üzərində Prezident mütləq veto hüququna malikdir.

Lakin konstitusiya hüquq doktrinasında qəbulu bilavasitə konstitusiya ilə nəzərdə tutulan və konstitusiya hüququ sahəsinin predmetinə aid olan qanunlar da konstitusiya qanunları adlanır: məsələn, Azərbaycan

Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunu; "Normativ hüquqi aktlar haqqında", "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Konstitusiya Qanunu və s.

Azərbaycan Respublikasının konstitusiya qanunvericiliyində yuxarıda göstərilən konstitusiya qanunlarının qəbuluna dair hansısa fərqli bir qaydalar nəzərdə tutulmayıb. Yalnız Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin II hissəsinə görə Azərbaycan Respublikası Prezidentinin seçkiləri, referendum, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və Parlament deputatlarının statusu məsələlərinə aid qanunlar digər qanunlardan fərqli olaraq 83 səs çoxluğu ilə qəbul edilir.

Zənnimizcə, konstitusiya qanunvericiliyndə konstitusiya qanunlarının definisiyası verilməli və bu cür qanunların qəbulu mexanizmi dəqiqləşdirilməlidir. Hesab edirik ki, digər qanunlardan fərqli olaraq konstitusiya qanunvericiliyi sisteminə daxil olan qanunların qəbulu 83 səs çoxluğu ilə qəbul olunmalıdır.

Ümumilikdə, Parlamentdə həyata keçirilən qanunvericilik prosesini aşağıdakı əsas mərhələlərə bölmək olar:

1. Qanunvericilik təşəbbüsü hüququ; 2. Qanun layihəsinin parlament komitələrində baxılması; 3. Qanun layihəsinin Milli Məclisdə müzakirəsi və qanunun qəbulu; 4. Qanunun imzalanması, promulqasiyası və dərc olunması.

Qanunvericilik prosesinin əsas mərhələlərini daha ətraflı nəzərdən keçirək.

I. Qanunvericilik təşəbbüsü hüququ. Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə əsasən qanunvericilik təşəbbüsü hüququ qanun layihələrinin və

başqa məsələlərin Milli Məclisin müzakirəsinə təqdim etmək hüququ kimi xarakterizə olunur. Bu normanın təfsiri əsasında belə bir nəticəyə gəlmək olar ki, qanunvericilik təşəbbüsü hüququnun subyektləri hazır qanun layihəsini parlamentə təqdim etməlidirlər. Bəzi ölkələrin qanunyaradıcılığı təcrübəsində qanunvericilik təşəbbüsünun subyektləri qanun layihəsi ilə yanaşı sadəcə hər hansı bir qanunun qəbulu təklifini də təşəbbüs qaydasında parlamentə ünvanlaya bilərlər.

Zənnimizcə, Azərbaycan Respublikasının Konstitusiyası tamamilə düzgün olaraq qanunvericilik təşəbbüsü hüququ subyektlərinin dairəsini müəyyən etmişdir. Bura aiddir: Parlamentin deputatları, Prezident, Ali Məhəmə, Respublika Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və 40 min seçki hüququna malik olan Azərbaycan Respublikasının vətəndaşları. Digər maraqlı şəxslər yuxarıda göstərilən yəni konstitusiya ilə müəyyən olunan subyektlər vasitəsilə Milli Məclisin müzakikrəsinə qanun layihəsini göndərə bilər.

Qırx min seçki hüququna malik olan vəətəndaşların qanunvericilik təşəbbüsü hüququ Azərbaycan təcrübəsi üçün yenidir. Bu cür norma Azərbaycan Respublikasının Konstitusiyasına 18 mart 2009-cü il tarixli referendumla əlavə edilmişdir. Bu əlavənin qəbul edilməsindən 11 il keçməsinə baxmayaraq bununla bağlı ölkəmizdə praktiki misal göstərmək mümkün deyil. Bunun səbəbi kimi hər şeydən əvvəl yuxarıda qeyd olunan konstitusiya normasının icra mexanizmini tənzimləyən normativ hüquqi aktın yoxluğudur.

Bu problemin aktuallığını nəzərə alaraq 40 min seçki hüququ olan vətəndaşların qanunvericilik təşəbbüsü hüququ sualının daha geniş tədqiq olunmasını vacib hesab edirik.

Referendum və seçkilərlə yanaşı xalq hakimiyyətinin bilavasitə demokratiya forması sayılan vətəndaşların

qanunvericilik təşəbbüsü hüququ 1918-1920-ci illər Azərbaycan Demokratik Respublikasının konstitusiya aktlarında, Azərbaycan SSR-in 1921, 1937 və 1978-ci il konstitusiyalarında nəzərdə tutulmamışdır.

İlk dəfə olaraq Azərbaycanın konstitusiya tarixində respublikamızın 1978-ci il Konstitusiyasında vətəndaşların petisiya hüququ qəbul olundu. Burada qeyd olunurdu: "Azərbaycan SSR-in hər bir vətəndaşı dövlət orqanlarına və ictimai təşkilatlara onların fəaliyyətini yaxşılaşdırmaq barəsində təkliflər vermək, işdəki nöqsanları tənqid etmək hüququna malikdir. Vəzifəli şəxslər vətəndaşların təklif və ərizələrinə müəyyən edilmiş müddətlərdə baxmalı, bunlara cavab verməli və lazımi tədbirlər görməlidirlər" (maddə 47).

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında nəzərdə tutulan vətəndaşların petisiya hüququ müstəqil dövlətimizin 1995-ci il əsas qanununda da bir neçə fərqli və daha təkmil formada öz hüquqi ifadəsini tapır (maddə 57). Lakin vətəndaşların kollektiv petisiya hüququ ilə xalqın qanunvericilik təşəbbüsünün oxşar cəhətlərinə baxmayaraq, bu institutluları eyniləşdirmək olmaz.

Azərbaycan Respublikası Konstitusiyasının "Qanunvericilik təşəbbüsü" adlanan 96-cı maddəsinə qanunvericilik təşəbbüsü hüququna malik olan subyektlərin sırasına seçki hüququ olan 40 min vətəndaşın da daxil edilməsi qanun yaradıcılığında vətəndaşı öz vətəninin taleyi üçün məsuliyyətli edir, onda həmrəylik hissini yarada bilir, ölkəmizdə demokratiyanın inkişafına böyük töhfə verməklə yanaşı, vətəndaşların cəmiyyətin siyasi həyatda aktiv iştirak səviyyəsini daha da artırır. Xalqın qanunvericilik təşəbbüsü həm dövlət, həm də yerli səviyyədə demokratiyanı canlandırmağa qadirdir və hər hansı səbəbdən seçki orqanının fəaliyyətində öz əksini tapmayan ictimai tələbatlara reaksiya verməyə imkan yaradır. Bu institutdan ictimai təşkilatlar da effektiv istifadə edə bilər.

Xalqın qanunvericilik təşəbbüsü institutu qanunverici təşkilatlarda təmsil olunmayan siyasi və ya ideoloji cərəyanlara öz qanun layihələrini səsverməyə təqdim etməyə imkan verir.

Bəzi mütəxəssislər hesab edir ki, əhalinin mədəniyyəti və təhsil səviyyəsi aşağı olduqda vətəndaşların təşəbbüsü mənəviyyat normalarına, dövlət maraqlarına zidd olar və insan hüquqlarının pozulmasına gətirib çıxara bilər. Lakin etiraf etmək lazımdır ki, cəmiyyətin siyasi və hüquqi mədəniyyətinin yoxluğu şəraitində klassik demokratiya institutlarının da fəaliyyəti qeyri səmərəli olur. Digər tərəfdən unudulmamalıdır ki, qanunvericilik prosesində son söz ali, ümumxalq nümayəndəli orqana məxsusdur.

Konstitusiya hüququ elmində "xalqın qanunvericilik təşəbbüsü"nün anlayışına dair müxtəlif fikirlərə rast gəlmək olar.

Professor B.Y.Çirkin göstərir ki, xalqın qanunvericilik təşəbbüsü seçicilərin müəyyən qrupunun parlament tərəfindən müzakirə edilməsi məcburi olan qanun layihəsi təklif etmək hüququdur (41).

"Xarici ölkələrin Konstitusiya hüququ" adlı dərsliyin müəllifi D.A. Aksyonova da təxminən oxşar mənada bu institutu xarakterizə edir. O, qeyd edir ki, xalqın qanunvericilik təşəbbüsü bilavasitə demokratiya institutlarından biridir və parlament tərəfindən mütləq qaydada baxılması məqsədi ilə müəyyən sayda vətəndaşların qanun layihəsi təklifi ilə çıxış etmək hüququndan ibarətdir.

Yuxarıda göstərilən alimlərin mülahizələri əsasında belə nəticəyə gəlmək olar ki, vətəndaşlar qanunvericilik təşəbbüsü qaydasında parlamentə hazır qanun layihəsi göndərməlidirlər.

Eyni vəziyyətə ayrı-ayrı xarici ölkələrin konstitusiya təcrübəsində də rast gəlmək olar. Məsələn, İtaliya Konstitusiyasının 71-ci maddəsinin 2-ci hissəsi tələb edir ki,

layihə təşəbbüs qrupu tərəfindən qanun maddələri formasında irəli sürülsün. Əksinə, İsveçrə Konstitusiyasının 139-cu maddəsinin 2-ci hissəsinə uyğun olaraq qanun layihəsinə qismən yenidən baxılmasında xalq təşəbbüsü seçicilər tərəfindən həm tərtib olunmuş layihə formasında, həm də ümumi ideya formasında vəsatət edilə bilər. Sonuncu halda Federal Məclis ideya ilə razılaşır və müvafiq layihə hazırlayır, razı deyilsə məsələ referendumda həll olunur .

İspaniya, Braziliya qanunvericiliyində də təşəbbüsün maddələr formasında tərtib olunmuş qanun layihəsi yolu ilə hazırlanması nəzərdə tutulmuşdur və həmin layihəyə qanunun qəbul edilməsinə dair ətraflı əsaslandırma əlavə edilməlidir.

Bəzi hallarda hətta qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihəsinin müvafiq qaydada tərtib olunması tələb olunur, yəni layihə fəsillərə, paraqraflara və yaxud maddələrə bölünməlidir.

Xalqın qanunvericilik təşəbbüsü anlayışına dair yuxarıda qeyd olunan alimlərin fikirlərini və bəzi xarici ölkələrin hüquqi təcrübəsini inkar etmədən hesab edirəm ki, bu cür yanaşmalar həmin institutu natamam xarakterizə edir, belə ki, qanunvericilik təşəbbüsü hüququnu tam ifadə etmir. Professor B.A.Straşun haqlı olaraq yazır ki, qanunvericilik təşəbbüsü-səlahiyyətli subyekt tərəfindən qanunun həm layihə formasında, həm də ümumi ideya formasında rəsmən parlamentə təqdim olunmasıdır(90).

Professor V.V.Lazarev də təqribən eynilə qeyd edir ki, qanunvericilik təşəbbüsü səlahiyyətli subyekt tərəfindən normanın layihəsinin hüquqyaradıcı orqanın müzakirəsinə çıxarılmasından, yaxud normativ akt yaratmaq təklifindən və ya akt layihəsinin hazırlanmasından ibarətdir (88).

Yuxarıda göstərilənləri nəzərə alaraq, hesab edirəm ki, xalqın qanunvericilik təşəbbüsü anlayışının aşağıdakı

formada verilməsi daha düzgün olardı: "Vətəndaşların qanunvericilik təşəbbüsü qanunla müəyyən edilmiş qaydada seçicilərin müəyyən qrupunun parlament tərəfindən müzakirə edilməsi məcburi olan tərtib olunmuş qanun layihəsini və yaxud qanun haqqında ümumi ideyaları təklif etmək hüququdur".

Hal-hazırda bu institutun tədqiqatçıları arasında aşağı keyfiyyətli qanun layihələrini süzgəcdən keçirən və daha əsaslı hazırlanmış aktların qəbul edilməsi üçün parlamentarilərin vaxtına qənaət edən və bütövlükdə qanunvericilik prosesinin optimallaşdırılmasına yardım edən mexanizmin yaradılması zərurəti barədə fikir mövcuddur. Bunun üçün ədəbiyyatda "qanun layihəsi ideyaları" konstruksiyasından istifadə etmək təklif olunur.

Bu kontekstdə bəzi ölkələrin qanunvericiliyinə görə müəyyən məsələlər üzrə xalq qanunvericilik təşəbbüsünü həyata keçirə bilməz. Çox vaxt bura referendumla həll oluna bilməyən məsələlər aid edilir (vergilər, amnistiya, büdcə və s.). Məsələn, Braziliyada silahlı qüvvələrin, inzibati orqanların, məhkəmələrin təşkili və s. suallarla bağlı xalq qanunvericilik təşəbbüsünə malik deyildir.

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə görə, qanunvericilik təşəbbüsü konstitusiya ilə müəyyən edilmiş subyektlərin qanun layihələrini və başqa məsələləri Azərbaycan Respublikasının Milli Məclisinə təqdim etmək hüququdur.

Zənnimcə, yuxarıda qeyd olunan konstitusiya normasının rəsmi interpretasiyasına zərurət yaranmışdır. Hər şeydən əvvəl aydınlaşdırmaq lazımdır ki, əsas qanunun 96-cı maddəsinin birinci hissəsində mötərizədə göstərilən "başqa məsələlər" dedikdə qanunverici nəyi nəzərdə tutur? Əgər söhbət artıq qüvvədə olan qanunlara əlavə və dəyişikliklərdən gedirsə onda unutmayaq ki, bu halda da qanun qəbul edilir və qanunvericilik təşəbbüsü subyekti

tərəfindən parlamentə qanun layihəsi təqdim olunmalıdır. Çox güman ki, burada parlamentin qərarlarından bəhs olunur. Lakin, parlamentin qərarları normativ və tətbiqi xarakterli ola bilər. Əgər qanunvericilik təşəbbüsü hüquqyaradıcılığı prosesinin başlanğıc mərhələsidirsə çox ehtimal ki, burada söhbət Milli Məclisin normativ qərarlarından gedə bilər.

Hesab edirəm ki, "başqa məsələlər" ifadəsi altında konstitusiya qanunvericilik təşəbbüsü subyektləri tərəfindən nəinki tərtib olunmuş qanun layihəsini, o cümlədən normativ hüquqi akt barədə ümumi ideyanın parlamentə təqdim olunması hüququnu ehtiva edir.

Yuxarıda biz qeyd etdik ki, Vətəndaşların qanunvericilik təşəbbüsü hüququ demokratiyanın digər mühüm institutu olan vətəndaşların petisiya hüququndan fərqlənir. Təklif edirik bu sualı daha konkret təhlil edək.

Müasir dövrdə Konstitusiya hüququ elmində vətəndaşların petisiya (müraciət) hüququ ilə bağlı fikir ayrılığı mövcuddur. Bəzi alimlər vətəndaşların kollektiv müraciət hüququnu xalq hakimiyyətinin bilavasitə demokratiya formasına aid edir. Digərləri isə belə düşünür ki, petisiya hüququ xalq hakimiyyəti forması deyil, belə ki, xalqın iradəsinin ifadəsi vasitəsi kimi çıxış etmir. Hətta müraciətdə ifadə olunan xalqın tələbi tam əsaslı olsa da belə, hüquqi mənada qanuni hökumətin tabe olduğu xalqın iradəsi sayıla bilməz. Belə ki, bu halda son qərar müraciət olunan dövlət orqanlarına məxsusdur.

Vətəndaşların müraciət hüququnun realizəsində praktiki olaraq istənilən şəxs və yaxud qrup normativ hüquqi aktın (hətta təfsilatla tərtib edilmiş layihəsi ilə) baxılması və ya qəbul edilməsinə dair petisiya ilə müraciət edə bilər. Lakin belə təklifə görə müvafiq qanunverici orqanlar üçün heç bir öhdəlik yaranmır.

Əgər qanunun qəbul edilməsi barədə təklif səlahiyyətli dövlət orqanı və yaxud vəzifəli şəxsi maraqlandırarsa, onda onlar öz qanunvericilik təşəbbüsü hüququndan istifadə edərək öz adından belə qanun layihəsini parlamentdə müzakirəyə çıxara bilərlər və yalnız belə halda həmin qanun layihəsinə mütləq qaydada baxılacaqdır.

Vətəndaşların qanunvericilik təşəbbüsü hüququ ilə oxşarlıq təşkil edən digər demokratik institutlardan biri də müəyyən məsələyə dair (o cümlədən qanunun qəbulu) seçici qrupu tərəfindən referendumun keçirilməsini təklif etmək təşəbbüsüdür. Lakin, qanunvericilik təşəbbüsü hüququndan fərqli olaraq vətəndaşların referendum təşəbbüsü ümumxalq səsverməsini (referendum) təyin etmək səlahiyyətinə malik olan subyektlər tərəfindən qəbul edilə və yaxud rədd edilə bilər.

Xalqın qanunvericilik təşəbbüsü ilə yanaşı qanunvericilik prosesinin bilavasitə demokratiya institutlarına qanun layihələrinin ümumxalq müzakirəsi, referendumda qanun layihələrinin bəyənilməsi də aiddir. Əlbəttə ki, bunların hər biri birbaşa demokratiyanın mühüm institutları hesab olunsa da vətəndaşlarda qanunvericilik təşəbbüsü hüququnun olması və onun həyata keçirilməsi üçün səmərəli hüquqi mexanizmlərin mövcudluğu və bu hüquqdan fəal istifadə olunması qanunvericilik prosesinin demokratikləşməsi və əhalidə yüksək hüquqi mədəniyyətin olması barədə əminliklə danışmağa imkan verir.

Ayrı-ayrı demokratik ölkələrin təcrübəsindən irəli gələrək xalqın qanunvericilik təşəbbüsünün müxtəlif növlərini fərqləndirmək olar. Məsələn, məzmun nöqteyi nəzərindən xalqın qanunvericilik təşəbbüsünü tərtib olunmuş (normativ aktın layihəsinin maddələrlə qurulması şəklində) və tərtib olunmamış (ümumi istəkləri, ümumi prinsipləri ehtiva edən) növlərə bölmək olar.

Ərazi əlamətinə görə ümumdövlət səviyyəsində (məs. Avstriya, İspaniya, İtaliya, İsveçrə və s.) və regional səviyyədə (federasiya subyektlərində, muxtariyyətdə) tətbiq olunan təşəbbüs (məs. ABŞ, Rusiya, İsveçrə və s.) fərqləndirilir. Hesab edirəm ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında bu institutun təsis olunması ölkəmizin Naxçıvan diyarında qanunvericilik prosesinin demokratikləşməsinə öz müsbət təsirini göstərə bilər. Müasir dövrdə vətəndaşların qanunvericilik təşəbbüsü daha çox yerli özünüidarəetmə səviyyəsində yayılmışdır. Lakin, bu zaman vətəndaşların qanunvericilik deyil, hüquqyaradıcılığı təşəbbüsü barədə danışmaq daha düzgün olardı.

Hüquq nəzəriyyəsində qanunvericilik təşəbbüsü və hüquqyaradıcılığı təşəbbüsü anlayışları fərqləndirilir. Belə ki, hüquqyaradıcılığı təşəbbüsü daha geniş anlayışdır və özündə qanunvericilik təşəbbüsünü də ehtiva edir. Lakin sonuncudan fərqli olaraq hüquqyaradıcılığı təşəbbüsü yalnız qanun layihələrini deyil, həmçinin digər normativ hüquqi aktlar, normativ xarakterli aktlar (bələdiyyə aktları da daxil olmaqla) layihələrinin qəbul edilməsi təşəbbüsünü də nəzərdə tutur.

Bəzi ölkələrin qanunvericiliyi həm də konstitusiya qanunlarının və cari qanunların qəbulu üzrə xalqın qanunvericilik təşəbbüsünü fərqləndirir. Adətən konstitusiya qanunlarının qəbul edilməsi ilə bağlı təşəbbüsün həyata keçirilməsi üçün daha çox seçici imzası tələb olunur.

Məsələn, vətəndaşların qanunvericilik təşəbbüsü hüququnun realizəsi qaydaları haqqında Belarus Respublikasının qanununa görə 50 min vətəndaş qanunvericilik təşəbbüsü hüququna malikdir. Lakin, konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi və konstitusiyanın şərhi üzrə qanunvericilik təşəbbüsünü

həyata keçirmək üçün 150 min seçicinin imzası tələb olunur (3).

Xalqın qanunvericilik təşəbbüsü hüququ aşağıdakı prinsiplər əsasında həyata keçirilir: ümumilik, bərabərlik, qanunçuluq, müvafiq dövlət orqanları və vəzifəli şəxslər tərəfindən bu hüququn təmin olunması, iradə azadlığı və könüllü iştirak prinsipləri. Hesab edirəm ki, bu prinsiplər qanunvericilik təşəbbüsü hüququnu tənzimləyən Azərbaycan Respublikasının gələcək qanununda öz hüquqi ifadəsini tapmalıdır. Belə ki, həmin deklarativ normalar vətəndaşların qanunvericilik təşəbbüsü hüququnun səmərəli təminatı üçün əsaslı zəmin yaradacaqdır.

Almaniya, İsveçrə və digər demokratik ölkələrin təcrübəsinə istinadən xalqın qanunvericilik təşəbbüsünün həyata keçirilməsi mexanizmini şərti olaraq bir neçə mərhələyə bölmək olar:

1. Təşəbbüsün başlanması mərhələsi və təşəbbüsün qeydiyyatı. Bu mərhələ bir neçə pillədən ibarətdir: təşəbbüs qrupunun formalaşmasının təşkilati qaydası; müvafiq orqan tərəfindən həmin təşəbbüsün baxılması; təşəbbüsün qeydiyyatı; imza toplama müddətinin təyin edilməsi; imza vərəqəsi blankının təsdiq edilməsi;

2. Təşəbbüsün rəsmən irəli sürülməsinə hazırlıq. Bu mərhələdə imzaların toplanması və məsələyə nümayəndəli orqanda baxılması üçün ilkin hazırlıq işləri görülür. Bu institutun tətbiq olunduğu ölkələrin konstitusiyaları qanun layihəsi irəli sürmək üçün müəyyən sayda seçki imzalarının toplanmasını nəzərdə tutur. Məsələn, İsveçdə 50 min, İspaniyada 500 min, Gürcüstanda 30 min, Macarıstanda 50 min, Polşada 100 min, Braziliyada seçicilərin 1%-nin, Kolumbiyada isə 5%-nin imzasını toplamaq lazımdır.

Xalq təşəbbüsünün həyata keçirilməsi üçün lazım olan seçicilər sayını müəyyən edərkən bəzi xarici ölkələrin konstitusiya qanunvericiliyi tələb edir ki, bu seçicilər

ölkənin ayrı-ayrı bölgələrini təmsil etsin. Bu o məqsədlə edilir ki, məsələnin qoyuluşu yerli deyil, ümumdövlət xarakteri daşısın. Məsələn, Braziliyada təşəbbüskar-seçicilər ən azı beş ştatı təmsil etməlidirlər.

3. Petisiyanın rəsmən irəli sürülməsi. Bu mərhələ iki pillədən ibarətdir:

- təşəbbüs qrupu tərəfindən sənədlər paketinin təqdim edilməsi;

- imza vərəqələrinin yoxlanması və təşəbbüsün rəsmi qeydiyyatı.

4. Təkliflərin reallaşdırılması proseduru. Bu mərhələ normativ-hüquqi akt layihəsinin hazırlanması (zərurət varsa), layihənin baxılması (çıxışlar) və səsverməni əhatə edir.

II. Qanun layihəsinin Milli Məclisin daimi komitələrində hazırlanması və baxılması. Milli Məclisə təqdim olunan qanun layihələrini sədr parlamentin müvafiq daimi komitəsinə göndərir və layihəyə baxılması müddətini müəyyən edir. Qanun layihəsi bir neçə müvafiq komitəyə göndərildiyi halda parlamentin spikeri onlardan birini aparıcı komitə təyin edir. Parlamentdə təşkil olunan hər bir daimi komitə müəyyən sahədə mövcud olan qanun layihələrinə baxılmasına dair cavabdehdir və aparıcı komitə kimi çıxış edir. Bu orqanların məsul olduğu müvafiq qanun layihələri Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında qanunla tənzimlənir.

Qanunvericilik prosesində Parlamentin komitələri millət vəkillərinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdikləri qanun layihələrinin ilkin müzakirəsini təşkil edir və parlamentdə baxılmasına dair rəy verir, deputatın təşəbbüsü ilə qanun layihələrini hazırlayır, digər qanunvericilik təşəbbüsü hüququ subyektlərinin Milli Məclisə təqdim etdikləri qanun layihələrinin ilkin müzakirəsini təşkil edir və parlametdə baxılmasına dair rəy

verir, birinci və ikinci oxunuşda qəbul edilmiş qanun layihəsi üzərində iş aparır və onu ikinci və üçüncü oxunuşa hazırlayır, Milli Məclisin qanunvericilik işləri planına dair öz təkliflərini verir.

Parlamentin komitələrində qanun layihələrinin hazırlanması və baxılması qaydası aparıcı komitə tərəfindən Konstitusiya və Milli Məclisin Daxili Nizamnaməsinə əsasən müəyyənləşdirilir.

Qanun və qərar layihələri üzərində iş aparmaq üçün komitə işçi qrupu yarada bilər. Qanun və qərar layihələri bir neçə komitə tərəfindən hazırlanırsa, onlar birgə işçi qrupları yarada bilərlər. Bir məsələyə aid iki və ya daha çox qanun və qərar layihəsi varsa, onlar birlikdə müzakirə edilir.

Milli Məclisin Aparatı komitənin tapşırığı ilə qanun və qərar layihələrinin hüquq və dil-üslubu baxımından ekspertizasını keçirir, habelə qanun layihəsinin qəbul edilməsi ilə əlaqədar qəbul olunmalı, dəyişdirilməli və ya ləğv edilməli qanunların və başqa normativ hüquqi aktların siyahısını tərtib edir.

Milli Məclisin deputatlarının və başqa qanunvericilik təşəbbüsü hüququ subyektlərinin qanun və qərar layihələrinə aid qeyd və təkliflərinə aparıcı komitənin iclaslarında baxılır.

Milli Məclisin komitələri arasında baxılan layihələrə dair fikir ayrılığı əmələ gələrsə, aparıcı komitənin qərarı əsas götürülür. Bu qərarla razı olmayan komitənin rəyi Milli Məclisin bu məsələyə aid iclasında deputatlara yazılı şəkildə çatdırılır.

Hazırlanmış və ya baxılmış layihə Milli Məclisin iclasının gündəliyinə daxil edilmək üçün iclasa dəvət olunmalı şəxslərin siyahısı ilə birlikdə Milli Məclisin sədrinə təqdim edilir.

III. Qanun layihəsinin Milli Məclisdə müzakirəsi və qanunun qəbulu.

Milli Məclisdə qanun layihələrinə, bir qayda olaraq, üç oxunuşda baxılır. Milli Məclisin sədrinin qərarı ilə və ya Milli Məclisin protokol qaydasında qəbul etdiyi qərarla qanun layihəsinə bir oxunuşda baxıla bilər.

Qanun layihəsinin birinci oxunuşu zamanı onun qəbul edilməsinin zəruriliyi, əsas müddəaları müzakirə edilir, qanun layihəsinin ümumi konsepsiyasına qiymət verilir. Müzakirə layihənin təşəbbüsçüsünün və aparıcı komitənin nümayəndəsinin məruzələri ilə başlanır.

Bundan sonra komitələrdə layihəyə baxılarkən onların arasında fikir ayrılığı əmələ gəlmişsə, layihə ilə razı olmayan komitənin rəyini həmin komitənin nümayəndəsi oxuyur.

Qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Milli Məclis aşağıdakı qərarlardan birini qəbul edir:

1) layihə birinci oxunuşda qəbul edilsin və söylənilmiş təkliflər və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilsin (bu qərar protokol qaydasında qəbul edilir);

2) layihə qəbul edilməsin;

3) qanun qəbul edilsin.

Milli Məclis birinci oxunuşda qəbul edilmiş qanun layihəsinin dərc olunması və ümumxalq müzakirəsinə çıxarılması haqqında qərar qəbul edə bilər.

Birinci oxunuşda qəbul edilmiş qanun layihəsinə dair təklifləri və iradları aparıcı komitə öyrənir və ümumiləşdirir. Aparıcı komitə layihəyə təklif olunan dəyişikliklərin Azərbaycan Respublikası Konstitusiyasına uyğun olub-olmamasını müəyyənləşdirmək üçün müstəqil ekspertiza təyin edə bilər. Layihəyə təklif edilən dəyişikliklərin Azərbaycan Respublikası Konstitusiyasına zidd olması müəyyənləşdirildikdə aparıcı komitə bu barədə dəyişikliyin müəllifinə xəbər verir. Dəyişiklik vermiş şəxslər müzakirə zamanı dəyişiklikləri dəqiqləşdirə və ya geri götürə bilərlər.

Layihənin ayrı-ayrı maddələri üzrə qruplaşdırılmış dəyişikliklərə aparıcı komitənin iclasında baxılır və komitə bu dəyişikliklərlə razı olduqda onları layihənin mətninə daxil edir. Yenidən işlənilmiş qanun layihəsi ikinci oxunuşda baxılmaq məqsədilə Milli Məclisin iclasının gündəliyinə salınmaq üçün Milli Məclisin sədrinə göndərilir.

Milli Məclisdə ikinci oxunuşda baxılmasına azı 5 gün qalmış qanun layihəsi onun təşəbbüsçüsünə göndərilir.

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin II hissəsinə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin müzakirəsinə verdikləri qanun və ya qərar layihələri təqdim olunmuş şəkildə müzakirəyə çıxarılmalı və səsə qoyulmalıdır. Belə qanun və ya qərar layihələrində dəyişikliklər yalnız həmin orqanların razılığı ilə edilə bilər. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 1.5-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Azərbaycan Respublikasının Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına dair təkliflər verə bilər. Müvəkkil Azərbaycan Respublikasının Milli Məclisinə amnistiya elan edilməsi barədə təklif verə bilər. Həmin təklifləri Milli Məclisin sədri müvafiq komitəyə və ya komitələrə göndərir. Müvafiq komitə təkliflərə dair müsbət münasibət bildirdikdə onlar Milli Məclisin müzakirəsinə çıxarılır.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi aparıcı komitəninn nümayəndəsinin məruzəsi ilə başlanır. Məruzəçi

komitədə layihəyə baxılmasının nəticələri haqqında məlumat verir.

Layihənin ikinci oxunuşda müzakirəsi, bir qayda olaraq, qanun layihəsi təşəbbüsçüsünün və ya onun nümayəndəsinin çıxışı ilə davam edir. Daha sonra ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilir. Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Qanun layihəsi əsas kimi qəbul olunduqdan sonra Milli Məclisin iclasına sədrlik edən deputatlardan qanun layihəsində edilmiş dəyişikliklərə etirazların olub-olmamasını öyrənir. Bu cür etirazlar olduqda onları qısaca əsaslandırmaq üçün hər deputata 3 dəqiqəyədək vaxt verilir. Məruzəçi həmin etirazlara cavab verir və qanun layihəsi maddə-maddə müzakirə edilir. Qanun və ya qərar layihəsi Milli Məclisin müzakirəsinə hüquq, layihəyə dair verilmiş təklif əlavə xərc tələb etdikdə isə, həmçinin büdcə ekspertizasının rəyi ilə birlikdə çıxarılır.

Bundan sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilir. İkinci oxunuşda qəbul edilmiş qanun layihəsi müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır. Bu iş başa çatdıqdan sonra aparıcı komitə üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsini Milli Məclisin sədrinə göndərir. Milli Məclisin sədri qanun layihəsinə üçüncü oxunuşda baxılmasını Milli Məclisin iclasının gündəliyinə salır.

Qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulur. Qanun layihəsinin üçüncü oxunuşu zamanı onun mətnində dəyişikliklər edilə bilməz.

Azərbaycan Respublikası Konstitusiyasının 94 maddəsinin I hissəsinin 2,3,4-cü bəndlərində göstərilən

məsələlərə dair qanunlar 83 səs çoxluğu ilə, qalan məsələlərə dair qanunlar isə 63 səs çoxluğu ilə qəbul edilir.

Müstəsna hallarda Milli Məclisin iclasında iştirak edən deputatların əksəriyyətinin tələbi ilə üçüncü oxunuşda olan qanun layihəsi ikinci oxunuşa qaytarıla bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin IV və V hissələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, bütün başqa hallarda Milli Məclisə təqdim edilmiş layihələr 6 ay müddətində baxılır, müzakirə edilir və onlar barəsində qərar qəbul edilir.

Konstitusiya normalarına görə, qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Prezidentinin, Ali Məhkəmənin, seçki hüququ olan 40 min vətəndaşın, Azərbaycan Respublikası Prokurorluğunun və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin parlamentə təqdim etdikləri qanun layihələri iki ay ərzində səsə qoyulur. Əgər qanun layihəsini Prezident, Ali Məhkəmə, Respublika Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təcili elan edibsə bu müddət 20 gün təşkil edir (maddə 96, IV-V hissələr).

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin V hissəsində sadalanan subyektlər qanun və qərar layihələrini Milli Məclisin sessiyasının işinin bitməsinə 20 gündən az qaldıqda göndərərsə, Milli Məclisin sədri həmin layihələrə növbəti sessiyada baxılması haqqında vəsatət qaldıra bilər. Qanunvericilik təşəbbüsü hüququ subyektləri vəsatətə rədd cavabı verərsə, Milli Məclisin sessiyasının işi bitənədək həmin layihələr barədə qərar qəbul edilməlidir.

IV. Qanunun imzalanması, promulqasiyası və dərc olunması.

Azərbaycan Respublikası Konstitusiyasının 97-ci maddəsinə görə, qanunlar qəbul edildiyi gündən 14 gün müddətinə Prezidentə imzalamaq üçün təqdim edilir. Təcili

elan olunan qanun layihəsi isə 24 saat ərzində təqdim edilir. Dövlət başçısı qanunları ona təqdim olunmuş gündən başlayaraq 56 gün ərzində imzalayır (maddə 110).

Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununda qeyd olunur ki, qanunlar Prezident tərəfindən imzalandıqdan sonra 72 saat müddətində rəsmi dərc edilməlidir.

Konstitusiya qanunları istisna olmaqla (bu aktlara dair mütləq veto tətbiq oluna bilər) digər qanunlar üzərində Dövlət başçısı nisbi veto hüququndan istifadə edə bilər. Prezident qanuna veto qoyduqda bu məsələ aşağıdakı qaydada həll olunur. Milli Məclisin Daxili Nizamnaməsində qeyd olunur ki, əgər, Azərbaycan Respublikası Konstitusiyasının 110-cu maddəsinin I hissəsində göstərilmiş müddət ərzində Azərbaycan Respublikasının Prezidenti Milli Məclisin qəbul etdiyi qanunu öz etirazları ilə qaytararsa, Milli Məclis həmin qanuna təkrar baxır.

Azərbaycan Respublikası Prezidentinin qaytardığı qanunu Milli Məclisin sədri müvafiq aparıcı komitənin və ya xüsusi yaradılmış komissiyanın rəyinə göndərir. Həmin komitə və ya komissiya məsələyə 10 gün müddətində baxıb Milli Məclisə aşağıdakı qərarlardan birinin qəbul olunmasını təklif edir:

- qanun Azərbaycan Respublikası Prezidentinin təklif etdiyi dəyişikliklərlə qəbul edilsin;
- Azərbaycan Respublikası Prezidentinin qanunun məqsədəuyğun olmaması barədə təklifi qəbul edilsin;
- qanun qəbul edilmiş redaktədə saxlanılsın.

Milli Məclisin sədri bu rəyi aldıqdan sonra Azərbaycan Respublikası Prezidentinin qaytardığı qanunu təkrar baxılmaq üçün Milli Məclisin növbəti iclasının gündəliyinə salır və dərhal bu barədə Azərbaycan Respublikası Prezidentinə xəbər verir.

Qanuna təkrar baxılmasına Azərbaycan Respublikası Prezidentinin nümayəndəsinin çıxışından başlanılır. Bundan sonra Milli Məclisin komitə və ya komissiyasının bu maddədə nəzərdə tutulmuş rəyi oxunur.

Azərbaycan Respublikasının Prezidenti məsələni qanunun məqsədəuyğun olmaması kimi qoyursa, birinci bu təklif səsə qoyulur və Milli Məclisin deputatlarının azı 63 səs çoxluğu ilə qəbul edildikdə, qanun qəbul edilməmiş sayılır. Həmin təklif qəbul edilməzsə, qanunun təkrarən qəbul edilməsi haqqında təklif səsə qoyulur. Azərbaycan Respublikası Konstitusiyasının 110-cu maddəsinin II hissəsinə uyğun olaraq Milli Məclis 83 səs çoxluğu ilə qəbul edilən qanunu 95 səs çoxluğu ilə, 63 səs çoxluğu ilə qəbul edilən qanunu isə 83 səs çoxluğu ilə yenidən qəbul edərsə, qanun təkrarən qəbul edilmiş sayılır və dərc olunmaq üçün 7 gündən gec olmayaraq Azərbaycan Respublikasının Prezidentinə göndərilir.

Yuxarıdakı qeydlərdən məlum olur ki, veto məsələsinin həllində son söz qanunvericilik hakimiyyəti orqanına məxsusdur. Azərbaycan qanunvericiliyinin bu problemin həllində mövqeyini düzgün hesab edirik. Belə ki, qanunvericilik sahəsində olan vəziyyətə görə ilk növbədə parlament xalq qarşısında məsuldur.

Lakin hesab edirik ki, bu məsələnin həllində parlament prezidentin təkliflərinə çox diqqət və ehtiramla yanaşmalı, problem mübahisə ilə yox, kompromislə həll olunmalıdır. Belə ki, ölkə başçısı veto hüququndan istifadə etdikdə təbii ki, onu əsaslandırılmış şəkildə parlamentə göndərir. Bu məsələnin tənzimlənməsində bəzi ölkələrin (məsələn: Gürcüstan Respublikası) təcrübəsini məqbul saymırıq. Burada belə bir qayda mövcuddur ki, prezidentin veto hüququnun həllində parlament ilə mübahisə yaranarsa qanunu parlamnetin spikeri imzalayır və elan edir.

Bu cür qaydanı ölkəmiz üçün məqbul saymırıq. Birincisi, ali nümayəndəli orqanlar mübahisə deyil (bu zaman onun ağrısını xalq çəkər) kompromis yolunu tutmalıdır; İkincisi, bu qanunları icra edən orqanlara Prezident rəhbərlik edir və qanunun promulqasiyası da məhz Prezidentin səlahiyyətidir. Bu kontekstdə Milli Məclis Prezidentin etirazları ilə razı olmadıqda Prezident həmin qanunu promulqasiya etməyə borcludur. Digər tərəfdən bu problemin həlli ilə bağlı Prezidentin Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ var.

Yuxarıda biz konstitusiya qanunlarının qəbulu prosesində qanunvericilikdə müəyyən böşluqların olması məsələsinə toxunduq. Həmin problemlə bağlı bəzi əlavə fikirlərimizi də bölüşmək istərdik.

Konstitusiya qanunu termini Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsində istifadə olunur. Bu maddənin müddəalarına görə konstitusiya qanunu Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən konstitusiyamıza əlavələrlə bağlı qəbul olunan qanundur. Konstitusiyamızın digər maddəsində isə (maddə 110, II hissə) göstərilir ki, konstitusiya qanunları dövlət başçısı tərəfindən imzalanmazsa, qüvvəyə minmir. Müasir konstitusiya hüquq doktrinasına və Azərbaycan Respublikasının qanunvericilik təcrübəsinə görə konstitusiya qanunları yalnız əsas qanuna əlavə və dəyişiklikləri ehtiva edən qanunlarla məhdudlaşmır. Yuxarıda qeyd olunduğu kimi bura həmçinin konstitusiya hüququ sahəsinin predmetinə aid olan və qəbul olunması bilavasitə konstitusiyada göstərilən qanunlar da aiddir (məsələn: "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman)" haqqında, "Normativ hüquqi aktlar" haqqında və s. konstitusiya qanunları).

Azərbaycan Respublikası Konstitusiyasının müddəalarından belə bir nəticə çıxarmaq olar ki, yalnız

konstitusiyaya əlavələrlə bağlı deyil, bütün konstitusiya qanunlarına dair Azərbaycan Respublikasının Prezidenti mütləq veto hüququndan istifadə edə bilər.

Parlamentin qanunvericilik funksiyasına aid olan digər aktual problemlərdən biri də "delege" edilmiş qanunvericilik institutunun tətbiqidir.

Son vaxtlar bir çox xarici ölkələrin konstitusiya təcrübəsində delege edilmiş qanunvericilik institutunun geniş tətbiq olunması müşahidə olunur (Böyük Britaniya, Fransa, İspaniya, Moldova, Qazaxıstan və s.). Bu cür vəziyyət sosial həyatın mürəkkəbləşməsi və yeni yaranmış münasibətlərin hüquqi tənziminin vaxtında, operativ təmin olunması zəruriliyi ilə izah oluna bilər. Bu məqsədlə Parlament qanunvericilik səlahiyyətinin bir qismini başqa hakimiyyət subyektlərinə həvalə edir. Adətən bu subyektlər qismində icra hakimiyyəti orqanları çıxış edir.

Bu cür vəziyyət hər şeydən əvvəl dövlətin üzərinə düşən vəzifələrin artması, qanunvericilik texnikasının mürəkkəbləşməsi, xüsusi (sahəvi) qanunvericilik aktlarının həmin sahələrin peşəkar şəxsləri tərəfindən qəbulu zərurəti ilə şərtlənir. Bütün bunlar parlamenti qanunvericilik səlahiyyətlərinin bir qismini hökumətin xeyrinə imtina etməsinə məcbur edir. Hüquq nəzəriyyəsində yeni yaranan münasibətlərə çevik hüquqi reaksiya vermək, onları hüquqi tənzimetmə yolu ilə səmərəli idarə etmək imkanlarının daha çox icra hakimiyyəti subyektlərində olması vurğulanır.

Hüquq ədəbiyyatlarında delege edilmiş qanunvericiliyin anlayışı birmənalı izah olunmur. Bu cür plüralizmin olmasına baxmayaraq, zənnimcə aşağıdakı tərif daha məqbul sayla bilər:

Delege edilmiş qanunvericilik-qanun qüvvəsinə malik olan və parlamentin vəkaləti əsasında qəbul olunan icra hakimiyyəti aktlarıdır. Bu definisiyadan irəli gələrək delege

edilmiş olunmuş qanunvericiliyin 2 əsas cəhətini göstərmək olar:

1. İcra hakimiyyəti qanunu parlamentin tapşırığı ilə qəbul edir;

2. Bu akt qanunla eyni qüvvəyə malikdir.

Bir sözlə parlament qanun qəbul etmək hüququnu buna səlahiyyəti çatmayan dövlət orqanına (hökumətə) həvalə edir və eləcə də, bu cür qanunlar üzərində nəzarəti həyata keçirir. Lakin bu heç də o demək deyildir ki, delege edilmiş qanunvericilik səlahiyyəti qeyri məhdud müddətə verilir. Adətən bu proses birdəfəlik xarakter daşıyır.

Bəzi xarici ölkələrin konstitusiyaları birbaşa prezidentə və hökumətə qanunqüvvəli hüquqi aktlar qəbul etmək səlahiyyəti verir. Bu halda qanun qüvvəli aktların prezident tərəfindən qəbul olunması konstitusiya ilə müəyyən olunur və prezidentin konstitusion səlahiyyəti hesab olunur. Delege edilmiş qanunvericilik fəaliyyətində isə parlament müəyyən məsələlər üzrə qanunvericilik səlahiyyətini prezidentə delege (həvalə) edir (İspaniya, İtaliya, Rumıniya və s.).

Müasir dövrdə geniş tətbiq olunan delege edilmiş qanunvericilik fəaliyyətinin aşağıdakı növləri fərqləndirilir:

1. Fiksasiya olunmuş səlahiyyət. Burada parlamentin səlahiyyət dairəsi konstitusiya ilə dəqiq müəyyən olunur, yəni onun konkret hansı suallar ətrafında qanunlar qəbul edə bilməsi səlahiyyəti əsas qanunda göstərilir. Bu siyahıya daxil olmayan suallar isə hökumət tərəfindən həll olunur (məs. Azərbaycan Respublikasının Konstitusiyası maddə 109, bənd, 32);

2. Səlahiyyətlərin ötürülməsi və yaxud birbaşa delege edilməsi. Burada parlament öz qanunvericilik səlahiyyətlərinin bir qisminin hökumətə verilməsi barədə xüsusi qanun qəbul edir.

3. Məcazi qanunvericilik. Bu növdən parlament tərəfindən qəbul olunan qanunun müddəalarında qeyri konkretlik və qeyri müəyyənlik aşkar olunduqda istifadə olunur. Bu cür qanunu konkretləşdirmək üçün hökumətə məcazi formada qanunvericilik səlahiyyəti verilir.

Belə qənaətə gəlmək olar ki, Azərbaycan Respublikasında parlament tərəfindən qanunvericilik səlahiyyətlərinin birbaşa başqa orqana ötürülməsi, yəni birbaşa delege edilmiş qanunvericilik növündən istifadə olunmur. Lakin, parlament səlahiyyətlərinin dəqiq fiksasiya olunması Azərbaycan Konstitusiyası üçün də xarakterikdir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyası Milli Məclisin həll etdiyi məsələlərin dairəsini dəqiq müəyyən edir və burada parlamentə qanunvericilik səlahiyyətlərinin bir qisminin başqa orqana ötürülməsi nəzərdə tutulmayıb. Lakin, Konstitusiyanın 109-cu maddəsinin 32-ci bəndində deyilir ki, bu Konstitusiya ilə Azərbaycan Respublikası Milli Məclisinin (parlamentin) və məhkəmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər məsələləri Prezident icra qaydasında həll edir. Bu norma əsasında dövlət başçısı tərəfindən qanunqüvvəli hüquqyaradıcılığının həyata keçirilməsi mümkün olur.

Azərbaycan təcrübəsində həmçinin, delege edilmiş qanunvericiliyin məcazi formasına da rast gəlmək olar. Bu vaxt hüquqi qüvvəsinə görə qanunla eyni olmasa da (yəni onlar qanun tabeli sayılır, baxmayaraq ki, Azərbaycan hüquq elmində biz onları qanunqüvvəli adlandırırıq) lakin belə aktların qəbulu qanunla nəzərdə tutula bilər. Məsələn: Polis haqqında qanun (maddə 33, IV hissə-«Polis əməkdaşlarının intizam məsuliyyətinə cəlb edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnamə ilə tənzimlənir»).

Qanunvericilik funksiyasının həyata keçirilməsi sahəsində Milli Məclisin digər mühüm səlahiyyətlərindən

biri də dövlətlərarası və qanunlardan fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiq və ləğv edilməsidir. Beynəlxalq müqavilələrin implementasiyası sahəsində Azərbaycan inkorporasiya metodunu qəbul etmişdir. Bu baxımdan Milli Məclis yuxarıda göstərdiyimiz səlahiyyətin icrası ilə bağlı 63 səs çoxluğu ilə qanun qəbul edir və bununla bağlı qanunvericilikdə müvafiq düzəlişlər həyata keçirir.

Qanunvericilik hakimiyyətinin digər mühüm funksiyası parlament nəzarətidir.

Dövlət nəzarəti sisteminin mühüm elementi kimi parlament nəzarəti demokratik cəmiyyətdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsində, qanunçuluq rejiminin və hüquq qaydasının, ölkənin maddi resurslarından səmərəli istifadə olunmasının təminatında böyük əhəmiyyətə malikdir. Digər hakimiyyət qollarının fəaliyyətinə parlament nəzarəti hakimiyyətlər bölgüsü sistemində qanunvericilik hakimiyyətini üstün vəziyyətə gətirmir, hakimiyyət qolları arasında tarazlığı pozmur. Əksinə parlament nəzarəti demokratik, hüquqi dövlətdə hakimiyyətlər bölgüsü konsepsiyasının mülahizələri əsasında tarazlıq və süi-istifadədən çəkindirmə mexanizminin təminatının əsas elementi kimi çıxış edir.

Digər tərəfdən parlament nəzarəti hüquqi formalarda həyata keçirilsə də, daha çox dərəcədə ictimai-siyasi xarakter daşıyır. Məsələn, Azərbaycan Respublikası Milli Məclisinin Nazirlər Kabinetinə etimadsızlıq göstərməsi heç də sonuncunun dərhal istefasına səbəb olmur. Bu problemi Azərbaycan Respublikasının Konstitusiyasına görə icra hakimiyyəti qolunun mənsub olduğu Azərbaycan Respublikasının Prezidenti həll edir; və yaxud mərkəzi icra hakimiyyəti orqanları tərəfindən qanuna zidd normativ hüquqi aktlar qəbul olunarsa və yaxud onların fəaliyyətində (məsələn: maliyyə resurslarından istifadə zamanı) hər hansı

qanun pozuntularına yol verilərsə bu məsələləri parlamentin sorğusu ilə müvafiq olaraq Konstitusiya Məhkəməsi və yaxud digər səlahiyyətli məhkəmə hakimiyyəti orqanları həll edərək faktiki və hüquqi əsaslar olduqda hüquq məsuliyyətini tətbiq edir. Yuxarıdakı misallardan görmək olur ki, parlament nəzarəti nəticəsində digər dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının fəaliyyətində hüquqpozma halları aşkar olunduqda parlament onlar barəsində sanksiya tətbiq etmir. Bununla yanaşı cəmiyyətdə, dövlətdə neqativ hadisələrin aşkar olunması, qarşısının alınması prosesində olduqca təsirli bir mexanizm kimi çıxış edir. Parlament nəzarəti qanunvericilik hakimiyyəti orqanına onun yaratdığı orqanlara, deputatlara parlament aktlarının əməl olunmasına nəzarət etmək imkanını ehtiva edir. Bu da ona mövcud problemlərin və nöqsanların aradan qaldırılması, qanunvericilik sahəsində boşluq və kolliziyaların aradan qaldırılması, preventiv tədbirlərin görülməsinə imkanlar yaradır.

Müasir nəzəri ədəbiyyatlarda haqlı olaraq parlament nəzarəti ictimai nəzarətə daha yaxın olan dövlət nəzarəti kimi xarakterizə olunur. Bu cür yanaşma hər şeydən əvvəl onunla əlaqələndirilir ki, parlament ümumxalq nümayəndəli orqan kimi xalqı təmsil edir. Digər tərəfdən isə parlament nəzarətinin həyata keçirilməsi prosesində bir çox vətəndaşların,dövlət və yerli özünüidarə orqanlarının, kütləvi informasiya vasitələrinin, qeyri dövlət təşkilatlarının və s. ictimai institutların diqqəti hüququn tətbiqinin müəyyən problemləri ətrafında birləşir və həmin problemlərin daha səmərəli həll olunmasına öz töhfəsini verir. Bütün bunlar onu göstərir ki, parlament nəzarəti həm dövlət, həm də ictimai nəzarətin əlamətlərini ehtiva edir. Bu kontekstdə bəzi nəzəriyyəçilər parlament nəzarətini həmçinin, siyasi nəzarət adlandırırlar.

Müxtəlif meyarlar əsasında parlament nəzarətinin aşağıdakı növlərini fərqləndirmək olar:

1. Nəzarətin subyektlərinə görə: parlament, onun strukturuna daxil olan orqanlar və millət vəkilləri tərəfindən həyata keçirilən parlament nəzarəti;

2. Nəzarətin obyektinə görə: icra və məhkəmə hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin, yerli özünüidarə orqanlarının, qeyri dövlət təşkilatlarının fəaliyyətinə dair parlament nəzarəti;

3. Məzmununa görə: qanunçuluğa riayət etmə, qanunların icrası, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunması, ölkənin müdafiəsi və təhlükəsizliyi, maliyyə və s. sahələrdə aparılan parlament nəzarəti.

Azərbaycan Respublikası da daxil olmaqla demokratik dövlətlərin təcrübəsində parlament nəzarətinin aşağıdakı formalarından istifadə olunur.

1. Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi. Hökumətin parlament qarşısında siyasi məsuliyyəti Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilən hakimiyyətlər bölgüsü konsepsiyasına görə hakimiyyət budaqları arasında tarazlıq və çəkindirmə mexanizminin mühüm elementi kimi çıxış edir.

Azərbaycan Respublikası Konstitusiyasının Milli Məclisin həll etdiyi məsələlər adlı 95-ci maddəsində qeyd olunur ki, Milli Məclis Nazirlər Kabinetinə etimad məsələsini həll edir (I hissə, 14-cü bənd). Bu normanı parlamentin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərib istefaya göndərilməsi hüququ kimi izah etmək düzgün olmazdır.

Nazirlər Kabinetinin siyasi fəaliyyəti ilə razı olmayan Azərbaycan Respublikasının Milli Məclisi ona etimadsızlıq göstərdiyi halda Nazirlər Kabinetinin faktiki istefası

məsələsini yalnız Azərbaycan Respublikasının Prezidenti həll etmək səlahiyyətinə malikdir.

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad göstərilməsi məsələsi Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkiləri gününə 6 aydan az qaldıqda müzakirəyə çıxarıla bilməz.

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad göstərilməsi məsələsi eyni məsələyə dair birinci müzakirədən yalnız 6 ay keçdikdən sonra təkrarən yenidən müzakirəyə çıxarıla bilər.

"Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti hər il Azərbaycan Respublikası Milli Məclisinin yaz sessiyasının beşinci iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabat verir.

Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsinin 25.3-cü maddəsinə uyğun olaraq Hesablama Palatası onun fəaliyyəti haqqında illik hesabatları Azərbaycan Respublikası Milli Məclisinə təqdim edir.

“Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 14.1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Azərbaycan Respublikası Milli Məclisi qarşısında illik məruzə ilə çıxış edir.

“Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan hər ilin sonunda öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının Milli Məclisinə illik məruzə təqdim edir. Bu məruzədə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi ilə bağlı təkliflər verə bilər.

“İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 7.5-ci maddəsinə uyğun olaraq, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair illik məlumatı Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir.

“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanı öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının Milli Məclisinə illik məlumat təqdim edir.

2. Parlamentin iclaslarında Nazirlər Kabinetinin, nazirliklərin, digər dövlət və yerli özünüidarəetmə orqanlarının öz fəaliyyəti haqqında məruzə və hesabatları.

3. Parlament yanında təşkil olunan orqanların fəaliyyəti.

Burada parlamentin qəbul etdiyi büdcənin və başqa maliyyə qanunlarının icrasını yoxlamaq məqsədilə yaradılan Hesablama Palatasının xüsusi rolunu göstərmək vacibdir.

Bu cür orqanın fəaliyyəti həmçinin, Azərbaycan Parlamenti üçün də xarakterikdir. Parlament yanında belə bir orqanın yaradılması Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsi ilə müəyyən olunmuşdur. Hesablama Palatası Milli Məclisə hesabat verən, daimi fəaliyyət göstərən dövlət büdcə-maliyyə nəzarəti orqanıdır.

Azərbaycan Respublikası Milli Məclisi yanında təşkil olunan orqanlardan biri də Toponomiya komissiyasıdır.

Toponomiya komissiyası Azərbaycan Respublikasının inzibati ərazi bölgüsündə ərazi vahidlərinə və yaşayış məntəqələrinə ad verilməsi, onların adlarının dəyişdirilməsi və dəqiqləşdirilməsi məsələlərinə baxmaq və rəy verməküçün yaradılmışdır.

Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununu və digər normativ hüquqi aktları rəhbər tutur;

Komissiya tarixi, dilçilik, coğrafiya, geodeziya, etnoqrafiya və digər əlaqəli sahələr üzrə alimlərdən və mütəxəssilərdən ibarət tərkibdə təşkil olunur; Onun tərkibi Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə təsdiq edilir; Komissiyanın tərkibi komissiyanın sədrindən, sədr müavinindən, üzvlərindən və katibindən ibarətdir;

Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponomiya Komissiyası aşağıdakı hüquqlara malikdir:

- Komissiyanın ilk iclasında komissiyanın sədrini, sədr müavinini və komissiyanın katibini seçmək;

- Komissiyanın tərkibində dəyişiklik edilməsi ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisinə təklif vermək;

- Zəruri sənədlərin və materialların Komissiyaya təqdim edilməsi ilə bağlı və yerli özünüidarə orqanlarına sorğu göndərmək;

- Milli Məclisin deputatlarını, müvafiq yerli icra hakimiyyəti orqanlarının nümayəndələrini, habelə alim və mütəxəssisləri öz iclaslarına dəvət etmək.

Komissiyanın vəzifələrinə aşağıdakılar aiddir:

- ərazi vahidlərinə ad verilməsi və ya onların adlarının dəyişdirlməsi barədə təkliflərə dair rəy hazırlamaq;

- ərazi vahidlərinin tarixi adlarının bərpa edilməsi və ya dəyişdirilməsi üçün rəy hazırlamaq;

- ərazi vahidlərinə ad verilməsi, onların adlarının dəyişdirilməsi və ya dəqiqləşdirilməsi barədə təklifə dair rəy verərkən təklif olunan adın müvafiq ərazi vahidinin tarixi və coğrafi xüsusiyyətlərinə, habelə Azərbaycan Respublikasının dövlət dilinin normalarına uyğun olmasını təmin etmək.

4. Parlament dinləmələri. Bu formadan prezidentli və yarımprezidentli respublikalarda geniş, parlamentli respublikalarda isə son dərəcə az istifadə olunur. Onlar parlamentin hər hansı bir daimi komitəsi tərəfindən təşkil olunur və ictimaiyyətin və dövlət orqanlarının diqqətini daha böyük əhəmiyyətli məsələlərə cəlb etmək məqsədini güdür. Dinləmələr dövlət hakimiyyəti orqanlarının nümayəndələri, məşhur ictimai xadimlər, alimlər, ekspertlər və digər şəxslər dəvət olunurlar. Dinləmələrdə hər hansı məcburedici qərarlar qəbul edilmir (41, s. 327).

Həmçinin, Azərbaycan Parlamentinin təcrübəsində bu formadan geniş istifadə olunur. Belə ki, qanun və qərar layihələrinin hazırlanması və ya onlara rəy verilməsi prosesində hüquqyaradıcılığının demokratizm, qanunçuluq, elmilik, peşəkarlıq, humanizm, beynəlmiləçilik prinsiplərinin təmin olunması ideyalarını rəhbər tutaraq

Azərbaycan Respublikası Milli Məclisinin daimi komitələri parlament dinləmələrindən geniş istifadə edir.

5. Ali vəzifəli şəxslərin seçilməsi, təyin olunması, vəzifədən azad olunması və impiçmenti məsələlərinin həllində parlamentin iştirakı.

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinə görə, Parlament Parlamentin təqdimatı əsasında Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilini, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Apellyasiya məhkəmələri hakimlərini təyin edir, Mərkəzi Bankın İdarə Heyətinin üzvlərini isə həm təyin həm də vəzifədən azad edir. Baş Nazirin vəzifəyə təyin edilməsinə razılıq verir, Azərbaycan Respublikasının Baş prokurorunun isə həm vəzifəyə təyin edilməsi, həm də vəzifədən azad edilməsinə razılıq verir.

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinə əsasən, Parlament Konstitusiya Məhkməsinin təqdimatına əsasən Prezidentin impiçment qaydasında vəzifədən kənarlaşdırılması barədə qərar qəbul edir.

6. Parlament istintaqı (araşdırmaları). Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində bu məsələ öz hüquqi tənzimini tapmasa da təcrübədə parlament nəzarətinin bu cür formasından istifadə olunur.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı, dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının fəaliyyətində sosial-iqtisadi və s. sahələrdə böyük ictimai-təhlükəli hadisələrin baş verməsinin səbəb və şəraitlərini aşkar etmək, onları aradan qaldırılmaq üçün müvafiq tədbirlər görmək, hadisələrlə bağlı cəmiyyəti məlumatlandırmaq məqsədilə araşdırmalar aparmaq üçün Parlament öz qərarı ilə müvəqqəti deputat-istintaq komissiyaları yaradır. Bu cür komissiyaların yaradılması Milli Məclisin Daxili Nizamnaməsi əsasında yaradılır.

Burada ümumi şəkildə qeyd olunur ki, Milli Məclisin deputatlarından ibarət onun müvəqqəti komissiyaları yaradıla bilər. Bu komissiyanın tərkibini, vəzifə və səlahiyyətlərini, fəaliyyət müddətini Milli Məclis müəyyən edir (Milli Məclisin Daxili Nizamnaməsi maddə 42).

Parlament istintaqının nəticələrinə dair müvəqqəti komissiya məruzə hazırlayır. Adətən məruzədə araşdırılan faktlar və hallar üzrə komissiyanın gəldiyi qənaətlər, hüquqpozuntularına, noqsanlara yol vermiş vəzifəli şəxslər barəsində müvafiq tədbirlərin görülməsi, zəruri normativ hüquqi aktların qəbulu, dövlət orqanlarının, yerli özünüidarə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi təklifləri göstərilir.

7. Parlament nəzarətinin ən geniş tətbiq olunan formalarından biri də sorğulardır. Bu kontekstdə sorğunun üç növünü fərqləndirmək olar: 1) Parlament sorğusu; 2) Parlamentin strukturuna daxil olan orqanların sorğusu; 3) Deputat sorğusu.

Parlament sorğusunun subyekti qanunvericilik hakimiyyəti orqanının özüdür. Azərbaycan təcrübəsində Parlament sorğusu ilə bağlı normalara Milli Məclisin Daxili Nizamnaməsində rast gəlinmir. Bununla bağlı Milli Məclisin Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununda Parlamentin Nazirlər Kabinetinə ünvanladığı sorğu barədə məlumat verilir.

Həmin qanunun 2 və 3-cü maddələrində qeyd olunur ki, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair sorğu ilə müraciət edə bilər.

Azərbaycan Respublikası Milli Məclisinin sorğusuna cavab Azərbaycan Respublikasının Nazirlər Kabinetini təmsil edən səlahiyyətli şəxs tərəfindən Azərbaycan

Respublikası Milli Məclisinin iclasında bir aydan gec olmayaraq təqdim edilir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının sorğularına cavab vermək üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydaları ilə müəyyən edilmiş hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri Azərbaycan Respublikası Milli Məclisinin iclaslarında iştirak edirlər.

Milli Məclisin Daxili Nizamnaməsində qeyd olunur ki, Milli Məclisin daimi komitələrinin qanun və qərar layihələrinin hazırlanması üçün zəruri olan sənədləri və materialları mərkəzi və yerli icra və məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, dövlət və qeyri-dövlət müəssisələri, idarələri və təşkilatlarından tələb etmək, onların nümayəndələrini (ekspertlərini) komitənin iclaslarına dəvət etmək hüququ vardır.

Komitənin qanun və qərar layihələrinin hazırlanması üçün tələb etdiyi sənədləri və materialları mərkəzi və yerli icra və məhkəmə hakimiyyəti orqanları, yerli özünüidarə orqanları, dövlət və qeyri-dövlət müəssisələri, idarələri və təşkilatları 10 gün müddətində komitəyə göndərməlidirlər. Əgər həmin sənədlərdə və materiallarda dövlət, kommersiya sirri, yaxud qanunla qorunan başqa məxfi məlumatlar varsa, onlar göndərilmir və bu barədə Milli Məclisin Sədrinə əsaslandırılmış yazılı cavab verilir.

Milli Məclisin Sədri bu cavabla razı olmayaraq həmin sənədləri və materialları tələb edərsə, onların Milli Məclisin sədrinə təqdim edilməsi məcburidir.

Ali nümayəndəli qanunvericilik orqanının təcrübəsində daha geniş istifadə olunan sorğunun növü deputat sorğusudur. Ölkəmizdə bu münasibətlərin hüquqi

tənzimi Azərbaycan Respublikası Milli Məclisi deputatlarının statusu haqqında qanunla tənzimlənir.

Həmin qanunda qeyd olunur ki, deputat öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, məhkəmə hakimiyyəti orqanlarına, Azərbaycan Respublikasının Baş prokuroruna və ona tabe olan prokurorlara, yerli özünüidarə orqanlarına və onların vəzifəli şəxslərinə, Azərbaycan Respublikası Mərkəzi Bankının idarə heyətinə, Azərbaycan Respublikasının Auditorlar Palatasına sorğu verə bilər.

Deputat sorğusu deputat tərəfindən fərdi qaydada və ya Azərbaycan Respublikası Milli Məclisinin iclaslarında yazılı şəkildə verilir. Sonuncu halda deputat sorğusu Azərbaycan Respublikası Milli Məclisinin iclasına sədrlik edən və ya sorğunu verən deputat tərəfindən oxunur.

Müvafiq orqanlar və ya vəzifəli şəxslər deputat sorğusuna bir ay müddətində rəsmi surətdə yazılı cavab verməlidirlər.

Parlamentin nəzarət funksiyaları barədə fikirlərə yekun vuraraq belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasının qanunvericiliyində bu məsələnin hüquqi tənzimi fraqmentar xarakter daşıyır. Hesab edirik ki, müvafiq qanunvericilikdə parlament nəzarətinin definisiyası, prinsipləri, məqsəd və funksiyalarını müəyyən edən normalar qəbul olunmalıdır. Burada həmçinin, parlament nəzarətinin formaları (xüsusilə parlamentin müvəqqəti deputat istintaq komissiyasının fəaliyyəti), obyekt və subyektləri, məzmununu, tərəflərin hüquq və vəzifələri öz hüquqi tənzimini tapmalıdır. Bu gün dünya praktikasında parlamentin geniş iclasında hökumətə, nazirlərə, digər dövlət hakimiyyəti orqanlarına, vəzifəli şəxslərə suallar əvvəlcədən müəyyən olunmuş məsələlər və hökumətin ümumi siyasəti üzrə müzakirələr kimi nəzarət

formasından da istifadə olunur. Zənnimizcə, bu təcrübədən istifadə Azərbaycan üçün də məqsədəuyğun olardı.

2. Azərbaycan Respublikası Parlamentinin strukturu və iş qaydası

Müasir parlametlər öz strukturuna görə bir palatalı və iki palatalı ola bilər. Tarixən iki palatalı palamentlər burjua münasibətləri dövründə qərbi Avropa ölkələrində yaranmışdır. Həmin dövrdə iki palatalı parlamentin yaranması qanunyaradıcılığı prosesində cəmiyyətdə mövcud olan bütün siniflərin maarqlarını təmin etmək məqsədi daşıyırdı.

Tarixdə ilk dəfə bikameralizmin nəzəri əsaslarını işləyib hazırlayan alimlər Ş.Monteskye, A.Hamilton, C.Medison və digərləri bikameralizmi hakimiyyətlər bölgüsü sistemi ilə yanaşı hakimiyyət subyektlərini sui-istifadədən çəkindirən mexanizmin əlavə bir elementi kimi təqdim edirdilər. Yuxarıda adları çəkilən alimlərin mülahizələrinə görə bikameralizm bütöv cəmiyyətin və onun ayrı-ayrı təbəqələrinin maraqlarını uzlaşdırmaq imkanı yaradır.

Müasir sinifsiz cəmiyyətdə bikameralizm federalizm prinsipi ilə əlaqələndirilir. Adətən burada yuxarı palata əhalisinin sayından asılı olmayaraq federasiya subyektlərini bərabər şəkildə təmsil edir.

XX əsrin sonunda müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ərəfəsində cəmiyyətimizdə ayrı-ayrı siyasi qüvvələr tərəfindən ölkəmizdə 300, 350 və s. sayda üzvlərdən ibarət iki palatalı parlamentin təşkili haqqında fikirlər səslənirdi. Lakin, konstitusiya layihəsini hazırlayan komissiyanın sədri Heydər Əliyev bu cür fikirləri Azərbaycan dövlətçiliyi üçün münasib hesab etməmişdir.

Hesab edirik ki, görkəmli dövlət xadimi Heydər Əliyevin bu məsələyə olan münasibəti həm elmi, həm də praktiki cəhətdən əsaslıdır.

Birincisi, yuxarıda qeyd olunduğu kimi müasir bikameralizm federativ dövlətlər üçün xarakterikdir. İkincisi, 10 milyon əhalisi olan Azərbaycan Respublikası üçün 300, 350 və s. nəfərlik deputat korpusu çox idi. Dünya ölkələri parlamentlərinin say tərkibi də bu fikirləri praktiki cəhətdən təsdiqləyir. Məsələn, təxminən 110 milyon əhalisi olan Pakistan və Banqladeş 324 və 300 nəfərlik deputat korpusu, 50 milyondan çox əhalisi olan Türkiyə, İran və Misirin isə müvafiq olaraq 450, 282 və 458 nəfərlik deputat korpusu vardır (İ.Cəfərov, səh 348).

Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsinə əsasən Milli Məclis öz iş qaydasını müəyyən edir və müvafiq orqanlarını yaradır, o cümlədən öz sədrini və onun müavinlərini seçir, komitələr və komissiyalar təşkil edir, Hesablama Palatası yaradır.

Ümumilikdə Azərbaycan Parlamentinin iki növ orqanlarını fərqləndirmək olar:

1. Milli Məclisin daxili orqanları; 2. Milli Məclisin yanında təşkil olunan orqanlar.

İlk öncə parlamentin daxili orqanlarını nəzərdən keçirək.

Yuxarıda qeyd olundu ki, Azərbaycan Respublikasının Milli Məclisi öz strukturuna görə bir palatalıdır və 125 deputatadan ibarətdir. Milli Məclisin deputatları majoritar seçki sisteminin nisbi səs çoxluğu əsasında seçilirlər. Azərbaycan Respublikasının seçkilərdə iştirak etmək hüququna malik olan hər bir vətəndaşı qanunla müəyyən edlmiş qaydada Milli Məclisin deputatı seçilə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsinin II hissəsində Milli Məclisin deputatı kimi seçilməsinə yol verilməyən subyektlərin dairəsi müəyyən

edilmişdir. Burada deyilir ki, ikili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər.

2016-cı il sentyabrın 26-da keçirilən referendumla Milli Məclisin deputatalığına yaş senzinin 25-dən 18 yaşa salınması halını mütərəqqi hadisə kimi qiymətləndiririk. Belə ki, gənclərin marqlarının, istək və arzularının parlamentdə gənc deputat tərəfindən təmsil olunması daha münasibdir. Eyni zamanda atılan bu addım gənclərin cəmiyyətin siyasi həyatında, dövlətin idarə olunmasında fəal iştirakına imkan yaradacaq onların demokratik siyasi və elektorat mədəniyyətinin formalaşmasında mühüm rol oynayacaqdır. Bununla yanaşı hesab edirik ki, müasir informasiya cəmiyyətində parlamentin peşəkar və daimi fəaliyyət göstərən səmərəli qanunverici orqan kimi formalaşmasında parlament üzvü vəzifəsinə dair ali təhsil senzinin tətbiq olunması da məqsədəuyğun olardı.

Azərbaycan Parlamentinin rəhbər orqanlarına onun sədri, sədrin birinci müavini və müavinləri aiddir.

Bəzi xarici ölkələrdə belə bir yanaşma var ki, parlamentin sədri siyasi cəhətdən neytral, birtərəf olmalıdır. Əgər o, hansısa partiyanın üzvüdürsə, sədrlik dövründə həmin partiyada üzvlüyünü dayandırmalı və yaxud partiyadan çıxmalıdır (məsələn, Böyük Britaniya). Digər ölkələrdə isə o, partiya mənsubiyyətini saxlayır (məsələn, ABŞ). Bu məsələdə Azərbaycan ikinci qrup ölkələrə yaxındır.

Milli Məclisin sədri Milli Məclisin deputatları sırasından gizli səsvermə yolu ilə seçilir. Milli Məclisin sədri vəzifəsinə namizədliyi Milli Məclisin deputatları irəli sürə bilərlər. Hər deputat yalnız bir namizəd göstərə bilər. Öz namizədliyinə etiraz müzakirəsiz və səsvermə keçirilmədən qəbul edilir.

Səsverməyə azı 10 deputatın tərəfdar çıxdığı namizədlər buraxılır. Namizədlər çıxış edə və deputatların suallarına cavab verə bilərlər. Namizədlər üzrə müzakirələr keçirilir. Milli Məclisin sədrliyinə hər namizəd Hesablayıcı komissiyanın tərkibinə əlavə bir deputat daxil edə bilər. Gizli səsvermə nəticəsində azı 63 deputatın səsini almış namizəd Milli Məclisin sədri seçilir.

Milli Məclisin sədrinin müavinləri Milli Məclisin deputatları sırasından açıq səsvermə yolu ilə seçilir. Milli Məclisin sədrinin müavini vəzifəsinə namizədliyi ilk növbədə Milli Məclisin sədri, sonra isə Milli Məclisin deputatları irəli sürə bilərlər. Milli Məclisin sədri və hər deputat Milli Məclisin sədrinin birinci müavini və müavini vəzifələrinin hər birinə yalnız bir namizəd göstərə bilərlər. Öz namizədliyinə etiraz müzakirəsiz və səsvermə keçirilmədən qəbul edilir.

Səsverməyə azı 7 deputatın tərəfdar çıxdığı namizədlər buraxılır. Namizədlər çıxış edə və deputatların suallarına cavab verə bilərlər. Namizədlər üzrə müzakirələr keçirilir. Açıq səsvermə nəticəsində azı 63 deputatın səsini almış namizəd Milli Məclisin sədrinin müavini seçilir.

Milli Məclisin sədri aşağıdakı səlahiyyətlərə malikdir:

- Milli Məclisin iclaslarını aparır;
- Azərbaycan Respublikası Prezidentinin və ya Milli Məclisin 42 deputatının tələbi əsasında Milli Məclisin növbədənkənar sessiyasını çağırır;
- Milli Məclisin sədrinin müavinləri arasında iş bölgüsü aparır;

- Milli Məclisin sədrinin müavinləri və Milli Məclisin komitələrinin sədrləri ilə birgə Milli Məclisin hər növbəti sessiyasının qanunvericilik işləri planını hazırlayır və Milli Məclisə təqdim edir;

- qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olmuş qanun və qərar layihələrini Milli Məclisin müvafiq komitələrinə göndərir;

- qəbul edilmiş qanunları imzalanmaq üçün Azərbaycan Respublikası Prezidentinə göndərir;

- Milli Məclisin daxili intizamını Milli Məclisin Daxili Nizamnaməsində nəzərdə tutulmuş səlahiyyətlər çərçivəsində təmin edir;

- Milli Məclisi icra və məhkəmə hakimiyyəti orqanları ilə, siyasi partiyalarla, ictimai birliklərlə, həmkarlar ittifaqları ilə, xarici dövlətlərlə və beynalxaq təşkilatlarla, kütləvi informasiya vasitələri ilə, habelə başqa fiziki və hüquqi şəxslərlə münasibətlərdə təmsil edir;

- Milli Məclisin aparatının rəhbər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, mühüm qanun layihələrinin hazırlanması üçün işçi qrupları yaradır və s.

Milli Məclisin sədrinin müavinləri onların arasında aparılmış iş bölgüsünə uyğun olaraq fəaliyyət göstərir, Milli Məclisin sədrinin ayrı-ayrı tapşırıqlarını yerinə yetirir, Milli Məclisin sədrinin göstərişi ilə Milli Məclisin iclaslarına sədrlik edirlər.

Parlamentin daxili orqanlarına aid olan və onun fəaliyyətində mühüm rol oynayan struktur orqanları Milli Məclisin daimi komitələri və komissiyalarıdır.

Milli Məclisin növbəti çağırışının birinci sessiyasının əvvəlində "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Milli Məclisin komitələri yaradılır.

Milli Məclisin komitələri Milli Məclisin çağırışının səlahiyyət müddəti ərzində səlahiyyətlidir. Milli Məclisin komitəsinin say tərkibi Milli Məclis tərəfindən müəyyən edilir, lakin azı 5, çoxu 20 deputatdan ibarət olmalıdır. 15 deputatdan çox üzvü olan komitə köməkçi komitə yarada bilər.

Milli Məclisin rəhbərliyi Milli Məclisin komitəsinin üzvü ola bilər. Milli Məclisin başqa hər bir deputatı komitələrdən birinin üzvü olmalıdır. Bir deputat ən çoxu iki komitənin üzvü ola bilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Milli Məclisin deputatı Milli Məclisin komitəsinin üzvü olmaya bilər.

Milli Məclisin komitəsinin sədri, onun müavini və üzvləri Milli Məclisin iclasında azı 63 deputatın səs çoxluğu ilə seçilirlər. Komitənin tərkibinin seçilməsi Milli Məclisin qərarı ilə rəsmiləşdirilir. Milli Məclisin deputatı heç bir komitənin üzvlüyünə daxil olmursa, Milli Məclisin sədri sərəncamla həmin deputatı komitələrin birinə daxil edir.

Azərbaycan Parlamentinin daimi komitələri aşağıdakı funksiyaları həyata keçirir:

1) Azərbaycan Respublikası Milli Məclisi deputatlarının qanunvericilik təşəbbüsü qaydasında təqdim etdikləri qanun və qərar layihələrinin ilkin müzakirəsini təşkil edir və Azərbaycan Respublikasının Milli Məclisində baxılmasına dair rəy verir, habelə Azərbaycan Respublikası Milli Məclisi deputatının təşəbbüsü ilə qanun və qərar layihələrini hazırlayır;

Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdikləri qanun və qərar layihələrinin ilkin müzakirəsini təşkil edir və Azərbaycan Respublikasının Milli Məclisində baxılmasına dair rəy verir;

2) Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə ümumxalq müzakirəsinə çıxarılmış qanun layihəsinə dair daxil olmuş təklifləri ümumiləşdirir və Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir;

3) birinci və ikinci oxunuşda qəbul edilmiş qanun layihəsi üzərində iş aparır və onu ikinci və üçüncü oxunuşa hazırlayır;

4) Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinə daxil olan məsələlərə baxır və bu barədə rəy verir;

5) Azərbaycan Respublikası Milli Məclisinin qanunvericilik işləri planına dair öz təkliflərini verir;

6) ildə iki dəfə-Azərbaycan Respublikası Milli Məclisinin yaz və payız sessiyalarının əvvəlində öz işi barədə hesabat verir.

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı komitələri yaradılmışdır:

- Hüquq siyasəti və dövlət quruculuğu komitəsi;
- Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi;
- İnsan hüquqları komitəsi;
- Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi;
- İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi;
- Aqrar siyasət komitəsi;
- Əmək və sosial siyasət komitəsi;
- Səhiyyə komitəsi;
- Ailə, qadın və uşaq məsələləri komitəsi;
- Gənclər və idman komitəsi;
- İctimai birliklər və dini qurumlar komitəsi;
- Regional məsələlər komitəsi;
- Elm və təhsil komitəsi;
- Mədəniyyət komitəsi;

- Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi.

Azərbaycan Respublikasının Milli Məclisi zəruri hallarda yeni komitələr yarada bilər, yaxud fəaliyyət göstərən komitələri yenidən təşkil edə və ya ləğv edə bilər.

Daimi komitələrdən başqa hər il Milli Məclisin yaz sessiyasının birinci iclasında parlamentin deputatları sırasından 1 il müddətinə 7 üzvdən ibarət tərkibdə Hesablayıcı komissiya və İntizam komissiyası yaradılır.

Milli Məclisin Hesablayıcı komissiyası açıq və gizli səsvermələri keçirmək və onların nəticələrini müəyyən etmək, İntizam komissiyası parlamentdaxili məsuliyyətə cəlb olunan deputatların məsələlərinə baxıb həll etmək, habelə deputat toxunulmazlığına xitam verilməsi və deputat səlahiyyətlərinin itirilməsi ilə əlaqədar məsələlərə dair rəy vermək məqsədilə fəaliyyət göstərirlər.

Zərurət olduqda Milli Məclisin deputatlarından ibarət müvəqqəti komissiyalar da yaradıla bilər. Bu komissiyaların tərkibi, vəzifə və səlahiyyətləri, fəaliyyət müddəti Milli Məclisin qərarı ilə müəyyən edilir.

Parlamentin daxili orqanlarına deputat fraksiyaları da aiddir. Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 43-cü maddəsində qeyd olunur ki, Milli Məclisin azı 25 deputatı könüllü birləşərək deputat fraksiyaları yarada bilərlər. Bu barədə bəyanat Milli Məclisin iclasında oxunur və deputat fraksiyası Milli Məclisin Aparatında qeydiyyatdan keçirilir.

Demokratik dövlətlərin parlament təcrübəsində deputat fraksiyaları adətən bir partiyaya, partiyalar blokuna və ya öz proqramlarına görə yaxın olan bir neçə partiyaya mənsub deputatları birləşdirir. Nadir hallarda fraksiyalar taktiki məqsədlərdən çıxış edilərək yaradılır. Fraksiyaların tərkibinə heç bir partiyaya mənsub olmayan müstəqil deputatlar da qoşula bilər.

Parlamentin ikinci qrup orqanlarına Milli Məclisin yanında təşkil edilən orqanlar aiddir. Onlar parlamentin daxili orqanları sayılmır və deputatlar sırasından formalaşmır, lakin qanunverici orqanın vəzifə və səlahiyyətlərinin həyata keçirilməsində parlamentə böyük köməklik göstərir və onun müvafiq tapşırıqlarını yerinə yetirir.

Buna aiddir Milli Məclisin Hesablama Palatası.

Hesablama Palatası Milli Məclisə hesabat verən, daimi fəaliyyət göstərən dövlət büdcə-maliyyə nəzarəti orqanıdır. Hesablama Palatası təşkilati və funksional müstəqilliyə malikdir.

Hesablama Palatası aşağıdakı funksiyaları həyata keçirir:

dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə rəy verir;

dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin gəlir və xərc maddələrinin həcmi, strukturu və təyinatı üzrə vaxtında icrasına nəzarəti həyata keçirir;

dövlət büdcəsinin icrası barədə illik hesabata və müvafiq qanun layihələrinə rəy verir;

dövlət büdcəsindən maliyyələşdirmələrin təsdiq olunmuş dövlət büdcəsində müəyyən edildiyi kimi aparılmasını təhlil edir, aşkar edilmiş kənarlaşmaların aradan qaldırılması, habelə bütövlükdə büdcə prosesinin təkmilləşdirilməsi haqqında təkliflər hazırlayır və Milli Məclisə təqdim edir;

dövlət əmlakının idarə edilməsi, onun barəsində sərəncam verilməsi və dövlət əmlakının özəlləşdirilməsindən əldə edilən vəsaitlərin dövlət büdcəsinə daxil olmasına nəzarəti həyata keçirir;

Azərbaycan Respublikası Milli Məclisinin və onun komitələrinin tapşırığı ilə dövlət büdcəsi və büdcədənkənar dövlət fondları (təsisatları) ilə bağlı qanun layihələrinin, Milli Məclisdə təsdiq edilən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrinin maliyyə ekspertizasını keçirir;

dövlət büdcəsi vəsaitlərinin xəzinə hesabına daxil olmasının və istifadəsinin təsdiq olunmuş dövlət büdcəsində müəyyən edilmiş göstəricilərə uyğunluğunu təhlil edir və Milli Məclisə məlumat verir;

dövlət büdcəsinin vəsaitlərinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) vəsaitlərinin bank hesablarında hərəkəti barədə Azərbaycan Respublikasını Mərkəzi Bankından və müvəkkil banklardan, kredit təşkilatlarından məlumatlar alır, təhlil edir və Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verir;

aparılmış nəzarət tədbirləri nəticəsində aşkar edilmiş hüquqpozuntuları barədə məlumatları Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir ;

dövlət əmlakının idarə edilməsinə, onun barəsində sərəncam verilməsinə, dövlət büdcəsinin icra olunmasına, dövlət əmlakının özəlləşdirilməsindən əldə edilən vəsaitlərin dövlət büdcəsinə daxil olmasına, hüquqi şəxslərə və bələdiyyələrə dövlət büdcəsindən vəsaitlər ayrıldıqda həmin vəsaitlərin təyinatı üzrə istifadə edilməsinə nəzarətin həyata keçirilməsi zamanı *inzibati xəta və ya cinayət əlamətləri olan hüquqpozmalar aşkar etdikdə təxirəsalınmadan materialları müvafiq olaraq müvafiq icra hakimiyyəti orqanına və ya* Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərir;

digər dövlət nəzarət orqanları ilə qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərir;

dövlət büdcəsinin və icmal büdcəsinin gəlirlərinin və xərclərinin, o cümlədən büdcədənkənar dövlət fondlarının auditini qanunvericiliyə uyğun olaraq aparır.

Hesablama Palatası sədrdən, sədr müavinindən və 7 auditordan ibarətdir.

Hesablama Palatası sədrinin, sədr müavininin və auditorlarının səlahiyyət müddəti 7 ildir.

Hesablama Palatasının sədri, sədr müavini və auditorları başqa dövlətlər qarşısında öhdəlikləri olan, ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxslər ola bilməzlər.

Hesablama Palatasının sədri, sədr müavini və auditorları dövlət idarəçiliyi, dövlət nəzarəti, iqtisadiyyat və maliyyə sahələrində 5 ildən az olmayaraq iş təcrübəsinə malik olan ali təhsilli Azərbaycan Respublikası vətəndaşları ola bilərlər.

Hesablama Palatasının sədri, sədr müavini və auditorları elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla digər haqqı ödənilən fəaliyyətlə məşğul ola bilməzlər.

Hesablama Palatasının sədri Hesablama Palatasının fəaliyyətinə rəhbərlik edən və onun işini təşkil edən vəzifəli şəxsdir.

Parlament yanında yaradılan mühüm orqanlardan biri də Milli Məclisin daimi aparatıdır.

Parlament aparatına üç növ orqanlar və şəxslər daxildir:

1) Parlamentin və onun komitə və komissiyalarının köməkçi orqanları. Bura aiddir: Aparatın rəhbəri, onun xidməti, şöbələr, işlər idarəsi. Aparatın rəhbərinin xidmətinə onun müavini, ərazi vahidlərinin və bələdiyyələrin dövlət reyestri sektoru, kodifikasiya sektoru, məxfi sənədlərlə iş sektoru, gender məsələləri sektoru daxildir. Milli Məclisin sektorunda aşağıdakı şöbələr də fəaliyyət göstərir: dövlət

quruculuğu üzrə qanunvericilik şöbəsi, sosial iqtisadi, inzibati, hərbi qanunvericilik şöbələri, Milli Məclisin komitə və komissiyaları ilə iş şöbəsi, informasiya resursları və texnologiyaları, vətəndaşların qəbulu və münasibətləri ilə iş şöbələri və s. Aparatın işlər idarəsinə isə maliyyə təsərrüfat işləri, rabitə və enerji sistemlərinə xidmət şöbələri və s.;

2) Parlament məsləhətçiləri: Çox vaxt bu şəxslər ştatda olmur və məsləhətçilər qismində ayrı-ayrı ekspert rəylərinin hazırlanması üzrə parlamentin, onun orqanlarının sifarişlərini yerinə yetirirlər;

3) Parlamnet üzvlərinin şəxsi köməkçiləri (onların referentləri, katibləri).

Dünya təcrübəsində belə bir yanaşma mövcuddur ki, parlamentin yardımçı aparatı yüksək dərəcədə peşəkar və maksimal dərəcədə qeyri-siyasi olmalıdır.

Azərbaycan Respublikası Milli Məclisi aparatının kadr tərkibi yuxarıda səslənən fikirləri təsdiqləyir. Həmçinin qeyd olunmalıdır ki, aparatın əməkdaşları dövlət qulluqçuları sayılır.

Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə görə, dövlət qulluqçuları heç bir siyasi partiyanın üzvü ola bilməzlər.

Azərbaycan Respublikası Milli Məclisinin sessiyaları və iclasları.

Azərbaycan Respublikası Milli Məclisinin əsas iş forması onun sessiyalarıdır. Konstitusiya qanunvericiliyi Milli Məclisin iki növ sessiyalarını fərqləndirir:

1. Növbəti sessiyalar;

2. Növbədən kənar sessiyalar.

Azərbaycan Respublikasının Milli Məclisi hər il iki növbəti yaz və payız sessiyalarına yığılır. Yaz və payız sessiyalarının başlama və bitməsi tarixi əvvəllər konstitusiya ilə müəyyənləşdirilirdi. Lakin, Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı 2002-ci il avqustun 24-də keçirilən

referandumda növbəti sessiyaların başlama və davam etmə tarixi çıxarılmışdır və parlamentin öz ixtiyarına verilmişdir. Hazırda bu məsələ Milli Məclisin özu tərəfindən qəbul olunan, onun daxili nizamnaməsi ilə tənzimlənir. Burada qeyd olunur ki, yaz sessiyası fevralın 1-də başlanır və mayın 31-dək davam edir. Payız sessiyası sentyabrın 30-da başlanır və dekabrın 30-dək davam edir.

Zənnimizcə növbəti sessiyaların davam etmə müddətinin müəyyənləşdirilməsi imkanının parlamentə verilməsi daha düzgündür. Birincisi, bu texniki məsələdir və onun Konstitusiya səviyyəsində tənziminə zərurət yoxdur. İkincisi, qeyd edilən məsələnin bu sualın parlamentin daxili nizamnaməsi ilə tənzimi gələcəkdə sessiyaların başlama və bitmə tarixini dəyişdirmək zərurəti yarandığı təqdirdə Milli Məclisə bu işin həllində sərbəstlik verir.

Milli Məclisin növbədənkənar sessiyalarını parlamentin spikeri dövlət başçısının və Milli Məclisin 42 deputatının tələbi əsasında çağırır. Növbədənkənar sessiyalarda sessiyanın çağırılmasına səbəb olmuş məsələlər müzakirə oluna bilər. Azərbaycan Respublikası Konstitusiyasının 88-ci maddəsinin III hisssəsində qeyd olunur ki, növbədənkənar sessiyanın gündəliyini müvafiq olaraq onun çağırılmasını tələb edənlər müəyyənləşdirir. Gündəlikdəki məsələlərə baxıldıqdan sonra növbədənkənar sessiyanın işi bitir.

Parlamnetin işləməsi və öz səlahiyyəti daxilində hüquqi aktlar qəbul etməsi üçün müəyyən kvorum olmalıdır. Bu kontekstə biz iclaslar üçün kvorum və səsvermə üçün kvorum anlayışlarını fərqləndirməliyik.

Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 87-ci maddəsində qeyd olunur ki, Milli Məclisin 83 deputatının səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir. Həmçinin Milli Məclisin daxili nizamnaməsində göstərilir

ki, Milli Məclisin iclası 83 deputat iştirak etdikdə səlahiyyətlidir (mad 3).

Konstitusiya qanunvericiliyinə görə Milli Məclisə seçkilərdən sonra martın 10-dək onun 83 deputatının səlahiyyətləri təsdiq edilməzsə, Konstitusiya Məhkəməsi Milli Məclisin ilk iclasının keçirilmə vaxtını müəyyən edir. Əgər nəzərə alsaq ki, Milli Məclisin qərarları əsasən 63 səs çoxluğu ilə qəbul olunur, bu cür normanın olmasını münasib saymaq olar.

Azərbaycan Respublikası Konstitusiyasının 88-ci maddəsinin II hissəsinə görə, Milli Məclisin növbədənkənar sessiyalarını parlamentin sədri Azərbaycan Respublikası Prezidentinin və Milli Məclisin 42 deputatının tələbi əsasında çağırır.

Növbədənkənar sessiyanın gündəliyini onun çağırılmasını tələb edənlər müəyyənləşdirir. Bu gündəlikdəki məsələlərə baxıldıqdan sonra növbədənkənar sessiyanın işi bitir.

Azərbaycan Respublikasının Milli Məclisi növbəti və növbədənkənar sessiyaları dövründə öz iclaslarını keçirir.

Milli Məclisin iclası onun 83 üzvü iştirak etdikdə səlahiyyətlidir. Parlamentin iclasları bir qayda olaraq açıq, aşkarlıq şəraitində keçirilir və kütləvi informasiya vasitələri ilə işıqlandırılır. Lakin, Azərbaycan Respublikası Konstitusiyasının 88-ci maddəsinin IV hissəsinə müvafiq olaraq Milli Məclisin 83 deputatının tələbi ilə və Dövlət başçısının təklifi ilə parlamentin iclası qapalı da keçirilə bilər.

Milli Məclisin iclaslarında məsələlər açıq və gizli səsvermə yolu ilə həll edilir. Milli Məclisin iclaslarında bir qayda olaraq, elektron sistemindən istifadə etməklə açıq səsvermə keçirilir. Başqa səsvermə növlərinin keçirilməsi üçün protokol qaydasında qərar qəbul edilə bilər. Hər

məsələ üzrə səsvermə keçirilərkən Milli Məclisin deputatının bir səsi vardır və o şəxsən səs verməlidir.

Gizli səsvermə elektron sistemindən istifadə etməklə və ya bülletenlər vasitəsilə keçirilir. Bülletenlər vasitəsilə gizli səsverməni Milli Məclisin Hesablayıcı komissiyası keçirir. Milli Məclisin aktları adətən 63 deputatın səs çoxluğu ilə qəbul edilri. Lakin Azərbaycan Respublikasının Konstitusiyasında (məslən, mad. 94, I his. 2,3,4 bənd; mad. 107, II his.) və Milli Məclisin Daxili Nizamnaməsində (məsələn mad. 21) parlament aktlarının qəbuluna dair başqa qaydalar nəzərdə tutulmuşdur.

Milli Məclisin sessiyaları arasındakı dövrdə parlamentin komitə və komissiyalarının işi davam edir və deputatlar komitə və komissiyaların işində iştirak edirlər.

Milli Məclisin sessiyaları arasındakı dövrdə parlamentin komitə və komissiyalarının işi davam edir və deputatlar komitə və komissiyaların işində iştirak edirlər.

3. Azərbaycan Respublikası Milli Məclisi deputatının konstitusiya hüquq statusu

Azərbaycan Respublikasının konstitusiya qanunvericiliyi deputat anlayışını Milli Məclisin üzvünə aid edir. Azərbaycan Respublikasının Konstitusiyasında, Seçki Məcəlləsində və digər müvafiq normativ hüquqi aktlarda bələdiyyələrə seçilmiş şəxslər deputat deyil, bələdiyyə üzvləri kimi adlandırılır.

Konstitusiya qanunvericiliyinin interpretasiyası əsasında deputat anlayışını aşağıdakı kimi vermək olar:

Deputat-Azərbaycan Respublikasının Milli Məclisinə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə 5 il müddətinə seçilən, xalqı təmsil etmək hüququ olan və bu məqsədlə qanunvericilklə xüsusi statusa malik olan vəzifəli şəxsdir.

Konstitusiya hüququ elmində “deputatın statusu”, “deputatın hüquqi statusu”, “deputatın konstitusiya statusu” terminləri fərqləndirilir. Hesab olunur ki, “deputatın statusu” termini daha geniş anlayışdır. Belə ki, bu status həm hüquq, həm də digər sosial normalarla (əxlaq, adət, korporativ və s.) tənzimlənir. Deputatın hüquqi statusu isə yalnız hüquq normalarını ehtiva edir. Deputatın konstitusiya statusu isə yuxarıda göstərilən terminlərə nisbətən dar mənada istifadə olunur və bu status yalnız konstitusiya normalarını nəzərdə tutur.

Zənnimizcə bu problemin həllində “deputatın konstitusiya hüquq statusu” anlayışından istifadə olunması daha düzgün olardı. Birincisi ona görə ki, deputatın statusu inteqrativ anlayış kimi ilk növbədə Konstitusiya hüququ sahəsinin predmetinə aiddir. İkincisi bu termin deputatın statusunu tənzimləyən həm konstitusiya, həm də hüququn digər mənbələrini ehtiva edir.

Konstitusiya hüququ elmində deputatın hüquqi statusunun strukturuna dair fərqli fikirlərə rast gəlmək olar. Məsələn hüquq üzrə elmlər doktoru dissertasiyasının avtoreferatında A.A.Bezuqlov deputatın hüquqi statusunun aşağıdakı elementlərini göstərir:

1. Deputat mandatının siyasi-hüquqi təbiəti;
2. Deputat mandatının yaranma əsasları və fəaliyyət müddəti;
3. Deputatın səlahiyyətləri;
4. Deputat səlahiyyətlərinin təminatları;
5. Deputatın hesabatı, məsuliyyəti və mükafatlandırılması (126 s. 7).

Hesab edirik ki, burada 4-cü və 5-ci bəndləri birləşdirmək və deputatın vəzifələri elementini də əlavə etmək məqsədəuyğun olardı.

A.B.Zinovyev deputatın statusuna deputat mandatının imperativliyi, deputatın funksiyaları, hüquq və vəzifələri,

fəaliyyət formaları, deputatlıq fəaliyyətinin təminatları elementlərini aid edir (127, s. 315).

Zənnimizcə A.B.Zinovyev bir məqamı nəzərdən qaçırır ki, deputatın statusu yalnız imperativ deyil, azad mandat prinsipinə də əsaslana bilər. Bu gün demək olar ki, əksər demokratik ölkələrdə parlament üzvlərinin fəaliyyəti azad mandat prinsipi üzrə təşkil olunur.

Ziyafət Əsgərov Konstitusiya hüququ dərsliyində deputatın hüquqi statusunu şərti olaraq üç hissəyə bölür:

1. Deputatın hüquq və vəzifələri;
2. Deputatın seçicilərlə əlaqəsi;
3. Deputatlıq fəaliyyətinin təminatları (38, s. 382).

Hesab edirik ki, deputatın seçicilərlə əlaqəsi, onun vəzifələrinin tərkib hissəsi kimi qəbul oluna bilər.

Parlament hüququ adlı tədris-metodiki vəsaitin həmmüəllifi Y.V.Aqibalov deputatın statusu anlayışını bir qədər daraldır. Belə ki, bura yalnız deputatın səlahiyyətlərini və fəaliyyətinin təminatlarını aid edir (153, s. 136). Professor M.V.Baqlay isə deputatın statusunu, onun hüquq və vəzifələri, məsuliyyəti kimi xarakterizə edir (92, s. 570).

Namizədlik dissertasiyasının avtoreferatında O.M.Matveyev deputatın konstitusiya hüquq statusunun strukturuna: deputat mandatının yaranması və fəaliyyət müddəti, onun siyasi-hüquqi təbiəti, funksiyaları, səlahiyyətləri, deputatlıq fəaliyyətinin təminatlarını aid edir (128, s. 7).

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi deputatlıq statusunun aşağıdakı struktur elementlərini fərqləndirir: 1. Deputatın səlahiyyətləri və vəzifələri; 2. Deputatlıq fəaliyyətinin formaları; 3. Deputatlıq fəaliyyətinin təminatları.

Hesab edirik ki, deputatın konstitusiya hüquq statusu aşağıdakı kimi xarakterizə oluna bilər:

1. Deputatın statusunu tənzimləyən konstitusiya hüquq normaları və institutları;
2. Deputat mandatının siyasi-hüquqi təbiəti;
3. Deputat mandatının yaranması və müddəti;
4. Depuatatlıq fəaliyyətinin formaları;
5. Deputatın hüquqları və vəzifələri;
6. Deputatlıq fəaliyyətinin təminatları.

Azərbaycan Respublikasının Konstitusiyası, Milli Məclisin Daxili Nizamnaməsi, Milli Məclisin daimi komitələri haqqında qanunu, deputatın etik davranış məcəlləsi deputat statusunun ayrı-ayrı tərəflərini tənzimləyir. Respublikamızda parlament üzvünun statusunu tənzimləyən xüsusi qanunvericilik aktı qəbul olunmuşdur. Bu cür təcrübəni müsbət qiymətləndiririk, eyni zamanda bu qanunun ayrı-ayrı müddəalarının təkmilləşdirilməsini də zəruri hesab edirik. Bununla bağlı təkliflərimizi aşağıda qeyd etməyə çalışacağıq.

Parlament üzvlərinin statusunu müəyyən edən ən mühüm elementlərdən biri də deputat mandatının siyasi-hüquqi təbiətidir. Bununla bağlı konstitusiya hüququ elmində və parlament təcrübəsində imperativ və azad mandat modelləri formalaşmışdır.

İmperativ deputat mandatı ilk dəfə Fransa inqilabı zamanı meydana gəlmiş və Paris Kommunasında tətbiq edilmişdir.

İmperativ mandata görə deputat seçildiyi regionun (dairənin) təmsilçisi sayılır və onu seçən şəxslərlə yəni, dairənin elektoratı ilə daimi əlaqə saxlamalıdır. Seçicilər deputata həll olunması üçün öz problemləri ilə əlaqədar tapşırıqlar verir, deputat da onları qanunverici orqanda müzakirəyə çıxarmaqla həll etməyə çalışmalıdır. İmperativ mandata görə seçicilərin deputata verdiyi tapşırıqlar onun üçün hüquqi nəticə yaradır. Belə ki, deputat ona verilən tapşırıqları yerinə yetirmədiyi təqdirdə seçicilər tərəfindən

geri çağırıla bilər. İmperativ mandatın məqsədi deputatın fəaliyyətinin səmərəli olmasını, seçicilərlə əlaqəsinin daim saxlanmasını təmin etməkdir.

Azad mandat modeli deputatlıq fəaliyyətinin peşəkar iş kimi başa düşülməsi ilə bağlıdır. Burada deputat təmsilçiliklə peşəkar səviyyəsində məşğul olan vəzifəli şəxs kimi qəbul olunur və onun qanunvericilklə müəyyən olunmuş səlahiyyətlərinin hər hansı bir şəkildə məhdudlaşdırılmasına yol verilmir. Azad deputat mandatı konsepsiyasına görə deputat bütün xalqı təmsil edir və o, konkret seçicilər qrupu (seçildiyi dairənin elektoratı) tərəfindən geri çağırıla bilməz.

Müasir konstitusiya hüququ elmində və əksər demokratik ölkələrin təcrübəsində imperativ deputat mandatına tənqidi münasibət yaranmışdır. Məsələn, B.Çirkin yazır ki, ölkələrin böyük əksəriyyətində deputatlar azad mandata malikdirlər. Onlar təkcə öz seçki dairəsinin deyil, bütün xalqın nümayəndələridirlər. Ona görə də dairənin seçicilərinin tapşırıqlarını yerinə yetirməyə borclu deyillər və onlar tərəfindən vaxtından əvvəl geri çağırıla bilməzlər. Əksinə, totalitar sosaializm ölkələrində, seçicilərin tapşırıqlarını yerinə yetirməyən deputatın vaxtından əvvəl geri çağırılmasının mümkünlüyünü nəzərdə tutan imperativ mandat mövcuddur. Düzdür, Vyetnamın 1982-ci il konstitusiyasında göstərilmişdir ki, deputat təkcə dairəni deyil, bütün xalqı təmsil edir (41, s. 311).

Professor M.B.Baqlay qeyd edir ki, imperativ mandat totalitar dövlətlər üçün xarakterikdir. Əgər deputat seçkiqabağı verdiyi vədləri, seçicilərin tapşırıqlarını yerinə yetirməzsə, seçicilər onu geri çağıra bilər. Buradan belə çıxır ki, parlamentə çıxarılan məsələlərin müzakirəsində və qərarların qəbulunda deputat müstəqil olmur, öz mövqeyini sərbəst ifadə etmir, çünki o seçicilərindən asılıdır.

İmperativ mandat deputatı bütöv xalqın deyil, region əhalisinin, dairə elektoratının maraqlarına xidmət etməyə vadar edir. Azad mandat şəraitində isə deputat onu seçənlərin tapşırıqları ilə bağlı olmur və parlament qərarlarının qəbulu prosesində xalqın maraqlarını əsas götürərək müstəqil öz iradəsini ifadə edir. Azad deputat mandatının mahiyyətinə görə ümumi maraqlarla yerli maraqlar üst-üstə düşmədiyi halda ümumi, yəni xalqın marağı əsas götürülməlidir. Əgər deputat hesab etsə ki, onun verdiyi vədlər populist xarakterlidir və yaxud xalqın maraqlarına ziddir, həmin vədlərdən imtina edə bilər.

İmperativ deputat mandatı konsepsiyasını tənqid edən professor Straşun isə yazır ki, əgər deputat parlamentdə müzakirə olunan hər bir məsələ üzrə səs verməzdən öncə öz seçicilərinin bu məsələyə aid münasibətini öyrənmək məcburiyyətində qalarsa parlament qərarların qəbulunda bir çox hallarda kompromisə gələ bilməyəcək. Bu cür yanaşma texniki cəhətdən də olduqca çətin olardı. Digər tərəfdən seçicilərinin iradəsinə uyğun fəaliyyət göstərmək vəzifəsi daşıyan deputat bu iradənin xalqın iradəsinə zidd olduğunu hesab etdikdə o, ya istefaya getməli, ya da ki, xalqın iradəsinə zidd qərar barəsində səs verməlidir (92, s. 461).

Müasir dövrdə azad deputat mandatı prinsipinə həmçinin bəzi ölkələrin konstitusiya qanunvericiliyində rast gəlmək olur. Məsələn, Almaniya Federativ Respublikasının (maddə 38), İtaliya respublikasının (maddə 67) Konstitusiyalarında qeyd olunur ki, parlament üzvü xalqı təmsil edir. Fransanın 1958-ci il Konstitusiyası (maddə 27) imperativ deputat mandatını inkar edir.

Azərbaycan Respublikasının konstitusiya qanunvericiliyində bununla bağlı hansısa bir konkret norma yoxdur. Lakin müvafiq qanunvericiliyin interpretasiyası əsasında belə bir nəticəyə gəlmək olar ki, əksər demokratik ölkələrin konstitusiya quruculuğu təcrübəsində olduğu kimi

Azəebaycanda da deputatın hüquqi statusu azad mandat prinsipinə əsaslanır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının "Xalqı təmsil etmək hüququ" adlı 6-cı maddəsində qeyd olunur ki, xalqın seçdiyi səalhiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və müraciət etmək hüququ yoxdur. Həmçinin, Azərbaycan Respublikasının qanunvericiliyi deputatın seçiciləri tərəfindən geriyə çağırılması institutunu qəbul etmir.

Yuxarıda göstərilən problemin həlli ilə bağlı hesab edirik ki, xalqı təmsil etmək hüququnun səmərəliliyini artırmaq məsqədilə ölkəmiz üçün azad mandat konsepsiyasını əsas götürməklə, imperativ mandat modelinin də bəzi elementlərinin qəbul olunması daha məqsədəuyğundur.

Belə ki, azad deputat mandatı prinsipinə görə deputat ayrı-ayrı qrup, region, siyasi qüvvə maraqlarını deyil, xalqı təmsil etmək hüququ, onun maraqlarını rəhbər tutmaq vəzifəsinə əsaslanaraq parlamentdə müzakirə olunan məsələlər və qəbul olunan qərarlar barədə müstəqil xarici təsirlərə məruz qalmadan öz iradəsini bildirir. Lakin azad mandat şəraitində deputatın müstəqilliyi heç də mütləq xarakter daşımır. Bu zaman parlamentin üzvü konstitusiya qanunvericiliyindən, deputat etikası və intizamından, elektoratının etimadından (növbəti seçkilərdə seçiciləri ona səs verməyə bilər), partiya intizamından asılıdır.

Azad mandat konsepsiyasına görə deputat təmsilçiliklə peşəkar səviyyədə məşğul olan şəxsdir. Burada deputatlıq fəaliyyətinə peşəkar iş kimi baxılır. Keçmiş Azərbaycan Sovet Sosialist Respublikasında deputatın fəaliyyətinə peşəkar fəaliyyət kimi baxılmırdı və onlar əsas iş yerlərini saxlamaqla, istehsalatdan ayrılmadan səlahiyyətlərini həyata keçirirdilər. Onların işi ictimai iş kimi qəbul olunurdu.

Azərbaycan Respublikası qanunvericiliyinin mütərəqqi tərəflərindən biri də deputat fəaliyyətinin peşəkar iş kimi qəbul olunmasıdır. Deputatın Azərbaycan Respublikasının Milli Məclisində fəaliyyəti onun əsas iş yeri sayılır və o, bunun üçün dövlət büdcəsindən əmək haqqı alır. Hakimiyyətlər bölgüsü, peşəkar deputat fəaliyyəti prinsiplərini rəhbər tutan Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsinə görə deputat icra və məhkəmə hakimiyyəti sistemlərində qulluq edə, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul ola bilməzlər.

Konstitusiya normasından bəlli olduğu kimi deputat yalnız elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti ilə məşğul ola bilər. Bu cür norma deputat seçilmiş insanlara öz elmi-yaradıcılıq, peşəkarlıq səviyyəsini qoruyub saxlamaq, bilik və bacarıqlarını cəmiyyətin digər üzvlərinə ötürmək məqsədi daşıyır. Lakin elmi-yaradıcılıq, pedaqoji fəaliyyət də millət vəkilinə əsas deputatlıq fəaliyyətiini həyata keçirməyə mane olmamalıdır.

Hesab edirik ki, peşəkar deputat fəaliyyəti kontekstində Azərbaycan Respublikası Konstitusiyasının Milli Məclisin deputatlığına namizədlərə aid tələblər adlı 85-ci maddəsinin birinci hissəsinə ali təhsil senzinin əlavə edilməsi də məqsədəuyğun olardı.

Bir çox nəzəri ədəbiyyatlarda imperativ deputat mandatı prinsipi ayrı-ayrı alimlər tərəfindən tənqidlərə məruz qalmasına baxmayaraq hesab edirik ki, onun bəzi elementləri parlamentin təmsilçilik funksiyasının daha səmərəli həyata keçirilməsində faydalı olardı. Belə ki, imperativ mandatın əsas tələblərindən biri sayılan öz seçiciləri ilə daimi əlaqənin saxlanması deputatlıq fəaliyyətinin səmərəli təminatında daha mühüm rol oynaya bilərdi. İmperativ mandatın digər əsas elementi sayılan deputatın geri çağırılması mexanizminə gəldikdə isə hesab

edirik ki, bu institutun tətbiqi bələdiyyə səviyyəsində tətbiq oluna bilər.

Müsbət hal kimi göstərmək olar ki, Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Qanunun üçüncü fəslində deputatın seçicilərlə iş aparması münasibətləri tənzimlənir. Burada qeyd olunur ki, deputat seçicilərlə mütəmadi əlaqə saxlamalıdır. Deputatın seçiciləri ilə görüşləri və başqa növ iş aparması barədə məlumatlar dövlət kütləvi informasiya vasitələrində işıqlandırılır.

Deputat seçiciləri qəbul etmək üçün Azərbaycan Respublikasının hər şəhərində və rayon mərkəzində (Bakı, Gəncə və Sumqayıt şəhərlərində isə-hər seçki dairəsində) rabitə vasitələri ilə təchiz edilmiş otaqla təmin edilir.

Deputat seçicilərinin hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin təmin edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiyası ilə ona verilmiş səlahiyyətlər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları, məhkəmə hakimiyyəti orqanları, prokurorluq orqanları, yerli özünüidarə orqanları qarşısında məsələlər qaldıra bilər.

Deputatın bu fəaliyyətinin təmin olunmasında mərkəzi və yerli icra və məhkəmə hakimiyyəti orqanları, prokurorluq orqanları, yerli özünüidarə orqanları ona köməklik göstərməlidirlər.

Deputat seçicilərinin müraciətləri, ərizələri və şikayətləri əsasında, habelə ictimai rəyi öyrənərək zəruri hallarda müvafiq mərkəzi və yerli icra və məhkəmə hakimiyyəti orqanlarına (məhkəmə orqanlarının konkret işlərlə bağlı fəaliyyətinə müdaxilə etməmək şərtilə), prokurorluq orqanlarına, yerli özünüidarə orqanlarına müraciət edə bilər.

Müvafiq mərkəzi və yerli icra və məhkəmə hakimiyyəti orqanları, prokurorluq orqanları, yerli özünüidarə orqanları müraciət etmiş deputata 15 gündən gec olmayaraq cavab verməlidirlər.

Qeyd edilənlərlə yanaşı hesab edirik ki, yuxarıda adı çəkilən qanunda və yaxud da Milli Məclisin Daxili Nizamnaməsində deputata seçiciləri qəbul etmək üçün konkret günün ayrılması, seçicilərlə işin aparılması ilə bağlı deputat məsuliyyətinin müəyyənləşdirilməsi və seçicilərinin müraciətlərinə baxılması mexanizminin tənzimi məsələləri də öz əksini tapmalıdır. Sonuncu məsələ vətəndaşların müraciətlərinə baxilməsi qaydaları haqqında qanunla da tənzimlənə bilər. Lakin bununla bağlı konkret müddəaların deputatın statusunu tənzimləyən normativ hüquqi aktda olması pozitiv məsuliyyətin daha da artmasına səbəb ola bilər.

Deputatın konstitusiya hüquq statusunun digər elementi deputat mandatının yaranması və müddətidir.

Deputat mandatının yaranması ilə bağlı qanunvericilikdə qeyri müəyyənlik mövcuddur. Məsələn, Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunur ki, Milli Məclis deputatlarının səlahiyyət müddəti Milli Məclisin çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır (maddə 84, III hissə). Bu normadan belə çıxır ki, deputatın səlahiyyəti parlamentin səlahiyyətilə eyni vaxt yaranır. Lakin digər konstitusiya normalarında isə göstərilir ki, Azərbaycan Respublikası Milli Məclisi 83 deputatının səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir (maddə 87, III hissə). Əgər Milli Məclisə seçkilərdən sonra martın 10-dək onun 83 deputatının səlahiyyətləri təsdiq edilməzsə, Milli Məclisin ilk iclasının keçirilmə vaxtını Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müəyyən edir (maddə 88, I hissə). Bu normadan belə nəticəyə gəlmək olar ki, noyabr ayında seçilmiş deputatın səlahiyyətlərinin başlanması da yeni seçilmiş parlamentin səlahiyyətlərinin başlanmasına qədər uzana bilər. Bu yanaşmanı düzgün hesab etmirik. Təbii ki, parlament səlahiyyətləri kollegiallıq prinsipi əsasında deputatlar tərəfindən həyata keçirilir.

Lakin deputatın səlahiyyətləri, hüquq və vəzifələrli, sosial-iqtisadi təminatı parlamentin səlahiyyətləri ilə məhdudlaşmır.

Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsinə müvafiq olaraq deputatların seçkilərinin nəticələrinin düzgünlüyünü Konstitusiya Məhkəməsi yoxlayır və təsdiq edir. Azərbaycan Respublikasının Seçki Məcəlləsində qeyd olunur ki, seçkilərin ümumi yekunları rəsmi dərc edildikdən sonra namizəd deputat statusu ilə bir araya sığmayan vəzifədən azad olunduqda və ya fəaliyyətinə xitam verdikdə Mərkəzi Seçki Komissiyası onu deputat kimi qeydə alır və ona deputat vəsiqəsi verir (maddə 173.3). Hesab edirik ki, elə bu andan da deputat mandatı yaranır.

Deputatların səlahiyyətlərinin bitmə vaxtına gəldikdə isə bu məsələ Azərbaycan Respublikasının əsas qanununda konkret göstərilir. Konstitusiyanın 87-ci maddəsinin birinci hissəsində qeyd olunur ki, deputatların səlalhiyyətləri Milli Məclisin ilk iclas günü bitir.

Lakin deputat mandatına vaxtından əvvəl də xitam verilə bilər. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinə görə, Milli Məclisin deputatı aşağıdakı hallarda mandatından məhrum edilir:

1) seçkilər zamanı səslərin düzgün hesablanmadığı aşkar olunduqda;

2) Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə;

3) cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;

4) dövlət orqanlarında vəzifə tutduqda, din xadimi olduqda, sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul olduqda (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla);

5) özü imtina etdikdə;

6) bu Konstitusiyanın 93-cü maddəsinin III hissəsinin tələbini pozduqda;

7) deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda.

Azərbaycan Respublikası Milli Məclisinin deputatlığından məhrumetmə haqqında qərar qanunla müəyyən edilmiş qaydada qəbul edilir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatları öz səlahiyyətlərini daimi icra edə bilmədikdə və qanunda nəzərdə tutulmuş digər hallarda onların səlahiyyətləri itirilir. Müvafiq qərarın qəbul edilmə qaydası qanunla müəyyən edilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 176.4 maddəsinə əsasən deputat mandatının boş qalmasından sonra bir ay müddətində müvafiq birmandatlı seçki dairəsi üzrə əlavə seçkilər təyin edilir. Eyni zamanda konstitusiyamızda göstərilir ki, Milli Məclisin deputatlığından çıxanların yerinə seçkilər Milli Məclisin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa keçirilmir.

Parlament üzvünün statusuna aid digər elemetnlərdən biri də deputatlıq fəaliyyətinin formalarıdır. Deputatlıq fəaliyyətinin formaları qanunvericiliklə müəyyən olunur.

Deputatlıq fəaliyyətinin formaları parlamentin və onun orqanlarının vəzifə və funksiyalarının, qanunvericilik prosesinin həyata keçirilməsində deputatın iştirakını təmin edir, onun fəaliyyət hədlərini müəyyənləşdirir və digər hakimiyyət budaqlarının işinə müdaxilə etməkdən çəkindirir.

Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Qanunun 5-ci maddəsində qeyd olunur ki, deputat aşağıdakı formalarda fəaliyyət göstərir:

1. Milli Məclisin iclaslarında iştirak edir;

2. Milli Məclisin komitə və komissiyalarının işində iştirak edir;

3. Milli Məclisin, Milli Məclisin sədrinin, komitə və komissiyalarının tapşırıqlarını yerinə yetirir;

4. Deputat sorğuları verir;

5. Seçicilərlə iş aparır.

Deputatın konstitusiya hüquq statusunun əsasını onun səlahiyyətləri, hüquq və vəzifələri təşkil edir.

Bu hüquq və vəzifələrin səmərəli həyata keçirilməsi üçün qanunvericiliklə deputatlıq fəaliyyətinin sosial-iqtisadi, hüquqi təminatları, deputatın pozitiv və retrospektiv məsuliyyəti müəyyən olunur.

Deputatın müvafiq qanunvericiliklə müəyyən olunmuş səlahiyyətlərini, hüquqlarını iki qrupa bölmək olar:

1. Deputatın kollektiv qaydada həyata keçirdiyi səlahiyyətləri. Buna Milli Məclisin, onun komitə və komissiyalarının, deputat fraksiyalarının işində iştirak və müvafiq aktların qəbul edilməsi ilə bağlı olan səlahiyyətləri aiddir;

2. Deputatın fərdi qaydada həyata keçirdiyi səlahiyyətlərə parlamentdə, onun orqanlarında müzakirə olunan bütün məsələlərə dair fikrini bildirmək, təkliflər və qeydlərini vermək, qanunvericilik təşəbbüsü hüququnu həyata keçirmək, deputat sorğusu vermək, məlumat almaq və yaymaq, toxunulmaz olmaq, Konstitusiya ilə müəyyən edilmiş hallarda şahid qismində ifadə verməkdən imtina etmək, vəzifəli şəxslər tərəfindən təxirə salınmadan qəbul edilmək hüququnu aid etmək olar.

Millət vəkilinin vəzifələrinə gəldikdə isə deputat insan və vətəndaş hüquqlarını, azadlıqlarını, Azərbaycan Respublikasının mənafelərini qorumalı, Azərbaycan Respublikasının qanunvericiliyini rəhbər tutmalı və ona əməl etməli, Milli Məclisin iclaslarında və üvzü olduğu

parlamentin komitə və komissiyalarının iclaslarında iştirak etməli, seçicilərlə mütəmadi əlaqə saxlamalıdır.

Parlament üzvü hər zaman deputat etikasını gözləməlidir. Bir mütərəqqi hal kimi göstərmək olar ki, 2017-ci ildə Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında qanun qəbul olunmuşdur. Burada qeyd olunur ki, deputat öz fəaliyyətində insanların hüquqlarını, azadlıqlarını, qanuni maraqlarını pozan, şərəf və ləyaqətini alçaldan, işgüzar nüfuzuna xələl gətirən kobud, təhqiramiz söz və ifadələrə yol verməməli, hüquqi şəxslərin işgüzar nüfuzunu ləkələyən qərəzli hərəkətlər etməməlidir.

Deputat sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla) məşğul olmamalıdır.

Deputat vicdanlı davranış nümayiş etdirməlidir. Milli Məclisin nüfuzuna və yüksək deputat adına xələl gətirə biləcək davranışa yol verməməli, deputat adını, şərəf və ləyaqətini uca tutmalıdır.

Deputat vətəndaşlarla, o cümlədən seçiciləri ilə münasibətlərində, həmkarları, dövlət orqanlarının nümayəndələri ilə davranışında, ictimai çıxışlarında və Milli Məclisin iclaslarında nəzakətli və təmkinli olmalıdır.

Deputat Milli Məclisin iclaslarında həmkarlarının fikirlərinə hörmətlə yanaşmalı, münaqişələrdən çəkinməli, öz mövqeyini təhdidlə bildirməməlidir.

Deputat Milli Məclisin iclaslarının aparılmasına mane olmamalı, çıxış edənlərin sözünü kəsməməli, kənardan müdaxilə etməməli, iclasın normal gedişini və iş qaydasını pozmamalı, insanın şərəf və ləyaqətini alçaldan kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verməməli, qanunsuz hərəkətlərə çağırmamalıdır.

Azərbaycan Respublikası Milli Məclisi deputatının konstitusiya hüququ statusunun digər mühüm elementi deputatlıq fəaliyyətinin təminatlarıdır.

Müasir elmi ədəbiyyatlarda deputatlıq fəaliyyətinin təminatının təsnifatına aid müxtəlif fikirlər mövcuddur. Zənnimizcə aşağıdakı təsnifat daha məqsədəuyğundur: 1) Təşkilati-hüquqi; 2) Sosial-iqtisadi; 3) Hüquqi təminatlar.

Təşkilati-hüquqi təminatlar parlamentin və onun orqanlarının fəaliyyətində deputat səlahiyyətlərinin səmərəli həyata keçirilməsi üçün zəruri hüquqi təşkilati-texniki, informasiya təminatlarının yaradılmasını nəzərdə tutur. Deputatın statusunu tənzimləyən təkmil qanunvericilik sisteminin təşkili, onun zəruri hüquqi aktlarla, parlamentdə, onun orqanlarında müzakirə olunması nəzərdə tutulan qanun və qərar layihələrilə, zəruri sənəd və materiallarla, xidməti otaqla, rabitə və digər zəruri texniki vasitələrlə təmin olunması təşkilati-hüquqi təminatlara aiddir.

Deputatlıq fəaliyyətinin təşkilati-hüquqi təminatı kontekstində Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Qanunda qeyd olunur ki, deputatın fəaliyyətinin təmin edilməsi məqsədilə onun köməkçiləri ola bilər. Deputatın köməkçiləri dövlət büdcəsi hesabına saxlanılır (maddə 21-1).

Deputat seçiciləri qəbul etmək üçün Azərbaycan Respublikasının hər şəhərində və rayon məzkəzində (Bakı, Gəncə və Sumqayıt şəhərlərində isə hər seçki dairəsində) rabitə vasitələri ilə təchiz edilmiş otaqla təmin edilir. Deputatın seçiciləri ilə görüşləri və başqa növ iş aparması barədə məlumatlar dövlət kütləvi informasiya vasitələrində işıqlandırılır. Hesab edirik ki, deputatın seçiciləri qarşısında hesabatı və bu məqsədlə vətəndaşlarla görüşmək üçün ona müvafiq inzibati orqanalr, dövlət KİV tərəfindən zəruri təşkilati-texniki köməkliyin göstərilməsi vəzifələrii qanunvericilikdə öz hüquqi tənzimini tapmalıdır.

Sosial-iqtisadi təminatlar deputatın sosial müdafiəsi, maddi təminat, əmək, istirahət, təqaüd almaq, mənzil hüquqlarının təminatını ehtiva edir.

Hüquqi təminatlar deputatlıq fəaliyyətini təmin edən xüsusi hüquqi vasitə və üsulların yaradılmasını ehtiva edir, tənzimləyici, mühafizəedici hüquq münasibətləri vasitəsilə həyata keçirilir. Bu növ təminatlar deputat səlahiyyətlərinin səmərəli həyata keçirilməsi üçün həm millət vəkilinin, həm də bu işdə ona mane olan qanunla müəyyən olunmuş köməkliyi ona göstərməyən vəzifəli şəxslərin hüquqi məsuliyyətini nəzərdə tutur.

Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin üçüncü fəsli Milli Məclis deputatlarının parlamentdaxili məsuliyyətini tənzimləyir. Burada qeyd olunur ki, Milli Məclisin deputatı:

1) Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarının aparılmasına mane olduqda;

2) Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarında çıxış edənlərin sözünü kəsdikdə;

3) Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarının normal gedişini və iş qaydasını pozduqda;

4) Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarında insanın şərəf və ləyaqətini alçaldan kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verdikdə, qanunsuz hərəkətlərə çağırdıqda;

5) Milli Məclis deputatının yüksək adına xələl gətirən hərəkətlər etdikdə;

6) "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda);

7) Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarında üzürsüz səbəbdən iştirak etmədikdə parlamentdaxili məsuliyyətə cəlb oluna bilər.

1) xəbərdarlıq;

2) söz kəsmə;

3) iclas salonundan çıxarma;

4) töhmət;

5) deputat səlahiyyətlərinin itirilməsi.

Parlamentdaxili məsuliyyətə cəlb edilmiş Milli Məclisin deputatları haqqında məlumatlar "Azərbaycan" qəzetində dərc olunur və Azərbaycan Respublikası Milli Məclisinin Aparatı tərəfindən başqa kütləvi informasiya vasitələrinə təqdim edilir.

Azərbaycan Respublikası Milli Məclisinin növbəti sessiyaları dövründə hər ay "Azərbaycan" qəzetində Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarını üzürsüz səbəbdən buraxan deputatların adları dərc olunur.

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi deputat statusunun pozulmasına görə digər şəxslərin məsuliyyətini də müəyyən edir. Dövlət orqanları, vəzifəli şəxslər, yerli özünüidarə orqanları, qeyri dövlət təşkilatları tərəfindən deputatın qanuni tələblərinin yerinə yetirilməməsi, onun işinə mane olunması, bilə-bilə yalan informasiya verilməsi, deputat sorğusuna vaxtında cavab verilməməsi hüquqi məsuliyyətə səbəb olur. Bununla bağlı Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında qanunda göstərilir ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, məhkəmə hakimiyyəti orqanlarının, prokurorluq orqanlarının, yerli özünüidarə orqanlarını, müəssisələrin, idarələrin, təşkilatların vəzifəli şəxsləri və başqa işçiləri, vətəndaşlar deputat səlahiyyətlərinin həyata keçirilməsinə maneçilik törədərlərsə, Azərbaycan Respublikasının qanunvericiliyi

ilə nəzərdə tutulmuş hallarda və qaydada məsuliyyətə cəlb olunurlar.

Həmin orqanlar və şəxslər deputata bilərəkdən yalan məlumatlar verərlərsə, bu məlumatların yalan olub-olmaması məhkəmə qaydasında müəyyən edilməlidir (maddə 31).

Deputata qeyri qanuni təsir göstərən, onun səlahiyyətlərini, toxunulmazlığını və təhlükəsizliyini pozan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada məsuliyyətə cəlb olunurlar.

Hüquqi təminatlar sisteminin ən mühüm elementlərindən biri də deputatın immuniteti və indemniteti məsələləridir. Deputatın immuniteti onun toxunulmazlığı mənasını verir və millət vəkilini qeyri qanuni cinayət və inzibati təqiblərdən qorumaq məqsədi daşıyır. Məsələn, deputata qarşı cinayət icraatının başlaması, onun barəsində həbs qəti imkan tədbirinin seçilməsi, ibtidai istintaqın, məhkəmə prosesinin bir neçə ay uzanmasına səbəb ola bilər. Əlbəttə ki, belə olan halda deputatın parlamentin işində iştirakı da mümkünsüz ola bilərdi.

Müasir konstitusiya quruculuğu təcrübəsində deputatın immuniteti hakimiyyətlər bölgüsü sistemində qanunvericilik hakimiyyəti qolunun müstəqilliyinin təminatı, onun üzvlərinin heç bir qeyri qanuni, əsassız təsirlərə məruz qalmaması, deputatlıq fəaliyyətinin daha səmərəli həyata keçirilməsi məqsədi daşıyır. Lakin immunitetə heç bir halda deputatın törətdiyi hüquq pozuntusuna görə hüquqi məsuliyyətdən boyun qaçırmaq imkanı kimi baxıla bilməz.

Bir çox ədəbiyyatlarda deputatın immuniteti termini ilə yanaşı, deputatın indemniteti anlayışı da istifadə olunur. Burada deputatın indemniteti anlayışı əsasən iki mənada izah olunur: 1. Parlamentdəki fəaliyyətinə, səsverməyə və

söylədiyi fikirlərə görə məsuliyyətə cəlb olunmazlığı, şahid qismində ifadə verməkdən imtina hüququ; 2. Deputatın layiqli sosial-maddi təminatı.

Biz hesab edirik ki, deputatın indemniteti ikinci mənada yəni, onun sosial-maddi təminatı kimi qəbul olunmalıdır.

Deputatın indemniteti anlayışının yuxarıda qeyd olunan birinci mənası isə deputatın immuniteti anlamı ilə əhatə olunur.

Müasir demokratik dövlətlərin konstitusiya praktikası deputatın immunitetini aşağıdakı formalarda tənzimləyir.

Azərbaycan Respublikasında deputatın ümmuniteti aşağıdakı müddəaları ehtiva edir:

1. Səlahiyyət müddəti ərzində Azərbaycan Respublikası Milli Məclisi deputatının şəxsiyyəti toxunulmazdır. Dünya təcrübəsində deputatın toxunulmazlığı parlamentin sessiyaları dövründə (məs, Yaponiya, Fransa), parlamentin sessiyaları və sessiyaya gedib gəlmə yolu zamanı (ABŞ) və yaxud ölkəmizdə olduğu kimi deputatın bütün səlahiyyət müddətinə (məs, AFR, İspaniya, İtaliya, Rusiya və s.) aid ola bilər.

2. Deputat Azərbaycan Respublikası Milli Məclisinin razılığı olmadan cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz. AFR təcrübəsində parlamentin razılığı olmadan deputata qarşı hətta mülki iddia tətbiq oluna bilməz. Azərbaycan Respublikasının qanunvericiliyi deputat toxunulmazlığını cinayət və inzibati hüquq (əgər onun törətdiyi xətaya görə məhkəmə qaydasında inzibati tənbehin tətbiqi nəzərdə tutulursa) sahələrinə aid edilir. Lakin Azərbaycan Respublikası Konstitusiyasının 90-cı maddəsinə görə əgər deputat cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda deputatı

tutan orqan bu barədə dərhal Azərbaycan Respublikasının Baş Prokuroruna xəbər verməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 90-cı maddəsinin II hissəsinə görə, Milli Məclisin deputatının toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Milli Məclisin qərarı ilə xitam verilə bilər. Bu barədə təqdimata Milli Məclis onun daxil olduğu vaxtdan 7 gün müddətində baxır.

Milli Məclisin sədri, bir qayda olaraq, deputat haqqında təqdimatı əvvəlcə Milli Məclisin İntizam komissiyasına göndərir və komissiyada bu məsələyə baxılır. Komissiya təqdimata dair rəy qəbul edir. Rəydə deputat toxunulmazlığına xitam verilib-verilməməsi barədə İntizam komissiyasının qənaəti söylənilir.

Milli Məclis bu barədə məsələlərə, bir qayda olaraq, deputat toxunulmazlığına xitam verilməsi barədə təqdimat olan deputatın iştirakı ilə baxır. Bu məsələ Milli Məclisin iclasında müzakirə edilərkən deputatın ittiham edildiyi cinayətdə təqsirli olub-olmaması məsələsi müzakirə edilə bilməz. İclasda iştirak edən deputatlar yalnız deputat toxunulmazlığına xitam verilməsi barədə Azərbaycan Respublikası Baş prokurorunun təqdimatında kifayət qədər əsasların olub-olmamasını aydınlaşdıra bilərlər və bu məqsədlə Azərbaycan Respublikasının Baş prokuroruna suallar verə bilər, deputat toxunulmazlığına xitam verilməsinin lehinə və ya əleyhinə çıxış edə bilərlər. Milli Məclis 63 səs çoxluğu ilə deputat toxunulmazlığına xitam verə bilər.

İngiltərə təcrübəsinə görə parlamentin aşağı-nümayəndələr palatasının üzvünün toxunulmazlığına spikerin qərarı ilə xitam verilə bilər. ABŞ-da deputat immuniteti dövlətə xəyanət, ağır cinayətlər və ictimai asayişin pozulması hallarına aid edilmir.

3. Parlamentin razılığı olmadan deputat axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz (bu cür tədbirin keçirilməsi digər insanların təhlükəsizliyinin təmin olunması üçün zəruridirsə istisna hal kimi qəbul olunur).

4. Deputatın toxunulmazlığı onun evinin, mənzilinin, əşyalarının, şəxsi və xidməti nəqliyyat vasitələrinin, ona məxsus sənədlərin, yazışmaların toxunulmazlığını da əhatə edir.

5. Deputat parlamentdəki fəaliyyətinə, səsverməyə və söylədiyi fikrə görə məsuliyyətə cəlb oluna bilməz.

Oxşar normaya həmçinin digər demokratik ölkələrin konstitusiyalarında rast gəlmək olar. Məsələn, Yaponiya konstitusiyasına əsasən deputatlar parlamentdə söylədiyi fikirlərə görə məsuliyyətə cəlb oluna bilməzlər. Burada söhbət yalnız parlament daxilindəki fəaliyyətdən gedir. İspaniya Senatının təcrübəsində isə senatorlar hətta səlahiyyət müddəti bitdikdən sonra parlamentdəki fəaliyyətinə, səsverməyə, söylədiyi fikirlərə görə məsuliyyətə cəlb oluna blməzlər.

Almaniya və Belarusiya qanunvericiliyinə görə yuxarıda göstərdiyimiz norma parlamentin iclasında deputat tərəfindən səsləndirilən böhtan və təhqir hallarına şamil olunmur. Bununla bağlı respublikamızın qanunvericiliyində konkret bir norma olmasa da Milli Məclisin Daxili Nizamnaməsi, deputatın statusu, deputatın etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının qanunvericilik aktlarında qeyd olunur ki, Milli Məclisin iclaslarında iştirak edənlər parlament etikasını gözləməlidirlər. Onlar Milli Məclisin iclaslarının aparılmasına mane olmamalı, çıxış edənlərin sözünü kəsməməli, iclasın normal gedişini və iş qaydasını pozmamalı, insanın şərəf və ləyaqətini alçaldan kobud, təhqiramiz hərəkətlərə və sözlərə yol verməməli, qanunsuz hərəkətlərə çağırmamalıdırlar.

Bu qaydalara əməl etməyən deputat intizam məsuliyyətinə cəlb oluna bilər. Təhqir və böhtan əməllərini isə Azərbaycan Respublikasının Cinayət qanunvericiliyi kriminallaşdırmışdır.

İspaniya Senatının 1982-ci il Reqlamentində həmçinin qeyd olunur ki, senatorlar hətta səlahiyyət müddəti bitdikdən sonra da parlamendtə səsverməyə, söylədiyi fikirlərə görə məsuliyyətə cəlb oluna bilməz. Zənnimizcə, bu cür normanın ölkəmizin Konstitusiyası səviyyəsində qəbulu məqsədəuyğun olardı. Birincisi, siyasi motivləri kənara qoyaraq insan hüquqları nöqteyi nəzərindən çıxış etsək hüquqi məsuliyyəti müəyyən edən, vətəndaşların vəziyyətini ağırlaşdıran qanunların geriyə qüvvəsi yoxdur. İkincisi, yuxarıda təhlil etdiyimiz norma millət vəkillərinin parlamentdə müzakirə olunan məsələlər barəsində heç bir kəsin təsirinə məruz qalmadan öz siyasi əqidəsi və xalqın maraqlarına uyğun azad, müstəqil öz fikrini bildirmək, səs vermək imkanlarını təmin edir. Lakin yuxarıda göstərdik ki,deputatın bu cür imkanları onun tərəfindən səslənən təhqir və böhtan hallarına şamil olunmur. Bəzi ölkələrin hətta konstitusiyalarında bununla bağlı xüsusi norma mövcuddur (məs, AFR Konstitusiyası, maddə 46).

Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında qanunun 13-cü maddəsinə əsasən, deputatlıq fəaliyyətinin həyata keçiriməsi ilə bağlı ona məlum olmuş hallar haqqında cinayət-prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada şahid qismində ifadə verməkdən imtina etmək hüququna malikdir. Oxşar normaya həmçinin, AFR Konstitusiyasının 47-ci maddəsində rast gəlmək olar.

Fəsil 7. Xalq hakimiyyəti sistemində məhkəmə hakimiyyəti

§1. Demokratik dövlətdə məhkəmə hakimiyyətinin anlayışı, mahiyyəti və funksiyaları.

Xalq hakimiyyəti sistemində qanunvericilik və icra hakimiyyəti budaqları ilə yanaşı müstəqil məhkəmə hakimiyyətinin mövcudluğu demokratik, hüquqi dövləti səciyyələndirən əsas amillərdən biridir.

Hakimiyyətlər bölgüsü konsepsiyasının banilərindən biri sayılan ingilis burjua ideoloqu Con Lok məhkəmələri icra hakimiyyəti qoluna aid edirdi. Lakin, Con Lok konsepsiyasını təkmilləşdirən fransız alimi Ş.L.Monteskye məhkəmə hakimiyyətini icra hakimiyyətindən ayırır və məhkəmələri qanunların danışan dili kimi xarakterizə edirdi.

Hesab edirik məhkəmələri icra hakimiyyəti qoluna aid etmək düzgün fikir sayıla bilməzdir. Birincisi, ona görə ki, icra hakimiyyəti orqanlarının fəaliyyəti prioritet olaraq inzibati metodlara əsaslanır. Məsələn, hər hansı hüquqpozmalarının araşdırılması və yaxud təhqiqat, ibtidai istintaq prosesində icra hakimiyyəti orqanları ittiham tərəfindən çıxış etdiyi halda, məhkəmə çəkişmə prosesində nə ittiham, nədə ki, müdafiə tərəfini təmsil etmir. Məhkəmə

dövlət hakimiyyəti orqanı sayılsada ədalət mühakiməsi prosesində sanki bifurkasiya baş verir, yəni məhkəmə digər dövlət orqanlarından (məsələn, ittiham tərəfini təmsil edən prokurorluq, polis və s.) ayrılır , tərəflər arasında neytral mövqedə dayanaraq iş üzrə həqiqəti müəyyən edir və qanunun danışan dili kimi ədalətli qərarlar qəbul edir.

İkincisi, icra hakimiyyəti orqanları öz səlahiyyətləri daxilində hüquqyaradıcılığı fəaliyyətini həyata keçirir. Məhkəmələrin isə hüquqyaratma fəaliyyəti hakimiyyətlər bölgüsünün Ş.L.Monteskye konsepsiyasına görə qəbul edilməzdir.

Professor Ziayfət Əsgərov yazır ki, vaxtilə Ş.L.Monteskye hakimləri ancaq qanunu tətbiq edən orqan kimi qiymətləndirirdi. Müasir dövrdə roman-german hüquq sistemli ölkələr üçün bu, bəlkə də, keçərlidir, ancaq anqlo-sakson hüquq sistemli ölkələr üçün bu müddəa özünü doğrultmur. Bu ölkələrdə məhkəmə sadəcə hüququ tətbiq etmir, özü hüquq yaradıcılığı ilə məşğul olur. (38).

Düşünürəm ki, professor Z,Əsgərov burada anqlo-sakson hüquq ailəsində hüququn əsas mənbəyi sayılan məhkəmə presedentlərini nəzərdə tutur. Bu məsələ ilə bağlı qeyd etmək istəyirəm ki, birincisi anqlo-sakson hüquq ailəsinə daxil olan dövlətlərdə bütün məhkəmələr deyil, yalnız yuxarı instansiya (məs. Apellyasiya, Ali Məhkəmə) məhkəmələri hüquqi presedent yarada bilər. Digər tərəfdən məhkəmələrin hüquqyaratma fəaliyyətinə gəldikdə çox maraqlıdır ki, İngiltərə alimləri bu məsələni başqa cür izah etməyə çalışır. Onların mülahizələrinə görə, ingiltərə məhkəmələri normayaratma fəaliyyətini həyata keçirmir. Məhkəmə presedentlərində ehtiva olunan normalar obyektiv olaraq gerçək həyatda artıq mövcud olduğu halda hüquqyaratma orqanları onları görməyə bilər. Lakin, həmin dövlət orqanlarından fərqli olaraq məhkəmələr hüquq

sahəsində böyük peşəkarlığa malik olduğuna görə bu normaları daha çevik aşkar edir və sanksiyalaşdırır.

Hesab edirik ki, Roman-german hüquq ailəsinə daxil olan dövlət kimi, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin normayaratma imkanlarına malik olması konstitusiyamızda təsbit olunan hakimiyyətlər bölgüsü prinsipinə, hakimiyyət budaqları arasında tarazlıq və çəkindirmə mexanizminə zidd olardı.

Bu kontekstə, böyük aktuallıq kəsb edən problemlərdən biri də "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununa yeni 79-1-ci maddənin əlavə edilməsidir.

Azərbaycan Respublikası qanunvericiliyində bu cür yenilik ilk baxımdan belə bir fikir yarada bilər ki, Ali məhkəməyə hüquqi presedentlərdə ifadə olunan normayaratma səlahiyyəti verilmişdir. Lakin bu heç də belə deyil, belə ki, burada söhbət Ali Məhkəmə Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlardan gedir. Yəni Azərbaycan Respublikasının Ali Məhkəməsi məcburi xarakter daşıyan məhkəmə presedenti deyil, hüququn təfsiri aktı qəbul edir.

Məlum olduğu kimi, bu günədək vahid məhkəmə təcrübəsini formalaşdırmağa imkan verən mexanizmlər kifayət qədər təkmil deyildi. Belə ki, Ali Məhkəmənin Plenumu tərəfindən verilən izahlar tövsiyə xarakteri daşıdığından və onun nəzərə alınmasının heç bir hüquqi nəticəsi olmadığından vahid məhkəmə təcrübəsinin yaradılmasında nəzərdə tutulan nəticəyə nail olmaq mümükün olmurdu. Bundan başqa, işə baxan məhkəmələr arasında hüququn tətbiqində yaranan fikir ayrılıqlarının hansı qaydada həll edilməli olduğunu nizama salan təkmil mexanizm də mövcud deyildir. Ona görə də, bəzi hallarda, məhkəmələr tərəfindən oxşar faktiki halları olan

mübahisələr üzrə fərqli qərarların qəbul edilməsinə rast gəlinirdi.

Ölkəmizdə vahid məhkəmə təcrübəsi ilə əlaqədar qanunvericilikdə edilmiş dəyişikliyin əsas mahiyyəti, hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini təmin etməkdən, fərqli yanaşma hallarına son qoyulmasından, maddi və prosesual hüquq normalarının birinici instansiya, apellyasiya və kasassiya məhkəmələrində eyni cür tətbiqinə nail olmaqdan ibarətdir.

Vahid məhkəmə təcrübəsi isə məcburi xarakter daşıyan Ali Məhkəmə kollegiyalarının, konkret işlər üzrə Plenum qərarlarının, habelə Ali Məhkəmə Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlar vasitəsilə formalaşdırılır.

Üçüncüsü, məhkəmə hakimiyyətində mövcud iyerarxiya icra hakimiyyətində olan iyerarxiyadan xeyli dərəcədə fərqlənir. İcra hakimiyyətində iyerarxiya aşağı orqanın yuxarı orqandan asılılığına əsaslanır. Bu asılılıq onda ifadə olunur ki, aşağı orqan yuxarı orqanın verdiyi göstərişləri yerinə yetirməlidir və yuxarı orqan aşağı orqanın fəaliyyətinə müdaxilə edə, öz mülahizələri əsasında aşağı orqanın aktlarını ləğv edə bilər. Məhkəmə hakimiyyətində isə iyerarxiya yuxarı orqanın aşağı orqana sərəncam, əmr verməsinə deyil, müdafiə vasitələrinin genişliyinə, imkana əsaslanır.

Məhkəmə hakimiyyəti sistemində isə yuxarı instansiya məhkəməsi birinci instansiya məhkəməsinin aktına apellyasiya, kassasiya qaydasında yenidən baxa bilər və həmin aktı qeyri obyektiv, qanuna zidd hesab etdiyi halda ləğv edə, dəyişə, yenidən baxılması üçün geri qaytara bilər. Lakin işin mahiyyəti üzrə həllinə dair aşağı instansiya məhkəməsinə göstəriş verə, birinci instansiya məhkəməsinin işinə müdaxilə edə bilməz.

Xalq hakimiyyəti sistemində aktual problemlərdən biri də demokratik məhkəmə hakimiyyətinin anlayışı və funksiyalarıdır. Bu sualın izahı ilə bağlı hüquq ədəbiyyatlarında fikir müxtəlifliyi yaranmışdır.

Məsələn, professor B.Çirkin yazır ki, məhkəmə hakimiyyəti konkret xarakterə malikdir, cəmiyyətdə müxtəlif münaqişələr əsasında baş verən konkret işlərə və mübahisələrə baxır və həll edir (41,s.378). Zənnimizcə bu cür tərif məhkəmə hakimiyyətinin anlayışını müəyyən dərəcədə məhdudlaşdırır.

"Azərbaycan Respublikası Konstitusiyasının şərhi" kitabında İlqar Cəfərov yazır ki, müasir ölkələrdə məhkəmə fəaliyyəti dövlətin konstitusiya quruluşunun əsaslarının, fiziki və hüquqi şəxslərin hüquqlarının və maraqlarının müdafiəsinin təmin edilməsinə yönəldilmişdir. Məhkəmə hakimiyyəti əsas tarazlaşdırıcı mexanizm kimi dövlət hakimiyyəti sistemində qanunvericilik və icra hakimiyyətlərinin hüquq çərçivəsində fəaliyyət göstərmələri üçün onların fəaliyyətini istiqamətləndirir (42,s.424). Bu tərifin müəllifi məhkəmə hakimiyyətini hakimiyyətlər bölgüsü prinsipinin mahiyyəti kontekstində xarakterizə edir.

Təxmini oxşar anlayış professor Y.Skuratov tərəfindən səsləndirilir. O, qeyd edir ki, hüquq əsasında cəmiyyətdə yaranan mübahisələrin həllini, qanunçuluğu təmin edərək, məhkəmə hakimiyyəti qanunvericilik və icra hakimiyyəti qollarının fəaliyyətinə hüquqi nəzarəti həyata keçirir və hakimiyyət budaqları arasında tarazlıq və çəkindirmə mexanizmini təmin edir (səh.461).

"Azərbaycan Respublikasının hüquq-muhafizə orqanları" adlı dərslikdə isə qeyd olunur ki, məhkəmə hakimiyyəti hüququn tətbiq edilməsi zamanı məhkəmələrin səlahiyyətinə aid edilmiş məsələləri həll etməkdən və məhkəmələr tərəfindən qəbul edilən qərarların qanuniliyinə və ədalətliliyinə zəmin verən prosessual formalara əməl

etməklə konstitusiya, cinayət, inzibati, mülki və iqtisadi məhkəmə icraatı yolu ilə bu səlahiyyətlərin realizəsindən ibarətdir (49,s.56). Zənnimizcə bu anlayışın müəllifləri məhkəmə hakimiyyəti və ədalət mühakiməsinin anlayışını qarışıq salır.

Lakin məhkəmə hakimiyyəti ədalət mühakiməsi anlayışına nisbətən genişdir və özündə konstitusiya nəzarəti, ədalət mühakiməsi, dövlət orqanlarının və vəzifəli şəxslərin qərarlarından şikayət verildikdə, onların qanunauyğun və əsaslı olmasına nəzarət, vətəndaşların hüquqlarının məhdudlaşdırılması ilə əlaqədar müvafiq hərəkətlərin aparılmasının sanksiyalaşdırılması, məhkəmə aktlarının icrası, məhkəmə təcrübəsinə aid məsələlər üzrə qanunvericiliyin izah edilməsi, məhkəmə korpusunun formalaşdırılması və s. ehtiva edir. Bu kontekstə məhkəmə hakimiyyətinin ümumilikdə aşağıdakı funksiyalarını fərqləndirmək olar:

1. Xalq suverenliyinin, xalq hakimiyyətinin təmin olunması;
2. Ədalət mühakiməsi;
3. İnsan və vətəndaş hüquq və azadlıqlarının təminatı;
4. Prosessual məcburetmə tədbirlərinin əsaslı və qanunvericiliyə uyğun olmasına dair məhkəmə nəzarəti;
5. Zəruri hallarda hüquq normalarının təfsiri;
6. Hüquqi əhəmiyyətə malik olan faktların təsdiqi;
7. Fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması;
8. Məhkəmə aktlarının icrasının təmin olunması.

Zənnimizcə, məhkəmə hakimiyyətinin funksiyalarının təhlili əsasında belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikası Konstitusiyasının məhkəmə hakimiyyətinin həyata keçirilməsi adlı 125 maddəsinin II hissəsinə prokurorluq orqanlarını da aid etməliyik.

Təbii ki, prokurorluq məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə həyata keçirmir. Bu cür funksiya yalnız məhkəmələrə aiddir. Lakin, prokurorluq məhkəmədə dövlət ittihamını müdafiə edir, iddia qaldırır, məhkəmə qərarlarından protest verir. Bu baxımdan hesab edirik, təsadüf deyildir ki, "Azərbaycan Respublikasının prokurorluğu" adlı 133- cü maddə Azərbaycan Respublikası Konstitusiyasının "Məhkəmə hakimiyyəti" adlı VII fəslində öz əksini tapmışdır. Həmçinin "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində müəyyən olunur ki, Azərbaycan Respublikasının Prokurorluğu məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

Müasir elmi ədəbiyyatlarda məhkəmə hakimiyyətinin mahiyyətinə (əsas təyinatına) dair müxtəlif fikirlər səslənir.

Məsələn, professor Straşunun redaktorluğu ilə hazırlanan "Xarici ölkələrin konstitusiya (dövlət) hüququ" adlı dərslikdə qeyd olunur ki, demokratik cəmiyyətdə məhkəmə hakimiyyətinin əsas sosial təyinatı hüququn aliliyini təmin etməkdir(90).

Professor V.Lazarev isə yazır ki, məhkəmə hakimiyyətinin əsas təyinatı cəmiyyətin üzvlərini ayrı-ayrı fərdlərin, dövlət orqanlarının, vəzifəli şəxslərin, qeyri dövlət təşkilatlarının qeyri qanuni əməllərindən qorumaqdan ibarətdir(88).

Professor O.Kutafin qeyd edir ki, məhkəmə hakimiyyəti ədalət mühakiməsini həyata keçirən dövlət hakimiyyətinin növlərindən biridir. Ədalət mühakiməsi hüquq normalarının pozulması ilə əlaqədar müxtəlif sosial münaqişələrin baxılması və həll edilməsi üzrə dövlət fəaliyyəti növüdür (89,s.441). Təbii ki, ədalət mühakiməsinin həyata keçirilməsi məhkəmə hakimiyyətinin birinci və əsas

funksiyasıdır. Lakin bu cür vəziyyət bizə məhkəmə hakimiyyətini ədalət mühakiməsi anlayışı ilə eyniləşdirməyə əsas vermir.

Yuxarıda deyilənləri nəzərə alaraq, hesab edirik ki, mahiyyət də daxil olmaqla məhkəmə hakimiyyətinin anlayışını aşağıdakı kimi müəyyən etmək olar.

Məhkəmə hakimiyyəti xalq suverenliyi, hüququn aliliyini, insan və vətəndaş hüquq və azadlıqlarını təmin edən, qanunvericiliklə müəyyən olunmuş qaydada ədalət mühakiməsini həyata keçirən dövlət hakimiyyətinin müstəqil sahəsidir.

Demokratik dövlətlərin təcrübəsində təşkilati formasına görə məhkəmə hakimiyyəti orqanları monosistemlilik və polisistemlilik prinsipləri əsasında fəaliyyət göstərir.

Monosistemli məhkəmə modeli əsasən anqlo-sakson hüquq ailəsinə daxil olan ölkələr üçün xarakterikdir. Burada, adətən, başda Ali Məhkəmə olmaqla vahid məhkəmə sistemi mövcuddur. Monosistemlik onu bildirir ki, məhkəmə sistemi yanlız instansiya üzrə təşkilatlanır. Burada məhkəmə sistemi predmetin xüsusiyyətləri nəzərə alaraq, bir çox hallarda daxilən təşkilatlanır (mülki kollegiya, inzibati kollegiya və s.) .

Polisistemli məhkəmə hakimiyyəti isə daha çox kontinental (qitə) hüquq ailəsinə daxil olan ölkələr üçün xarakterikdir. Adətən bu dövlətlərdə bir-birindən asılı olmayan (müstəqil) və hər birinin öz ali orqanı (Ali Məhkəməsi) olan ümumi və ixtisaslaşdırılmış məhkəmə sistemi mövcuddur. Məsələn, Almaniya Federativ Respublikasında Konstitusiya Məhkəməsi ilə birgə beş Ali Məhkəmə fəaliyyət göstərir: 1.Federal Məhkəmə Palatası,; 2.Federal İnzibati Məhkəmə; 3.Federal Əmək Məhkəməsi və 5. Federal Sosial Məhkəmə. Yuxarıda göstərilən orqanlar

ölkədə məhkəmə təcrübəsinin vahidliyini təmin etmək məqsədilə senat təşkil edir.

Aparılan təhlil onu göstərir ki, son dövrlər demokratik dövlətlər polisistemlik məhkəmə hakimiyyəti modelinə tədricən daha çox üstünlük verir.

Azərbaycan Respublikasının qanunvericiliyində mono və polisistemli məhkəmə modellərinin müsbət təcrübəsi inteqrasiya olunur. Bu da ölkəmizdə məhkəmə hakimiyyətinin demokratikliyini daha da gücləndirir.
Monosistemlilik prinsipinə uyğun olaraq Azərbaycan Respublikasında başda Ali Məhkəmə olmaqla vahid məhkəmə hakimiyyəti sistemi mövcuddur. Bununla bərabər ölkəmizdə polisistemlilik modelində olduğu kimi, ümumi məhkəmələrlə yanaşı müstəqil ixtisaslaşmış (məsələn: inzibati, komersiya, hərbi və s.) məhkəmələr də fəaliyyət göstərir.

§2. Demokratik dövlətdə məhkəmə hakimiyyətinin təşkili və fəaliyyət prinsipləri.

Demokratik məhkəmə hakimiyyətinin təşkili və fəaliyyət prinsiplərini həmçinin konstisusiya prinsipləri adlandırmaq olar. Belə ki, məhkəmə hakimiyyətinin həyata keçirilməsində fundamental rol oynayan bu başlanğıc ideyalar adətən dövlətin əsas qanunu sayılan Konstitusiyada təsbit olunur. Həmin prinsiplərin ətraflı təhlil edilməsi həm nəzəri, həm də praktiki əhəmiyyətə malikdir. Bu kontekstə, hər şeydən öncə xalq suverenliyi prinsipinin izah olunması xüsusi əhəmiyyət kəsb edir. Xalq suverenliyi prinsipi məhkəmə hakimiyyətinin həm praktiki fəaliyyətində təzahür edir, həm də digər demokratik prinsiplərə nisbətdə inteqrativ rol oynayır.

Ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilən və normativ aktlar sistemində ən yüksək hüquqi qüvvəyə malik olan Konstitusiyanın aliliyinin təmin olunması məqsədilə Konstitusiya məhkəmə nəzarəti mexanizminin təsis edilməsi və fəaliyyəti bu mühüm prinsipin əsas təzahür forması kimi çıxış edir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən ölkədə həyata keçirilən seçkilərin nəticələrinin yoxlanılması və təsdiqi, konstitusiya və qanunların təfsiri, hakimiyyət qolları arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrin həll edilməsi, eyni zamanda xalqın seçdiyi Prezident və Parlament tərəfindən hakimlərin təyin edilməsi, ədalət mühakiməsi prinsiplərinin konstitusiya səviyyəsində təsbit edilməsi xalq suverenliyi prinsipinin ifadə formasıdır.

2. Qanunçuluq prinsipi. Bu prinsip məhkəmə hakimiyyətinin fəaliyyətində müxtəlif formalarda təzahür edir.

İlk növbədə qeyd olunmalıdır ki, bütün məhkəmə hakimiyyəti orqanları qanunvericilik aktları əsasında təşkil olunur. Məsələn, burada Konstitusiya Məhkəməsi haqqında, Məhkəmələr və hakimlər haqqında, Prokurorluq haqqında, Məhkəmə hüquq Şurası haqqında və digər qanunları göstərmək olar. Qanunvericilikdən kənar hər hansı məhkəmə hakimiyyəti orqanlarının yaradılması yolverilməzdir. İikincisi, qanunçuluq prinsipi məhkəmə hakimiyyəti orqanlarının fəaliyyətində təzahür edir. Belə ki, məhkəmə hakimiyyətinin vəzifə və funksiyaları qanunvericilik aktları ilə müəyyən olunur.

Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin V hissəsində qeyd olunur ki, məhkəmə quruluşu və məhkəmə icraatı qaydası qanunla müəyyən olunur.

Respublikamızda demokratik məhkəmə hakimiyyətinin formalaşması və inkişafı prosesində

Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi Fərman və Sərəncamların rolu xüsusi qeyd olunmalıdır. Bu hüquqi sənədlərin mahiyyəti barədə gələn paraqraflarda ətraflı məlumat veriləcəkdir.

Qanunçuluq prinsipinin realizəsi prosesində eyni zaman dövlətimizin tərəfdar çıxdığı beynəlxalq hüquqi aktların rolunu da xüsusi qeyd etməliyik.

3. İnsan və vətəndaş hüquq və azadlıqlarının təminatı prinsipi. Bu prinsipin realizəsi əsasən iki formada təzahür edir. Birinci, öz vəzifə və funksiyalarının həyata keçirilməsində məhkəmə hakimiyyəti orqanları insan və vətəndaş hüquq və azadlıqlarının təminatına dair səmərəli müdafiə mexanizmi yaratmalıdır.

Bu prinsip Əsas Qanun səviyyəsində öz hüquqi ifadəsini Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsində tapmışdır. Burada qeyd olunur ki, Konstitutsiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

Ötən paraqrafda biz məhkəmə hakimiyyəti və ədalət mühakiməsi terminlərini fərqləndirdik. Burada qeyd olundu ki, məhkəmə hakimiyyəti daha geniş anlayışdır və ədalət mühakiməsi onun əsas funksiyalarından biridir. Bu baxımdan hesab edirik ki, məhkəmə hakimiyyətinin və ədalət mühakiməsinin prinsipləri də fərqləndirilməlidir. Bu baxımdan əgər məhkəmə hakimiyyətinin prinsipləri bütövlükdə məhkəmə hakimiyyəti sisteminin təşkili prosesində rəhbər tutulan başlanğıc ideyaları ehtiva edirsə, ədalət mühakiməsinin prinsipləri, məhkəmələr tərəfindən cinayət, mülki, inzibati və s. icraat qaydasında ədalət mühakiməsinin həyata keçirilməsi prinsipləridir.

Azərbaycan Respublikası Konstitusiyasının "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlı üçüncü fəslində insan hüquqlarının məhkəmə təminatına dair bir

neçə fundamental hüquqlar təsbit edilmişdir. Məsələn, burada qeyd olunur ki, hər kəsin hüquq və azadlıqlarının inzibati və məhkəmə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın (mad.60).

Eyni zamanda konstitusiyamızın başqa bir maddəsində deyilir ki, hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ vardır. Şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir.

Yuxarıda göstərilən konstitusiya normalarının icra mexanizmi ilə bağlı respublikamızda müvafiq qanunvericilik bazası formalaşmışdı. Lakin, məhkəmə təcrübəsi, o cümlədən, İnsan hüquqları üzrə Avropa Məhkəməsinin Azərbaycanla bağlı təcrübəsi onu göstərir ki, bəzi hallarda məhkəmələrdə işlərin baxılması müddəti Konstitusiyamızın 60-cı maddəsinin II his. və İnsan hüquqları üzrə Avropa Konvensiyasının 6-cı maddəsində qeyd olunan "məhkəmədə işlərə ağlabatan müddətdə baxılmalıdır" normasından kənara çıxır. Təbii ki, bu cür hallar qəbul edilməzdir və məhkəmələrin hüquqi məsiliyyətinə səbəb olur.

Hesab edirik bu sahədə Avropa Məhkəməsinin presedentləri məhkəmələr tərəfindən geniş şəkildə öyrənilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının "Məhkəməyə təkakr müraciət hüququ" adlı 65-ci maddəsində isə qeyd olunur ki, məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması hüququ vardır. Zənnimcə bu norma aşağıdakı redaksiyada verilməlidir: "Hər kəsin birinci instansiya məhkəməsinin çıxardığı hökm və qərarlarından qanunla

nəzərdə tutulmuş qaydada yuxarı instansiya məhkəməsində yenidən baxılması..... hüququ vardır".

İnsan və vətəndaş hüquq və azadlıqlarının təminatı kontekstində "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi" haqqında Qanunun qəbul edilməsini müsbət hal kimi qeyd etmək olar.

Bu Qanun Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə təsbit edilmiş Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi qaydalarını müəyyənləşdirir, habelə vətəndaşların hüquq və azadlıqlarının məhkəmə təminatı ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

Adı çəkilən Qanunda deyilir ki, dövlət orqanlarının və yerli özünüidarə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətləri (hərəkətsizliyi) nəticəsində öz hüquq və azadlıqlarını pozulmuş hesab edən Azərbaycan Respublikasının hər bir vətəndaşının məhkəməyə müraciət etmək hüququ vardır. Məhkəmə şikayətə baxılmasının nəticələri barədə qətnamə çıxarır. Məhkəmə şikayətin əsaslı olduğunu müəyyənləşdirdikdə şikayət edilən qərarları və hərəkətləri qanunsuz hesab edir, vətəndaşlar barəsində tətbiq edilən məsuliyyət tədbirlərini ləğv edir, onların pozulmuş hüquq və azadlıqlarını bərpa edir, habelə dövlət orqanlarının və yerli özünüidarə orqanlarını müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin vətəndaşların hüquq və azadlıqlarını pozan qərarları və hərəkətləri (hərəkətsizliyi) ilə bağlı onların məsuliyyətini müəyyənləşdirir.

4. Hakimiyyətlər bölgüsü prinsipi. Yuxarıda qeyd olundu ki, müasir demokratik dövlət hakimiyyətini

səciyyələndirən əsas prinsip hakimiyyətlər bölgüsüdür. Bu prinsip öz hüquqi ifadəsini Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsində tapır. Burada qeyd olunur ki, qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir; icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur; məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Konstitusiyamızda bəyan edilən hakimiyyətlər bölgüsü konsepsiyasına görə məhkəmə hakimiyyəti, bir tərəfdən qanunvericilik və icra hakimiyyəti qollarından asılı olmayan, müstəqil, digər tərəfdən onlarla qarşılıqlı əlaqədə fəaliyyət göstərən dövlət hakimiyyəti qoludur.

Hər şeydən əvvəl məhkəmə hakimiyyətinin qanunvericilik hakimiyyəti ilə qarşılıqlı əlaqəsini təhlil edək. Qanunvericilik hakimiyyəti məhkəmə sistemini, onun təşkili prinsiplərini, məhkəmə hakimiyyətinin vəzifə və funksiyalarını, hakimlərin statusunu və s. məsələləri tənzimləyən qanunlar qəbul edir, Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin, apellyasiya məhkəmələrinin hakimlərini vəzifəyə təyin edir. Eyni zaman Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi qanunvericilikdə göstərilən subyektlərin sorğusu əsasında qanunların Konstitusiyaya uyğunluğunu yoxlayır. Azərbaycan Respublikası konstitusiyasının 96-cı maddəsinə əsasən Azərbaycan Respublikasının Ali Məhkəməsi qanunvericilik təşəbbüsü, yəni qanun layihələrini Milli Məclisin müzakirəsinə təqdim etmək hüququna malikdir. Bundan başqa Konstitusiya Məhkəməsi qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələri həll edir.

Qanunvericilik hakimiyyətinə nisbətən məhkəmə və icra hakimiyyəti qanadlarının qarşılıqlı əlaqəsi daha genişdir. İcra hakimiyyəti orqanları məhkəmə aktlarının

icrasını təmin edir, kadr hazırlığını həyata keçirir, məhkəmələrin maddi-texniki təminatını təşkil edir. İcra hakimiyyəti sisteminə daxil olan hüquq mühafizə orqanları öz səlahiyyətləri daxilində inzibati hüquqpozmalara dair ilkin araşdırma aparıb işi müvafiq qərar çıxarmaq üçün məhkəməyə təqdim edir, həmçinin cinayət işləri üzrə məhkəməyədək təhqiqat və ibtidai istintaq tədbirlərini həyata keçirir. Öz növbəsində məhkəmə hakimiyyəti icra hakimiyyəti orqanlarının qəbul etdiyi hüquqi aktların Konstitusiyaya, qanunlara, dövlətimizin tərəfdar çıxdığı beynəlxalq aktlara uyğunluğunu təmin edir, qanunvericiliyə müvafiq qaydada icra hakimiyyəti subyektləri tərəfindən törədilən hüquqpozmalara dair ədalət mühakiməsini həyata keçirir, insan və vətəndaş hüquq və azadlıqlarını qoruyur, müəyyən hallarda icra hakimiyyəti subyektləri tərəfindən dövlət məcburetmə tədbirlərinin tətbiqi üzərində məhkəmə nəzarətini həyata keçirir.

5. “De partizasiya” prinsipi.

Məhkəmə hakimiyyətini digər hakimiyyət qollarından fərqləndirən cəhətlərdən biri də, “de partizasiya” prinsipi əsasında fəaliyyət göstərməsidir. Bu prinsip məhkəmələrin müstəqilliyi və obyektivliyini təmin edir, onları hər hansı siyasi qüvvələrin təsirindən qoruyur.

Əvvəlki paraqraflarda qeyd olundu ki, qanunvericilik hakimiyyətini həyata keçirən parlament siyasi plüralizm prinsipi əsasında fəaliyyət göstərir. Və yaxud icra hakimiyyətinin ali kollegial icra və sərəncam orqanı-Nazirlər Kabinetinin tərkibinə daxil olan rəhbər vəzifəli şəxslər bu və yaxud digər siyasi partiyaların üzvü və ya bitərəf ola bilər.

Məhkəmə hakimiyyətinə gəldikdə isə, Azərbaycan Respublikası Konstitusiyasının 126-cı mad. II his. görə, hakimlər heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa

heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməz və siyasi partiyalara üzv ola bilməzlər. Qeyd olunan bu konstitusion norma hər şeydən əvvəl məhkəmə hakimiyyətinin ən mühüm prinsipi olan məhkəmələrin müstəqilliyini, obyektivliyini, hakimlərin işlərə qərəzsiz, ədalətlə baxması, hər hansı bir şəxs, siyasi qüvvə tərəfindən məhkəmələrin işinə müdaxilə edilməsinə yol verilməzlik prinsiplərini təmin edir.

Yuxarıda təhlil olunan problem kontekstində aktual məsələlərdən biri də məhkəmələrin tərkibinin formalaşması prosesidir. Əgər qanunvericilik və icra hakimiyyəti orqanlarının tərkibinin formalaşmasında namizədlərin partiya mənsubiyyəti müəyyən rol oynayırsa, məhkəmə hakimiyyəti barədə yuxarıda göstərildiyi kimi bunu demək olmaz.

Professor M.B.Baqlay yazır ki, məhkəmə hakimiyyətinin ən böyük problemlərindən biri siyasi təzyiqlərdən uzaq olmaqdır. Lakin biz məhkəmə hakimiyyətini siyasətdən də tam uzaqlaşdıra bilmərik, çünki məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin tərkib hissəsidir, dövlət isə siyasi sistemin əsas formasıdır. Bu ideya həmçinin məhkəmələrin tətbiq etdiyi hüquq normalarına aiddir. Belə olan halda məhkəmələrin siyasi təsir problemilə üzləşməsi qaçılmazdır. Lakin, bu problemin, yəni siyasi təsirin dərəcəsini azaltmaq üçün demokratik dövlət daimi axtarışda olmalı, müvafiq mexanizmlər yaratmalıdır.

Zənnimcə, bu cür mexanizmlərindən biri, məhkəmə hakimiyyəti orqanlarının tərkibinin formalaşdırılması ilə bağlı ola bilər. Hesab edirik ki, bu məsələnin həllində siyasi amillər deyil, yalnız yüksək peşəkarlıq, hüquq mədəniyyəti və hakimliyə namizədin mənəvi-əxlaqi keyfiyyətləri əsas götürülməlidir.

Müasir dövrdə demokratik dövlətlərin təcrübəsində məhkəmələrin tərkibinin formalaşdırılmasının iki əsas üsulu fərqləndirilir: Birinci seçkilər yolu ilə; ikinci təyinetmə yolu ilə.

Professor B.Çirkin yazır ki, ABŞ-ın bir çox ştatlarında hakimlər vətəndaşlar tərəfindən seçilir. Ölkələrin əksəriyyətində isə hakimlər təyin olunur (41,s.383).

Hakimlərin elektorat tərəfindən seçilməsi ilk baxışdan daha demokratik görünə bilər. Lakin, hesab edirik seçki mexanizmi məhkəmə hakimiyyəti üçün münasib deyil. Birincisi, hakimliyə namizədin yüksək peşəkarlıq səviyyəsinin müəyyən olunması elektoratın imkanlarından kənardı; ikincisi, seçki prosesi siyasi xarakterə malikdir və siyasi partiyaların aktiv fəaliyyətini ehtiva; üçüncüsü, etiraf edək ki, məhkəmədə hakimi seçən şəxslərin işinə baxıldığı halda asılılıq ehtimalının yaranması mümkündür ki, bu da öz növbəsində ədalət mühakiməsinin obyektivliyinə öz mənfi təsirini göstərə bilər.

Yuxarıda deyilənləri nəzərə alaraq hesab edirik hakimlərin aşağıdakı qaydada təyin olunması daha demokratikdir:

1. Məhkəmə hakimiyyəti orqanlarının tərkibini xalqın seçdiyi Prezident və Parlament formalaşdırır.
2. Təyin edilməzdən öncə xüsusi prosedur qaydalar əsasında hakimliyə namizədlərin hüquqi birlikləri və peşəkarlıq səviyyəsi, şəxsi, mənəvi-mədəni, əxlaqi keyfiyyətləri yoxlanılır;
3. Hakim vəzifəsini müstəqil, qərəzsiz, ədalət və yüksək peşəkarlıq səviyyəsində həyata keçirilməsi məqsədilə vətəndaşlıq, təhsil, yüksək peşəkarlıq senzlərinin qanunvericilikdə müəyyən olunması.

Zənnimizcə, demokratik dövlətdə məhkəmə hakimiyyətinin həyata keçirilməsində istifadə

olunan mühüm prinsiplərdən biri də məhkəmə prosesində "andlı iclasçıları" institutunun tətbiqidir.

Andlılar məhkəməsi xalq hakimiyyəti sisteminin mühüm elementi kimi məhkəmə hakimiyyətinin həyata keçirilməsində xalqın bilavasitə iştirakını təmin edir. Çox təəssüf ki, Azərbaycan qanunvericiliyi bu təcrübədən imtina etmişdir. Azərbaycan Respublikasında (2000-ci ildə) yeni Cinayət-prosessual Məcəlləsi qəbul olunarkən ağır cinayət işləri üzrə məhkəmələrdə andlı iclasçıların iştirakına dair müvafiq qaydalar nəzərdə tutulsada onun icra mexanizmi müəyyən olunmadı, və son nəticədə Azərbaycan qanunvericiliyi bu təcrübədən ümumiyyətcə imtina etdi.

Lakin, hesab edirik Məhkəmə hakimiyyəti sistemində, bilavasitə demokratiyanın təminatı kontekstində "Andlılar məhkəməsi" institutunun tətbiqi məqsədəuyğun olardı.

Demokratik dövlətlərin təcrübəsi əsasında andlılar məhkəməsinin iki əsas (İngilis və Fransız) modelini fərqləndirmək olar.

Birinci model orta əsrlərdə İngiltərədə yaranmış və Britaniya imperiyasının Asiya, Afrika, amerika müstəmləkə dövlətlərinə yayılmışdır. XV əsrdə andlılar məhkəməsi İngiltərədə ədalət mühakiməsinin əsas forması sayılırdı. Burada ilk dövrlərdə məhkəmədə işlərinə baxılan -mübahisə edən şəxslərin qonşuları, cinayətin şahidləri andlı iclasçılar qismində çıxış edirdilər. Müəyyən vaxt keçdikdən sonra isə andlı iclasçı qismində çıxış etmək üçün kənar şəxslərin dəvət edilməsi praktikasına üstünlük verildi. Bu şəxslər isə əvvəllər olduğu kimi öz qərarlarını şəxsi müşahidələri əsasında deyil, məhkəmə prosesində işin faktiki hallarına dair irə sürülən dəlillər, səslənən ifadələrin nəticələrinə görə qərarlar qəbul edir.

İngilis modelinin səciyyəvi xüsussiyyətini məhkəmə hakimiyyətinin həyata keçirilməsində "Andlılar

Məhkəməsi" institutundan geniş istifadə təcrübəsi təşkil edir. Buna misal kmi Amerika Birləşmiş Ştatlarının təcrübəsini göstərmək olar. Burada, iddiaçı və yaxud cavabdeh şəxslərin arzusu ilə istənilən mülki və cinayət işlərinə andlıların iştirakı ilə baxıla bilər. Bundan başqa ABŞ Ali Məhkəməsinin 1968-ci il Qərarına görə əgər təqsirləndirilən şəxsə 6 aydan çox həbs cəzası verilə bilərsə, bu halda cinayət işinə andlılar məhkəməsində baxılması tələbi təqsirləndirilən şəxsin konstitusiya hüququdur.

Lakin andlılar Məhkəməsinin vətəni sayılan İngiltərənin özündə mülki işlər üzrə ədalət mühakiməsində iştirak etmək hüququ andlılar məhkəməsinin səlahiyyətlərinə aid deyildir.

Fransız modeli yeni dövrdə inqilabdan sonra yaranır və Albaniya, Avstro-Macarıstan, İtaliya, Rusiya və digər ölkələrə resepsiya olunur.

Bəzi nəzəri mənbələrdə göstərilir ki, Fransada Bonopard Napoleonun sayəsində andlılar məhkəməsi xalq hakimiyyətinin rəmzinə çevrilir.

Fransadan gələn ənənələrə görə bu gün də məhkəmə porsesində andlı iclasçıların iştirakı nisbətən məhdud xarakter daşıyır və əsasən şəxsiyyət və dövlət quruluşu əleyhinə cinayət işləri üzrə ədalət mühakiməsinin həyata keçirilməsində tətbiq olunur.

Bəzi alimlər tənqidi mövqedən çıxış edərək yazırlar ki, andlıların hüquq təhsili olmadığı üçün, onların iştirakı ilə baxılan işlərin həlli də qeyri səmərəli ola bilər.

Hesab edirik ki, bu cür fikirlə razılaşmaq düzgün olmazdır.

Birincisi bu institutun tətbiqi ədalət mühakiməsinin obyektivlik, çəkişmə, ictimai nəzarət prinsiplərinin təminatında mühüm rol oynayır.

İkincisi, andlı iclasları məhkəmədə baxılan işləri hüquqi cəhətdən həll etmir. Onların əsasən həll etməli olduğu

suallar hüquqpozma faktının sübut olunması və bu faktı törədən şəxsin təqsirli olub-olmamasını müəyyən etməkdir.

Üçüncüsü, bu institutun əsas fəlsəfəsi ondan ibarətdir ki, çəkişmə prosesində əgər ittiham tərəfi şəxsin təqsirli olmasına dair kifayət qədər sübutlar təqdim edərək adnlıları inandırmağa müvəffəq olmuşdursa, məhkəmənin təqsirin mötəbərliyinə dair şübhəsi yarana bilməz.

Dördüncüsü, əgər hakim andlıların çıxardığı verdiktlə razı deyildirsə həmin işin yuxarı instansiya məhkəməsində baxılmasına nail ola bilər.

Nəticə etibarilə hesab edirik ki, Azərbaycan Respublikasında məhkəmə hakimiyyəti sistemində andlılar məhkəməsi institutunun Fransa modelinin tətbiqi xalq hakimiyyətinin təminatı kontekstində məqsədəuyğun olardı.

Yuxarıda biz demokratik dövlətdə məhkəmə hakimiyətinin əsas prinsiplərini təhlil etdik. İndi isə ədalət mühakiməsinin konstitusion prinsiplərini nəzərdən keçirək.

Hüquqi dövlətdə ədalət mühakiməsi yalnız məhkəmə orqanları vasitəsi ilə həyata keçirilir və heç kəs bu funksiyanı mənimsəyə bilməz.

Konstitusiyanın 125-ci maddəsinin 1-ci hissəsinə əsasən, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yanlız məhkəmələr həyata keçirir. Ədalət mühakiməsinin yalnız məhkəmə tərəfindən, mühakimə icraatının bütün qaydalarına əməl edilməklə həyata keçirilməsi qanunçuluğun və demokratiyanın, vətəndaşların hüquq və mənafeyinə ciddi əməl olunmasının mühüm təminatıdır. Bu prinsipdən kənara çıxılması, ədalət mühakiməsi funksiyalarını yerinə yetirən məhkəmədənkənar orqanların meydana gəlməsi, demokratiyanın və qanunçuluğun pozulmasına gətirib çıxarır. Ədalət mühakiməsi dövlət fəaliyyətinin xüsusi növüdür. Onun vəzifələri Azərbaycan Respublikası konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını,

mülkiyyət formasından asılı olmayaraq, bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından mühafizə etməkdir.

Məhkəmə hakimiyəti Konstitusiya, mülki, cinayət məhkəmə icraatı və qanunla nəzərdə tutulmuş digər vasitələr ilə həyata keçirilir. Prosessual qaydalara əməl olunması isə hərtərəfli, obyektiv həqiqətin tamamilə aydınlaşdırılmasını, məhkəmə tərəfindən qanuni, əsaslı və ədalətli qətnamə və ya hökm çıxarılmasını tələb edir.

Mülki işlərə və cinayət işlərinə baxılmasının məhkəmə qaydası mülki prosesual, cinayət prosesual və digər qanunvericilikdə ətraflı tənzim olunmuşdur. Prinsipial əhəmiyyəti olan ən mühüm qaydalar isə konstitusiyasının "Məhkəmə hakimiyyəti" adlı VII fəsildə təsbit edilmişdir.

Məhkəmə orqanlarının demokratik mahiyyəti onun təşkili və fəaliyyətinin demokrratik prinsiplərindən irəli gəlir. Bu prinsiplər Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsində göstərilir:

1.Hakimlərin müstəqilliyi və yalnız qanuna tabe olmaları. Məhkəmə işinin materiallarını obyektiv araşdırmaqda hakimlərə mane olmağa, onlara hər hansı şəkildə təziq göstərməyə heç kimin haqqı yoxdur. Məhkəmə qanuna arxalanmaqla və öz daxili əqidəsini əsas tutmaqla qətnamə və hökm çıxarır.

Hakimlərin müstəqilliyini təmin etmək üçün cinayət və mülk prosesual qanunvericilikdə müşavirə otağının sirri haqqında qayda müəyyən edilmişdir. Bu qaydaya əsasən, hakimlər müşavirə edərkən müşavirə otağında yalnız həmin iş üzrə məhkəmənin tərkibinə daxil olan hakimlər ola bilərlər. Başqa şəxslərin olmasına yol verilmir. Bu qaydanın pozulması hökmü ləğv etmək üçün şərtsiz əsasdır.

Konstitusiyasının 8-ci maddəsinin IV hissəsində qeyd olunur ki, məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı Azərbaycan Respublikasının Prezidentidir. Məhkəmələrin müstəqilliyinin ən vacib şərtlərindən biri də hakimlərin vəzifəyə təyin edilməsi, səlahiyyət müddəti və vəzifədən kənarlaşdırılması qaydasıdır.

Konstitusiyaya əsasən, Azərbaycan Respublikası Konstitusiya məhkəməsi, Ali məhkəməsi və İqtisad məhkəməsinin hakimləri Respublika Prezidentinin təqdimatı əsasında Milli Məclis tərəfindən vəzifəyə təyin edilillər. Hakimlərin vəzifədən kənarlaşdırılması yalnız Milli Məclisin qərarı ilə ola bilər.

Hakimlərin müstəqilliyi və yalnız qanuna tabe olmaları ədalət mühakiməsinin düzgün həyata keçirilməsinin mühüm təminatlarından biridir. Bu prinsip tələb edir ki, məhkəmənin bütün fəaliyyəti ciddi olaraq qanunauyğun aparılsın. Məhkəmə iclasının həyata keçirilməsinin prosessual qaydası və onun şərtləri tam və aydın şəkildə qanunla nizama salınır və qanunda göstərilməyən hər hansı hərəkətin məhkəmə tərəfindən edilməsi qəti qadağan edilir.

2.Vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi. Bu demokratik prinsip ədalət mühakiməsi sahəsində qanunçuluğa əməl edilməsi üçün mühüm təminatdır. Cinayət, mülki-prosesual və hər hansı başqa qanun vətəndaşların sosial, əmlak və ya xidməti vəziyyətindən, milli və ya dini etiqadından, yaxud digər hallardan asılı olmayaraq bütün vətəndaşlara eyni qaydada tətbiq edilir.

Lakin qanun hamı üçün bərabər olsada, kor-koranə tətbiq edilmir. Qanunu pozan hər bir kəs vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi əsasında məsuliyyətə cəlb olunur. Məsuliyyətin fərdiliyi prinsipi əsasında isə qanunu pozan şəxsə tənbehin elə bir növü və

dərəcəsi tətbiq edilir ki, bunlar nəinki onun etdiyi xətanın ağırlığına, həm də onun şəxsiyyətinə uyğun olsun.

Məsələn, cinayət işinə baxılarkən fərdiləşdirmə prinsipinin tətbiqi məhkəməyə imkan verir və ondan tələb edir ki, təqsirləndirilən şəxsin keçmiş xidmətlərini, ailə vəziyyətini, yaşını, təhsilini, peşə bacarığını, cinayətin törədilməsi səbəblərini və şəraiti nəzərə alsın. Məhkəmə bu prinsipi rəhbər tutaraq, həmin şəxsə, məsələn şərti məhkumluq tətbiq edə bilər və ya qanunda göstərildiyindən daha yüngül cəza təyin edə bilər.

Vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi prinsipinin məsuliyyətin və cəzanın fərdiləşdirilməsi prinsipi ilə birləşdirərək həyata keçirilməsi ədalət mühakiməsinin son dərəcə ədalətli və humanist olduğunu göstərir.

3.Məhkəmə baxışının açıqlığı. Məhkəmə baxışının açıqlığı prinsipi dedikdə, cinayət və mülki işlərə açıq məhkəmə iclasında kənar şəxslərin iştirakı ilə baxılması, radio, televiziya, mətbuat və s. kütləvi məlumat vasitəsilə məhkəmə baxışı haqqında məlumatların elan olunmasına yol verilməsi başa düşülür. Konstitusiyada deyilir ki, bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır. İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, məhkəmə açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir. Ya da vətəndaşların şəxsi və ailə həyatının sirrini qorumaq zərurətinin mövcudluğunu müəyyən edir. Məhkəmə iclaslarının açıq və ya qapalı aparılmasından asılı olmayaraq, məhkəmənin çıxardığı hökm bütün hallarda açıq elan edilir.

Məhkəmə baxışının açıq aparılması məhkəmənin fəliyyəti üzərində ictimai nəzarəti təmin edir, hakimi, prokuroru və prosesin digər iştirakçılarını işə daha ciddi yanaşmağa, məhkəmədə işə baxılarkən etdikləri hər bir hərəkət üçün daha artıq məsuliyyət hiss etməyə vadar edir.

4.Çəkişmə elə bir prosesdir ki, burada prosesual funksiyalar məhkəmə prosesi subyektləri arasında bölünmüş olur. Məsələn, cinayət işləri üzrə-ittiham funksiyasını dövlət ittihamçısı-prokuror, müdafiə funksiyasını müttəhim və onun vəkili , işi həll etmə funksiyasını isə məhkəmə həyata keçirir. Məhkəmə prosesində çəkişmə əsl demokratik prinsip olub, müttəhimin müdafiə hüququnun real həyata keçirilməsini təmin edir və mühakimə icraatı qarşısında duran vəzifələrin yerinə yetirilməsinə mühüm kömək edir. Həmin prinsipə əsasən proses mübahisə və müzakirə şəraitində aparılır ki, buda öz növbəsində məhkəmə qarşısında duran vəzifələrin həyata keçirilməsinə təminat yaradır. Prosesdə məhkəmə, müttəhim, onun müdafiəçisi, şahidlər, ekspertlər və s. iştirak etsələr də onlardan yalnız ittihamçı, müttəhim və onun vəkili, zərər çəkmiş şəxs, mülki iddiaçı və mülki cavabdeh tərəf sayılırlar.

Göstərilən subyektlərin hər biri ayrılıqda məhkəmə qarşısında öz tələblərinin həyata keçirilməsi üçün qanunla müəyyən edilmiş prosessual vasitələrdən istifadə edirlər. Məsələn, dövlət ittihamçısı-prokuror ittihamın əsaslarını iş üzrə toplanmış materiallarla sübuta yetirilməsini məhkəmə qarşısında əsaslandırmağa çalışır. Müttəhim və onun müdafiəçisi isə elan edilmiş ittihama qarşı öz dəlillərini irəli sürürlər. Beləliklə, proses iki tərəfin çəkişməsinə çevrilir.

Beləliklə, çəkişmə prinsipi ədalət mühakiməsinin demokratik əsaslarında biri olub, işin hallarını hərtərəfli, tam və obyektiv araşdırılmasının, habelə məhkəmə qərarlarının və hökümlərinin qanuni əsaslı və ədalətli olmasını təmin edir.

5.Məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə hüququnun təmin olunması. Konstitusiyamızın 61-ci maddəsində göstərilir ki, hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu

andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır. Azərbaycan Respublikasının cinayət-prosesual qanunvericiliyi müstəntiqə, prokurora, məhkəməyə bir vəzifə olaraq tapşırır ki, müttəhim üçün ona qarşı irəli sürülən ittihamdan müdafiə olunmaq imkanını təmin etsinlər. Müttəhimin müdafiə hüququ təkcə müdafiəçinin xidmətlərindən istifadə hüququ deyildir, bu hüquq müttəhimin qanunla ona verilmiş bir çox hüquqlarının məcmusudur. Müttəhim özünün müdafiə hüququnu həyata keçirərkən, ona qarşı irəli sürülən ittiham barəsində izahat verə bilər, məhkəmə və prosesin digər iştirakçılarına vəsatət və etiraz verə bilər, sübutlar təqdim edə bilər və onların tədqiqində iştirak edə bilər, müstəntiqin, prokurorun və məhkəmənin hərəkətlərindən şikayət verə bilər.

6.Təqsirsizlik prezumpsiyası. Bu prinsipə müvafiq olaraq müttəhim onun təqsiri qanunla müəyyən edilmiş qaydada sübut edilməmişsə, yəni məhkəmənin qanuni qüvvə almış hökmü ilə müəyyən edilməmişsə, təqsirli hesab edilmir.

Təqsirsizlik prezumpsiyası prinsipi öz ifadəsini Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsində daha aydın tapmışdır. Həmin maddənin 1-ci hissəsində deyilir: "Hər kəsin təqsirsizlik prizumsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır".

Təqsirsizlik prezumpsiyası ədalət mühakiməsinin mühüm demokratik prinsipidir. O, istintaq orqanlarından və məhkəmədən qərəzsiz və obyektiv olmağı, işin istintaqında və həllində ittihamedici meyldən uzaq olmağı tələb edir. Bu prinsip məhkəmədən işdə olan və istər müttəhimi ifşa edən, istərsə də ona bəraət qazandıran bütün materialları hərtərəfli

və mükəmməl təhlil etməyi, qanuni və əsaslı hökm çıxarmağı tələb edir.

Cinayət mühakimə icraaatında qüvvədə olan bir sıra qaydalar təqsirsizlik prezumpsiyası prinsipinə əsaslanır. Məsələn, hər cür tərəddüd müttəhimin xeyrinə şərh olunur, ittiham hökmü mülahizəyə əsaslana bilməz, sübut etmək vəzifəsi ittihamçının üzərinə düşür, müttəhim öz təqsirsizliyini sübut etməyə borclu deyildir.

Ədalət mühakiməsinin həyata keçirilməsinin digər mühüm prinsiplərindən biri də məhkəmə icraatının Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq yerin əhalisinin çoxluq təşkil edən hissəsinin dilində aparılmasıdır. Konstitusiyada deyilir ki, .işin iştirakçısı olub, məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərin işin materialları ilə tam tanış olmaq, məhkəmədə tərcüməçi vasitəsilə iştirak etmək və məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilir. Beləliklə, mühakimə icraatının aparıldığı dili bilməyən proses iştirakçılarına tərcüməçi təklif edilir. Bu qaydaya əməl edilməməsi qanunun kobud surətdə pozulması deməkdir və hökmün ləğv edilməsinə səbəb olur.

Qeyd olunan demokratik prinsip proses iştirakçılarının hüquqlarının və qanuni maraqlarının həyata keçirilməsini və prosesdə onlara həvalə edilən vəzifələrin yerinə yetirilməsini təmin edir; cinayət prosesinin tərbiyəvi təsirini realizə etmək üçün lazım olan şəraiti yaradır; təhqiqat, istintaq, məhkəmə və prokurorluq orqanlarının fəaliyyətini xalqın nəzarəti altına alır, vətəndaşların qanun və məhkəmə qarşısında əsl bərabərliyini təmin edir.

§3. Xalq hakimiyyətinin təmin olunmasında Konstitusiya Məhkəməsinin rolu

Müasir demokratiyanı səciyyələndirən əsas əlamətlərdən biri də konstitusiya qanunçuluğu prinsipinin təmin edilməsidir. Azərbaycan Respublikasında Konstitusiya qanunçuluğu konsepsiyası aşağıdakı əsas müddəaları ehtiva edir:

- Azərbaycan Respublikasının Konstitusiyası xalq suverenliyinin təzahürü kimi ümumbəşəri dəyərlərə əsaslanır, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, hər kəsin layiqli həyat səviyyəsinin təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edir. Dövlətimizin Əsas Qanunu demokratik, hüquqi, dünyəvi, unitar, respublika dövlət formasını, siyasi, ideoloji, iqtisadi plüralizmi, hakimiyyətlər bölgüsü, yerli özünüidarəetmə və s. fundamental dəyərləri özündə birləşdirir;
- Azərbaycan Respublikasının Konstitusiyası normativ-hüquqi aktlar sistemində ən yüksək hüquqi qüvvəyə malikdir. Ölkəmizdə həyata keçirilən hüquqyaratma və hüquqtətbiqetmə prosesi Konstitusiyaya tam uyğun olmalıdır;
- Azərbaycan Respublikasının Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir;
- Konstitusiya qanunçuluğu prinsipini təmin etmək məqsədi ilə ölkəmizdə xüsusi Konstitusiya məhkəmə nəzarətı orqanı-Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yyaradılır.

Konstitusiya hüquq doktrinasında konstitusiya qanunçuluğu konsepsiyası aşağıdakı nəzəriyyələri ehtiva edir: 1.Orqanik (üzvi) nəzəriyyəyə görə konstitusiya təsisedici, suveren hakimiyyətin (yəni xalqın) qəbul etdiyi qanun olduğundan digər hüquqyaratma subyektlərinin hüquqi aktları konstitusiyaya zidd ola bilməz; 2.İnstitusional nəzəriyyə qeyd edir ki, konstitusiya dövlət orqanlarının hüquqi statusunun əsaslarını tənzimləyir və bu orqanlar bir-birinin səlahiyyətlərini mənimsəyə, işinə müdaxilə edə

bilməz; 3.İctimai müqavilə nəzəriyyəsinin mülahizələrinə görə konstitusiya idarə edənlər və idarə olunanlar üçün müvafiq qaydalar, xüsusilə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminat sistemini təsbit edir ki, konstitusiya nəzarəti mexanizmi də hüququn bütün subyektləri tərəfindən həmin qaydalara əməl olunmasına dair nəzarəti həyata keçirməlidir.

Konstitusiya nəzarəti mexanizminin tarixi təcrübəsi göstərir ki, ayrı-ayrı dövlətlərdə bu funksiya müxtəlif dövlət orqanları, yəni qeyri məhkəmə orqanları tərəfindən (məsələn, Prezident, Parlament, Nazirlər Kabineti və s.) həyata keçirilmişdir. Lakin müasir konstitusiya doktrinası bu təcrübəni səmərəli hesab etmir. Məsələn, professor B.Straşun yazır ki, Prezident, Parlament, Hökumət və buna bənzər orqanlar siyasi fəaliyyət həyata keçirdiyindən, belə orqanların konstitusiya nəzarətinə bəzən siyasi nəzarət adı verilir. Onlar müəyyən müddətə seçilirlər, növbəti və növbədənkənar seçkilər onların siyasi tərkibini tamamən dəyişə bilər və onların apardığı siyasətin də dəyişdirilməsinə gətirib çıxara bilər (90,s.99).

Zənnimizcə, konstitusiya nəzarətinin məhkəmə hakimiyyəti sistemi daxilində yaradılan xüsusi mexanizm vasitəsilə həyata keçirilməsi daha məqsədəuyğundur.

Müasir hüquqi doktrina və praktika konstitusiya məhkəmə nəzarətinin iki əsas modelini fərqləndirir: 1.Amerika; 2.Avropa modeli.

Bir çox tədqiqatçılar belə bir qənaətə gəlmişlər ki, Amerika Birləşmiş Ştatları konstitusiya nəzarəti sisteminin yarandığı birinci dövlət olmuşdur. Bu institutun doktrinası ABŞ Ali Məhkəməsinin baş hakimi Con Marşal tərəfindən «Merberi Medisona qarşı» iş üzrə 1803-cü il tarixli qərarında formalaşdırılmışdır. Bu qərarda konstitusiyanın aliliyi prinsipinin müvafiq şərhi verilmiş və konstitusiyanın

müdafiəsi üçün məhkəmə hakimiyyəti tərəfindən nəzarətin zəruriliyi əks olunmuşdur (40).

Bu iş üzrə ABŞ-ın Ali Məhkəməsi müəyyən etmişdir ki, Konqresin Federal Konstitusiyaya zidd olan qanunu məhkəmə tərəfindən qeyri-konstitusion hesab edilə bilər, başqa sözlə, qeyd edilən iş üzrə məhkəmə belə qərar qəbul etməklə özünə, yəni ABŞ-m Ali Məhkəməsinə qanunların konstitusiyaya uyğunluğuna məhkəmə nəzarətini həyata keçirmək səlahiyyətini vermişdir. Bununla da ABŞ- da konstitusiya ədalət mühakiməsinin formalaşmasının əsası qoyulmuşdur.

Bu modelə görə konstitusiya ədalət mühakiməsi ümumi ədalət mühakiməsindən ayrılmır və ümumi yurisdiksiyalı məhkəmələr (bəzi dövlətlərdə bütün məhkəmələr, bəzilərində isə yalnız Ali Məhkəmə) tərəfindən həyata keçirilir. Hazırda Amerika qitəsində yerləşən dövlətlərdən-Argentina, Boliviya, Dominikan Respublikası, Kanada, Meksikadan başqa, Amerika modeli Asiya qitəsində olan ölkələrdə-Banqladeş, İsrail, Hindistan, İran, Pakistan, Yaponiyada, habelə Avstraliya, Yeni Zelandiya, bir sıra ingilisdilli Afrika dövlətlərində də tətbiq edilir. Bu ölkələrin böyük əksəriyyətində ingilis-sakson hüquq sistemi qüvvədədir.

Bir sıra ölkələrdə, məsələn ABŞ, Yaponiya, Filippin, Skandinaviya ölkələrində hər bir məhkəmə normativ aktın konstitusiyaya uyğunluğu haqqında məsələni həll edir, lakin bu sahədə ali məhkəmə instansiyalarının qərarları prioritet təşkil edir (mərkəzləşdirilməmiş nəzarət). Bir qrup ölkələrdə isə, məsələn. Qana, Namibiya, Şri-Lanka, Estoniyada konstitusiya nəzarəti yalnız ali məhkəmə instansiyası tərəfindən həyata keçirilir (mərkəzləşdirilmiş nəzarət). Bəzi federativ dövlətlərdə ali məhkəmə instansiyası ilə yanaşı, konstitusiya nəzarətini federasiya subyektlərinin ali məhkəmələri də həyata keçirir (Avstraliya, Kanada,

Hindistan, Malayziya). Lakin burada federal Ali Məhkəmə normativ aktların konstitusiyaya uyğunluğu haqda məsələnin həlli zamanı sonuncu instansiya qismində çıxış edir (40).

Amerika modeli olan ölkələrdə konstitusiya-hüquq mübahisələri və konstitusiya nəzarəti ilə bağlı məsələlərə ümumi yurisdiksiyalı məhkəmələr adi qaydada konkret işlərə-cinayət, mülki, inzibati işlər üzrə icraat həyata keçirildiyi zaman baxır. Hakim yuxarı instansiya məhkəməsinə şikayət verilə bilən qərar qəbul edir, bu qərardan şikayət Ali Məhkəməyə (ABŞ, Kanada, Hindistan) qədər davam edə bilər. Ali Məhkəmə bu məsələ ilə bağlı qəti qərar qəbul edir. Onu da qeyd etmək lazımdır ki, Ali Məhkəmə qanunu ləğv etmək səlahiyyətinə malik deyil. Ali Məhkəmə sadəcə konkret qanunun konstitusiyaya uyğun olub-olmamasını müəyyən edir. Qanunun konstitusiyaya uyğun olmaması müəyyən edildikdə, həmin qanun qanunlar külliyyatında qalır, lakin nə məhkəmələr, nə də digər dövlət orqanları bu qanunu tətbiq etməməlidirlər (40).

Beləliklə konstitusiya məhkəmə nəzarətinin amerika modeli aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

1) ümuməhatəedici xarakter, yəni təkcə qanunlar deyil, bütün normativ hüquqi aktların konstitusiyaya uyğunluğu yoxlanılır;

2) nəzarət mərkəzləşdirilməmiş şəkildə, hər hansı konkret işə baxılarkən qanun və ya hər hansı normativ akt iddiaçının konkret maraqlarına zidd olduğu təqdirdə bütün məhkəmələr tərəfindən həyata keçirilir;

3) nisbi xarakter daşıyır, çünki məhkəmənin qərarı yalnız tərəflər üçün məcburi olur və ümumi hüquq tətbiqinə şamil olunmur.

Beləliklə, təsdiq etmək olar ki, amerika modelinin qüvvədə olduğu bütün dövlətlərdə konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsində ali məhkəmə

instansiyası həlledici rol oynayır . Yalnız bu məhkəmənin qərarı son olmaqla, bütün digər məhkəmələr üçün məcburi xarakter daşıyır.

Hüquq elmləri doktoru Fərhad Abdullayev yazır ki,bu sistemin müsbət cəhəti ondan ibarətdir ki, hüquqi aktın konstitusiyaya uyğunluğu məsələsinin həlli istənilən məhkəmə instansiyasında mümkündür. Lakin bizim fikrimizcə, bu sistemin çatışmayan cəhətləri daha var. Belə ki, məhkəmənin cinayət, mülki və inzibati işlərə baxarkən eyni zamanda hüquqi aktların konstitusiyaya uyğunluğunu da yoxlaması, habelə bu prosesin ali məhkəmə instansiyasına qədər bütün instansiyalardan keçərək davam etməsi, nəticədə məhkəmə icraatının ləngiməsinə, onun həddən artıq uzun müddətə başa çatmasına gətirib çıxarır. Digər tərəfdən, belə sistemdə konstitusiya ədalət mühakiməsi demək olar ki, konstitusiya hüququ sahəsində ixtisaslaşmayan hakimlər tərəfindən həyata keçirilir. Bu da öz növbəsində, ədalət mühakiməsinin effektivliyinə mənfi təsir göstərə bilər(40).

Birinci Dünya müharibəsindən sonra konstitusiya məhkəmə nəzarəti ideyası Avropa qitəsində fəal inkişaf etməklə ixtisaslaşdırılmış konstitusiya məhkəmələri formasında həyata keçirilməyə başlamışdır. Bu məhkəmələr qanunların konstitusiyaya uyğunluğunun yoxlanılması sahəsində müstəsna səlahiyyətlərə malik idi. Konstitusiya nəzarətinin göstərilən modeli konstitusiya nəzarətinin ümumi məhkəmələr tərəfindən həyata keçirildiyi amerika modelindən fərqli olaraq **Avropa modeli** adlanırdı.

Məhz bu dövrdə Avropada avstriyalı hüquqşünas Hans Kelzenin ideyalarına əsaslanan konstitusiya nəzarətinin spesifik konsepsiyası hökmranlıq etməyə başlamışdı. Hans Kelzen 1920-ci ildə Avstriya federal konstitusiya qanununun işlənilməsində iştirak etmiş, sonradan o, həmin ölkənin Konstitusiya Məhkəməsinin üzvü

olmuşdur. Onun konsepsiyası təcrübədə kifayət qədər öz təsdiqini tapmış və bu günə qədər də aktuallığını itirməmişdir. Hans Kelzen hesab edir ki, qanunların konstitusiyaya uyğunluğunu yoxlamaq məqsədilə konstitusiya tribunalının təsis edilməsi tam şəkildə hakimiyyətlər bölgüsü nəzəriyyəsinə uyğundur.

Hans Kelzenin fikrincə, konstitusiyanı, digər bütün normaların yaranması prosedurunu və məzmununu müəyyən edən əsas qanun kimi qəbul etmək lazımdır. Ona görə də konstitusiya, əsas prosedur qaydaların məcmusu olmaqla yanaşı, həmçinin maddi hüququn nüvəsi kimi müəyyən edilməlidir. Müəllifin göstərilən məntiqi sonradan ixtisaslaşdırılmış məhkəmələr tərəfindən həyata keçirilən konstitusiya ədliyyəsi ideologiyasının əsasını təşkil etmişdir(40).

Birinci və İkinci Dünya müharibələri arasındakı dövrdə, siyasi cəhətdən qeyri-sabit bir şəraitdə "Kelzen modeli" təcrübədə yalnız bir neçə dövlət-Avstriya (1920-ci il), Çexoslovakiya (1920-ci il), Yunanıstan (1927-ci il), İspaniya (1931-ci il), İrlandiya (1937-ci il), Misir (1941-ci il) tərəfindən tətbiq edilmişdir. Həmin dövrdə dünyada amerika modeli daha üstün mövqedə dayanırdı. Müharibədən sonra artıq demək olar ki, bütün Avropa dövlətlərində əsas funksiyası qanun və digər normativ hüquqi aktların Əsas Qanuna uyğunluğunu təmin etmək olan konstitusiya məhkəmələri yaradıldı.

Avropa modelinin geniş yayılması İkinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Bu, əsasən demokratik rejimlərin bərpa olunduğu dövlətlərdə təşəkkül tapmışdır. Müxtəlif modifikasiyalarda həmin model İtaliyada, Yaponiyada, Birmada (1947-ci il), Almaniyada, Hindistan, Tailandda (1949-cu il) və Türkiyədə (1961 -ci il) özünə yer tapmışdır. Bəzi ölkələrdə konstitusiya nəzarəti, diktator rejiminin devrilməsindən sonra təsis edilmişdir

(məsələn, Yunanıstanda (1968-ci il), Portuqaliyada (1976-cı il), İspaniyada (1978-ci il). Qeyd etməliyik ki, bəzi ölkələrdə konstitusiya məhkəmələrinin fəaliyyəti yalnız konstitusiya nəzarəti və konstitusiya ədalət mühakiməsini həyata keçirməklə məhdudlaşmayaraq, daha geniş səlahiyyətlərə də malikdir. Məsələn, Almaniya Federativ Respublikası Konstitusiyasının 95-ci maddəsinə əsasən Federal Konstitusiya Məhkəməsi məhkəmə təcrübəsinin vahidliyini təmin edir, məhkəmə təcrübəsini ümumiləşdirir və təhlil edir, öz tövsiyə və təkliflərini irəli sürür.

Avropa modelinin mühüm xüsusiyyətlərini aşağıdakı kimi xarakterizə etmək olar:

1. Konstitusiya nəzarəti və ədalət mühakiməsinin həyata keçirilməsi ümumi məhkəmələrdən ayrılmaqla, müstəqil (bəzən yarımmüstəqil) olan konstitusiya məhkəmələri vasitəsilə aparılır;
2. Konstitusiya nəzarəti konstitusiya məhkəmələri üçün yeganə səlahiyyət kimi müəyyən edilir;
3. Konstitusiya məhkəmələrinin hüquqi statusu, onların səlahiyyətlərini və fəaliyyətini tənzim edən qaydalar müvafiq dövlətin konstitusiyası və xüsusi qanunları ilə nəzərdə tutulur;
4. Konstitusiya məhkəmələrinin təsis edilməsi, digər ümumi məhkəmələrin dövlət orqanları tərəfindən qəbul edilən aktların konstitusiyaya uyğunluğuna nəzarət etmə imkanını istisna etmir;
5. Konstitusiya məhkəmələrinə, onların funksional təyinatını nəzərə alaraq, bir qayda olaraq peşəkar hakimlər deyil, hüquq professorları, yüksək dövlət məmurları, digər yüksək ixtisaslı hüquqşünaslar seçilir;
6. Konstitusiya məhkəmələri tərəfindən qəbul edilən qərarlar ümumməcburi xarakter daşıyır, yəni həmin qərarlar yalnız iş üzrə tərəflər və məhkəmə üçün deyil, hüququn bütün subyektləri üçün məcburi xarakterə malik olur.

Bəzi nəzəri mənbələrdə qeyd olunur ki, avropa modelindən fərqli olaraq amerika modeli konstitusiya məhkəmə nəzarəti orqanına müraciət etmək üçün vətəndaşlara daha geniş imkanlar yaradır.

Zənnimizcə bu cür fikirlə razılaşmaq düzgün olmazdı. Belə ki, avropa modeli də bu təcrübədən istifadə edə bilər. Misal kimi öz ölkəmizin konstitusiya məhkəmə nəzarəti sistemini göstərə bilərik.

12 noyabr 1995-ci il tarixdə ilk milli Konstitusiyamız qəbul olunarkən fiziki şəxslərin Konstitusiya Məhkəməsinə şikayətlə müraciət etmək hüququ nəzərdə tutulmurdu. Lakin 2002-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasına edilən əlavə və dəyişikliklərə görə: hər kəsin, onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından Konstitusiya məhkəməsinə şikayət vermək hüququ təsbit edilmişdir (mad.130,V his). Xalq hakimiyyətinin əsas elementi sayılan insan və vətəndaş hüquqlarının, azadlıqlarının səmərəli təminatı kontekstində bu cür normanın konstitusiyamıza əlavə edilməsini mütərəqqi hal kimi qəbul edirik.

Ümumilikdə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi xalq hakimiyyətinin təmin olunması funksiyasını təmin etmək məqsədilə aşağıdakı vəzifə və səlahiyyətləri həyata keçirir:

- Konstitusiyanın və referendumla qəbul edilmiş aktların aliliyini qoruyur;
- Konstitusiya və qanunları rəsmi təfsir edir;
- Azərbaycan Respublikası Milli Məclisi deputatları seçkilərinin nəticələrinin yoxlayır və təsdiq edir;
- müharibə şəraitində Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddətinin uzadılması ilə əlaqədar məsələni həll edir;

- Azərbaycan Respublikası prezidenti seçkilərinin nəticələrinin rəsmi elan edilməsini həyata keçirir;
- Azərbaycan Respublikası prezidentinin istefa ərizəsinə baxılması ilə əlaqədar işlərin icraatını həyata keçirir;
- Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər edilməsi haqqında təkliflərinə dair rəy qəbul edir və s.

Beləliklə, Azərbaycan Respublikasında Konstitusiya Məhkəməsinin fəaliyyətini tənzimləyən qanunvericilik sisteminin interpretasiyası əsasında belə bir nəticəyə gəlmək olar ki, respublikamız konstitusiya məhkəmə nəzarətinin avropa modelini qəbul etmişdir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müstəqil dövlət orqanıdır və təşkilati, maliyyə, habelə hər hansı başqa cəhətdən qanunvericilik, icra və digər məhkəmə hakimiyyəti orqanlarından, habelə hüquqi və fiziki şəxslərdən asılı deyildir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin 1-ci hissəsinə müvafiq olaraq, Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir. Xalq suverenliyi prinsipinin təzahürü kimi Konstitusiya Məhkəməsinin tərkibini xalqın seçdiyi Ali nümayəndəli orqanlar formalaşdırır. Belə ki, Konstitusiya Məhkəməsinin

hakimlərini Prezidentin təqdimatı ilə Milli Məclis 15 il müddətinə təyin edir. Səlahiyyət müddəti başa çatdıqdan sonra Konstitusiya Məhkəməsinin hakimi təkrar eyni vəzifəyə təyin edilə bilməz. Məhkəmənin Sədri və Sədr müavini Dövlət başçısı tərəfindən hakimlərin sıralarından təyin edilir.

Konstitusiya Məhkəməsinin aşağıdakı orqanları fərqləndirilir: Konstitusiya Məhkəməsinin Plenumu, palataları və yığıncaqları.

Konstitusiya Məhkəməsinin Plenumunun tərkibinə məhkəmənin bütün hakimləri daxildir. Plenumun iclaslarında icraata qəbul edilmiş sorğulara, müraciətlərə və şikayətlərə mahiyyəti üzrə baxılır.

Palataların tərkibləri Konstitusiya Məhkəməsinin sədri tərəfindən müəyyən edilir. Palataların iclaslarında Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III-VII hissələrində nəzərdə tutulmuş məsələlərə dair sorğuların, müraciətlərin və ya şikayətlərin icraata qəbul edilib-edilməməsi məsələsi həll olunur. Lakin elə məsələlər var ki, birbaşa Konstitusiya Məhkəməsi Plenumunun iclaslarında baxılır. Bu məsələlər barədə Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikasının Qanununda qeyd olunur (mad. 7.3).

Konstitusiya Məhkəməsinin iclaslarında həll edilən məsələlər istisna olmaqla, Konstitusiya Məhkəməsinin daxili fəaliyyətinə dair və digər məsələlərin baxılıb həll edilməsi üçün Konstitusiya Məhkəməsi hakimlərinin yığıncaqları keçirilir. Məsələn, yığıncaqda Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsi qəbul olunur, məhkəmənin rəsmi emblemi, möhürü və s. təsdiq olunur, digər təşkilati məsələlər həll edilir.

Yuxarıda göstərilən orqanlar Konstitusiya Məhkəməsinin daxili orqanlarıdır və burada Konstitusiya Məhkəməsinin hakimləri fəaliyyət göstərir.

Konstitusiya Məhkəməsinin digər orqanı onun daimi aparatıdır. Bu orqan Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi, təşkilati, informasiya təminatını həyata keçirir.

Konstitusiya Məhkəməsinin aparatında konstitusiya hüququ, insan hüquqları və təşkilati-analitik, cinayət və inzibati hüquq, mülki hüquq və digər şöbələr, sədr və hakimlərin köməkçiləri, məhkəmə qərarlarının icrasına nəzarət, məhkəmə iclaslarının təşkili sektorları fəaliyyət göstərir.

Konstitusiya Məhkəməsi mövzusunda aktual suallardan biri də bu orqanın qəbul etdiyi Qərarların hüquqi

qüvvəsi ilə bağlıdır. Konstitusiya Məhkəməsi haqqında Qanunun 63-cü maddəsində deyilir ki, Konstitusiya Məhkəməsi Plenumunun qərarı konstitusiya işinə mahiyyəti üzrə baxılması nəticəsində Konstitusiya Məhkəməsinin gəldiyi qənaəti əks etdirən və Konstitusiya Məhkəməsi Plenumunun iclaslarında qəbul edilən yazılı sənəddir. Konstitusiya Məhkəməsinin qərarları Azərbaycan Respublikasının ərazisində məcburi qüvvəyə malikdir.

Azərbaycan Respublikasında Konstitusiya Məhkəməsinin fəaliyyətini tənzimləyən qanunvericilik sisteminin interpretasiyası əsasında belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan konstitusiya məhkəmə nəzarətinin avropa modelini qəbul etmişdir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müstəqil dövlət orqanıdır və təşkilati, maliyyə, habelə hər hansı başqa cəhətdən qanunvericilik, icra və digər məhkəmə hakimiyyəti orqanlarından, habelə hüquqi və fiziki şəxslərdən asılı deyildir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin 1-ci hissəsinə müvafiq olaraq, Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir. Xalq suverenliyi prinsipinin təzahürü kimi Konstitusiya Məhkəməsinin tərkibini xalqın seçdiyi Ali nümayəndəli orqanlar

formalaşdırır. Belə ki, Konstitusiya Məhkəməsinin hakimlərini Prezidentin təqdimatı ilə Milli Məclis 15 il müddətinə təyin edir. Səlahiyyət müddəti başa çatdıqdan sonra Konstitusiya Məhkəməsinin hakimi təkrar eyni vəzifəyə təyin edilə bilməz. Məhkəmənin Sədri və Sədr müavini Dövlət başçısı tərəfindən hakimlərin sıralarından təyin edilir.

Konstitusiya Məhkəməsinin aşağıdakı orqanları fərqləndirilir: Konstitusiya Məhkəməsinin Plenumu, palataları və yığıncaqları.

Konstitusiya Məhkəməsinin Plenumunun tərkibinə Konstitusiya Məhkəməsinin bütün hakimləri daxildir. Plenumun iclaslarında icraata qəbul edilmiş sorğulara, müraciətlərə və şikayətlərə aidiyyəti üzrə baxılır.

Palataların tərkibləri Konstitusiya Məhkəməsinin sədri tərəfindən müəyyən edilir. Palataların iclaslarında Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III-VII hissələrində nəzərdə tutulmuş məsələlərə dair sorğuların, müraciətlərin və ya şikayətlərin icraata qəbul edilib-edilməməsi məsələsi həll olunur. Lakin elə məsələlər var ki, birbaşa Konstitusiya Məhkəməsi Plenumunun iclaslarında baxılır. Bu məsələlər barədə

Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikasının Qanununda qeyd olunur (mad. 7.3)

Konstitusiya Məhkəməsinin iclaslarında həll edilən məsələlər istisna olmaqla, Konstitusiya Məhkəməsinin daxili fəaliyyətinə dair və digər məsələlərin baxılıb həll edilməsi üçün Konstitusiya Məhkəməsi hakimlərinin yığıncaqları keçirilir. Məsələn, yığıncaqda Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsi qəbul olunur, məhkəmənin rəsmi emblemi, möhürü və s. təsdiq olunur, digər təşkilati məsələlər həll edilir.

Yuxarıda göstərilən orqanlar Konstitusiya Məhkəməsinin daxili orqanlarıdır və burada Konstitusiya Məhkəməsinin hakimləri fəaliyyət göstərir.

Konstitusiya Məhkəməsinin digər orqanı onun daimi aparatıdır. Bu orqan Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi, təşkilati, informasiya təminatını həyata keçirir.

Konstitusiya Məhkəməsinin aparatında konstitusiya hüququ, insan hüquqları və təşkilati-analitik, cinayət və inzibati hüquq, mülki hüquq və digər şöbələr, sədr və hakimlərin köməkçiləri, məhkəmə qərarlarının icrasına nəzarət, məhkəmə iclaslarının təşkili sektorları fəaliyyət göstərir.

Konstitusiya Məhkəməsi mövzusunda aktual suallardan biri də bu orqanın qəbul etdiyi Qərarların hüquqi qüvvəsi ilə bağlıdır. Konstitusiya Məhkəməsi haqqında Qanunun 63-cü maddəsində deyilir ki, Konstitusiya Məhkəməsi Plenumunun qərarı konstitusiya işinə mahiyyəti üzrə baxılması nəticəsində Konstitusiya Məhkəməsinin gəldiyi qənaəti əks etdirən və Konstitusiya Məhkəməsi Plenumunun iclaslarında qəbul edilən yazılı sənəddir. Konstitusiya Məhkəməsinin qərarları Azərbaycan Respublikasının ərazisində məcburi qüvvəyə malikdir.

"Normativ hüquqi aktlar" haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu Konstitusiyanın 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş Konstitusiya Məhkəməsinin qərarlarını normativ xarakterli aktlar sırasına aid edir.

Yuxarıda adı çəkilən Qanunda, həmçinin normativ xarakterli aktın definisiyası verilir. Burada qeyd olunur ki, normativ xarakterli akt məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir (mad.1.0.3.). Lakin normativ xarakterli aktları qəbul etmək səlahiyyətinə malik olan subyektlərdən fərqli olaraq Konstitusiya Məhkəməsinin yuxarıda göstərilən

məsələlər üzrə qəbul etdiyi qərarları bu definisiyaya tam uyğun gəlmir. Birincisi, normativ xarakterli aktlar məhdud subyektlər dairəsi üçün nəzərdə tutulduğu halda Konstitusiya Məhkəməsinin qərarı hüquqi qüvvəsinə görə qeyri-məhdud subyektlər üçün də məcburi ola bilər. İkincisi, Konstitusiya Məhkəməsinin qərarı yeni davranış qaydası yaratmır, yalnız Konstitusiyaya zidd hüquq normalarını, qanunazidd qanuntabeli aktları və s. ləğv edir. Üçüncüsü, Konstitusiyanın, qanunların şərhi ilə bağlı Konstitusiya Məhkəməsinin qərarı normayaratma akt deyil, mövcud hüquq normalarının aydınlaşdırılması və izah olunması aktıdır.

Yuxarıda deyilənləri nəzərə alaraq hesab edirik ki, Konstitusiya Məhkəməsinin qərarları normativ xarakterli aktların xüsusi növüdür.

4. Azərbaycan Respublikasında müasir məhkəmə hakimiyyətinin formalaşması və inkişaf mərhələləri.

XX əsrin sonunda Azərbaycan xalqı öz suverenliyini bərpa etdikdən sonra demokratik, hüquqi dövlət quruculuğuna qədəm qoydu və ictimai, dövlət həyatının bütün sahələrində demokratik islahatlar həyata keçirməyə başladı. Bu İslahatların ən geniş vüsət aldığı sahələrdən biri də məhz məhkəmə sistemi olmuşdur.

Müasir Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin formalaşması və inkişafı sahəsində aparılan demokratik islahatları üç mərhələyə bölmək olar.

1995-ci ildə Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Milli Konstitusiyamızın qəbul edilməsi ilə məhkəmə hüquq islahatının birinci mərhələsi başlanmışdır.

Konstitusiyanın qəbulu Azərbaycanda demokratik dövlət quruluşunun və hüquqi dövlətin möhkəm təməlini qoymuş, hüquqi islahatların aparılmasına əsaslı zəmin yaratmışdır. Konstitusiyada demokratik cəmiyyətin qurulması, fəaliyyət göstərməsi və inkişafı üçün ilkin müddəalar öz əksini tapır. Bu inkişafın əsas komponenti aşkar, ədalətli, səmərəli ədalət mühakiməsinin yaradılması məqsədi ilə həyata keçirilən məhkəmə-hüquq sisteminin islahatıdır.

Nəzərə çatdırmaq lazımdır ki, məhkəmə hakimiyyəti, onun hüquqi dövlətdə rolu və yeri ilə bağlı əsas ideyalar Azərbaycan Respublikası Konstitusiyasının bünovrəsi kimi çıxış edən konseptual əsaslardan irəli gəlir. Müstəqil Azərbaycan Konstitusiyasında ilk dəfə olaraq "Məhkəmə hakimiyyəti" adlı 7-ci fəsil müəyyən edilmişdir. Bununla da cəmiyyətdə yaranan bütün hüquq münasibətlərinin həlli məsələsi məhkəmə orqanlarının səlahiyyətinə aid edilmişdir.

Məhkəmə hakimiyyətinə verilmiş yeni səlahiyyətlər nəzərə alınmaqla ölkə tarixində ilk dəfə olaraq Əsas Qanunda hakimlərin sərbəstliyi və müstəqilliyinin vacib təminatı-onların dəyişməzliyi prinsipləri reallaşmışdır.

Konstitusiya normalarının həyata keçirilməsinin məntiqi nəticəsi kimi qısa müddət ərzində ölkədə demokratik, hüquqi dövlətin möhkəm təməli qoyulmuş, hüquq sistemində köklü dəyişikliklər həyata keçirilmiş, beynəlxalq təşkilatlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilən, insan hüquqlarının daha etibarlı təminatına xidmət edən, müasir tələblərə uyğun yeni qanunlar o cümlədən, Konstitusiya Məhkəməsi haqqında, Məhkəmələr və hakimlər haqqında, Prokurorluq haqqında, Polis haqqında Azərbaycan Respublikasının qanunları, Mülki, Mülki-Prosessual, Cinayət, Cinayət-Prosessual, Vergi, Gömrük və sair məcəllələr qəbul edilmişdir.

Bu məqsədlə ilk növbədə məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik bazasının Avropa Şurası ekspertləri ilə birgə ətraflı tədqiq edilməsi məqsədi ilə Azərbaycan-Avropa Şurası birgə işçi qrupu yaradılmış, gərgin və intensiv müzakirələr aparılmış, əhatəli Fəaliyyət Planı hazırlanaraq həyata keçirilmişdir. Bu zaman Avropa Şurası Nazirlər Komitəsinin Hakimlərin müstəqilliyi, səmərəliliyi və roluna dair 12 saylı (1994) Tövsiyəsi, Hakimlərin statusu haqqında Avropa Xartiyası (1998), Avropa Hakimlərinin Məşvərətçi Şurasının Məhkəmələrin müstəqilliyi və dəyişməzliyinə dair standartlarla əlaqədar 1 saylı (2001) rəyi diqqət mərkəzində saxlanılmışdır. Görülmüş tədbirlər nəticəsində ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə hakimiyyətinin müstəqilliyinə əlavə təminatların müəyyən olunmasını nəzərdə tutan yeni qanunvericilik layihələri hazırlanmış və Avropa Şurasında ekspertizadan keçirildikdən sonra qəbul olunmuşdur.

Azərbaycan tarixində ilk olaraq 1998-ci il iyul ayında konstitusiya nəzarəti orqanı olan Konstitusiya Məhkəməsi yaradılmışdır.

Qanunun aliliyinin təmin edilməsi, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin genişləndirilməsi məqsədi ilə 2000-ci ilin sentyabr ayında Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi yaradılaraq fəaliyyətə başlamışdır.

Ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə görülən tədbirlər çərçivəsində hakim vəzifələrinə namizədlərin beynəlxalq standartlara müvafiq, test üsulu, habelə yazılı və şifahi imtahanlarla tam şəffaf şəraitdə seçimi aparılmışdır.

Ölkəmizdə məhkəmə islahatlarının birinci mərhələsində apellyasiya və kassasiya instansiyalı üç pilləli məhkəmə sistemi formalaşır. Yeni məhkəmə quruluşu işlərə birinci instansiya məhkəmələrində baxılmasına, onların hüquqa və fakta görə apellyasiya qaydasında yenidən baxılmasına, daha sonra isə məhkəmə qərarlarına hüquqa görə kassasiya qaydasında yoxlanılmasına imkan yaradır. Bu isə, öz növbəsində birinci instansiya məhkəməsinin buraxdığı səhvlərin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə və prosessual baxımdan düzgün və obyektiv həll edilməsinə, süründürməçiliyin aradan qaldırılmasına, köhnə sistemdən miras qalmış nəzarət instansiyasından imtina edilməsinə zəmin yaradır.

Bildiyimiz kimi demokratik, hüquqi dövlətdə məhkəmə hakimiyyətinin nüfuzuna mühüm təsir göstərən problemlərdən biri də məhkəmə aktlarının dəqiq və vaxtında icra olunmasıdır. Bu məqsədlə 1-ci mərhələdə aşağıdakı demokratik islahatlar həyata keçirilmişdir.

Cəzaçəkmə müəssisələri, istintaq təcridxanaları Daxili İşlər Nazirliyinin tərkibindən çıxarılaraq Ədliyyə

Nazirliyinin tabeçiliyinə verilir. Bu təcrübə keçmiş SSRİ respublikaları arasında ilk dəfə məhz Azərbaycanda tətbiq edilir.

Penitensiar sistemdə aparılan islahatların məqsədi həbs olunmuş şəxslərin humanist şəraitdə saxlanılmasını təmin etmək və məhkum olunmuş şəxslər üçün müasir və mütərəqqi sistem çərçivəsində islah təsiri göstərə bilən ümumi davranış qaydalarını müəyyən etmək idi. Bununla əlaqədar olaraq, islah -əmək qanunvericiliyinin beynəlxalq standarlara və demokratik cəmiyyətin prinsiplərinə uygunlaşdırılması üçün Cəzaların İcrası Məcəlləsi hazırlanarkən BMT-nin "Məhkumların davranış qaydalarının minimum standartları", Avropa Şurası tərəfindən qəbul olunmuş "Avropa Penitensiar qaydaları" və digər beynəlxalq aktlar nəzərə alınır. Yeni qanunvericiliklə məhbusların hüquqları genişləndirilir, şəxsi təhlükəsizlik, vicdan və din azadlıqlarına təminat verilir, onların sağlamlığı, tibbi xidmət, sanitar-gigiyena məsələləri və qidalanmaları xeyli yaxşılaşdırılır, yeni iş yerləri açılır, ictimai faydalı işlə məşğul olmaq üçün imkan yaradılır və onlara bir sıra yeni imtiyazlar verilir. Penitensiar müəssisələrin islah-təsir sistemində əsaslı dəyişikliklər baş verir.

"Beynəlxalq Qızıl Xaç Komitəsinin azadlıqdan məhrum etmə yerlərində səlahiyyətlərinin həyata keçirilməsinin təmin edilməsi barədə" Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qızıl Xaç Komitəsi arasında 2000-ci ildə Saziş imzalanır, hüquq müdafiəçiləri və qeyri-hökumət təşkilatlarının penitensiar müəssisələrdə məhbuslarla görüşmələrinə bütün imkanlar yaradılır.

Dövlət adından çıxarılmış məhkəmə qərarlarının icrası isə "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında" Qanuna uyğun olaraq təmin edilir. Məhkəmə qərarlarının, həmçinin cinayət işləri üzrə azadlıqdan

məhrum etmə ilə əlaqədar olmayan cəzaların icrasını təmin edən məhkəmə icraçıları xidməti yaradılır.

Birinci mərhələdə keçirilən islahatlardan biri də prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı olmuşdur. Prokurorluqda həyata keçirilən islahatların əsas məqsədi ölkənin gələcək inkişafına və demokratik hüquqi dövlət quruculuğu prinsiplərinə uyğun olaraq prokurorluğun səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması, qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, kadrların peşəkar səviyyəsinin artırılması idi. Bu məqsədlə prokurorluq Konstitusiyada məhkəmə hakimiyyəti fəslinə daxil edilir və prokurorluğun demokratik cəmiyyətlərə xas olan funksiyaları müəyyən edilir. 1999-cu ildə qəbul edilən "Prokurorluq haqqında" Qanunla prokurorluğun məhkəmələr üzərində nəzarəti və bazar iqtisadiyyatı münasibətlərinin inkişafına mane olan ümumi nəzarət funksiyaları ləğv olunur, onun mülki və kommersiya işlərinə müdaxilə etməsi məhdudlaşdırılır. İnsan hüquq və azadlıqlarını məhdudlaşdıran prosessual hərəkətlərin prokurorluq tərəfindən həyata keçirilməsinə qanunla müəyyən edilmiş hallarda və qaydada yalnız məhkəmənin qərarına əsasən yol verilir. Hazırda prokurorluğun fəaliyyəti məhkəmədə iddia qaldırmaq, mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kmıı iştirak etmək, məhkəmədə dövlət ittihamını müdafiə etmək, məhkəmə qərarlarından protest vermək, məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak etmək və s.istiqamətləri ehtiva edir.

Beləliklə, məhkəmə islahatının ilkin mərhələsində atılmış mühüm addımlar nəticəsində müvafiq qanunvericilik bazası beynəlxalq standartlara uyğunlaşdırılmış, yeni üçpilləli məhkəmə sistemi təsis edilmiş və ölkənin tarixində ilk dəfə olaraq test üsulu ilə yeni hakimlər təyin edilmişdir. Qanunvericilikdə məhkəmə hakimiyyətinin müstəqilliyinin

və hakimlərin statusunun əsasları, habelə hüquqi dövlətə xas olan ədalət mühakiməsinin prinsipləri müəyyən edilmiş, məhkəmələrin fəaliyyəti üçün zəruri şərait yaradılmış, hakimlərin maddi və sosial təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

Lakin cəmiyyətimizin iqtisadi və sosial həyatının sürətli inkişafı məhkəmə sisteminin təkmilləşdirilməsi işini daim gündəmdə saxlayır. Bununla əlaqədar məhkəmə islahatı davam etdirilərək yeni mərhələyə keçmiş, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə ədalət mühakiməsinin inkişafında keyfiyyətcə yeni dəyişikliklər baş vermişdir.

Məhkəmələrin işinin təkmilləşdirilməsi və onun beynəlxalq tələblərə uyğunlaşdırılıması məqsədilə 2004-cü ilin dekabr ayında "Məhkəmə-Hüquq Şurası haqqında" qanun qəbul olunmuş, "Məhkəmələr və hakimlər haqqında" qanuna hakimlərin seçim prosedurunun yeni dəyərlər əsasında müəyyən edilməsini, fəaliyyətlərində sui-istifadəyə yol vermiş hakimlər barədə intizam məsuliyyətinin gücləndirilməsini, məhkəmələrin işində şəffaflığın təmin edilməsini nəzərdə tutan əsaslı dəyişikliklər edilmişdir. Bu normativ hüquqi aktlardan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə həyata keçirilmiş tədbirlər nəticəsində məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən mahiyyətcə yeni qurum-Məhkəmə-Hüquq Şurası təşkil edilmiş, ilk dəfə yaradılmış Hakimlərin Seçki Komitəsi tərəfindən vakant hakim vəzifələrinə namizədlərin seçilməsi prosesinə başlanmışdır.

Məhkəmə sisteminin müasirləşdirilməsinin növbəti mərhələsində regionların sosial-iqtisadi inkişafı şəraitində əhalinin hüquqi yardıma tələbatının ödənilməsi üçün yeni məhkəmələrin yaradılması, vətəndaşların narazılıqlarına səbəb olan sui-istifadə, süründürməçilik hallarının və digər nöqsanların aradan qaldırılması, ədalət mühakiməsinin

səmərəliliyinin və vətəndaşların məhkəmələrə inamının artırılması, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq edilməsi, məhkəmə aparatlarının strukturunun və işinin daha optimal şəkildə qurulması, habelə digər mühüm məsələlərin həlli nəzərdə tutulurdu. Beləliklə, 2004-cü il dekabr ayından etibarən məhkəmə-hüquq islahatlarının ikinci mərhələsi başlanmış və bu mərhələdə bir sıra mühüm islahatlar həyata keçirilmişdir.

Ölkəmizdə aparılan islahatlar nəticəsində məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası yenidən təşkil olunmuş və 2005-ci ilin fevral ayından fəaliyyətə başlamışdır. 15 nəfərdən ibarət olan Şura əsasən hakimlərdən (9 nəfər) formalaşmış, eyni zamanda onun tərkibinə hakimiyyətin digər qollarının, habelə məhkəmə prosesində tərəf olan prokurorluğun və vəkilliyin nümayəndələri də daxil edilmişdir. Hakim vəzifələrinə seçilmiş namizədlərin ilkin və davamlı hazırlığının təşkili, fəaliyyətinin qiymətləndirilməsi, iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və onların fəaliyyəti ilə bağlı digər məsələlər bu orqanın səlahiyyətinə aid edilmişdir.

Məhkəmə-Hüquq Şurası daimi fəaliyyət göstərən müstəqil orqandır və təşkilati, maliyyə, habelə hər hansı başqa cəhətdən qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, habelə hüquqi və fiziki şəxslərdən asılı deyildir. Məhkəmə-Hüquq Şurası qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası, elmi təşkilatlarla qarşılıqlı fəaliyyət göstərir.

Bu mərhələdə həmçinin hakimliyə namizədlərin seçilməsi məqsədilə müstəqil qurum olan Hakimlərin Seçki Komitəsi yaradılmış, hakimliyə namizədlərin Avropada ən mütərəqqi və şəffaf üsullarla seçilməsi qaydası müəyyən olunmuşdur.

Məhkəmə-Hüquq Şurası tərəfindən Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamə, Vakant olan hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsi Qaydaları işlənib hazırlanmış və Avropa Şurasında ekspertizadan keçirildikdən sonra qəbul olunmuş, Hakimlərin Seçki Komitəsinin tərkibi formalaşdırılmışdır. Hakimlərin Seçki Komitəsinin 11 üzvü vardır ki, onların da yarıdan çoxu hakimdir. Digərləri isə icra hakimiyyəti orqanını, Məhkəmə-Hüquq Şurasının aparatını, prokurorluğu və vəkilliyi təmsil edirlər.

Qeyd etmək lazımdır ki, hakimlərin seçilməsi ilə bağlı yeni qaydalara uyğun olaraq bütün namizədlər üçün bərabər şərait yaradılır, onlar vahid zalda imtahanlar verir və nəticələr dərhal, həmin zalda namizədlərin qarşısında yoxlanılaraq elan edilir. Hakimliyə namizədlərlə şəffaf prosedurlar əsasında, beynəlxalq standartlara uyğun keçirilmiş test üsulu ilə, habelə yazılı və şifahi imtahanlarda müvəffəqiyyət qazanmış şəxslər növbəti mərhələyə-yarım il davam edən ilkin uzunmüddətli tədris kurslarına buraxılırlar. Məhkəmələrdə stajkeçmə dövrünü də uğurla başa vurduqdan sonra hakimliyə namizədlərlə Hakimlərin Seçki Komitəsi tərəfindən yazılı və şifahi imtahan keçirilir.

Bu təsisat hələ XIX əsrin sonlarından Fransa və İtaliyada əhəmiyyətli presedentlərə malik olmuşdur. Bu gün isə məhkəmə hakimiyyətinin özünüidarə orqanı olmaqla Avropada ən mütərəqqi təcrübə kimi istifadə edilir. Azərbaycan da məhz bu təcrübəyə istinad etmişdir.

Məhkəmə hüquq islahatlarının məntiqi davamı kimi "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi haqqında" ölkə Prezidenti cənab İlham Əliyevin 19 yanvar 2006-cı il tarixli fərmanı məhkəmə sisteminin müasirləşdirilməsi və inkişafında mühüm əhəmiyyət kəsb edir. Fərmana əsasən vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması,

məhkəmələrdə sürüdürməçilik və digər hüquq pozuntuları hallarının aradan qaldırılması, hakimlərin iş yükünün azaldılması, məhkəmələrin yeni informasiya texnologiyaları ilə təmin edilməsinə dair müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi üçün regionların inkişafı nəzərə alınmaqla Bakı, Gəncə, Sumqayıt, Şəki və Şirvan şəhərlərində regional Apellyasiya və Yerli İqtisad Məhkəmələri, Naxçıvan Muxtar Respublikasında isə Ağır Cinayətlərə dair işlər üzrə məhkəmə təşkil edilmişdir.

Ölkədə ədalət mühakiməsinin yüksək səviyyədə həyata keçirilməsi üçün Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayı artırılmış, eyni zamanda Ağır Cinayətlərə Dair işlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi ləğv edilərək, onun əvəzinə Bakı, Gəncə, Lənkəran və Şəki Ağır Cinayətlər Məhkəməsi və habelə Yerli iqtisad Məhkəmələrinin bazasında İnzibati İqtisad Məhkəmələri yaradılmış, məhkəmələrin maddi texniki bazası möhkəmləndirilmişdir. Beləliklə, ölkəmizdə məhkəmə-hüquq islahatlarının 2-ci mərhələsinə yekun vuraraq qeyd etmək olar ki, 2004-cü ilin sonunda "Məhkəmələr və hakimlər haqqında" qanunun əsaslı şəkildə yeniləşməsi, Məhkəmə-Hüquq Şurası haqqında qanunun qəbul edilməsi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında mühüm rol oynamışdır. Bu hüquqi yeniliklərdən irəli gələrək ilk dəfə olaraq, hakimlərin müddətsiz təyinatı, onların fəaliyyətlərinin qiymətləndirilməsi qaydası təsbit edilmişdir. Korrupsiya hallarının qarşısının alınması, məqsədilə qanunvericiliyə əsasən hakimlər tərəfindən vətəndaşların qəbulu qadağan edilmiş, məhkəmə fəaliyyətinin şəffaflığının təmin olunması məqsədi ilə yuxarı məhkəmələrin bütün qərarlarının, habelə onlarla birlikdə yerli məhkəmələrin ləğv edilmiş və ya dəyişdirilmiş qərarlarının dərci nəzərdə tutulmuşdur.

Əvvəllər hakimlərin intizam məsuliyyətinə cəlb olunması Ali Məhkəmənin intizam kollegiyası tərəfindən həyata keçirilirdi. Bu səlahiyyətin bilavasitə yuxarı instansiya məhkəməsi tərəfindən icrası isə əlbəttə ki, korporativ münasibətlərin yaranmasına şərait yaradır, intizam tədbirlərinin səmərəsini azaldırdı.

Bununla əlaqədar hakimlərin intizam məsuliyyətinə cəlb edilməsi proseduruna yenidən baxılmış və bu səlahiyyət Məhkəmə-Hüquq Şurasının müstəsna səlahiyyətlərinə aid edilmişdir. Hakimlər barədə intizam icraatının başlanılması barədə müraciət etmək hüququ olan subyektlərin sayı artırılaraq bu səlahiyyətlər Ali Məhkəmənin sədri və Ədliyyə naziri ilə yanaşı, apellyasiya məhkəmələrinin sədrlərinə də verilmiş, korrupsiya hüquqpozmalarının törədilməsi barədə məlumatlara malik olan fiziki və hüquqi şəxslərin Şuraya müraciət hüquq təsbit olunmuşdur.

Bu prosedurlar müəyyən edilərkən məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunmasına xüsusi diqqət yetirilmişdir. Belə ki, hakimlər barədə intizam icraatının başlanılması üçün müraciətdə zəruri əsaslar müəyyən edilərsə, Məhkəmə-Hüquq Şurası intizam icraatına başlanılması haqqında qərar çıxarır. İntizam icraatı üzrə araşdırma isə yalnız Məhkəmə-Hüquq Şurasının hakim üzvü tərəfindən aparılır. Üç ayadək davam edən bu araşdırma dövründə barəsində intizam icraatı başlanılmış hakim bütün materiallarla tanış edilir, onun izahatları dinlənilir və Şuranın iclasına ətraflı məruzə hazırlanır.

Məhkəmə-Hüquq Şurasının iclasında intizam məsuliyyəti məsələsinə baxılan hakimə özünün seçdiyi vəkilin və ya hakim yoldaşının köməyindən istifadə etməklə müdafiə olunmaq, Şura üzvlərinə etiraz etmək hüququnun verilməsi, səsvermədə yalnız Şuranın hakim üzvlərinin iştirak etməsi, habelə qəbul edilmiş qərardan Ali Məhkəmənin Plenumuna

şikayət hüququnun təsbit olunması intizam icraatı prosedurunun obyektivliyinə əlavə şərait yaradır.

Respublikamızda baş verən sürətli sosial-iqtisadi inkişafı nəzərə alaraq, Avropanın siyasi, iqtisadi və hüquqi məkanına inteqrasiyanı dövlət siyasətinin prioritetləri sırasına qaldıraraq demokratik cəmiyyətlərə xas məhkəmə-hüquq sisteminin fəaliyyətinə, insan hüquqlarının etibarlı müdafiəsinə nail olmaq üçün Azərbaycan Respublikasının Prezidenti mühüm hüquqi aktlar qəbul etmişdir. Bununla da dövlətimizdə hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə qanunvericilik və institusional islahatlar daha da dərinləşdirilmiş, praktiki tədbirlərin dairəsi genişləndirilərək, məhkəmə hakimiyyəti sisteminin inkişafında keyfiyyətcə yeni dəyişikliklər baş vermişdir.

Yeri gəlmişkən qeyd edim ki, adı çəkilən fərmanda digər məsələlərlə yanaşı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işinin təşkili və onun məhkəmə təcrübəsində nəzərə alınması tövsiyə olunmuşdur.

Fərmanın icrası İstiqamətində fəaliyyətimizin əsas prinsipi kimi, biz insan hüquqlarının müdafiəsi sahəsində vahid hüquqi standartların dönmədən gözlənilməsini, İnsan Hüquqlarının və Əsas Azadlıqlarınım Müdafiəsi haqqında Avropa Konvensiyasının tələblərinin yerinə yetirilməsini müəyyən etmişik.

Konvensiyanın normalarının və Avropa Məhkəməsinin presedent hüququnun respublika məhkəmələri tərəfindən düzgün və birmənalı şəkildə tətbiqi istiqamətində ən əhəmiyyətli addımlardan biri Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası normalarının və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent

hüququnun məhkəmələr tərəfin tətbiq edilməsi haqqında'' qərarı olmuşdur. Həmin qərarda respublikanın bütün məhkəmələrinə Avropa Məhkəməsinin təcrübəsi nəzərə alınmaqla, İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası normalarının tətbiq edilməsi tövsiyə edilmişdir ki, həmin Konvensiyanın müdəalarının pozulmasına yol verilməsin.

Ali Məhkəmə, Avropa insan hüquqlarının müdafiəsi sisteminin ayrılmaz hissəsi olaraq, insan hüquqlarının müdafiə standartlarının tətbiq edilməsində əsas rolu ifadə edir. 0, ölkənin məhkəmə təcrübəsi modelini beynəlxalq standartlara uyğun olaraq tarazlaşdırmaq və insan hüquqları müdafiə mexanizminin təsirliyini təkmilləşdirir. Qeyd edim ki, Ali Məhkəmə Konvensiya müddəalarının tətbiq edilməsi məsələlərində başlıca rol oynayır və aşağı məhkəmələr üçün təcrübə yaratmaq səlahiyyətinə malikdir.

Məlumdur ki, Ali Məhkəmənin funksiyaları yalnız məhkəmə prosesi ilə məhdudlaşa bilməz. O, dövlətdaxili hüquq sisteminin effektivliyini və qanunun aliliyini təmin edən ədalət mühakiməsinin yuxarı məhkəməsidir. Ali Məhkəmə, son instansiya olaraq, milli məhkəmələrdə məhkəmə prosesinin ümumi təcrübəsini müəyyən edir, qanunvericiliyin bütün məhkəmələr tərəfindən ardıcıl olaraq tətbiq edilməsini, hüququn ziddiyyətsizliyini və dürüstlüyünü, habelə qanunun təkmilləşdirilməsini təmin edir. Məhkəmə təcrübəsinin ziddiyyətsizliyi milli məhkəmələr tərəfindən tətbiq edilən hüquqi müddəaların interpretasiyasının (şərh edilməsinin) gözlənilən olmasına, habelə məhkəmə qərarlarının ardıcıllığına və proqnozlaşdırılmasının mümkünlüyünə təminat verir.

Ali Məhkəmə dövlətdaxili səviyyədə insan hüquqları və əsas azadlıqlarının müdafiəsində başlıca rol oynamaqla, ölkədə məhkəmə təcrübəsini vahid formaya salır. Ali Məhkəmə qərarlar qəbul edərkən, Avropa Məhkəməsinin

qərarlarını nəzərə alaraq, Avropa Konvensiyasının normalarını tətbiq edir, bununla da Konvensiyanın müddəalarının pozulmasının qarşısı alınır.

Dövlətin Avropa Məhkəməsinin yurisdiksiyasını tanımasından ilk növbədə Azərbaycan vətəndaşları faydalanmaqdadır. Artıq vətəndaşlar İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə çıxış əldə etmiş, məhkəmə və hüquq-mühafizə orqanlarının iş fəaliyyətinə olan tələblər daha da yüksəlmişdir. Bu baxımdan ədalət mühakiməsini həyata keçirən hakimlərin beynəlxalq hüquq normalarını, insan hüquqları sahəsində beynəlxalq standartları, onların tətbiqi təcrübəsini mənimsəmələri çox önəmlidir.

Dövlət başçısı cənab İlham Əliyev hələ 2008-ci il oktyabrın 24-də keçirilmiş andiçmə mərasimində xüsusi vurğulamışdır ki, demokratik proseslərin davamlı şəkildə aparılmadığı hansısa dövlətin iqtisadi sahədə davamlı və yüksək nəticələr əldə etməsi, beynəlxalq arenada layiqli yerini tutması, insan hüquqlarının təminatı sahəsində mühüm irəliləyişlərə nail olması mümkün deyildir. Azərbaycan Prezidenti ölkəmizdə vətəndaş cəmiyyətinin bərqərar olması üçün mühüm əhəmiyyət kəsb edən bu fikirlərini praktiki fəaliyyəti ilə doğruldaraq məhkəmə-hüquq və ədliyyə sistemində islahatları da davam etdirmiş və bu sahədə bir sıra hüquqi sənədlər qəbul etmişdir. Həmin sənədlərdən biri 2009-cu il 6 fevral tarixli Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövət Proqramı olmuşdur. Hesab edirəm ki, 2009-cu ildən etibarən ölkəmizdə məhkəmə-hüquq islahatlarının üçüncü mərhələsi başladı.

Adı çəkilən dövlət proqramının preambula hissəsində vurğulandığı kimi, ölkəmizdə hüquq sisteminin müasirləşdirilməsi, məhkəmə-hüquq islahatlarının davam etdirilməsi ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətinin son dövrün tələbləri səviyyəsində qurulmasını, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasını,

vətəndaşların məhkəmələrə və ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılmasını, regionlarda hüquq infrastrukturunun genişləndirilməsini, yeni nəsil hüquqşünaslarının formalaşdırılmasını, cəza-icra siyasətinin humanistləşdirilməsini zəruri edir. Dövlət proqramının imzalanması da məhz ədliyyə orqanlarının və məhkəmələrin dinamik inkişafının təmin edilməsi, yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, normativ-hüquqi və maddi- texniki təminatın yaxşılaşdırılması, kadr potensialının, ədliyyə orqanlarının sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır. Dövlət proqramının 6-cı hissəsində məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və infrastrukturunun yaxşılaşdırılması sahəsində bir sıra tədbirlər nəzərdə tutulmuşdur. Proqrama əsasən, 2009-2013-cü illərdə məhkəmələrin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar külliyatının və onların şərhinə dair vəsaitlərin hazırlanması, "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində məhkəmə fəaliyyətində, o cümlədən işlərin qeydiyyatı və hərəkətində, məhkəmə proseslərinin aparılmasında yeni texnologiyaların tətbiqi, habelə məhkəmələrin maddi-texniki bazasının yaxşılaşdırılması və onlar üçün lazımi iş şəraitinin təmin edilməsi, yeni yaradılmış Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəki apellyasiya məhkəmələrinin inzibati binalarla təmin edilməsi nəzərdə tutulur. Ümumilikdə, dövlət proqramı ədliyyə orqanları ilə yanaşı, məhkəmələrin də fəaliyyətinin müasirləşdirilməsinə və təkmilləşdirilməsinə yeni imkanlar açır.

Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi üzrə tədbirlərin davamı kimi, məhkəmə islahatlarının üçüncü mərhələsində dövlət orqanları tərəfindən insan hüquqlarına ciddi əməl olunmasının təmin edilməsi məqsədi ilə ölkəmizdə “İnzibati icraat haqqında”

qanun, habelə 2009-cu ildə İnzibati-Prosessual Məcəllə qəbul edilmiş və inzibati məhkəmələr təşkil edilmişdir.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafına təsir göstərən mühüm amillərdən birinə çevrilməsi artıq danılmazdır. Bu baxımdan məhkəmə fəaliyyətində texnoloji yeniliklərin tətbiqi ən mühüm vəzifələrdən biri kimi görünür. Ümumiyyətlə, məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən köklü islahatlar çərçivəsində məhkəmə fəaliyyətinin elektronlaşdırılması və müxtəlif texnoloji yeniliklərin tətbiqi obyektiv zərurətə çevrilmişdir. Dövlət başçısının "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında 13 fevral 2014-cü il tarixli Sərəncamı bu sahədə strateji prioritetləri müəyyən etmişdir. "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında sərəncam məhkəmə fəaliyyətində təkamülün əsasını qoymuşdur. Bu sistemin yaradılması məhkəməyə müraciət imkanlarının daha da genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı sui-istifadə hallarının qarşısının alınmasına, şəffaflıq və operativliyin təmin edilməsinə, elektron kargüzarlığın və sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir. Ölkəmizdə elektron məhkəmə sisteminin yaradılması istiqamətində Dünya Bankı ilə birgə həyata keçirilən "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində vətəndaşların məhkəmələrə müraciət imkanlarının sadələşdirilməsi və hüquqi xidmətlərin təkmilləşdirilməsi məqsədilə bütün məhkəmələri əhatə edən məhkəmə sisteminin vahid internet portalı yenilənərək zənginləşdirilmiş, ictimaiyyət üçün daim açıq olan milli qanunvericiliyin elektron bazası (www.e-qanun.az) və Hüquqi Aktların Dövlət Reyestrinin (www.huquqiaktlar.gov.az) fəaliyyəti təkmilləşdirilmiş, o cümlədən müasir İKT ilə təchiz edilmiş yeni binalarda elektron məhkəmə sisteminin bir çox komponentləri tətbiq

edilməyə başlanılmışdır. Məhkəmə sisteminin vahid internet portalı ali, apellyasiya və birinci instansiya məhkəmələri, onların yurisdiksiyası, baxılan işlər və çıxarılan qərarlar, müraciətə əlavə edilməsi zəruri olan sənədlər, qəbul günləri və s. barədə ətraflı məlumat almaq, iddia ərizələri və digər məhkəmə sənədlərinin nümunələrini əldə etmək,' həmçinin onlayn rejimdə müraciət etmək və cavab almaq imkanı yaradır. Elektron məhkəmənin tam tətbiqi nəticəsində insanlar artıq məhkəməyə gəlmədən elektron formada müraciət edə biləcək, proses barədə məlumatları elektron daşıyıcıda dərhal əldə edəcək, məhkəmə prosesləri audio-video və digər texniki vasitələrlə qeydə alınacaq, habelə prosesi onlayn rejimdə müşahidə etmək imkanı yaradılacaq, proses iştirakçıları məhkəmənin gedişi, qərarlar və onların icra vəziyyəti və s. məlumatları əks etdirən elektron "şəxsi kabinetə" malik olacaq, işlərin elektron dövriyyəsi təşkil ediləcəkdir. Artıq Elektron Sənəd Dövriyyəsi və Məhkəmə İşlərinin idarəetmə sistemlərinin tətbiqinə başlanılmış, yeni inşa olunmuş məhkəmə bina və komplekslərində elektron məhkəmə sisteminin bəzi komponentləri nəzərə alınmış, o cümlədən həmin binalarda beynəlxalq tələblərə cavab verən iş prosesinin təşkilinə, vətəndaşların bu qurumlara müraciət imkanlarının asanlaşdırılmasına xüsusi diqqət yetirilərək bütün zəruri infrastruktur yaradılmış, ən müasir informasiya-kommunikasiya avadanlıqları ilə təchiz olunmuşdur. "Elektron məhkəmə" informasiya sisteminin yaradılması ilə bağlı pilot məhkəmələrdə elektron sənəd dövriyyəsi və "AZEMİS" informasiya sisteminin, müvafiq sənəd şablonlarının hazırlanaraq tətbiqinə də başlanılmışdır. Qeyd etmək lazımdır ki, Ədliyyə Nazirliyinin Dünya Bankı ilə birgə görülən kompleks tədbirlər nəticəsində "Elektron məhkəmə" informasiya sisteminin yaradılması istiqamətində nəzərdə tutulmuş çoxmərhələli proseslər bu gün də sürətlə davam etdirilir.

Məhkəmə aktlarının dəqiq və çevik icrası kontekstində penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamını xüsusilə qeyd etmək lazımdır. Burada göstərilir ki, dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlər penitensiar xidmətin və bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulmasını və səmərəli idarəetmənin təşkilini zəruri edir. Cəzaların icrası sahəsində həyata keçirilən islahatlara baxmayaraq, son zamanlar aparılmış təhlillər göstərir ki, məntəqə tipli cəzaçəkmə müəssisələrinin normal fəaliyyəti təmin olunmur, ictimai işlər cəzasının icrası prosesində çətinliklər yaranır, cəzanı icra edən orqan və müəssisələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından kifayət qədər istifadə edilmir. İbtidai istintaq və məhkəmə icraatı zamanı böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin geniş tətbiq edilməsi, habelə həmin cinayətlərə görə azadlıqdan məhrum etmənin dinamikasının artması məhkumların sayının çoxalmasına və penitensiar müəssisələrin yüklənməsinə səbəb olur.

Yuxarıda göstərilən çatışmazlıqların aradan qaldırılması məqsədilə adı çəkilən Sərəncama uyğun olaraq republikamızda məhkəmə islahatlarının növbəti mərhələsində penitensıar müəssisələrin fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturun yenilənməsi və idarəçilik mexanizminin təkmilləşdirilməsi tədbirləri davam etdirilmiş, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu

sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti yaradılmışdır.

Cəzaların icrası və qəti imkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə elektron nəzarət vasitələrinin tətbiqinə başlanılmış və digər müvafiq tədbirlər həyata keçirilmişdir.

Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanında qeyd olunur ki, sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması zəruridir.

Göstərilən fərmanın icrası ilə bağlı qanunvericilikdə müvafiq dəyişiklik edilmişdir. Həmin dəyişikliyə əsasən, inzibati-iqtisadi məhkəmələr ləğv edilərək, inzibati və kommersiya məhkəmələri yaradılmışdır.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti tərəfindən Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında 3 aprel 2019-cu il tarixli Fərmanın, Azərbaycan Ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında Sərəncamın imzalanması ilə məhkəmə-hüquq sisteminin inkişafında yeni dördüncü mərhələnin başlanmasının və bu sahədə islahatların dərinləşdirilməsinin təməli qoyulmuş, yeni yol xəritəsi müəyyən olunmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyev islahatların yeni mərhələsinin hədəflərini belə müəyyən etmişdir: müasir

dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları daha da genişləndirilməli, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının effektivliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin aradan qaldırılması üçün görülən tədbirlər gücləndirilməlidir.

Bölmə V. Yerli özünüidarəetmə

FƏSİL 8. Xalq hakimiyyəti sistemində yerli özünüidarəetmə

§ 1. Yerli özünüidarəetmənin anlayışı, əlamətləri, nəzəri əsasları.

Müasir anlamda yerli özünüidarəetmə ideyası XVIII əsrin sonunda müvafiq terminoloji izahını

tapmış və "özünüidarə" anlayışı yerli özünüidarəetmə ilə əlaqədar işlənməyə başlamışdır. Məhz, həmin dövrdə Avropanın, sonra isə dünyanın müxtəlif ölkələrində müasir tipli yerli özünüidarə orqanları formalaşmağa başladı.

Hüquqi doktrinada yerli özünüidarənin mahiyyətini izah edən nəzəriyyələrin yaranma tarixi əsasən XIX əsrin ortalarına təsadüf edir. İlk belə nəzəriyyə Fransa və Belçikada yaranmış ictimai özünüidarə nəzəriyyəsi olmuşdur.

Bu nəzəriyyənin mahiyyətinə görə yerli cəmiyyət müstəqil olaraq təsərrüfat məsələləri ilə, hökumət orqanları isə yalnız dövlət işləri ilə məşğul olmalıdır.

Həmin nəzəriyyə daxilində iki əsas istiqamət fərqləndirilir. Birinci istiqamətə *azad (təbii) icma nəzəriyyəsi* aid edilir. Onun əsas müəllifləri E.Meyer, O.Laband, O.Ressler və s. olmuşlar. Azad (təbii) icma nəzəriyyəsinin mahiyyəti ondan ibarətdir ki, əhalinin (icmanın) yerli məsələləri həll etmək hüququ (özünüidarə) təbii və ayrılmazdır, əvvəldən ona mənsubdur və dövlət hakimiyyətinin iradəsindən asılı deyildir. Bu cür mövqe özünüidarə anlayışına aşağıdakı ünsürləri daxil etmək imkanı verirdi: icma öz işlərini idarə edir, icmalar onlara məxsus hüquqların subyektidirlər, icma idarəetməsinin vəzifəli şəxsləri dövlətin deyil, məhz icmanın orqanlarıdır. Bu da təbii icma hüququnun əsasını yaradanlara hakimiyyətin üç deyil, dörd-qanunverici, icra, məhkəmə və bələdiyyə budaqlarını fərqləndirmək imkanı verirdi. Axırıncı hakimiyyət budağı digərləri ilə bərabər sayılırdı. Yeri gəlmişkən, Meksikanın İdalqo ştatının konstitusiyası ilə bələdiyyə hakimiyyəti dördüncü hakimiyyət kimi tanınmaqdadır.

Azad (təbii) icma nəzəriyyəsinin inkişafı ictimai nəzəriyyəyə daxil olan *təsərrüfat nəzəriyyəsini* meydana gətirdi. Onun nümayəndələri R.Mol, A.Vasilçikov idi. Bu

nəzəriyyə tərəfdarları yalnız özünüidarəetmə icmasının müstəqil hüquq subyekti kimi tanınması tələbi ilə kifayətlənməyərək, həm də kommunal fəaliyyətin məzmununu önə çəkirdilər. Burada deyilir ki, yerli özünüidarə siyasətdən uzaq olsa da, öz xüsusi təsərrüfat fəaliyyəti dairəsinə malikdir.

İctimai nəzəriyyənin bir sıra müsbət cəhətləri var idi. Bizim fikrimizcə, onlardan ən mühümü yerli özünüidarənin öz səlahiyyətləri daxilində dövlətdən asılı olmamasının, dövlət hakimiyyətinin icra orqanlarının yerli özünüidarənin fəaliyyətinə özbaşına müdaxiləsinin mümkünsüzlüyünün nəzəri cəhətdən əsaslandırılması idi. Bununla belə ictimai nəzəriyyənin ciddi nöqsanı da var idi. Yerli özünüidarənin dövlətdən tam müstəqilliyi haqqında əsas tezisin məntiqi inkişafı ona gətirib çıxarırdı ki, dövlət hakimiyyəti ümumiyyətlə yerli səviyyədə idarəetmədən çıxarılırdı. Dövlətə yalnız yerli özünüidarə orqanlarının fəaliyyətini müşahidə etmək qalırdı.

İctimai nəzəriyyəni dəstəkləyən görkəmli rus alimlərindən biri V.N.Peşkov olmuşdur. O, mütərəqqi ideya kimi, yerli özünüidarə orqanlarının müstəqilliyi ideyasını əsaslandırırdısa da, dövlətin bu orqanlara nəzarət imkanını da inkar etmir və yerli özünüidarə orqanları ilə dövlət orqanlarının müxtəlif təbiətli olmalarına diqqət çəkirdi. Onun fikrincə, əsas fərq onda idi ki, dövlət hakimiyyəti həmişə zəruri olsa da, yerli özünüidarə orqanları həmişə hakimiyyət seçimi imkanına malikdirlər.

İctimai nəzəriyyənin yeganə yerli özünüidarə nəzəriyyəsi olması çox çəkmədi. Tezliklə *dövlət özünüidarəetmə nəzəriyyəsi* deyilən nəzəriyyə meydana çıxdı ki, onun da əsas müddəaları XIX əsrin görkəmli alman alimləri Rudolf Qneyst və Lorens Şteyn tərəfindən formalaşdırılmışdı. Bu nəzəriyyə Avropa ölkələrində geniş yayıldı. Rus alimlərinin böyük bir qrupu da-İ. Lazarevski,

A. Qradovski, B. Bezobrazov və digərləri həmin nəzəriyyənin əsas müddəalarını inkişaf etdirənlər sırasında idilər.

Dövlət özünüidarəetmə nəzəriyyəsinin mahiyyəti yerli özünüidarəetmənin yalnız dövlət idarəetməsinin tərkib hissəsi sayılması və ona tabe olmasındadır. Bu mövqedən yanaşılsa, kütləvi xarakterli istənilən idarəetmə bir dövlətin işidir.

Özünüidarəetmənin mahiyyətini açıqlayan N.İ. Lazarevski onun dörd xüsusiyyətini önə çəkir. Özünüidarəetmə dövlətin tapşırığı ilə hökumət vəzifələrinin yerinə yetirilməsidir; özünüidarəetmə dövlət idarəetməsinin yerli vəzifələrinin yerinə yetirilməsindən ibarət olan fəaliyyətdir; özünüidarəetmə dövlət idarəetməsinin dövlətin özü tərəfindən yerinə yetirilməsidir; özünüidarəetmə orqanları dövlətin özünün orqanları və təmsilçiləridir".

Bu nəzəriyyənin tərəfdarları yerli özünüidarə və dövlət orqanlarının subyekt tərkibindəki fərqlərə istinad edirdilər. Mərkəzi hakimiyyət tərəfindən təyin edilən vəzifəli şəxslər yerli əhalinin ehtiyac və tələbatlarına yerli icma nümayəndələrinə nisbətən yaxşı bələd deyillər. Yerli əhalinin ehtiyaclarını ödəmək baxımından işin keyfiyyəti məmurları az maraqlandırır. Onlar üçün önəmli olan xidməti vəzifəsindən istifadə edərək karyerasını təmin etməkdir. Yerli sakinlər isə yerli idarəetmə orqanlarının fəaliyyətinin müsbət nəticəli olmasında maraqlıdırlar. Bundan başqa, yerli icma nümayəndələri üçün həmin icmada formalaşan ictimai fikir maraqlıdırsa, məmur üçün onu vəzifəyə təyin etmiş orqan və ya şəxsin fikri daha önəmlidir. Bu isə yerli özünüidarəetmə orqanlarının yerlərdə dövlət idarəetməsi vəzifələrinə daha vicdanla və məsuliyyətlə yanaşmasına səbəb olur.

Yerli özünüidarə orqanları və yerli administrasiyanın nisbəti haqqında dövlət nəzəriyyəsinin daha bir tərəfdarı,

məşhur hüquqşünas V.P.Bezobrazov da öz fikrini bildirmişdir. Ona görə, onlar hər ikisi eyni hakimiyyətin müxtəlif formalarıdır. Bu müddəadan o belə bir nəticə çıxarırdı ki, onlar hər ikisi dövlət idarəetmə sisteminə daxil edilməli, ona nisbətən yad cisim rolunu oynamamalıdırlar.

Geniş yayılmış dövlət və ictimai özünüidarə nəzəriyyələrindən başqa həmçinin hüquqi və siyasi yerli özünüidarə nəzəriyyələrini də qeyd etmək lazımdır.

Hüquqi nəzəriyyənin mahiyyəti bundadır ki, onun tərəfdarları özünüidarəetmə orqanlarına dövlət tərəfindən ümumi mənafeləri təmin etmək məqsədilə yaradılmış hüquqi şəxslər kimi baxırdılar. Özünüidarəetmə orqanı dövlət idarəetmə funksiyalarının həyata keçirilməsindən başqa yerli ehtiyac və qayğılara da baxdığı səbəbindən dövlət aparatının tərkib hissəsi deyil. Eyni zamanda dövlət yerli özünüidarə orqanlarına özünün bir sıra səlahiyyətlərini güzəştə getməklə onların müstəqilliyi və toxunulmazlığını tanıyır. Buradan çıxış edərək hüquqi nəzəriyyə tərəfdarları dövlət və yerli özünüidarəetmə orqanlarının prinsipial bərabərliyində təkid edir və onların arasındakı münasibətlərin bərabər hüquqi şəxslər arasındakı hüquq münasibətləri kimi qurulmasını tələb edirdilər.

Siyasi nəzəriyyə özünüidarənin əsaslarını özünüidarəetmə vahidlərinin müstəqilliyin təmin edən hüquqi təminatlar məcmusunda görürdü. Bu nəzəriyyənin tərəfdarları əhali tərəfindən seçilmiş xalq nümayəndələrini peşəkar dövlət məmurlarına qarşı qoyurdular. Yerli özünüidarənin seçkili olması onun orqanlarının müstəqilliyinin əldə edilməsinin əsas amillərindən biri sayılırdı. Hüquqi nəzəriyyə kimi bu nəzəriyyənin də zəif cəhəti onun özünüidarə ilə əlaqədar yaranan bir çox suallara birtərəfli yanaşması idi.

Təsvir edilən özünüidarə nəzəriyyələrinin heç biri şəffaf şəkildə tətbiq edilmirdi. Dövlət, ictimai yaxud siyasi

özünüidarə nəzəriyyəsinin əsasını təşkil edən ideya öz reallaşması yolunda ən müxtəlif maneələrlə toqquşa bilərdi. Elə nəzəriyyələrin özü də, konkret həyatdan yaransalar da, inkişaf edən ictimai münasibətlərin təsiri ilə dəyişilməyə bilməzdilər.

Yerli özünüidarəetmənin mahiyyətini izah etməyə çalışan "dualist" nəzəriyyə yerli özünüidarəetmənin fəaliyyətinin ikili xarakterini əsaslandırır. Bu nəzəriyyəyə görə yerli özünüidarəetmə yerli məsələləri müstəqil həll edir və müəyyən dövlət funksiyalarını yerli səviyyədə həyata keçirir. "Dualist" nəzəriyyəsinə görə, mərkəzi hakimiyyətin yerli həyata müdaxiləsi əksər yerli məsələlərin (yol tikintisi, təhsil, səhiyyə və s.) ümumdövlət marağı daşıması ilə izah olunurdu. Hökumətin bələdiyyələrin işinə qarışmasının əsas səbəbi ümumdövlət əhəmiyyəti daşıyan sahələrin idarə olunmasında vahid standartların təmin edilməsidir.

Müasir dövrdə geniş yayılan nəzəriyyələrdən biri də "siyasətdən kənar bələdiyyələr" nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə bələdiyyə orqanları siyasətə qarışmamalı və siyasətdən kənarda dayanmalıdırlar. Onlar yalnız cəmiyyətə xüsusi qayğı göstərən xidməti aparat olmalıdır. "Siyasətdən kənar bələdiyyələr" nəzəriyyəsi bəzi hallarda bələdiyyə qulluqçularının tətillərinə qoyulan qadağaların əsaslandırılmasına xidmət edir. Eyni zamanda, burada göstərilir ki, bələdiyyə şurası öz üzərində seçicilərin açıq-aydın təsirini hiss etməlidir. Əks təqdirdə, onlar zəif inzibatçılar hesab edilə bilər.

Dövlətin inzibati-ərazi quruluşu, milli xüsusiyyətləri, yerli özünüidarə təcrübəsi, bu və ya başqa yerli özünüidarə konsepsiyasının qəbulundan asılı olaraq dünya təcrübəsində yerli özünüidarənin iki əsas sistemi fərqləndirilir: 1. Anqlo-sakson sistemi; 2. Roman-german (qitə) sistemi.

Anqlo-sakson sisteminə görə (Böyük Britaniya və Şimali İrlandiya birləşmiş Krallığı, ABŞ, Kanada,

Avstraliya) yerli məsələlərin həlli üçün inzibati-ərazi vahidlərində: qraflıqlarda, dairələrdə, taunşiplərdə əhali tərəfindən şura və bəzi vəzifəli şəxslər seçilir (şerif, attorney, məhkəmə, xəzinədar və s.).

Anqlo-sakson sistemi seçkili şuraların fəaliyyətinə nəzarət etmək üçün mərkəzdən yerlərə məmur təyin edilməsini nəzərdə tutur. Yerli şuralar qanunun, adətin və təşəkkül tapmış təcrübənin hüdudları daxilində mərkəzi dövlət orqanlarının səlahiyyətlərinə aid olmayan məsələləri müstəqil həll edir. Onların fəaliyyətinə mərkəzin nəzarəti maliyyə təftişləri (yerli xərclərin maliyyələşdirilməsinin əsas hissəsini, bir qayda olaraq, yerli vergilər və gəlirlər deyil, dövlət büdcəsindən dotasiyalar təşkil edir), nazirlik yoxlamaları (yoxlamanı nazirin yerli özünüidarə işləri üzrə səlahiyyətli nümayəndələri həyata keçirir) və məhkəmə nəzarəti (mərkəzi orqanlar yerli özünüidarə orqanlarına qarşı iddialarla məhkəməyə müraciət edə bilərlər) yolu ilə həyata keçirilir (41).

Yerli özünüidarənin roman-german (qitə) sistemi Fransa, İtaliya, Polşa, Türkiyə və s. ölkələr üçün xarakterikdir. Həmin sistem yerli orqanların seçkili və təyinatlı cəhətlərinin birləşdirilməsi əsasında qurulur.

İcmalarda (qəsəbələrdə, şəhərlərdə, bir neçə kəndi birləşdirən kommunalarda) yalnız seçkili yerli özünüidarə orqanları mövcud olur: şura və mer. Bu sistem üzrə "süni" inzibati-ərazi vahidlərinin idarə edilməsinin bir neçə modeli mövcuddur. Birinci modelə görə, ərazi kollektivi hesab olmayan vilayət və ya rayon həlqəsinə daxil olan bəzi inzibati-ərazi vahidlərində yalnız mərkəzdən təyin olunmuş məmurlar, yəni dövlət orqanları fəaliyyət göstərir (Finlandiyada qubernator, Bolqarıstanda vilayət müdirləri, Polşada voyevodalar). İkinci modelə görə, ərazi kollektivi hesab edilən inzibati-ərazi vahidlərində eyni zamanda həm

seçkili şuralar-yerli özünüidarə orqanları, həm də mərkəzdən təyin olunan məmurlar fəaliyyət göstərirlər (məsələn, Fransanın departamentlərində, İtaliyanın vilayətlərində). Bu məmurlar mərkəzin verdiyi səlahiyyətlər əsasında yerlərdə dövlət hakimiyyətini həyata keçirir və yerli özünüidarə orqanlarının fəaliyyətinin qanuniliyinə nəzarət edirlər.

Hüquq ədəbiyyatlarında yerli özünüidarənin anqlo-sakson və qitə sisteminin elementlərini ehtiva edən qarışıq sistem haqqında fikirlərə də rast gəlmək olar.

Misal kimi burada Almaniya Federativ Respublikası göstərilir.

Yerli idarə və özünüidarə sisteminin digər bir forması sovetlər sistemidir. Hazırda bu model Çin Xalq Respublikasında tətbiq olunur. Çin Xalq Respublikasında 23 əyalət, 5 muxtar rayon, 3 mərkəz tabeli şəhər vardır. Əyalətlər muxtar dairələrə, qəzalara, qəzalar isə nahiyələrə bölünür. Bütün inzibati ərazi vahidlərində seçkili yerli orqanlar-sovetlər yaradılır. Sovetlər dövlət hakimiyyəti orqanları hesab olunur və öz növbəsində icra funksiyalarını həyata keçirmək üçün icraiyyə komitələrini yaradır. İcraiyyə komitələri müvafiq inzibati ərazi vahidlərində yerli həyatın ayrı-ayrı sahələrinə (sənaye, təhsil, səhiyyə, ticarət və s.) rəhbərlik edir. Kiçik yaşayış məntəqələrində icraiyyə komitəsi yaradılmır.

ÇXR də sovetlər dövlət orqanları kimi aşağıdan yuxarıya tabeçilik prinsipi əsasında fəaliyyət göstərir.

ÇXR konstitusiyasına görə, yaşayış yeri üzrə şəhər əhalisinin komitələri yaradılır. Komitələr 100-200 ailənin yaşadığı ərazini əhatə edir və özünüidarə təşkilatları sayılır. Komitələr ictimai əsaslarla işləyən sədrdən, müavindən və 3-7 üzvdən ibarətdir. Onlar kəndin və ya şəhər məhəlləsinin sakinləri tərəfindən seçilirlər. Əhali komitələri öz ərazisinin yerli işlərini həll edir, xırda mülki mübahisələrə baxır,

vətəndaşları qanunlara riayət və ictimai mülkiyyətə qayğıkeş münasibət göstərilməsi ruhunda tərbiyə edir. Onlar nahiyə (şəhər) orqanlarının göstərişi ilə bəzi idarəetmə funksiyalarını yerinə yetirir, orduya çağırış, taxıl alınması, təbii fəlakət hallarında zəruri işlərin görülməsi, ictimai asayişin mühafizəsində iştirak edirlər (41).

Yerli özünüidarə demokratiyanın (xalq hakimiyyətinin) təzahürüdür. Demokratiyanın əsas mahiyyəti və məqsədi, hər şeydən əvvəl, xalqla, onun birbaşa seçdiyi hakimiyyət arasında yaxınlığı təmin etməkdir. Xalq o hakimiyyətdən razı qalır ki, onun problemlərini vaxtında və daha keyfiyyətli həll etsin. Bu baxımdan yerli özünüidarə demokratiyanın ən mühüm əlamətidir. Şübhə yoxdur ki, ictimai xidmətləri həyata keçirən subyektlərin fəaliyyət sahələri daraldıqca toplum üzvlərinin mənafelərini müəyyən etmək asanlaşır, idarəetmədə təsirlilik artır. Bu demokratiyanın təbii bir əlamətidir. Çünki seçənlər yəni xalq, seçdiklərinin qəbul etdikləri qərarların onlara vəd edildiyinə uyğunluq dərəcəsini və bunların nəticələrini ərazi sərhədləri kiçildikcə həm daha yaxşı izləyir, həm də daha təsirli nəzarət edir. Yerli özünüidarəetmədə seçicilərlə seçilənlər arasında, başqa sözlə ərazi sakinləri ilə idarəedənlər arasında bu sıx və dinamik əlaqə vətəndaşlarda siyasi məsuliyyət hissini daha da gücləndirir. Unutmaq lazım deyil ki, elə demokratiyanın özünü vətəndaşlardakı siyasi məsuliyyət hissi formalaşdırır.

Beləliklə, yerli özünzüidarəetməyə konstitusiyalı quruluşun əsası kimi, əhalinin yerli əhəmiyyət kəsb edən məsələləri müstəqil həll etmək hüququ kimi, xalq hakimiyyəti forması kimi baxmaq olar.

Məlum olduğu kimi, ölkə əhalisinin ümumdövlət miqyasında bölünməzlik və məhrum edilməzlik əlamətlərinə malik milli müdafiə, diplomatiya, milli təhlükəsizlik və s. ümumdövlət əhəmiyyətli xidmətlərə, dövlət və yerli

əhəmiyyətli nəqliyyat və inşaat xidmətləri, səhiyyə xidmətləri, təhsil xidmətləri və s. xidmətlərinə, yanğınsöndürmə xidmətləri, kommunal xidmətlər, şəhərdaxili nəqliyyat, əyləncə və istirahət yerlərində təmizlik, keyfiyyət və qiymətinin nəzarəti ilə bağlı xidmətlər, muzeylərin açılması və tarixi abidələrin qorunması ilə əlaqəli xidmətlər, hər növdən qida və içki məmulatlarının təmizlik və qiymətləri ilə bağlı xidmətlər, inşaat fəaliyyətləri ilə əlaqədar nəzarət xidmətləri, şəhərdaxili yolların təmiri, kəndlərdə kiçik körpülər tikilməsi, şəhərdaxili parkların salınması və s. kimi ictimai xidmətlərə ehtiyac vardır. Yuxarıdakı xidmətlərin bir qismi müəyyən qədər əhəmiyyətsiz görünə bilər. Lakin bu xidmətlərdən birinin və ya bir neçəsinin yoxluğu və ya kifayət qədər olmaması yerli insanlarin narahatlığına və narazılığına səbəb olar. Dövlətin başlıca funksiyası əhalinin bu xidmətlərə olan ortaq ehtiyaclarının ödənilməsini təmin etməkdən ibarətdir.

Müasir dövrdə demokratik dövlətlərin idarə quruluşu əsasən iki ünsürdən ibarətdir: mərkəzi idarələr və yerli özünüidarələr. Hər bir ölkədə mərkəzi idarə adı altında həmin ölkənin dövlət idarəetmə aparatı başa düşülür. Dövlət milli sərhədlər daxilində yaşayan əhalinin ortaq ehtiyaclarını ödəyir, mənafelərini qoruyur və təmsil edir. Dövlət bu vəzifələrini xüsusi idarəetmə mexanizmi vasitəsi ilə yerinə yetirir. Bu təşkilatın formalaşdırdığı xidmət subyektləri (icra hakimiyyətləri) ölkənin hər yanına yayılır və iyerarxiya prinsipinə uğun olaraq onlara verilən vəzifələri yerinə yetirirlər.

Yerli özünüidarələr dövlət sərhədləri daxilində irili-xırdalı yaşayış məskənlərinin (kənd, qəsəbə, şəhər və s.) ortaq və yerli xarakterli ehtiyaclarını ödəmək məqsədi ilə müəyyən bir hüquqi sistem daxilində formalaşdırılmış konstitusion quruluşlardır. Bu halda göründüyü kimi, yerli

özünüidarələrin əsas cəhəti hüquqi bazaya malik olmalarıdır. Ancaq yerli sərhədlər çərçivəsində əhalinin ortaq ehtiyaclarını ödəmək istehsal, bölgü, istehlak və maliyyə kimi amilləri labüd edir. Bu halda yerli idarəetmə quruluşlarının daha bir cəhəti-iqtisadi cəhəti meydana çıxır. Bu zaman ictimai istehsal və bölgü ilə əlaqəli qərarların kimlər tərəfindən və hansı metodlar vasitəsi ilə (demokratik və ya avtoritar) qəbul ediləcəyi xüsusiyyəti vacib bir əhəmiyyət kəsb edir. Bu isə yerli özünüidarələrin siyasi tərəfini meydana çıxarır. Göründüyü kimi, mərkəzi idarə bütövlükdə ölkə miqyasında, yerli özünüidarələr isə özlərinin yerləşdikləri coğrafi ərazi daxilindəki, başqa sözlə regional ehtiyacları ödəyir və xidmətlər göstərir. Ortaya belə bir sual çıxır: görəsən dövlət bütün ehtiyacları mərkəzi idarə vasitəsi ilə ödəyə bilərmi və ya mərkəzi idarə ilə birlikdə yerli özünüidarələrə də ehtiyac varmı?

Qeyd etmək lazımdır ki, dövlət xalqın bütün ehtiyaclarını öz mərkəzi idarəsi vasitəsi ilə ödəyə bilər. Lakin bu həm iqtisadi, həm də siyasi baxımdan məqsədəuyğun deyil. Problemə iqtisadi baxımdan yanaşdıqda güman etmək olar ki, dövlət (mərkəzi idarə) yerlərdəki nümayəndəlikləri vasitəsi ilə bütövlükdə həmin regionun və onun əhalisinin ehtiyaclarını müəyyənləşdirib və onu hər hansı bir səviyyədə ödəyə bilər. Ancaq mərkəzi idarə problemi müəyyənləşdirib, araşdırıb, lazımi tədbirlər görənə qədər həm vaxt baxımından, həm də resurs baxımından israfçılığa yol veriləcək ki, bu da işin səmərəsini aşağı salır. Mərkəzi idarəyə nisbətən yerli özünüidarələr ərazidə yaşayan əhaliyə daha yaxın olduqlarına görə, əhali öz ehtiyaclarını daha dolğun olaraq seçdikləri nümayəndələr vasitəsilə çatdırır və həm də problemin həllinə daha yaxşı nəzarət edə bilir. Bu zaman xidmətin keyfiyyəti yüksək olur, həm vaxt itkisinə, həm də resurs israfçılığına yol verilmir. Başqa sözlə desək, yerli

özünüidarələr eyni xidmət müqabilində mərkəzi idarəyə nisbətən az resurs sərf edir. Bu isə iqtisadiyyatda başlıca prinsip olan resurslardan səmərəli istifadə prinsipinə tam uyğun gəlir.

XX əsrin sonunda öz müstəqilliyini bərpa etdikdən sonra demokratik hüquqi dövlət quruculuğu yolu seçmiş Azərbaycan Respublikasının qarşısında duran ən mühüm vəzifələrdən biri də müasir demokratik tələblərə cavab verən səmərəli yerli özünüidarə sisteminin yaradılması idi.

Azərbaycan Respublikasında yerli özünüidarə sisteminin təşkili bir tərəfdən hakimiyyətin güclü mərkəzləşməsinin zəifləməsi, digər tərəfdən isə xalqın demokratik təşəbbüskarlığının və fəallığının artırılmasına, demokratik idarəçilik ənənələrinin yaranmasına, xalqın idarəçilik təcrübəsinin artırılmasına və nəticə etibarilə vətəndaş cəmiyyətinin yaranmasına əhəmiyyətli təsir göstərdi.

Müasir dövrdə səmərəli fəaliyyət göstərən yerli özünüidarənin mövcudluğu demokratik dövlət idarəçiliyinin ayrılmaz tərkib hissəsi, vətəndaş cəmiyyətinin əsas əlaməti hesab olunur. Bu baxımdan yerli özünüidarəetmənin səviyyəsi ölkədə demokratiyanın səviyyəsinin əsas göstəricilərindən biridir.

Konstitusiya hüququ elmində yerli özünüidarəetmənin tərifinə dair fikir müxtəlifliyi mövcuddur. Hüquq ədəbiyyatlarında yerli özünüidarə konstitusiya quruluşunun əsası, vətəndaş cəmiyyətinin institutu və onun formalaşdırılması mexanizmi, demokratik idarəçiliyin prinsipi, xalq hakimiyyətinin forması kimi xarakterizə olunur.

Məsələn, E.Azadov qeyd edir ki, yerli özünüidarəetmə müəyyən bir ərazidə məskunlaşmış insanların hüquq və azadlıqlarının qorunmasını, eləcə də onların yerli problemlərin həllində fəal və mütəşəkkil qaydada iştirakını,

yerli əhəmiyyətli məsələlərin bilavasitə əhali tərəfindən müstəqil həll olunmasını təmin edən demokratik idarəçilik prinsipidir (65).

M.İ. Səlimzadə, Ə.İ. Sadıqov, Q.R. Xəlilovun həmmüəllifliyi ilə hazırlanan "Bələdiyyə hüququ" adlı dərs vəsaitində qeyd olunur ki, yerli özünüidarə bu və ya digər inzibati ərazi vahidində məskunlaşmış əhalini təmsil edən, seçki əsasında yaradılan, özünün inzibati idarəetmə aparatına malik olan, yerli əhəmiyyətli məsələnin həll edilməsini həyata keçirən sistemdir (63).

Bələdiyyələrə aid digər nəzəri mənbələrdə qeyd olunur ki, yerli özünüidarə yerli əhəmiyyətli bütün məsələlərin bilavasitə əhali tərəfindən müstəqil həll edilməsi deməkdir .

"Azərbaycan Respublikasının Konstitusiyasının şərhi" kitabının müəllifi İlqar Cəfərov isə qeyd edir ki, yerli özünüidarə müvafiq inzibati ərazi vahidində yaşayan əhalini bilavasitə təmsil edən xüsusi seçkili orqanlar tərəfindən yerli əhəmiyyətli məsələlərin idarə olunmasıdır (42).

Konstitusiya hüququ elmində yerli özünüidarənin anlayışına dair fikir plüralizminin mövcudluğunu nəzərə alaraq, hesab edirəm ki, yerli özünüidarənin normativ hüquqi definisiyasının interpretasiyası məqsədəuyğun olardı.

Yerli özünüidarənin hüquqi anlayışı Yerli özünüidarəetmə haqqında Avropa Xartiyasında (1985), "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda verilmişdir.

1985-ci ilin oktyabr ayında Avropa Şurası tərəfindən qəbul olunmuş Yerli özünüidarə haqqında Avropa Xartiyasında qeyd edilir ki, yerli özünüidarə dedikdə, yerli hakimiyyət orqanlarının yerli əhəmiyyətli məsələləri əhalinin maraqları baxımından qanun çərçivəsində və öz məsuliyyəti altında tənzimləmək və idarəetmək hüququ

nəzərdə tutulur. Bu halda yerli özünüidarə müəyyən ərazidə yaşayan vətəndaşların və onların yaratdıqları seçkili və təyinatlı orqanların yerli əhəmiyyətli məsələləri müstəqil idarə etmək hüququ kimi nəzərdən keçirilir.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə görə Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir.

Yerli özünüidarənin qanunvericilikdə təsbit olunan definisiyası onun əsas əlamətlərini xarakterizə etməyə imkan yaradır:

1) Hər şeydən əvvəl qeyd olunmalıdır ki, yerli özünüidarə öz subyektlərinə görə fərqlənir. Nəzərə alsaq ki, yerli özünüidarə müəyyən inzibati-ərazi vahidlərində (rayon, şəhər, kənd, qəsəbə) təşkil olunur, demək olar ki, həmin ərazi vahidlərinin əhalisi onun əsas subyektini təşkil edir. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən ölkəmizdə yerli özünüidarənin həyata keçirilməsində 18 yaşına çatmış, seçki hüququ olan Azərbaycan Respublikasının vətəndaşları, ölkəmizdə 5 ildən az olmayaraq daimi yaşayan apatridlər və əcnəbilər iştirak edə bilərlər.

Yerli özünüidarənin digər subyektlərinə bələdiyyə orqanları, onların vəzifəli şəxsləri, bələdiyyə qulluqçuları daxildir.

2) Yerli özünüidarə xüsusi idarəetmə obyektlərinə malikdir. Buna yerli əhəmiyyətli məsələlər daxildir.

Bələdiyyələrin statusu haqında Azərbaycan Respublikasının Qanununda göstərilir ki, yerli əhəmiyyətli

məsələlər-bələdiyyə əhalisinin həyat fəaliyyətinin bilavasitə təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilən məsələlərdir.

Həmin məsələlərə aşağıdakıları aid etmək olar: bələdiyyənin reqlamentinin təsdiq edilməsi, yerli büdcəsinin və onun icrası haqqında hesabatların təsdiq edilməsi, bələdiyyə mülkiyyətinə sahiblik, yerli ekoloji proqramların qəbulu və icra edilməsi, məktəbəqədər tərbiyə, təhsil, səhiyyə, mədəniyyət, yaşayış və qeyri-yaşayış binalarının saxlanılması və istifadə edilməsi, sanitariya müəssisələrinin təşkili, saxlanılması və inkişafı, mənzil tikintisi, yerli əhəmiyyətli su mənbələrindən istifadə, su təchizatının və kanalizasiya təsərrüfatının təşkili, saxlanılması və inkişafı, yanacaq təchizinin və satışının təşkili, yerli əhəmiyyətli yolların tikilməsi və saxlanılması, mərasim xidmətlərinin təşkili və qəbiristanların qorunması, yerli nəqliyyat və rabitə xidmətinin təşkili, ticarət, ictimai iaşə və məişət xidmətinin təşkilinə şərait yaradılması, mədəniyyət müəssisələrinin inkişafına yardım göstərilməsi, tarix və mədəniyyət abidələrinin saxlanılması, informasiya xidmətinin təşkili, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün şərait yaradılması, kimsəsizlərə, xəstələrə, qocalara, maddi imkansızlara, valideyn himayəsindən məhrum olmuş, həmçinin istedadlı uşaqlara əlavə yardım, fiziki tərbiyə və idmanın inkişafına yardım göstərilməsi, əhalinin məşğulluğuna, adamların peşələri üzrə işlə təmin olunmasına kömək göstərilməsi və yerli infrastrukturun digər sahələrini əhatə edə bilər.

3) Yerli özünüidarəetmə orqanları dövlət idarəetmə mexanizminin əsas hissəsi sayılmır. Bununla bərabər yerli özünüidarəetmə ilə dövlət hakimiyyəti arasında sıx bağlılıq var. Bu da onların yeganə mənbəyi olan xalq hakimiyyətinin olmasıdır. Yerli özünüidarəetmənin fəaliyyətinin böyük

hissəsini dövlətin müxtəlif vasitələrlə (hüquqi, maliyyə və s.) təsir göstərə bildiyi məsələlər təşkil edir. Yerli özünüidarəetmə əlbəttə ki, "dövlət içində dövlət" deyil. Lakin bununla belə yerli özünüidarəetməni yalnız vətəndaş cəmiyyətinin institutlarına aid etmək olmaz, çünki yerli özünüidarəetmə yalnız yerli məsələlərin həlli üçün özünütəşkil forması deyil, həmçinin ictimai hakimiyyətin həyata keçirilmə formasıdır.

Dövlətdən fərqli olaraq yerli özünüidarəetmə orqanları suverenliyə malik deyil və müstəqil olaraq öz səlahiyyətləri dairəsini təyin edə bilməz. Yerli özünüidarəetmə orqanlarının öz qanunvericilik hakimiyyətini həyata keçirmək hüququ yoxdur. Başqa sözlə desək bu və ya digər yerli əraziyə aid olan və ümumi qanunları əvəz edən qanunlar verə bilməzlər. Şübhəsiz ki, yerli özünüidarəetmə orqanları ümumi xarakterli davranış qaydaları qəbul edirlər. Lakin onlar qanunlara aid deyil və öz mahiyyəti etibarı ilə normativ xarakterli aktlardır.

Yerli özünüidarə dövlətin müvafiq qanunvericiliyi əsasında təşkil olunur və fəaliyyət göstərir.

Yerli özünüidarəni dövlət hakimiyyətindən fərqləndirən ən mühüm əlamət odur ki, onun prinsiplərini dövlət hakimiyyəti müəyyən edir və o bu prinsipləri dəyişə bilməz.

4) Hakimiyyətin təşkili və həyata keçirilməsi forması kimi yerli özünüidarənin mahiyyətini xarakterizə edən əlamətlərdən biri də onun müstəqilliyidir. Yerli özünüidarə qanunla onun səlahiyyətlərinə aid edilmiş məsələlərin həllində tam müstəqilliyə malikdir. Dövlət hakimiyyəti orqanları yerli özünüidarə orqanlarına onların səlahiyyətlərinə aid edilmiş bu və ya digər məsələlərin həllində hər hansı göstəriş verə bilməzlər.

Yerli özünüidarə bələdiyyə mülkiyyətini müstəqil idarə edir, müstəqil büdcəni formalaşdırır və icra edir, yerli

vergiləri və rüsumları müəyyən edir və digər yerli əhəmiyyətli məsələləri həll edir.

5) Yerli özünüidarə iki əsas demokratiya formasında həyata keçirilir: bilavasitə və nümayəndəli (reprezentativ) demokratiya formaları ilə.

Yerli özünüidarə haqqında Avropa Xartiyasının 3-cü maddəsində qeyd olunur ki, yerli özünüidarəni azad, gizli, bərabər, birbaşa və ümumi səsvermə yolu ilə seçilmiş üzvlərdən ibarət şuralar, yaxud yığıncaqlar həyata keçirir. Şuraların, yaxud yığıncaqların onlara hesabat verməli olan icra orqanları ola bilər. Bu müddəa qanunla yol verilən yerlərdə vətəndaşların yığıncaqlarına, referenduma və ya vətəndaşların birbaşa iştirakının hər hansı başqa formasına müraciət olunmasını istisna etmir.

Yerli özünüidarənin bilavasitə demokratiya institutlarına demokratik xarici ölkələrin təcrübəsində: yerli seçkilər, referendumlar, rəy sorğusu, bələdiyyə orqanlarının və vəzifəli şəxslərinin fəaliyyətinə vətəndaşların nəzarəti, yerli əhali tərəfindən bələdiyyə üzvünün geri çağırılması, bələdiyyə ərazilərinin dəyişdirilməsi, yenidən təşkili, ərazi ictimai özünüidarə, kütləvi aksiyalar, vətəndaşların müraciət hüququ, bələdiyyə qulluğunun həyata keçirilməsi kimi məsələlər əksini tapır.

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi yerli referendumu və əhali tərəfindən səsvermə yolu ilə bələdiyyə üzvünün geri çağırılması institutlarını nəzərdə tutmur.

Yerli özünüidarənin nümayəndəli (reprezentativ) forması yerli əhali tərəfindən seçkilər əsasında təşkil olunan bələdiyyə orqanlarının fəaliyyətini ehtiva edir.

6) Yerli özünüidarənin digər əsas əlamətlərindən biri də yerli özünüidarəetmə orqanlarının şəxsi məsuliyyətidir. Yerli özünüidarə orqanları öz səlahiyyətlərinə aid

məsələlərin həllində bələdiyyə əhalisi, dövlət, fiziki və hüquqi şəxslər qarşısında məsuldur.

Yerli özünüidarə orqanları öz vəzifə və funksiyalarını həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına riayət etməli, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etməli, digər fiziki və hüquqi şəxslərin qanuni mənafelərinə zərər vurmamalıdır. Bələdiyyələrin statusu haqqında qanunda deyilir ki, bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri hüquqa zidd hərəkətlərə və hərəkətsizliyə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə qanunla müəyyənləşdirilmiş qaydada şikayət verilə bilər.

§ 2. Yerli özünüidarəetmə prinsipləri və funksiyaları

İstənilən idarəetmə fəaliyyəti kimi yerli özünüidarə də müəyyən prinsiplərə əsaslanır. Bu demokratik normalar Azərbaycan Respublikasının Konstitusiyasında, dövlətimizin qoşulduğu Yerli özünüidarə haqqında Avropa Xartiyasında, Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarında öz hüquqi ifadəsini tapır.

Yerli özünüidarəetmənin prinsipləri dedikdə, pozitiv hüquqda təsbit olunan, yerli özünüidarənin təşkili, həyata keçirilməsi, dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqəsi prosesində rəhbər tutulan, ilkin, başlanğıc ideyalardır.

Yerli özünüidarənin prinsipləri:

1) Azərbaycan Respublikasının bütün ərazisində bələdiyyə hakimiyyətinin təşkili və fəaliyyətinin vahid əsaslarını müəyyən edir;

2) Bələdiyyə quruculuğunun nəzəri əsasları kimi, yerli özünüidarənin mahiyyətini, əlamətlərini və fərqli xüsusiyyətlərini müəyyən etməyə kömək edir;

3) Ölkədə mövcud yerli özünüidarə sisteminin qiymətləndirmə meyarı kimi çıxış edir;

4) Yerli özünüidarə institutlarının inkişaf tendensiyalarını təmin edir.

Nəzəri hüquq ədəbiyyatlarında yerli özünüidarənin prinsiplərinə dair fikir ayrılığı mövcuddur. Bu sahədə fikir müxtəlifliyinin olmasına baxmayaraq, bələdiyyə hüququ elmində yerli özünüidarəetmənin aşağıdakı ümumi prinsipləri həmin nəzəri mənbələrin əksər alimləri tərəfindən qəbul olunur. İndi isə bu prinsipləri daha (konkret) ətraflı nəzərdən keçirək:

1) Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının aliliyi. Bu prinsipə görə, Azərbaycan Respublikasının bütün ərazisində yerli özünüidarə

Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əsaslanmalıdır.

Əsas qanunda deyilir ki, Azərbaycan Respublikasının Konstitusiyası ölkə ərazisində ən yüksək hüquqi qüvvəyə malikdir.

Konstitusiyadan sonra öz hüquqi qüvvəsinə görə referendumla qəbul edilmiş aktlar və Azərbaycan Respublikasının qanunları dayanır.

Qanunvericiliyə uyğun olaraq bütün normativ hüquqi aktlar, o cümlədən bələdiyyələrin normativ xarakterli aktları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əsaslanmalı, onlara uyğun olmalıdır.

Bələdiyyə öz səlahiyyətləri daxilində normativ xarakterli aktlar qəbul edə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 150-ci maddəsinə görə bələdiyyələrin qəbul etdiyi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə, bərabər münasibətə) əsaslanmalı, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) zidd olmamalıdır.

2) Yerli özünüidarənin müstəqilliyi.

Azərbaycan Respublikasının Konstitusiyasına görə, bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər. Lakin bələdiyyələrin müstəqilliyi, bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında onların məsuliyyətini istisna etmir və Azərbaycan dövlətinin suverenliyinə xələl gətirə bilməz.

Yerli özünüidarə yerli əhəmiyyətli məsələlərin həllində əhalinin müstəqilliyini təmin etməlidir. Yerli əhəmiyyətli məsələlərin həllində əhalinin bilavasitə və

bələdiyyə orqanları vasitəsilə fəal iştirak etməsi yerli özünüidarənin müstəqil səlahiyyətli sferasıdır.

Yerli özünüidarənin müstəqilliyi həmçinin maliyyə-iqtisadi sahələri də ehtiva edir. Hər bir bələdiyyənin özünün müstəqil idarə etdiyi büdcəsi, mülkiyyəti vardır.

Bələdiyyə öz əmlakına dair mülkiyyətçi hüququna malikdir, yəni sərbəst olaraq əmlakına sahiblik edir, ondan istifadə edir və ona sərəncam verir. Bələdiyyələr yerli büdcələrin vəsaiti barəsində müstəqil sərəncam verirlər.

Məhkəmənin müvafiq qərarı olmadan bələdiyyələrin hüquqi aktlarını heç kəs ləğv edə bilməz.

Azərbaycan Respublikasının qanunvericiliyi dövlət hakimiyyəti orqanlarına yerli özünüidarənin fəaliyyətinə müdaxilə etməyi qadağan edir.

3) İnsan və vətəndaş hüquq və azadlıqlarının təminatı.

Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunur ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, hər kəsin layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir (mad. 12). Bu konstitusion norma həm dövlət hakimiyyəti, həm də yerli özünüidarə sisteminin təşkili və fəaliyyətində mühüm əhəmiyyətə malikidir.

Yerli özünüidarə orqanları bələdiyyə ərazisində qanuni yaşayan hər bir şəxsin yerli özünüidarənin həyata keçirilməsində bilavasitə iştirakını təmin etməlidir.

Azərbaycan Respublikasının vətəndaşları yaşadıqları ərazilərdə yerli özünüidarə hüququnu bələdiyyələrə seçkilər, öz iradəsini birbaşa ifadə etmək, rəy sorğusu, müstəqil fikir söyləmək, təkliflər vermək vasitəsilə və digər formalarda həyata keçirirlər.

Vətəndaşlar irqindən, milliyyətindən, cinsindən, dilindən, mənşəyindən, əmlak və vəzifə mövqeyindən, dinə münasibətindən, əqidəsindən, peşəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə münasibətindən asılı olmayaraq, yerli özünüidarəni həm

bilavasitə, həm də öz nümayəndələri vasitəsilə həyata keçirə bilərlər.

Azərbaycan Respublikası vətəndaşlarının yerli özünüidarə orqanlarına seçmək və seçilmək hüququ vardır.

Hər bir vətəndaşın bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciət etmək hüququ vardır.

Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri insan və vətəndaş hüquqlarına və azadlıqlarına bilavasitə aid sənəd və materiallarla hər bir vətəndaşı tanış etməyə, habelə qanunla xüsusi hallar nəzərdə tutulmayıbsa, bələdiyyələrin fəaliyyəti haqqında tam məlumat almaq imkanını təmin etməyə, seçicilərin tapşırıqlarını yerinə yetirməyə borcludurlar.

Bələdiyyə orqanları insan və vətəndaş hüquq və azadlıqlarına daimi əməl etməli və onları müdafiə etməlidir. Vətəndaşların bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə fərdi və kollektiv surətdə müraciət etmək hüququ vardır.

Etiraf edək ki, insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsi hər şeydən əvvəl yerli səviyyədə təmin edilir. Belə ki, insanlar əsasən yaşadığı yer üzrə öz sosial-iqtisadi, mədəni, siyasi hüquq və azadlıqlarını reallaşdırmağa çalışır. Sözsüz ki, bu prosesdə bələdiyyələrin də böyük rolu danılmazdır.

Təhsil, səhiyyə, mənzil-kommunal, torpaqdan istifadə, məişət-ticarət, nəqliyyat və digər sahələrdə bələdiyyələr tərəfindən yerli əhəmiyyətli məsələlərin həlli, seçki və referendum prosesində bələdiyyələrin fəal iştirakı, bələdiyyə ərazisində yaşayan vətəndaşların sosial-iqtisadi, mədəni, siyasi hüquq və azadlıqlarının təminatında mühüm əhəmiyyətə malikdir.

4) Qanunçuluq prinsipinə müvafiq olaraq yerli özünüidarə qanun əsasında təşkil olunur və fəaliyyət göstərir.

5) Dövlət bir tərəfdən yerli özünüidarənin təşəkkülü və inkişafı üçün zəruri hüquqi, təşkilati və maddi-maliyyə şəraiti yaradır, digər tərəfdən isə bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyətinə inzibati nəzarəti həyata keçirir.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikası Qanununun 52-ci maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı bələdiyyə, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət edilməsinə inzibati nəzarəti həyata keçirir.

Yerli özünüidarə haqqında Avropa Xartiyasında yerli özünüidarənin fəaliyyətinə dövlət nəzarətinin aşağıdakı əsas meyarları müəyyən olunur:

1. Yerli özünüidarə orqanları üzərində istənilən inzibati nəzarət yalnız konstitusiya ilə yaxud qanunla nəzərdə tutulmuş formalarda və hallarda həyata keçirilə bilər.

2. Yerli özünüidarə orqanlarının fəaliyyətinə istənilən inzibati nəzarət, bir qayda olaraq, yalnız qanunçuluğa və konstitusiya prinsiplərinə riayət olunmasını təmin etmək üçün nəzərdə tutulmalıdır. Bununla belə, inzibati nəzarət həmçinin yerli özünüidarə orqanlarının onlara həvalə edilmiş səlahiyyətləri lazımi qaydada yerinə yetirmələri üzərində yuxarı hakimiyyət orqanlarının nəzarətini də ehtiva edə bilər.

3. Yerli özünüidarə orqanları üzərində inzibati nəzarət elə tərzdə həyata keçirilməlidir ki, nəzarət edən orqanın müdaxilə dərəcəsi bu müdaxiləni qorumağı nəzərdə tutan maraqların əhəmiyyətinə mütənasib olsun.

Hesab edirəm ki, bu sahədə ölkəmizin qanunvericiliyi ümumilikdə qeyd olunan Avropa standartlarına uyğundur.

4. Aşkarlıq prinsipi demokratik idarəçiliyin ən mühüm elementlərindən biridir.

Yerli özünüidarənin həyata keçirilməsində aşkarlıq prinsipi, əhaliyə bələdiyyələrin işi ilə tanış olmaq və onların fəaliyyətinə ictimai nəzarəti həyata keçirmək imkanı yaradır.

Bələdiyyələr öz fəaliyyəti barədə əhaliyə məlumat verməlidir.

Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikasının Qanununda qeyd olunur ki, bələdiyyə üzvü seçicilərlə mütəmadi olaraq əlaqə saxlamalı, görüşlər keçirməli, onların təkliflərinə, müraciətlərinə və şikayətlərinə baxmalıdır. Bələdiyyə üzvü 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verməlidir.

Bələdiyyələrin nümunəvi nizamnaməsində isə göstərilir ki, bələdiyyə aktları dərc və ya əhaliyə digər üsulla elan edildiyi gündən qüvvəyə minir.

5. Yerli özünüidarə orqanlarının dövlət hakimiyyəti orqanları sistemindən ayrılması.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanununda deyilir ki, bələdiyyələr və onların orqanları dövlət hakimiyyəti sisteminə daxil deyildir. Dövlət orqanları və dövlətin vəzifəli şəxsləri tərəfindən yerli özünüidarənin həyata keçirilməsinə yol verilmir.

Yerli özünüidarə orqanlarının yaradılması, onların vəzifəli şəxslərinin təyin edilməsi dövlət hakimiyyəti orqanları tərəfindən həyata keçirilə bilməz.

Dövlət hakimiyyəti orqanları bələdiyyələrə göstəriş verə bilməz, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan bələdiyyə orqanlarının aktlarını ləğv edə bilməz. Bu aktlar yalnız həmin inzibati orqanın

müraciəti əsasında (təqdimatı ilə) məhkəmələr tərəfindən ləğv oluna bilər.

Qanunvericiliyə görə bələdiyyə orqanları dövlət orqanları sisteminə daxil deyildir. Lakin bu heç də o demək deyildir ki, bələdiyyələr dövlət orqanlarından tam ayrı təcrid olunmuş formada fəaliyyət göstərir. Yerli özünüidarə və dövlət hakimiyyəti xalq hakimiyyətinin formaları kimi yalnız sıx qarşılıqlı əlaqədə öz vəzifə və funksiyalarını layiqli şəkildə həyata keçirə bilər. Bu məsələyə növbəti paraqrafların birində daha geniş və ətraflı baxılacaq.

6. Yerli özünüidarə orqanlarının və onların vəzifəli şəxslərinin əhali, dövlət, hüquqi və fiziki şəxslər qarşısında məsuliyyəti Azərbaycan Respublikası Konstitusiyasının 146-cı maddəsinə görə aşağıdakı kimi müəyyən edilir:

I. Bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər, bu isə bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında onların məsuliyyətini istisna etmir. Bələdiyyə üzvlərinin seçilməsi, səlahiyyətlərinin dayandırılması və ya səlahiyyətlərinə xitam verilməsi, bələdiyyələrin vaxtından əvvəl buraxılması halları və qaydası qanunla müəyyən edilir.

II. Bələdiyyələrin öz səlahiyyətlərini müstəqil həyata keçirməsi Azərbaycan dövlətinin suverenliyinə xələl gətirə bilməz.

III. Dövlət bələdiyyələrin fəaliyyətinə nəzarət edir.

IV. Qanunla müəyyən edilmiş hallarda və qaydada bələdiyyələr öz fəaliyyətləri barəsində Azərbaycan Respublikasının Milli Məclisinə hesabat təqdim edirlər.

Təhlil olunan bu prinsip bələdiyyələrin səlahiyyətlərinə aid olan yerli əhəmiyyətli məsələlərin daha səmərəli həll edilməsini, əhalinin maraqlarına uyğun həyata keçirilməsini və bu maraqların səmərəli müdafiəsini, o cümlədən, bələdiyyə orqanları, onların vəzifəli şəxsləri ilə əhali arasında yaxın əlaqəni təmin edir.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanununda göstərilir ki, bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyətinin əsasları və növləri bələdiyyələrin nizamnaməsində göstərilməlidir (mad., 8).

7. Yerli özünüidarənin maddi və maliyyə resurslarının onun səlahiyyətlərinə uyğunluğu.

Yerli özünüidarə haqqında Avropa Xartiyasında qeyd olunur ki, yerli özünüidarə orqanlarının milli iqtisadi siyasət çərçivəsində kifayət qədər maliyyə vəsaitlərinə malik olmaq hüququ vardır, onlar öz funksiyalarını yerinə yetirmək üçün həmin vəsaitlər barədə sərbəst sərəncam verə bilərlər.

Yerli özünüidarə orqanlarının maliyyə vəsaitləri konstitusiya ilə, yaxud qanunla onlara verilən səlahiyyətlərə münasib olmalıdır. Yerli özünüidarə orqanlarının maliyyə vəsaitlərinin heç olmazsa bir hissəsi yerli rüsum və vergilər hesabına formalaşdırılmalıdır, bunların dərəcələrini yerli özünüidarə orqanları qanunda göstərilən hüdudlarda müəyyənləşdirməyə ixtiyarlıdır. Yerli özünüidarə orqanlarının maliyyə vəsaitlərinin əsaslandığı maliyyə sistemləri yetərincə müxtəlif və çevik olmalıdır ki, yerli orqanların səlahiyyətlərinin həyata keçirilməsi zamanı çəkilən xərclərin dəyişməsini mümkün qədər təmin edə bilsin.

8. Yerli özünüidarəetmənin bilavasitə və nümayəndəli demokratiya formalarının uzlaşması.

Demokratik quruluşun əsası kimi yerli özünüidarə nümayəndəli demokratiya ilə bilavasitə demokratiya institutlarını birləşdirir, onların qarşılıqlı əlaqəsini təmin edir.

Yerli özünüidarə vətəndaşlar tərəfindən bilavasitə yerli seçkilər, rəy sorğusu, yığıncaqlar, o cümlədən seçkili və digər yerli özünüidarə orqanları vasitəsilə həyata keçirilir.

Yerli özünüidarə bilavasitə və nümayəndəli demokratiya institutları əhali ilə yerli özünüidarənin orqanlarının və onların vəzifəli şəxslərinin sıx əlaqəsini, yerli əhəmiyyətli məsələlərin yerli əhalinin mənafeyinə uyğun həll edilməsini təmin edir.

Seçkili yerli özünüidarə orqanlarının mövcudluğu-yerli demokratiyanın əsas atributu sayılır. Təsadüfi deyildir ki, Yerli özünüidarə haqqında Avropa Xartiyası yerli özünüidarənin həyata keçirilməsində azad, gizli, bərabər, birbaşa və ümumi səsvermə yolu ilə seçilmiş nümayəndəli orqanlara üstünlük verir.

Yerli özünüidarə sistemində nümayəndəli orqanların üstünlüyü Azərbaycan Respublikasının bələdiyyə qanunvericiliyində aşağıdakı müddəalarla təmin olunur:

1) Bələdiyyənin ən mühüm səlahiyyətləri onun əsas nümayəndəli orqanının iclaslarında həll olunur (Azərbaycan Respublikası Konstitusiyası maddə 144);

2) Bələdiyyənin normativ xarakterli aktları (qərarları) bələdiyyə məclisi tərəfindən qəbul edilir (Azərbaycan Respublikası Konstitusiyası maddə 145);

3) Yerli özünüidarənin nümayəndəli orqanı bələdiyyənin digər orqanlarını yaradır, vəzifəli şəxslərini təyin edir və onların fəaliyyətinə nəzarət edir;

4) Bələdiyyənin nizamnaməsi bələdiyyənin iclasları və ya vətəndaşların yığıncaqları tərəfindən qəbul edilir.

9. Yerli özünüidarənin həyata keçirilməsində kollegiallıq və təkbaşçılıq prinsiplərinin uzlaşması.

Yerli özünüidarə orqanları kollegiallıq və təkbaşçılıq prinsipləri əsasında fəaliyyət göstərir. Yerli özünüidarənin əsas orqanı bələdiyyə məclisdir. Bələdiyyə məclisinin say tərkibi Azərbaycan Respublikası Seçki Məcəlləsi əsasında bələdiyyə ərazisində yaşayan əhalinin sayına uyğun olaraq müəyyən olunur. Bələdiyyənin səlahiyyətlərinə aid olan

məsələlər kollegial, şəkildə bələdiyyə iclaslarında həll olunur.

Bələdiyyələrin digər mühüm orqanı onun icra orqanıdır. Bələdiyyələrin icra orqanı onun icra aparatıdır. İcra aparatı bələdiyyənin sədrindən və onun bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilmiş qaydada formalaşdırdığı struktur bölmələrindən və bələdiyyənin nizamnaməsinə müvafiq surətdə yaradılan digər icra strukturundan ibarətdir.

Bələdiyyənin icra aparatının fəaliyyətinə bələdiyyənin sədri rəhbərlik edir.

Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini Bələdiyyə Şurasının qərarına əsasən bələdiyyənin sədri təyin edir. Bələdiyyənin sədri təkbaşçılıq prinsipi əsasında əmr və sərəncamlar verir.

10. Bir bələdiyyənin digər bələdiyyəyə tabe olmaması prinsipi.

Bələdiyyələr öz vəzifə və funksiyalarını həm dövlət hakimiyyəti orqanları, həm də digər bələdiyyələrdən asılı olmayaraq müstəqil həyata keçirir.

Bir bələdiyyənin qəbul etdiyi hüquqi aktın icrası yalnız həmin bələdiyyənin ərazisində yaşayan vətəndaşlar və onun ərazisində yerləşən hüquqi şəxslər üçün məcburidir və digər bələdiyyənin ərazisində heç bir hüquqi qüvvəyə malik deyildir.

11. Yerli özünüidarə sistemində dövlət təminatlarının mövcudluğu.

Dövlət hakimiyyəti orqanları bələdiyyələrin təşəkkülü və inkişafı üçün zəruri hüquqi, təşkilati və maddi-maliyyə şəraiti yaradır və yerli özünüidarə hüququnu həyata keçirməkdə əhaliyə kömək göstərirlər. Hər şeydən əvvəl dövlət yerli özünüidarənin təşkili və həyata keçirilməsi qaydalarını müəyyən edən qanunvericilik aktları yaradır.

Dövlət bələdiyyələrin hüquqlarını və qanuni mənafelərini həm mühafizə, həm də müdafiə edir.

Bələdiyyələrin ərazisində yaşayan vətəndaşlar, bələdiyyələr, bələdiyyə orqanları və bələdiyyə orqanlarının vəzifəli şəxsləri dövlət hakimiyyəti orqanlarının və dövlətin vəzifəli şəxslərinin, bələdiyyələrin, bələdiyyə orqanlarının və bələdiyyə orqanlarının vəzifəli şəxslərinin, bələdiyyənin yaratdığı hüquqi şəxslərin, habelə ictimai birliklərin yerli özünüidarənin hüquqlarını pozan aktlarının etibarsız sayılması barədə məhkəməyə iddia verə bilərlər.

Yerli özünüidarənin funksiyaları

Yerli özünüidarənin mahiyyəti onun funksiyalarında, yəni ictimai inkişafda rolunu xarakterizə edən əsas istiqamətlərində ifadə olunur. Yerli özünüidarə yaranarkən onun funksiyaları da formalaşmışdır. Yerli özünüidarənin funksiyaları hər şeydən əvvəl yerli əhalinin mənafeyi ilə müəyyən olunur. Hər bir bələdiyyə onun ərazisində yaşayan insan və vətəndaşların hüquq və azadlıqlarını, yerli əhalinin mənafeyini müdafiə etməlidir.

Bələdiyyə hakimiyyətinin, yerli özünüidarənin həyata keçirilməsinin özü sözün geniş mənasında, yerli özünüidarənin funksiyalarının həyata keçirilməsi deməkdir. Bələdiyyə hakimiyyəti özünüidarənin varlığını təsdiq edən fəaliyyət olmaqla bələdiyyənin funksiyalarının həyata keçirilməsi vasitəsi ilə ictimai həyatın, ictimai münasibətlərin müxtəlif sahələrində konkretləşən yerli özünüidarəni real hadisəyə, ictimai xarakterli bir gücə çevirir, onu obyektivləşdirir. Bələdiyyələrin fəaliyyəti kortəbii, məqsədsiz xarakterli fəaliyyət olmayıb onun mahiyyətinə, məqsəd və vəzifələrinə, sosial təyinatına uyğun gəlir. Beləliklə, yerli özünüidarənin funksiyaları onun mahiyyətindən, məqsəd və vəzifələrindən irəli gələn fəaliyyət istiqamətləri kimi təzahür olunur. Həmin fəaliyyət istiqamətləri birbaşa bələdiyyələrin məqsəd və vəzifələrinin həyata keçirilməsinə xidmət etməklə bərabər, onun mahiyyətini, bələdiyyə hakimiyyətinin xarakterini ifadə edir. Bəzən elmi ədəbiyyatda funksiya ilə vəzifənin eyniləşdirilməsi hallarına da rast gəlinir. Bu kontekstdə bələdiyyələrin funksiyaları ilə vəzifələri də eyniləşdirilir. Hesab edirəm ki, "bələdiyyələrin funksiyaları" ilə "bələdiyyələrin vəzifələri" yaxın anlayışlar olmasına baxmayaraq, onlar fərqli hadisələri ifadə edir. Buna görə də onları eyniləşdirmək olmaz. Bələdiyyələrin vəzifələri onların qarşısında duran (bələdiyyələrin sosial təyinatı ilə

müəyyənləşmiş) əsas tələbləri, bələdiyyənin nələri etməli olduğunu ifadə edir. Yerli özünüidarənin funksiyaları isə bələdiyyələrin vəzifələrinin həyata keçirilməsinə istiqamətlənmiş fəaliyyətdir, vəzifələrin icra olunması prosesidir. Özü də müəyyən istiqaməti olan məqsədyönlü fəaliyyətdir, yəni fəaliyyət istiqamətidir.

Beləliklə, yerli özünüidarənin funksiyaları dedikdə, onun fəaliyyətinin əsas istiqamətləri başa düşülür.

Yerli özünüidarə aşağıdakı funksiyaları həyata keçirir:

1. *Siyasi funksiya*. Bu funksiya vətəndaşların yerli özünüidarəni həyata keçirmək hüququnun təmin olunmasına yönəlmişdir.

Yerli özünüidarənin həyata keçirilməsində əhalinin səmərəli iştirakını təmin etmək üçün bələdiyyələr tərəfindən müvafiq şərait yaradılmalıdır. Bələdiyyə əhalisi yerli özünüidarəni bilavasitə , seçkili və digər bələdiyyə orqanları vasitəsilə həyata keçirirlər. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi yerli özünüidarənin həyata keçirilməsində vətəndaşların səmərəli iştirakının hüquqi təminatlarını müəyyən edir.

Azərbaycan Respublikasının vətəndaşları yaşadıqları ərazilərdə yerli özünüidarə hüququnu bələdiyyələrə seçkilər, öz iradəsini birbaşa ifadə etmək, rəy sorğusu, müstəqil fikir söyləmək, təkliflər vermək vasitəsilə və digər formalarda həyata keçirirlər. Vətəndaşlar irqindən, milliyyətindən, cinsindən, dilindən, mənşəyindən, əmlak və vəzifə mövqeyindən, dinə münasibətindən, əqidəsindən, peşəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə münasibətindən asılı olmayaraq, yerli özünüidarəni həm bilavasitə, həm də öz nümayəndələri vasitəsilə həyata keçirə bilərlər.

Azərbaycan Respublikası vətəndaşlarının yerli özünüidarə orqanlarına seçmək və seçilmək hüququ vardır.

2. *İqtisadi funksiya*. Bura bələdiyyə mülkiyyətinin və maliyyə vəsaitlərinin idarə olunması, yerli büdcənin formalaşdırılması və icrası, yerli vergilərin müəyyən olunması və s. daxildir.

Bələdiyyə mülkiyyətinin tərkibinə yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti, bələdiyyənin büdcədənkənar fondları, bələdiyyə əmlakı, habelə bələdiyyə torpaqları, bələdiyyə müəssisələri və təşkilatları, bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları, dövlət və xüsusi mülkiyyətdə olmayan yollar, bələdiyyə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri, digər daşınar və daşınmaz əmlak daxildir.

Bələdiyyələr bələdiyyə mülkiyyətini idarə edirlər. Bələdiyyə mülkiyyətinin tərkibinə daxil olan əmlak barəsində mülkiyyət hüququnu bələdiyyələr, Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hallarda isə bilavasitə əhali həyata keçirir. Qanuna uyğun olaraq bələdiyyələr bələdiyyə mülkiyyəti obyektlərini fiziki və hüquqi şəxslərin müvəqqəti və ya daimi istifadəsinə, icarəsinə verə bilər, qanunla müəyyənləşdirilmiş qaydada özgəninkiləşdirə bilər, habelə bələdiyyə mülkiyyətində olan əmlak barəsində başqa əqdlər bağlaya bilər, özəlləşdirilən və ya istifadəyə verilən obyektlərdən istifadə şərtlərini müqavilə və sazişlərdə müəyyənləşdirə bilərlər.

Qanuna uyğun olaraq bələdiyyələr yerli əhalinin mənafeyi naminə, bələdiyyənin hüdudları daxilində olan torpaqlardan istifadə şərtlərini müəyyənləşdirə bilərlər. Bələdiyyə mülkiyyətinin özəlləşdirilməsi qaydasını və şərtlərini əhali bilavasitə və ya bələdiyyə müstəqil surətdə müəyyənləşdirir. Bələdiyyə mülkiyyəti obyektlərinin özəlləşdirilməsindən daxil olan vəsaitlər bütünlüklə yerli büdcəyə daxil olur.

Bələdiyyə mülkiyyətindən yalnız bələdiyyə vəzifələri üçün istifadə oluna bilər. Dövlət bələdiyyə mülkiyyətini

müdafiə edir, subsidiyalar, kreditlər, qrantlar vermək yolu ilə onun artmasına imkan yaradır.

3. *Sosial funksiya*. Sosial funksiya bələdiyyə əhalisinə kommunal-məişət, sosial, mədəni və digər həyati vacib xidmətlər göstərilməsi üzrə bələdiyyələrin fəaliyyətini nəzərdə tutur.

Bələdiyyələrin kompleks sosial-iqtisadi inkişafı hər şeydən əvvəl planlaşdırma vasitəsilə həyata keçirilir. Yerli özünüidarənin nümayəndəli orqanları bələdiyyənin inkişaf proqramlarını qəbul edir və bu proqramların həyata keçirilməsinə nəzarət edir. Həmin proqramlardan biri də yerli sosial müdafiə və sosial inkişaf proqramlarıdır. Yerli sosial müdafiə proqramları bələdiyyə tərəfindən müəyyən edilən vətəndaşlar kateqoriyasına dövlət sosial təminatından əlavə sosial təminatlar müəyyən edir. Həmin təminatlar mütəmadi və birdəfəlik ola bilər.

Yerli sosial müdafiə və sosial inkişaf proqramlarında məqsəd dövlətin həyata keçirdiyi sosial inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar məktəbəqədər tərbiyə, təhsil, səhiyyə, mədəniyyət, yaşayış və qeyri-yaşayış binalarının saxlanılması və istifadə edilməsi, sanitariya müəssisələrinin təşkili, saxlanılması və inkişafı, mənzil tikintisi, yerli əhəmiyyətli su mənbələrindən istifadə, su təchizatının və kanalizasiya təsərrüfatının təşkili, saxlanılması və inkişafı, yanacaq təchizinin və satışının təşkili, yerli əhəmiyyətli yolların tikilməsi və saxlanılması, mərasim xidmətlərinin təşkili və qəbiristanlıqların qorunması, yerli nəqliyyat və rabitə xidmətinin təşkili, ticarət, ictimai iaşə və məişət xidmətinin təşkilinə şərait yaradılması, mədəniyyət müəssisələrinin inkişafına yardım göstərilməsi, tarix və mədəniyyət abidələrinin saxlanılması, informasiya xidmətinin təşkili, kütləvi informasiya vasitələrinin

fəaliyyəti üçün şərait yaradılması, kimsəsizlərə, xəstələrə, qocalara, maddi imkansızlara, valideyn himayəsindən məhrum olmuş, həmçinin istedadlı uşaqlara əlavə yardım, fiziki tərbiyə və idmanın inkişafına yardım göstərilməsi, əhalinin məşğulluğuna, adamların peşələri üzrə işlə təmin olunmasına kömək göstərilməsi və yerli infrastrukturun digər sahələrini əhatə edə bilər.

4. *Ekoloji funksiya*. Bu funksiyaya yerli əhəmiyyətli ekoloji təmizlik məsələlərinin həllinə yerli əhalinin hamılıqla cəlb edilməsi, yerli şəraitdə mövcud olan ekoloji tarazlığın qorunub saxlanılması, bələdiyyə ərazisinin yaxşılaşdırılması və abadlaşdırılması, suyun, havanın, torpağın hər cür çirklənmədən qorunması, qonşu bələdiyyələrlə birgə ekoloji tədbirlərin həyata keçirilməsi və s. aiddir.

5. Beynəlxalq əməkdaşlıq funksiyası.

Azərbaycanda yerli özünüidarə sahəsində ictimai münasibətləri tənzimləyən başlıca beynəlxalq sənəd 15 oktyabr 1985-ci il tarixli Yerli Özünüidarə haqqında Avropa Xartiyasıdır. Azərbaycan Respublikası Prezidentinin 20 dekabr 2001-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Avropa Şurası yanında Daimi Nümayəndəliyinə bu sənədi imzalamaq səlahiyyəti verilmiş, həmin sənəd "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixli Qanunu ilə təsdiq edilmiş və 01 avqust 2002-ci il tarixində Azərbaycanda qüvvəyə minmişdir. Bu beynəlxalq sənədin əsasında hələ orta əsrlərdə Avropa sosial fəlsəfəsində özünə yer almış klassik subsidiarlıq prinsipi dayanır. Bununla belə, həmin ideyanın fəal surətdə həyata keçirilməsinə müasir dövrümüzdə başlanmışdır. Xartiya Avropa Şurasına daxil olan ölkələrin üzərinə yerli cəmiyyətlərin siyasi, inzibati və

maliyyə müstəqilliyini qorumaq və möhkəmləndirmək öhdəliyi qoyur. Bununla da, yerli özünüidarə orqanlarının müstəqilliyi yüksək beynəlxalq-hüquqi səviyyədə təsbit edilir, ona riayət edilməsi isə əsl demokratiyanın başlıca meyarlarından biri kimi dəyərləndirilir. Xartiyanın müddəaları Azərbaycanda bələdiyyə qanunvericiliyinin inkişafına mühüm təsir göstərmişdir .

Yerli özünüidarənin təşkili və inkişafı sahəsində Azərbaycanın Avropa Şurasının Yerli və Regional hakimiyyətləri Konqresi ilə əməkdaşlığı xüsusi önəm kəsb edir.

Avropanın Yerli və Regional hakimiyyətləri Konqresi Avropa Şurasının yerli və regional özünüidarə orqanlarını təmsil edən məsləhətverici orqanıdır. Bu orqan 1994-cü ildə Nazirlər Komitəsi tərəfindən təsis edilmiş, həmin vaxta qədər fəaliyyət göstərən Avropanın Yerli və Regional hakimiyyətlərinin Konfransını əvəz etmişdir.

Konqres Parlament Assambleyası kimi üç yüz nümayəndədən və onların üç yüz müavinindən ibarətdir. Onlar regional və yerli orqanların rəhbərləri və ya rəsmi şəxsləri tərəfindən seçilir. Milli nümayəndə heyəti həm müxtəlif tip yerli və regional hakimiyyətləri, həm də onlarda mövcud olan ayrı-ayrı siyasi qüvvələri təmsil etməlidirlər.

Konqres iki palatadan: *Yerli hakimiyyət* palatası və *Regional* palatadan ibarətdir. Hər iki palata iki il müddətinə özünün Prezidentini və Bürosunu seçir. Konqresin Prezidenti də öz növbəsində iki il müddətinə növbə ilə palatalarda seçilir.

Konqres sessiya qaydasında fəaliyyət göstərir. Onun sessiyaları ildə bir dəfə Strasburqda Avropa Sarayında keçirilir. Sessiyalararası müddətdə Konqresin işini bütün milli nümayəndə heyətlərini əhatə edən Daimi Komitə həyata keçirir. Ayrı-ayrı məsələlərin öyrənilməsi üçün

Konqres və onun hər iki palatası xüsusi işçi qrupları yarada bilərlər.

Konqresin əsas məqsədi Avropanın birləşməsi prosesində və Avropa Şurasının işində yerli və regional hakimiyyətlərin iştirakını təmin etməkdir. Bununla əlaqədar olaraq Konqres yerlərdə və regionlarda demokratiyanın inkişafına yardım etmək, bütöv Avropada regionlararası əməkdaşlığı inkişaf etdirmək istiqamətində geniş iş aparır və həmin hakimiyyətlərin qarşılaşa biləcəyi bütün məsələlərlə, o cümlədən, yerli və regional özünüidarə, aqrar rayonların və şəhərlərin inkişafı, ətraf mühitin mühafizəsi, mədəniyyət, təhsil, sosial xidmətlər, səhiyyə ilə bilavasitə məşğul olur.

Konqres yerli özünüidarə haqqında Avropa Xartiyasında ifadə olunan yerli demokratik prinsiplərin üzv dövlətlər tərəfindən həyata keçirilməsini analiz edir.

Konqres üzv dövlətlərin regionlarda demokratiyanın mövcudluğuna nəzarət edir, bu istiqamətdə ciddi problemlər ortaya çıxdıqda bu haqda hesabat hazırlamaq üçün həmin ölkəyə öz nümayəndələrini göndərir.

Konqresin nəzdində yerli və regional əməkdaşlığı inkişaf etdirmək məqsədilə yerli özünüidarə orqanlarında işləmək üçün kadr hazırlığı üzrə mərkəzlər yaradılmışdır. Konqresin gündəlik fəaliyyətini onun katibliyi həyata keçirir. Katiblik Avropa Şurasının daimi personalı hesab edilir. Avropa Şurasına üzv olan dövlətlərin hökumətləri, milli parlamentlər, yerli və regional hakimiyyətlər Avropa Şurasında ayrılıqda müstəqil təmsil olunurlar.

Bələdiyyə münasibətlərinin beynəlxalq hüquqi tənzimində mühüm rol oynayan sənədlər sırasına Yerli özünüidarə haqqında Avropa Xartiyası ilə yanaşı, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948), İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası (1950), Mülki və siyasi hüquqlar haqqında, Sosial-iqtisadi və mədəni hüquqlar haqqında

Beynəlxalq Paktlar (1966), MDB-nin iştirakçı dövlətlərinin Parlamentlərarası Assambleyasının qəbul etdiyi "Birliyin iştirakçı dövlətlərində yerli özünüidarənin prinsipləri haqqında" Bəyannaməsi, Ərazi birliklərinin və ya hakimiyyətlərinin sərhəd əməkdaşlığı üzrə Avropa çərçivəsi Konvensiyası (1980), Şəhər hüquqlarının Avropa Bəyannaməsi (1992), Şəhərlərin Avropa Xartiyası (1992), Avropada regionalizim üzrə Bəyannamə (1996), Regional özünüidarəetmənin Avropa Xartiyası (1997) və s. beynəlxalq sənədlər daxildir.

Avropa Şurası Yerli və Regional hakimiyyətlər Konqresinin yerli özünüidarə haqqında Avropa Xartiyasının prinsiplərinin izahı üzrə tövsiyələri də bu sənədlərin sırasına aid etmək olar.

FƏSİL 9. Yerli özünüidarənin bilavasitə demokratiya formaları

1. Azərbaycan Respublikasında Bələdiyyə seçkiləri və yerli rəy sorğusu.

XX əsrin sonunda öz müstəqilliyini qazandıqdan sonra demokratik hüquqi dövlət quruculuğu yolunu seçmiş respublikamızın qarşısında duran vacib problemlərdən biri də demokratik tələblərə cavab verən səmərəli yerli özünüidarə sisteminin qurulması olmuşdur. Yerli özünüidarəetmənin əsas məqsədi məhdud ərazidə yaşayan əhalinin insan hüquqları və azadlıqlarının qorunması, onların rifahının və yaşayış şəraitinin təminatı sisteminin qurulmasından və yerli əhalinin bu işdə bilavasitə iştirakının təmin edilməsindən ibarətdir. Real hakimiyyətə malik yerli özünüidarəetmə orqanlarının mövcudluğu inkişaf etmiş vətəndaş cəmiyyətinin əlamətlərindən biridir.

Müasir dövrdə praktikada geniş yayılmış yerli özünüidarə vahidi bələdiyyələrdir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən yerli özünüidarəetmənin bələdiyyələr vasitəsilə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Konstitusiyanın 142-ci maddəsində deyilir ki, "Yerli özünüidarəetməni seçkilər əsasında yaradılan bələdiyyələr həyata keçirir".

Yaşı 18-dən aşağı olmayan və müvafiq seçki dairəsində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyələrə üzv seçilə bilərlər.

Seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizədləri siyasi partiyalar, siyasi partiyaların blokları, həmin seçki dairəsində daimi yaşayam seçki hüququ olan Azərbaycan Respublikasının vətəndaşları irəli sürə bilərlər. Bir şəxsin birdən çox bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmasına yol verilmir.

Ölkəmizdə yerli özünüidarəetməni həyata keçirən bələdiyyələrin üzvləri nisbi majoritar sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər.

Bələdiyyə seçkiləri baş tutmazsa (məsələn qeydə alınmış namizədlərin lehinə verilən səslərin sayı bərabər olduqda) və yaxud etibarsız sayılarsa, Mərkəzi Seçki Komissiyasının qərarı ilə təkrar seçkilər keçirilir.

Yerli rəy sorğusu

Azərbaycan Respublikasının qanunvericiliyi yerli referendumların keçirilməsini nəzərdə tutmur. Azərbaycanda bələdiyyələr səviyyəsində yerli rəy sorğuları keçirilir. Yuxarıda isə qeyd olundu ki, referendum və rəy sorğusu bilavasitə demokratiyanın fərqli müstəqil institutlarıdır.

Ölkəmizdə yerli rəy sorğusunun keçirilməsi qaydaları "Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur. Həmin qanunun 1-ci maddəsinə görə yerli rəy sorğusu-yerli əhəmiyyətli

məsələlər barəsində bələdiyyə ərazisində yaşayan vətəndaşların rəyinin öyrənilməsidir.

Yerli rəy sorğusunun nəticələrinin hüquqi qüvvəyə minməsi üçün bələdiyyə müvafiq qərar qəbul etməlidir. Həmin qərarın əsasını yerli rəy sorğusunun nəticələri təşkil edir.

Yerli rəy sorğusunun predmetini Azərbaycan Respublikası Konstitusiyası və qanunvericiliyi ilə bələdiyyələrin səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələlər təşkil edir.

Yerli rəy sorğusu haqqında qanunun 3-cü maddəsinə görə, yerli rəy sorğusuna Azərbaycan Respublikası Konstitusiyası və qanunvericiliyi ilə bələdiyyələrin səlahiyyətinə aid edilməmiş məsələlər, bələdiyyənin rayon və şəhər inzibati ərazi tərkibindən çıxmaq, muxtariyyət elan etmək, bələdiyyələrin dövlət tərəfindən müəyyən edilmiş sərhədlərini dəyişdirmək, insan və vətəndaş hüquqlarını və azadlıqlarını məhdudlaşdırmaq, tarixi, mədəni abidələrə və qoruqlara ziyan vurmaq məqsədi güdən məsələlər çıxarıla bilməz.

Yerli rəy sorğusu aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

1. Yerli rəy sorğusunda vətəndaşların bilavasitə və könüllülük əsasında iştirak etməsi;

2. Yerli rəy sorğusunun ümumi, bərabər və birbaşa seçki hüququ əsasında keçirilməsi;

3. Yerli rəy sorğusunda səsvermənin gizli keçirilməsi, vətəndaşların öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilməməsi.

Bələdiyyələrin ərazisində yaşayan və seçki hüququna malik olan vətəndaşlar yerli rəy sorğusunda iştirak etmək hüququna malikdirlər.

İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, təhsilindən, əmlak vəziyyətindən,

qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq vətəndaşların yerli rəy sorğusunda birbaşa və ya dolayısı ilə iştirak etmək hüququnun məhdudlaşdırılması qadağandır.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada fəaliyyət qabiliyyətsizliyi təsdiq edilmiş şəxslər yerli rəy sorğusunda iştirak edə bilməzlər.

Bələdiyyə ərazisində yerli rəy sorğusunun keçirilməsi prosesini aşağıdakı mərhələlərə bölmək olar:

1. Yerli rəy sorğusunun təyin edilməsi;
2. Yerli rəy sorğusunun keçirilməsi üzrə komissiyaların yaradılması;
3. Yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısının hazırlanması;
4. Yerli rəy sorğusu günü səsvermənin müəyyən edilməsi;
5. Yerli rəy sorğusunun nəticələrinin müəyyən edilməsi.

Yerli rəy sorğusu prosesinin mərhələlərini qanunvericiliyə uyğun olaraq daha ətraflı nəzərdən keçirək:

1) Yerli rəy sorğusunun təyin edilməsi;

Yerli rəy sorğusunu təyin etmək hüququ bələdiyyələrə məxsusdur.

Yerli rəy sorğusunun təyin edilməsi haqqında qərarda yerli rəy sorğusunun keçirilməsi tarixi göstərilir, yerli rəy sorğusuna çıxarılan məsələnin ifadəsi verilir, maliyyələşdirmə qaydası müəyyən olunur və digər məsələlər həll edilir.

Qəbul edilmiş qərar üç gün ərzində yerli kütləvi informasiya vasitələrində elan olunur və müvafiq icra hakimiyyəti orqanına göndərilir.

Yerli rəy sorğusunun təyin edilməməsi haqqında qərardan müvafiq məhkəməyə şikayət edilə bilər.

Yerli rəy sorğusu bələdiyyə orqanının və ya bələdiyyə ərazisində yaşayan vətəndaşların təşəbbüsü ilə keçirilir.

Bələdiyyə ərazisində yaşayan vətəndaşlar yerli rəy sorğusunu keçirmək təşəbbüsü ilə o halda çıxış edə bilərlər ki, yerli rəy sorğusuna çıxarılan məsələnin lehinə müvafiq ərazidə yaşayan və səsvermə hüququna malik olan vətəndaşların azı 10 faizinin imzası toplansın.

Yerli rəy sorğusunu keçirmək təşəbbüsünü həyata keçirmək üçün bələdiyyə ərazisində yaşayan və yerli rəy sorğusunda iştirak etmək hüququ olan azı 15 vətəndaşdan ibarət təşəbbüs qrupu yaradılır.

Təşəbbüs qrupu yaratmaq istəyən vətəndaşlar yığıncaq keçirirlər və aşağıdakı məsələlərə baxırlar:

1) Təşəbbüs qrupunun yaradılması;

2) Yerli rəy sorğusuna məsələnin irəli sürülməsi;

3) Səlahiyyətli nümayəndənin təyin edilməsi;

4) Təşəbbüs qrupunun qeydiyyata alınmaq barədə ərazi rəy sorğu komissiyasına müraciət edilməsi.

Təşəbbüs qrupu yığıncaq keçirdikdən sonra ərazi rəy sorğusu komissiyasına yazılı formada müraciət edir.

Ərazi rəy sorğusu komissiyası zəruri sənədləri yoxlayır və müvafiq qərar qəbul edir. Təşəbbüs qrupu qeydə alındıqda səlahiyyətli nümayəndəyə təşəbbüs qrupunun qeydə alınması barədə şəhadətnamə və müvafiq sayda təsdiq edilmiş imza vərəqələri verilir.

Təşəbbüs qrupu qeydiyyat haqqında şəhadətnaməni aldığı andan vətəndaşların imzalarının toplanmasını təşkil edir.

Yerli rəy sorğusunun keçirilmə müddəti

Yerli rəy sorğusu onun keçirilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən 30 gündən tez və 60 gündən gec olmayaraq keçirilir.

2) Yerli rəy sorğusunun keçirilməsi üzrə komissiyaların yaradılması.

Yerli rəy sorğusunu aşağıdakı komissiyalar hazırlayırlar və keçirirlər:

- ərazi rəy sorğusu komissiyası;
- məntəqə rəy sorğusu komissiyaları.

Ərazi rəy sorğusu komissiyasının səlahiyyətlərini seçki qanunvericiliyinə müvafiq yaradılan ərazi seçki komissiyası həyata keçirir.

Ərazi rəy sorğusu komissiyasının səlahiyyətləri

Ərazi rəy sorğusu komissiyası:

- yerli rəy sorğusu keçirilən ərazidə müvafiq qanunvericiliyin həyata keçirilməsinə nəzarət edir;
- yerli rəy sorğusu məntəqələrinin hüdudlarını müəyyən edir;
- məntəqə rəy sorğusu komissiyalarını formalaşdırır;
- məntəqə rəy sorğusu komissiyalarının fəaliyyətini əlaqələndirir, onların qərar və fəaliyyətindən daxil olmuş şikayətlərə (ərizələrə) baxır, bu şikayətlər (ərizələr) üzrə əsaslandırılmış qərarlar qəbul edir;
- yerli rəy sorğusunun hazırlanması və keçirilməsi üçün ayrılmış pul vəsaitinə sərəncam verir, həmin vəsaiti məntəqə rəy sorğusu komissiyaları arasında bölüşdürür və bu vəsaitin məqsədli xərclənməsinə nəzarət edir;
- məntəqə rəy sorğusu komissiyalarını yerli rəy sorğu bülletenləri və digər sənədlərlə təmin edir;
- yerli rəy sorğusunun maddi-texniki təminatı ilə bağlı başqa məsələləri həll edir.

Məntəqə rəy sorğusu komissiyalarının təşkili

Məntəqə rəy sorğusu komissiyaları müvafiq ərazi rəy sorğusu komissiyaları tərəfindən yerli rəy sorğusu gününə ən geci 30 gün qalmış təşkil edilir.

Məntəqə rəy sorğusu komissiyaları Azərbaycan Respublikasının Seçki Məcəlləsinə müvafiq yaradılan məntəqə seçki komissiyalarına uyğun qaydada təşkil edilir.

3) Yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısının hazırlanması.

Yerli rəy sorğusunda iştirak etmək hüququna malik olan vətəndaşların siyahısını müvafiq icra hakimiyyəti orqanının müəyyən olunmuş formada təqdim etdiyi məlumat əsasında məntəqə rəy sorğusu komissiyası tərtib edir. Müvafiq icra hakimiyyəti orqanı yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşlar haqqında məlumatları səsvermə gününə ən geci 30 gün qalmış məntəqə rəy sorğusu komissiyasına göndərir.

Yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahıları məntəqə rəy sorğusu komissiyasının sədri və katibi tərəfindən imzalanır. Siyahının 2 nüsxəsi məntəqə rəy sorğusu komissiyasında qalır. Üçüncü nüsxə isə səsvermə gününə ən geci 15 gün qalmış müvafiq ərazi rəy sorğusu komissiyasına verilir.

Yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısı Azərbaycan Respublikasının Seçki Məcəlləsinə müvafiq tərtib edilir.

Yerli rəy sorğusunda iştirak etmək hüququna malik olan vətəndaşlara siyahılar ümumi tanışlıq üçün yerli rəy sorğusu gününə ən geci 20 gün qalmış təqdim olunur.

4) Yerli rəy sorğusu günü səsvermənin keçirilməsi.

Yerli rəy sorğusu günü səsvermə saat 8-dən 20-dək keçirilir.

Məntəqə rəy sorğusu komissiyaları səsvermə gününə azı 10 gün qalmış səsvermənin yeri və vaxtı haqqında kütləvi informasiya vasitələri ilə və ya digər üsullarla vətəndaşları xəbərdar etməlidirlər.

Yerli rəy sorğusu günü saat 8-də məntəqə rəy sorğusu komissiyasının sədri yerli rəy sorğusu məntəqəsini açıq elan

edir, müşahidəçilərə boş səsvermə qutularını göstərib möhürləyir, daha sonra məntəqə yerli rəy sorğusu komissiyasının üzvlərini səsverməyə başlamağa dəvət edir.

Vətəndaş sorğu bülletenini aldıqdan sonra yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısına şəxsiyyət vəsiqəsinin (pasportunun) seriyasını və nömrəsini yazır.

Təqdim olunmuş şəxsiyyət vəsiqəsinin (pasportun) seriyası və nömrəsi yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısına vətəndaşın razılığı ilə məntəqə yerli rəy sorğusu komissiyasının üzvü tərəfindən də qeyd edilə bilər.

Vətəndaş yazıların düzgünlüyünü yoxlayır və imza edir. Vətəndaşın sorğu bülletenini sərbəst almaq imkanı olmadıqda o, məntəqə yerli rəy sorğusu komissiyasının üzvləri və müşahidəçilər istisna edilməklə, başqa şəxslərin köməyindən istifadə edə bilər. Vətəndaşa kömək edən şəxs öz soyadını göstərməklə yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısının "sorğu bülletenini alması haqqında imza" qrafasında imza etməlidir.

Sorğu bülleteni vətəndaşa verilərkən onun kəsilmə xətti ilə işarələnmiş sol küncü məntəqə rəy sorğusu komissiyasının üzvündə qalır. Hər bir vətəndaş şəxsən səs verir. Başqa şəxslərin əvəzinə səs verməyə icazə verilmir. Sorğu bülleteni vətəndaşdan başqa heç kəsin daxil olmasına icazə verilməyən gizli səsvermə üçün xüsusi avadanlıqla təchiz edilmiş kabinədə doldurulur. Vətəndaş səsverməyə çıxarılan məsələ üzrə öz iradəsini bildirmə variantlarından ("lehinə" və "əleyhinə") birini pozur.

5) Yerli rəy sorğusunun nəticələrinin müəyyən edilməsi.

Səsvermə müddəti başa çatdıqda məntəqə rəy sorğusu komissiyasının sədri "yalnız sorğu bülleteni alan və

səsvermə otağında (kabinədə) olan vətəndaşlar səs verə bilərlər" elanını verir.

Səsvermə qutuları açılmazdan əvvəl istifadə edilməmiş sorğu bülletenləri səsvermə otağındakı müşahidəçilərin müşahidəsi ilə məntəqə rəy sorğu komissiyasının üzvləri tərəfindən sayılır və ləğv edilir. Həmin sorğu bülletenlərinin sayı elan edilir və səsvermənin yekun protokolunda qeyd olunur. Bundan sonra məntəqə rəy sorğusu komissiyasının sədri səsvermə qutularının möhür və plomblarının salamatlığını yoxlayır, məntəqə rəy sorğusu komissiyasının üzvlərini və müşahidəçiləri bununla əyani surətdə tanış edərək səsvermə qutularını açır. Səsvermə qutuları növbə ilə: əvvəlcə daşınan səsvermə qutuları, sonra isə daşınmaz səsvermə qutuları açılır.

İlk növbədə daşınan səsvermə qutularındakı yerli rəy sorğu bülletenləri sayılır. Onların sayı səsvermə otağından kənarda səsvermə üçün vətəndaşlar tərəfindən verilmiş ərizələrin sayından çox olmamalıdır. Daşınan səsvermə qutusu üzrə səslər hesablanarkən, bülletenlərin ümumi sayı verilmiş ərizələrin sayından çox olarsa, daşınan səsvermə qutusundakı bütün bülletenlər məntəqə rəy sorğusu komissiyasının qərarı ilə etibarsız hesab edilir. Bu barədə akt səsvermə otağından kənarda səsvermənin keçirilməsini təmin edən məntəqə rəy sorğusu komissiyası üzvlərinin soyadları göstərilməklə səsvermənin nəticələri haqqında protokola əlavə edilir.

Yerli rəy sorğusu məntəqəsi üzrə vətəndaşların səsləri hesablanarkən etibarsız sayılan bülletenlər ayrılır. Etibarsız seçki bülletenləri ayrıca yığılıb bağlanır.

Məntəqə rəy sorğusu komissiyası üzvlərinin iştirakı ilə məntəqə rəy sorğusu komissiyasının sədri vətəndaşların səslərinin hesablanmasını birbaşa səsverməyə yekun vurulanadək fasiləsiz aparır. Məntəqə rəy sorğusu

komissiyasının bütün üzvləri və müşahidəçilər səsvermənin nəticələri ilə tanış edilir.

Məntəqə rəy sorğusu komissiyası səsvermənin nəticələri haqqında protokol tərtib edir və sorğu bülletenləri də daxil olmaqla yerli rəy sorğusuna aid başqa sənədlər yerli rəy sorğusunun yekunları rəsmi elan olunduqdan sonra 5 gündən gec olmayaraq müvafiq ərazi rəy sorğusu komissiyasına göndərilir.

Ərazi rəy sorğusu komissiyası səsvermənin nəticələri haqqında məntəqə rəy sorğusu komissiyalarının protokolları əsasında bütün məlumatları ümumiləşdirir və müvafiq ərazidə yerli rəy sorğusu günündən ən geci 2 gün keçənədək səsvermənin nəticələrini müəyyən edir və müvafiq qərar qəbul edir.

Yerli rəy sorğusuna çıxarılan məsələ o halda qəbul edilmiş sayılır ki, yerli rəy sorğusunda iştirak etmək hüququ olan vətəndaşların siyahısına daxil edilmiş vətəndaşların azı 25 faizi iştirak etsin və səsvermədə iştirak etmiş vətəndaşların yarısından çoxu yerli rəy sorğusuna çıxarılan məsələnin "lehinə" səs versin.

Yerli rəy sorğusunun nəticələrinə dair ərazi rəy sorğusu komissiyasının qərarı beş gün ərzində elan olunur.

§ 2. Yerli özünüidarənin həyata keçirilməsinin digər bilavasitə demokratiya formaları

Yerli özünüidarənin bilavasitə demokratiya formalarından biri də vətəndaşların yığıncaqlarıdır. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyələrdə yerli əhəmiyyətli məsələlərə münasibət bildirmək, təkliflər irəli sürmək, kollektiv rəy söyləmək, qərarlar qəbul etmək məqsədi ilə həmin bələdiyyə ərazilərində vətəndaşlar öz yığıncaqlarını keçirə bilərlər.

Əhalinin yığıncaqları yerli əhəmiyyətli məsələlərə dair qərarın bələdiyyə nizamnaməsinin kollektiv şəkildə qəbulunu təmin edir, müxtəlif bələdiyyə funksiyalarının həyata keçirilməsinə vətəndaşların cəlb olunmasına kömək edir.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanununa görə, vətəndaşların yığıncaqlarında həmin bələdiyyə ərazilərində yaşayan 18 yaşı tamam olmuş vətəndaşların iştirak etmək hüququ vardır.

Vətəndaşların yığıncaqları bələdiyyənin ərazisində yaşayan və səsvermə hüququ olan vətəndaşların azı 25 faizi iştirak etdikdə səlahiyyətlidir. Bu qanunda həmçinin qeyd olunur ki, vətəndaşların ilk yığıncağını təşəbbüs qrupu çağırır. Təşəbbüs qrupunun yaradılması, vətəndaşların yığıncaqlarının çağırılması, keçirilməsi qaydaları Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının müvafiq təlimatı ilə tənzimlənir.

Yuxarıda göstərilən yığıncaqlar əhalisi 500 nəfərdən az olan bələdiyyələrə şamil olunur. Lakin Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi bələdiyyə səviyyəsində keçirilən vətəndaşların yığıncaqlarının başqa bir növünü də fərqləndirir.

Belə ki, əhalisinin sayından asılı olmayaraq bələdiyyələrin birləşməsi üçün hər bir bələdiyyədə onun ərazisində yaşayan və səsvermə hüququna malik olan vətəndaşların azı 25 faizinin iştirakı ilə yığıncaq keçirilməlidir. Yığıncaqlarda bələdiyyələrin birləşməsi barədə müsbət nəticə əldə etdikdə bələdiyyələr tərəfindən onların birləşməsi haqqında qərar qəbul edilir və Azərbaycan Respublikasının Milli Məclisinə göndərilir.

Yerli özünüidarənin digər mühüm institutlarından biri də əhalinin bələdiyyə aktları qəbul etmək təşəbbüsüdür.

“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda göstərilir ki, bələdiyyənin nizamnaməsinə uyğun olaraq, əhalinin yerli əhəmiyyətli məsələlərə dair bələdiyyə aktları yaratmaq təşəbbüsü göstərmək hüququ vardır. Yerli əhəmiyyətli məsələlər barəsində əhalinin bələdiyyələrə verdiyi bələdiyyə aktlarının layihələri hökmən əhalinin nümayəndələrinin iştirakı ilə açıq iclaslarda müzakirə olunmalı, nəticələri rəsmən elan edilməlidir.

Zənnimcə, qanunvericilikdə bu institutların realizə mexanizmi ilə bağlı konkret normaların qəbuluna zərurət var. Məsələn, təşəbbüs qrupunun yaradılması və sayı, imzaların toplanması, bələdiyyə iclaslarına bu təşəbbüsün çıxarılması və s.

Yerli bilavasitə demokratiyanın mühüm institutlarından biri də vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə fərdi və kollektiv surətdə müraciət etmək hüququdur.

Vətəndaşların yerli özünüidarə orqanlarına müraciət hüququ “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulsa da, bu hüququn həyata keçirilmə mexanizmi “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Hesab edirəm ki, bununla bağlı əlavə normanın həmin qanunun 30-cu maddəsində nəzərdə tutulması və vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında qanunda müvafiq əlavələrin edilməsi məqsədəuyğun olardı.

Ümumilikdə vətəndaşların müraciət etmək hüququ Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsində təsbit olunur. Burada deyilir ki, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla

müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.

Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətini və ya işini tənqid etmək hüququ vardır. Tənqidə görə təqib qadağandır. Təhqir və böhtan tənqid sayıla bilməz.

Hesab edirəm ki, konstitusiyamızın bu maddəsində vətəndaşların yerli özünüidarə orqanlarına müraciət etmək hüququ da öz əksini tapmalıdır.

Vətəndaşlar bələdiyyə orqanlarına təklif, ərizə və şikayət formasında müraciət edə bilər.

Təklif-bələdiyyələrin fəaliyyətinin yaxşılaşdırılmasını, təhsil, elm, texniki, hüquq, yaradıcılıq və başqa sahələrlə bağlı məsələlərin həllini nəzərdə tutan müraciətdir.

Ərizə-vətəndaşlara məxsus hüquqların həyata keçirilməsi ilə bağlı tələbləri nəzərdə tutan müraciətdir.

Şikayət-pozulmuş hüququn bərpası tələbi barədə müraciətdir.

Bələdiyyələrin statusu haqqında qanunda qeyd olunur ki, bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə mahiyyəti üzrə bir ay ərzində cavab verməlidirlər.

Bələdiyyələr torpaq sahəsi əldə etmək istəyən hüquqi və fiziki şəxslərin ərizələrinə 10 gün müddətində baxırlar.

Vətəndaşların yerli özünüidarənin həyata keçirilməsində iştirakının ən mühüm formalarından biri də ərazi ictimai özünüidarəetməsidir. Azərbaycanda bu iş məhəllə komitələri tərəfindən həyata keçirilir.

Ərazi özünüidarə dedikdə, vətəndaşların bələdiyyə qurumunun ərazisinin bir hissəsində olan yaşayış yerlərində yerli əhəmiyyətli məsələləri müstəqil və öz məsuliyyətləri altında, öz təşəbbüsləri ilə, özlərinin birbaşa və ya onlar

tərəfindən yaradılmış ərazi ictimai özünüidarəetmə orqanları vasitəsilə həyata keçirdiyi özünütəşkil nəzərdə tutulur (6).

İctimai birliklərdən fərqli olaraq, ərazi ictimai özünüidarə orqanları ancaq bələdiyyə ərazisinin bir hissəsində fəaliyyət göstərir. Onlar əhalini hər hansı şərtlərdə (məsələn, nizamnaməyə əməl olunmalı, üzvlük haqqının ödənilməsi və s.) əlaqələnən üzvlük əsasında deyil, məhz vətəndaşların ictimai tələbatlarına xidmət göstərməsi, onların mədəni-məişət və digər ehtiyaclarının ödənilməsi, eləcə də onların hüquq və maraqlarının qorunması üzrə olan birgə iş əsasında birləşdirirlər (6).

Azərbaycan Respublikasının 8 may 2001-ci il tarixli Qanunu ilə Bələdiyyələrin məhəllə komitələri haqqında nümunəvi əsasnamə təsdiq edilmişdir. Burada qeyd olunur ki, bələdiyyələrin məhəllə komitələri (bundan sonra- "məhəllə komitələri") bələdiyyələrin səlahiyyətlərinə aid məsələlərin həllində onlara kömək məqsədi ilə vətəndaşların yaşayış yeri üzrə öz təşəbbüsü ilə yaratdıqları könüllü birliklərdir.

Məhəllə komitəsi ərazi prinsipi üzrə yaradılır. Məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazi ayrıca bir və ya bir neçə evin (məhəllənin) hüdudları ilə müəyyən edilir.

Məhəllə komitəsi həmin komitənin fəaliyyət göstərdiyi ərazidə yaşayan əhalinin yığıncağında 5-11 üzvdən ibarət tərkibdə açıq səsvermə yolu ilə iki il müddətinə seçilir. Yığıncaq komitənin fəaliyyət göstərdiyi ərazidə yaşayan və səsvermə hüququ olan vətəndaşların azı 15 faizi iştirak etdikdə səlahiyyətlidir. Həmin yığıncaqda məhəllə komitəsinin sədri, sədr müavini və katibi seçilir.

Məhəllə komitəsinin tərkibinə həmin ərazidə yaşayan, yaşı 18-dən aşağı olmayan vətəndaşlar seçilirlər. Vətəndaşların yığıncağında iştirak edənlərin səslərinin yarısından çoxunu toplamış şəxslər bu komitənin tərkibinə seçilmiş hesab olunurlar.

Məhəllə komitəsi vətəndaşların yığıncağının qərarı ilə vaxtından əvvəl tamamilə və ya qismən yenidən seçilə bilər. Vətəndaşların yığıncaqları məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazidə yaşayan səsvermə hüququ olan şəxslərin azı 10 faizinin və ya məhəllə komitəsi üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır. Komitənin yeni üzvlərinin seçilməsi bu maddədə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Məhəllə komitəsi görüləcək tədbirlərin siyahısını və növbəliyini müəyyən edir və görülmüş işlərin uçotunu aparır. Məhəllə komitəsi lazım olan hallarda, lakin iki ayda bir dəfədən az olmamaq şərti ilə çağırılır və üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli hesab edilir. Məhəllə komitəsinin iclasları açıq keçirilir. Məhəllə komitəsinin qərarları açıq səsvermə vasitəsilə və adi səs çoxluğu ilə qəbul olunur. Məhəllə komitəsi öz fəaliyyəti barədə altı ayda bir dəfə vətəndaşların yığıncağında hesabat verir. Yığıncağın keçirilməsi haqqında müvafiq məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazidə yaşayan şəxslərə bir həftə qabaq məlumat verilməlidir.

Məhəllə komitələri aşağıdakı əsas səlahiyyətləri həyata keçirir:

- yerli əhəmiyyətli məsələlər barəsində bələdiyyələr qarşısında vəsatət qaldırmaq;

- yerli əhəmiyyətli məsələlərlə bağlı vətəndaşların yığıncaqlarını keçirmək;

- yerli əhəmiyyətli məsələlərə dair bələdiyyə aktları yaratmaq təşəbbüsü göstərmək və həmin aktların layihələrini əhalinin iştirakı ilə açıq iclaslarda müzakirə etmək;

- müvafiq bələdiyyə torpaqlarından istifadəyə dair rəy və təkliflər vermək;

- yaşayış məntəqələrinin abadlaşdırılması, yaşıllaşdırılması, sanitariya vəziyyətinin yaxşılaşdırılması,

uşaq və idman meydançalarının, avtomobil yollarının, küçələrin, səkilərin, digər obyektlərin tikintisi, yenidən qurulması, təmiri və saxlanması işində əhalinin iştirakını təşkil etmək;

- təbiətin, tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında qanunvericiliyə riayət olunmasına kömək etmək;

- məktəbyaşlı uşaqların təhsilə cəlb edilməsində təhsil müəssisələrinə kömək etmək;

- uşaq və gənclərin istirahəti, idmanla məşğul olmaq üçün şərait yaradılmasına kömək etmək;

- fəaliyyət göstərdiyi ərazidə yaşayan imkansızlara, xəstələrə və çətin həyat şəraitində olan şəxslərə (ailələrə) yardım göstərmək;

- yerli əhəmiyyətli məsələlərin həllində əhalinin təşəbbüskarlığının və özünüidarəetmə təcrübəsinin inkişafına kömək etmək.

Məhəllə komitələri Azərbaycan Respublikasının qanunvericiliyinə və müvafiq bələdiyyənin nizamnaməsinə zidd olmayan digər səlahiyyətləri də həyata keçirə bilər.

Məhəllə komitələri öz səlahiyyətlərini könüllü ianələr və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər mənbələr hesabına həyata keçirir. Bələdiyyələr məhəllə komitələrinin verdiyi rəy, təklif və ya vəsatətlərə bir ay ərzində cavab verməlidirlər. Hər hansı məsələyə dair məhəllə komitələrinin rəyi həmin məsələlərin həlli zamanı bələdiyyələr tərəfindən nəzərə alınır. Bələdiyyələrlə məhəllə komitələrinin fəaliyyətinin əlaqələndirilməsi məqsədilə komitələr bələdiyyələrdə siyahıya alınır.

FƏSİL 10. Yerli özünüidarənin nümayəndəli demokratiya formaları

§1. Yerli özünüidarənin nümayəndəli orqanları.

Bəşəriyyət, onun mütərəqqi mütəfəkkirləri xalq tərəfindən hakimiyyətin həyata keçirilməsinin iki əsas demokratik formasını yaratmışdır. Onlardan biri də, xalq (seçki korpusu) tərəfindən seçilən nümayəndəli dövlət hakimiyyəti və yerli özünüidarə orqanları vasitəsilə həyat keçirilən xalq hakimiyyətidir. Nümayəndəli orqanlar xalq tərəfindən yaradıldığına, xalqın adından hakimiyyəti həyata keçirdiyinə və onun qarşısında cavabdeh olduğuna görə xalq nümayəndəliyi adlanır və xalq hakimiyyəti prinsipinin təşkil olunma formalarından biridir.

Hüquq elmində nümayəndəli demokratiya anlayışı müxtəlif mənada izah olunur. Bir qrup tədqiqatçı alimlər nümayəndəli demokratiya institutlarına yalnız xalq, yerli əhali tərəfindən seçilən dövlət və yerli özünüidarə orqanları aid edirlər. Digərləri isə bura həm də seçkili orqanlar tərəfindən yaradılan dövlət və yerli özünüidarə orqanlarını aid edirlər.

Azərbaycan Respublikasının qanunvericiliyi "yerli seçkili, nümayəndəli orqan və bələdiyyə anlayışlarını eyniləşdirir". Nə dərəcədə bu yanaşma düzgündür? Hesab edirəm ki, bu sualın elmi tədqiqi aktuallıq kəsb edir.

Qanunvericilikdə yerli özünüidarə orqanı anlayışı nəzərdə tutulmur. Bələdiyyələrin statusu haqqında qanunda yalnız bələdiyyə orqanlarının definisiyası verilir. Burada qeyd olunur ki, bələdiyyə orqanları-səlahiyyətləri çərçivəsində yerli əhəmiyyətli məsələləri həll etmək üçün bələdiyyə qulluğunun təşkili məqsədilə bələdiyyə tərəfindən yaradılan və dövlət orqanları sisteminə daxil olmayan orqandır.

Gördüyünüz kimi, bu definisiya yerli özünüidarənin nümayəndəli orqanını ehtiva etmir. Belə ki, birincisi yerli nümayəndəli orqan ümumi, bərabər və birbaşa seçki hüququ əsasında yerli elektorat tərəfindən seçilir, ikincisi yerli nümayəndəli orqanların üzvləri bələdiyyə qulluqçuları sayılmır.

Yerli özünüidarə orqanlarının aşağıdakı əsas əlamətlərini göstərmək olar:

1. Yerli özünüidarə orqanları Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və bələdiyyələrin nizamnaməsi əsasında yaradılır və fəaliyyət göstərir;
2. Yerli əhəmiyyətli məsələlərin həllinə dair hakimiyyət səlahiyyətlərinə malikdir;
3. Dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildir. Dövlət orqanları və dövlətin vəzifəli şəxsləri tərəfindən yerli özünüidarənin həyata keçirilməsinə yol verilmir;
4. Yerli özünüidarə orqanları qanunvericilik və bələdiyyə nizamnaməsi ilə müəyyən olunan daxili struktura malikdir;
5. Yerli özünüidarə orqanları bələdiyyə üzvlərindən (bələdiyyə məclisi) və bələdiyyə qulluqçularından (bələdiyyə orqanları) ibarətdir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən yerli özünüidarənin bələdiyyələr vasitəsilə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Konstitusiyanın 142-ci maddəsində deyilir ki, "yerli özünüidarəni seçkilər əsasında yaradılan bələdiyyələr həyata keçirir".

Bələdiyyə mənşəcə ərəb sözü olub şəhər idarəsi deməkdir. Bu orqanların başlıca əlaməti onların seçkili olmasından və yerli əhəmiyyətli məsələlərin həllində müstəqil olmasından ibarətdir.

Dünyada özünüidarə institutları arasında bələdiyyəçilik daha geniş tətbiq olunur. Elmi ədəbiyyatda

bələdiyyə həm inzibati-ərazi vahidinin adı, həm də seçkili yerli özünüidarə forması kimi qeyd olunur. Məsələn ABŞ-da, Böyük Britaniyada və bir sıra digər ölkələrdə bələdiyyə yalnız şəhər idarə orqanı olub kollegial və icraedici aparatdan ibarət olur və müvafiq inzibati-ərazi vahidinin əhalisi tərəfindən seçilir.

Xarici ölkələrin təcrübəsində bələdiyyə orqanlarının səlahiyyətləri adətən yerli özünüidarə haqqında qəbul edilmiş xüsusi qanunlarla müəyyən olunur.

Məsələn, ABŞ-da, İngiltərədə və başqa ölkələrdə yerli özünüidarə orqanlarının səlahiyyətlərinin həddi dəqiq müəyyən edilib. Həmin səlahiyyətlər müvafiq dövlətin qanunvericiliyində tam öz əksini tapır. Onlar yalnız qanunvericilikdə nəzərdə tutulan səlahiyyətləri yerinə yetirə bilərlər, əks halda yerli orqanların normativ aktı qanuna zidd hesab olunur.

Almaniyada bələdiyyə orqanlarının səlahiyyəti başqa cür müəyyən edilir. Burada qanunla qadağan olunmayan hər bir fəaliyyətə bələdiyyələr üçün icazə verilir.

Xarici ölkələrin qanunvericiliyi bələdiyyələrin səlahiyyətini 2 yerə bölür:

1) Məcburi (mütləq) səlahiyyətlər;
2) Qeyri-məcburi səlahiyyətlər.

Məcburi səlahiyyətlər ümumdövlət əhəmiyyətli məsələlərin həlli ilə bağlı səlahiyyətlərdir, belə ki, bələdiyyələr yolları qaydaya salmalı, yaşayış yerlərinin sanitar vəziyyətini təmin etməli və səhiyyə, təhsil müəssisələrini saxlamalıdır.

Bələdiyyələrin qeyri-məcburi səlahiyyətləri isə bələdiyyə orqanlarının öz istəyinə əsasən müəyyənləşdirilməsidir.

Azərbaycan Respublikasında bələdiyyələrin (yerli kollegial nümayəndəli orqanlar) səlahiyyətləri konstitusiya ilə müəyyən olunur. Eyni zamanda əsas qanunda göstərilir

ki, bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər (Azərb. Respub. Konstitusiyası, maddə 144).

Adətən bələdiyyə üç ayrıca orqandan ibarət olur:

1) Bələdiyyə Şurası;

2) Bələdiyyənin icra orqanı;

3) Bələdiyyənin daimi və müvəqqəti komissiyaları.

Bələdiyyə Şurası yerli özünüidarənin əsas qərarverici orqanıdır.

Bələdiyyənin icra orqanı onun icra aparatıdır. İcra aparatı bələdiyyənin sədrindən və onun müvafiq qanunla və bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilmiş qaydada formalaşdırdığı struktur bölmələrindən və bələdiyyənin nizamnaməsinə müvafiq surətdə yaradılan digər icra strukturlarından ibarətdir. Bələdiyyənin icra aparatının fəaliyyətinə bələdiyyənin sədri rəhbərlik edir.

Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini Bələdiyyə Şurasının qərarına əsasən bələdiyyənin sədri təyin edir.

Bələdiyyə öz səlahiyyətinə aid məsələlərin qabaqcadan nəzərdən keçirilməsi və hazırlanması üçün, habelə bələdiyyələrin qərarlarının həyata keçirilməsinə yardım göstərilməsi, bələdiyyələrin tabeliyində olan müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarət üçün daimi və başqa komissiyalar yarada bilər.

Yerli özünüidarənin nümayəndəli orqanı Bələdiyyə Şurasıdır. Bələdiyyə Şurası bələdiyyə üzvlərindən ibarətdir. Bələdiyyə Şurasının üzvləri bələdiyyə əhalisi tərəfindən ümumi, bərabər və birbaşa seçki hüququ əsasında seçilirlər. Bələdiyyə üzvlərinin səlahiyyət müddəti bələdiyyələrin səlahiyyət müddəti ilə müəyyən olunur. Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir.

Bələdiyyələrin say tərkibi bələdiyyə əhalisinin sayına uyğun olaraq Azərbaycan Respublikasını Seçki Məcəlləsi ilə müəyyən olunur.

Yerli nümayəndəli orqanların təşkili və fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası və bələdiyyə qanunvericiliyi, bələdiyyələrin nizamnamələri ilə tənzimlənir.

Yerli nümayəndəli orqanların səlahiyyətlərini iki qrupa bölmək olar:

Birincisi, yerli əhəmiyyətli məsələlərin həlli ilə bağlı səlahiyyətlər. Bu səlahiyyətlər Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin 1-ci hissəsində öz hüquqi ifadəsini tapmışdır. Bura aiddir:

1) bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;

2) bələdiyyənin reqlamentinin təsdiq edilməsi;

3) bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi;

4) yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;

5) yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi;

6) bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;

7) yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi;

8) yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi;

9) yerli ekoloji proqramların qəbul və icra edilməsi.

İkincisi, bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən verilən səlahiyyətlər.

Yerli nümayəndəli orqan demokratizm, qanunçuluq, müstəqillik, siyasi plüralizm, aşkarlıq, kollegiallıq prinsipləri əsasında fəaliyyət göstərir.

Bələdiyyə Şurası səlahiyyətlərinə aid olan məsələlərə öz iclaslarında baxır və müstəqil qərarlar qəbul edir.

Azərbaycan Respublikası Konstitusiyasının 145-ci maddəsinə uyğun olaraq, bələdiyyənin qərarları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Bələdiyyənin qəbul etdiyi qərarlar bələdiyyənin ərazisində yerləşən hüquqi və fiziki şəxslərin hüquq və səlahiyyətlərinin pozulmasına yönəldilə bilməz. Bələdiyyənin öz səlahiyyətləri daxilində qəbul etdiyi qərarlar təşkilati-hüquqi formasından asılı olmayaraq, bələdiyyənin ərazisində yerləşən bütün hüquqi və fiziki şəxslər tərəfindən hökmən icra edilməlidir. Bələdiyyə qərarları onları qəbul etmiş orqanlar tərəfindən ləğv oluna və ya məhkəmənin qərarı ilə etibarsız sayıla bilər. Bələdiyyə qərarlarının icra edilməməsi qanuna müvafiq surətdə məsuliyyətə səbəb olur.

Yerli nümayəndəli orqanın iclaslarına bələdiyyənin sədri rəhbərlik edir.

Bələdiyyənin sədri yeni seçilmiş bələdiyyənin birinci iclasında bələdiyyə üzvləri sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyənin sədri bələdiyyə üzvlərinin yarısından çoxunun səsini topladıqda seçilmiş hesab olunur.

Ehtiyac olduqda bələdiyyə sədrinin müavinləri seçilir. Bələdiyyə sədrinin müavinləri bələdiyyə üzvləri sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyə sədrinin

müavinləri bələdiyyə üzvlərinin yarıdan çoxunun səsini topladıqda seçilmiş hesab olunur.

Bələdiyyənin sədri əmr və sərəncamlar verir, bələdiyyənin qərarlarını imzalayır.

Bələdiyyə sədrinin müavini bələdiyyə sədrinin ona aid etdiyi məsələləri həll edir, bələdiyyə sədri olmadıqda onun səlahiyyətlərini həyata keçirir.

Bələdiyyənin sədri və onun müavinləri aşağıdakı hallarda bələdiyyə məclisi tərəfindən səsvermə yolu ilə vaxtından əvvəl vəzifədən azad edilə bilərlər:

1. Öz arzusu ilə vəzifədən çıxmaq barədə yazılı müraciət etdikdə;
2. Bələdiyyə iclasının səlahiyyətlərinə aid olan məsələlər barədə təkbaşına sərəncam verdikdə;
3. Bələdiyyə qərarlarının icrasını təmin etmədikdə (qanunvericiliyə zidd olan və həlli imkan səlahiyyətlərindən kənar qərarlar istisna olmaqla);
4. Əmək qabiliyyətini fasiləsiz olaraq 6 aydan çox müddətə tam itirməsi ilə əlaqədar vəzifəsini yerinə yetirə bilmədikdə;
5. Qanunvericiliklə üzərinə qoyulmuş vəzifələri 3 ay müddətində yerinə yetirmədikdə və s.

Bələdiyyə üzvünün hüquqi statusu

Bələdiyyə üzvünün hüquqi statusu inteqrativ anlayışdır. Belə ki, yerli nümayəndəli orqana seçilmiş şəxsin hüquq və vəzifələrini, təminatını və məsuliyyətini ehtiva edir.

Bələdiyyə üzvü ümumi, bərabər və birbaşa seçki hüququ əsasında bələdiyyə əhalisi tərəfindən yerli nümayəndəli orqana seçilmiş, mandatı ərazi seçki komissiyası tərəfindən təsdiq edilmiş şəxsdir. Bələdiyyə üzvünün səlahiyyət müddəti yerli nümayəndəli orqanın səlahiyyət müddəti ilə müəyyən olunur, yəni 5 ildir. Bələdiyyə üzvü bələdiyyə qulluqçusu kimi fəaliyyət göstərə bilməz. Əgər bələdiyyə qulluqçusu bələdiyyə üzvü seçilərsə o, bələdiyyə qulluğundan azad edilməlidir.

Bələdiyyə üzvünün hüquqi statusu əsasən "Bələdiyyələrin hüquqi statusu", "Bələdiyyə üzvünün statusu haqqında" Qanunlarla və bələdiyyənin Nizamnaməsi ilə tənzimlənir.

"Bələdiyyə üzvünün statusu haqqında" Qanunda onun aşağıdakı hüquqları təsbit olunur:

- bələdiyyənin daimi və digər komissiyalarına üzv seçmək və seçilmək;
- bələdiyyənin və onun orqanlarının iclaslarında müzakirə üçün məsələlər təklif etmək, müzakirə olunan məsələlər barəsində çıxış etmək, təkliflər və düzəlişlər vermək, qeydlər etmək, çıxış edənlərə və ya təyin edilməsinə razılıq verilən vəzifələr göstərilmiş namizədlərə sual vermək, arayış vermək, səsvermədə iştirak etmək;
- bələdiyyənin iclaslarında müzakirə üçün qərar layihələrini hazırlamaq;
- bələdiyyənin daimi və başqa komissiyalarının iclaslarına təqdim edilmiş məsələlərin müzakirəsində iştirak etmək və təkliflər vermək;

- bələdiyyənin fəaliyyəti ilə əlaqədar zəruri məlumat almaq;

- sorğu vermək;

- qanunvericiliyə müvafiq surətdə yerli radio və televiziyadan, mətbu nəşrlərdən istifadə etmək.

Bələdiyyə üzvü yerli məsələlərlə bağlı bələdiyyənin vəzifəli şəxslərinə, bələdiyyənin icra orqanlarına, bələdiyyə müəssisə, idarə və təşkilatlarına sorğu ilə müraciət etmək hüququna malikdir.

Bələdiyyə üzvünün sorğusuna ən geci on beş gün müddətində, məsələnin əlavə öyrənilməsi və (və ya) yoxlanılması tələb edildiyi hallarda isə bir aydan gec olmayaraq cavab verilməlidir.

Bələdiyyə üzvü bələdiyyə tərəfindən onun səlahiyyətləri daxilində və qanunvericiliyə müvafiq olaraq qəbul etdiyi qərarlarının pozulmasını aşkar etdikdə onun ərazisində yerləşən həmin pozuntulara yol vermiş şəxslərdən onların aradan qaldırılmasını tələb edə bilər.

Bələdiyyə üzvünün hüquqi statusuna həm də onun vəzifələri daxildir:

- Bələdiyyə üzvləri bələdiyyənin iclaslarında iştirak etməyə borcludurlar;

- Bələdiyyə üzvü seçicilərlə mütəmadi olaraq əlaqə saxlamalı, görüşlər keçirməli, onların təkliflərinə, müraciətlərinə və şikayətlərinə baxmalıdır;

- Bələdiyyə üzvü 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verir;

- Bələdiyyə ərazisində yerləşən bələdiyyə müəssisə, idarə və təşkilatları bələdiyyə üzvünün seçicilərlə görüşməsi üçün köməklik göstərməlidirlər;

- Bələdiyyə üzvü bələdiyyənin iclaslarının aparılmasına mane ola bilməz, bələdiyyənin və onun komissiyalarının iclaslarında insanın şərəf və ləyaqətinə

xələl gətirən kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verə bilməz;

- Bələdiyyə üzvü bələdiyyənin nizamnaməsində göstərilən müddətlərdə bələdiyyənin və onun komissiyalarının iclaslarını üzrsüz səbəbdən buraxa bilməz;

- Bələdiyyə üzvü daimi yaşamaq üçün bələdiyyənin hüdudlarından kənara köçdükdə və ya başqa səbəblərdən öz bələdiyyə ərazisində bələdiyyə üzvlüyü vəzifələrini yerinə yetirə bilmədikdə bələdiyyə üzvlüyü səlahiyyətlərini öhdəsindən götürməsi haqında bələdiyyəyə ərizə verməlidir.

Bələdiyyə üzvünün səlahiyyətlərinin maneəsiz və səmərəli həyata keçirilməsinə, onun hüquqlarının, şərəf və ləyaqətinin qorunmasına dövlət tərəfindən təminat verilir.

Bələdiyyənin sədri və müavini, bələdiyyənin icra aparatı bələdiyyə üzvlərini lazımi sənədlərlə və bələdiyyənin rəsmi nəşrləri ilə təmin edir, köməyə ehtiyac olan məsələlərlə bağlı onlara yardım göstərir və onların yerli özünüidarə orqanlarının qərar və sərəncamları ilə tanış olmalarına şərait yaradır.

Səlahiyyət müddətində bələdiyyə üzvü bələdiyyənin, bələdiyyənin iclasları arasındakı dövrdə isə bələdiyyə sədrinin qabaqcadan razılığı olmadan əmək müqaviləsi ilə işlədiyi yerdə müdiriyyətinin təşəbbüsü ilə işdən çıxarıla, yaxud intizam tənbehi qaydasında azmaaşlı işə keçirilə bilməz.

Müəssisə, idarə və təşkilat yenidən təşkil olunduqda, struktur dəyişikliyi edildiyi hallarda da bu təminat tətbiq olunur.

Əmək haqqını bələdiyyədən alan bələdiyyə üzvünün əsas iş yeri bələdiyyə hesab olunur. Əmək haqqı bələdiyyə tərəfindən ödənilməyən bələdiyyə üzvü öz səlahiyyətlərini həyata keçirərkən istehsal və ya xidmət, eləcə də elmi, təhsil və yaradıcılıq fəaliyyətini dayandırmır. Bələdiyyə üzvü bələdiyyənin və ya onun daimi komissiyalarının iclasları

zamanı öz daimi iş yerindəki vəzifələrinin yerinə yetirilməsindən (əmək haqqı saxlanılmaqla) azad olunur.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və bələdiyyə üzvlərinin səlahiyyətlərinə xitam verilməsi əsaslarını fərqləndirir.

Həmin qanunun 21-ci maddəsinə görə, bələdiyyə üzvlərinin səlahiyyətləri aşağıdakı hallarda itirilmiş hesab edilir:

1) barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda;

2) fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;

3) Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;

4) vəfat etdikdə;

5) məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Bələdiyyə üzvləri 5 il müddətinə seçilir. Bu müddət başa çatdıqda onların səlahiyyətlərinə xitam verilir.

Bələdiyyə üzvlərinin səlahiyyətlərinə aşağıdakı əsaslara görə vaxtından əvvəl xitam verilə bilər:

1) bələdiyyə seçkiləri zamanı səslərin düzgün hesablanmadığı aşkar edildikdə;

2) öz arzusu ilə bələdiyyə üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;

3) bələdiyyə üzvlüyünə namizədlər üçün qanunla müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;

4) qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında məsul vəzifə tutduqda və ya bələdiyyə qulluqçusu kimi vəzifə tutduqda;

5) dörd aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının rəyi olduqda;

6) bələdiyyənin nizamnaməsində göstərilən müddətdə bələdiyyə iclaslarını üzrsüz səbəbdən buraxdıqda.

Bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi bələdiyyə məclisinin sadə səs çoxluğu ilə qəbul etdiyi qərar əsasında həll edilir.

Yerli özünüidarənin icra orqanları

Demokratik ölkələrin yerli özünüidarə təcrübəsində "icra orqanları" ilə "qərarverici" orqanları arasında mümkün münasibətlərin aşağıdakı tipləri mövcuddur:

1) *"Sırf prezident sistemi" (ABŞ, İtaliya).* Burada mer və şura ayrıca seçilir. Mer icra aparatının rəhbəri olur və təyinatlı vəzifəli şəxslərdən ibarət olan icra hakimiyyətinin tam sisteminə malik olur. Seçkili nümayəndələrdən ibarət olan şura yalnız ümumi xarakter daşıyan qərarlar qəbul edir. Bu qərarlar isə icra orqanlarından ibarət inzibati aparat tərəfindən yerinə yetirilir.

2) *"Ənənəvi sistem" (Fransa).* Bu sistemdə Mer Şura üzvləri arasından seçilir. Mer təyin olunan vəzifəli şəxslərdən ibarət icra aparatına rəhbərlik edir. Merə onun bir və ya iki müavini kömək edə bilər. Merin aktları və fəaliyyəti şura ilə icra orqanları arasında əlaqələndirmə mexanizmi rolunu oynayır.

3) *"Sırf parlament sistemi" (Almaniya, Skandinaviya ölkələri, Böyük Britaniya).* Bu sistemdə icra orqanları şura qarşısında bilavasitə məsuliyyət daşıyır. Mer (bu vəzifənin olduğu yerlədə) yalnız nümayəndəlik funksiyalarına malik olur. Şura ixtisaslaşmış komitələrə bölünür ki, onlar da administrasiyanın fəaliyyətinə nəzarət edirlər. Administarsiyanın işini təyin olunan baş katib idarə edir (6).

Azərbaycanda yerli özünüidarənin təşkilati strukturu "ənənvi sistemə" uyğun qurulmuşdur.

Ötən paraqrafda qeyd olunduğu kimi, ölkəmizdə Bələdiyyə Şurası əsas qərarverici orqan sayılır. Bu kollegial orqan seçkilər əsasında təşkil olunur.

Bələdiyyənin icra orqanı onun icra aparatıdır. İcra aparatı bələdiyyənin sədrindən və onun qanunla və bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilmiş qaydada formalaşdırdığı struktur bölmələrindən və bələdiyyənin

nizamnaməsinə müvafiq surətdə yaradılan digər icra strukturlarından ibarətdir. Bələdiyyənin icra aparatının fəaliyyətinə bələdiyyənin sədri rəhbərlik edir. Bələdiyyənin icra aparatının strukturunu, ştat cədvəlini və saxlanması xərcləri smetasını bələdiyyə təsdiq edir.

Bələdiyyə icra aparatının tərkibi bələdiyyənin fəaliyyət göstərdiyi əraziyə və konkret iş vəziyyətinə uyğun olaraq, müvafiq bələdiyyənin nizamnaməsi ilə nəzərdə tutulmuş qaydada və sayda idarə rəisləri və rəis müavinləri, şöbə müdirləri və onların müdavimləri, mütəxəssislər, müfəttişlər və digər işçilərdən təşkil olunur.

Bələdiyyənin sədri yeni seçilmiş bələdiyyənin birinci iclasında bələdiyyə üzvləri sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyənin sədri bələdiyyə üzvlərinin yarısından çoxunun səsini topladıqda seçilmiş hesab olunur.

Ehtiyac olduqda bələdiyyə bələdiyyə sədrinin müavinlərini seçir. Bələdiyyə sədrinin müavinləri bələdiyyə üzvləri sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyə sədrinin müavinləri bələdiyyə üzvlərinin yarıdan çoxunun səsini topladıqda seçilmiş hesab olunur. Bələdiyyənin sədri əmr və sərəncamlar verir, bələdiyyənin qərarlarını imzalayır. Bələdiyyə sədrinin müavini bələdiyyə sədrinin ona aid etdiyi məsələləri həll edir, bələdiyyə sədri olmadıqda onun səlahiyyətlərini həyata keçirir.

Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini Bələdiyyə Şurasının qərarına əsasən bələdiyyənin sədri təyin edir, digər işçiləri isə "sədr" birbaşa təyin edir.

Bələdiyyənin icra aparatının strukturunun qarşısında duran vəzifələrdən və maliyyə vəziyyətindən asılı olaraq bələdiyyə iclasının qərarı ilə təsdiq edilir.

Bələdiyyənin icra aparatının səlahiyyətlərinə aşağıdakılar aiddir:

- Bələdiyyəyə baxılmaq və təsdiq edilmək üçün təqdim edilən büdcə, plan, proqram və qərar layihələrinin hazırlanması;
- Bələdiyyənin qəbul etdiyi qərarların yerinə yetirilməsi;
- Bələdiyyə sədrinin qəbul etdiyi qərarların yerinə yetirilməsi;
- Bələdiyyənin qanunla müəyyən olunmuş səlahiyyətlərinin həyata keçirilməsinin təşkili;
- Bələdiyyə mülkiyyətinin və bələdiyyənin istifadəsinə verilmiş başqa mülkiyyətin idarə edilməsi;
- Qanunvericiliyə əsasən həvalə edilmiş digər səlahiyyətləri də həyata keçirir;

Bələdiyyələrin statusu haqqında qanunla bələdiyyə sədrinin və onun müavinlərinin Bələdiyyə Şurasının səsverməsi ilə qəbul edilmiş qərar əsasında vaxtından əvvəl vəzifədən azad edilməsi halları da nəzərdə tutulmuşdur. Belə ki, bələdiyyənin sədri və onun müavinləri:

- Öz arzusu ilə vəzifədən çıxmaq barədə yazılı müraciət etdikdə;
- Bələdiyyə iclasının səlahiyyətlərinə aid olan məsələlər barədə təkbaşına sərəncam verdikdə;
- Bələdiyyə qərarlarının icrasını təmin etmədikdə (qanunvericiliyə zidd olan və həlli imkan səlahiyyətlərindən kənar qərarlar istisna olmaqla);
- Əmək qabiliyyətinin fasiləsiz olaraq 6 aydan çox müddətdə tam itirməsi ilə əlaqədar vəzifəsini yerinə yetirə bilmədikdə;
- Qanunvericiliklə və bələdiyyənin nizamnaməsində nəzərdə tutulmuş digər hallarda vəzifədən vaxtından əvvəl azad edilir.

- **Bələdiyyələrin daimi və başqa komissiyaları**

Azərbaycan Respublikası Konstitusiyasının 143-cü maddəsində qeyd olunur ki, bələdiyyələr öz fəaliyyətini iclaslar, daimi və başqa komissiyalar vasitəsi ilə həyata keçirir.

Bələdiyyələrin daimi və başqa komissiyaları yerli özünüidarə orqanlarının səlahiyyətlərinə aid məsələlərin qabaqcadan nəzərdən keçirilməsi və hazırlanması, bələdiyyələrin qərarlarının həyata keçirilməsinə yardım göstərilməsi, bələdiyyələrin tabeliyində olan müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarət etmək üçün yaradılır.

Bələdiyyələrin daimi və başqa komissiyaları öz fəaliyyətində Azərbaycan Respublikası Konstitusiyasını, qanunlarını və digər normativ-hüquqi aktlarını, bələdiyyələrin nizamnamələrini, habelə müvafiq bələdiyyələrin qərarlarını rəhbər tuturlar.

Bələdiyyələrin daimi komissiyaları bələdiyyələrin səlahiyyət müddəti ərzində səlahiyyətlidirlər. Bələdiyyələrin başqa komissiyalarının səlahiyyət müddəti bələdiyyə tərəfindən müəyyən edilir və bələdiyyələrin səlahiyyət müddətindən çox ola bilməz.

Bələdiyyələr lazım olduqda yeni komissiyalar yarada, mövcud olan komissiyaları ləğv edə və komissiyaların tərkibində dəyişikliklər edə bilərlər.

Bələdiyyələrin daimi və başqa komissiyalarının fəaliyyəti fikir müxtəlifliyi, aşkarlıq, məsələlərin sərbəst müzakirəsi, ictimai rəyi nəzərə almaqla komissiya üzvlərinin təşəbbüskarlığı prinsipləri əsasında həyata keçirilir.

Bələdiyyələrin daimi və başqa komissiyalarının say tərkibi bələdiyyə tərəfindən müəyyən edilir. Daimi və başqa komissiyaların tərkibi azı üç bələdiyyə üzvündən ibarət olmalıdır. Bələdiyyələrin daimi və başqa komissiyalarının tərkibinə daxil olan şəxslər bələdiyyələrin iclaslarında

bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə seçilirlər. Daimi və başqa komissiyalar öz tərkibindən sədr, lazım gəldikdə isə müavin də seçirlər. Bələdiyyə üzvü bir neçə daimi və başqa komissiyaların üzvü ola bilər. Bələdiyyə üzvü bir daimi və başqa komissiyanın sədri ola bilər.

Daimi komissiyalar bələdiyyəyə ildə azı bir dəfə öz işi barədə hesabat verirlər. Daimi komissiyaların iclasları ayda azı bir dəfə komissiyanın sədri tərəfindən çağırılır. Daimi və başqa komissiyaların iclasları onların üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Bələdiyyə sədrinin tələbi ilə bələdiyyələrin daimi və başqa komissiyalarının növbədənkənar iclası çağırıla bilər.

Daimi və başqa komissiyaların iclaslarında baxılan bütün məsələlər barəsində qərarlar komissiyanın iclasında iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunu bələdiyyələrin daimi və başqa komissiyalarının əsas vəzifələrini müəyyən edir. Bura aiddir:

- yerli əhəmiyyətli sosial müdafiə və sosial inkişaf, ekologiya, iqtisadi inkişaf, yerli xidmət üzrə proqramlar hazırlayıb, bələdiyyənin iclasına və ya yerli əhalinin müzakirəsinə çıxarmaq;
- yerli əhəmiyyətli məsələləri müzakirə etmək, bələdiyyə iclaslarında müzakirə üçün proqramlar, arayışlar, qərar layihələri və başqa materiallar hazırlamaq;
- bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlamaq;
- seçicilərin tapşırıqlarının yerinə yetirilməsinin təşkilinə və yoxlanılmasına kömək etmək.

Daimi və başqa komissiyalar öz səlahiyyətlərinə aid məsələlər barəsində bələdiyyənin icra aparatına tapşırıq vermək hüququna malikdirlər.

Bələdiyyələr aşağıdakı daimi komissiyalar yarada bilərlər:

1) Yerli büdcə məsələləri daimi komissiyası:

- yerli vergilərə və ödənişlərə, yerli büdcəyə aid qərar layihələrini hazırlayır və ya təqdim olunmuş qərar layihələrinə dair rəy verir;

- yerli büdcəyə nəzarətlə bağlı məsələlərə baxır və bələdiyyəyə təkliflər verir;

- yerli büdcə layihəsinə dair başqa daimi komissiyaların təkliflərinə baxır və bu təkliflər barəsində rəy hazırlayır;

- yerli büdcənin icrası ilə bağlı hesabatlara dair rəy hazırlayır;

-bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.

2) Yerli sosial məsələlər daimi komissiyası:

- yerli sosial müdafiə və sosial inkişaf, o cümlədən, əmək, məşğulluq, sosial təminat və digər yerli sosial məsələlər də daxil olmaqla, proqramların layihələrini, arayışlar, qərar layihələri hazırlayır və ya təqdim olunmuş yerli sosial müdafiə və sosial inkişaf proqramları layihələrinə və digər qərar layihələrinə dair rəy verir;

- bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.

3) Yerli ekologiya məsələləri daimi komissiyası:

- yerli ekoloji proqramların layihələrini, arayışlar, qərar layihələri hazırlayır və ya təqdim olunmuş yerli ekoloji proqram layihələrinə və qərar layihələrinə dair rəy verir;

- bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.

4) Yerli iqtisadi inkişaf məsələləri daimi komissiyası:

- yerli iqtisadi inkişaf proqramları layihələrini (o cümlədən bələdiyyə mülkiyyətinin (bələdiyyə torpaqları da

daxil olmaqla) səmərəli istifadəsi, bələdiyyələrin təsərrüfat fəaliyyətinin təşkili də daxil olmaqla), arayışlar, qərar layihələrini hazırlayır və ya təqdim olunmuş yerli iqtisadi inkişaf proqramları layihələrinə və qərar layihələrinə dair rəy verir;

- bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.

5) Hüquq məsələləri daimi komissiyası:

- bələdiyyənin qərar layihələrinin Azərbaycan Respublikası Konstitusiyasına və qanunvericiliyinə uyğunluğu haqqında, bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi və ya onlara xitam verilməsi məsələlərinə, yerli rəy sorğusuna çıxarılan məsələlərə dair rəy verir;

- bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlayır.

2. Yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərinin məsuliyyəti, onların fəaliyyətinə nəzarət

Azərbaycan Respublikası Konstitusiyasının 146-cı maddəsində qeyd olunur ki, Bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər, bu isə bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında onların məsuliyyətini istisna etmir.

Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanununda göstərilir: bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri hüquqa zidd hərəkətlərə və hərəkətsizliyə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar.

Yerli özünüidarə orqanları və vəzifəli şəxsləri hər şeydən əvvəl yerli əhali qarşısında məsuliyyət daşıyır. Bu cür norma dövlətimizin ana qanununda nəzərdə tutulmuşdur. Lakin etiraf etmək lazımdır ki, bələdiyyə qanunvericiliyində yuxarıda göstərilən konstitutiv normanın realizə mexanizmi yoxdur və bu norma daha çox deklarativ xarakter daşıyır.

Demokratik xarici ölkələrin təcrübəsində bələdiyyələrin yerli əhali qarşısında məsuliyyətini təmin edən aşağıdakı institutlara rast gəlmək olar:

- Bələdiyyə məclisinə yerli əhali tərəfindən etimadsızlığın göstərilməsi;
- Bələdiyyə üzvünün seçicilər tərəfindən geriyə çağırılması;
- Yerli referendum;
- Bələdiyyənin normativ xarakterli aktına yerli əhali tərəfindən veto qoyulması və s.

Yuxarıda göstərilən institutları Azərbaycan Respublikasının bələdiyyə qanunvericiliyi nəzərdə tutmur. Belə bir fikir yarana bilər ki, bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında Azərbaycan

Respublikasının Qanununda yerli əhali tərəfindən bələdiyyənin ləğv edilməsi nəzərdə tutulmuşdur (maddə 8). Lakin bu normanın interpretasiyası əsasında belə bir nəticəyə gəlmək olar ki, burada bələdiyyələrin buraxılması heç də məsuliyyət qaydasında həyata keçirilmir. Adı çəkilən qanunun 8-ci maddəsində göstərilir ki, müvafiq ərazidə əhali yerli özünüidarənin təşkilindən imtina etdikdə "Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq yerli rəy sorğusu keçirilir. Yerli rəy sorğusu nəticəsində bələdiyyənin ləğv edilməsi barədə müsbət nəticə əldə edildikdə bələdiyyə tərəfindən ləğv edilməsi haqqında qərar qəbul edilir və baxılması üçün Azərbaycan Respublikası Milli Məclisinə təqdim olunur. Azərbaycan Respublikasının Parlamenti bələdiyyənin ləğv edilməsinə dair qərar qəbul edir.

Yuxarıda göstərilən institutlar istisna olmaqla, Bələdiyyə üzvünün statusu haqqında qanuna müvafiq olaraq bələdiyyə üzvü seçicilərlə mütəmadi olaraq əlaqə saxlamalı, görüşlər keçirməli, onların təkliflərinə, müraciətlərinə və şikayətlərinə baxmalıdır.

Bələdiyyə ərazisində yerləşən bələdiyyə müəssisə, idarə və təşkilatları bələdiyyə üzvünü seçicilərlə görüşməsi üçün köməklik göstərməlidirlər.

Bundan başqa, Azərbaycan Respublikasının Konstitusiya qanunvericiliyi ilə bələdiyyələrin səlahiyyətinə aid edilmiş yerli əhəmiyyətli məsələlər üzrə bələdiyyə ərazisində yaşayan vətəndaşların təşəbbüsü ilə yerli rəy sorğusu keçirilə bilər. Yerli rəy sorğusu haqqında qanunun interpretasiyası əsasında belə bir qənaətə gəlmək olar ki, yerli rəy sorğusuna bələdiyyə üzvlərinin, yerli özünüidarə orqanlarının və onların vəzifəli şəxslərinin siyasi məsuliyyətini müəyyən edən məsələlər çıxarıla bilər.

Bələdiyyənin ərazisində yaşayan fiziki və hüquqi şəxslər bələdiyyələrin, bələdiyyə orqanlarının və bələdiyyə

orqanlarının vəzifəli şəxslərinin hərəkət və hərəkətsizliyindən məhkəməyə şikayət verə bilərlər. Bu halda məsuliyyət hər şeydən əvvəl məhkəmə qaydasında yaranır. Bu növ məsuliyyətin əsasını yerli özünüidarə orqanlarının və onların vəzifəli şəxslərinin insan və vətəndaş hüquq və azadlıqlarını pozan, fiziki və hüquqi şəxslərə əmlak və digər zərər vuran hərəkətləri çıxış edir.

Azərbaycan Respublikasının Konstitusiyası hər bir kəsin hüquq və azadlıqlarının məhkəmə müdafiəsinə təminat verir.

Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsində qeyd olunur ki, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir və hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər. Zənnimcə, bu maddənin ikinci hissəsinə "bələdiyyələr" sözünün də əlavə edilməsi zəruri olardı.

Vətəndaşların hüquq və azadlıqlarını pozan bələdiyyə aktlarından məhkəməyə şikayətlərin verilməsi qaydaları "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bu normativ hüquqi aktın müddəalarına görə, vətəndaş onun hüquq və azadlıqlarını pozan qərarlar və hərəkətlər (hərəkətsizlik) barəsində birbaşa məhkəməyə və ya tabelik qaydasında yuxarı dövlət orqanlarına və yerli özünüidarə orqanlarına, müəssisələrə, idarələrə və təşkilatlara, ictimai birliklərə, vəzifəli şəxslərə şikayət edə bilər.

Dövlət orqanlarının və yerli özünüidarə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin qərarlarından və hərəkətlərindən

(hərəkətsizliyindən) vətəndaşların şikayətlərinə məhkəmə tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq baxılır. Qanunvericilikdə başqa müddət nəzərdə tutulmayıbsa tabelik qaydasında yuxarı orqan şikayətə aydan gec olmayan müddətdə baxmalı, nəticəsinə həmin orqanın rəhbərliyi tərəfindən vətəndaşa çatdırılmalıdır.

Hüquq və azadlıqları pozulmuş vətəndaş və ya onun qanuni nümayəndəsi habelə vətəndaşın xahişi ilə ictimai birliyin və ya əmək kollektivinin nümayəndəsi tərəfindən məhkəməyə şikayət verilə bilər. Şikayət vətəndaşın yaşadığı yer üzrə və ya qərarlarından, yaxud hərəkətlərindən (hərəkətsizlirindən) şikayət edilən orqanın və ya vəzifəli şəxsin olduğu yerin məhkəməsinə verilir.

Hərbi qulluqçular hərbi vəzifəli şəxslərin və hərbi idarəetmə orqanlarının onların hüquq və azadlıqlarını pozan qərar və hərəkətləri (hərəkətsizliyi) barəsində bu maddədə nəzərdə tutulmuş qaydada məhkəməyə şikayət edə bilərlər.

Vətəndaş dövlət orqanlarının və yerli özünüidarə orqanlarının, müəssisə, idarə və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin onun hüquq və azadlıqlarını pozan, hüquq və azadlıqalrının həyata keçirilməsinə mane olan qərar və hərəkətlərindən (hərəkətsizliyindən), habelə belə qərarların və hərəkətlərin qəbul edilməsi üçün əsas olmuş rəsmi informasiyadan məhkəməyə şikayət etmək hüququna malikdir.

Vətəndaşın hüquq və azadlıqlarına bilavasitə təsir edən sənəd və materiallarda olan informasiya üçün qanunvericilikdə məhdudiyyətlər nəzərdə tutulmamışdırsa, onun belə sənəd və materiallarla tanış olmaq hüququnu təmin etmək üçün vəzifəli şəxslər həmin sənəd və materialları vətəndaşa təqdim etməyə borcludurlar.

Rəsmi informasiya yazılı və ya şifahi formada olan, vətəndaşların hüquq və azadlıqlarının həyata keçirilməsinə

təsir edən və həmin informasiyanın müəyyənləşdirilmiş müəllifi kimi hərəkətlər edən (qərarlar qəbul edən) dövlət orqanlarının, yerli özünüidarə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin ünvanına təqdim olunan elə məlumatlardır ki, onlar məhkəmə tərəfindən hərəkətlərin edilməsi (qərarların qəbul olunması) üçün əsas sayılır.

Qanunvericilikdə başqa müddət nəzərdə tutulmayıbsa, məhkəməyə şikayətlə müraciət edilməsinin aşağıdakı müddətləri vardır:

- hüquq və azadlıqlarının pozulmasının vətəndaşa məlum olduğu gündən bir ay keçənədək;

- şikayətin təmin edilməməsi barədə yuxarı orqan və ya vəzifəli şəxs tərəfindən yazılı cavabın verildiyi gündən bir ay keçənədək;

- Azərbaycan Respublikasının qanunvericiliyində başqa müddət nəzərdə tutulmamışdırsa, vətəndaş şikayətin verildiyi gündən bir ay müddətində ona cavab almadıqda bu müddətin tamam olduğu gündən bir ay keçənədək;

- inzibati tənbehin verilməsi barədə qərardan həmin qərarın surətinin təqdim edildiyi və ya şəxsə elan edildiyi gündən 10 gün keçənədək.

Şikayətin verilməsi müddəti üzrlü səbəbdən ötürülübsə, həmin müddət məhkəmə tərəfindən bərpa oluna bilər.

Məhkəmə şikayətə baxılmasının nəticələri barədə qətnamə çıxarır.

Məhkəmə şikayətin əsaslı olduğunu müəyyənləşdirdikdə şikayət edilən qərarları və hərəkətləri qanunsuz hesab edir, vətəndaşlar barəsində tətbiq edilən məsuliyyət tədbirlərini ləğv edir, onların pozulmuş hüquq və azadlıqlarını bərpa edir, habelə dövlət orqanlarının və yerli özünüidarə orqanlarının müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin

vətəndaşların hüquq və azadlıqlarını pozan qərarları və hərəkətləri (hərəkətsizliyi) ilə bağlı onların məsuliyyətini müəyyənləşdirir.

Əgər məhkəmə şikayət edilən qərarları və hərəkətləri (hərəkətsizliyi) qanuni hesab edərsə, yəni vətəndaşın hüquq və azadlıqlarının pozulması kimi qiymətləndirməzsə, şikayətin təmin edilməməsi barədə qətnamə çıxarır.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məhkəmənin qərarından yuxarı məhkəməyə şikayət verilə bilər.

Dövlət orqanları və yerli özünüidarə orqanları, müəssisələr, idarələr və təşkilatlar, ictimai birliklər, vəzifəli şəxslər üçün qüvvəyə minmiş məhkəmə qərarının icrası məcburidir.

Məhkəmənin qərarı qüvvəyə mindiyi gündən ən geci üç gün keçənədək qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilən orqanlara və ya vəzifəli şəxslərə, habelə vətəndaşlara göndərilir. Məhkəmə qərarının alındığı gündən ən geci bir ay keçənədək qərarlarından və hərəkətlərindən şikayət edilən orqanlar və ya vəzifəli şəxslər həmin qərarın icrası barədə məhkəməyə və vətəndaşa məlumat verməlidirlər.

Məhkəmənin qərarı icra edilmədiyi halda məhkəmə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müvafiq tədbirlər görür.

Yerli özünüidarə orqanları və onların vəzifəli şəxsləri Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və digər normativ hüquqi aktlarına əməl etməlidirlər. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı yerli özünüidarə orqanları və onların vəzifəli şəxsləri Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət edilməsinə inzibati nəzarəti həyata keçirir.

Bələdiyyə üzvünün statusu haqqında qanuna müvafiq olaraq, bələdiyyə üzvü seçicilərlə mütəmadi olaraq əlaqə saxlamalı, görüşlər keçirməli, onların təkliflərinə, müraciətlərinə və şikayətlərinə baxmalıdır. Bələdiyyə üzvü 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verməlidir. Bələdiyyə ərazisində yerləşən bələdiyyə müəssisə, idarə və təşkilatları bələdiyyə üzvünə seçicilərlə görüşmək üçün köməklik göstərməlidirlər.

Yerli özünüidarənin fəaliyyətinə dövlət nəzarəti

Yerli özünüidarə orqanları və onların vəzifəli şəxsləri Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlına riayət etməlidirlər. Yerli özünüidarənin Azərbaycan Respublikasının qanunvericiliyinə riayət edilməsinə inzibati nəzarəti Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzi həyata keçirir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi (bundan sonra-Mərkəz) Azərbaycan Respublikası Ədliyyə Nazirliyi mərkəzi aparatının baş idarə səlahiyyətli müstəqil struktur qurumudur.

Mərkəz aşağıdakı vəzifələri yerinə yetirir:

- bələdiyyələrin fəaliyyətinin müasir tələblərə və hamılıqla qəbul edilmiş standartlara uyğun təşkil edilməsinə kömək etmək və onlara metodoloji yardım göstərmək;

- bələdiyyələr tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına riayət edilməsinin təmin olunması, bələdiyyələr tərəfindən qanunvericiliyin pozulması hallarının aradan qaldırılması məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirmək;

- bələdiyyələrin fəaliyyətində yol verilmiş qanun pozuntularının səbəb və şəraitinin öyrənilməsi və onların gələcəkdə qarşısının alınması məqsədi ilə müvafiq təhlil və ümumiləşdirmələr aparmaq;

- bələdiyyələrin fəaliyyətində aşkar edilmiş nöqsanların aradan qaldırılması məqsədi ilə tövsiyələr hazırlamaq;

- bələdiyyələrə kömək və onlara metodoloji yardım, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi işində regional ədliyyə şöbələrinə metodik rəhbərlik etmək, bu istiqamətdə işin aparılmasına nəzarət etmək, habelə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə bələdiyyələrə iş üzrə metodik köməklik etmək;

- «Yerli özünüidarə orqanlarının normativ aktları bülleteni»ni və metodik vəsaitlər hazırlamaq;

- bələdiyyə üzvləri və qulluqçuları arasında hüququn ayrı-ayrı sahələrinə dair tədris-maarifçilik tədbirləri keçirməklə onların hüquqi biliklərinin artırılmasına kömək etmək;

- bələdiyyələr haqqında qanunvericilik aktları baş vermiş yenilik barədə bələdiyyələri məlumatlandırmaq və s.

Mərkəz öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

- dövlət və yerli özünüidarə orqanlarına, fiziki və hüquqi şəxslərə, nazirliyin sisteminə daxil olan qurumlara müraciət etmək, onlara sorğular vermək və məlumatlar almaq;

- regional ədliyyə şöbələrində bələdiyyələrə kömək və onlara metodoloji yardım, inzibati nəzarətin həyata keçirilməsi işinin təşkilini öyrənmək və bu sahədə təkliflər vermək;

- daxil olmuş müraciətə baxarkən zəruri hallarda yerində araşdırmalar aparmaq;

- bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirərkən bələdiyyələrin fəaliyyətində qanunçuluq prinsipinə riayət olunmasının təmin edilməsi ilə bağlı ümumiləşdirmələr aparmaq və onları öz təklif və tövsiyələri ilə birlikdə müvafiq bələdiyyələrə təqdim etmək;

- bələdiyyə aktının Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına zidd olması barədə kifayət qədər əsas olduqda aktın

qanunvericiliklə müəyyən olunmuş müddətdə dəyişdirilməsi və ya ləğv edilməsi haqqında müvafiq bələdiyyəyə müraciət etmək və bələdiyyə tərəfindən qanunun tələbinə əməl edilmədikdə məhkəmə qarşısında iddia qaldırmaq;

- hər hansı bələdiyyə aktı və ya bələdiyyənin fəaliyyəti dövlət mənafelərinə və ya ictimai mənafelərə ağır ziyan vurursa, dərhal həmin aktın ləğv edilməsi və ya həmin fəaliyyətə xitam verilməsi haqqında müvafiq bələdiyyəyə təklif vermək və təklif qanunla müəyyən edilmiş müddətdə bələdiyyə tərəfindən yerinə yetirilmədikdə məhkəmə qarşısında iddia qaldırmaq;

- müvafiq qanunvericiliyin tələbləri pozulduqda yerli rəy sorğusunun təyin edilməsi haqqında qərardan məhkəməyə şikayət vermək;

- inzibati nəzarət həyata keçirilərkən aşkar edilmiş qanunsuz fəaliyyətin dayandırılması və vurulmuş ziyanın aradan qaldırılması, dövlət qeydiyyatına alınmamış normativ aktlarının tətbiqi halları aşkar olunduqda həmin aktın tətbiqinin dayandırılması və qeydiyyata alınması barədə bələdiyyələrə müraciət etmək;

- bələdiyyənin fəaliyyətində cinayət əlamətləri aşkar olunduqda müvafiq tədbir görülməsi üçün səlahiyyətli dövlət orqanlarına müraciət etmək və s.

Mərkəzin strukturuna İnzibati nəzarət idarəsi daxildir. Mərkəz bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti bu struktur bölməsi vasitəsilə həyata keçirir.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət-bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar

Respublikası Nazirlər Kabinetinin qərarlarına) riayət edilməsinin təmin olunması, bələdiyyələr tərəfindən qanunvericiliyin pozulması hallarının aradan qaldırılması məqsədi ilə həyata keçirilən fəaliyyətdir.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət yalnız Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə nəzərdə tutulmuş qaydada və hallarda həyata keçirilir. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət yalnız qanunçuluğa əməl olunması baxımından həyata keçirilir. Qanunvericilik və icra hakimiyyətləri tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq bələdiyyələrə verilən əlavə səlahiyyətlərin həyata keçirilməsinə nəzarəti həmin hakimiyyətlər inzibati nəzarəti həyata keçirən orqana həvalə edə bilərlər. İnzibati nəzarət bələdiyyələrin yerli əhəmiyyətli məsələləri qanun çərçivəsində müstəqil və sərbəst surətdə həll etmək hüququnu məhdudlaşdıra bilməz.

Azərbaycan Respublikasının Hesablama Palatası bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın sorğusu əsasında yerli büdcənin maliyyə-büdcə ekspertizasını keçirir, rəy hazırlayır, təkliflər verir və zərurət yarandıqda audit yoxlamasını həyata keçirir.

Hüquqlarına və ya qanuni mənafelərinə bələdiyyə tərəfindən zərər vurulduğunu iddia edən fiziki və ya hüquqi şəxsin, yaxud dövlət orqanının müraciəti ərizəçinin hüquqlarının və ya qanuni mənafelərinin pozulduğu, yaxud ona bu barədə məlum olduğu gündən 6 ay ərzində verilə bilər. İnzibati nəzarəti həyata keçirən orqan müraciətə daxil olduğu tarixdən 15 gün müddətində, əlavə araşdırmalar tələb olunarsa, 30 gün müddətində baxır. İnzibati nəzarət icraatı üzrə əhəmiyyət kəsb edən halların müəyyən olunması üçün bu maddədə nəzərdə tutulmuş müddətdən daha artıq vaxt tələb olunduğu hallarda inzibati nəzarət icraatının müddəti inzibati nəzarəti həyata keçirən orqan tərəfindən 30 gün

müddətinə uzadıla bilər. İnzibati nəzarət icraatının ümumi müddəti 60 gündən çox ola bilməz. İnzibati nəzarəti həyata keçirən orqan tərəfindən müddətin uzadılması barədə ərizəçiyə üç gün ərzində məlumat verilir.

Müddətin uzadılmasına səbəb olan hallar inzibati nəzarəti həyata keçirən orqan tərəfindən əsaslandırılmalıdır.

İnzibati nəzarəti həyata keçirən orqan daxil olmuş müraciətə baxarkən həmin müraciətdə göstərilmiş və mübahisə doğuran bələdiyyə aktının, habelə əlavə sənədlərin və ya məlumatların ona göndərilməsi barədə müvafiq bələdiyyəyə müraciət edə bilər. Bələdiyyə bu sənədləri və ya məlumatları həmin sorğunu aldığı andan 15 gün ərzində inzibati nəzarəti həyata keçirən orqana təqdim etməlidir. İnzibati nəzarəti həyata keçirən orqan ona təqdim olunmuş müraciətə baxarkən zəruri hallarda yerində araşdırmalar apara bilər. Bu cür araşdırmalar aparılmasına bələdiyyələr tərəfindən maneə törədilməməlidir. İnzibati nəzarəti həyata keçirən orqan müraciətin araşdırılması nəticəsində bələdiyyənin fəaliyyətinin qanuna zidd olduğunu aşkar etdikdə, həmin fəaliyyətin 15 gün müddətində dayandırılması və vurulmuş ziyanın aradan qaldırılması barədə müvafiq bələdiyyəyə müraciət edir. Bu orqan bələdiyyə aktının bu Qanunun 1-ci maddəsində göstərilmiş normativ hüquqi aktlara zidd olduğunu aşkar etdikdə, həmin aktın 15 gün ərzində dəyişdirilməsi və ya ləğv edilməsi barədə müvafiq bələdiyyəyə müraciət edir. İnzibati nəzarəti həyata keçirən orqanın müraciəti bu Qanunun 8.3 və 8.4-cü maddələrində müəyyən olunmuş müddət ərzində müvafiq bələdiyyə tərəfindən yerinə yetirilmədikdə, o, 15 gün ərzində məhkəməyə müraciət edir. Məhkəməyə müraciət edilməsi barədə müvafiq bələdiyyəyə dərhal məlumat verilməlidir. Hər hansı bələdiyyə aktı və ya bələdiyyənin fəaliyyəti dövlət mənafelərinə və ya ictimai mənafelərə ağır ziyan vura bilərsə, inzibati nəzarəti həyata

keçirən orqan müvafiq bələdiyyəyə dərhal həmin aktın ləğv edilməsini və ya həmin fəaliyyətə xitam verilməsini təklif edir. Bu təklif 3 gün müddətində yerinə yetirilmədikdə, inzibati nəzarəti həyata keçirən orqan dərhal məhkəməyə müraciət edir və həmin iddianın təmin edilməsi ilə bağlı qanunvericilikdə müəyyən edilmiş qaydada müvafiq qərar çıxarılmasını məhkəmədən xahiş edir. Bələdiyyənin fəaliyyətində cinayət aşkar etdikdə, inzibati nəzarəti həyata keçirən orqan müvafiq tədbirlər görülməsi üçün səlahiyyətli dövlət orqanına müraciət edə bilər.

İnzibati nəzarəti həyata keçirən orqan hər ilin sonunda öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının Milli Məclisinə illik məruzə təqdim edir. Bu məruzədə inzibati nəzarəti həyata keçirən orqan bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi ilə bağlı təkliflər verə bilər.

İstifadə edilmiş ədəbiyyat
Azərbaycan dilində:

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı.2016
2. Azərbaycan Respublikasının Seçki Məcəlləsi (www. e-qanun)

3. Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi.
4. Azərbaycan Respublikası Milli Məclisi deputatının hüquqi statusu haqqında Qanun (www. e-qanun)
5. Azərbaycan Respublikası Milli Məclisinin daimi komitələri haqqında Qanun (www. e-qanun)
6. Azərbaycan Respublikası Milli Məclisinin Hesablama Palatası haqqında Qanun (www. e-qanun)
7. Sərbəst toplaşmaq azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu (www. e-qanun)
8. Siyasi partiyalar haqqında Azərbaycan Respublikasının Qanunu (www. e-qanun)
9. Qeyri Hökumət Təşkilatları haqqında Azərbaycan Respublikasının Qanunu (www. e-qanun)
10. Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında Azərbaycan Respublikasının Qanunu (www. e-qanun)
11. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının Qanunu (www. e-qanun)
12. Konstitusiya məhkəməsi haqqında Azərbaycan Respublikasının Qanunu (www. e-qanun)
13. Məhkəmə-Hüquq Şurası haqqında Azərbaycan Respublikasının Qanunu (www. e-qanun)

14. Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanunu (www. e-qanun)
15. Bələdiyyələr haqqında sənədlər toplusu. Bak, Qanun-2008. 676 səh (www. e-qanun)
16. "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün milli Fəaliyyət Planı"nın təsdiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (www. e-qanun)
17. Azərbaycan Respublikasının İnsan hüquqları (Ombudsman) üzrə Müvəkkili haqqında Konstitusiya Qanunu (www. e-qanun)
18. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasinin Konstitusiya qanunu (www. e-qanun)
19. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı. B.1991
20. "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamənin" təsdiq edilməsi barədə 27 iyul 2011-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
21. Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "elektron hökumət" portalında yerləşdirilməsi Qaydalarının təsdiq

edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 iyun 2012-ci il tarixli Qərarı.

22. "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün milli Fəaliyyət Planı"nın təsdiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
23. "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
24. "Elektron Hökumət" portalı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2013-cü il tarixli Fərmanı.
25. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci; 2009-2013-cü; 2014-2018-ci; 2019-2023-cü illər) təsdiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanları.
26. "Azərbaycan Prezidenti yanında vətəndaşlara xidmət və sosial innovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması haqqında" Azərbaycan

Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli Fərmanı.

27. “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”, “Elektron xidmət növlərinin siyahısının” təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Kabinetinin 24 noyabr 2011-ci il tarixli Qərarı.
28. Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Z 1988-ci il Fərmanı.
29. “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı”nın təsdiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2006-cı; 27 dekabr 2011-ci il tarixli Fərmanları.
30. “Dirçəliş-XXI əsr”, 2008. №124-125, 191 səh.
31. “Azərbaycan Respublikasının Milli təhlükəsizlik konsepsiyasının” təsdiqi barədə Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli Sərəncamı.
32. “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamı.

33. “məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi” haqqında Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanı.
34. “Azərbaycan Ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramının” təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
35. Azərbaycan Respublikasının 1921-ci il Konstitusiyası. www.preslib.az
36. Azərbaycan Respublikasının 1937-ci il Konstitusiyası. www.preslib.az
37. Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyası. B.1980
38. Əsgərov Z.A.Konstitusiya hüququ. Dərs vəsaiti. Bakı: Bakı Universiteti nəşriyyatı 2002, 632 səh.
39. Abduləli Abdullayev. İnzibati hüquq (III his.). Dövlət orqanlarında idarəetmə. Dərs vəsaiti. Bakı, Qanun, 2006, 592 səh.
40. Fərhad Abdullayev. Azərbaycan Respublikasında konstitusiya icraatının nəzəri və praktiki problemləri. Hüquq elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. B.2010, 337.səh.

41. Çirkin V.Y.Xarici ölkələrin konstitusiya hüququ (ruscadan tərcümə).Bakı: Digesta, 2000, 350 səh.
42. Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı: Hüquq ədəbiyyatı, 2004, 451 səh.
43. Fəlsəfə ensiklopedik lüğəti. Müəllif kollektivi. "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi. B.1997, 520 səh.
44. Azərbaycan dilinin izahlı lüğəti, II cild. Bakı: Çıraq, 1999, 412 səh.
45. Xarici ölkələrin konstitusiya hüququ 4 cilddə. I-II cildlər. Ümumi hissə: Dərslik II məsul redaktor prof. V.A.Straşun (ruscadan tərcümə). Bakı, Qanun, 2007, 728 səh.
46. Qauliyev A.İ. Hüquq ensiklopediyası. Bakı:Qanun, 2007,1108 səh.
47. Lazanev V.V. ümumi hüquq və dövlət nəzəriyyəsi. Bakı: Qanun, 2006, 491 səh.
48. Fəxrəddin Nağıyev. Konstitusiya hüququ. Muhazirə mətnləri. Bakı: Qanun, 2014, 240 səh.
49. Qafarov M.S., Abışov V.G., Eyvazov H.Q. Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları. Dərslik. Bakı, "Qanun" nəşriyyatı. 2006, 600 səh.

50. Xarici dövlətlərin konstitusiyası. Qanun N2-3. B.1994, səh.268
51. L.H.Hüseynov. Beynəlxalq hüquq. Dərslik. Bakı: Qanun nəşriyyatı, 2012, 368 səh.
52. Politologiya: Ensiklopedik lüğəti: AMEA Fəlsəfə və siyasi-hüquqi tədqiqatlar institutu. B.2008, 394 səh.
53. Azərbaycan dilinin izahlı lüğəti: AMEA Nəsimi adına Dilçilik İnstitutu. III cild. B.2006, 368 səh.
54. Azərbaycan dilinin izahlı lüğəti: Dörd cilddə, III cild. Bakı, "Şərq-Qərb". B.2006, 792 səh.
55. Yusif Rüstəmov. Fəlsəfənin əsasları (mühafizə kursu), "Nurlar". B.2007, 504 səh.
56. M.Fərhadoğlu. Fəlsəfənin əsasları, dərslik, "Nurlan", B.2006, 398 səh.
57. X.İsmayılov. Azərbaycan dövlət və hüquq tarixi. "Nurlan" nəşriyyatı B.2006.
58. Rahib Əkbərov, Sadiq Səlimov. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı. "Qanun" B.2003
59. Yusif Rüstəmov. Siyasi-hüquqi təlimlər tarixi. "Azərbaycan Universiteti" nəşriyyatı. B.2000
60. Hüquq ensiklopedik lüğəti: Azərbaycan Ensiklopediyasının B. Redaksiyası, B.1991, 5449 səh.

61. İnsan hüquqları-Beynəlxalq müqavilələr toplusu. B, “Azərbaycan” nəşriyyatı, 1998.
62. M.Səlimzadə. “Yerli özünüidarəetmə hakimiyyətinin əsasları: nəzəri və praktiki məsələlər”. Bakı-2010.
63. Səlimzadə M.İ., Sadıqov Ə.İ., Xəlilov Q.R. Bələdiyyə hüququ (dərs vəsaiti). “Elm və təhsil”, Bakı-2011. 144 səh.
64. Quliyev İ.O Yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin nəzəri və hüquqi əsasları. Bakı, 2006, 275 səh.
65. Azadov E. Bələdiyyələr yerli idarəetmənin təşkilati formasıdır. B. 1998.
66. X.İsmayılov: Azərbaycanda yerli özünüidarənin təşkilinin beynəlxalq hüquqi, konstitusion hüquqi və qanunvericilik əsasları: uzlaşmalar və ziddiyyətlər. BDU Xəbərləri, B. 2014.
67. Nəsrəddin Tusi. Əxlaqi-Nasiri. İkinci nəşr. Bakı. “Elm” Nəşriyyatı. 1989.
68. Hüseynov L. İnsan hüquqları sahəsində beynəlxalq müqavilələrin Azərbaycan Respublikasında implementasiyası məsələləri. İnsan hüquqları. Bülleten. Bakı, 1998, № 1, səh. 32-27.

69. H.İ.Şirəliyev, Ə.C.Əhmədov “Politologiya”. Dərslik. “Təbib”, 1997.Səh. 86,87.
70. Qanunçuluq, №1-2, O.B.1996.
71. Şahin Əliyev Prezidentlik institutu Bakı 1993
72. Fridrix Hayek “Hüquq, qanunvericilik və azadlıq”. III cild (Azad insanların siyasi qaydaları). B., 2002-ci il.
73. V.N.Xropanyuk «Dövlət və hüquq nəzəriyyəsi». Bakı, 1995-ci il.
74. M.Məlikova «Dövlət və hüquq nəzəriyyəsi». Bakı, 1988-ci il.
75. F.Əhmədov «Sovet hüququnun əsasları». Bakı, 1978-ci il.
76. B.Qubadoğlu «Politologiya». B., 1999-cu il.
77. Adnan Güriz «Hukuk başlanğıcı». Ankara, 2003-cü il.
78. Orhan Seçkin «Devlet güvenliyi ve haberalma». Ankara, 2001-ci il.
79. Mehmet Fikret Gezgin «Hukuk başlanğıcı». Ankara, 2002-ci il.
80. Məlikova M., Nəbiyev E. «Xarici ölkələrin dövlət və hüquq tarixi». B., 1997.
81. Nikkolo Makiavelli. Hökmdar, Bakı., “Qızıl Şərq” 2008. səh.159

82. Hayreddin Karaman. Mukayeseli İslam hukuku. İstanbul, 2001.
83. Məcid Əfəndiyev: “Siyasi elmin əsasları”. B.2003.
84. Doç. Dr. Abdulaziz Bayandır. «Din ve devlet ilişkileri. Teokrasi ve Laiklik». İstanbul, 1999.
85. Prof. Dr. Muhammed Hamidullah. «İslam Anayasa Hukuku». Tərcümə Prof. Vecdi Akyüz. İstanbul, 2005.
86. Seyyid Ebu'l-A'la El-Mevdudi. «İslamda siyasi sistem». Tərcümə Ahmet Seçkin. 1997
87. V.Abışov, A.İsmayılov, R.Nəcəfquliyev “İnzibati hüquq” dərs vəsaiti ümumi hissə. B.2017.

Rus və digər dillərdə :

88. Конституционное право: Учебник/Отв. ред. В.В.Лазарев.-М.: Юрист, 1999.-592с.
89. Козлова Е.У., Кутафин О.Е. Конституционное право Российской Федерации: Учебник, М. : Юрист, 1995.-480с.
90. Конституционное (государственное) право зарубежных стран. Учебник. И 4-ч тома 1-2. Отв.ред.Б.А.Страшун. М.: Издательство БЕК, 1995.-778с

91. Новые Конституции стран СНГ и Балтии. Сборник документов. Вып.2.-М.: Манускрипт, Юрайт, 1998.-672с.
92. Баглай М.В. Конституционное право Российской Федерации: Учебник для вузов.-5-е изд., изм. и доп.- М.: Норма, 2005.-784 с.
93. Мишии А.А. Конституционное (государственное) право зарубежных стран. Учебник. –М.: Белые а львы, 1996.-400с.
94. Конституции зарубежных государств. Учеб.пособие.-7-е изд.перераб.и доп.- М.:Волтерс Клувер, 2010.-656с.
95. Теория государства и право: Учебник/ Под ред. Проф. В.К.Бабаева.-М.: Юрист.2006.637с
96. Теория государства и право: Учебник/ Под ред. Проф. В.М.Корельского и проф. В.Д.Перевалова.-2-е изд., изм.и доп. –М.: Издателство «НОРМА», 2002,-616с.
97. Теория государства и право: Курс лекции/ Под ред. И.У.Матузова и А.В.Малько.-2-е изд, перевод.и доп. М.: Юрист, 2011,-776с.
98. Международное право в документах: Учеб. пособие/Сост. И.Т.Блатова, Г.М.Меликов. М.2000.- 824с.

99.Международное право. Учебник/ до пред. И.Т.Блатовой. М.:Юрид. Лит., 1987.-544с.
100.Обшая теория права и государства: Учебник. Под ред. В.В.Лазарева. М.: Юрист, 2005.
101.Закон Республики Белорус «О порядке реализации права законодательной инициативы гражданин Республики Беларусь». Б.2003.
102.Курепения Е.М., Смолина И.Г. Правовая культура избирательного процесса. М.: Университетская книга, 2012.
103.Пугачев В.П., Соловьев А.И. Введение в политологию: Учеб. Пособие для студентов выст.учеб заводений М.1995.
104.Большая Советская Энциклопедия, 45т., Ь., 1956 г.-640с.
105.Государственное управление: основы теории и организации. Учебник. Т.1/Под ред. В.А. Козбаненно. Изд.2-е, с изм. и доп.-М.: «Статут», 2002.
106.Фербер И.Е., Ржевский В.А. Вопросы теории советского конституционного права. Выпуск первый. Саратов. 1967.
107.Дюги Л. Конституционное право. Общая теория государства.-М., 1998.- 420с.

108.Еллинек Г. Общее учение о государстве. СПБ. 1908, -363с.

109.В.В.Маклаков. Конституции зарубежных государств. Москва. Волтере Клувер 2010. 656 с.

110. Гулиев В.Е., Рудинский Ф.М, Демократия и достоинства Личности. – М.: Наука, 1983.

111. Колюшин Е.И.Конституционное (государственное) право России, курс лекций. М.: Издательство МГУ, 1999.

112. Кабышев В.Т. Народовластия развитого социализма: Конституционные вопросы. Изд-во Саратовского университета, Саратов, 1979.

113. Советское государственное право:. Учебник – 2 – е. изд., испр. и доп. –М.:Юрид. лит. 1985.

114. Конституция Российской Федерации. Проблемный комментарий. Рук. авт. кол. и отв .ред. В.А. Четвернин - М., 1987, с. 77-78.

115. В.Н.Суворов: Основы государства и права М. 2004.

116. Дюги Л.Конституционное право. Общая теория государства. – М., 1998. С 42.

117. Еллинек Г. Общее учение о государстве. СПб. 1908, С.363

118. История политических и правовых учений: Учебник для вузов. – М.: Норма, 2004. С.187, 383.
119. Основы государства и права: под ред.О.Е.Кутафина. М.2004, с.186
120. Руденко В.Н.Методология исследования институтов прямой демократии в современном обществе. Правоведение, 2003.№4.с.51
121. Нуденко Л.А. Непосредственное демократия в системе местного самоуправления-институт конституционного права России. Вестник Московского университета. Серия 11, Право.2001.№1.с.22.
122. Комарова В.В.Высшее непосредственное выражение власти народа в Российской Федерации: проблемы теории и практики. Дис. …д-ра юрид. Наук.М.,2007.с.123.
123. Носкова Г.Н. Конституционно-правовые гарантии народовластия в современной России. Дис. … канд-та юрид. наук. Саратов 2007
124. Байтин М.И. Понятие механизма современного Российского государства // Правоведение, 1996. №3, С.7; Теория государства и права: Курс лекций /Под. ред.

Н.И.Матузова и А.В.Малько. М., 2000 С.100.; Теория государства и права: Курс лекций// Под. ред. В.Ш.Корельского и В.Д.Перевалова. М., 1997. С. 154

125. В.П.Пугачев. А.И.Соловьев. Введение в политологию. М. 1996.
126. Безуглов А.А. Теоретические проблемы правового статуса советского депутата: автореферат диссертации доктора юридических наук. М. 1971 (с.7);
127. Зиновьев А.В. Статус народного депутата в СССР. Л.1987;
128. Матвеев О.М, Правовое положение депутата в парламентских странах Западной Европы: автореферат диссертации кандидата юридических наук. Е. 2001 (с.7);
129. Конституции зарубежных стран. М.2016;
130. Е.В.Агибалов. Парламентское право. М 2007.
131. Кутафин О.Е, Фадеев В.И. Муниципальное право Российской Федерации: Учебник- М.: Юристъ, 2000-552 стр.
132. Баранчиков В.А. Муниципальное право. Учебник. Москва 2000

133. Харлоф. Э.М “Местные органы власти в Европе” М, 1992.
134. Вороненко А.В “Местное управление и самоуправление в крупных городах зарубежных стран” Учебное пособие. М.1990.
135. Краснов М.А. Введение в муниципальное право. М., “Юрист”. 1993. 174 стр.
136.В.П.Пугачёв, А.И.Соловьев. Введение в политологию. М. 1996.
137. Государственное управление: основы теории и организации. Учебник. Т. 1/Под ред. В.А. Козбаненко. Изд. 2-е, с изм. И доп. – М.: «Статут», 2002.
138. Байтин. М.И. Государство и политическая власть. Саратов.1972. с 112
139. Теория государства и права: Учебник/Под ред. В.К.Бабаева – 2-е изд., перераб. И доп.- М.: Юрист, 200 в. Стр.56
140. Л.А.Морозова. Основы государства и права. Учебник М.,2000 г., стр.84-85.
141. Комарова В.В., Магомедов Ш.Б. Глава государство, региона РФ. М, 1999, с.79
142. Webster’s New Universal Unabridged Dictionary. New Yersey. 1988. P.17

143. Dictionary of Sociology and Related Sciences. Totowa. New Yersey, 1988. P.304
144. Байтин М.И. государство и политическая власть. Саратов, 1972.
145. Хропанюк В.Н. Теория государства и права: Учебное пособие. Под ред. Стрекозова В.Г. М.: Интерестиль. 2003
146. Разделение властей: Учебное пособие. Отв. ред. проф. М.Н.Марченко-М.: Изд-во МГУ. 2004
147. Общая теория права и государства: Учебное пособие. Под ред. В.В Лазарева М.1996. С.318.; Общая теория государства и права Под ред. С.М.Котарова. М., 1997. С.70; Теория государства и права М.Н.Марченко. М.1998. С. 111.
148. Тихомиров Ю.А. Власть и управление в социалистическом обществе. Юридическая литература, 1968.
149. Коток В.Ф. Референдум в системе социалистической демократии. М.1964.
150. Конституционное (государственное) право зарубежных стран. М., Т-2, 1995; (Т-2, С.79)
151. Атаманчук Г.В. Теория государственного управления. Курс лекций. М.2004.

152. Robert A.Dahl. On Democracy. London 1998.
153. Агибалов Ю.В. парламентское право учебно-методическое пособие. Воронеж 2011.
154. Разделение властей: Учеб пособие Отв. ред. Проф. М.Морченко. М.2004.
155. Белов С.А. Избирательная система как правовой институт. Санкт-Петербург, 2005.
156. Кутафин О.Е., Фадеев В.И. Муниципальное право Российской Федерации: Учебник. М.1997.
157. Левин И.Д. Суверенитет. Санкт-Петербург, 2003.
158. Государственное управление: основы теории и организации. Учебник. Под ред. В.А Козбаненко. М.2002.
159. Аврутин Ю.Е. Государство и право. Теория и практика: учеб. Пособие. М.2009.
160. Марченко М.Н. Референдум как форма непосредственной демократии. Вестник Московского Университета. Серия Право, 1996, № 6
161. Советское строительство. М.1937, № 1
162. Конституционное право заработных стран. М., Т.2, 1995; Т.3. 1998

163. Сафаров Р.А. Институт референдума в условиях общенародного государства. Советское государство и право. 1963, № 6
164. Гавриленков И.Н. О развитии социалистической государственности в коммунистическое общественное самоуправление. М., 1961
165. Лучин В.А. Референдум в механизме социалистического самоуправлении народа. НГПАН, М.1986
166. Шайо А. Самоограничение власти. М., Юрист, 1999.
167.Doç. Dr. Abdulaziz Bayandır. «Din ve devlet ilişkileri. Teokrasi ve Laiklik». İstanbul, 1999.

168. Prof. Dr. Muhammed Hamidullah. «İslam Anayasa Hukuku». Tərcümə Prof. Vecdi Akyüz. İstanbul, 2005.

169. Seyyid Ebu'l-A'la El-Mevdudi. «İslamda siyasi sistem». Tərcümə Ahmet Seçkin. 1997

170. Prof. Dr. M.Akif Aydın «Türk hukuk tarihi» İstanbul, 2001.

171. Prof. Dr. Hayreddin Karaman «Mukayeseli islam Hukuku» I, İstanbul, 2001.
172. Servet Armağan «İslam Hukukunda Temel Hak ve Hürriyetler». Ankara, 1987.

173. Orhan Aldıkaçtı, *Anayasa Hukukumuzun Gelişmesi ve 1961 Anayasası,* İstanbul, İÜHF Yayınları, 1982, s.7-76;
174. Bülent Tanör, *Osmanlı-Türk Anayasal Gelişmeleri: 1789-1980,* İstanbul, Der Yayınları, İkinci Baskı, 1995, s.15-180;
175. Recai Galip Okandan, *Amme Hukukumuzun Anahatları,* İstanbul, İÜHF Yayınları, 1968;
176. Yavuz Abadan ve Bahri Savcı, *Türkiye'de Anayasa Gelişmelerine Bir Bakış,* Ankara, AÜSBF Yayınları, 1959;
177. Kemal Gözler, *Türk Anayasa Hukuku,* Bursa, Ekin Kitabevi Yayınları, 2000, s.3-44;
178. Ali Fuat Başgil, *Esas Teşkilat Hukuku: Türkiye Siyasî Rejimi ve Anayasa*

Prensipleri (Cilt I, Fasikül I), İstanbul, Baha Matbaası, 1960, s.65-106;
179. Mustafa Erdoğan, *Türkiye'de Anayasalar ve Siyaset,* Ankara, Liberte Yayınları, Üçüncü Baskı, 2001, s.3-31;
180. Christian Rumpf, *Türk Anayasa Hukukuna Giriş,* Ankara, 1995, s.7-21;
181. Tarık Zafer Tunaya, *Siyasî Müesseseler ve Anayasa Hukuku*, İstanbul, İÜHF Yayınları, 1975, s.233-260;
182. Kemal H. Karpat, *Türk Demokrasi Tarihi,* İstanbul, Afa Yayınları, İkinci Baskı, 1996, s.29-49;
183. Bernard Lewis, *Modern Türkiye'nin Doğuşu,* Çeviren Metin Kıratlı, Ankara, Türk Tarih Kurumu Yayınları, 1984.
184. Ahmad, Feroz ve Bedia Turgay Ahmad, Türkiye'de Çok Partili Politikanın Açıklamalı Kronolojisi (1945-1971), Bilgi Yayınevi, Ankara, 1976.
185. Aldıkaçtı, Orhan Anayasa Hukukumuzun Gelişmesi ve 1961 Anayasası, Istanbul Üniversitesi Yayınlarından No: 1588, Fakülteler Matbaası, Istanbul, 1970.
186. Arsel, Ilhan Türk Anayasa Hukuku, Ankara Üniversitesi Hukuk Fakültesi, Mars Matbaası, Ankara, 1959.

187. Atar, Yavuz Türk Anayasa Hukuku, Mimoza Yayınları, Konya, 2002.
188. Çavdar, Tevfik Türkiye'nin Demokrasi Tarihi, Cilt-I, (1839-1950), Imge Kitapevi,Ankara, 1995.
189. Erdoğan, Mustafa Anayasal Demokrasi, Siyasal Kitabevi, Ankara, 1997.
190. Erdoğan, Mustafa Anayasa Hukukuna Giriş, Adres Yayınları, Ankara, 2004.
191. Eroğul, Cem Anayasayı Depiştirme Sorunu, AÜ, SBF Yayınları, Sevinç Matbaası,Ankara, 1974.
192. Özbudun, Ergun Demokrasiye Geçiş Sürecinde Anayasa Yapımı, Bilgi Yayınevi, Ankara, 1993.
193. Tanilli, Server Anayasalar ve Siyasal Belgeler, Cem Yayınevi, Istanbul, 1976.
194. Tanilli, Server Devlet ve Demokrasi, Ist. Ün. Yay. No:2858, Istanbul, 1981.
195. Tanör, Bülent Iki Anayasa, 1961 ve 1982, Beta Basım Yayım, Istanbul, 1986.
196. Tanör, Bülent Osmanlı-Türk Anayasal Gelişmeleri, (1789-1980), Afa Yayınları, Istanbul, 1996.
197. AFYONCU, Erhan ; Osmanlı Devlet Teşkilatında Defterhane-i Amire (XVIXVIII. Yüzyıllar), YDT, İstanbul 1997

198. AHISKALI Recep; XVI. ve XVII. Yüzyıllarda Reisülküttaplık Müessesesi, YYLT, İstanbul 1992
199. AKGÜNDÜZ Ahmet; Osmanlı Kanunnameleri ve Hukuki Tahlilleri, Fey yay., Istanbul 1990
200. ATEŞ, Toktamış, **Osmanlı Toplumunun Siyasal Yapısı**, Ümit yay., Ankara 1994
201. BAYSAL Cahide ; XVI.Yüzyılda Osmanlı Devlet Yönetiminde Veziriazmlar ve Siyasi Etkileri, YYLT, Ankara 1994
202. DURSUN Davut ;**Osmanlı Devleti`nde Siyaset ve Din**, İşaret yay., 1992
203. KÖPRÜLÜ, M.Fuad ; Bizans Müesseselerinin Osmanlı Müesseselerine Tesiri, Ötüken yay., Istanbul 1981
204. TANERI Aydın; Osmanlı Imparatorlupu`nun Kuruluş Döneminde Vezir-I Azamlık (1299-1453), Akademi Kitabevi, Izmir 1997
205. TOPÇU, Emel ; OsmanlıImparatorlupunda Fatih Dönemi Kamu Yönetimi, Ocak yay,Ankara 1993
206. TURAN, Şerafettin ; Kanuni Süleyman Dönemi Taht Kavgaları, Bilgi yayınevi, Istanbul 1997

207. UZUNÇARŞILI, I.Hakkı; Anadolu Beylikleri ve Akkoyunlu Karakoyunlu Devletleri, TTK, Ankara 1988